ŞƏHADƏT AŞİQLƏRİ

Azərbaycanlı könüllülərdən ibarət Aşura diviziyasının kəşfiyyatçısı Mehdiqulu Rzayinin xatirələri

Qələmə alan: Məsumə Sepehri



Kitabın adı:.....Şəhadət aşiqləri
Qələmə alan:.....Məsumə Sepehri
Tərcümə edən:.....Zəhra Hüseynzadə
Çap tarixi:.....2018
Çap növbəsi:.....Birinci
Tiraj:.....1000

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 10-143-000318-11

Mündəricat

Yolçu 4
Fəthülmübin 12
Müslim ibn Əqil əməliyyatı 23
Kəşfiyyat bölüyü 37
İlk kəşfiyyat 46
Qanlı qumlar 53
Kərbəla şəhidləri bölüyü 64
Zeyd bölgəsi 72
Hur 86
Bədr Kərbəlası 103
İmam Hüseyn (ə) batalyonu 127
Mənəviyyat taqımı 143
Dalğıclar 152
Ərvəndin quşları 169
Duz zavodunda döyüş 183
Aldadıcı bölgə 205
Şəhadət əməliyyatı 218
Beşinci Kərbəla 250
Yara döyüşü 266
Nəsr-7 281
Mavut 293
Dağ Beytülmüqəddəsi 311
Çəkmeyi 337
Geri çəkilmək 356
Mirsad 379
Hicrət 390
Ruhani aləm 395

Yolçu

I

“Necə oldu ki, mənimlə həmyaşıd olan Kərim və Dostəli cəbhəyə gedə bildilər, mənsə qəbul olmadım?! Nə üçün bu yay bitmək bilmir?!”

Həmin gecə həyatımın ən isti gecələrindən biri idi. Yox, hava isti deyildi, təsadüfən, səmada bir neçə bulud parçası da var idi, lakin yatağımda çevrilir, nə edəcəyimi bilmirdim. Məni Bəsicin[1] qərargahından əliboş qaytardıqlarına inana bilmirdim. Yəni yenə küçə, məktəb və məscidlə kifayətlənməliyəm, işim yalnız gecələr küçələrdə keşik çəkməkdən və «işıqları söndürün» deməkdən ibarət olacaq?! Gecəni səhərə qədər yata bilmədim, kimsəyə də demədim ki, mən sinif imtahanı kimi Bəsicin imtahanından da kəsildim.

***

– Qalxın yuxarı, vəsiyyətnamənizi yazın...

Özümü zorla saxlayıb hisslərimi büruzə vermədim. Həmin qərarsız gecədən iki gün sonra doğum tarixini dəyişdirdiyim kimliyimin surətini apardım. Bir gecənin içində böyümək necə gözəl imiş! Bəsicin işçisi gözlərindən «sən deyəsən, bir neçə gün qabaq da gəlmişdin və...» deyirmiş kimi görünsə də, heç nə deməyib adımı yazdı, sənədlərimi aldı və ilk dəfə olaraq, mənə də vəsiyyətnamə yazmaq tapşırıldı. Qırmızı qələmimi ovcumda sıxdım. Qanla vəsiyyət əlaməti olaraq, qırmızı rəngdə yazmaq istəyirdim, amma yazacağım kağızın ağlığı qarşısında özümü itirdim. Ömrümdə ilk dəfə ölüm haqda ciddi düşünürdüm. O vaxta qədər oxuduğum şəhid vəsiyyətnamələrini xatırladım. «Bismillahir-Rəhmanir-Rəhim» yazdım və davamı yaxşı gəldi.

Qırmızı vəsiyyətnaməmi imzalayıb təhvil verdim. Onlar da qarşılığında mənə bir dəst bozumtul-yaşıl Bəsic forması verdilər və cəbhəyə ezam tariximi söylədilər. Başqa bir iş qalmamışdı. Öncədən Şərbətzadə məscidində keçdiyimiz sadə hərbi dərslərə əsasən, təlim keçdiyimi bildirdim və qəbul etdilər. Tez bayıra çıxdım.

Məhəlləmizə çatanda birbaş məscidə getdim. Məscidimizin Müqavimət mərkəzi şəhər məscidlərində qurulmuş altıncı mərkəz idi. Əvvəllər məsciddən və məhəlləmizdən şəhid verməyimizə görə adı Şərbətzadə məscidinin 6 saylı Müqavimət mərkəzi kimi qalmışdı. Müharibə başlayandan sonra günümüz orada keçirdi.

Axşam düşəndə qədim məhəlləmizin küçələrində keşik çəkir və düşmənin hava hücumlarını xatırladıb qışqırırdıq: «Söndür! Söndür!»

Müqavimət mərkəzimizin uşaqları hərbi formamı görüb məsələni başa düşdülər. Elə kimliyimdə doğum tarixini dəyişdirməyi də onlar öyrətmişdilər.

---

[1] Bəsic – hazırlıq, səfərbərlik deməkdir. İİR-da xalq könüllülərindən ibarət təşkilat belə adlanır.

Paltarları məscidə qoydum. Çalışırdım ki, cəbhəyə gedənə qədər evdə heç kim bundan xəbər tutmasın.

1981-ci ilin yayının son günlərindən biri mənim cəbhəyə ezam günüm idi. Əvvəlcə məscidə getdim. Uşaqlardan bir neçəsi də həmin qrupla cəbhəyə gedəcəkdi. Bəzi dostlarımla sağollaşanda deyirdim: «Eybi yox, uşaqlar, inşallah, sizin işiniz də düzələr. Növbəti görüşümüz qalsın ön xəttə!»

– Hara?! Çıx bayıra görək...

Qardaşım Həsənin güclü qolu məni minik sırasından çıxardı. Cəbhənin bütün həvəs və həyəcanı bir anda yox oldu. Sakit və məəttəl halda qardaşımın ezam bölməsinin sədri ilə mübahisəsinə baxırdım: «Bu, uşaqdır, böyüklərinin icazəsi olmadan onu haraya göndərirsiniz?!»

Xəcalətimdən ölür, dayanmadan ürəyimdə deyirdim: «Heyf əynimdəki paltardan!» Qardaşım qolumdan tutub arxasınca dartanda isə ağlamağa başladım. Bütün yolboyu ayaqlarım yerlə süründü, həyətə girəndən sonra qapı arxamca bağlandı və yerdə oturub o ki var ağladım.

***

Bir neçə gün küsdükdən sonra böyüklərin nəsihətlərinə qulaq asmağa çalışdım. Məktəblər açıldı və mən yenidən doqquzuncu sinfin sırasında dayandım. Düşünürdüm ki, bu sıra hara, məni çıxardıqları sıra hara?!

Sonralar uşaqlardan eşitdim ki, Məhəmməd Zarezadə mənimlə sağollaşandan sonra qardaşımı küçədə görüb deyibmiş: «Təbrik edirəm, Mehdi də cəbhəyə gedir».

– Mehdi?! Hansı Mehdi?..

Yaxşı ruhiyyələri məni ələ vermiş uşaqlardan bir müddət küsdüm, amma daha iş-işdən keçmişdi. Hər gün evlə məktəb yolunda divarlara vurulan çoxlu şəhid elanları önündə dayanıb düşünürdüm. Vəsiyyətnaməm yadıma düşəndə isə məni gülmək tuturdu. Dostlarıma tövsiyə etmişdim ki, cəbhəyə gəlib şəhidlərin yolunu davam etdirsinlər; halbuki özüm onlardan betər ilişib qalmışdım.

***

"Səkkizinci imam" əməliyyatı baş tutmuş və Abadanın mühasirəsi yarılmışdı. Uşaqlar məzuniyyətə gəlmişdilər. Onları dinləyəndə ürəyim çatlayırdı. Yenə dözə bilmədim və öncəki kələklə Daneşsəra prospektindəki Bəsic qərargahına yollandım. Hər şey yaxşı alındı, lakin əlimə bir kağız verib dedilər: «Bu icazənaməni atanız imzalamalıdır". Fikirləşdim ki, israr etsəm, evdən gizli gəldiyimi biləcəklər. Narahat halda evə dönüb atamın razılığını almaq qərarına gəldim. Axşamüstü atamı tək yaxaladım, qarşısında dizi üstə oturub dedim: «İslamı müdafiə etmək vacibdir. Sən bunları məndən yaxşı bilirsən. İndi İslam təhlükədədir və hamımız cəbhələrə getməliyik. Məndən kiçik olan nə qədər uşaq gedib, mənsə buradayam...»

Ürək sözlərimi kişi kimi danışmaq cəsarəti toplamışdım. Atamın göz yaşlarını görəndə ümidim artdı.

- Əgər bu qədər ehtiyac varsa, mən də gedirəm.

Həyəcanla dedim: «Yox, ağa can, hələ ki biz varıq, sənin getməyinə ehtiyac yoxdur. Lakin sən bu kağızı imzalamasan, məni göndərməzlər».

Atam kağızın altına sadə imzasını atdı. Düşündüm ki, o mənə heç vaxt belə böyük yaxşılıq etməmişdir.

O qədər yüngülləşmişdim ki, sanki uça-uça gedirdim. Bu haqda heç kimlə danışmadığıma görə özümü böyük hiss edirdim. Hamı elə bilirdi ki, cəbhə ab-havasından çıxmışam, lakin mən həqiqətən, gedirdim. Fikirləşirdim ki, Həsən yenə gəlib mane olsa, ondan soruşacağam: «Əgər pis yerdirsə, nə üçün bir ayağın oradadır?!»

İbtidai məktəbdə sinif yoldaşım olmuş dostum Məhəmməd Məhəmmədpura hamıdan çox inanırdım. O, Vəlfəcr-hazırlıq əməliyyatını görmüşdü və ailə problemlərinə görə daha cəbhəyə gedə bilmirdi. Ona tapşırdım ki, axşamüstü bizə gedib haraya getdiyimi söyləsin.

Döyüşçüləri yola salmağa çoxlu adam toplaşmışdı. Bizi dəmiryol vağzalına aparacaq avtobuslara hamıdan tez minmək istəyirdim. Məktəbimizin uşaqlarından bir neçəsi də cəbhəyə gedənlər arasında idi və bu mənə ürək-dirək verirdi. Ayağımı avtobusun birinci pilləsinə qoyub üzümü camaata çevirdim və o qədər gülən, ağlayan gözlər arasında qardaşım Rzanı gördüm.

Bilmirəm nə vaxt yanıma çatıb boynumu qucaqladı: “Sən də gedirsən?! Məgər görmürsən nə vəziyyətdəyik?! Bilirsən ki, Həsən adəti üzrə cəbhəyə gedir, əmi üçün yalnız biz varıq. İndi də xəstələnib, yataqdadır. Qoca atamızla mən qalmışam. Bu vəziyyətdə haraya gedirsən?!»

Onu güclə razı sala bildim. Ağladığını görəndə ev sarıdan arxayın oldum. Bildim ki, o, digərlərini də razı salacaq. Ovcuma üç min tümən pul qoydu və gödəkcəsini çiynimə atdı ki, xəstələnməyim. Ondan ayrılanda sevinirdim; artıq məni də yola salan kimsə vardı. Avtobus yola düşəndə külək səsimi apardı: «Xudahafiz, dadaş!»

***

Həmin gün 1981-ci ilin noyabr ayı, ömür boyu unudulmayacaq günlərdən idi. Mən dostlarımın yanında oturmuşdum: Xəlil Təbrizi, Rəhim Dasyar, Məhəmmədbaqirxan Məhəmmədi, Cavad Fərzamian, Hüseyn Nuri və bizim kupemizə düşmüş bir kişi. Adı Yadullah Muradi idi. Az danışır və özündən bir söz demirdi. Nəhayət, öyrəndik ki, Sepahın Təbliğat bölməsində çalışır və indi minomyotçu-nişanlayıcı kimi cəbhəyə gedir. Onda Şəhid Mütəhhərinin Doğruların dastanı kitabı vardı. Muradi onun hekayələrini oxuyub danışır, biz də elə maraqla dinləyirdik ki, yolun uzunluğunu hiss etmədik. Biz beş nəfərin arasında yalnız Cavad Məhabad cəbhəsində vuruşmuşdu. O bizdən iki yaş böyük idi. Onunla tanış olduğumuz zamandan bizə həm dost olmuşdu, həm də müəllim. Dünənki sinif yoldaşlarım bugünkü qatar yoldaşlarım idilər və sabah səngər yoldaşlarım olacaqdılar.

Cənuba yola düşən iki batalyon adamdan neçəsinin mənim kimi ailəsindən ilk dəfə ayrıldığını bilmirdim. Bu batalyonlara Əli Təcəllayinin başçılıq edəcəyini eşidəndə çox sevindim. Məscidimizin uşaqları Süsəngird döyüşündən xatirələr söyləyəndə onun adını çox eşitmiş və görüb-tanımadan sevmişdim.

II

İlk xurma ağacını görəndə cənuba çatdığımızı bildim.

Bir gün öncə Tehranda bir neçə saatlığa dayanmışdıq. Biz günorta saat birdə oraya çatdıq və saat beşə qədər şəhərdə gəzmək imkanımız oldu. Uşaqlarla İnqilab meydanındakı kinoteatra getdik və bayıra çıxanda bir xanıma sataşan bir neçə nəfərlə dalaşdıq.

Qatar düz vaxtında yola düşdü. Yadullah Muradi qarşımda oturmuşdu. Onun geniş və aydın alnına baxırdım. Eynəyinin qalın şüşələri mehribanlığını gizlətmirdi. Əhvaza çatana qədər onunla yoldaşlıqdan bəhrələnmə imkanımız vardı.

Əhvazın dəmiryol vağzalında bir avtobusa mindik. Haraya getdiyimizi bilmirdik. Avtobus şəhərin prospektləri ilə irəliləyirdi. İlk dəfə Karun çayının səsini eşitdim, dəmir körpünü, dəniz quşlarını və həqiqi xurmaları gördüm.

Avtobus Çitsaz məscidinin önündə dayandı. Çayın səsi məscidin içinə də gəlirdi. Düşünürdüm ki, yəqin Karunun səsi Əhvazın hər yerində eşidilir. O səs tezliklə uşaqların səs-küyü arxasında itdi və yer problemi ortaya çıxdı. Özümüzə gəlincə uşaqların bir qismi, o cümlədən, Cavad Fərzamian və Yadullah Muradi Cəzairi məscidinə köçürüldülər. Döyüşçü olmaq istəyən dörd yeni yolçu elə ilk anlarda tək qaldı. Heç birimizin xüsusi təcrübəmiz yox idi. Lakin Əhvazın təbiəti bizə o qədər yeni idi ki, məscidə yerləşəndən sonra şəhərə çıxdıq və axşamüstü qayıtdıq.

Əhvazda qaldığımız 15 gündə hər gün səhər yeməyindən sonra şəhərə gəzməyə gedirdik. Əlbəttə, bu gəzintinin bədəli çox ağır oldu; iki həftədən sonra bütün beş min tüməni xərcləmişdim. Xəlil Təbrizinin, Məhəmmədbaqirxan Məhəmmədinin və Rəhim Dasyarın məndən də çox pulları vardı, amma onlarda da bir şey qalmamışdı. İnana bilmirdik ki, dövrəsi 20 tüməndən olmaqla Karun çayının kənarında hər gün bir neçə dövrə at sürmək, hər günorta restoranda xörək yemək, günəş eynəyi, çəfiyə və digər əşyalar almaq belə nəticələnəcək.

Cibimizin boşaldığına görə şəhərə getmədiyimiz ilk gün məsciddə necə tədbirlər keçirildiyini bildik. O vaxta qədər günorta namazlarını şəhərdəki məscidlərin birində qılır və özümüzü axşam namazına Çitsaz məscidinə çatdırırdıq. Axşam namazlarından sonra tədbir olanda qatılırdıq, olmayanda isə yorğanların arasına girib yatırdıq.

Çitsaz məscidi poçtun arxasında idi. Bizim də üzv olduğumuz Şəhid Qazi batalyonunun əksər döyüşçüləri o məsciddə yerləşmişdilər. Günboyu xüsusi

proqramlar, təlim, etiqad dərsləri, dua mərasimi, məddahlıq və bəzən də batalyon komandirlərinin çıxışları olurdu.

Xəlil Növbəri[1] məddahlıq edirdi və əzadarlıq Mahmud Nalbəndinin dəstəyilə qızışırdı.

Həmin tədbirdə tezliklə yeni dostlar tapdım. Onlar Cavad Fərzamianın və Yadullah Muradinin boş yerlərini doldurub biz naşılara tövsiyələr verirdilər. Çitsaz məscidində namaza hazırlaşdığımız ilk günorta bir nəfər mənə düzgün dəstəmaz qaydasını öyrətdi. O, bunu elə əxlaq və təvazökarlıqla edirdi ki, sanki mən onun səhvlərini başa salırdım.

– İstəyirsiz sizi gecə namazına oyadım?

Soruşan Cavad idi və biz sürəkli tapşırırdıq: «Mütləq! Yadından çıxmasın!»

Həmin gecə növbəti qrupu Cəzairi məscidinə apardılar. Cavaddan ayrı qalmamaq üçün dördümüz də sıraya qaçdıq. Cəzairi məscidi Nadiri dördyolunda yerləşirdi və Karun çayının səsi ora gəlmirdi.

Həmişə yataqda fikirləşirdim ki, gündəlik xatirələrimi yazaram, ancaq heç zaman bu işi görmədim.

***

– Qalx da.

– Nə?! Nə üçün? Gecə namazı?! Hə-hə...

Yuxulu idim. Zorla oyanıb tualetə getdim. Qaranlıqda çiynimlə bir neçə nəfərə toxundum. Yəqin onlar da gecə namazına oyanmışdılar. Düşünürdüm ki, Bəsic üzvü olmaq üçün gecə namazı qılmaq vacibdir; hətta Allahla danışmağa halın olmasa da.

Dəstəmaz alanda üşüdüm. Ehtiyatla gəlirdim ki, heç kimi tapdamayım. Yataqların çoxunun yığıldığını görəndə təəccübləndim. Məscidin divarlarının yanında kölgələr oturub-qalxırdı. Gözüm get-gedə qaranlığa alışmaq əvəzinə tədricən hər yeri qaranlıq görürdüm. Yuxu sərt hücuma keçmişdi. Bir tərəfdə dayandım.

– Allahu-Əkbər.

O dəqiqələrdə düşündüyüm ən mühüm şey bu idi ki, bu halda gecə namazı qılmaq da bir işdir. Birdən çiynimə bir əl dəydi: «Qiblə bu tərəfdədir».

Cavadın səsi idi. Başımı çevirəndə yuxum qaçdı. Onun sual dolu baxışından utandım.

Yaxşı ki, hər yer qaranlıq idi, arxası qibləyə namaz qıldığımı Cavaddan və Allahdan başqa heç kim görmədi.

***

Üç həftədən sonra Cəzairi məscidində yenidən yerdəyişmə oldu. Rəhimlə mən Şəhid Qazi batalyonuna, digər uşaqlar isə Şəhid Mədəni batalyonuna düşdülər. Yenə naşılıq edəcəyimdən qorxurdum, amma xoşbəxtlikdən, hər iki

[1] O, Bədr əməliyyatında şəhadətə qovuşdu.

batalyonun yeri eyni idi: Əhvazın Cündi Şapur universitetinə[1] köçmüşdük. Bina boş idi və universitetdən çox kazarmaya bənzəyirdi.

Cündi Şapur universiteti Nəcəf-əşrəf briqadasına verilmişdi. Təbrizin hələ öz briqadası olmadığına görə göndərdiyi döyüşçülər ya İsfahanın Nəcəf-əşrəf briqadasına qoşulurdular, ya da Kərbəla briqadasına. Nəcəf-əşrəf briqadasının komandiri Əhməd Kazimi, müavini isə Mehdi Bakiri[2] idi. Mehdi Bakirinin azərbaycanlı olduğunu öyrənəndə onu görməyi arzuladım. Lakin ağa Mehdinin həmin günlərindən xatirə payı götürmək qismətimdə deyilmiş.

Universitetin meydançasında hər taqıma bir çadır quruldu. Bizim taqımımızın başçısı Yasir Zirək idi. Taqımın ən azyaşlı üzvü mən idim. Bölüyümüzün komandiri Mahmud Urəngi, batalyonumuzun komandiri də Davud Noşad idi. Rəhimin boy-buxunu kiçik olduğuna görə təchizat bölməsinə getdi, mənsə boy-buxunlu olduğuma görə pulemyotçu köməkçisi oldum. Səfər başlayandan ilk dəfə idi qəribə hiss keçirirdim. Çox həzz alırdım. İki batalyona cəmi iki pulemyot vermişdilər. Şəhid Qazi batalyonunun pulemyotu Səməd Xətibdə idi, mən də onun köməkçisi idim. Silahlananda pulemyot sursatı çantasını çiynimə atdım və yetərincə mövcud olan bir kalaşnikov avtomatı da götürdüm. Çanta mənə ağırlıq edirdi, lakin qəlbimdəki sevinc də çox yüngül deyildi. Cündi Şapur qarnizonundakı ikinci böyük sevincimin səbəbi xalam oğlu Davuddan gələn məktub idi. Oraya yerləşəndən sonra evə bir məktub yazmağı özümə borc bilmişdim. Lakin evdən elə çıxmışdım ki, nə yazacağımı bilmirdim. Düşündüm ki, Davuda məktub yazsam, mütləq evə xəbər verəcək. O, xalam oğlu idi və biz bir məhəllədə böyümüşdük. İndiki dostlarımla tanışlığıma da əslində, o, səbəb olmuşdu.

***

1977-ci ilin isti yay günlərindən biri idi. Məktəblər təzə tətilə çıxmışdı. Beşinci sinfi uğurla başa vurmuşdum və digər yaşıdlarım kimi mən də Şahabad küçələrində avaralanırdım. Ən böyük əyləncəmiz futbol idi. Bir dəfə oyunun qızğın yerində Davud yeni bir xəbərlə gəldi: «Mehdi, bilirsən, məsciddə Quran dərsi keçirlər».

---

[1] İndiki Şəhid Çəmran Universiteti

[2] Mehdi Bakiri 19.04.1954 tarixində Azərbaycanın Miyandoab (Qoşaçay) rayonunda anadan olmuşdur. O, Təbriz Universitetinə qəbul olduğu 1973-cü ildən siyasi mübarizəyə başlamışdır. Qardaşı Şəhid Əli Bakiri məhz həmin ildə şah rejiminin Təhlükəsizlik nazirliyi olan SAVAK tərəfindən edam olundu. Mehdi Bakiri İslam inqilabının qələbəsindən sonra Urmiyada İslam İnqilabının Mühafizəçiləri Korpusuna (Sepaha) daxil olur, bir müddət Urmiyanın meri vəzifəsində çalışır və Kürdüstan problemi zamanı münafiqlərlə döyüşə qatılır. 1980-ci ildə cənub cəbhəsinə yollanan Mehdi Nəcəf-əşrəf briqadasının komandir müavini təyin olunur, Fəthülmübin və Beytülmüqəddəs əməliyyatlarının hər ikisində yaralanır. O, 1982-ci ildə Aşura briqadasının komandiri təyin olunur, Vəlfəcr-hazırlıq əməliyyatından öncə isə Aşura diviziyasını yaradır. Mehdi Bakiri 16.03.1985 tarixində Dəclə çayının o tayında əsgərləri ilə birgə vuruşarkən şəhadətə qovuşdu. Xeybər əməliyyatında şəhid olmuş kiçik qardaşı Həmid kimi onun da cəsədi itkin düşmüşdür.

Həmin gün böyük həvəslə Şərbətzadə məscidinin önündə dayanmışdım. Davudun özü gəlmədi, amma çoxlu uşaq gəlmişdi. Başımızı keçəl qırxdırdığımıza görə hamımız bir-birimizə bənzəyirdik. Onların arasında yalnız sinif yoldaşım Məhəmməd Məhəmmədpuru yaxşı tanıyırdım. Bir neçə dəqiqə gözlədikdən sonra məscidin qapısı açıldı, əlində kağız və qələm olan gənc bir oğlan bayıra çıxdı. Barmaqlar bir-bir yuxarı qalxdı və mən ilk dəfə oradakıların adlarını eşitməyə başladım: Mərğub Dadaşzadə, Dostəli Dadaşzadə, Mahmud Nalbəndi, Nadir Rzayi, Cəmşid Fəthipur, Hüseyn Lətifi, Həsən Abbaszadə, Hüseyn Abbaszadə, Cəlil Zarezadə, Məhərrəm Novruzpur, Rza Abbasnejad, Yəqub Pərvayi, Yəqub Təvana və s.

Quran dərsi elə həmin gündən başladı. Bir neçə gün ərzində uşaqlar ələndilər və qalmalı olanlar qaldılar. Hər gün məscidin divarındakı yazı lövhəsinin yanına yığışırdıq. Əvvəlcə Xoşkbari Azər ərəb əlifbasını və qiraət qaydalarını öyrədirdi, yarım saatdan sonra qardaş Lütfü gəlib Nəhcül-bəlağənin təfsiri və Quran oxunuşu dərslərini keçirdi.

Dərslərin başlanmasından təxminən 45 gün ötürdü. Bu dərslərin məhəllənin ruhanisi tərəfindən iki savadlı gəncə tapşırıldığını bilmirdik. Bir dəfə iki dərsin arasında uşaqların ikisinin səs-küyü qopdu. Nədənsə lövhə üzərində bir-birinin yazılarını pozurdular. Lütfü qardaş gəlib onları sakitləşdirdi. Bildik ki, uşaqların biri lövhənin üzərinə şahənşah tarixini yazırmış, o birisi isə onunla mübahisə edirmiş ki, gərək öz hicri-şəmsi tariximizi yazasan. Təqvimin hicri-şəmsidən şahənşah tarixinə dəyişməsi və hətta bizim Quran dərslərimiz düşündüyüm qədər əhəmiyyətsiz və adi deyilmiş.

Ertəsi gün məscidin qapısı həmişəki vaxtda açılmadı. Çox gözlədik, amma xəbər çıxmadı. Məscidin qoca xadimi bayıra çıxıb dedi: «Gedin evlərinizə, daha dərs olmayacaq!»

Sonra eşitdik ki, SAVAK-dan iki-üç nəfər gəlib «bu nə oyundur çıxarırsınız?! Məgər məscid belə işlər üçündür?!» – deyərək məscidin qapısını bağlayıb getmişdilər.

Quran dərsi tətil olundu, lakin bizim hamımız artıq yeni dostlar tapmışdıq. Dini mərasimlərdə iclaslar keçirirdik. İnqilabdan öncəki gecələrdə Məhərrəm Novruzpurun evi belə iclasların keçirildiyi və İmam Xomeyninin bəyanatlarının oxunduğu yer idi.

Altıncı sinifdə oxuyanda ərəb dili müəllimimiz olan qoca kişi banan və bitki yağı sözlərinə həssaslıq göstərirdi. Yalnız bir dəfə ondan şahla müxaliflik hiss olunan bir söz eşitdim. Əksər qədim adamlar kimi, o da bananı və bitki yağını mədəni-ideoloji ekspansiya elementlərindən sayırdı. Bir dəfə onu incitmək üçün bananın faydalarından danışmağa başladıq, o da narahatlıqla dedi: «Təəccüblənmirəm, sizin hamınız bu şahın çörəyini yemisiniz».

Həmin gün onun sözü bizi təəccübləndirdi, lakin bir neçə ay keçəndən sonra cəmiyyətdə baş verən hadisələrlə daha yaxından maraqlandıq və xoşbəxtlikdən, «niyə» və «nə etməli» kimi sualların cavablarını öyrənə bildik.

İnqilabın qızğın çağında məscid uşaqları ilə birgə camaatdan yorğan, pambıq, dərman və digər ləvazimatlar toplamaq işinə baxırdıq. Hərdən fikirləşirdim ki, mən bütün bunları 1977-ci ilin yayında Quran sinfində öyrənmişəm.

***

Xalam oğlu Davudun ilk məktubunu alıb sevindim. Cündi Şapurda qaldığımız iyirmi gündə evə nadir hallarda darıxmışdım. Elə bir yerdə idim ki, özümü böyük və səmimi bir ailənin kiçik uşaqlarından biri kimi hiss edirdim.

Fəthülmübin

I

Zəlican dərəsi Mışdağ silsiləsinin təxminən əvvəlində yerləşən qumlu təpələrin arasında daşlıq bir yerdir. Düşmənə yaxın olduğuna görə gecə vaxtı yola düşdük. Avtobus Əhvaz-Əndiməşk magistralı ilə gedirdi və biz sağ tərəfimizdə atışma səslərini eşidirdik. Nəhayət, Zəlican dərəsindəki mövqeyimizə çatdıq. Xuzistanın soyuğu bizi qarşıladı. Soyuğun iliyimizə qədər işlədiyi bir şəraitdə sübh namazını qılıb çadırları qurmağa başladıq. İkinci bölüyün yerləşdiyi yer digər bölüklərin yerindən hündürdə idi. Taqımımızın uşaqları digərlərindən hündürdə böyük bir qayanın üstündə çadır qurmaq qərarına gəldilər. İyirmi iki nəfərlik taqıma bir çadır düşürdü. Bütün taqımlarda yer problemi vardı. Sonradan hər taqıma əlavə bir çadır verdilər və beləliklə, Zəlicanda bir neçə aylıq həyatımız başlandı.

Sübh namazından sonra səhər mərasimi keçirilirdi. Cəzairi və Çitsaz məscidlərində də belə idi. Hər gün qaçışdan sonra ağır idmanlar edir, Yasir Zirəkdən əlbəyaxa döyüş qaydalarını öyrənirdik. Bütün namazlar camaat namazı şəklində qılınırdı. Əziz dostum Məhəmməd Məhəmmədpurun tövsiyəsi ilə camaat namazlarında həmişə iştirak edirdim. Fərəc və Əhd dualarını oxumadan heç kim namaz sırasından çıxmırdı. Bəzən taqımlar özləri çadırlarda Aşura ziyarətnaməsini oxuyurdular. Bu dualar mənim üçün yeni idi və hamıya yüksək əhval-ruhiyyə bağışlayırdı. Bir dəfə dostlarımızdan biri yuxuda İmam Mehdinin (ə) Zəlican dərəsində döyüşçülərə baş çəkdiyini görmüşdü. Bu yuxu bizim həvəs və həyəcanımızı artırırdı.

Qoca və gənclərin nurlu simalarını yanaşı görmək mənə çox qəribə gəlirdi. Həbibibnməzahirlərdən biri bizim imamımız idi. Özü ruhani olmasa da, döyüşçülər onu pişnamaz seçmişdilər. Söz və əməlləri dillər əzbəri olan başqa bir qoca da vardı, pasdar olmaq üçün keçilən təlimlərin ağır olduğunu görüb deyirdi: «Mən onsuz da şah dövründən Sepahın üzvüyəm».

Həmin günlərdə bizə qalın və quru çörəklər verilirdi, onları yumşaltmaq üçün saatlarla suda saxlamalı idik. Həmin qoca bir dəfə inadkarlıqla o çörəklərdən yeməyə çalışdı, amma protez dişi sındı. Belə hərəkət və sözlərinə görə ona "Baba Fincan" deyirdik.

Həmin günlərdə Nəcəf briqadasının digər batalyonları qonşu dərələrə yerləşdilər. Süsəngird döyüşçülərindən bir qismi də bizim batalyona qatılmışdı. Onların aramızda olmaları bizə yaxşı təsir bağışlayırdı.

Canlı qüvvənin çoxluğu əhval-ruhiyyə və ümid baxımından müsbət hal olsa da, maddi problemləri də artırırdı. Misal üçün, iki batalyonun təchizat işləri üçün bircə vanet[1] vermişdilər, yaxud bir neçə bölüyə yalnız bir hamam

[1] Kiçik tutumlu yük avtomobili

düşürdü. Hamam üçün yaranan uzun növbə bir problem idi, neft və su tapmaq da başqa bir problem. Hamama getmək yarım gün vaxt alırdı. Mən Zəlicanda qaldığım müddətdə yalnız bir dəfə hamamdan istifadə edə bildim.

O şəraitdə öncədən döyüşlərdə iştirak etmiş təcrübəli döyüşçülərin xatirələri bizi həvəsləndirirdi. Süsəngirddən alnında yara ilə qayıtmış Məhəmməd Fəthipur qəhrəmancasına döyüşdən danışırdı. Onun dediyinə görə, Əli Təcəllayinin komandirlik etdiyi otuzdan az döyüşçü Süsəngirdə hücuma keçmiş bir neçə düşmən diviziyası önündə müqavimət göstərmiş və düşməni bir neçə gün dayandıra bilmişdilər. O, Əlinin kreativ addımlarından danışıb deyirdi: «Əli tapşırmışdı ki, düşmənin tanklarını küçə və xiyabanların girişində vurub yolu bağlayaq. Onun özü yaralanmışdı, amma əsla bildirmir və hamını ruhlandırırdı".

Çadırımızın əksər uşaqları hər gecə namaza qalxırdılar. Mən onların gizli və aşkar ağlamalarına qibtə edirdim. Məhəmməd Fəthipur, Yasir Zirək, Məhəmməd Məhəmmədi, Rəhim Rəhbəri, Əli Əsədi, Davud Salehpur, Seyid Saleh Hüseyni, Əvəz Qeybi və digər rəşadətli döyüşçülərə görə bizim taqımımız digərlərindən bir addım öndə idi. Onların çoxu Süsəngirddə döyüşmüşdülər. Onlar mühasirəni yarıb Şəhid Çəmranın başçılıq etdiyi qüvvələrin və Nasir Bəyrəqinin başçılıq etdiyi azərbaycanlı döyüşçülərin Həmidiyyə istiqamətindən şəhərə girmələrindən, şəhərin müdafiəçilərinin çətinliklərindən, məzlum şəhadətlərindən və Bəni-Sədrin xəyanətindən danışır, ağlaya-ağlaya şəhidləri yad edirdilər. Hamısı deyirdi ki, biz hələ bir iş görməmişik, şəhid analarının yarasına məlhəm qoymamışıq və gərək güclü olaq. Bu xatirələri eşidəndə biz də çox ağlayırdıq. Xüsusən "İmam Xomeyni yolunun davamçıları" birliyindən olan tələbələrin şəhadəti bizi kədərləndirirdi. Onların pak cəsədləri Hüveyzədə tankların tırtılları altında əzilmişdi. Beləliklə, günlərimizin qədrini daha yaxşı bilir və çatışmazlıqlardan şikayət etmirdik.

Bir gün taqım komandirimiz qucağında bir bağlama ilə çadıra girdi. Bağlamanı açıb ortaya qoydu və dedi: «Təəssüf ki, şəxsi əşya çatışmazlığımız var. Hər taqıma bir bağlama verdilər, qardaşlardan kimin daha çox ehtiyacı olsa, bu paltarlardan götürə bilər».

Bağlamada yeddi dəst şalvar-köynək vardı. Cəbhəyə göndərəndə hərəmizə bir dəst paltar vermişdilər, amma bu müddətdə bəzisi cırılmışdı. Şalvarımın dizlərindəki yamağa baxıb birini götürmək istədim, amma gözlədim ki, kimsə götürsün, sonra mən götürərəm.

Başımı qaldırıb uşaqların təvazökar və sevgi dolu üzlərini görəndə fikirlərimə görə özümü danladım. Çünki onlardan heç biri paltar götürmədi. Bir saatdan sonra taqımımızın igid rəhbəri Yasir Zirək paltar bağlamasını bölüyün təchizat bölməsinə qaytardı. Get-gedə taqımımızın adını Fədakar taqım qoydular.

***

Keşikçilik söhbətinin ortaya çıxdığı ilk gecələr idi. Əvvəllər Şərbətzadə məscidində gecələr keşik çəkmişdim, lakin döyüş bölgəsinin keşikçiliyi ilə şəhər keşikçiliyi çox fərqli idi. "Sizin vəzifəniz öndən ehtiyatlı olmaqdır, çünki düşmən kəşfiyyatçıları bəzən postdan keçib həm kəşfiyyata, həm də zərbə vurmağa gəlirlər. Gərək çox ehtiyatlı olasınız". Bu, taqım komandirimizin tövsiyəsi idi. Döyüşçülər əllərində silah və qumbara ilə ikisaatlıq keşik çəkməli idilər. Növbə mənə çatanda çox istəyirdim ki, qorxduğumu söyləyim, amma bacarmadım. Yadıma saldım ki, münafiqlərin terrorları ərəfəsində gecələr də keşik çəkmişəm. Müsəlman Xalq Partiyasının tərəfdarları arasında imamın elanlarını paylayarkən Abbas Əkbəri ilə birgə tutulduğumuz da yadıma düşdü. Yazıq Abbası o ki var döydülər, nəhayət, əzab-əziyyətlə əllərindən qaçdıq. Lakin bu fikirlərin də faydası olmurdu, komandirin keşikçilik işinin əhəmiyyəti haqda dedikləri tez-tez yadıma düşürdü.

Vəzifələrini yerinə yetirməkdə səhlənkarlıq edənlərdən ola biləcəyimi düşünəndə özümdən acığım gəlirdi. Hər halda, gecənin zülmət qaranlığında iki saatı birtəhər başa vurdum. Gecə növbətçisi olan Məhəmməd Fəthipuru gördükdə sevindiyimdən qaçıb onu qucaqlamaq istəyirdim.

Həmin gecə bitdi və sözügedən həyəcan get-gedə həvəsə və marağa çevrildi. Artıq qorxum qalmamışdı. Düşünürdüm ki, özümü nə qədər çox işə versəm, daha tez alışaram. Elə buna görə də, tez-tez keşikçilik üçün könüllü olur və digərlərinin yerinə də keşik çəkirdim.

***

Günlər ötdü, gecə təlimləri daha da ciddiləşib çətinləşdi. Müxtəlif təlimlər keçirilirdi: silah və minalarla tanışlıq, hərəkət tərzi, mina təmizləmə və s. Gecə təlimlərində dərənin ətrafındakı qumluqlara gedirdik. Bəzən yük və silahlarla hərəkət edirdik ki, əməliyyata hazır olaq.

Həmin günlər Zəlican dərəsində xüsusi ab-hava vardı, hər bir şey əməliyyatın yaxınlaşdığını bildirirdi. Bir bölük taktika təlimi keçir, bir bölük silahlarla tanış olurdu. Həvəslə gözlədiyim məsələlərdən biri Məhəmməd Səburinin qəhrəmanlıq şeirlərini dinləmək idi. O, Şəhid Mədəni batalyonunun bölüklərindən birinin komandiri idi, şeir oxuyub bizi ruhlandırırdı. Digər taqım və bölüklərin komandirlərini adətən, siniflərdə, səhər mərasimlərində və camaat namazlarında görürdük. Qəhrəman komandirimiz Əli Təcəllayini görmək də arzumuz idi. Həmin müddətdə onu yalnız iki-üç dəfə görə bildik. Onun və digər komandirlərin səmimi salamlaşmaları və halımızı soruşmaları bizə bir neçə günlük həvəs və enerji verirdi.

Bir müddətdən sonra hərdən tək qalmaq imkanı yaranmağa başladı. 1982-ci ilin martında hava o qədər yaxşı idi ki, vətənimin qar-boranı yadımdan çıxmışdı. Dərənin yuxarısındakı düzənliyin bir hissəsi lalə gülləri ilə dolu idi. Kiçik bir radio götürüb güllərin yaxınlığında çəmənlikdə uzanır, səmaya

baxırdım. Oranın lalələri mənim gördüklərimdən böyük və gözəl idi. Radiodan çox sevdiyim nəğmə yayımlananda onunla birgə oxuyurdum:

Ey cananım, qalx və bələdçini dinlə,
İmamımız əlində bayraq gəlir!
Təkbir de, "ləbbeyk" de, yola çıx,
Yolumuz Qüds diyarınadır, öndədir!

Bəzən Razi məktəbinin artıq döyüş yoldaşlarım olmuş şagirdlərini də oraya aparırdım. Özümüzə çay süfrəsi açırdıq. Uzaqdan kimsə görsəydi, gəzməyə çıxmış bir qrup yeniyetmə olduğumuzu düşünərdi. Lakin bizim söhbətimiz qarşıdakı əməliyyatdan, məktəb xatirələrindən və iki yaxşı müəllimimiz olmuş Səməd Şükuhi və Mənuçöhr Simsaridən idi.

II

Bir xəritə üzərində əməliyyat bölgəsini, yolunu və batalyonların tapşırığını hamıya başa saldılar. Bölgənin bütün detalları xəritənin üzərində əks olunmuşdu. Çox diqqətlə hazırlanmışdı, Mışdağ yüksəklikləri, qum təpələri, Riqabiyyə təpələri, yoxuşlar və hər kəsin tapşırıq bölgəsindəki hədəfləri müəyyən olunmuşdu.

Bir gecə piyada yürüş təlimi zamanı bölük komandirimiz Urənginin aramızda olmadığını duyduq. Uşaqların arasında onun yoxa çıxması xəbəri yayıldı. Təcrübəli uşaqlar onun kəşfiyyata getdiyini deyirdilər, mənsə kəşfiyyatın necə və kimlər tərəfindən aparıldığını bilmirdim. Həmin gecə bölüyü komandir müavini Qəmbər Zahiri idarə etdi. Hərbi təchizatla gecənin qaranlığında qumların üstündə hərəkət etmək çətin gəlirdi. Təxminən dörd kilometr yürüşdən sonra geri qayıtdıq. Bu, əməliyyat gecəsi gedəcəyimiz böyük məsafə üçün yaxşı təlim idi.

Səhər tezdən, biz çadırda olan vaxt taqım komandiri hazırlıq əmri verdi.

– Səhərin bu vaxtı əməliyyat?!

Sual zamanı deyildi. Tez silah-sursatlarımızı götürüb mikroavtobuslara sarı qaçdıq. Yük çantası kürəyimdə idi, avtomatı da sinəmə sıxmışdım. Mikroavtobuslar hər iki tərəfi çöllük və qum təpələrindən ibarət olan bir yolda bir-birinin arxasınca irəliləyirdi. Haraya getdiyimizi bilmirdik. Qədim döyüşçülər isə öncəki günlərin əksinə olaraq, çox şən görünürdülər. Düşünürdüm ki, görəsən, əməliyyata həmişə belə gedirlər? Gündüz vaxtı və sağollaşmadan?

Bir saat yol getdik. Partlayış səsləri get-gedə yaxınlaşırdı. Mikroavtobus dayanan kimi cəld aşağı endik. Gurultular arasında oranın Riqabiyyə boğazı olduğunu eşitdim. Mikroavtobusdan uzaqlaşmamış ağ saqqalı yetmişi göstərən bir qoca ilə rastlaşdım. O, qışqırırdı: «İslam rəzməndələri![1] İslamın köməyinə gedin və heç nədən qorxmayın!» Bizimkilərdən idi, bizdən öncə çatmışdı.

[1] İslam döyüşçüləri

Həmin anlarda uşaqları onun qədər heç nə ruhlandıra bilməzdi. Partlayış səsi bir an da dayanmırdı. Təlim zamanı demişdilər ki, raket atılanda fit səsi ilə gəlir. Buna görə də, hər dəfə fit səsi eşidəndə yerə uzanırdım. Hər tərəf düşmən cəsədləri ilə dolu idi. Yer titrəyirdi. Riqabiyyə boğazı iki nisbətən hündür təpənin arasında kiçik bir yer olduğuna görə top və raket partlayışlarından lərzəyə gəlirdi. Döyüş bir neçə saat öncədən başlamışdı. Biz əsas yoldan təxminən 300 metr aralanandan sonra təmas xəttinə birləşən bir kanala çatdıq. Kanalın girişinə bir şəhid cənazəsi düşmüşdü. İxtiyarsız olaraq, dayandım və bir şey fikirləşə bilmədim. Hündürlüyü 100-150, eni isə 70 sm. olan bir kanalda isə dayanmaq olmazdı, bir-birimizin ardınca hərəkət etməli idik. 300-400 metr gedəndən sonra təxminən iki metr hündürlüyündə bir istehkama çatdıq. Ötən gecənin döyüş izləri orada da görünürdü. Şəhid cənazələri, görkəm və geyimlərindən asanlıqla tanınan düşmən cəsədləri, barıt qoxusu, tüstü, raket və mərmi qəlpələri hər yerə dolmuşdu.

Düşmənin tank və piyadaları xüsusi düzülüşlə bizə yaxınlaşırdılar. Səmədlə birgə istehkamda səngərə bənzəyən bir yer tapdıq və pulemyotu hazırlayıb atəş açmağa başladıq.

Bir neçə dəqiqədən sonra pulemyot xarab oldu. Çantamdan kalaşnikov avtomatını çıxarıb geri çəkilməkdə tanklarla yarışa girmiş piyadalara tuşladım. Hərəkətdən öncəki həyəcanım sevinclə əvəz olunmuşdu. Bütün döyüşçülər, hətta bizdən öncə orada ağır döyüş keçirənlər də baxışları ilə gülürdülər. Düşmən qaçmağa üz qoymuşdu və heç bir müqavimət göstərmirdi. Lakin top və raketləri bir an da dayanmırdı. Bizim köməkçi qüvvələrimiz bir-birinin ardınca gəlirdilər. İstehkamın arxası və kanalın içi düşmən cəsədlərini yoxlayıb təmizəməklə məşğul olan uşaqlarla dolu idi. Uşaqlar üzlərini örtüb özlərini ölmüşlüyə vurmuş üç-dörd iraqlı əsgəri əsir tutdular. Düşmən ölüləri arasında hələ də sağ qalanların olduğunu bilirdik. Uşaqların biri ölü sandığı bir iraqlını yoxlayarkən o, birdən ayağa qalxıb qaçmağa başladı. Uşaqlar onu vurdular, amma "ölünün dirildiyindən" qorxan dostumuzun rəngi bir-iki saat özünə gəlmədi.

Ara sakitləşəndən sonra səngərlərə getdik. Oranın səngərləri misilsiz idi: iraqlılar yeri bir metr yarım dərinliyində qazmış, yuxarıdan da kubik daş və kisələrlə yarımmetrlik divar qaldırmışdılar. Atəş açmaq üçün kisələrin arasından bir neçə dəlik də açmışdılar. Üstübağlı səngərlər o qədər möhkəm idi ki, ağır mərmi və raket atəşləri altında da ciddi zədələnməmişdi. Düşməndən öyrəndiyimiz ilk dərs bu idi.

Təxminən saat dörddə yola doğru getmək əmri verildi. Yolda Səməd Xətibinin qoluna qəlpə dəydiyini öyrəndik, taqımı sayarkən Əvəz Qeybi adlı bir yoldaşımızın da itdiyi məlum oldu. Onda itkin düşmək sözünün mənasını bilmirdim, dostlarımın kədərli üzündən də bir şey anlamadım. Hələ işğalçı düşmənlə ilk rastlaşdığımız anları və onların necə rəzalətlə qaçdığını düşünürdüm.

Ötən gecəki ağır döyüşdən söhbət düşdü. Düşmən Çəzzabə, Riqabiyyə və Abbas düzü bölgələrindən böyük hücuma keçmiş və ilk anlarda bəzi uğurlar əldə etmişdi, lakin İslam döyüşçülərinin əks-hücumu nəticəsində əvvəlki mövqelərinə geri çəkilmişdi.

Hələ mart ayının 19-cu günəşi batmamış Əvəz Qeybinin şəhid olduğu və cəsədinin itkin düşdüyü xəbərini aldıq. Yadıma ilk düşən onun ailəsi oldu. O, bizim aramızda azsaylı evlilərdən idi və ondan ailəsinə aparılacaq heç nə tapılmamışdı.

Fədakar taqım günbatan çağı qəm-qüssə içində idi. İki batalyonun yeganə şəhidi olan Əvəz Qeybinin boş yeri bizi üzürdü. Özümü gizli laləliyə verib doyunca ağlamaq istəyirdim. Lakin şəhadətin dostların hərəkətinə necə stimul verdiyini görmək üçün elə orada, fədakar taqımın mərd insanları arasında qaldım.

III

Düşmən hücumunu dəf etməyə getdiyimiz bir günün içində düşərgəmizin vəziyyəti dəyişmişdi. Oraya çoxlu ağır top gətirilmiş, düzənlikdə tibb məntəqəsi açılmışdı və yaralıları oraya toplamışdılar. Təcili yardım işçiləri ciddi məşğul idilər. Hamı böyük və taleyüklü bir hücuma hazırlaşmaqda idi, özü də bir gün öncə düşmənin geniş hücuma keçdiyi yerdə. Düşmənin əməliyyatdan duyuq düşdüyünü çox ehtimal edirdik. Bir tərəfdən əməliyyatın başlaması fikri bizi rahat buraxmırdı, digər tərəfdən də düşünürdük ki, düşmən əməliyyatdan xəbər tutubsa, mütləq hazırlıq görmüşdür.

Həmin gün günortadan sonra bahar girdi və uşaqlar novruzun «Halımızı ən yaxşı halla əvəzlə» duasını həqiqətən, yaşadılar. Hamımız əməliyyata gedəcəkdik, hamımızın yolu bir idi, amma bu yolun sonu bəziləri üçün ayrı cür olacaqdı. Son əməliyyat iclasında deyildi ki, Şəhid Qazi batalyonunun vəzifəsi düşmənin ön xəttinin arxasına keçib ehtiyat qüvvələrini mühasirəyə almaqdır. Əməliyyat və atışma başlayan kimi düşmənin ehtiyat qüvvələrini məhv etməkdən ibarət işimiz də başlayırdı. Düşmənin ehtiyat qüvvələri öz təmas xətlərini gücləndirməsinlər deyə biz sürətlə güclü hücuma keçməli idik. Ən böyük problemimiz qumlar üzərində uzun yol getmək idi. Təxminən 13-15 km. yol gedib düşmənin boş cinahını məhv etməli idik.

Ordu və Sepah qüvvələri dörd müştərək qərargahın rəhbərliyi altında əməliyyat keçirəcəkdilər.

Axşamüstü bütün taqım və bölüklər hərəkətə hazır vəziyyətə gəldilər. Bəzilərinin üzü daha da nurlanmışdı. Boyundan asılan kimlik nişanları az olduğuna görə bəzilərinə demişdilər ki, adlarını flomasterlə paltarlarının bir neçə yerinə yazsınlar. Mən də bir neçə yerdən yazdım: “Mehdiqulu Rzayi, Təbrizdən ezam”.

Günbatan çağı idi. Vida səhnəsi, ilk dəfə digərlərindən halallıq istəmək xatirəsi zehnimə həkk olunurdu. Qatarda bizə maraqlı əhvalatlar danışan

Yadullah Muradinin mehriban sağollaşması, məktəb və məscid yoldaşlarımla, Məhəmmədbaqirxan Məhəmmədi və digər dostlarla vidalaşma...

Kolon hərəkətə hazırlaşırdı. Yola düşdük. Günəşin qırmızı şüaları sol tərəfimizdə gözəl səhnə yaratmışdı. Kolonun o başından qoca azançının səsi gəlirdi: «Əşhədu əlla ilahə illəllah». Artıq hamıdan ümidimizi üzmüşdük. Allaha təvəkkül edib qumların üzərində irəliləməyə başladıq. Namaz vaxtı hərəkət edə-edə ağızlar Allaha həmdlə açılırdı, aləmlərin Rəbbi önündə işarə ilə rüku və səcdə edirdik. İlk dəfə idi belə bir namaz qılırdım. Allah bilirdi ki, bu, hansımızın son aşiqanə namazı olacaqdı. Təmas xəttinə çatana qədər bir postumuzdan keçdik. Zənnimcə, oraya 92-ci zirehli diviziya nəzarət edirdi. Postdan keçəndən sonra sükut əmri verildi. Hər bir taqımın komandiri bu əmri yavaşca özündən arxadakına deyirdi, o da özündən arxadakına. Hərənin bir nömrəsi vardı. Mənimki 15 idi. Kolon istirahət üçün bir neçə dəqiqə dayananda hərəkətdən öncə hər kəs yavaşca bir dəfə öz nömrəsini deyirdi. Bu zaman qaranlıqda kolona qoşulmuş yad adam üzə çıxırdı. Həmin bölgədə beşinci kolonun fəaliyyəti çox güclü idi. Əməliyyatın üstünün açılması və düşmənin Riqabiyyədə hücuma keçməsi də onlara görə olmuşdu.

***

Ay işıq saçırdı. Bölgə qumlu, yol uzun idi. Bəzən 150-200 metr hündürlüyündə təpələrdən aşırdıq. Bir ayaq quma batanda növbəti addımı atmaq imkansız görünürdü, amma sakit gecədə döyüşçülərin iradəsi qumları fəth edib irəliləyirdi. Silah-sursatın ağırlığı yorğunluğu ikiqat artırırdı. Hər bir qum təpəsinə qalxmaq minmetrlik bir dağ zirvəsinə qalxmaq qədər enerji və zaman alırdı. İrəliləyir və Mışdağ yüksəkliyini sağımızda görürdük. Mışdağı iclaslarda xəritədə görmüşdüm. «Onda yaxınlaşmışıq, bəlkə elə burada, bu təpənin arxasında...» fikri hələ beynimə tam oturuşmamış ilk fişəng səmanı işıqlandırdı. Özümü hamıdan tez yerə yıxdım. Ləhləyirdim, amma fişəng sönənə qədər yerdə uzanmaq imkanı gözəl idi. Hələ sinəmin qərarsızlığı sakitləşməmiş kolon ayağa qalxdı. Özümü səliqəyə salıb yola düşdüm.

Arabir düşmən tərəfdən seyrək atəş səsləri eşidilirdi və bu, təbii idi.

Yavaş-yavaş qum təpələri azalır, ayağımızın altındakı yer bərkiyib piyada yürüşünü asanlaşdırırdı. Axşamkı işıqlı ay da çəkilmiş, hər yerə qaranlıq çökmüşdü. Nəhayət, kolon minalanmış sahəyə çatıb dayandı. Öncədən demişdilər ki, düşmən öz cinahını qorumaq üçün önündəki sahəni minalamışdır. Başqa sözlə desəm, düşmən iranlıların hücumuna ehtimal vermədiyi yerdə canlı qüvvə toplamaq yerinə minalanmış sahədən istifadə edirdi.

Sahəyə əvvəlcə partladıcı bölüyün uşaqları girdilər, onların arxasınca da bizim taqımımız. İlk dəfə idi minalanmış sahə görürdüm: bir-birinə bağlanmış bir neçə cərgə müxtəlif minalar, bir cərgə də piyada əleyhinə minalar. Sahənin eni çox deyildi və tələləri qırmaqla yol təmizləndi. Bu sahədən keçmək düşmən mövqeyinə girmək demək idi. Biz sahəni problemsiz arxada qoyduq,

qarşıdakı yolumuz da boş bir yer idi. Yəqin uzun müddət idi oradan heç bir canlı keçməmişdi. Bir az irəlidə isə ikinci minalanmış sahəni qucağına almış bir düzənlik vardı. Bu sahə düşmənin ehtiyat qüvvələrinin dövrəsində qurulmuşdu. Sahənin yanında oturub partladıcı bölükdən işarə gözlədik. Sağ tərəfimizdə və arxamızda atışma başlanmışdı. Danışmaq qadağan idi. Düşünürdüm ki, biz hələ ehtiyat qüvvələrə çatmamış digər batalyonlar hücuma keçmişlər. Yasir Zirəkin arxasınca gedirdim. İkinci taqımın komandiri və qatardan tanıdığım Yadullahın qardaşı olan Fətullah Muradi mina zərərsizləşdirməyi yaxşı bildiyindən irəli keçmişdi. İkinci sahəni keçəndən sonra düşmənin ehtiyat qüvvələri ilə vuruşub mövqelərini ələ keçirməli idik. Bizim bölüyümüz ortadan, Şəhid Qazi batalyonunun digər iki bölüyü də sağ və soldan girib düşməni mühasirəyə almalı idik. İkinci sahədə hər şeydən öncə iki-üç telefon kabelini kəsdik. Arxamızdakı çatışma get-gedə güclənirdi, bizi isə hələ görməmişdilər. Biz arxası kolona oturmuşduq. Fətullah da bir az aralıda yerdə oturub bir minanı zərərsizləşdirirdi. Birdən altındakı yer çökdü. Mina partlayan kimi iraqlıların amansız atəşləri açıldı. Fətullah qan içində idi. Mən də yerə yıxılmışdım. Dizimdəki dəliyi görəndə qorxdum ki, birdən ayağım kəsilmiş olar. Özümü çox itirdim. Uşaqlar vuruşur və minalanmış sahəni cəld keçirdilər. İraqlılar sahədən bir keçidin açıldığını görüb oraya avtomat, pulemyot və raket atəşləri yağdırırdılar. Güllələr qulağımın dibindən keçəndə qəribə səs çıxarırdı. Düşünürdüm ki, bu dünyada düşmənin atəş açdığı sahənin ortasında qalmaqdan pis bir şey yoxdur. Birtəhər ayağa qalxıb ehtiyat qüvvələrinin mövqelərinə sarı yola düşdüm.

Fətullah ağır yaralanmışdı. Ona dedilər ki, uşaqlar qayıdana qədər orada qalsın. Hər iki tərəfdə atışmalardan bilinirdi ki, digər iki bölük sağ və sol tərəflərdən hücuma keçmişdir. Dizim yanır, amma səsim çıxmırdı. Qışqırsaydım da o mərəkədə mənə kim kömək edəcəkdi ki?! Axsaya-axsaya gedirdim. Düşmən mövqeyi süqut etməkdə idi. Düşmənin ehtiyat qüvvələri nizam-intizamla düzülmüşdülər və briqada həddində idilər. Onların mövqelərinə girəndə müqavimətləri daha da gücləndi. Uşaqlar çox yorğun olmalarına baxmayaraq, sanki qum üzərində kilometrlərlə yol yeriməmiş kimi qaçırdılar. Şərqdən səmanın rəngi dəyişməkdə ikən Rəhman Müslihi məni çağırdı: «Yaralanmısan? İndi səni geriyə apara bilərik. Gəl xərəyin üstünə». Bir xərəyə baxdım, bir də ayağıma. İlk dəfə idi yaralanırdım. Sanki tibb işçiləri də ilk dəfə idi yaralı görürdülər. Elə bilirdik, ayağımın yarası çox dərindir. Bir adam yox idi desin ki, burada qal, atışma zamanı haraya gedir, hələ üstəlik, xərəyə də minirsən?!

Dörd nəfər məni qaldırdı. Havanın ala-toranlığında, düşmənin seyrək atəşləri altında yola düşdük. Əhəmiyyətsiz olduğunu sonradan öyrəndiyim yaraya görə xərək üstə getməyin də öz həzzi varmış! Rəhman Müslihi öndə gedirdi. Minalanmış sahəyə girmişdik. Rəhman gördüyü hər bir mina tələsini kökündən qoparırdı. Onların nə üçün partlamadığına təəccüblənirdim.

Düşünürdüm ki, işini yaxşı bacarır. Həm də tez-tez mina zərərsizləşdirdiyini görüb düşünürdüm ki, bu sahə birdən-birə necə bu qədər böyüdü?! Sonradan anladım ki, sahənin eninə yox, uzununa gedirmişik. Birdən güclü bir partlayış bütün vücudumu titrətdi, qulaqlarımda fit səsi gəlməyə başladı. Bir anlığa hər yeri qırmızı gördüm. Gözümü tez-tez açıb-bağlayırdım. Sanki başımı benzin bakına salıb-çıxarmışdılar. Bir qədər sonra özümə gəldim. Qan və torpaq bir-birinə qarışmışdı. Ağzımda pis dad duyurdum və kəskin barıt iyi ürəyimi bulandırırdı. Baş və boynum yanırdı, tərpədə bilmirdim. Əlimi dəmir dəbilqənin üstünə sürtdüm; aşsüzən kimi olmuşdu. Üzümün islanmasından bildim ki, başım da dəbilqə kimi deşilib və qan axır. Yavaş-yavaş soyuq havanın iliyimə işlədiyini də duydum. Bədənim titrəyirdi.

Gözlərimi açanda hava işıqlanırdı. Sübh namazının vaxtı idi. Yaralı dostlarımın səsini eşidirdim. Mina tələsi başımın altında partlamış və xərəyi daşıyan dörd nəfərin dördü də yaralanmışdı. Bizdən öndə gedən Rəhmana isə heç nə olmamışdı.

Əhvazdakı bədxərclik günlərimin yadigarı olan çəfiyəmi belimdən açıb başıma bağladım. Çox xeyri oldu. Səhərin ala-toranlığında bildim ki, düşmənin pulemyot səngərinin düz önündəyik. Yanımızdan keçən bir neçə nəfər zarıltı səsimizi eşidib bizə yaxınlaşdılar. Bölük komandirlərindən biri bir neçə nəfərlə gəlirdi. Böyükağa Dildarbonabı tanıdım. Mehriban səslə məni çağırdı, sonra ratsiya ilə Mahmud Urəngi ilə danışıb bir neçə döyüşçüsünün minalanmış sahədə yaralı qaldığını söylədi. Döyüşün elə qızğın çağında Mahmud Urənginin səsini eşitdim: «Silahımız bitib». Ratsiyanın o başından zəif bir səs təkrarlayırdı: «Gözləyin, Şəhid Mədəni batalyonu gəlir».

Digərinin görməli olduğu işi gözləmək ağır idi. Böyükağa bizə təskinlik verib getdi. Bilmirəm nədənsə o anlarda Əli Təcəllayinin mətanətli və əzəmətli siması gözlərim önündə canlandı. Sübh namazını yada salan yaralıların birinin səsi ilə özümə gəldim. Elə dəstəmazsız və təyəmmümsüz, üz-başı qanlı halda, rüku və səcdəyə işarə ilə namaz qılmaq... Bütün namaz boyu bədənim titrədi, amma Allah qorxusundan yox, güclü soyuqdan. Sonuncu salamdan sonra Mahmud Saidinin "ax" səsi ucaldı. Nə baş verdiyini dərhal anladım. Biz səngərin önündə idik və hava işıqlandıqca bizi görürdülər. Snayper bizi rahat nişan alırdı. Ətrafımızdakı torpaqları yanımıza toplayıb düşmənin gözündən bir qədər uzaq qalmağa çalışdıq. Bir neçə müdafiəsiz yaralı o namərd snayperin qarşısında nə edə bilərdi?! Hər bir güllədən sonra səs gəlirdi.

– Ax, ayağım!

– Vay nənə!

Hər dəfə uşaqların səsi gələndə kiməsə güllə dəydiyini bilirdim. Mahmud Saidi orada mina qəlpələrindən əlavə dörd güllə yarası da aldı. Ağrılı anlar idi. Batalyon uşaqlarını düşünürdüm. Onlar tərəfdən də səs gəlmirdi: Silah-sursatlarını sona qədər bitirib kömək gözləyirlərmi? Hələ sağdırlarmı? Orada həyat necə də dəyərsiz görünürdü! Cəbhəyə gəlməkdən ötrü o qədər əziyyət

çəkdim, əməliyyatda iştirak etmək üçün o qədər təlim keçdim, məşqlər etdim, lakin birinci əməliyyatda minalanmış sahənin içində daşürəkli bir ovçunun yaralı ovuna dönmüşəm.

Səma get-gedə işıqlanır və günəşin hərarəti bədənimizi isidirdi. Arxadan bir səs eşitdim. Düşmən kolonu idi. Onların arasından iki nəfər ayrılıb bizə yaxınlaşdı. Biri o birinə deyirdi: «Gəl! Gəl!» Yenidən Mahmudun səsi gəldi: «Vay! Aman Allah!»

Daha dözə bilmədim. Müqavimətsiz əsir düşmək və ya şəhid olmaq istəmirdim. Elə çətinliklə gəldiyim üçün belə asanlıqla gedə bilməzdim.

Əlim uşaqların birinin silahının lüləsinə dəydi. Daha snayperi düşünmədim. Yarıqalxmış vəziyyətdə avtomatla onları nişan aldım və atəş açıb hər ikisini yerə sərdim. Düşmən kolonu dərhal atəş açmağa başladı. Onların sayı altmışdan çox idi, biz isə yalnız altı nəfər idik; beş yaralı, bir sağlam və yalnız bir daraq patron.

Güllələr ətrafımızı şumladı. Qan və toz-torpaq yaralarımızı yandırırdı, amma ağzımızı açmırdıq. Güllə yağışından iki dəqiqə sonra birdən-birə atışma bir neçə dəfə artdı. İraqlılar qeybdən gələn güllələrlə yerə sərildilər. Xilaskarlar bizə yaxınlaşanda Şəhid Qazi batalyonunun komandiri Davud Noşadı gördüm. O, partizan hərəkəti ilə sahəyə girib bir saatdan artıq bizi atəş altında saxlamış səngəri susdurdu. Davud Noşad bir neçə nəfərlə birgə bizi minalanmış sahədən çıxardı. Həmin dəqiqələrdə aramızda yeganə sağlam adam olan Rəhman Müslihi dörd barmağından yara aldı.

Təcili yardım işçiləri istehkam formasında bir-birinə bitişmiş qum təpələrinin arxasında yaralarımızı bağladılar. Bir saatdan sonra düşməndən götürülmüş bir maşınla Zəlican dərəsinə gedirdik. O, Riqabiyyədən qayıdandan sonra gördüyümüz və uşaqlarla birgə kompot və digər qida məhsullarına hücum etdiyimiz təcili yardım maşını idi.

Maşında ağır yaralılar da vardı. Yolun kənarında üzərinə «Həqiqətən, Biz sənə aşkar bir zəfər bəxş etdik»[1] ayəsi yazılmış çoxlu plakatlar gördüm.

Məni səhra hospitalına köçürdülər. Hospitalda yaralarımı yenidən yuyub bağladılar və dedilər ki, sizi Əhvaza göndərəcəyik. Gecəni orada birtəhər başa vurdum, amma səhər çağı bir kələklə qaçıb başı və ayağı sarıqlı halda özümü Zəlican dərəsinə, oradan da əməliyyat zonasına çatdırdım. Şəhid Qazi və Şəhid Mədəni batalyonları düşmənin ehtiyat mövqeyində yerləşmişdilər.

İki gün ərzində qələbəni dadmaq bizi çox sevindirmişdi. Ehtiyat qüvvələrinin işi yaxşı həll olunmuşdu. Düşmən qüvvələri yüznəfərlik və daha böyük qruplarda təslim olurdular. Mənimlə həmyaşıd uşaqların bir İraq bölüyünü əsir tutub geriyə apardıqlarını görəndə yerimdə qərar tuta bilmirdim. Düşmənin ehtiyat mövqeyində səngərlər kanal boyu bir-birinə bitişmişdi. Hər səngərin girişində Z şəkilli kiçik bir kanal açılmışdı. Üstübağlı səngərləri də

[1] Fəth, 1

yerin altında düzəltmişdilər, tavan təxminən yerlə bərabər idi. Səngərlərin içində divar tərəflərin torpağını çarpayı formasında saxlamış, ortanı isə çökək etmişdilər. Hər bir səngərdə çökəyin üstündə hava çəkən yer vardı.

Qaçan düşmənlə döyüş hələ davam edirdi. Əli Təcəllayi uşaqların bir qismini toplayıb bizdən təxminən 2 kilometr uzaqlaşmış pərakəndə düşmən qüvvələrinə doğru getdi. Orada ağır döyüş baş verdi, Təcəllayi ayağından yaralandı, amma döyüşçülərinin bölgədən çıxdığı son günə qədər orada qaldı.

Batalyon uşaqlarının yanında olduğum bir neçə gündə o qədər gümrah idim ki, yaralarımı unutmuşdum. Dizimin sarığını açmışdım, yalnız başımın yüngül yaralarını ağ sarıq örtmüşdü. Həmin günlərdə bir neçə dəfə döyüş yerində qalmış yaralı və şəhidləri axtarmağa getdik, tanıdığımız dostlarımızın şəhadət xəbəri bizi bu yolu davam etdirməyə ruhlandırırdı: qatarda müəllimimiz olmuş, Doğruların dastanı kitabından bizə əhvalatlar danışmış 24 yaşlı gənc Yadullah Muradi, Zəlicanda çadırın yanındakı mağaraya bənzər bir yerdə oturub vəsiyyətnaməsini yazan və bizim gizlicə şəklini çəkdiyimiz Məhəmməd Zarei, qədim dostum, Müqavimət mərkəzindən yoldaşım və belə qısa müddətdə bu qədər inkişaf edəcəyinə inanmadığım Hüseyn Lətifi,[1] şeirləri ilə bizi səbirsizləndirən və bunun şəhadət məqamına nail olmaq üçün son addımları olduğunu bilmədiyimiz Məhəmməd Səburi...

[1] Təbrizə qayıdanda Hüseyn Lətifinin başına güllə dəydiyini eşitdim. O, beyninin zədələndiyinə görə təxminən bir ay huşsuz vəziyyətdə qaldı. Allahın istəyi bu imiş ki, yaşasın və digər müharibə əlillərilə birgə müqəddəs müdafiənin canlı şəhidlərindən olsun.

Müslim ibn Əqil əməliyyatı

I

Qatarla Təbrizə çatanda dəmiryol vağzalı şən və kədərli gözlərlə, gül budaqları, üzərlik və gülab ətri ilə dolmuşdu. Hamıdan qabaq xalamı gördüm. İzdiham döyüşçüləri dövrəyə almışdı. Gözüm hələ də Əli Təcəllayini axtarırdı. Bütün döyüşçülər Rəhmət vadisi məzarlığına gedən avtobuslara minirdilər. Getmək istəyirdim, amma hələ çatmamış qaçmağa ürəyim gəlmədi. Qərara gəlmişdim ki, evdə olduğum müddətdə yaxşı və dərsoxuyan uşaq olum ki, növbəti dəfə cəbhəyə getmək üçün problem yaşamayım.

Ertəsi gün məktəbə getdim. Döyüşçü şagirdlərə təşəkkür mərasimi keçirilirdi. Uşaqlar həyətə toplaşmışdılar. Müəllimlərin ikisi danışandan sonra söz mənə verildi. Mikrofona yaxınlaşıb bir neçə kəlmə danışdım. Məhəmmədbaqir Xanməhəmmədi də mənim kimi Fəthülmübin əməliyyatında yaralanmışdı. O, yazılarının birini oxudu. Sonda Razi orta məktəbinin qonağı, Sepahın qəbul müdiri Məhəmmədrza Basir yaxşı çıxış etdi. Özü əməl adamı olduğuna görə sözləri könül oxşayırdı. Eşitmişdim ki, o, hər gün bir neçə şəhid ailəsinə baş çəkib problemlərini həll edir. Mərasimin sonunda televiziya kamerası önündə boynumuza çələng saldılar. Ondan sonra məktəbin döyüşçüləri bütün uşaqlar tərəfindən daha da sevildilər.

İki müəllimimiz bizə daha çox hörmət edirdi. Məktəbin döyüşçü uşaqları bilirdilər ki, onlarla görüşəndə mütləq cəbhədən bir xatirə danışmalıdırlar. Onlar hər bir cümləni elə həvəslə dinləyirdilər ki, bu əhval-ruhiyyə ilə cəbhədən necə ayrı qaldıqlarına təəccüblənirdim. Ağa Səməd Bəxtşükuhi və ağa Mənuçöhr Simsari bizə çox şey öyrətmişdilər. Bizim onlarla münasibətimiz müəllim-şagird münasibətindən üstün idi. Mərasimdən bir-iki gün sonra uşaqların biri mənə yaxınlaşıb ağa Simsarinin mənimlə işi olduğunu söylədi. Sinfinə getdim. Məni görən kimi dedi: «Texnologiya imtahanına hazırsan?»

Mən cəbhədə olanda sinif yoldaşlarım imtahan vermişdilər. Cəbhə ilə yanaşı təhsilimi də davam etdirmək istədiyimə görə orada oturub yazdım. Müəllimi sevdiyimə görə dərsini də yaxşı oxumuşdum. Elə orada yazımı yoxlayıb 20 verdi. Ağa Simsari üzünü imtahandan kəsilmiş bir uşağa tutub dedi: «Buna bax, bir neçə ay top-tüfəngin içində olub, bu da qiyməti, sən isə...» Bir neçə gündən sonra yenə məni çağırdı: «Rzayi, müdiriyyətə bir adam gəlib, sənինlə işi var».

Adamı görənə qədər beynimə min cür fikir gəldi, görəndə isə çox təəccübləndim. İbtidai məktəbdə müəllimim olmuş ağa Zülfi idi. O, 3-5-ci siniflərdə bizim müəllimimiz olmuşdu və indi bir orta məktəbdə riyaziyyat dərsi deyirdi. Fəthülmübin əməliyyatında cəbhədə olduğumu eşidib məni şagirdlərinə söhbət etmək üçün aparmağa gəlmişdi. Ona minnətdarlığımı

bildirib təklifini qəbul etdim. Altıncı sinif uşaqları mənim sözlərimə elə qulaq asırdılar ki, sanki bir müharibə filmi izləyirdilər.

Bu iki hadisədən sonra döyüşçülüyün ağır məsuliyyət olduğunu dərk etdim.

Aprelin ortaları idi. Yaralarım sağalmışdı, amma ürəyim qərarsız idi. Cəbhənin fikri beynimdən çıxmırdı, amma bilirdim ki, ailəmin qəbul etməsi imkansızdır. Hələ gəlişimdən iyirmi gün ötməmişdi.

Təcəllayinin cəbhəyə ezam müdiri olduğunu eşidəndə sevincim yüz qat artdı. Hafiz xiyabanında yerləşən Cəbhəyə Ezam Mərkəzinə toplaşdıq. İlk dəfə olduğu kimi, yenə də Məhəmmədlə birgə gəlmişdik. Avtobusa mindik. Hələ həyəcanlı idim, amma öz-özümə deyirdim ki, bu həyəcan avtobusla bağlı acı xatirəmə görədir, qatara çatanda hər şey bitəcək. Lakin həyəcanım qatarda da davam etdi. Bu dəfə döyüşçülərin sayı olduqca çox idi. Qatar fit çalanda kupenin qapısı açıldı və qardaşım Abdullah qapıda göründü.

Salam verib digər sözlərimi demək istəyirdim, o isə imkan verməyib hirslə dedi: «Əleykə salam. Hara gedirsən, Mehdi?! Yazıq anam infarkt keçirib, sənsə belə bixəbər gedirsən?!»

Ürəyim üzüldü. Bütün həyəcanlarım bundan ötrü imiş. Fikirləşdim ki, qayıtsam və anam məni görsə, yaxşılaşar. Bəlkə də layiq olmadığıma görə Beytülmüqəddəs əməliyyatına çatmadım. Çiynimdə çanta qatardan endim. Qatar getdi, biz də tələsik evə yollandıq. Yolda nə mən bir şey soruşdum, nə də qardaşım bir söz dedi. Qapını açıb həyəcanla soruşdum: «Hanı? Anam haradadır?»

– Xalagildədir, axşamüstü gələcək.

Divarın yanında dizi üstə oturub utanmadan ağlamağa başladım. Fikirləşirdim ki, Allah bilir, indi qatar haraya çatıb.

II

Ramazan ayı idi. Məhəllə uşaqları futbol yarışı keçirirdilər, biz də tamaşaçı idik. Məhəmməd Məhəmmədpur yanımda oturmuşdu.

Oyun get-gedə qızışmış, tamaşaçıların sayı artmışdı. Cavad Fərzamianın velosipedlə bizə doğru gəldiyini görəndə onun da tamaşaya tələsdiyini düşündüm, lakin çatanda ağladığını gördüm.

– Nə olub, Cavad? Niyə ağlayırsan?

Cavad Beytülmüqəddəs əməliyyatının ilk günlərində boynundan yaralanmışdı və şəhərdə müalicə alırdı. Beytülmüqəddəs əməliyyatından sonrakı cəbhə ezamında da yarasına görə gedə bilməmişdi. Amma onu heç vaxt belə görməmişdim. Özünü ələ ala bilmirdi. Məhəmmədlə onun sağ-soluna keçib məscidə apardıq. Hələ ağlayırdı.

– Bəs nə üçün bu qədər narahatsan? Bir söz de.

– Şəhid oldular... Mənuçöhr Simsari və Səməd Bəxtşükuhi Ramazan əməliyyatında şəhid oldular.

Bu söz ürəyimin ortasına qədər gedib yandırdı. Özümdən asılı olmadan, mən də ağlamağa başladım. Daha nə üçün ağladığımızı soruşan yox idi. Onları tanıyan hər kəs nə baş verdiyini bilirdi. Bizdən xatirə danışmağımızı istədikləri günlər yadıma düşdü. Beytülmüqəddəsdən sonra onlar cəbhəyə gedəndə bir-birimizə deyirdik: «İndi onların növbəsidir, gedib bizə xatirə gətirsinlər". İndi isə özləri, bütün söz və əməlləri bizə xatirə olmuşdu...

Ertəsi gün məktəbə getdim. İyunun ortaları olsa da, hələ get-gəl çox idi. Məktəbin İslam birliyinin sədri idim, işçi və müəllimlərlə yaxşı münasibətim vardı. Bəzən müəllimlər otağında da otururdum. Həmin gün də müəllimlər otağına getdim. Mənuçöhr və Səmədin adətən, oturduqları yerə yaxınlaşdım və daha bayıra çıxa bilmədim.

– Rzayi, nə olub? Nə üçün qara geyinmisən?

– Heç, uşaqların biri şəhid olub.

Xəbəri necə verəcəyimi bilmirdim, amma məktəbin o işçisi də Bəxtşükuhi ilə bir məhəllədən idi. Məndən əl çəkmədi. Sanki ürəyinə nəsə dammışdı. Kövrək səslə dedi: «Özüm bəzi şeylər bilirəm, sən niyə heç nə demirsən?» Bütün müəllimlərin üzü mənə çevrilmişdi. Bilmirəm necə dedimsə, hamı ağlayıb başlarına vurdular. Daha orada qala bilmədim.

Məktəb yasa batdı və hamı onların pak cənazələrini qarşılamağa hazırlaşdı. Bir neçə gündən sonra isə iki xəbər gəldi: biri Təbrizin Şəhid evindən, biri isə İmam Xomeyni xəstəxanasından; Şəhid Səməd Bəxtşükuhinin cənazəsi evinə gəlmişdi, Mənuçöhr Simsarinin cəsədi isə itkin düşmüşdü.

Səməd başı ilə bədəninin bir hissəsini aparan tank mərmisi ilə şəhid olmuşdu. İmam xəstəxanasında Məhəmmədbaqir Xanməhəmmədi başındakı güllə yarasından yatırdı. İyirmi gün yalnız süni tənəffüslə nəfəs aldı. Atasını görürdüm, çox əziyyət çəkirdi. Ona deyə bilmirdim ki, Məhəmmədbaqir getməzdən öncə vəsiyyətnaməsini mənə verib. Hərdən xəstəxanaya, hərdən də şəhidlərin yas məclislərinə gedirdim. Məclislər şəhidlərin özlərinin istəyinə əsasən, sadə keçirilirdi. İyirminci gün Məhəmmədbaqir də şəhidlərə qovuşdu və mən vəsiyyətnaməsini ailəsinə verdim.

Artıq şəhərdə bir gün də qala bilməzdim. Səhər Məhəmməd Məhəmmədpurun yanına getdim, günorta da anama dedim ki, hamama getmək istəyirəm. O da hamam paltarlarımı çantaya qoyub mənə verdi.

– Allaha əmanət! Tez qayıt!

Yarım saatdan sonra isə Cəbhəyə Ezam Mərkəzində idim. Oradan Təbrizin dəmiryol vağzalına, sonra isə Tehrana yola düşdüm. Danışdıq ki, Məhəmməd axşamüstü bizə gedib hamamdan sonra cəbhəyə yollandığımı anama desin.

III

1982-ci ilin avqustu idi. Ramazan əməliyyatının şəhidlərinin qəm-qüssəsi hələ də ürəyimi yandırırdı. Cəbhəyə ezam üçün Təbrizdən təkbaşına müraciət etdim və 10-20 miyanəli könüllü ilə yola düşdüm.

Əhvaza çatanda Gülüstan məktəbinə getdik. Beytülmüqəddəs əməliyyatından sonra Aşura briqadasının qərargahı Gülüstan məktəbinə köçmüşdü. Oradan dərhal Xürrəmşəhrin yaxınlığında yerləşən Hüseyniyyə stansiyası adlı yerə, briqadanın düşərgəsinə getdik. Düşərgədə bizi Əl-Mehdi batalyonuna verdilər. O batalyonda hər şəhər və rayondan adam vardı: Xoy, Miyanə, Səlmas, Təbriz, Marağa... Buna görə də, çoxmillətli batalyon adı ilə məşhurlaşdı.

Batalyonun komandiri Bəni-Həsən,[1] bölüyün başçısı isə Məhəmmədhəsən Söhrabi idi. Döyüşçülərin çoxu azyaşlı idilər. Mən doqquzuncu sinfi bitirdiyimə görə onların arasında savadlı sayılırdım. Hər halda, püşkatmada ratsiya mənə düşdü. Qardaş Səfər Həbəşi[2] Əl-Mehdi batalyonunun komandiri, Bayraməli Verməzyari[3] də bizim bölük komandirimiz oldu. Fərhəng Ətrəhi birinci taqımın, Şikarlı ikinci taqımın, Heydər Mehdixani də üçüncü taqımın komandiri oldu. Əl-Mehdi batalyonunun birinci bölüyü bu şəkildə təlimlərə başladı.

***

Üskü çörəyi, bir neçə hamam, təchizat bölüyünün maşını və Xürrəmşəhrə bir neçə saatlıq məzuniyyətlər göstərirdi ki, Fəthülmübin əməliyyatına nisbətən bu dəfə batalyona daha yaxşı imkanlar yaradılıb. Təbii ki, biz də bu imkanlardan maksimum istifadə edirdik. Məsələn, şəhər hamamlarına xoşumuz gəldiyinə görə saatlıq məzuniyyət alıb batalyonun avtomobili ilə şəhərə gedib-qayıdırdıq.

Səhraya və cənuba uyğun əməliyyat təlimləri keçirilir, istehkama hücum, ələkeçirmə və təmizləmə işləri öyrədilirdi. Təlimi Ramazan Fəthi keçirdi. Kvadrat bir sahədə hər biri bir bölüyə məxsus çadırlarda təxminən iki həftə qaldıq. Hərdən ilk cəbhə günlərini xatırlayırdım. Dostlarım və hamıdan tez şəhadətə tələsmiş Məhəmmədbaqir yadıma düşürdü. Mənuçöhrlə Səmədi tez-tez yuxuda görür və hər dəfə narahat olurdum. Yay idi və cənubda hava olduqca isti keçirdi. Əməliyyata çox tələsirdim.

Bir axşam bizə silah, fişəng və digər sursatlar verildi. Maşınlara minib naməlum istiqamətə yola düşdük. Uşaqlar zarafatlaşır, mənsə bu yerdəyişməyə çox sevinirdim. Bir neçə saatdan sonra maşından enən kimi sərin dağ havasını hiss etdim. Tezliklə öyrəndik ki, İslamabaddan keçmiş və Sərpol Zəhabın yaxınlığında Sumara gedən bir yola girmişik.

---

[1] Kəşfiyyat bölüyündə xidmət edərkən Kərbəla-5 əməliyyatında şəhadətə qovuşdu. İtkin düşmüş cəsədi müharibə bitəndən bir neçə il sonra axtarış zamanı Şələmçədən tapıldı və Rəhmət vadisi məzarlığında torpağa tapşırıldı.

[2] Səlmasın igid döyüşçülərindən və əməliyyat istiqamətinin komandiri idi, Vəlfəcr-1 əməliyyatında şəhid oldu.

[3] Əli Əkbər batalyonunun komandiri idi və Xeybər əməliyyatında şəhadətə qovuşdu. Pak cəsədi 1995-ci ildə tapıldı və Səlmasın Şəhidlər gülzarı məzarlığında qardaşı Abdullahın yanında dəfn olundu.

Sumar çayını arxada qoyandan sonra Aşura briqadasının düşərgəsində yerləşdik. Ora geniş dərə idi, düşmən bombardmanlarından qorunmaq və briqadaya təlim keçmək üçün seçilmişdi. Qarşımızda Sumar çayı, arxamızda da dərəni iki yerə bölən təpə dayanırdı. Çadır və səngərlərin yerlərindən bilinirdi ki, bütün şəxsi heyəti dərənin içində yerləşdirməyə çalışmışlar. Dərənin sol tərəfində Əl-Mehdi və Şəhid Səduqi batalyonları, arxa tərəfdə də Şəhid Mədəni və Şəhid Qazi batalyonları yerləşmişdilər. Tədricən orada Şəhid Behişti batalyonu da yaradıldı.

İraq təyyarələri elə ilk günlərdə "xoşgəldin" deməyə gəldilər. Düşərgə və ətrafı on dəfədən artıq bombalandı. Dərənin çökəkliyi isə uşaqlara sığınacaq vermişdi və tələfat çox az oldu.

Bombardman şəhidlərindən biri Şəhid Səduqi batalyonunun təchizat bölüyündə xidmət edən Becani idi. Onun maşının içində, çalışdığı yerdə şəhid olması mənə çox pis təsir etdi. Onun oğlu mənim sinif yoldaşım idi. Onunla məhəllədə və Şərbətzadə məscidində çox günlərimiz olmuşdu, dəfələrlə birgə keşik çəkmişdik, indi isə cəbhəyə ilk gəlişində şəhadətə qovuşmuşdu.

Yeni düşərgədə keçdiyimiz təlimlər dağ təlimləri idi: yüksəkliyə hücum, yüksəkdən dövrə vurmaq, hərbi hissəyə hücum etmək, təmizləmək və s. Gündüzün əksər saatlarını və bəzən gecələr də təlim keçirdik. Bütün namazlar camaat namazı şəklində qılınırdı. Qarşıda döyüşün olacağını bilərək dərənin içində dua oxumağın başqa ləzzəti vardı. Bəzən bütün bölük bir yerdə, bəzən də hər taqım ayrı-ayrılıqda çadır və səngərlərdə dua oxuyurdular. Bölükdə xüsusi bir məddahımız yox idi. Bir dəfə taqım komandirimiz Şikarlı ilə mən Təvəssül duası oxumaq qərarına gəldik. İlk dəfəm idi, bir neçə səhvim də oldu, amma uşaqların mənəvi halı hər şeyi düzəldirdi.

Artıq dərəyə adət etmişdik və hərdən Sumar çayına gedirdik. Səid Çərtab[1] orada mənə üzməyi öyrətdi. Çayın suyu çox yerdə o qədər dayaz idi ki, avtomobil də keçə bilirdi. Bir neçə gündən sonra məni və digər bir qrup döyüşçünü ayırıb Baxtəranda bir məktəbə apardılar. Orada Əli Qüdsi adlı bir qardaş bizə ratsiyadan istifadəni öyrətdi. Qayıdandan sonra bizə bir ratsiya verdilər və mən bir kalaşnikov avtomatı da götürdüm.

Təxminən iki ay yarım dərədə qaldıq, və artıq təlimlər bitmişdi. O müddətdə heç kim məzuniyyətə getməmişdi və yavaş-yavaş səbirsizlik yaranırdı. Bir dəfə diviziya komandirinin çıxış edəcəyini xəbər verdilər. Mühüm bir məsələ baş verdiyini təxmin etdik. Həsən Baqirini[2] görəndə isə təəccübləndik. Dostlarla gülüb deyirdik: «Bax, bu uşaq bizə danışmağa gəlib!»

---

[1] O, bir neçə həftədən sonra Müslim ibn Əqil əməliyyatında şəhid oldu.

[2] "Həsən Baqiri" ləqəbli Qulamhüseyn Əfşurdini o günə qədər görməmişdik. O, müharibənin ilk illərində Sepahın həqiqətən, mütəfəkkir beyni idi və bir müddət Sepah komandanının müavini olmuşdu. O, 1982-ci ildə Vəlfəcr-hazırlıq əməliyyatının bölgəsində kəşfiyyat zamanı şəhadətə qovuşdu.

Üzündə saqqalı yox idi, yaşı çox az görünürdü. Onun Nəsr diviziyasının komandiri olduğuna inana bilmirdik. Bir neçə gündən sonra da ilk dəfə Mehdi Bakirinin çıxışını dinlədik. O, həmin günlərdə Sepahın rəhbərliyi tərəfindən Aşura briqadasına komandir təyin olunmuşdu. Uşaqlar Əli Təcəllayinin komandir olmadığına görə narahat idilər. Hələ heç kim ağa Mehdi Bakirini tanımırdı. O, çıxışının əvvəlində bəzi Quran ayələrini oxudu, səlis tərcümə və təfsir etdi. Quranla ünsiyyətdə olduğu asanlıqla hiss olunurdu. O, erkən İslam çağının döyüşlərindən və müsəlmanların cihad vəzifəsindən danışdı. Ağa Mehdinin sadəliyi və sərbəstliyi hamını valeh etmişdi.

Bir neçə gün ərzində batalyonların sayı artdı. Yeni gələnlərdən Hürr batalyonunu qurdular və bölüklərə bir neçə güclü döyüşçü qatdılar. Saleh Allahyari[1] və Qulaməli Şücai də azad bir döyüşçü kimi bizim bölüyümüzə gəldilər.

1982-ci ilin payızının ilk günlərini arxada qoyduqdan sonra hazırlıq əmri verildi: «Komandirin icazəsi olmadan heç kim heç yerə getməsin».

Günortadan sonra bütün batalyon bir səngərə toplaşdı və Səfər Həbəşi əməliyyat planını izah etdi. Daşın üzərinə bir xəritə yapışdırmışdılar. Xəritədə Salman, 402, San-vapa yüksəklikləri və İraqın Məndəli şəhəri görünürdü. Bizim batalyonumuz Çəm-hindi boğazından keçib müdafiə mövqeyi seçməli, düşmənin oradan keçib bizim canlı qüvvəni mühasirəyə almasına və qayçılamasına mane olmalı idik. Çətin tapşırıq idi. Biz ən öndə gedəcək Şəhid Mədəni və Şəhid Səduqi batalyonları ilə hərəkət etməli idik. Onlar Salman yüksəkliyini tutmalı və biz oradan başlayan düzənliyə keçib müdafiə xətti qurmalı və növbəti əmri gözləməli idik.

Bir saatdan sonra batalyon komandirliyindən məni çağırdılar. Orada bir neçə nəfər də vardı. Biz əməliyyat zonasının yaxınlığında bir vaxtlar qazıntı şirkəti olmuş yerə təchizat və ərzaq aparmalı, batalyonun iki gün qalması üçün orada münasib bir yer tapmalı idik. Bundan ötrü hər bölükdən iki nəfər çağırmışdılar. Dərhal toyotanın arxasına yetərincə meyvə şirəsi, çörək və digər qida məhsulları yükləyib yola düşdük. Qazıntı şirkəti kələ-kötür bir dərədə idi və hələ də bəzi qazıntı alətləri orada qalmışdı. Batalyonun yerləşməsi üçün nisbətən təhlükəsiz bir yer seçdik və gecə əl-Mehdi batalyonunun komandir müavini Əvəz Aşuri[2] ilə birgə orada qaldıq.

Ertəsi gün günortadan sonra batalyon gəldi və qazıntı şirkəti canlandı. Uşaqlar yerləşənə qədər günəş batdı və Yəhya əmi həmişəki kimi azana başladı. O, Bəsic üzvü olan bir qoca idi. Həmişə azan verməsi onun spesifik xüsusiyyəti idi. Hətta gecə təlimində, istirahət zamanı, sübh çağı – namaz vaxtı olan kimi səsini eşidirdik. Namazdan və şam yeməyindən sonra istirahət etmək lazım idi, lakin səs-küy bitənə və dərəni sükut bürüyənə qədər bir

[1] Vəlfəcr-4 əməliyyatında Hürr batalyonunun komandiri ikən şəhadətə qovuşdu.
[2] Vəlfəcr-1 əməliyyatında şəhadət şərbətini içdi.

müddət ötdü. Əlbəttə, bu sükut da çox çəkmədi, çünki gözlənilmədən dərədə ortalıq qarışdı və yer-göy titrəməyə başladı.

Yuxu deyildi, oyaq idim və ardı-arası kəsilməyən partlayışların vahiməli səsi həqiqət idi. Başımı itirmişdim. Bütün uşaqlar bu vəziyyətdə idilər. Hər kəs özünü təhlükəsiz bir yerə çatdırmağa çalışırdı.

- Katyuşa ilə vururlar.

Dayanmadan atəş açılırdı. Bir raket bizim 40 metrliyimizdə partladı. Beynim işləmirdi. Uşaqların səs-küyü katyuşa raketlərinin gurultusu arxasında itmişdi. İki əlimlə başımı tutmuşdum. Bu zaman növbəti partlayış dalğası məni silkələdi. Başıma daş və torpaq tökülür, qollarım yanıb qanayırdı. Hələ qollarıma nə olduğunu bilmirdim. Batalyon komandirimiz Həbəşi də daxil olmaqla bir neçə nəfər daha çökək bir yerə sığınmışdılar. Mən də özümü oraya çatdırdım. Bəzi uşaqlar yaralanmışdılar. Əvəz Aşurinin sinəsinə qəlpə dəymişdi və çox qanayırdı. Hələ səs-küy və toz-torpaq yatmamış dayını gördüm. O, batalyonumuzun sürücüsü idi və nədənsə hamı onu dayı çağırırdı. Düz bizim ayağımızın altında uzanmışdı. Yerindən tərpənmədiyini görəndə çox təəccübləndim: «Uşaqlar, dayıya baxın, sanki bir neçə addımlığında katyuşa partlamır".

O kədərli və həyəcanlı anlarda gülümsəyə bildik, amma Həbəşi üzünü mənə tutub dedi: «Oğlan, bəlkə başına bir iş gəlib?!»

– Bilmirəm. Gedib fənərlə baxaram.

Fənəri üzünə tutanda yuxuda olduğunu düşündüm, amma bir neçə saniyədən sonra gördüklərimdən ürəyim parçalandı. Zəif işıq altında qarnının yarıldığını və içalatının bayıra töküldüyünü gördüm. O, sakit, səssizcə şəhid olmuşdu. İlk dəfə idi ki, o vəziyyətdə bir şəhid görürdüm. Uşaqlar deyirdilər ki, böyük ehtimalla o, raketin zərbə dalğasında olub, çünki qəlpə nə qədər böyük olsa da, belə bir iş görə bilməz. Qardaş Həbəşi dedi: «Maşının açarını cibindən götürün, özünü ədyala bükün».

Açarları cibindən çıxaranda əlim isti qanı ilə islandı. Uşaqların köməyi ilə bədənini ədyalın arasına yığıb digər şəhidlərin yanına apardıq.

Səma işıqlanmaqda idi. Ağır yaralıları təcili yardım bölməsinə aparırdılar. Orada bir neçə otaq vardı, lakin cərrahiyyə əməliyyatları mümkün deyildi.

Namazdan sonra qollarım haqda fikirləşdim. Bədənimə xırda qəlpə və daşlar batmış, qollarımın üstündə qan qurumuşdu. Təcili yardıma getdim və bir həkim qollarımı sarıdı. Yaralar dərin deyildi, amma güclü ağrısı və göynərtisi vardı. Onun işi bitəndən sonra məni gülmək tutdu. Həkim çiynimdən barmaqlarıma qədər hər iki qolumu elə sarımışdı ki, açıb-bükə bilmirdim. Hərəkətsiz oturduğum halda «qardaş doktor, mən əməliyyata getmək istəyirəm, belə olmaz axı» - dedim, o da dirsəkdən yuxarıdakı bandları açdı və mən qollarımı əyib silah götürə bildim.

Təcili yardımdan çıxdım. Səhərin aydınlığında ətrafı daha yaxşı görə bilirdim. Sanki düşmən bizim yerləşdiyimiz yeri öyrənmiş və haranı

vuracağını bilirmiş. O zaman ölkəmizin qərbinin kürdlər yaşayan bölgələrində beşinci kolonun fəaliyyəti güclü idi. Güman ki bizim hərəkətliliyimiz düşmənin qulağına çatmışdı. Şəhid və yaralılar arxa cəbhəyə aparıldılar. Əl-Mehdi batalyonunun komandir müavini Əvəz Aşuri də digər yaralılarla geriyə getdi. Batalyonumuz ümumilikdə 10-15 şəhid və yaralı vermişdi.

Sepahın komandanını İlk dəfə onda yaxından gördüm. Möhsün Rzayi uşaqların yanında dayanıb onlarla söhbət edirdi. Günorta idi. Səhərki bombardmandan, bəzi yoldaşlarımızın şəhid edilməsindən yalnız bir neçə saat ötürdü. Günortaya qədər komandirlər batalyonların nizam-intizama salınması və şəxsi heyətin yerləşdirilməsi ilə məşğul olmuşdular, günorta da qardaş Rzayi briqadamıza gəlmişdi. O, əməliyyatdan, bizim müdafiə işimizin mühüm və çətin olmasından və düşmənin oradan mütləq hücuma keçib bizim öndəki uşaqlarımızı qayçılamaq istəyəcəyindən danışıb deyirdi: «Aşura briqadasının döyüşçüləri İmam Hüseyn (ə) aşurasını canlandırmalı, İmam Hüseyn (ə) kimi vuruşmalıdırlar». Onun sözləri uşaqları çox ruhlandırdı.

Aşxamüstü hava buludlu idi. Bölüyümüzə xoylu uşaqlardan bir rabitəçi gəlmişdi və mən snayper olmuşdum. Çoxmilliyyətli əl-Mehdi batalyonu hücuma hazır idi. Hərə bir tərəfdə, bir qədər xəlvət yerdə son saatlarını keçirirdi. Bəzilərinin başı münacata qarışmışdı. Bir dəstə uşaq bir yerə toplaşıb son söhbətlərini, zarafat və vəsiyyətlərini edirdilər. Bəziləri də xəlvət bir yer tapıb yazırdılar. Yavaş-yavaş hərəkətə hazırlıq komandası eşidildi. Bu gecə nə baş verəcəyini səbirsizliklə gözləyirdim.

Sıraya düzüldüm və hərəkət başlandı. Yəhya əmi şam azanını verirdi. Əməliyyat istiqamətinin başçısı Həbib Paşayi[1] hündür bir yerdə dayanmışdı. Günəş onun arxa tərəfində qürub edirdi. Əynində partizan forması vardı, başına çəfiyə dolamışdı. Nurlu siması, sıx saqqalı və cəsur görkəmi ona xüsusi əzəmət verirdi. Onu Fəthülmübin əməliyyatında da görmüşdüm; bölük komandiri idi. Süsəngirddə bir müddət Təbriz döyüşçülərinin tibb məntəqəsinin başçısı olduğuna görə o zaman Doktor ləqəbi ilə məşhurlaşmışdı. Həbib hündür bir yerdə dayanmışdı və səsi dərədə əks-səda verirdi. Onun «Əgər siz Allaha yardım etsəniz, O da sizə yardım edər və addımlarınızı möhkəmlədər!»[2] sözlərindəki əminliyi bizə çox müsbət təsir edirdi.

IV

Dərənin eni bəzən 60 metrə çatır, bəzən daha da böyüyür və İraq tərəfdə bitirdi. Dərənin qumlu və daşlı yeri mövsümi Çəm-hindi çayının oradan keçdiyini göstərirdi. Təxminən bir saat yürüşdən sonra kolon yolunu dərənin kənarına yaxınlaşdırdı, sonra yuxarı qalxıb hərəkəti düzənlikdə davam

[1] Müslim ibn Əqil əməliyyatının ilk günlərində qərarsızlığının əvəzini alıb şəhadətə qovuşdu.
[2] Muhəmməd, 7.

etdirdik. İlk dəfə orada bildim ki, bir kəşfiyyatçı öndə gedir və batalyona bələdçilik edir.

Bizim müdafiə mövqeyi seçəcəyimiz bölgə həmin düzənlik idi. Təxminən gecə saat ikidə bizi təpələrin birində yerləşdirdilər.

– Burada dayanıb əməliyyatı gözləyirik.

Müslim ibn Əqil döyüşü 1982-ci ilin 1 oktyabrında «Ya Əbəlfəzl-Abbas» parolu ilə başlandı. Qaranlıq bir gecə idi. Get-gedə açılan atəşlər elə bir həddə çatdı ki, səhv gəldiyimizə şübhəm qalmadı. Düşünürdüm ki, biz əsas döyüş yerinə bu qədər yaxınlaşmalı deyildik. Daim ətrafımızda raket partlayırdı. Yaxınlığımda məndən çox bilən bir adam da yox idi. Təxminən 10-12 nəfər idik. Ürəklənib dedim: «Məncə, biz yanlış gəlmişik». Onlar da mənimlə eyni fikirdə idilər. Dedim: «Gedək taqım komandirinin yanına və...» Ətrafda heç kim yox idi. Döyüşçülərin çoxu oranı tərk edib əsas tapşırıq yerinə getmişdilər, biz isə onlardan öndə olduğumuza görə xəbər tutmamışdıq.

Soyuq gecə idi. Orada qaldığımızı öyrənəndə narahat olduq. Hansı yolla olursa-olsun, oradan uzaqlaşmalı idik. Hərçənd, döyüş o qədər şiddətli idi ki, asanlıqla keçmək olmazdı. Düşmənə o qədər yaxın idik ki, avtomatla atəş açırdıq. Bütün müddəti əsas əməliyyat hədəflərindən biri olan Salman yüksəkliyinin yaxınlığında olduğumuzu bilmədən orada qalmışdıq.

Birdən ağlıma gəldi ki, uşaqları keçidə aparım. Dedim: «Döyüşçülərin çoxu buradan keçirlər, gedək orada batalyonu axtaraq».

Təxminim doğru idi. Dərədə çox adam var idi və xoşbəxtlikdən, çox tezliklə Cəmşid Nəzmini gördüm. Onu öncədən tanıyırdım, Məhəmməd Məhəmmədpur tanış etmişdi. O, həm də Mənuçöhr Simsarinin əmisi oğlu idi. Cəmşid Nəzmi Yasir Zirəkin başçılıq etdiyi Şəhid Səduqi batalyonunda bölük komandiri idi.

– Qardaş Nəzmi, biz itmişik.

– Sizin batalyonunuz öndədir. Mənimlə gəlin, mən də oraya gedirəm.

Çox keçmədən Bayraməli Verməzyarinin tanış üzünü gördüm. Yaşı on səkkizdən çox olmasa da, güclü bədəni vardı. Görmüşdüm ki, hər bir minomyotçu köməkçisi yalnız üç əlavə RPG raketi götürürdü, o isə bölük komandiri olmasına baxmayaraq, səkkiz RPG raketini kisəyə qoyub çiynində aparırdı. Onunla birgə tezliklə öz batalyonumuzun uşaqlarına çatdıq. Təpənin başında özümüzə səngər düzəltməli idik. Uşaqların biri ilə işə başladım və süngü ilə müştərək bir səngər qazdıq.

Ötən gecədən güclü atəş davam edirdi. Salman yüksəkliyi birinci gecə bizimkilərin hücumu ilə ələ keçirilmişdi və indi düşmənin ardıcıl əks-hücumları aman vermirdi. Təxminən saat 11-də təchizat qüvvələri dolu maşınlarla təpənin yamacına çatdılar. İmkan tapıb oraya getdim. Bərk gözüm tutan bir qarpızı götürüb tez səngərimizə döndüm. Əlimdə qarpız səngərə yaxınlaşarkən birdən yoldaşım səslədi: «Mehdi, yerə uzan!»

Yerə uzandığım anda üstümdən güclü bir küləyin keçdiyini hiss etdim. Mərmi yaxınlıqda bir daşa dəyib bərk gurultu qopardı. Deyəsən, qarşıdakı təpədən məni 106 topu ilə hədəf seçmişdilər. Əgər o müştərək səngər olmasaydı və o yoldaşım topun alovunu görməsəydi, məndən nə qalacağı bəlli deyildi.

Günortadan sonra amansız raket atəşi yağmağa başladı. Bir raket atılandan sonra 4-5 nəfər yerə uzandı və başıma bərk bir şey dəydi. Qeyri-iradi olaraq əlimi başıma çəkdim. Qan yox idi. Bildim ki, soyuq bir qəlpə imiş.

Batalyonun ağsaqqalı Yəhya əmi də su bakının yanında yaralandı. Çox fəal idi; düşmənin əks-hücumuna cavab verir, yaralı və şəhidləri daşıyırdı. Bir saatdan sonra eşitdik ki, Yəhya əmi təcili yardıma aparılarkən şəhadətə qovuşmuşdur.

Səma buludlu idi. Oktyabrın ikinci günü bitmək üzrə idi. Mən iki dəfə möcüzəvi şəkildə top mərmisindən və raket qəlpəsindən qurtulmuşdum. Get-gedə hava qaraldı. Yəhya əminin azan səsini eşitmədən namaz vaxtının çatdığını bilmək darıxdırıcı idi. Qarşımızdakı yüksəklikdə yerləşən Salman zastavası düşmənin əlinə keçmişdi. Təəssüf ki, uşaqlar dəstək olmadan güclü atəş altında yalnız bir gecə duruş gətirə bilmişdilər.

Əməliyyatın ikinci gecəsi idi. Öncəki gecədən fərqli olaraq, bölgə sükuta qərq olmuşdu. Soyuqdan dişlərim bir-birinə dəyirdi. Bizdən öndə bir dəstə döyüşçü keşik çəkirdi. Bir neçə kisəni üstümə çəkdim, amma soyuq azalmadı. Günəş səhər saat 10-da buludların arxasından çıxana qədər əksər uşaqlar kimi soyuqdan titrədim.

Səhər yenidən atışma başlandı. Düşmənin 106 topları qarşıdakı yüksəklikdən atəş açırdı. Bir tərəfdən yorğunluq, soyuq, təchizat bölməsinin uşaqlarının şəhid olduğuna görə su və yemək çatışmazlığı vardı, bir tərəfdən də yuxusuzluq bizi əldən salmışdı. Həmin vəziyyətdə hücuma hazırlıq əmri verildi. Qardaş Həbəşinin dediyinə görə, hədəfimiz Salman yüksəkliyi idi. Əməliyyat yolu izah olundu və bölüyümüzə Sumar yolunun üstündəki körpünün altından keçmək tapşırıldı. Ondan sonra asfalt yol, sonra da minalar döşənmiş bir dərə və daha sonra Kəlləqəndi yüksəkliyi gəlirdi. İraqlılar həmin yüksəklikdə pusqu qurmuşdular. Üçüncü bölük Kəlləqəndiyə hücum etməli idi. Biz onun önündəki cığırdan keçib Kəlləqəndini dövrə vurmalı və pusquların arxasındakı keçidlərdən Salman yüksəkliyinə qalxmalı idik. Əməliyyatın parolu «Ya Əbəlfəzl» olduğuna görə yola düşəndə uşaqların çoxu qumqumalarının suyunu boşaltdılar. Yolda qəribə hadisələr baş verirdi; düşmənin bizi görüb atəş açа bildiyi yerlərdə buludlar önümüzü tutur və hava qaralırdı.

Yolda çox dayandığımıza görə səhərin ala-toranlığında pusqulara çatdıq. İkinci taqım kolonun önündə gedirdi. Bayraməli Verməzyari və Saleh Allahyari ən öndə idilər, mənsə üçüncü adam idim. Hələ düşmən duyuq düşməmişdi. Dərədən yuxarı qalxırdıq. Daş və qumlar ayaqlarımız altında

diyirlənib sürətimizi azaldır, səs-küyü isə artırırdı. Elə o zaman pulemyotlardan atəş açıldı. İraqlılar dərəni görmüş və hərəkətimizdən xəbər tutmuşdular. Təpənin başında dərəni aydın görən dördlü bir zenit pulemyotu vardı və hər atəşi ilə bir dəstə adam yerə yıxılırdı. Lakin hərəkət sürətlənmişdi və uşaqlar qaçaraq təpəyə dırmaşırdılar. Dördlü pulemyota yaxınlaşdıqca təhlükə də artırdı, amma heç kim daldalanmaq barədə fikirləşmirdi. Fərhəng Ətrəhinin arxasınca Haşim adlı bir minomyotçu qalxırdı.

-Haşim, keç qabağa, bu pulemyotu vur.

Haşim mənim qarşıma keçib atəşə hazırlaşdı, amma hələ atəş açmamış qışqırtısını eşitdim: «Vay, gözüm!»

Hər iki gözündən qan axırdı. Mən nə baş verdiyini bilmədim; ya güllə dəymişdi, ya qəlpə, ya da hər ikisi.

Yerdən bir qədər yuxarı çıxmış bir daş parçasını gördüm. Öndəki təpəyə qarşı səngər şəklində olmasından əlavə, oradan daha rahat atəş açmaq olurdu. Haşimin RPG minaatanını götürüb daşın arxasına qaçdım. Hər tərəfdən güllə yağırdı; Salman yüksəkliyindən, Kəlləqəndi dağından və digər yerlərdən. «Ya Əbəlfəzl-Abbas!» deyib nişan aldım və elə o anda mənə tuşlanmış bir minaatanı gördüm. Təxminən ikimiz də eyni zamanda atəş açdıq. Atəşimin nəticəsini görməyə macal tapmadım. Çünki düşmənin raketi daşa dəyib gurultu qopardı və vahiməli səs məni silkələdi. Dizi üstə əyildim. Qəlpə baldırıma dəyib sümüyünü sındırmışdı. Mən raketi atanda Fərhəng arxamca qaçırdı, bildim ki, bu partlayışdan xəsarət alacaq. Ona sarı döndüm. Yerə yıxılmış və qəlpə sinəsini yarmışdı. Başının üstünə getdim. Gözünün qarası itmişdi və sinəsindən isti qan axırdı. Ətrafıma baxdım. Bayraməli ilə Saleh yuxarı çıxırdılar. Özümü toplayıb mən də qalxmaq istədim, amma alınmadı. Hərəkət edə bilmirdim. Bir tərəfdən də uşaqların çoxunun yaralandığını və şəhid olduğunu, sağ qalanların da düşmənin güclü atəşi altında qaldığını görürdüm. Bir neçə dəqiqədən sonra Verməzyari təpədən enib mənə yaxınlaşdı.

– Mehdi, necə olursa-olsun, Kəlləqəndiyə çıxın.

Onun nə üçün qayıtdığını bilmirdim. Hava tam işıqlanmış və bəlkə də bu şəraitdə Salman yüksəkliyinə çıxmağın imkansız olduğunu anlamışdı. O getdi və silahıma söykənib qalxdım. Özümü zorla Kəlləqəndinin yamacına çatdırdım. Kəlləqəndinin hündürlüyü təxminən 200 metr idi və mən o vəziyyətdə qalxa bilməzdim. Kəlləqəndinin yoluna sarı getdim, yolla qalxanda iraqlıların qarşıdakı təpələrdə, bizim altından keçdiyimiz körpünün yaxınlığında yerləşdiklərini gördüm. Beləliklə, düşmən bizimlə əsas mövqelərimizin arasına girmişdi. Uşaqların çoxu düşmənin güclü atəşinə görə dərənin içində qalmışdılar. Vəzifəmin Kəlləqəndiyə çıxmaq olduğunu düşünürdüm. Çətin olsa da, orada qalmaqdan yaxşı idi. Yavaş-yavaş yuxarı dırmaşmağa başladım.

Çox çətinliklə qalxdım və nəhayət, öz uşaqlarımızın göründüyü yerə çatdım. Uşaqların arasında Xeyirsiz Xeyrullah kimi məşhur olan Xeyrullah Mətləb, batalyonun başqa bir qocası Qulaməli Fərhadi, taqım komandirlərindən biri, tanımadığım bir minomyotçu və başqa bir neçə nəfər düşmənə atəş açırdılar. Aşağıdakı dərəni yaxşı görüb daha yaxşı atəş açmağa yer axtarırdım. Oturan kimi Xeyrullah da yanıma gəldi. Bir neçə yoldaşla və yaralı bədənlə müqavimət göstərirdik, olmayan yeganə şey isə qorxu idi. Əməliyyatın «Ya Əbəlfəzl-Abbas» parolu bir an da yadımdan çıxmırdı. Əmin idim ki, dişinə qədər silahlı düşmənin önündə o ana qədər həzrət Abbasın duası sayəsində müqavimət göstərə bilmişik.

Şiddətli döyüş əsnasında birdən Xeyrullahın səsi gəldi. Qarnına güllə dəymişdi. O, Herisdən idi və Heris ləhcəsi ilə zarıyırdı. Bilmirəm nədənsə məni gülmək tutdu.

– Gəl qarnımı bağla, nə gülürsən?!

Bandı paltarlarının üstündən qarnına bağladım.

– Xeyrullah, en aşağı, bu vəziyyətdə burada qalsan, əsir düşəcəksən.

Xeyrullah əlini qarnına qoyub aşağı enməyə başladı. Hələ uzaqlaşmamış bandın düyünü açıldı və ağ band arxasınca sürünməyə başladı. Bu da mənim və digər uşaqların gülüşünə səbəb oldu.

Bir neçə dəqiqədən sonra yenə uşaqların səsini eşitdim: «Verməzyari yaralanıb». Yerimdə dura bilmədim. Özümü uşaqların göstərdiyi tərəfə sürüdüm. Raket qəlpəsi sinəsini yarmışdı və güclü qan axırdı. Hərəkətə başlayandan bir an da istirahət etməmiş adam başı-bədəni qan içində dostlarının arasında qalmışdı. Gözlərini açdı. Müavini Əsəd Rəcəbpurla mən yanında idik.

– Yaramı bağla.

Zəif səslə bunu deyib huşunu itirdi. Üçkünc dəsmalla sinəsinin dərin yarasını bağlamağa çalışdım, amma qanaxma güclü idi və dəsmal dərhal qızardı. Əsədlə onu təhlükəsiz bir yerə aparmaq istədik, amma mən də hərəkət edə bilmirdim. Bir-iki nəfərə tapşırdıq ki, onu Kəlləqəndinin aşağısındakı dərəyə aparsınlar. Getdilər və daha özləri də yuxarı qalxmadılar.

Bir az da azaldıq. Sayımız barmaqların sayından artıq deyildi və hər an yeni bir hadisə baş verirdi. Qəribə hisslər keçirirdim. Hava tutulmuşdu, narın yağış yağırdı. Ağrı, yorğunluq və darıxmaq bir-birinə qarışmışdı. Uşaqların başqa birinin qışqırtısına yenidən diksindim. Ona sarı döndüm. Minomyotçu yanırdı. Güllə bel çantası kimi kürəyinə bağladığı raketlərin barıtına dəymişdi. Ağrılı qışqırtıları ürəyimi yandırırdı. Məndən təxminən 20 metr aralıda idi. Var gücümü toplayıb yaralı ayağımı yerə uzatdım və ona tərəf sürünməyə başladım. Mənə baxır, alov da get-gedə güclənirdi. Ürəkyandıran səslə qışqırıb deyirdi: «Təcili yardım... Yardım...» Alov bütün bədənini sarımışdı. Gözüm onda idi və yanına çatmağa çalışırdım. Əlini üzünə çəkəndə barmaqlarının yeri

ağardı. Yerə yıxıldı və daha səsi gəlmədi. Yanmış ət qoxusu boğazımdakı qəhərə düyünləndi. Narahatlığımın həddi-hüdudu yox idi.

Həbəşinin ratsiyadan gələn səsi məni bezdirmişdi. Ratsiyaya qəlpə dəymişdi; biz onun səsini eşidirdik, dayanmadan çağırırdı, amma nə qədər qışqırırdıqsa, bizi eşitmirdi.

Ümidimi üzmüşdüm. Ratsiyanı kənara tullayıb dərəni yaxşı görmək üçün özümə əlverişli mövqe seçdim. Düşmən kolonu Kəlləqəndi yüksəkliyinə qalxırdı. Birtəhər ayağa qalxıb silahımı bədənimə sıxdım və atəş açmağa başladım. Çox darıxırdım. Səma buludla dolu idi və dayanmadan yağış yağırdı. Yaxınlığımdakı daşlara dəyib geri qayıdan güllələrə, müxtəlif yerlərə düşən raketlərə və RPG minaatanının arxasındakı fırfıranın bezdirici səsinə fikir vermədən atəş açırdım. Məndən başqa üç nəfər də vardı. Düşmən Salman yüksəkliyindən də bizə atəş açırdı. Heç nə düşünmürdüm, yalnız son gülləmdən sonra gözlərim önündə qan içində yatan uşaqların getdiyi yerə getmək istəyirdim.

Bizimkilərin bir kolonu başqa bir təpədən qalxırdı. Şəhid Behişti batalyonunu Kəlləqəndiyə köməyə göndərmişdilər, lakin bir batalyondan yalnız otuz nəfər təpəyə qalxırdı, qalanı dərənin içində qalmışdı; bəzisini yara əldən salmışdı, çoxunu da qorxu. Gözüm onlarda idi. Arabir onların da birinə qəlpə və ya güllə dəyirdi. Onlar gələndən sonra sayımız on beşə çatdı. Düşmənin atəşi isə hər an güclənirdi. Yeni qüvvələr bölgəni tanımırdılar, gəldikləri çətin yolda yorulmuş, çoxu isə yaralanmışdı. Düşünürdüm ki, o vəziyyətdə yeganə yolumuz Kəlləqəndidən enməkdir. Lakin asanlıqla qayıda bilməzdim. Bölük komandirlərindən biri təpənin başında tək qalıb atəş açdığımı görəndə hirslənib dedi: «Qalx, rədd ol, burada niyə qalmısan?!»

İraqlılar təpəyə qalxırdılar. Orada qalıb düşmənin əlinə keçmək istəmirdim. Sınıq ayaqla yeriyə də bilmirdim. Yerə oturub ayağımı önümə uzatdım və əllərimin köməyi ilə özümü irəli itələməyə başladım. Demək olar ki, daşların üstündən sürüşə-sürüşə enirdim. Mən dərəyə çatanda iraqlılar Kəlləqəndi təpəsinə çıxmışdılar. Düşmənin amansız atəşi bir an da səngimirdi, lakin daha heç nə önəmli deyildi, silahımı əsa edib dərənin içindən körpüyə doğru getdim. Həm Kəlləqəndidən, həm də iraqlıların əlində olan qonşu təpələrdən dərəyə atəş yağırdı.

Elə əvvəldən güllə qorxusundan yerə çökmüş, dərənin kənarlarına uzanmış əsgərləri görəndə hirslənirdim. Orada yarası mənim ayağımdan ağır olan az adam gördüm, bilmirəm nə üçün orada qalmışdılar. Tanıdıqlarımı adları ilə çağırırdım: «...Çalış özünü qaldır və geriyə çəkil, iraqlılar yaxınlaşırlar. Burada qalsan, ya əsir düşəcəksən, ya da bir güllə ilə işini bitirəcəklər».

– Mən yaralıyam, sən get, mən gələ bilmirəm.

Uşaqların bir neçəsinin təhlükəsizlik tövsiyələrindən daha da əsəbiləşib yola düşdüm. Onlar deyirdilər: «Yerə uzan, atəş açırlar. Bu ayaqla nə qədər uzaqlaşa bilərsən?! Burada qal».

– Qalxın, geriyə çəkilin! Gəlsələr, işiniz bitdi...

Bəziləri çətinliklə hərəkətə başladılar. Uşaqların biri ağlaya-ağlaya mənə yaxınlaşdı. Onu tanıyırdım, Miyanədən Sabir Kələntəri idi. Onunla bir bölükdə idik.

– Nə üçün ağlayırsan?

– Bütün dostlarım şəhid oldular...

– Uşaqlıq eləmə, indi ağlamaq vaxtı deyil. Gəl kömək elə, geri qayıdaq.

Qolumu çiyninə saldım və yola düşdük. Bir neçə addım öndə Şəhid Behişti batalyonunda olan qonşumuz Rəsul Mərcanini gördüm. Qəlpə diz qapağını parçalamışdı. Ona dedim: «Mənim kimi silahını yerə söykə və gəl».

Sabir Rəsulla məni körpünün yanına qədər gətirdi. Körpünün altında gördüyüm ilk şəxs Səfər Həbəşi idi. Nəhayət, dərdimi deməyə bir adam tapmışdım. Qəzəb və qəhər içində dedim: «Hamınız buraya toplaşmısınız və heç bir iş görmürsünüz. Yuxarıda uşaqlar faciəli şəkildə şəhid oldular, lakin dərədə bu qədər canlı qüvvə var. Bir iş görün. Verməzyari də yaralanıb və bilmirəm uşaqlar onu haraya qoyublar».[1]

Qardaş Həbəşi durumumu anlayıb sakitcə və mehribancasına dedi: «Yorulmayasan! Siz əlinizdən gələni etdiniz...»

Sabir qayıtdı,[2] Rəsulla mən isə körpünün o tərəfində təcili yardım maşınına minib qazıntı şirkətinə qayıtdıq. Orada köhnə dostum Cavad Fərzamianı gördüm. O, mənə kömək etdi və gilas şirəsi içirtdi. Halım pis idi, ürəyimin yerində başqa bir isti şeyin döyündüyünü hiss edirdim. Ayağıma görə Baxtəran hospitalına köçürüldüm, halbuki içimin yarası ayağımın sınığından qat-qat dərin idi.

[1] Bir neçə aydan sonra Bayraməlini gördüm. O, üç gün yaralı vəziyyətdə düşmənlərin arasında qalmışdı. O, deyirdi: "Mən susamışdım və bir şəhidin qumqumasından su içirdim. Lakin nə qədər içirdimsə, qumqumanın sərin suyu azalmırdı". Bayraməli Verməzyari cəbhəyə gələn gündən gündəlik xatirələrini çox diqqətlə kiçik cib dəftərçələrinə yazırdı. Xalqımızın səkkizillik qəhrəmanlığının sənədi olan bu xatirələr çapa hazırlanır.

[2] Sabir Kələntəri dərəyə qayıdandan sonra bölük komandiri qardaş Şücai və başqa bir neçə nəfərlə irəli getmiş və düşmənlə döyüşdə şəhid olmuşdu.

Kəşfiyyat bölüyü

I

Üzümə sərin külək dəyirdi. Kölgəm də özüm kimi axsayırdı. Hospitalda ciddi tapşırmışdılar ki, evdə istirahət edim, mənsə əsla evə qayıtmaq istəmirdim. Yaralı ayağımı yavaş-yavaş çəkə-çəkə məqsədsiz yeriyirdim. Bu müddətdə ev, məktəb və şəhər haqda bir dəfə də fikirləşməmişdim.

Baxtəranda ayağımı gipsə salmış və bir gündən sonra Təbrizə köçürmüşdülər. Təbrizdə də bir sutka xəstəxanada yatandan sonra evə buraxdılar. Bir neçə ay qalmaqla cəbhəyə bu qədər bağlanacağımı düşünməzdim. Darıxırdım. "Evə necə gedim?! Nə edim ki, yaralandığımı bilməsinlər?! Məktəbə necə gedim?! O məktəbdə çoxlu şəhidlərin yeri boş qalmışdı: Səməd Bəxtşükuhi, Mənuçöhr Simsari, Məhəmmədbaqir..."

Özüm də bilmədən Saat meydanına çatdım. Bələdiyyənin binasında fotosərgi keçirilirdi. Evə gec getmək istədiyimə görə tam mənə görə bir yer idi. İçəri girəndə əziz dostum Məhəmməd Məhəmmədpuru gördüm. Hər ikimiz sevindik. Məhəmməd o zaman gecə məktəbinə gedir, gündüzlər də Sepahın təbliğatında çalışırdı. Sərgini Sepah təşkil etmişdi. Vəziyyətimi görəndən sonra dost nəsihətlərinə başladı.

– Get evə. Bu vəziyyətdə nə vaxta qədər küçələrdə oyan-buyana gedəcəksən?! Evdə yəqin ki narahatdırlar...

Başqa bir yolum yox idi. Birinci taksiyə minəndə sürücü deyinməyə başladı: «Ağa can, tələs! Qocalara min rəhmət...»

Ayağımın ağrısı artmışdı. O vəziyyətdə hər bir kiçik məsələ qəlbimi qırırdı. Heç kimin yaralandığımı bilməsini istəmirdim. Çox çalışdım ki, cəld minim, amma bacarmadım. Maşın yola düşəndən sonra sürücü məsələni soruşanda da həqiqəti deyə bilmədim.

– Bir şey deyil, qəzada ayağım sınıb. İndi yaxşıyam...

Əslində isə yaxşı deyildim, halım çox pis idi, ağrıya dözə bilirdim, amma heç kimin məni başa düşmədiyindən narahat idim. Vəziyyətlə barışmağa çalışırdım: «Axı bu camaat haradan bilsin ki, mən üç gün öncə alovla qan arasında olmuşam və indi evə qayıdıram?!» Küçəmizə çatdım. Yəqin ki məhəllə sakinləri mənim yoxa çıxmağımdan cəbhəyə getdiyimi bilmişdilər. Axsadığımı görən kimi yaralandığımı anlayacaqdılar və mən bunu istəmirdim.

Bunu cəbhədə öyrənmişdim. Cəbhə uşaqları digərlərinin onlar haqda yüksək düşünmələrinə səbəb olan işləri ya tərk edir, ya da gizlicə görürdülər. Ehtiyatla yeriməyə çalışırdım. Bilirdim ki, yaralanmağımın evdə də nəticəsi olacaq və cəbhəyə qayıtmağım çətinləşəcək.

Ailəmin sevincini görəndə narahatlığım ikiqat artdı. Hər biri təbəssüm və baxışları ilə deyirdilər: «Allaha şükür ki, əməliyyat olub və sən sağlam qayıtmısan». Pillələri yavaş-yavaş qalxırdım. Hər pillədə dayanıb ciddi və ya

zarafata bir söz deyirdim ki, kimsə ayağımın sındığını bilməsin. Lakin bacım çox tez anlayıb dedi: «Nə olub, dadaş? Nə üçün belə yeriyirsən?»

– Nə?! Yox əşi, təzə çatmışam, elə bilirsiniz ki, çox dəyişmişəm...

Lakin əsas problemi düşünməmişdim; otağa girəndən sonra yerdə oturmaq lazım idi. Hamının gözü məndə idi. Adam kimi oturmağa çalışdım, amma bacarmadım. Nəticədə, həm özüm çox ağrı çəkdim, həm də sınmış və gipsə salınmış ayaqla otura bilmədim. Atam bunu duyub dedi: «Oğul, nə olub?»

– Ağa can, bir şey deyil, küçənin başında ayağım burxuldu, yıxıldım. Bir az ağrıyır.

Atam ağladı. Xoşbəxtlikdən, digərləri söhbəti dəyişdirdilər. Bir saatdan sonra qardaşım Rza bir bəhanə ilə məni başqa otağa apardı. Gizlətməyin faydası yox idi. Dedim ki, yaralanmışam və səhər xəstəxanadan çıxmışam. İsrarla yaralarımı görmək istədi. Utanırdım. Lakin görəndən sonra arxayın oldum və bu haqda o birilərə açıqlama verməkdən qurtuldum. Mən olmayanda qardaşım hər şeyi başa salmışdı.

***

Günlər ötürdü. Qardaşım məni tez-tez həkimə aparırdı. Get-gedə ayağım yaxşılaşırdı, lakin hər gün daha çox darıxırdım. Cəbhədə tapdığımın və daddığımın yerini nə məktəb, nə məscid, nə məhəllə, nə də ev verə bilirdi. Müharibənin yalnız xəbərlərini eşidən adi və yeknəsəq şəhər həyatı ilə müqayisədə cəbhə uşaqlarının mənəvi paklığını və səmimiliyini dərk etməyə başlamışdım.

45 gün idi Təbrizdə idim. Bəzən evdə getməkdən danışır, amma çox tez peşman olurdum. Düzdür, cəbhə barədə əvvəlki kimi acıqlılıq yox idi, yumşaq danışırdılar, amma əsas sözləri bu idi ki, hər dəfə cəbhəyə gedəndə yaralanıram və hər dəfə yaralarım pisləşir. Lakin bir gecə gördüyüm yuxu məni nəyin bahasına olursa-olsun, cəbhəyə getməyə vadar etdi. Yuxuda gördüm ki, məktəbdə çiynimə bir əl toxundu. Dönüb gördüm ki, Şəhid Mənuçöhr Simsaridir. O mənə dedi: "Sən nə üçün burada qalmısan?! Gəl, birlikdə gedək». Mən getmədim, amma Xəlil Səburi onunla getdi.[1]

Bir neçə gündən sonra cəbhəyə ezam xəbərini eşitdim. 1982-ci ilin dekabrında, şəhərdə iki ay davam gətirəndən sonra bütün sözlərə rəğmən, özümü cəbhə yolçularına çatdırdım. Bu dəfə məni başqa bir şey narahat etməyə başladı. Hamı Kürdüstandan danışırdı. Dua edirdim ki, şayiə olsun. Lakin deyəsən, ciddi idi və döyüşçüləri oraya göndərirdilər. Özümü Kürdüstana getməyə heç cür razı sala bilməyəndə ezam müdiri Əvəz Məhəmmədiyə yaxınlaşdım.

[1] Yuxum Xeybər əməliyyatında çin çıxdı və Xəlil şəhidlər karvanına qoşuldu. Onun pak cəsədi illərlə itkin düşəndən sonra 1998-ci ildə Rəhmət vadisi məzarlığında, qardaşı Məhəmməd Səburinin qəbri yanında torpağa tapşırıldı.

– Mən cənuba getmək istəyirəm... Mən Aşura diviziyasına qoşulmaq istəyirəm, əvvəl də orada olmuşam...

İsrarımın faydası olmadı. Nəticədə, hamı getdi, mənsə qəlbisınıq halda evə döndüm.

Yenə Məhəmmədin yanına getdim. Biz bir-birimizi yaxşı başa düşürdük. O, ailəsinin maddi problemlərinə görə işləməyə məcbur idi, mən də yalnız cənub eşqinə düşmüş ürəyimin əsiri olmuşdum. Danışdıq və qərara gəldim ki, təkbaşına cənuba gedim. Düşünürdüm ki, bəlkə mənim kimi başqaları da Kürdüstana getməkdən imtina edib bu günlərdə cənuba yollanarlar. Məhəmməd kömək etməyə hazır idi. Aşura diviziyasının Baxtəranın harasında yerləşdiyini asanlıqla öyrəndim. Öncəki planla, hamam bəhanəsilə cəbhəyə yola düşdüm. Yolda Məhəmmədin dözümlülüyü və məni dəli kimi özünə çəkən cəbhənin cazibəsi haqda düşünürdüm.

II

Avtobusla Baxtərana yola düşdüm. Mənim kimi bir neçə nəfər də Aşura diviziyasının eşqi ilə gedirdi. Xoşbəxtlikdən, təzəlikcə diviziyaya çevrilmiş qərargahın yerləşdiyi yeri tanıyırdım. Ora bir neçə ay öncə ratsiya təlimi keçdiyimiz məktəb idi. Gedib gecəni orada yatdıq.

Cəbhəyə ilk gəldiyimdə təlim yoldaşlarımdan biri Hüseyn Nuri olmuşdu. Onun kəşfiyyat bölüyünə getdiyini eşitmişdim. Tək qalmamaq, məktəb yoldaşım və dostumla bir yerdə olmaq üçün "kəşfiyyat bölüyü" sözünü əzbərləmişdim ki, haraya getmək istədiyimi soruşsalar, söyləyim.

Səhər çağı bölgü müdiri Qəhrəman Zareinin yanına getdim. Salamlaşandan sonra qovluğumu açа-açа soruşdu: «İndi haraya getmək istəyirsən?»

- Kəşfiyyata. Kəşfiyyat bölüyünə getmək istəyirəm.

Elə ciddi və əminliklə dedim ki, sanki uzun müddət kəşfiyyatda olmuşdum. Ürəyimdə deyirdim ki, kimsə məndən kəşfiyyat işinin nədən ibarət olduğunu soruşsa, nə deyəcəyəm? Kəşfiyyat işi haqda təsəvvürüm yalnız ondan-bundan eşitdiklərim idi: "Kəşfiyyatçılar əməliyyat yerini öyrənirlər və hücum gecələrində şəxsi heyəti aparırlar". Vəssəlam. Qardaş Zarei qovluğumu vərəqləyir, mən də Allaha yalvarırdım ki, kəşfiyyat işindən soruşmasın. Allah mənimlə idi. O, yalnız bunu dedi: «Axı sən orada işləyə bilərsən?»

– Hə, niyə işləmirəm?!

Qovluğuma son dəfə baxıb dedi: «Həm də yaralanmısan?!»

– Yaralanmışdım, artıq sağalıb, problem yoxdur.

Qovluğu bağlayıb yenidən mənə baxdı və təqdimatımı yazdı. Ürəyim rahat oldu. Soruşdum: «Kəşfiyyat bölüyü haradadır?»

– Gərək Dezfula gedəsən. Kəşfiyyat bölüyü Dezfulun Səfiabadında yerləşir. Çantamı götürüb Dezfula gedən maşına mindim. Səfiabada çatana qədər beynimdə kəşfiyyat haqda təsəvvürlər uydurdum, amma yenə də Hüseyn Nurini tapmağı düşünürdüm. Avtomobil dayananda hamımız endik. Ətrafımı

süzəndən sonra kəşfiyyat bölüyünü axtarmağa başladım. Bir-bir qapıları döyüb deyirdim: «Salam əleyküm. Kəşfiyyat buradır?»

– Yox, kəşfiyyat zirzəmidədir.

– Bağışlayın, qardaş, kəşfiyyat buradır?

– Kəşfiyyat?! Yox. Məncə, yuxarı qalxmalısan...

– Bağışlayın, bilmirsiniz kəşfiyyat haradadır? Yəni Hüseyn Nuri...

Əlimdə çanta hər bir otağa girdim. Bəziləri lütfkarlıq edib cavab verəndə başlarını qaldırırdılar. Nəhayət, sonradan qərargah rəisinin müavini olduğunu bildiyim bir adam bir tərəfi göstərib dedi: «Onlar qardaş Əsəd Qurbaninin adamlarının yanına gedirlər. Onlarla get. Oradan kəşfiyyat bölüyünü asanlıqla tapa bilərsən».

"Necə sirli bölük! Burada bu qədər adam var, amma biri də kəşfiyyat bölüyünün yerini bilmir! Əgər bu Allah bəndəsi peyda olmasaydı, mən nə edəcəkdim?!" Bunu düşünür və bilmirdim ki, elə əslində, kəşfiyyat bölüyünün işindən kimsə baş açmamalıdır.

Toyotanın yanında iki nəfər dayanmışdı. Ətrafda onlardan başqa heç kim yox idi.

– Bağışlayın, qardaş, siz kəşfiyyat bölüyünün yerini bilirsiniz?

Bunu deyib təqdimatımı göstərdim. Bir qədər qürur qarışmış səslə əlavə etdim: «Məni kəşfiyyat bölüyünə vermişlər».

Mənə və təqdimata baxıb dedilər: «Bir saatdan sonra burada ol».

Bir saatdan sonra üçümüz toyotaya mindik və maşın yerindən sıçradı. Dezfuldan Şuşa getdik. İlk dəfə Daniyal peyğəmbərin ziyarətgahını gördüm. Dayanmadan Şuşdan keçib Fəthülmübin əməliyyatında azad edilmiş dördüncü və beşinci sahələri arxada qoyduq. Növbəti yer Çənanə adlı bir kənd idi. Çənanədən keçəndən sonra gördüklərimlə Fəthülmübin əməliyyatından yadımda qalanları müqayisə eləyə bildim. Fəthülmübin əməliyyatının keçirildiyi bölgəyə çox oxşayırdı. Qumları görüb həmin gecəni xatırladım; kilometrlərlə piyada yol, mina sahələri, minanın partlaması... Bildim ki, Riqabiyyə bölgəsinə gəlmişik. Çənanədən 2-3 kilometr uzaqda təxminən 2 kv. kilometr ərazinin ətrafında istehkam qurmuşdular. Toyota orada dayandı.

– Gəl, bura Aşura diviziyasının düşərgəsidir.

Bu söz də mənə yeni idi. Aşura diviziyasının düşərgəsi iki çadırdan və bir komandir səngərindən ibarət idi! Sonradan öyrəndim ki, oradan şərqə doğru təxminən üç kilometr gedəndən sonra Riqabiyyə boğazına və İraqın Fəthülmübindən öncə əks-hücuma keçdiyi yerə çatmaq olar. Rəzil düşmənin Fəthülmübin əməliyyatından sonra necə böyük və əhəmiyyətli bir ərazini əldən verdiyini görüb sevindim.

Qərargahda əməliyyat planına məxsus çadıra girdik. Öncədən adını eşitdiyim Əsəd Qurbani gəldi və uşaqlar məni ona təqdim etdilər. Mənə dedi ki, burada gözlə. Gözlədiyim müddətdə o və başqa iki-üç nəfər bir kağızın

üzərinə tez-tez əyri-üyrü xətlər çəkirdilər. Onların nə etdiklərini bilmir, soruşmağa da cürət etmirdim.

Günəş səmanın ortasına çatmışdı. Səngərin yanında sakitcə və məzlum kimi oturmuşdum. Birdən kəşfiyyat bölüyünə yemək apardıqlarını gördüm. İntizar sona çatmışdı.

– Gəl, gedək, qardaş, kəşfiyyat bölüyü irəlidədir.

Öz-özümə deyirdim ki, İlahi, bura nə üçün belədir? Hərdən də düşünürdüm ki, görəsən, Hüseyn də buranı tapmaqdan ötrü bu qədər əziyyət çəkib, ya yox?

Kəşfiyyat bölüyünün qərargahı diviziyadan bir qədər öndə, Mışdağ yüksəkliyinin şimalında, təxminən Riqabiyyə boğazındakı qum təpələrinin arasında idi. Hündür hissəsində böyük bir ağac olan bir qum təpəsi, bir neçə çadır və sükut! Günorta idi və payız havasında küləklə günəş bir-birinə qarışmışdı. Heç kimin mənimlə işi yox idi. Küləkdən çadırların önünə sığınmış döyüşçülərə yaxınlaşdım: «Bağışlayın, məni kəşfiyyat bölüyünə göndərmişlər, indi nə etməliyəm?»

– Qardaş Təmkininin yanına get.

Bu dəfə də soruşa-soruşa qardaş Təmkinini tapdım: «Bağışlayın, mən...» Təqdimatım bitməmiş adımı-soyadımı soruşub yazdı.

– Neçə dəfə cəbhədə olmusan? Neçə əməliyyatda iştirak etmisən?..

Sualları bitəndən sonra dedi: «Bayırda gözlə, hansı çadıra gedəcəyini deyəcəyəm».

Bir çadırın önündə üç nəfər üzügünəşə oturmuşdu. Onların da kəşfiyyat bölüyündən olduqlarını, gec-tez tanış olacağımı düşünüb yaxınlaşdım. Başlamağa sözüm yox idi. Yaxınlaşanda isə onlardan biri mənə çox tanış gəldi. Gözüm onda idi və adını xatırlamağa çalışırdım. Birdən dedi: «Haralısan?»

– Təbrizdən.

– Hansı məhəllədən?

– Müfəttihdən.

– Şəkilli məscidini tanıyırsan?

– Bəli.

– Onda oranın müdiri Rəhim Sarimini də tanıyarsan.

Yadıma düşdü. O, Rəhim Sarimi idi. Biz danışanda o biri iki nəfər gizlicə gülürdülər. Elə bildim ki, uşaq görüb ələ salırlar. Üzümdə saqqal olmasa da, özümü ələ salınmayacaq qədər böyük hiss edirdim. Məni əvvəldən tanımaqlarını və məzlum birisi olmadığımı bilmələrini istəyirdim.

– Necə adamdır?

Bunu Rəhim Sarimi soruşdu. Mən də gözlətməyib dərhal cavab verdim: «Çox səfeh adamdır!»

Onun gülər üzü ciddiləşdi və dostlarının qəhqəhəsi ucaldı. Ürəyim soyudu. Yenidən gəzişməyə başladım. Yer qum idi, gəzdikcə xoşuma gəlirdi. Bəzi

bərk torpaq hissələrindən bir neçə gün öncəki yağışı təxmin etmək olurdu. Sərin külək üzümə dəyib saçımı qarışdırırdı.

Çadırlardan uzaqda təxminən həmyaşıdım olan bir nəfəri gördüm. İşinə diqqətlə baxanda çox xoşum gəldi. Orada siçan çox idi. O, bir kalaşnikov avtomatı ilə siçan yuvasının dəliyini nişan almışdı. Arabir atəş açırdı və gülüş səsindən bilirdim ki, siçan ovlayıb. Bu dəfə özüm qabağa düşdüm. Kəşfiyyat bölüyündə öz yaşıdımı görmək maraqlı idi və məni ruhlandırdı. Deyəsən, o da mənim kimi düşünürdü. Çox tez dostlaşdıq. Adı Cəlal Məcidi idi.

Günəş soyumaqda ikən komandir səngərinin önündə bir motosiklet dayandı. İki nəfər mənə maraqlı gələn xüsusi jestlə motosikletdən enib çadıra girdi. Onlar kəşfiyyat bölüyündən Əbdi[1] və Həmidnejad adlı döyüşçülər idilər. Güman ki səngərdə mənim təqdimatımı qardaş Əbdiyə göstərib yeni döyüşçü olduğumu demişdilər. Qardaş Həmidnejad da demişdi ki, onu mənə verin.

Beləliklə, komanda başçımız qardaş Həmidnejadın arxasınca çadıra girdim. Çadırda məndən başqa da yeni gələnlər vardı. Bizdən öncə çadırda olan və sona qədər orada qalan yeganə adam isə Fərəc Fəllah idi. O, ağıllı və aktiv idi, işlərində dəqiq olduğu bilinirdi və bu, onu digərlərindən çox sevməyimə kifayət edirdi.

III

Kəşfiyyat bölüyündəki ikinci günümdə qardaş Əbdi hamını toplayıb dedi: «Siz kəşfiyyat bölüyünə yeni gəlmisiniz, gərək təlim keçəsiniz».

Həmin gün qumların üstündə güclə hərəkət edən bir maşınla təxminən 20 kilometr gedəndən sonra diviziyanın Çənanədəki düşərgəsinə çatdıq. Təlim orada olacaqdı. Girişdə, nəzarət-buraxılış məntəqəsinin yanındakı hündür bir raket diqqətimi çəkdi.

Maşından enən kimi iki çadır qurmaq əmri verildi. Köməkləşib çadırları hazırladıq. Qardaş Rəhim Surudiyə biz on beş nəfəri toplamaq işi tapşırılmışdı. İlk söhbətlərdən öyrəndim ki, əvvəla, diviziya komandirinin və təbliğat bölüyünün çadırları da orada yerləşir; ikincisi isə bu yaxınlarda həmin mövqeləri üçmetrlik raketlərlə vurmuşlar və iki raket partlamamışdır. Nəzarət-buraxılış məntəqəsinin uşaqları qarnizonun əzəmətini artırmaqdan ötrü raketlərin birini zərərsizləşdirmədən darvazanın yanında dikinə qoymuşlar.

Bəxtimizdən təlim yeri komandir otağının yanında idi və biz diviziya komandirimizi tez-tez görürdük. Qardaş Mehdi Bakiri birinci, ikinci və doqquzuncu briqadaların təşkili ilə məşğul idi və qərargahda az olurdu. Biz ən azı, iki gündən bir onu görürdük.

Qardaş Surudi təlimə kompası öyrətməklə başladı. Rus kompasları ilə gediş-gəliş yolunun koordinatlarını, nişan nöqtəsini və koordinat saylarını

[1] Diviziyanın kəşfiyyat bölüyünün ozamankı komandiri idi və Vəlfəcr-1 əməliyyatında şəhadət məqamına nail oldu.

öyrənirdik. Maneələrdən keçid və digər məsələlər də kəşfiyyat qrupuna xas təlimlərdən idi.

İlk bir neçə gündə Hüseyni axtarmaqla məşğul idim, amma onu heç kim tanımırdı.

– Qəribədir! Bəs o, hansı kəşfiyyat bölüyünə gedib?

Cavabım yox idi. Sonralar öyrəndim ki, Hüseyn Qasim batalyonunun kəşfiyyatına getmişdir. Uzun müddət onu görmədim, amma başqa bir Hüseynlə tanış oldum və çox tez dostlaşdıq. Hüseyn Səfaşur bölükdə tapdığım ilk Hüseyn idi. Bir əli hissiyyatsız idi, amma özü bu haqda heç nə demirdi.[1] Təxminən həmişə bir yerdə idik və bu yoldaşlığın nəticəsi top kimi bütün diviziyaya səs salan dəcəlliklər olurdu. Fəthülmübin əməliyyatı bölgəsində güllə, barıt və digər partladıcı maddələri asanlıqla tapmaq olurdu. Hüseynin partladıcı maddələrə xüsusi marağı vardı. Orada sursat qalıqlarını bir yerə toplayıb yandırır, özümüz də gizlənirdik. Tezliklə işimiz elə bir həddə çatdı ki, bu işləri diviziyanın içində də görməyə başladıq.

– Gəl bu barıtları boş top mərmisinin içinə yığaq, üstünə də daş töküb yandıraq, görək nə olur.

Mən təklif etdim, Hüseyn də qəbul etdi. Böyük top mərmilərindən birini RPG barıtı ilə doldurub ağzını daşla sıx örtdük. Uzun top barıtlarından birini də içinə qoyduq, yandırıb özümüz istehkamın arxasında gizləndik. Barıt yananda mərmi böyük gurultu ilə yerdə hərəkətə başladı. O, öz dövrəsinə fırlanır, atılıb-düşürdü. O qədər güclü səs çıxarırdı ki, diviziyanın bütün uşaqları sığınacaqlara çəkildilər və bir neçə dəqiqə heç kim bayıra çıxmadı.

Raket yağışı hələ uşaqların yadında idi və hamı bunun da yeni silah olduğunu düşünürdü. Kustar mərmimizin işi bizə də gözlənilməz idi. Utana-utana istehkamın arxasından çıxıb uşaqlara qarışdıq ki, bizdən şübhələnməsinlər.

– Bunu kim elədi? Allah bəndələri, nə üçün belə edirsiniz?!

Mehdi Bakiri idi. Elə hirslə danışırdı ki, başımızı qaldırmağa cəsarət etmədik. İşimizi boynumuza almadıq, amma qərara gəldik ki, bundan sonra diviziyanın içində belə işlər görməyək.

Bir neçə gündən sonra düşərgənin yanına düşmüş və partlamamış üçmetrlik raket gözümüzü tutdu. Köməkləşib onu yuxarı qaldırdıq, yüz addım atıb geri çəkildik, yüzmetrlik məsafədən kalaşnikovla vurmağı mərc etdik. Əsla fikirləşmirdik ki, raket kiçik bir zərbə ilə partlaya bilər. Xoşbəxtlikdən, güllələr raketə dəymədi, əks-təqdirdə, qəlpələri böyük bir əraziyə yayılar və güclü partlayış baş verərdi.

---

[1] Hüseyn Səfaşur nə orada, nə də başqa bir yerdə müharibənin ilk aylarında Şuş cəbhəsində istiqamət komandiri olduğunu və hissiyyatsız əlinin o günlərdən yadigar qaldığını söylədi. O, bilik və məlumatlarını heç vaxt gözə soxmazdı. Müharibənin son illərinə qədər onun necə böyük şəxsiyyət olduğunu az adam bildi. Hüseyn şəhadət payını 1988-ci ilin yanvarında Mavutun buzlu dağlarında tapdı və Beytülmüqəddəs-2 əməliyyatında Allaha qovuşdu.

Get-gedə diviziyanın uşaqları arasında məşhurlaşdıq, yavaş-yavaş fikir bildirməyə də cürət etdik. Uşaqlar düşünürdülər ki, Təkağacda olan kəşfiyyat bölməsi bizi istismar edir, kəşfiyyatın bütün imkanları oraya göndərilir və bizə heç nə verilmir. Onlarda motosiklet, maqnitofon, gödəkcə, paltar, çoxlu qida məhsulları və digər əşyalar vardı, bizim iki çadırımızda isə bunların heç biri yox idi. Bir dəfə Hüseyn Səfaşurla bu mövzu ətrafında fikir mübadiləsi apardıq. Dərhal başçımız qardaş Rəhim Surudinin yanına gedib dedik: "Ağa Rəhim, gecə kompasla gedib Təkağacdakı kəşfiyyat çadırlarına baş çəkəkmi?"

– Eybi yox, yaxşı olar.

Həmin axşam bütün on beş nəfər sıraya düzülüb öncədən xəritə üzərində təyin etdiyimiz mövqeyi kompasla tapıb Təkağaca yola düşdük. Həmişəki yolla deyil, kəsə yolla gedirdik. Yol çox gözəl idi, ağaclar, yaşıl otlar, qum, dərə və təpələr ay işığının altında çox qəşəng görünürdü. Gecə vaxtı dostlarla birgə mövqe təyin etməyə getmək zövqlü bir iş idi və mən bunu ilk dəfə idi təcrübə edirdim. Tək ağacı görəndə dayandıq. Kəşfiyyatın çadırları təpənin aşağısında idi və ətrafda heç bir keşikçi görünmürdü. Dairə şəklində toplandıq. Rəhim əli ilə qumların üstündə təxmini bir xəritə çəkdi: «Bura komandir çadırıdır, bura təchizat anbarıdır. Bizim işimiz bu iki çadırdadır».

– Uşaqlar, maqnitofon yaddan çıxmasın.

– Yaxşı, maqnitofonu kim götürəcək?

Hüseyn komandir çadırından maqnitofonu götürməyə könüllü oldu. Ərzaq anbarından əşyaları götürmək səs sala bilərdi. Bundan ötrü bir şey fikirləşdik. Təchizat bölməsinin başçısı İlayi idi və adətən, ərzaq çadırında yatırdı. Danışdıq ki, əldə çəfiyə başının üstündə dayanaq; əgər oyanıb səs salmaq istəsə, əl-ayaqlarını və ağzını bağlayaq.

Hər kəs öz tapşırığının ardınca getdi. İki nəfər motosikletləri, Səfaşur maqnitofonu götürdü. Biz də yavaşca on beş gödəkcə ayırdıq və yaxınlıqdakı təmiz hərbi formalardan götürdük. Təxminən on qutu xurma və bir qədər də digər məhsullardan toplayıb təyin etdiyimiz vaxtda yolun kənarında hazır olduq. Ağır əşyaları motosikletlərə yığıb Çənanədəki çadırlarımıza yola düşdük. Bir saatdan sonra götürdüyümüz əşyaları qərargahda gizlətdik. Motosikletləri gizlətməyə isə bir yer tapmadıq və onlar çadırın yanında qaldı. Hələ günəş tam qalxmamış bir avtomobil sürətlə düşərgəyə girdi. İlayi avtomobildən endi. Biz onu gördük, o da motosikletləri. O, Marağadan idi. Əsəbiləşib Marağa ləhcəsi ilə qışqırmağa başladı: «Bunları kim gətirib?»

Haqlı görkəm alıb dedik: «Biz gətirdik. Siz vermirdiniz, biz də fikirləşdik ki, öz haqqımızı özümüz götürək».

Qardaş İlayi bizimlə bacarmadığını görüb birbaş ağa Mehdinin yanına getdi. Ağa Mehdi dəstəmaz alırdı.[1] O qədər nadinclik etmişdik ki, düşərgədə

[1] Döyüşçülərin əksəriyyəti həmişə dəstəmazlı olurdular. Bildiyim qədərincə, ağa Mehdi də belə idi.

kim bir şuluq salsaydı, deyirdilər ki, yəqin kəşfiyyat bölüyündəndir. Belə bir şəraitdə ağa Mehdinin reaksiyasının necə olacağını bilmirdik.

– Ağa Mehdi, bunlar gecə vaxtı gəlib iki motosiklet, bir maqnitofon oğurlayıblar, anbarı boşaldıblar...

İlayi narahat halda bizdən ağa Mehdiyə şikayət edirdi. Ağa Mehdinin səsi isə sakit idi: «Gəlin bura görüm». Adlı-sanlı nadinclərin iki-üçü önə çıxdı. Hər şeydən öncə soruşdu: «Gecə vaxtı oraya necə getdiniz?»

– Ağa Mehdi, oraya kompasla getdik. Bu, bir təlim idi; əşyaları götürdük və geri döndük.

Baxışından bilinirdi ki, nəinki hirsli deyil, həm də uşaqların işi ona maraqlı gəlib. Gülüb dedi: «Motosikletlərin biri sizin, o birini isə qaytarın. Maqnitofonu da özlərinə verin. Qalan şeylər isə halal haqqınızdır!»

İlk kəşfiyyat

I

Düşərgəyə get-gəl çoxalmışdı. Komandir çadırında keçirilən iclaslar əməliyyatın yaxınlaşdığına dair fikirləri təsdiqləyirdi. Bir gün qardaş Əbdi və qardaş Rza Əhmədi komandir çadırından çıxıb bizim çadırımıza gəldilər. Əllərində göydən çəkilmiş bir foto vardı və ona baxıb danışırdılar. Kəşfiyyata yeni gəldiyimizdən bizim bir şey anlamayacağımızı düşünmələri təbii idi. Dedikləri bölgələrin adları mənə tanış idi. Rza Əhmədi əlini şəklin üzərinə qoymuşdu: «Bura Mışdağdır, bura Riqabiyyə düzü, bu yol isə...»

Şəklə diqqətlə baxıb Fəthülmübin əməliyyatının keçirildiyi bölgəni təsəvvürümdə canlandıra bildim. Şəkildə görünən bəzi yerlərin adları yadıma düşdü, özümü saxlaya bilməyib dedim: «Qardaş Əhmədi, buraya baxın, bu, kanaldır, bura Xələf-Şəmbəldir, bura da...»

– Sən bunları haradan bilirsən?

– Biz burada əməliyyatda olmuşuq.

Rza Əhmədi bir mənə, bir də şəklə baxdı, sonra qardaş Əbdiyə dedi: «Ağa Əbdi, bunu ver mənim komandama».

Beləliklə, qardaş Əhmədi ilə Təkağacdakı kəşfiyyat bölməsinə getdim. Yolda fikirləşirdim ki, birdən bölgəyə dair məlumatım yanlış olar və tezliklə səhvim bilinər. Lakin çox tezliklə bildim ki, onlar da bölgəni yeni öyrənmiş və sözlərimi eşidəndə məlumatlı olduğumu düşünmüşlər. Təsadüfən, mən də bunu istəyirdim. Mən bölüyün bığsız-saqqalsız üzvlərindən idim və bu kimi məsələlərdə mənim kimilərə diqqət yetirmirdilər. İndi isə qardaş Əhmədinin özü məni önə çəkirdi.

***

Hüseyn Səfaşur, Rza Əhmədi, Rəhim Sarimi, Əlirza Həsənzadə, Firuz Vüfuri və Seyid Sadiq Eyvəzi[1] ilə birgə Aşura diviziyasının ikinci briqadasının kəşfiyyat bölüyünün əsas heyətini təşkil etdik. Əmr verilmişdi ki, hər briqadanın öz kəşfiyyat bölüyü olsun, biz də həmin bir neçə nəfərlə ikinci briqadanın kəşfiyyatını yaratdıq. Orada mənimlə Firuz Vüfuridən başqa hamısı təcrübəli kəşfiyyatçılar idilər, məqamı gəlincə təcrübə və bacarıqları üzə çıxırdı. İlk günlərdə eşitdiklərim bölgəyə dair ümumi məlumatlar idi.

Bəzi adlar mənə tanış idi, bəzən də eşitdiklərimə təəccüblənirdim. Məsələn, deyirdilər ki, burada ordunun müdafiə xətti var və hər 2 kilometrdən bir tank yerləşdirmişlər. İki tank arasında məsafə çox idi və mən öz-özümə düşünürdüm: «Kimsə düşünməyibmi ki, düşmən gecə vaxtı bu ikikilometrlik

[1] Diviziya komandirlərindən Eyvəzi haqda çox eşitmişdim. Ağa Mehdi o zaman 18-19 yaşlı gənc olan Seyid Sadiqə o qədər inanırdı ki, barəsində belə demişdi: "Əgər Seyid Sadiq "əlimdə bir çıraqla düşmən mövqeyinə hücum edib vuruşmaq istəyirəm" desə, icazə verərəm. Çünki onun sözünə və əməlinə tam inamım var".

məsafədən asanlıqla bir korpus yeridə bilər?! Yoxsa bilirlər və imkan azlığına görə başqa yolları yoxdur?!”

Şəhid Behişti adına müşahidə postu 70 metr hündürlüyü olan bir təpənin başında idi. Bölgənin ən hündür yeri 82 metr idi və onun üzərində düşmənin müşahidə postu vardı. Seyid Sadiq Eyvəzi ilə bir neçə dəfə oraya durbinlə baxmağa getdik. İşin həssaslığını bundan da bilmək olurdu. Elə bilirdim ki, üç-dörd nəfərin düşmənin içinə girib bölgəni öyrənməsi hər kəsin işi deyil.

Tezliklə mənə də kəşfiyyata getmək əmr olundu. Daxili həyəcanımdan kimsəyə bir söz deməmişdim. Hərəkətdən öncə bölgənin həssaslığını və işin əhəmiyyətini izah etdilər və oraya dair bizdə ümumi təsəvvür yarandı: mühüm və hündür təpələr hansılardır, haradadır və s. Təhlükəsizlik məsələlərini də xatırlatdılar ki, əsir düşsəm, məsələ necə olacaq və nə etməliyəm.

Hərəkətə Riqabiyya düzündə «Beyt Raşid» və «Beyt Bis» neft quyularını birləşdirən və Çənanənin önündən keçən yoldan başladıq. Qumluqda 6 km. piyada gedəndən sonra Dərbədiyyə bölgəsinə çatmalıydıq. Dərbədiyyə Abbas düzünü Xələf-Şəmbəl düzünə birləşdirən yeganə yol idi. Oradan keçəndən sonra kəşfiyyat bölgəsinə yaxınlaşacaqdıq. Orada qaçaqçıların müharibədən öncə istifadə etdiyi bir keçid vardı. Fəthülmübin əməliyyatından sonra bizimkilər Dərbədiyyə çalasının hər iki tərəfindəki təpələrin üstündə ara-sıra səngər düzəldib pusqu qurmuşdular. Lakin onların qüvvə və imkanları az idi. Ondan o tərəf haqda məlumat toplamaqdan ötrü isə hələ tanımadığımız yerlərə keçməli idik.

Səhər saat 10-da yola düşdük. Kəşfiyyat komandasının başçısı Əlirza Həsənzadə idi. Çox yavaş yeriyirdik. Dərbədiyyədən bölgəyə girib 3 km. gedəndən sonra İrzal-1 bölgəsinə çatdıq. Bir neçə söyüd ağacı ilə əhatə olunmuş İrzal-1-dən qərbə doğru təxminən 1 km. yarım irəliləyib İrzal-2 adlı oxşar mövqeyə, eyni istiqamətdə hərəkətə davam edib 5 km.-dən sonra bircə söyüd ağacının olduğu yerə çatdıq. Təsadüfən, o yerə də Təkağac deyirdilər və ora bizim ilk kəşfiyyatımızın sonu idi. Günorta saat üçdə heç bir xüsusi hadisə ilə rastlaşmadan çadırlarımızın yerləşdiyi Təkağaca qayıtdıq.

İkinci kəşfiyyatım isə gecə vaxtı baş tutdu. Bu dəfə Seyid Sadiq Eyvəzinin başçılığı ilə hərəkət etdik. Hələ əməliyyat yolu çəkilmədiyindən Dərbədiyyəyə qədər piyada getməyə məcbur olduq. Oradakı qüvvə və imkanlarımız bir pusqu qədərincə olmasa da, ora bizim mövqeyimiz sayılırdı.

İrzal-1, İrzal-2 və söyüd ağacı mənə tanış idi, amma söyüd ağacından Xala doğru davam edəndə ürəyimə qəribə qorxu düşdü. Dərbədiyyə kimi Xal da qumluq idi və qaçaqçılar sərhəddən keçmək üçün oradan istifadə edirdilər. Düşmən Xalın ətrafındakı təpələrdə pusqu qurmuş, özünü də minalamışdı.

Gecə əməliyyatında iştirak etmiş və hətta düşmənin pusqusu ilə vuruşmuşdum. İndi isə sayımız çox az idi. Düşünürdüm ki, görəsən, düşmənlər bizim burada olduğumuzu bilsələr, nə baş verər.

Söyüd ağacından Xala qədər məsafə 2 km.-dən bir qədər artıq idi. Sanki qum təpələri kəlbətin dəstəyi kimi oranı mühasirəyə almışdı. Dərbədiyyəyə girəndə sanki kəlbətinə daxil olur, Xala çatanda isə çıxırdıq. Xala yaxınlaşdıqca qorxum da artırdı. Düşmən Xala yaxın təpələrdə pusqu qurmuşdu. Biz hətta lampaların zəif işığını da görə bilirdik. Hər tərəf bir-birinə bənzəyirdi, yalnız kompasın köməyi ilə hərəkət etmək olurdu. Yer salamat idi, hələ orada döyüş baş verməmişdi. Qışın yağışları təpələrin bəzi yerlərində otlar bitirmişdi. Qum tozunun qarşısını almaq üçün ağaclar əkmiş, bəzi yerlərə göydən qır səpmişdilər.

Xala yaxınlaşanda Eyvəzi dayanıb dedi: «Xaldan sonrakı sahənin minalanma ehtimalı çoxdur. Yaxşı olar ki, mina haqda daha çox məlumatı olan bir nəfər öndə getsin. Əgər mənim başıma bir iş gəlsə, bölgəni yaxşı tanımadığınıza görə burada sərgərdan olarsınız. Kim istəyirsə, önə keçsin». Uşaqların arxasında gizləndim.

Mina zərərsizləşdirmə təlimi keçmişdik, amma elə qaranlıqda və düşmənin yaxınlığında mina zərərsizləşdirmək hər kəsin işi deyildi. Hüseyn Səfaşur mətanətlə və əminliklə önə keçdi, biz də onun arxasınca yola düşdük. Xalın içində 1 km. gedəndən sonra hava işıqlanmağa başladı. O şəraitdə kəşfiyyatı davam etdirmək təxminən imkansız idi. Buna görə də, getdiyimiz yolla geri döndük və növbəti kəşfiyyat həyəcanı bununla başa çatdı.

Bu təcrübələrdən sonra gün ərzində dəfələrlə Xala gedib heç bir problemlə rastlaşmadan işimizi görüb qayıtdıq. Əslində, problem Xaldan sonra idi. Dərbədiyyədən Xala qədər 9 km. gedib-gələndən sonra komandirlərin ehtiyat xəbərdarlıqlarını eşidəndə öz-özümüzə deyirdim: «Bunlar da bizi ələ salıblar. Bu qədər ehtiyatla düz-əməlli kəşfiyyat aparmaq olmaz».

Bir dəfə Dərbədiyyədən Xala gedəndə bir avtomobil izi gördüm. Yoldaşımdan soruşdum ki, axı avtomobil burada nə edirmiş?! Biz Dərbədiyyəyə qədər 6 km. piyada, oradan da Xala yenə ehtiyatla gedirik, amma avtomobil buraya qədər gəlib...

– Yəqin iraqlıların imiş. Bizim uşaqlarımızın belə ehtiyatsızlıq etmələri mümkün deyil.

Bir neçə gündən sonra öyrəndik ki, Sepahın komandirləri, o cümlədən, Quru qoşunlarının ovaxtkı komandanı qardaş Həsən Baqiri söyüd ağacına qədər maşınla gedirmişlər. Ondan sonra biz də ürəkləndik: «Kəşfiyyatçı qorxsa, bir iş görə bilməz!»

II

Vəlfəcr-hazırlıq əməliyyatı bölgəsində kəşfiyyata gedərkən ilk dəfə sistemli maneələrlə rastlaşdıq. Əvvəlcə tikanlı məftillər vardı, sonra minalanmış sahə gəlirdi; fişəng minaları, piyada, avtomobil və tank əleyhinə minalar cərgə ilə düzülmüşdü. Minalanmış sahədən sonra 200 metr boş ərazi vardı, ondan sonra yenə tikanlı məftillər, ardınca minalanmış sahə, sonra yenə 200 metr boş yer

və sair. Maneələr İraq mövqeləri boyunca bu formada və 1 kilometr enində yaradılmışdı. Maneələrdən sonra eni 6 metr olan birinci kanala çatırdıq. Birinci kanaldan sonra yenə 1-2 kilometr enində sıx tikanlı məftil və minalarla dolu bir maneə gəlirdi. İkinci kanaldan sonra da müxtəlif formalı tikanlı məftillər və digər maneələr vardı. İlk müdafiə qüvvələri bütün bu maneələrin arxasında idi. Bundan əlavə, maneələrin arasındakı 2 kilometrlik ərazidə düşmən qüvvələri və pusqular yerləşmişdilər. Düşmən çox peşəkar iş görmüşdü. Təxminən qeyri-klassik və partizan kimi vuruşduğumuza görə elə geniş maneələr bizə təəccüblü gəlirdi. Həmin bölgə bir çox cəhətlərinə görə düşmənə önəmli idi. Səbəblərdən biri Bizirqan neft quyularının və əl-İmarə şəhərinin o istiqamətdə yerləşməsi idi. Bu maneə və kanalların arxasından keçən əl-İmarə-Bəsrə avtobanı İraqın şərqini cənub şərqinə birləşdirən yeganə yol idi. Arxadakı «Hur əl-himar» çayı böyük bir təbii maneə kimi alternativ yol salmağı imkansız edirdi. Elə Vəlfəcr-hazırlıq əməliyyatının məqsədi də İraqın şərq və cənub-şərq cəbhələrini bir-birindən ayırmaq, Bəsrə-əl-İmarə yolunu bağlamaq idi. Belə olduqda düşmən aşağıdakı cəbhələrini gücləndirə bilməyəcəkdi. Bölgənin əhəmiyyətini artıran başqa bir məsələ Dəclə çayı üzərindəki əl-Zeyr körpüləri idi. Avtobanın bir hissəsi həmin körpünün üzərindən keçirdi. Körpünün əhəmiyyəti barədə bunu demək yetər ki, onu təxminən bir briqada qoruyurdu. O körpü partladılsaydı, düşmənin yeni bir körpü salmaq üçün uzun zamana ehtiyacı olacaqdı və bu bizim üçün böyük uğur sayılardı. Müharibədə tam dağılmış sərhəd zastavalarımız İraq maneələrinin içində qalmış, onların əlaqə yolları get-gedə dağılıb itmişdi.

Bunlara əsasən, İraq tərəfi sərhəddə bir müdafiə mövqeyi qurub bölgə və maneələr üzərində ciddi iş görmüşdü.

Biz 70 saylı təpənin başında oturmuşduq. Birdən Çəmu bölgəsinə kəşfiyyata getmiş uşaqların qışqıra-qışqıra sürətlə bizə tərəf qaçdıqlarını gördük. Onların arxasınca bir SUV avtomobili gəlirdi.

– Baxın, maşın uşaqları qatır!

Durbindən baxıb Əlirza Həsənzadəni və Rəhim Sarimini tanıdım. Əlirza qaça-qaça qumqumasının suyunu boşaldırdı. Rəhim Sarimi də qışqırırdı: «Hazır olun! Hazır olun!» Tez təpədən endik. Avtomobil təpənin yanında dayananda düşərgədəki kəşfiyyatdan olduqlarını bildik. Uşaqlar çox ləhləyirdilər; avtomobilin düşmənə aid olduğunu düşünüb bir neçə kilometr qaçmışdılar.

Eşitmişdik ki, bölgədə işləyən digər diviziyaların uşaqları bir neçə dəfə İraq kəşfiyyatçıları ilə rastlaşmışlar. Sonuncu dəfə isə Həzrət Rəsul diviziyasının kəşfiyyatçılarından birinin düşmən tərəfindən əsir tutulduğunu eşitmişdik.

Zaman ötdükcə briqadada kəşfiyyatçı çatışmazlığı özünü göstərirdi. Briqadanın kəşfiyyatçılarının bir qismi öz bacarıqlarını göstərmişdilər, azsaylı bir qismin də kəşfiyyat bölüyünə uyğun olmadığı üzə çıxmışdı. Nəhayət, kəşfiyyat bölüyünə bir qədər döyüşçü verdilər, amma əksəriyyəti işə

yaramırdı. Onların bəzisini görəndə düşünürdük ki, axı cəbhəyə ilk dəfə gəlmiş bu uşaqlar necə bu bölüyə düşmüşlər! Bir neçə ayın içində özümün bu bölüyə gələrkən "kəşfiyyat" sözünün mənasını və kəşfiyyatçının işinin nədən ibarət olduğunu bilmədiyim günləri unutmuşdum. O vaxt bir dostumu axtara-axtara gəlib kəşfiyyata çıxmışdım. Mehdi Təcəllayi,[1] Mehdi Dalani, Möhsün Əsməi, Mehdi Salmanpur, Məhəmmədrza Bəni-Həsən və Hüseyn Nuri də briqadanın kəşfiyyat bölüyünə qoşulanlardan idilər. Onların gəlişindən sonra qardaş Rza Əhmədi briqadanın kəşfiyyat bölüyünə komandir təyin olundu. O, özünə iki müavin götürdü: Bəni-Həsən icra işləri üzrə, Rəhim Sarimi isə əməliyyat üzrə. Onda kəşfiyyat bölüyünə avtomobil də verdilər. Uşaqların sözü ilə desəm, bölüyün vəziyyəti yavaş-yavaş yaxşılaşırdı.

Dəyişikliklər davam edirdi. Sepah əməliyyat korpusları yaratmağa başlamışdı. Bu məqsədlə Həzrət Rəsul, Aşura və Nəsr diviziyalarından ibarət on birinci Qədr korpusu yaradıldı. Qardaş Abbas Kərimi Qədr korpusunun kəşfiyyat bölüyünün, Məsud Şücaifər də Aşura diviziyasının kəşfiyyat bölüyünün komandiri təyin olundu. Tezliklə Həzrət Rəsul diviziyasının kəşfiyyat qüvvələri də Təkağaca gəldilər və ondan sonra təxminən müştərək fəaliyyətlər başladı. Həzrət Rəsul diviziyasının bəzi kəşfiyyatçıları Aşura diviziyasının hücumçu qüvvələrinə yol göstərirdilər, bizimkilərin də bəzisi hücum gecələrində bələdçilik üçün Həzrət Rəsul diviziyasına qoşulurdular.

Həzrət Rəsul diviziyasının kəşfiyyat bölüyünün rəhbərlərindən olan qardaş Hüseyn Allahkərəm bəzən Qədr korpusunun kəşfiyyatçıları önündə çıxış edirdi. Əməliyyatda qələbə çalacağımız təqdirdə bizə verdiyi vədlər xoşumuza gəlirdi. O, bəlkə də uşaqları ruhlandırmaq üçün hərbi vəzifə və rütbə sözü verirdi.

Həmin günlərdə düşmən mediası yalançı qələbələrindən dəm vurur, hətta əsirlərin adlarını da çəkirdi. İraqlıların məni də "əsir tutduqlarını" eşidəndə təəccübdən mat qaldım. İraq ordusunun kəşfiyyat şəbəkəsi nə qədər fəal imiş! Aşura diviziyasının ikinci qərargahından olan 200 əsirin içində mənim və Məhəmmədbaqir İbadinin[2] də adı çəkilirdi. Düşmənin bu psixoloji hücumu həm döyüşçüləri, həm də yeganə məlumat mənbəyi radio və televiziyalar olan xalqı ruhdan salırdı. Düşmənin bu təbliğatı yalnız radio ilə məhdudlaşmırdı. Get-gedə uşaqların arasında da qəribə pıçıltılar yayılmağa başladı.

Bir neçə gün idi Qasim batalyonuna get-gəlimiz çoxalmışdı. Kəşfiyyat işində irəliləyişlərdən sonra batalyon və bölük komandirlərini bölgəyə aparıb yerləri yaxından göstərirdik. Qasim batalyonu düşmən mövqelərini yaran ilk hücumçu idi, biz də onun kəşfiyyatçısı. Batalyonun komandiri Yasir Zirək,

---

[1] Əli Təcəllayinin kiçik qardaşı idi və vəlfəcr-hazırlıq əməliyyatında şəhadətə qovuşdu.

[2] Şəhid Məhəmmədbaqir Məşədi İbadi Xeybər əməliyyatında İmam Hüseyn (ə) batalyonunun komandiri ikən şəxsi heyətilə birgə mühasirəyə düşdü. Son güllələrinə qədər vuruşandan sonra bəzisi əsir düşdü, çoxu isə qərib şəkildə şəhadətə qovuşdu və pak cəsədləri sonradan axtarış zamanı tapıldı.

müavini də Məhəmmədbaqir İbadi idi. Mən onların hər ikisini öncədən tanıyırdım. Onların orada olması mənim batalyona daha çox getməyimə yaxşı bəhanə olmuşdu. Bir dəfə Qasim batalyonunun komandir çadırına girəndə həmişəkindən çox deyib-güldüklərini gördüm. Biri dedi: «Hə, biri də İmam Mehdini (ə) görüb!»

– Bu nə deməkdir?! İmam Mehdini (ə) görməyə gülərlər?!

– Bilmirsən özlərindən necə əmrlər çıxarıblar! Guya ağa deyib ki, əməliyyata başlasanız, mütləq məğlub olacaqsınız. Çünki İmam Mehdi (ə) duasını oxumursunuz!

– Guya birinə də deyib ki, mən kanalın içindəki balonların arxasında gizlənmişəm...

Uşaqlarda olan bu məlumatlara təəccübləndim. Biz o vaxta qədər kanal və düşmənin partlayıcı maddələrlə doldurduğu balonlar haqda kimsəyə söz açmamışdıq. Hücum gecəsi ümumi məlumatlandırmadan öncə bu informasiyaların yayılması əməliyyatın üstünün açılmasına səbəb olardı. Lakin iş o yerə çatmışdı ki, hər kəsin dilindən geniş informasiya ala bilirdik. İmam Mehdi (ə) ilə görüş iddiasında olanlar get-gedə heç kimlə danışmadılar. Bir dəfə bölgə haqda məlumat vermək üçün batalyonun komandir çadırına getmişdim. Oraya özünü lallığa vurmuş bir adamı gətirdilər. O, kağızın üzərinə belə yazdı: «Fərəc duası oxumadığınıza görə sizinlə danışmıram».

– Mənim qardaşım, İmam Mehdi (ə) ilə görüşən adamın bu qədər ağlı olar ki, bu əlaqəni qorusun və ona-buna deməklə gözdən salmasın.

Bunları çox deyirdik. Bu işlərin mənfi təsiri o qədər böyük idi ki, döyüşçülər komandirlərin sözlərinə qulaq asmırdılar. Onlar uşaqların həssas nöqtələri üzərində dayanırdılar. Bəzi döyüşçülər inanırdılar ki, kimsə İmam Mehdi (ə) ilə görüşdüyünü desə və bir qədər də özünə ətir vursa, həqiqətən də görmüşdür.

Yalan-doğru məlumatlar və bəzi xurafatlar çox yayılmışdı. Bir dəfə batalyon uşaqlarının camaat namazına qatıldım. İmamlıq edən ruhani deyirdi: «Əsla qorxmayın, çətin bir şey yoxdur. Yalnız iki kanal var, bir qədər minalanmış sahə, tikanlı məftillər və qum üstündə yürüş. Bunları keçəndən sonra düşməni məhv edəcəksiniz!» Təəccübümdən qışqırmağa qalmışdım. Onun sözləri iki namaz arasındakı dini söhbətdən çox əməliyyatdan az öncə verilən informasiyaya bənzəyirdi.

Tezliklə digər batalyon və diviziyalarda da oxşar cərəyanların olduğunu öyrəndik. Mənbənin eyni olduğu bəlli idi. Diviziyanın birinci briqadasında iki nəfər də İmam Mehdini (ə) görmüş və uşaqların arasında yeni məlumatlar yaymışdılar. Tezliklə kəşfiyyatçılardan da bir nəfər imamı "gördü". Adət üzrə bu məlumat da ağız-ağız dolaşdı. Bu cərəyanı susdurmaq üçün ciddi qərar verildi. Diviziya komandirinin əmri ilə Aşura diviziyasında belə xəbərlərin mənbəyi olan döyüşçülər həbs olundular. Onların bəzisinə qamçı cəzası verildi, bəzisi də cəbhədən qovuldular. Beləliklə, bu yalanlar bitdi.

Hər gün ötdükcə batalyonlar əməliyyatda iştirak etməyə daha çox hazırlaşırdılar. Təlimlər ciddiləşmişdi. Maneələri aşmaq üçün təlimlər keçirilir, saatlarla yük çantası ilə piyada yol gedirdilər. Bu, gündəlik təlim idi.

Onlar gecələr təlimə gedib sübh namazına yaxın qayıdırdılar. Əməliyyatda iştirak etmək üçün fiziki hazırlıq baxımından belə məşqlər vacib idi. Maneə və kanallardan keçmək problemi nərdivan vasitəsilə həll olunmuşdu. Qərara alınmışdı ki, hər dəstə özü ilə 6 metr uzunluğunda iki nərdivan götürsün. Altımetrlik nərdivanı aparmağın çətin olduğu bilinəndə hər nərdivanı iki-üçmetrlik hissəyə böldülər. Nərdivanların kiçik bir qismi alüminiumdan, qalanı isə dəmirdən idi. Bundan əlavə hər bir döyüşçünün yük çantası və silahları da vardı. Düşünürdüm ki, uşaqlar bu ağır yüklə qum üstündə kilometrlərlə yol gedib yorulandan sonra maneələri aşmalı, pusqu ilə vuruşmalı və mövqeni təmizləməlidirlər. Görəsən, bunu bacaracaqlarmı?!

Qanlı qumlar

I

Tapşırıqlar verildi. Əvvəlcə qərara alındı ki, Aşura diviziyasının sağ tərəfindən Nəsr diviziyası hücuma keçsin, lakin bu qərar çox tezliklə ləğv olundu və sağ tərəfi də Aşura diviziyası öz üzərinə götürdü. Bizim sol tərəfimizdən, yəni əməliyyat bölgəsinin cənubundan Həzrət Rəsul diviziyasının Hücr və Kumeyl batalyonları hücuma keçəcəkdi. Sol tərəfdəki Xala[1] çatana qədər Hücr batalyonunun öhdəsinə düşən hissə bizimlə müştərək idi. Xalda biz sağ tərəfə gedəcəkdik, onlar sol tərəfə. Əməliyyatda diviziyanın briqadalarının vəzifələri də müəyyən olunmuşdu. İkinci briqadanın hədəfi İraqın Tavusiyyə və Rəşidiyyə zastavalarının arası, düşmənin təmas xəttindən 9 kilometr içəri idi. Bu bölgə maneələrdən başlayıb İraq zastavaları arasındakı əlaqə yoluna qədər davam edirdi. Biz orada müdafiə mövqeyi tutub dərhal sağ cinahda istehkam qurmalı idik. Bu istehkamın köməyi ilə düşmənin Fəkkə istiqamətindən olan bütün əks-hücumlarının qarşısını ala bilərdik. Qasim və Mehrab şəhidləri batalyonları Aşura diviziyasının ilk hücumçuları idilər. Onlara Müslim və Əli-Əsgər batalyonları dəstək verəcəkdi. Əməliyyatı doqquzuncu briqada davam etdirəcək, müvəffəqiyyətdən istifadə edib irəliləyəcəkdi.

Əməliyyatdan bir gecə öncə son kəşfiyyata getdik. Yolun bilinməsi üçün malyutka raketinin məftilindən istifadə edəcəkdik ki, əməliyyat gecəsi yolu tapmaqdan ötrü gecikməyək. Yaxşı plan idi. Düşmən məftili görsəydi belə, onun bəlli bir başlanğıcı və sonu olduğunu təxmin etməz, yerə düşmüş bir məftil olduğunu düşünərdi. Yalnız kəşfiyyatçılar bilirdilər ki, söyüd ağacından Xala qədər 4 km. uzunluğunda malyutka məftili var və minalanmış sahənin yanında bir dirəyə düyünlənmişdir. Oradan sahənin içinə bir yol açılmalı idi.

Ehtiyatla qumların arasından məftil çəkərkən birdən avtomat güllələrinin səsi gəldi. Bir müddət özümüzü itirib düşmənin bizi görməsindən qorxduq. Qayıdandan sonra öyrəndik ki, Həzrət Rəsul diviziyasının istiqamətində çalışan Rza Əhmədi ilə Məhəmməd Rahət minalanmış sahənin arxasındakı birinci kanala qədər getmiş, sahədən keçəndə bir səngər görüb dağılmış boş səngər olduğunu düşünmüş və ona yaxınlaşmışlar. Məhəmməd səngərə girəndə ucaboy bir iraqlı ilə üzləşib. Yuxulu iraqlı onu boğmaq istəyən Məhəmmədi görüb qışqırır və bayırdakı keşikçi bunu eşidir. Qısası, onlar həmin bölgədən qaçmışdılar. Bizi də narahat edən güllələr həmin iraqlıların silahlarından açılmışdı.

[1] Sol Xal və ya Yeni Xal ərazisi bu gün Fəkkə qətlgahı kimi məşhurlaşmış yerdir. Bizim çoxlu yaralılarımız orada şəhadətə qovuşdular və cəsədləri müharibədən bir neçə il sonra tapıldı.

Hava qaralmaqda idi. Canlı qüvvənin toplaşdığı Dərbədiyyədə sükut pozulmuşdu. Əməliyyat zamanı gəlmişdi.[1] Qasim batalyonunun ikinci bölüyünü mən aparmalı idim. Bölüyün komandiri Rza Dirəxşan, müavini də Həbib Azərniya idi. Arxamızda qardaş Söhrabinin başçılıq etdiyi birinci bölük, önümüzdə də Mehrab şəhidləri batalyonunun bir bölüyü gedirdi. İlk mina sahəsinə qədər yolumuz bir idi. Orada onlar sağa dönəcəkdilər. Hamıdan öndə gedən Rza Əhmədi bütün Qasim batalyonunu aparırdı, onun arxasınca isə partladıcı bölüyün uşaqları hərəkət edirdilər.

Bir neçə gün idi düşmənin hava hücumları güclənmişdi. Onlar bölgəni bombalamaq və yuxarıdan foto çəkmək üçün tez-tez gəlirdilər. Kəşfiyyat işləri də güclənmişdi. Bütün bunlar bizdən şübhələndiklərini göstərirdi. O günə qədər baş vermiş bütün hadisələrə rəğmən, ümidvar idik ki, düşmənin fəaliyyətini artırması əməliyyatdan duyuq düşməsi ilə bağlı deyil. Hələ hərəkət başlamamış birdən bir RPG raketi atıldı.

– İnanmıram! RPG, özü də burada?! Düşmənin gözünün önündə olan Dərbədiyyədə!

Bütün komandirlərin üzünə narahatlıq çökdü. Döyüşçülərimizdən biri bilmədən, ya da bilərəkdən bir RPG raketi atmışdı.

Bundan əlavə, yolun uzunluğuna görə təyin olunmuş vaxtdan tez hərəkət etməyə məcbur idik. Düşmən də 82 saylı təpədən yolun bir hissəsini görürdü.

Hərəkət başlayanda günəş hələ səmanın sinəsində idi. Kolon Mahur təpəsinin arası ilə gedirdi. Öz yüklərindən əlavə ağır nərdivanları da aparan uşaqları fikirləşirdim. Get-gedə canlı qüvvənin yorğunluğu hiss olundu, kolonun səs-küyü çoxaldı və addımlar ağırlaşdı. Əsas yolu birləşdirmək, əməliyyatı və hücumçu qüvvələri dəstəkləmək bir qədər zaman tələb edirdi. Bu baxımdan, döyüşçülər bir neçə saat vuruşmaq üçün əlavə silah-sursat götürməyə məcbur idilər. Qum üzərində 16 km. yol getmək bizi yormuşdu. Get-gedə yol çətinləşir, sürət azalır və yüklər ağırlaşırdı...

Söyüd ağacına qədər ikinci briqadanın bütün batalyonlarının yolu bir idi. Ondan sonra isə hər bölük bir tərəfə gedəcəkdi. Yorğunluğu çıxsaq, xüsusi bir problem yaşamadan söyüd ağacına çatdıq. Kimin üzünə baxırdımsa, öz-özümə düşünürdüm: «Bu adam yolun sonunda hansı vəziyyətdə olacaq?!»

Hücum söyüd ağacından başlayacaqdı. Mehrab şəhidləri batalyonunun iki bölüyü bizimlə idi. Onların biri Xala qədər 270 dərəcə istiqamətində təxminən 2 km. irəliləyəcəkdi, o biri də Xalın sağ tərəfində yerləşən Çəmuya gedəcəkdi. Söyüdə çatandan sonra onlar bizdən ayrıldılar.[2]

---

[1] Vəlfəcr-hazırlıq əməliyyatı 07.02.1983 tarixində Fəkkə və Çəzzabə bölgəsində "Ya Allah! Ya Allah! Ya Allah!" parolu ilə baş tutdu.

[2] Xala gedən bölük vaxtında çatmışdı, amma Çəmuya gedənlər azmışdılar. Həmin istiqamətdən əməliyyat gec başlayanda bir hadisə baş verdiyini anladım. Sonradan öyrəndim ki, həmin bölüyü aparan kəşfiyyatçı sinə kəmərindən avtomat daraqları asıbmış. Daraqlar metal olduğundan kompasa təsir etmiş və yolu səhv getmişlər. Onlar 2 km. gedəndən sonra

Bölük hərəkətə hazır oldu. Əlim malyutka məftilinə dəyəndə daha da əmin oldum. Söyüd ağacından maneələrin başlanğıcına qədər 4 km. yol vardı. Bütün diqqətim yolu dəqiq təyin etməyə yönəlmişdi. Bölüyün komandiri şəxsi heyəti yoxlayıb vəziyyəti kəşfiyyat nümayəndəsinə məruzə etməli idi. Məftilin kənarı ilə 2 km. gedəndən sonra birdən-birə şəxsi heyətin vəziyyətini öyrənmək beynimə düşdü. Təlim zamanı bu barədə kəşfiyyatçılara tapşırıq verilməmişdi, amma qəlbən narahat idim. Kəşfiyyatçı uşaqların biri yanımda idi. Ona dedim: «Qayıt, gör kolonun vəziyyəti necədir, uşaqlar necə gəlirlər».

– Ağa Mehdi, sənin arxanca yalnız dörd-beş nəfər gəlir, başqa heç kim yoxdur.

Təəccüblə bölüyün komandirinə baxdım.

– Qardaş Dirəxşan, bəs şəxsi heyət haradadır?

O, məndən də çox təəccüblənmişdi. Çox narahat oldum. İlk dəfə idi şəxsi heyəti aparırdım. Çiynimdə ağır yük vardı; arxamca təxminən iki batalyon adam gəlirdi. Bizim səhvimiz yalnız hücumçu bölüyün işinə yox, həm də həmin iki batalyonun hərəkətinə təsir edərdi. O qaranlıqda və yalqız durumda bizdən arxada gələn bölüklə əlaqə saxlamaq yadımıza düşdü. Bizə belə cavab verdilər: «Bəli, sizin bölüyün şəxsi heyəti bizim önümüzdə gedir».

Məsələni diviziyanın qərargahına bildirdik. Mən həmin dostumu kolonun başını tapmağa göndərdim. Bir müddət sonra bizə çatdılar. Yorğunluq öz işini görmüşdü. Uşaqlar yol yeriyə-yeriyə yuxulayır, yorğunluqdan yıxılırdılar. Kifayət idi ki, biri bir neçə addım geciksin və taqımın başçısı bilməsin. Bu zaman kolonun arasında məsafə yaranırdı. Belə olduqda isə qaranlıqda və Mahur təpələrinin bir-birinə bənzədiyi bir bölgədə azmaq çox təbii hadisə idi.

Şəxsi heyət bizə çatanda bildik ki, aramızda təxminən 300 metr məsafə yaranıbmış. Onlar təsadüf nəticəsində yolu doğru gəlirmişlər. Kolon bir-birinə birləşdi, mənsə onun yenidən qırılmasından qorxurdum. Düşünürdüm ki, nə olur-olsun, bölüyün bütün şəxsi heyəti bir-birinə birləşməlidir. Partladıcı bölüyün uşaqlarında həmişə uzun parça lentlər olurdu. Onların birinə dedim: «Lentləri kolonun uzunluğu qədər açın, hamı lentdən tutsun və bir hadisə baş versə, digərləri bilsinlər».

Uşaqlar yorğun idilər. Əvvəldə bir saata 4 kilometr gedirdiksə, indi 500 metr gedə bilmirdik. Minalanmış sahəyə qədər hələ uzun yol vardı.

Kolonun hərəkətindən yenicə arxayın olmuşdum ki, bizdən öndə, düz yolumuz istiqamətində bir partlayış baş verdi. Hirsləndim. Bilirdim ki, bizdən öndə Mehrab şəhidləri batalyonunun bir bölüyü gedir. Onlar elə əvvəldə diqqətsizlik edib bir minanın üstünə çıxmışdılar. Bu hadisə öz yollarında baş versəydi, bu qədər narahat olmazdım. Hər-halda, addımlarımızı sürətləndirdik. Onlara çatanda fişəngi söndürürdülər. Mina partlayanda kəşfiyyat bölüyündən

---

səhv getdiklərini bilib söyüd ağacının yanına qayıtmış və yenidən hərəkətə başlamışdılar. Bu isə şəxsi heyəti çox yormuş və onlarda ruh düşkünlüyü yaratmışdı.

iki nəfər – Mehdi Təcəllayi və Rəhim Sarimi yaralanmışdı. Xoşbəxtlikdən, həmin bölükdə başqa bir kəşfiyyatçı da var imiş və yolun davamında onlara kömək edə bilərdi. Bundan əlavə, bölüyün komandiri Məhəmməd Məhəmmədi də zirək uşaqlardan idi və yolu tanıyırdı. Onlar dayanmadan yollarına davam etdilər. Biz isə orada işimizə başlamalı idik.

Minalanmış sahə önümüzdə idi. Partladıcı bölüyün uşaqları kolonun önündə yol açmağa hazır idilər. Mehdi Salik[1] tikanlı məftili açıb içəri girdi. Ondan sonra Rza Əhmədi önə keçdi ki, köməkləşib sahəni tez təmizləsinlər. Partladıcı bölük sahənin vəziyyətindən və minaların düzülüşündən xəbərdar idi və heç bir problem olmadan işləyirdi. Əksər minaların yerini təxmin edirdilər və iş çox sürətlə irəliləyirdi. Tezliklə sahədə bir metr yarım enində bir keçid açıldı. Onlar bir neçə addım öndə minanı zərərsizləşdirirdilər, kolon da bir addım məsafə ilə arxalarınca gəlirdi. Hələ sahədən çıxmamış sol cinahımızda, Nəcəf-əşrəf diviziyasının olduğu yerdə atışma başlandı.

Təxminən gecə saat bir idi. Düşmən sahəyə adam girdiyini ehtimal verib minaladığı sahələrə top və raket yağdırırdı. Sahədə keçid açmaq bir saat yarım çəkmişdi. Biz pusquların önünə çatanda Həzrət Rəsul diviziyasının bir batalyonu da bizə çatdı. Onlar yolboyu bizim arxamızca gəlmişdilər və oradan sola dönüb tapşırıq yerlərinə getməli idilər, ancaq hansısa səbəbdən yolu itirmişdilər. Öz bölüyümüzün şəxsi heyəti arasında gəzib uşaqlara deyirdim: «Çalışın onlara yollarını göstərin. Onlar bizim sol tərəfimizə getməlidirlər... Həzrət Rəsul diviziyasının uşaqları bizim sol tərəfimizə getməlidirlər...»

Səs-küy çoxalmış, düşmən bizi duymuşdu. Bir anın içində bütün səslər düşmənin güclü atəşləri altında itib-batdı. Biz açıq yerdə idik, düşmən isə istehkamın arxasında, kanalda və səngərlərin içində. Döyüş başlandı. Bölüyün komandir müavinlərindən olan Səməd Zəbərdəst,[2] habelə Həbib Azərniyə və İbadi ilə bir yerdə idik. Beynimizə gələn ilk fikir üz-üzə vuruşmaq oldu. Çünki o kiçik yerdə və elə güclü atəş altında düşmən mövqelərinə girə, yaxud onları mühasirəyə ala bilməzdik. Düşmənin birinci kanalın önündəki müdafiə qüvvələri dayanmadan atəş açırdılar. Şəxsi heyəti sağ və sol qisimlərinə böldük.

- Nə qədər bacarırsınız, atəş açın...

- Səngərləri RPG ilə vurun...

Uşaqların açdığı atəşin köməyi ilə şəxsi heyətin kiçik bir qismi ilə cəld mövqeyə sarı qaçdıq. Biz oraya çatmamış düşmən qaçdı və təxminən on əsir tutduq. Əsirlərin arasında sudanlı muzdurları görəndə nifrətim daşdı: Biz kimlərlə vuruşuruq?!

---

[1] O, Beytülmüqəddəs-2 əməliyyatında buzlu Mavut dağında şəhid oldu.

[2] 70 faizli müharibə əlillərindən idi, müharibədən sonra bir müddət Təbrizin Yoxsullar və Əlillər Fondunun sədri vəzifəsində çalışdı və nəhayət, 1993-cü ildə şəhadətə qovuşdu.

Orada gördüklərim mənə gözlənilməz idi. Əvvəl elə bilirdim ki, ora sadə bir pusqudur və hətta ətrafına fırlanmaq da olar, lakin İraqın digər qarnizonları kimi kanallar, möhkəm səngərlər, hətta maşın və tanklar da var idi. Ora çox böyük və möhkəm bir müdafiə düşərgəsi idi. Bölüyün uşaqlarını düşmənin gediş-gəliş üçün istehkamın arxasında düzəltdiyi kanalın içində üzü ön tərəfə, müdafiə mövqeyində yerləşdirdik. Gördüyüm hər bir döyüşçünün dodaqlarından susuzluq hiss olunurdu və qumqumaların çoxu boş idi. İbadiyə dedim: «Gedim görüm iraqlıların su bakını tapa bilərəmmi».

Təsadüfən, su ilə dolu böyük bir tanker tapdım. Minlitrlik təkərli tanker olduğuna görə iki-üç nəfər onu batalyonun yerləşdiyi yerə gətirdi. Səngərlərdə yemək və ərzaq da vardı, onları da payladılar. Kalaşnikov patronu dolu idi və uşaqlar qənimətlərlə silahlarını doldurmağa başladılar.

Rza Əhmədi mənə dedi ki, bir qədər irəliyə gedək. Yola düşüb birinci kanalın yerinə çatdıq, əslində isə qarşıda kanal yox idi. O vaxta qədər işimizi çətinləşdirmiş qumlar orada bizə kömək etmişdilər. Divarlar çökmüşdü və kanal asanlıqla keçiləsi bir çökək formasına düşmüşdü. Dəmir nərdivanları daşımaqdan ötrü çəkdiyimiz o qədər zəhmətin yorğunluqdan başqa bir bəhrəsi olmadı. Qum bəzi yerlərdə minalanmış sahəni və tikanlı məftilləri örtmüşdü. Minalanmış sahədə qaçmaq da olurdu. İkinəfərə kanaldan keçdik. Bir baxışla əsas işin irəlidə olduğunu bilmək olurdu. Qarşımızda düşmən pusqusunun qüvvə və imkanlarını təmin edən bir yol vardı. Onun hər iki tərəfində minalanmış sahələr görünürdü. Şəxsi heyətin yoldan keçməsi ehtiyatsızlıq olardı. Düşmən minalanmış sahələrin ortasından çəkilmiş yolla ona hücum etməyimizə imkan verməzdi. Yolda iki ədəd dördlü zenit pulemyotu vardı və yolu vururdu. Başqa bir dördlü pulemyot da bizim mövqeyə girdiyimiz istiqamətə tuşlanmışdı. Sol tərəfimizdə gurultu qopurdu, sağımızda isə hələ sakitlik idi. Təxmin elədim ki, Mehrab şəhidləri batalyonu maneələrdə qalıblar, çünki irəliləsəydilər, düşmənin pusquları ilə vuruşardılar.

Qayıtdıq və bir neçə dəqiqədən sonra partladıcı heyətlə birgə sahəyə daxil olduq. Birinci və ikinci kanalların arasında yol açmalı idik. Ratsiya səs-küylə dolu idi. Müslim ibn Əqil batalyonu azmışdı. Onlar Qasim batalyonunun komandirindən soruşurdular ki, özümüzü sizə necə çatdıra bilərik? Qərara gəldilər ki, onlara yol göstərmək üçün qırmızı fişəng atsınlar. Dərhal səma qırmızı rəngə boyandı. Əmin olduq ki, düşmən bizi dinləyir və azmış batalyonumuz başını itirəcək. Bir azdan Müslim ibn Əqil qüvvələrinin Qasim batalyonuna çatdığını eşitdik.

Bütün bölgə hər iki tərəfdən açılan atəşlərdən titrəyirdi. Bu hələ əvvəli idi, bilirdim ki, əsas iş qabaqdadır. Düşmənin əsas mövqeləri ikinci kanalın arxasında idi. Orada qala divarları kimi bütün İraq sərhədi boyu uzanan, Tavusiyyə və Rəşidiyyə zastavalarından da keçən böyük bir istehkam vardı. İkinci kanalın yaxınlığında atışma bir neçə dəfə güclü idi.

Belə şəraitdə partladıcı heyətdən üç-dörd nəfər başlarına yağan güllə yağışına məhəl qoymadan yerə basdırılmış minaları çıxarıb digərlərinə yol açırdılar. Mehdi Salik, Rza Əhmədi, mən və başqa bir nəfər sahənin içində bir neçə metr getmişdik ki, arxadan biri gəlib dedi: «Qardaş Əmini xəbər yollayıb ki, geri dönəsiniz, sizinlə işi var».

Rza Əhmədi ilə birgə Qasim batalyonunun yerləşdiyi yerə qayıtdıq. Aşura diviziyasının ikinci briqadasının komandiri qardaş Əmini bizim yolu davam etdirmək üçün minalanmış sahəyə girdiyimizi biləndə arxamızca adam göndərmişdi. O bizi görən kimi dedi: «Çalışın şəxsi heyəti geri qaytarın». Diviziya komandirinin əmri belə idi. Çünki sağ və sol cinahlar gəlməmişdilər və səhər açılsaydı, bizim qayçılanma ehtimalımız böyük olardı.

II

Səhər yaxınlaşırdı. Hava işıqlaşandan sonra hazırlıqlı düşmən gözləməyəcəkdi və böyük ehtimalla ağır itki verəcəkdik. Bacarıqlı uşaqlardan bir neçə nəfəri topladıq. Qardaş Yasir Zirək vəziyyəti başa saldı. Qərara gəldik ki, Qasim batalyonu və bölgədə olan digər qüvvələrlə birgə gəldiyimiz keçidlə geri qayıdaq. Yada saldılar ki, geri qayıdarkən minalanmış sahədə qalmış yaralıların geri daşınmasına kömək edək. Hamı yola düşdü.

Rza Əhmədi üzünü mənə tutub dedi: «Mehdi, indi ki qayıdırıq, buradakı silah və maşınların yenidən düşmənin əlinə keçməsi heyfdir. Bəlkə bunları partladaq?»

İşə başladıq. İstehkamın arxasında nə qədər maşın, tanker və silah səngəri vardısa, hamısı məhv edilməli idi. Bu işdə iraqlıların öz silahlarından istifadə etdik. Xətt boyu qaça-qaça düşmənin işinə yarayacaq hər bir şeyə bir əl qumbarası atdıq.

Oradan çıxanda istehkam alov və tüstü arasında itmişdi.

Düşmən bizim gecə vaxtı aralarından keçdiyimiz təpələrin üstünə helikopterlə silah-sursat boşaldıb müdafiəyə hazırlaşırdı. Mühasirəyə düşmək təhlükəsi məni qorxutdu. Necə olursa-olsun, özümüzü təpələrin arxasına çatdırmalı idik.

Minalanmış sahəyə girdik. Gecə yaralıları sahənin nisbətən təhlükəsiz bir yerinə toplamışdıq. Əmin idim ki, hələ bəziləri orada qalıblar. Rza ilə mən oranı tərk edən sonuncu adamlar idik. Sahədə uşaqların səsi ürəyimi yandırırdı. Aciz qalmışdım. Onlar azəricə və farsca deyirdilər: «Haraya gedirsiniz?!»

– Haraya?!

– Qalın, müqavimət göstərək...

Dayanıb vəziyyəti izah edə bilməzdim. Əlimdən gələn yeganə iş bir yaralını özümlə geri aparmaq idi. Minalanmış sahədə Rzanı itirib tək qaldım. Yaralıların səsi, zarıltısı və xahişi ürəyimi parçalayırdı. Onların sayı çox idi.

Sağlam uşaqlar da o qədər yorğun idilər ki, özlərindən əlavə bir yaralını da aparmağa qadir deyildilər. Ürəyimdə tufan idi: «Axı hansınızı aparım?!»

– Mehdi, məni burada qoyursan?! Mehdi...

Səsə yaxınlaşdım. Rəhim Sarimi idi. Gecə mina partlayanda yaralanmış və səhərə qədər özünü oraya sürümüşdü. Bildim ki, onunla bir yerdə yaralanmış Mehdi Təcəllayi şəhid olmuşdur.

– Mən səni aparacağam. Əlimdən gələni edəcəyəm. Hər ikimiz ölsək də, birgə gedəcəyik...

Qollarını boynuma saldı. Ayağa qalxdıq. Lakin sanki qalxan mən deyildim. Onun ağırlığına dözməyəcək qədər yorğun və taqətsiz idim. On yeddi yaşım vardı; bədənim güclü olsa da, çox yorulmuşdum. Əməliyyatdan öncəki gecələrdə yolu dəfələrlə piyada getmişdik. Hücum gecəsində də hərəkətimiz adi heyətdən çox olmuşdu. Səhər uşaqlar qayıdandan sonra Rza Əhmədi ilə birgə təxminən dörd saat oyan-buyana qaçıb düşmənin silahlarını partlatmışdıq... Hər ikimizin ayağı yerlə sürünürdü.

– Əgər dayansaq, daha qayıtmağa ümid yoxdur. Hərəkət elə!

İraqlılar təpələrin üstündə yerləşib hər bir silahla bizə atəş açırdılar. Allaha şükür edirdim ki, hələlik təpədən enmək haqda düşünmürlər. Öz mövqelərimizə çatmaq üçün mütləq təpələrin arasından keçməli idik, düşmən isə həmin yola atəş yağdırırdı. Kəşfiyyatçı uşaqlardan olan Davud Həsənpur da bizim kimi geriyə gedirdi. Təpələrə çatmamış bizi gördü və yaxınlaşdı. O da yorğun idi, amma heç bir söz demədən köməyə gəldi və Rəhimin digər qolunu çiyninə atdı. Otuz-qırx metr irəlidə yerə bir xərək düşmüşdü. Yaralı dostumuzu onun üstünə qoyub yola davam etdik. Atəş elə idi ki, daha kalaşnikov və pulemyot gülləsinə məhəl qoymurduq, onlar da lütfkarlıq edib yanımızdan ötürdülər. Mərmi və raket qəlpələrindən qorunmaq üçün isə yerə uzanmağa məcbur idik. Düşmənin müdafiə xəttinə yaxınlaşdıqca bu uzanıb-qalxmalar çoxalır və sürətlənirdi.

Düşünürdüm ki, bu müdafiə xətti bizim uşaqlarımızı yayındırmaq üçün qurulmuşdur. Çünki həmin qum təpələrinin üstünə ağır silah yerləşdirmək mümkün deyildi. Lakin düşmən də yaxşı bilirdi ki, geri qayıtmaq istəyən hər kəs bu iki təpənin arasından keçməyə məcburdur. Elə buna görə də, pulemyotları dəliyə dönmüşdü, dərə də cəhənnəmə. Dedim: «Ağa Rəhim, biz inşallah, buradan keçəcəyik, amma birdən sənə güllə də dəysə, gərək səsin çıxmasın».

Yorğunluqdan ayaqlarım sınmaq üzrə idi. Davud da mənim günümdə idi. Özümüzdən böyük və ağır bir yaralını daşıyırdıq. Rəhim də ağrıya dözürdü. Uzun bir keçiddən cəld keçməli idik. Bir an içində qaçmağa başladıq. O qədər bərk qaçırdıq ki, yazıq yaralı güllədən yox, güclü atılıb-düşmədən bir neçə dəfə qışqırdı. İnanılmaz olsa da, o cəhənnəmdən salamat çıxıb nisbətən təhlükəsiz olan ilk yerə çatdıq. Hər ikimiz Rəhimin yanında yerə sərildik. Məlum idi ki, düşmən yerləşəndən sonra bütün uşaqlar oranı belə keçmişdilər.

Qalan yolu uşaqların əşyalarından təyin etmək olurdu. Onlar qayıdarkən üzərlərində olan hər bir ağır əşyanı – avtomatı, yük çantasını, qumqumanı, kəməri yerə atmışdılar.

Yemək və su üçün hər bir çanta və qumqumanı yoxlayırdıq, lakin hamısı bizdən öncə boşalmışdı. Sanki bizimlə mövqeyimiz arasındakı məsafə dartılıb uzanmışdı. Məyusluq məni daha da yormuşdu. Birdən Davudla eyni vaxtda bir meyvə şirəsi gördük. Necə də gözəl idi! Aclıqdan çıxmış adamlar kimi ona doğru qaçdıq. Üstümüzdə süngü yox idi. Meyvə şirəsini yerə qoyub kalaşnikovun ucu ilə başına bir zərbə vurdum. Rəhim də hay-küyə başladı: «Bir az da mənə verin... ölürəm!»

– Sənin qanaxman var, su olmaz! Gəl, bir az meyvəsindən ye.

Meyvələri barmağımla götürüb ona verdim. Suyunu da Davudla birgə nuş etdik. Çox deyildi, amma o vəziyyətdə bizə yaxşı enerji verdi və yenidən yola düşdük. Hələ qarşıda 4 kilometr yolumuz vardı. Yolboyu bəzi yerlərdə yorğunluqdan yıxılıb qalanlar vardı. Yaralı deyildilər, amma yorğunluqdan tərpənə bilmirdilər. Kimə çatırdıqsa, yaralını daşımağa kömək etməsi üçün yalvarırdıq, amma onların nəinki yaralını daşımağa, heç danışmağa da taqətləri yox idi. Çoxunun vəziyyəti elə idi ki, onlardan nə isə istəməyə ürəyim gəlmirdi, amma özüm də yıxılmaq üzrə idim. Bitmək bilməyən o ağır dəqiqələrdə bir nəfər bizə yaxınlaşdı. Kəşfiyyat bölüyünün uşaqlarından idi. Kəşfiyyatçılar elə yetişdirilmişdilər ki, harada bir iş görürdülərsə, yaxınlaşır və başa çatdırmaq üçün əllərindən gələni edirdilər.

Bir neçə addım öndə tehranlı bir döyüşçü də bizə kömək etməyə başladı. Xərəyin dörd tərəfindən tutduq, yükümüz yüngülləşdi və nəhayət, günortaya yaxın söyüd ağacına çatdıq.

Dəstək yol çox çətinliklə salınmışdı. Millərin və lay dəmirlərin köməyi ilə relsə bənzər bir yol salınmışdı. Maşınlar quma batmadan onun üstü ilə hərəkət edirdilər. Yaralını rastlaşdığımız ilk təcili yardım maşınına qoyduq. Əlim boşaldı. Bu zaman bir əl mənə nə isə uzatdı; bir gilas şirəsi idi. Allah bilir ki, necə ləzzətli idi! İçdim və elə oradaca yolun kənarına yıxıldım. Hava soyuq idi, amma əsla üşümürdüm; nə soyuğu hiss edirdim, nə də aclığı. Yorğunluqdan huşsuzluğa bənzər yuxuya getdim.

***

Yuxudan oyananda hələ də yorğun idim. Çəkmələrimi çıxardım. Barmaqlarım tərpənmirdi və çətinliklə addım atırdım. Birtəhər özümü kəşfiyyat bölüyünə çatdırdım. Ehtimal verirdim ki, işi davam etdirmək üçün plan var və kəşfiyyatçıya ehtiyac olacaq. Uşaqlar əməliyyat bölməsində idilər. Mən orada qalıb ertəsi günə qədər istirahət etdim.

Səhər çağı ikinci briqadanın komandir əvəzi Ələddin Nurməhəmmədzadə kəşfiyyatçı uşaqları toplayıb dedi: "Hər halda, bizim yenə planımız olmalıdır, gərək gedib bölgəni araşdıraq. Əlimizdən gələn ən kiçik iş budur ki, bölgədə qalmış yaralıların geri çatdırılmasına kömək edək". Hamımız yorğun və işin

sonucuna ümidsiz olsaq da, qardaş Ələddinin sözləri bizi hərəkətə gətirdi və nə olursa-olsun, irəliyə getmək qərarına gəldik. Avtomobilə minib yola düşdük. Altı nəfər idik: Bəni-Həsən, Möhsün Əsməi, Davud Həsənpur, Sadiq Eyvəzi, xoylu bir döyüşçü və mən. Bizdən başqa beş nəfər də Xala doğru getdi. Xalın sağ tərəfindəki təpələrdə Aşura diviziyası, sol tərəfində də Həzrət Rəsul diviziyası müdafiə mövqeyi seçmişdi. Bir qədər sonra avtomobil quma batdı və biz piyada getməyə məcbur oldu. Təpələrin bir-birinə bənzəməsi işimizi daha da çətinləşdirirdi. Bir təpədən yeni enmişdik ki, nə isə partladı və uşaqların üçü yerə yıxıldı: Möhsün Əsməi, Davud Həsənpur və xoylu döyüşçü. Hər üçü yaralanmışdı. İki nəfərlə mən qaldım. Yolu davam etdirməkdən başqa çarə yox idi. Mən həmin iki nəfərdən ayrılıb Xalın soluna doğru yola düşdüm. Orada Həzrət Rəsul diviziyasının şəxsi heyəti əkiz təpələrin üstündə vuruşurdu. Oraya yaxınlaşanda şəxsi heyətin mövqeyi boşaltmaqda olduğunu gördüm. Durbinlə baxıb əkiz təpəyə qalxan iraqlıları da gördüm. Tez özümü onlara çatdırdım.

– Haraya gedirsiniz?!

– Komandirimiz şəhid olub, iraqlılar da yaxınlaşırlar, daha nə üçün qalaq?!

Əhval-ruhiyyələri çox pis durumda idi. Haradansa beynimə belə bir fikir gəldi. Onlara dedim: «Diviziyanın qərargahından məni batalyonun komandiri təyin ediblər».

Heç bir söz demədən qəbul etdilər. Çox bacarıqlı olan iki-üç döyüşçünün köməyi ilə şəxsi heyəti təpəyə qaytardıq və orada yerləşdik. Yaxınlaşmış düşmənlə vuruşma şiddətləndi və bir neçə dəqiqədən sonra qaçmağa üz qoydular. Bir saat keçməmiş Həzrət Rəsul diviziyasının əməliyyat bölməsindən bir neçə nəfər gəldi. Məsələni öyrənib mənə təşəkkür etdilər. Daha orada işim qalmamışdı. Öz mövqelərimizə qayıtmaqdan ötrü təpədən endim, amma yorğunluqdan və aclıqdan yıxılmaq üzrə idim. İxtiyarsız olaraq, ara-sıra görünən xurma ağaclarına yaxınlaşdım. Ağacların arasında 500-600 metr məsafə vardı. Birinci ağacda xurmadan əsər-əlamət yox idi. Beləliklə, bütün ağacları gəzdim. Sonuncu ağaca söykənib məyus halda ikən yerə baxdım. «Bu nədir?» – Öz-özümə dedim.

Yerdə kiçik bir çıxıntı diqqətimi cəlb etdi. Torpağı kənara çəkəndə səbətin bir küncünü gördüm. Çətinliklə də olsa, səbəti çıxardım. Xurma ilə dolu idi. Xurmaları uşaqlara payladıq. Bir neçə qara xurmanı yeyib özüm də cana gəldim və ayağa qalxdım. Yolumun üstündə bir kolon canlı qüvvə gördüm. Soruşandan sonra öyrəndim ki, Aşura diviziyasının Fəcr batalyonudur və müdafiə üçün Qasim batalyonunun mövqeyinə gedir. Fikirləşdim ki, onlara tapşırılan yeri tapana qədər çox çətinlik çəkəcəklər. Buna görə onlara qoşuldum. Qasim batalyonu geri çəkiləndən sonra minalanmış sahəyə əhatəsi olan qum təpələrinin bir hissəsində müdafiə mövqeyi seçmişdi. Oraya çatandan sonra yeni məlumat öyrənməklə yanaşı həm də minalanmış sahəyə baş çəkmək məqsədilə yola düşdüm. Orada yaralıların qaldığını fikirləşəndə

narahat olurdum. Bölgə atəş altında idi. Minalanmış sahənin yaxınlığında Həzrət Rəsul diviziyasından iki nəfər yıxılıb qalmışdı. Onlara yaxınlaşdım. Məqsədimi biləndə mane oldular.

– Bizim halımız çox da pis deyil, özümüz geri qayıda bilərik. Sizin diviziyadan bir neçə nəfər orada sahədə qalıb, halları da pisdir. Gedin onlara kömək edin...

Dedikləri yerə getdim. Uzaqdan üç şəhid cəsədi və bir yaralı gördüm. Şəhidlər kəşfiyyat bölüyündən idilər: Rəhim Sürudi[1] Təbrizdən, Məhəmmədrza Şəcəri Ərdəbildən və Nəxustin Miyandoabdan. Qrupun partladıcısı olan Nasir Həqşünas[2] da yaralanmışdı. Rəhimin və digər şəhidlərin üzünə son dəfə baxdım.

Bilirdim ki, şəxsi heyət gələnə qədər orada qalmalıdırlar. Geri qayıtmaq üçün Nasirə kömək etdim. Sözlərindən başa düşdüm ki, onlar əməliyyatın davamı üçün kəşfiyyata, doqquzuncu briqadaya yol açmağa gəlibmişlər və iş zamanı minaya düşüblər. Narahatlığımı gizlədə bilmirdim. Qayıdanda uşaqların yerini göstərən yaralıları gördüm. Mən gedəndən sonra oraya bir raket düşmüş və birinin ayağı kəsilmişdi. Ürəyim od tutub yanırdı. Bir qədər öndə uşaqlardan bir neçəsini gördüm. Nasiri onlara verdim və başqa bir neçə nəfərlə qayıdıb tehranlı yaralıları geriyə apardıq.

Həmin gün ilk dəfə idi orada elə güclü atəş görürdüm. Bəzən bir anda otuz partlayış baş verirdi. Düşünürdük ki, düşmən 60 kalibrli raketlərini yan-yana düzüb və eyni anda atəş açır; necə idisə, bölgəni viran qoymuşdu.

Hava qaralanda Xalda yerləşmiş şəxsi heyətə çatdım. O qədər yorulmuşdum ki, gecə təmas xəttindəki səngərlərin birində yatdım.

Səhər çağı Seyid Sadiq Eyvəzini gördüm; sağlam və gümrah idi. Mənə dedi: "Mehdi, bəlkə gedək irəlidəki düşmən mövqeyinə bir baş çəkək?" Yola düşdük. Minalanmış sahədəki keçidlə gedirdik. Bir səngərin otuzmetrliyinə çatanda düşmən pusqusu olduğunu bildik. Səngərin keşikçisi bizi görmürdü. Bildik ki, düşmənlər bizim oradan hücum edəcəyimizi düşünmürlər və buna görə səngəri gizlətməmişlər.

Durbinlə ətrafı nəzərdən keçirib qayıtdıq.

Bir həftə hadisəsiz ötdü. Ordu birləşmələri mövqeyi Fəcr batalyonundan təhvil aldılar. Diviziyanın oradakı tapşırığı bitmişdi. Maşınlara minib bir neçə ay öncə kəşfiyyat bölüyünün yerini soruşduğum qərargaha qayıtdıq.

Firuz Vüfurinin, Mehdi Təcəllayinin, Rəhim Sürudinin və digərlərinin yeri boş idi. Çoxları da xəstəxanaya düşmüşdü. Qəribə hisslər keçirir və şəhidlərdən nə qədər uzaq qaldığımı fikirləşirdim.

---

[1] Cəbhəyə gəlişindən şəhadətinə qədər məzuniyyətə getməmişdi. Vəlfəcr-hazırlıq əməliyyatında şəhid olan digər döyüşçülər kimi, onun da cəsədi illər sonra Fəkkə bölgəsindən tapıldı və şəhid məzarlığında torpağa tapşırıldı.

[2] O, sağalıb yenidən cəbhəyə döndü və 1987-ci ildə Kərbəla-5 əməliyyatında şəhadətə qovuşdu.

Qərargah sədri qardaş Kəbiri bizi toplayıb diviziyanın vəziyyəti haqda danışdı. Təkidlə dedi ki, hamınız məzuniyətə gedirsiniz, amma işimiz çox olduğuna görə tez qayıtmalısınız, sizin hər birinizə ehtiyacımız var.

Çoxdan görmək istədiyim işlər yadıma düşdü. İmtahanlarda mütləq iştirak edib dostlarımdan geri qalmamaq istəyirdim. Çox israrla uzunmüddətli icazə aldım.

Bahar yaxınlaşırdı. Qırmızı qanları qumları yumuş və pak cəsədləri hələ Fəkkə çöllərində qalmış şəhidləri düşünürdüm. Mən bu dəfə yarasız, amma qəlbisınıq halda qayıdırdım.

Kərbəla şəhidləri bölüyü

I

1983-cü ilin baharının ilk günləri idi. Bir aydan çox idi Təbrizdə idim. Məhəlləmizin Müqavimət mərkəzinin uşaqlarından olan və Təbriz Sepahının Ali Şurasında çalışan Seyid Əjdər Mövlayini gördüm. Mənə dedi: «Əməliyyat ətri gəlir. İstəsən, birgə gedək». Sevincək evə getdim: «Seyid Əjdərlə birgə ziyarətə gedirik... Bəli, gedirik Məşhədə!»

Seyid Əjdər də işindən məzuniyyət götürdü. Birlikdə Təbrizin dəmiryol vağzalına getdik. Orada Rəhim Sarimini gördük. O da təkbaşına cəbhəyə gedirdi. Ezam yox idi. Birlikdə əvvəlcə Tehrana yollandıq, sonra isə Əhvazı, Dezfulu və Şuşu arxada qoyduq. Kərxədə salınmış körpüdən keçib özümüzü birtəhər Çənanəyə çatdırdıq. Diviziyanın orada olduğunu düşünürdük, amma dedilər ki, Aşura diviziyası Əbu Qüreybə köçüb. Üçümüz diviziyanı axtara-axtara Əbu Qüreyb bölgəsinə getdik və nəhayət, əməliyyat düşərgəsini tapdıq. Bizim gəlişimiz Vəlfəcr-1 əməliyyatı ilə eyni zamana təsadüf edirdi. Biz gecikdiyimizdən kəşfiyyat bölüyündə qalmalı olduq.

Vəlfəcr-1 əməliyyatının keçirildiyi bölgədə Həmreyn və Cəbəl Fövqi dağ silsilələrinin davamı olan yüksəkliklər vardı. 143, 145 və 165-ci təpələr Meysan adlı mühüm bir keçidə baxan mühüm təpələr idi. Bu keçid İraqın ən mühüm birləşdirici yollarından idi və Dəhliz adlanırdı. İraq bu həyati dəhlizi qorumaqdan ötrü böyük işlər görmüş, iranlı qüvvələrin yolunu bağlamaq üçün əlindən gələni etmişdi. Ən çətin maneələr o dərənin və keçidin içində idi. Dərə o qədər geniş idi ki, bir əməliyyat korpusu bütün imkanları ilə oraya yerləşərdi. Dərə maneələrin arasında itmişdi. İçində 1 km. məsafələrlə on üç ardıcıl kanal vardı, hər kilometr tikanlı məftillərdən və minalanmış sahələrdən ibarət beş 200 metrlik manea ilə örtülmüşdü. Tikanlı məftillər həm yerə sərilmişdi, həm də topa-topa qalaqlanmışdı. Sahələri minalamaq üçün bütün mina növlərindən istifadə etmişdilər.

Yolun başqa bir əhəmiyyəti bu idi ki, Şərhani və Zübeydat zastavalarının arxasından keçib Bizirqan neft quyularına çatırdı. Vəlfəcr-hazırlıq əməliyyat zonası bu quyuların solunda, Vəlfəcr-1 əməliyyat zonası isə sağında qalırdı. Bu iki yerin arasında "Hur Sinaf" adlı böyük bir gölməçə vardı, Bəsrə-Əl-İmarə strateji magistralı da oradan keçirdi. Vəlfəcr-1 əməliyyatının məqsədi düşmənin cənub-qərblə əlaqəsini kəsməkdən ötrü həmin yolu məhdudlaşdırmaq idi.

Bölgədə olduğumuz üç gündə ağa Mehdini bir dəfə gördüm. Eşitmişdim ki, Vəlfəcr-hazırlıq əməliyyatında çox əziyyət çəkmişdi. Deyəsən, qərargah da əməliyyatın uğursuz olmasında Aşura diviziyasını günahlandırmışdı.

Hər halda, ağa Mehdini ilk dəfə o vəziyyətdə görürdüm. Bir həftədən çox idi bölgədə şəxsi heyətlə işləyirdi. Yemək-yatmaq bilmirdi, son günə qədər

hamı ilə birgə ön xətdə iştirak edirdi. Onun iradə və bacarığı sayəsində Aşura diviziyası ilk dəfə orada öz qəhrəman simasını göstərdi. Uşaqlar digərlərindən tez və çox irəliləmişdilər. Aşura diviziyası bu əməliyyatda doqquz batalyonla iştirak edirdi. Qüds və Müslim ibn Əqil batalyonları təyin olunmuş yerlərə çatmışdılar, 143 və 145-ci yüksəkliklər fəth olunmuşdu, ancaq 165-ci yüksəklik qalırdı. Düşmən oradan bölgəni görür və bütün mövqelərə atəş açırdı.

Oranı ələ keçirmək bizim üçün çox əhəmiyyətli idi. Orada Meysan dəhlizinin bir hissəsi olan Bəcəliyyə adlı bir keçid vardı. Biz keçidə yaxınlaşmışdıq, amma düşmənin müqaviməti gözlənilməz idi. Uğurlu irəliləyişlərinə görə Aşura və Həzrət Rəsul diviziyalarının istiqamətindəki əks-hücumlar daha güclü idi. Diviziyanın komandir əvəzi Həmid Bakiri və kəşfiyyat bölüyünün komandiri Mustafa Mövləvi yaralanmış, kəşfiyyatçı uşaqların çoxu şəhid olmuşdu. Ağa Mehdinin üzündən yorğunluq və yuxusuzluq yağırdı. Başdan-ayağa toz-torpağın içində idi, amma bir an da dayanmırdı. Diviziya mövqeyi təhvil verib qayıdanda biz də oranı tərk etdik. Hər üçümüz Əndiməşkə getdik, oradan da qatarla özümüzü Tehrana çatdırdıq. Tehranda ilk dəfə olaraq, hava səfərinə çıxmaq istədim, amma bilet tapmadıq. Əvəzində orada bir kişi ilə tanış olduq. Deyirdi ki, Böyük Nanvayi adlı bir qohumu şəhid olub və dəfnində iştirak etmək üçün Təbrizə gedir. Biz onun şəxsi avtomobili ilə Təbrizə getdik.

Çox darıxırdım. Dərs və imtahan bəhanəsilə cəbhədən uzaqlaşıb evdə oturduğum iyirmi gün acı və ağır keçirdi. Təbrizdə Sepahın kəşfiyyat komandiri Bəhmən Nocədi ilə görüşəndə cəbhəyə ezam olacağını söylədi. Üzümə başqa bir rəhmət qapısı açılırdı.

II

Aralarında yeganə Bəsic üzvü mən idim. 27 nəfərlik qrupun hamısı Sepahdan idilər və əyinlərində pasdar forması vardı. Cəbhəyə Ezam Mərkəzindən dəmiryol vağzalına gedib qatarda beş pasdarla bir kupeyə yerləşdik: İsmayıl Məhəmmədi, Mənsur Furqani, Əkbər Cavani, Bəhmən Məhbubi və Əkbər Cavan Bəxşayiş. Onların bəzisi ilk dəfə idi cəbhəyə gedirdilər, cəbhə və şəhid xatirələri onlara maraqlı idi. Mənsur Furqaninin əlində on birinci sinif kitabları vardı, oxuyub attestat almaq istəyirdi. Mənim kəşfiyyat bölüyündə olduğumu biləndə soruşdu: «Kəşfiyyat komandiri kimdir?»

- Qardaş Mustafa Mövləvi.

- Mustafa öz yerlimizdir.

Mənsur Miyanədən idi və elə ilk görüşdən ondan xoşum gəldi. O da kəşfiyyat bölüyünə gəldi.

Aşura diviziyasının kəşfiyyat bölüyü Dezfulla Əndiməşkin arasındakı Şəhid Mustafa Xomeyni qarnizonunda yerləşirdi. Kəşfiyyat bölüyündən əlavə,

partladıcı batalyon və diviziya qərargahı da həmin qarnizonda idi. Qarnizonun bir neçə otaqlı bir binası vardı. Biz otaqların birinə yerləşdik.

Tezliklə Əlirza Həsənzadə, Rza Əhmədi və Seyid Sadiq Eyvəzi də gəldilər. Rza Vəlfəcr-hazırlıq əməliyyatında yaralanmışdı, Seyid Sadiq də Vəlfəcr-1 əməliyyatında. Hələ yaraları sağalmamışdı. Cəbhədə dostlaşdığımız, birgə vuruşduğumuz, birlikdə gülüb-ağladığımız insanları görmək çox gözəl idi və bunun yerini başqa heç bir şey vermirdi. Getdikcə kəşfiyyatın digər uşaqları tək-tək və qrup halında gəlirdilər. Lakin Rza Əhmədi bölüyə gəlmədi. Onun partladıcı bölüyə getməkdə ciddi olduğunu görəndən israrla xahiş etməyə başladıq. O isə mətanətlə cavab verirdi: «Yox, partladıcı bölüyü tərcih edirəm». Bunu deyib partladıcı batalyona yeni gəlmiş döyüşçülərə təlim keçməyə getdi. Orada heç kim Rzanı tanımırdı və o da bunu istəyirdi.

Kəşfiyyat bölüyünün təlimləri başlandı. Bölüyə gələndə Rəhim Surudinin başçılığı ilə keçirilən təlimlərdə öyrəndiklərimizi öz təcrübələrimizlə birgə yeni şəxsi heyətə ötürürdük. Təlimlərin ara verildiyi günorta istirahətində Rza bizim otağımıza gəlirdi. Partladıcı bölükdə heç kim onun yaralı olduğunu bilmirdi. O, yaralarını bizim yanımızda bağlayırdı. Qarnındakı dərin yaradan axan qan və çirk çox vaxt köynəyinə yapışırdı. O, yarasını dəyişmək üçün paltarını qaldıranda hər dəfə yaradan qoparmağa məcbur olurdu. Bunu görüb biz də narahat olur və deyinirdik: «Ağa Rza, əgər bir qədər istirahət etsən və özünü bu qədər oda-suya vurmasan, daha tez sağalarsan». Bu sözləri bizdən təxminən 13 yaş böyük olan Rza Əhmədiyə hər gün deyirdik, lakin ona görə, sağalmaq və yaxşılaşmaq yalnız şəhidlikdən ibarət idi.

Təlimlər başlayandan üç gün sonra qardaş Mövləvi də gəldi. Vəlfəcr-hazırlıq əməliyyatında yaralanıb hospitalda yatan qardaş Şücaifərdən sonra ağa Mustafa kəşfiyyat bölüyünün rəhbərliyini üzərinə götürmüş və Vəlfəcr-1 əməliyyatında özü də yaralanmışdı. Lakin istirahət və müalicə üçün şəhərdə qalmayıb cəbhəyə dönmüşdü. O, kəşfiyyatçılardan bir neçə nəfəri, o cümlədən Mənsur Furqanini, İsmayıl Məhəmmədini, Seyid Sadiq Eyvəzini, Əlirza Həsənzadəni və Bəhmən Məhbubini seçib özü ilə apardı. Biz onların hara getdiklərini bilmirdik, amma haradasa kəşfiyyat işlərinin başlandığını təxmin edirdik. Onlar gedəndən sonra mən vaxtımın çoxunu Rza Əhmədi ilə keçirirdim. Bikar olanda Dezfula gedirdik. Bütün Bəsic üzvləri Dezful şəhərini sevirdilər.

Dörd gündən sonra qardaş Mustafa Mövləvi yenidən qərargaha gəldi və bu dəfə də üç nəfəri özü ilə apardı: Əli Məhəmmədini, Əbdürrza Əkrəmini və məni.

Əli ilə birgə IFA avtomobilinin arxasına düzülmüş ədyalların üzərində oturduq və maşın yola düşdü. Yeni bölgədə işləmək üçün seçildiyimə sevinirdim. Qardaş Mövləvinin məni tanımadığını bilirdim. Sonralar öyrəndim ki, məni Seyid Sadiq Eyvəzinin və Əli Məhəmmədinin sözü ilə yeni işə cəlb etmişdi. Dezfuldan Baxtərana, oradan da Sərpol Zəhaba getdik. Sərpol

Zəhabda əhali yox idi, sakitlik idi. Kəşfiyyat komandirinin göstərişi ilə şəhərin ortasındakı evlərdən birini kəşfiyyat qərargahı etmişdilər. Evdə su kondisioneri vardı, amma su yox idi.

Yolboyu tapşırmışdılar ki, əsla özünüzü Aşura diviziyasının döyüşçüsü kimi təqdim etməyin. Vəlfəcr-hazırlıq əməliyyatında işlərin üstünün açıldığına görə məlumatı qorumağa dair hamıya ciddi tapşırıq verilmişdi. Uşaqlar deyirdilər ki, hətta hazırlıq əməliyyatından yalnız iki ay sonra baş tutan Vəlfəcr-1 əməliyyatında da kəşfiyyat məlumatlarının qorunması çox yaxşılaşmışdı. Bilirdik ki, məlumatları qorumaq onları toplamaq qədər əhəmiyyətlidir.

Bir neçə gündən sonra Mehdi və Həmid Bakirilər də oraya gəldilər. Həmin ev əslində, Sərpol Zəhabda Aşura diviziyasının qərargahı rolunu oynayırdı. Diviziya Kasəgəranda yerləşmişdi və biz qərbə gəlmiş son adamlar idik. Qərargaha ad seçməli idik. Ağa Mehdinin təklif etdiyi ad tez qəbul olundu. Bir tankeri ağ rəngə boyadıq və uşaqların biri qırmızı boya ilə bölüyün adını yazdı: «Kərbəla şəhidləri bölüyü». Müharibə bitənə qədər kəşfiyyat bölüyü bu adla tanındı.

Sərpol Zəhab qərargahı Aşura diviziyasının kəşfiyyat bölüyünün bölgədəki dəstək və istirahət yeri sayılırdı. İşə başlamaqdan ötrü kəşfiyyat aparılan bölgədə bir yer seçdilər. Ora Əmmar mövqeyi kimi məşhur oldu. Bu mövqe təxminən Sərpol Zəhabdan Əzgiləyə doğru gedən yolun kənarında və Əzgiləyə təxminən 20 km. qalmış bir ərazi idi. Düşmən Bəmonun 2000 metrlik yüksəkliyində yerləşmişdi, biz isə qonşu təpələrdəki 50-60 metr yüksəkliklərdə idik. Ora gördüyüm ilk barışıq yeri idi. Bölgədə get-gəl o qədər az idi ki, İraq oranı özünə mühüm və etimadlı dayaq bilirdi. Bölgədəki müdafiə vəziyyətindən bilmək olurdu ki, oradan əsla təhlükə ehtimalı vermir. Biz də kəşfiyyat sirrini qorumaq məqsədi ilə bu barışığı və sükutu pozan bir iş görmürdük. Əslində, bölgənin vəziyyəti ilə tanış olmaq üçün əlverişli fürsət yaranmışdı.

Bəmo və Salmanə yüksəklikləri arasındakı dərədən Salmanə çayı keçirdi. Bu iki yüksəkliyin arxasında 6-7 km. enində geniş bir düzənlik vardı. Bu düzənlik digər tərəfdən bölgənin ən hündür yüksəkliyi olan Həsənbəy dağı ilə bitirdi. Bu geniş düzənlikdə bir neçə kürd kəndi və şəhəri yerləşirdi. Oralarda demokratların və hörgütlərin fəaliyyətləri güclü idi. Salmanə çayı Həsənbəy dağından başlayıb düzənlikdən, Bəmo və Salmanə yüksəkliklərinin arasından keçirdi. Çay davamında Bağ-Mənsurun yanından Hüseynabad kəndinə gedir və sonda Cavanrud adlı başqa bir çayla birləşirdi. Cavanrud Bəmo yüksəkliyinin qarşı tərəfindən keçirdi və həmin hissədə onun üzərində beton körpü salınmışdı.

Biz həmin bölgəyə gedəndə uşaqların təşəbbüsü ilə yolda Əmmar mövqeyinin yaxınlığında salınmış böyük bir körpünün girişini bağladıq. Yaxşı bir yer əmələ gəldi və alnına «Kəşfiyyat bölüyünün namazxanası» möhrünü

vurduq. Orada camaat namazları qılınır, Əhd, Təvəssül və Kumeyl duaları oxunur, aşkar və gizli münacatlar edilirdi.

Körpünün yanında bir neçə çadır qurduq və beləliklə, Aşura və Həzrət Rəsul diviziyalarının kəşfiyyat bölüklərinin yerləşdiyi Əmmar partizan düşərgəsi hazır oldu.

Hər şeydən öncə ətrafa ümumi göz atıb kəşfiyyat üçün münasib yol tapmalı idik. Bölüyün müşahidə postu Salmanə yüksəkliyinin yuxarısında idi. Ora çıxmaq üçün bir hissəsi qayalıq olan çox təhlükəli yolla qalxmalı idik. Bunu asanlaşdırmaqdan ötrü həmin hissələrdə taxta nərdivanlardan istifadə olunmuşdu. Güllə və qəlpələrlə deşilib parçalanmış nərdivanlarla qalxmaq da çətin idi. Lakin bir neçə dəfə gedəndən sonra düşmənin yerləşdiyi mövqe haqda təxmini məlumat toplaya bildik. Oradan baxanda Salmanə ilə Bəmo arasında bir çala gördük. Bağ-Mənsur bizim ümid yerimizə çevrilmişdi. Həmin bağdan düzənliyə keçə bilərdik.

Kəşfiyyat zamanı gəlmişdi. Hər dəfə kəşfiyyata getmək həyəcanlı və qorxulu olsa da, qalanların hamısı gedənlərə qibtə edirdilər. Vəlfəcr-1 əməliyyatından sonra kəşfiyyat bölüyü diviziyanın seçilmiş uşaqlarının birləşməsinə çevrilmişdi. İlk günlərdə cəbhə və kəşfiyyat barədə heç bir anlayışı olmayanları bölüyə götürürdülərsə, indi kəşfiyyatçılar partladıcı bölüyün və müxtəlif batalyonların seçilmiş döyüşçülərindən yığılırdı. Bu təqvalı, qorxmaz və igid döyüşçülər qayaların, çöllərin və qumların arasında təkbaşına, gizlicə və sakitcə işlədikcə daha da inkişaf edib bişirdilər.

Əli Məhəmmədi, Əbdürrza Əkrəmi və başqa bir neçə nəfərdən ibarət ilk kəşfiyyat qrupu ilə yola düşdük. Əli Məhəmmədi komandanın başçısı idi. Kompas da onda idi və digərlərindən öndə gedirdi. Onun ardınca addımları sayan kəşfiyyatçı, hamıdan arxada isə komandanın mühafizəçisi gəlirdi. O, hər hansı təhlükə hiss etdikdə hərəkətə keçməli və digərlərinə xəbər verməli idi.

Qaranlıqda gecə durbinilə bölgəyə baxandan sonra yola düşdük. Sülh və atəşkəsin nəticəsi dağa, düzə və dərəyə hakim olan sakitlik idi. Bəlli idi ki, düşmən hər tərəfdən arxayındır, cənub cəbhələrindən fərqli olaraq, düşmənin güclü nəzarəti və müdafiə mövqeyi yox idi; nə pusqu vardı, nə də ardıcıl fişənglər. Bağ-Mənsur yolu ilə düzənliyə çıxdıq və maneə ilə rastlaşmadan "Həsənbəy" yüksəkliklərinə qədər irəlilədik. Oranın yaxınlığında dağılmış bir kənd vardı. Bir gün orada qaldıq. Məsafənin çoxluğuna görə kəşfiyyatı bir gecədə bitirə bilməzdik. Götürdüyümüz yeyintilər bir sutkadan artıq bəs edərdi. Kənddə bulaq olduğunu öncədən proqnoz etmişdik.

Sərin və dadlı bulaq suyundan götürmək üçün özümüzlə səhəng gətirmişdik. Heç bir problem olmadan səhərdən axşama qədər kənddə qaldıq. Oradan düşmənin yaxın təpələrdəki hərəkətlərini görə bilirdik. Gecə oradan qayıdanda ilk kəşfiyyatda öyrəndiyimiz məlumatlara görə sevinirdik.

Kəşfiyyat işi Bəmo dağına qalxan yolları öyrənməklə davam etdi. Adətən, Bəmonun arasındakı çalanı keçib bir qədər gedəndən sonra Bəmo ilə aşağıdakı

alçaq təpələrin arasında olan və Üçbucaq adı ilə tanınan kiçik bir düzənliyə çatırdıq. Həmin düzənlikdən sonra Bəmo dağının və Bəmoda yerləşmiş İraq qüvvələrinin təxminən arxasına keçirdik. Düşmənin Bəmodakı müdafiə mövqeyinə dəstək verən yol da həmin üçbucaq düzənlikdən keçirdi. Bəmodakı əsas kəşfiyyat üçbucaq düzənlikdən Bəmo dağına qalxmaqla başlayırdı. Biz iki kəşfiyyatda təxminən zirvənin yaxınlığına qədər getdik, oraya canlı qüvvə və silah aparmaq üçün mağara və cığırlar tapdıq.

İyulun ortalarında əməliyyat marşı çalındı, Vəlfəcr-2 əməliyyatının baş tutması və İraqın Hacı İmran qarnizonunun ələ keçirilməsi xəbərini eşitdik. Bir neçə gündən sonra bizi Əmmar partizan düşərgəsindən geri çağırdılar. Deyəsən, orada diviziyanın dəstəyinə ehtiyac duyulmuşdu. Kəşfiyyat bölüyündən təxminən 15 nəfər, o cümlədən Həmid Bakiri, Mustafa Mövləvi, Səid Fəqih və Ələddin Nurməhəmmədzadə oraya ezam olundular. Mən də onların arasında idim.

Axşamüstü Nəqədəyə çatdıq. Nəqədənin maarif şöbəsi ilə danışıb bir orta məktəbi qərargah etmişdilər. Məktəbdə ilk iş dəstəmaz alıb namaz qılmaq oldu. Yerə palaz sərildi, çiyinlər bir-birinə birləşdi. Qardaş Mehdi Bakiri gəlib arxada oturdu və israrlar başladı: "Ağa Mehdi, buyurun önə, pişnamazımız sizsiniz".

Ağa Mehdi bir cavabla hamının ağzını yumdu: "Seyid Sadiq olan yerdə imamlıq etmək bizə düşməz".

Gecə həmin məktəbdə böyük bir otaqda yatdıq. Ağa Mehdinin Seyid Sadiq barədə dediyi söz daim beynimdə təkrarlanırdı. Seyid Sadiq çox dəyərli insan idi. Onunla Vəlfəcr-hazırlıq əməliyyatında tanış olmuşduq. Yataqlarımız yanaşı idi və o, gecəyə qədər mənə çox nəsihət verirdi. Mənim işlərimə nə qədər diqqət yetirdiyini görəndə düşünürdüm ki, görəsən, öz işlərini necə diqqətlə yerinə yetirir! O, deyirdi: "Mehdiqulu, uşaqlarla bundan artıq əməkdaşlıq elə. Onlarla davranışın daha yaxşı ola bilər... Hissiyyata qapılma, kollektiv işlərdə iştirak et..."

Otağı süpürmək, qabları yumaq, camaat namazlarında daim iştirak etmək və digər bu kimi işlər seyidin həssaslıq göstərdiyi və mənə gözəl şəkildə tövsiyə etdiyi məsələlər idi. Seyid Sadiqin düşüncə və rəftarları praktik bir dərs idi. Bəzi əsgərlər yalandan İmam Mehdi (ə) ilə görüşdüklərindən danışanda və uşaqlar onlarla mübahisə edəndə Seyid Sadiq səbirlə deyirdi: "Siz bu məsələlərə qarışmayın, hər bir işə cavabdehlik daşıyan bir adam vardır. Siz düşünmək istəyirsinizsə, hücum gecəsi uşaqları deyilən mövqelərə diqqətlə aparmağınız haqda düşünün, başqa şey barədə yox..."

Həmin axşam hamımız 18 yaşlı Seyid Sadiqə iqtida etdik. Vəlfəcr-hazırlıq əməliyyatında adi bir kəşfiyyatçı olmuş Seyid Sadiq bölüyün komandir müavini vəzifəsinə yüksəlmişdi. O, elə istedadlı və iradəli idi ki, diviziyanın gələcəyi üçün bütün komandirlər ona güvənirdilər. O, hər bir işi layiqincə görürdü; dostluğu, qardaşlığı, kəşfiyyatı və döyüşü.

Səhər çağı ağa Mustafa Mövləvi gözlənilməz bir xəbər verdi.

– Qardaşlar, yorulmayasınız! Buraya qədər birgə gəlmişik. Burada sizə bir mikroavtobus verəcəyik, hamınızı Təbrizə aparacaq. Bütün qardaşlara 15 gün məzuniyyət verilir.

Şoka düşdüm. İşin ortasında nə üçün məzuniyyət verdilər? Bu, hamının sualı idi. Lakin qərarın ağa Mehdi və digər komandirlər tərəfindən verildiyini bildiyimizə görə qeyd-şərtsiz qəbul etdik. Bu gözlənilməz məzuniyyətin mənim narahat olduğum məsələ ilə əlaqəli olduğunu hiss etdim. Sərpol Zəhabda olanda atamın ağır xəstə olduğunu öyrənmişdim. Son zamanlar onu yuxuda çox görür və bir də heç vaxt görməyəcəyimdən qorxurdum. Buna görə də, bu məzuniyyətə hamıdan çox sevindim.

III

Üç aydan sonra evə dönəndə atamın vəziyyətini və ailəmin təkliyini gördüm. Belə bir durumda evi tərk etməyi, qoca və xəstə atamın son günlərində yanında olmamağı qəbul edə bilmədim. Həkimlər atamın mədəsində xərçəng şişi olduğunu söyləmişdilər.

Cərrahiyyə əməliyyatı ilə nisbətən yaxşılaşacağını düşünüb israrla xəstəxanada yatırtdıq. Mən yanında qaldım. Onun mehribanlığına cüzi də olsa, qarşılıq verməyə çalışırdım. On gündən sonra yenidən evə qayıtdıq.

1983-cü ilin yayı ağır keçirdi. Həm cəbhədən uzaq qaldığıma görə narahat idim, həm də atamın çəkdiyi əzablara görə. Bəzən görüşüb təsəlli aldığım yeganə şəxs yenə cəbhədən ayrı düşmüş dostum Məhəmməd Məhəmmədpur idi. Çox vaxt evdə olurdum; ya atamın yanında, ya da dərs və mütaliədə. Onuncu sinfin dərslərini oxuyub payız imtahanlarında iştirak etmək istəyirdim. Fikirləşirdim ki, tutduğum yolda tənbəllik böyük cinayətdir. İmtahanlara qədər bir ay vaxtım vardı. Çox dərs oxudum və bütün problemlərə baxmayaraq, onuncu sinif imtahanlarından da keçdim.

Ondan sonra dərslər başladı və mən məktəbə getməklə başımı qarışdırmağa çalışdım. Lakin daha məktəb mənə maraqlı gəlmirdi. İstəyirdim ki, cəbhəyə gedib orada dərslərimi oxuyum və yalnız imtahanlara gəlim. Bir dəfə yenə səhər çağı məktəbə getdim. Dərs zamanı qəribə həyəcanım vardı. Nə qədər etdimsə, günortaya qədər məktəbdə qala bilmədim. Tələsik evə döndüm. Küçə həmişəki kimi deyildi, sanki nəsə azalmışdı. Qapımızın önündə adamları görəndə isə həyəcanımın səbəbini anladım: atam dünyadan köçmüşdü.

Özümdən kiçik dörd qardaşım və bir bacım vardı. Böyük qardaş və bacılarımın hər biri öz ev və ailələri ilə məşğul idilər. Nə qədər fikirləşirdimsə, bu nəticəyə gəlirdim ki, ailəmizin xərcinə kömək etmək üçün bir iş tapmalıyam. Qərarımı verdim: Sepaha getdim və mənə bir qovluq açıldı. Dəfələrlə müsahibə olundum. Cəbhədə uşaqlar deyirdilər: "Sepaha qəbul olmaq üçün o qədər sual verirlər ki, heç İmam Xomeyninin özü də qəbul olmaz. İmam elə buna görə deyib ki, kaş mən də bir pasdar olaydım!"

Keçdiyim mərhələlərdə uşaqların sözünü başa düşürdüm. Müsahibə zamanı bir höccətülislam səviyyəsində məlumatlara sahib olmalı idik: tövhid məsələləri, şəriət hökmləri, siyasi suallar və gündəm mövzular.

– Filan hadisə zamanı sən nə edirdin?

– Xalq Mücahidləri Təşkilatının emblemində olan ayəni necə izah edə bilərsən?

Bəzi ümumi cavablarla suallardan qurtuldum və məni də təlimə göndərdilər. Sepahın təlimi Xasibanda keçirilirdi. Bizi 7 Tir qarnizonuna apardılar və təlim başlandı. Mən belə bir təlimi yuxuda da görə bilməzdim. Gündüzlər keçdiyimiz sıx dərslərdən əlavə, gecələr də gecə döyüşlərini öyrənirdik. Gecələr həm əməliyyat müəllimi "Qalx" komandası verib qaçırırdı, həm səngər müəllimi, həm mina müəllimi və sair.

Təlimlər sistemli deyildi, bütün məşqlər bizim alışmamızdan və güclənməmizdən ötrü idi. Bəzən təlimlər o qədər ağır olurdu ki, aylarla cəbhədə olmuş, piyada uzun yollar getmiş və bu kimi digər işlərə adət etmiş bizlər də tab gətirə bilmirdik. Məsələn, səhərlər 7 Tir qarnizonundan ürəkləri istəyən yerə qədər qaçırırdılar. Bəzən 10 km. aralıda olan Xosrovşəhrə gedib-qayıdırdıq.

O qədər vərdiş etmişdik ki, hətta yeməkxanada da müəllimin gəlişini və onun ardınca atışmanı, səs qumbarasının partlamasını, həyətə qaçmağı və sürünə-sürünə irəliləməyi gözləyirdik. Buna baxmayaraq, heç bir etirazım yox idi. Nəhayət, bir axşam bərk xəstələndim. Çox qızdırmam vardı və boğazımın iltihabı məni incidirdi. Tibb məntəqəsində heç bir dərman verməyib dedilər ki, bir şey deyil, get. Deyəsən, təlimlərdən qaçmaq üçün bəhanə gətirdiyimi düşünürdülər. Təsadüfən, həmin gecə döyüş təlimi keçirildi. Müəllim içəri girmişdi, amma mənim yerimdən qalxmağa taqətim yox idi. Nuşi-can etdiyim bir təpikdən sonra səhərə qədər yataqda qaldım. Bu tələbkarlıqların bizim müqavimət gücümüzü artırmaq məqsədi ilə edildiyini bilirdim, amma onlardan incimişdim.

Təlimlər başlayandan təxminən 45 gün sonra radiolarda Xeybər əməliyyatı haqda xəbərlər dolaşdı. Bu xəbər qərarsızlığımı daha da artırırdı. Müəllimlərin ağzına nə qədər gözümüzü dikirdiksə, cəbhə və əməliyyat barədə heç nə demirdilər. Özümüz könüllü şəkildə bizi cəbhəyə yollamalarını istədik. Bu dəfə də əməliyyatdan qalmağı qəbul edə bilmirdim. Vəlfəcr-1 və 2 əməliyyatlarından yalnız on gün sonra baş tutan və Mehran şəhərinin azadlığı ilə nəticələnən Vəlfəcr-3 əməliyyatından da qalmışdım. Oktyabr ayının ortalarına təsadüf edən Vəlfəcr-4 əməliyyatı da atamın yas günlərinə təsadüf etdi və mən yalnız cəbhədən görüntülərlə kifayətlənməli oldum. Vəlfəcr-2-də Rza Əhmədinin və Vəlfəcr-4-də Seyid Sadiq Eyvəzinin şəhid olması ürəyimi yandırırdı, amma əlimdən bir şey gəlmirdi. İndi isə Xeybər də əldən çıxmaq üzrə idi. Təlimdəki uşaqlarla birgə nə qədər israr etdiksə, bir cavab almadıq. Çox gözləmədim, bir neçə saatlıq məzuniyyət götürüb Təbrizə qayıtdım və birbaş Bəsicə yollandım. Bəsicdə qovluq açdım və ertəsi gün cəbhəyə yola düşdüm.

Yarımçıq qoyduğum təlimlərin aqibətinin nə olduğunu isə heç vaxt bilmədim.

Zeyd bölgəsi

I

Aşura diviziyası Xeybər əməliyyatı zonasındakı Bərzgər qarnizonuna köçmüşdü. Kəşfiyyat bölüyü də orada yerləşirdi. Mən ora çatanda güclü yağış yağırdı. Cənubun Karun və Kərxə kimi böyük çaylarında tufan idi, su bölgəni başına almışdı. Diviziyanın qərargahı da seldən payını almış və çadırların çoxu suyun içində qalmışdı. Bölüyün qərargahına getdim. Ora qəm dəryasına batmışdı, qədim tanışlardan demək olar ki, heç kim yox idi; ya şəhid olmuşdular, ya yaralanmışdılar, ya da əməliyyatda o qədər əziyyət çəkmişdilər ki, yaralılardan fərqlənmirdilər. Getmiş dostları xatırladım və köhnə ayrılıq dərdi təzələndi: Seyid Sadiq Eyvəzi, Əlirza Həsənzadə, Firuz Vüfuri, Əkbər Cahanbəxşi...

Orada yeni simalarla tanış oldum. Xosrov Mollazadə ilk gündən çox diqqətimi çəkdi. Onun nə çox yaşı vardı, nə də canı-cəsədi. Vəlfəcr-1 əməliyyatında fəqərə sütunlarına raket qəlpəsi dəymişdi, amma çoxları kimi yenə cəbhədən əl çəkməmiş və o halda ön cəbhəyə gəlmişdi. Kəşfiyyat bölüyünün komandiri Mustafa Mövləvi tezliklə bütün şəxsi heyəti üç komandaya böldü və təlim işini köhnə döyüşçülərə tapşırdı.

Bir neçə gündən sonra düşərgənin yerini dəyişmək əmri verildi. Biz Azadeqan düzünə, Süsəngirdin yaxınlığında bir yerə köçdük. Qumluq idi, su və ot yox idi, güclü küləklər əsirdi və havası həmişə tozlu olurdu. Uşaqlar çox tez bir zamanda oranın adını Tozabad qoydular. Bölüyə yeni gələnlər olsa da, hələ də şəxsi heyətdə çatışmazlıq vardı. Buna görə köhnə kəşfiyyatçılar batalyonlarda araşdırma aparır və kəşfiyyat bölüyünə münasib döyüşçüləri komandirə və ya əlaqədar məsul şəxsə bildirirdilər. Bu məqsədlə bir neçə dəfə qardaş Mövləvi ilə birgə diviziyanın Əhvazın Şəhid Bərati orta məktəbində yerləşən qərargahına getdik. Əslində, Tozabadda görülən əsas iş şəhərlərdən cəbhəyə göndərilən canlı qüvvənin koordinasiyası idi.

Tozabad mənim üçün təkcə toz-dumanı ilə deyil, həm də diviziya komandirimiz ağa Mehdi Bakiri ilə ünsiyyətlə də yadda qalıb.

Kəşfiyyat çadırı komandir çadırına yaxın idi və bizim ağa Mehdi ilə əlaqəmiz günbəgün güclənirdi. Ağa Mehdi Xeybər əməliyyatında iki müavinini – qardaşı Həmidi və Mürtəza Yağçianı itirdiyinə görə çox yalqız qalmışdı. Həmin əməliyyatda diviziyanın qədim və qəhrəman döyüşçülərindən çoxu ya şəhid olmuş, ya da düşmənə əsir düşmüşdü və bu, onun üzünə sanki qəm-kədərdən pərdə çəkmişdi. Hamı bilirdi ki, o, ən çox Bəsic üzvlərini sevir. Onun Bəsic üzvlərinə mehribanlığı və qayğısı hər bir işindən və sözündən bilinirdi. Lakin buna baxmayaraq, israf kimi bəzi məsələlərə o qədər həssas idi ki, buna görə sevimli Bəsic üzvlərini də danlayırdı. Kimsə onun işlərini

görəndə çox narahat olurdu. O, diviziya komandiri kimi böyük işlərinə baxmayaraq, ən kiçik şəxsi işlərini də özü görürdü.

Əhvaz şəhərinin havasını qorumaq üçün qumlu bölgələrdə ağaclar əkmişdilər və getdikcə səhranın ortasında meşələr əmələ gəlmişdi. Bu meşələrdə səhranın bütün xüsusiyyətləri vardı, ancaq ağaclar da vardı. Yolğun ağacları qumların bəzəyinə və əqrəb, ilan, qayahörümçəyi kimi heyvanların yuvasına çevrilmişdi. Belə heyvanların təhlükəsi Tozabadda yaşamağın çətinliyindən olduqca böyük idi. Diviziyanın qərargahı Tozabada yaxın olan belə meşələrin birinə köçürüldü və uşaqlar dərhal ora başqa bir ad verdilər: Cəngəlabad.

Bir müddətdən sonra qardaş Mustafa Mövləvinin tapşırığı ilə Mehdi Davudi, Yəqub Şikari, Rza Purcavad, Seyid Mürtəza Zəfərançı və mən yeni başlamış ilkin kəşfiyyat kursuna göndərildik. Təlim Abadanın 30 kilometrliyindəki Xatəm qarnizonunda keçirilirdi. Bu qarnizon şah vaxtı neft konsersiumunda iştirak etmiş fransızlar üçün tikilmişdi. İnqilabdan sonra və müharibə vaxtı Sepah oradan qarnizon kimi istifadə edirdi.

Oraya çatandan sonra digər diviziyalardan da kəşfiyyatçıların təlimə göndərildiyini bildik. Təlim dərhal başlandı; xəritəni öyrənmək, koordinatları tapmaq, tərəfləri müəyyən etmək, gecə vaxtı praktik təlimlər və s. Qarnizonun təlim komandirlərindən biri öz hərbi formasının arxasına bir açar şəkli çəkib altına yazmışdı: "Cənnət açarı". O, həm də qarnizonun daxili müdiri və çox tələbkar adam idi. Heç kimə məzuniyyət vermirdi və çoxlu təlimlərdən başqa bir proqramımız yox idi. Nəticədə bir həftədən sonra diviziyanın səmimi ab-havasına darıxdıq. Ondan məzuniyyət almağa heç bir ümidimiz yox idi. Nəhayət, qarnizondan diviziyaya qaçmaq qərarına gəldik.

Çıxdığımız bir həftədə diviziyada dəyişikliklər olmuşdu. Mustafa Mövləvi ağa Mehdi tərəfindən diviziya komandirinin əvəzedicisi seçilmiş, kəşfiyyat bölüyü isə qardaş Kərim Fəthiyə tapşırılmışdı.

Xeybər əməliyyatında yaralanmış kəşfiyyatçıların əksəri bölüyə qayıtmışdılar və yeni komandir onların arasından üç nəfəri komanda başçısı təyin etmişdi: Qadir Həmidnejad, Məhəmməd Məhəmmədi və Kərim Hörməti. Bölüyə həyat və mübarizə şövqü qayıtmışdı və bizi bərk özünə cəlb edirdi.

– İndi necə buranı qoyub təlimə qayıdaq?!

– Mən daha Cənnət açarının əzablarına dözən deyiləm.

– Onda...

Gedib yeni komandirlə danışdıq və beləliklə, təlimi davam etdirmədik. Çox tezliklə biz də kəşfiyyat komandalarına qatıldıq. Özüm bilmədən mən də Məhəmməd Məhəmmədinin komandasına daxil oldum.

Cəngəlabadda komanda uşaqları ilə birgə qalmaq çox gözəl idi. Elə ilk gündə anladım ki, bölüyün bütün od parçaları o çadıra cəm olublar: Xosrov Mollazadə, Davud Qüreyşi, Məhəmmədhüseyn Əlipərəsti, Tohid Fam, Seyid Qədir Qənizadə və s. Mən də onlara qatılandan sonra komandamız təkmilləşdi.

Elə Məhəmmədinin özünün də spesifik xüsusiyyətləri vardı, nadinc və zirək uşaqlara çox güvənirdi. Bu baxımdan, nadincliyə hər bir şərait vardı.

Bir dəfə günorta yeməyinə pasterizə olunmuş paket qatıqlar verdilər. Bəxtimizdən qatıqlar turşumuşdu və heç kim yemədi. Hərə öz qatığını əlində tutub mədh edirdi. Həmin anda Xosrov Mollazadə çadıra girdi. Uşaqların birinin "atəş" səsinin ardınca bütün turşumuş qatıqlarımızı Xosrova tulladıq. O, başdan ayağa qatığın içində dedi: "Şuxluğ[1] çıxıb yoqurd[2] ağacına!"

Nadincliklərimiz yalnız öz komandamızla məhdudlaşmırdı. Bir dəfə komandaların birinin başçısı olan qardaş Hörməti gizlicə bizim çadırımıza girdi. Biz də onu casus kimi tutub iplə möhkəm bağladıq, yaxşıca döyəndən sonra çadırdakı bütün ədyalları üstünə yığıb çadırdan çıxdıq. Günorta namazından sonra çadıra qayıdıb ədyalları götürəndə susuzluqdan ölmək üzrə idi. Ağzına bir az su tökdük, ipləri açdıq. Xuzistanın 40 dərəcə istisində əl-ayağı bağlı vəziyyətdə onlarla ədyalın altında qalmaq bir casus üçün yaxşı cəza idi! Ondan sonra təkbaşına bizim çadırımızın ətrafında gəzişməyə hər adam cürət etmirdi.

Bir neçə dəfə biz də digər komandaların tələsinə düşdük və bir neçə saat göydən asılı vəziyyətdə qaldıq.

Bu dəcəlliklərin yanında bəzi hadisələr də baş verir və uşaqların hər bir şəraitdə dini məsələlərə diqqətlərini göstərirdi. Məsələn, bir gün uşaqlar ot axtara-axtara Cəngəlabada gəlib çıxmış inəkləri tutub südlərini sağdılar və dəyərindən də artıq pulu buynuzlarına bağlayıb buraxdılar.

II

1984-cü ilin may günlərinin birində qardaş Fəthi bir iş üçün onunla şəhərə getməyimizi istədi. Mən, Məhəmməd Məhəmmədi, Davud Qüreyşi, Məhəmmədhüseyn Əlipərəsti və Xosrov Mollazadə yola düşdük. Hər şey çox adi idi, lakin birdən yolumuzun şəhərə doğru getmədiyini bildik. Yolumuz Xürrəmşəhrə və Hüseyniyyə üçyoluna idi, oradan bir yola dönüb Zeyd bölgəsinə getdik. Zeyd bölgəsi bizim Bəsrə istiqamətindəki təmas xətlərimizdən idi. Oraya çatıb Kərbəla batalyonunun rəhbərlərindən olan Həsən Kərbəlayini[3] və Mərğub Dadaşzadəni görəndə məsələnin nə yerdə olduğunu bildik. Biz yeni tapşırıq üçün Zeyd bölgəsinə getmişdik.

İraqın Zeyd zastavasının yaxınlığında 25 metr hündürlüyündəki müşahidə postundan bizə bütün bölgəni göstərdilər. Orada başa düşdük ki, yeni tapşırığımız o vaxta qədərki ən çətin tapşırığımızdır. İşin çətinliyinə ən mühüm səbəb bölgənin özünəxas xüsusiyyətləri idi. Zeyd bölgəsi həssas bir yer idi; qərbdən İraqla, şərqdən Hüseyniyyə üçyolu ilə, cənubdan Şələmçə ilə,

[1] Zarafat
[2] Qatıq
[3] Cəbhənin dəyərli və tanınmaz simalarından idi, Kərbəla-5 əməliyyatında şəhadətə qovuşdu.

şimaldan da Kuşkla həmsərhəd idi. Müharibə başlamazdan öncə İraq tərəfi bizim hücumlarımızın qarşısını almaq üçün bəzi hazırlıqlar görmüşdü. Bunların ən mühümü balıqyetişdirmə kanalı idi. Bu kanal Şələmçənin beşbucaq hissəsindən Təlaiyyəyə və Nüşvənin arxasına çatırdı, uzunluğu 25 kilometrdən çox idi və Zeyd bölgəsinin önündən keçirdi. Bundan əlavə, bütün bölgə boyu İraqın hərbi səddi də uzanırdı. O da müharibədən öncəki illərin yadigarı idi.

Zeyd bölgəsi iki tərəfdən aypara və üçbucaq istehkamlarla əhatə olunmuşdu. İraq tərəfi Şələmçə, Kuşk və Təlaiyyə bölgələrində üçbucaq istehkamlardan istifadə edirdi. Təlaiyyə bölgəsinin üçbucaq istehkamları Zeydin əməliyyat bölgəsini də əhatə edirdi. Üçbucaq və aypara istehkamlarının əməliyyatın qarşısını almaqda necə böyük rol oynadığını Ramazan əməliyyatındakı təcrübələrimizdən bilirdik.

Bu istehkamların hündürlüyü iki metrə çatırdı. Ən üstün cəhətləri bu idi ki, birinci mövqe süqut edəndə digər cinahdan müdafiə imkanı olurdu. Ora da süqut edəndə üçbucağın üçüncü bucağından müdafiə mümkün olurdu. Yəni biz xətti yarıb keçəndən sonra yenidən iki başqa cinahla vuruşmalı idik. Həm də bu iki cinahın mühasirəsinə düşdüyümüzə görə işimiz çox çətin olurdu. Bu zaman düşmən ehtiyat qüvvələrindən yaxşı istifadə edib mövqeyin ələ keçməsinin qarşısını ala bilirdi. Mahir Əbdürrəşidin başçılıq etdiyi üçüncü korpusun orada yerləşməsi bölgənin əhəmiyyətini göstərirdi.

Belə bir bölgədə 7 km. uzunluğunda bir ərazi Aşura diviziyasına təhvil verildi. Bizim istehkamdan düşmənin minaladığı sahəyə doğru 300 metr uzunluğunda müxtəlif kanallar qazılmışdı. Bundan əlavə, kanalların eninə onları bir-birinə birləşdirmək üçün də kanallar vardı. Bölgə ilə ilk tanışlıqlarda öyrəndik ki, düşmənin əsas mövqeyindən bizim istehkama qədər təxminən 1000-1500 metr məsafə var. Maneələr bizdən 400 metr aralıdan başlayırdı. Əvvəlcə minalanmış sahə gəlirdi, sonra isə bütün bölgə boyu düşmən xətti ilə üzbəüz qazılmış və güman ki içi su ilə doldurulmuş bir kanal.

Əmrə görə, Kərbəla batalyonu mövqeyi ordudan təhvil alıb oraya yerləşməli idi. Biz kəşfiyyat bölüyünə və diviziyanın qərargahına münasib yerlər tapmaq üçün digərlərindən tez getmişdik. Orada tağut dövründə tikilmiş və əsas xətlə 1 km. yarımdan çox məsafəsi olan bəndə qayıtdıq; öncədən ordu birləşmələrindən birinin qərargahı olmuş əlverişli bir yer tapdıq. Biz orada qaldıq, qardaş Fəthi isə Cəngəlabada qayıdıb səngər və qərargah hazırlamaq üçün digər şəxsi heyəti və lazımi avadanlıqları gətirməyə getdi.

Səhər çağı növbəti iş başladı; yeni qüvvələr gəldilər və hamılıqla səngər qazmağa başladıq. Öncədən ağır silah və texnika qoymaq üçün orada ekskavatorla yerlər qazılmışdı. Onların üstünə dəmir tirlər atdıq, divarlarına torpaqla dolu kisələr düzdük və yavaş-yavaş səngərlər əmələ gəldi. Tirlərin üstünə plitələr döşədik və ekskavator onun üstünə bir metr hündürlüyündə

torpaq tökdü. Beləliklə, elə səngərlər düzəltdik ki, hətta 120 kalibrli raket düşsəydi də, bir şey olmazdı.

Sağ tərəfdən birinci səngər qardaş Məhəmməd Məhəmmədinin, ikinci səngər qardaş Hörmətinin, üçüncü səngər də qardaş Qadir Həmidnejadın komandası üçün nəzərdə tutuldu. Bölük komandirinin səngəri və anbar səngəri də bizim solumuzda qalırdı. Bizim səngərimiz sağ tərəfdən diviziya komandirinin səngəri ilə qonşu idi. O səngər də böyük bir məscidlə bitirdi.

Mustafa Mövləvi və Yəzdani o səngərdə ağa Mehdi ilə birgə qalırdılar. Ağa Mehdi Bakiri ilə həmsöhbət olmaq səadəti yenidən bizə qismət olmuşdu.

Şəxsi heyət toplaşandan sonra kollektiv proqramlar başladı. Kəşfiyyat bölüyünün komandir müavini Hacı Mustafa Əbdülinin yaxşı mənəvi halı vardı. Onun sayəsində Təvəssül və Kumeyl dualarını yaddan çıxmırdı. Orada olanda özü oxuyurdu, olmayanda isə işıqları söndürüb duanın kasetini oxudur, özümüz də onunla birgə oxuyurduq. Bütün kəşfiyyat bölüyünün bölgəyə toplaşmasının başqa bir nəticəsi olaraq, qardaş Fəthi yeni işlər düşünürdü.

– Sabahdan səhər proqramı icra olunsun!

Bunu dedi, amma heç kim ciddiyə almadı. Çünki o vaxta qədər bölükdə belə bir şey olmamışdı. Lakin səhər hamımız sıraya düzüləndə qardaş Fəthinin sözü yuxumuzu qaçırdı: "Qardaşlar, bilirsiniz ki, şeytan ayaqqabımıza girib. Buna görə də, ayaqqabılarımızı çıxarıb ayaqyalın qaçacağıq". Bunu deyib özü ayaqqabılarını çıxardı və qaçış başlandı. Onun seçdiyi yol əvvəllər bir müddət suyun altında qalmışdı və su quruyandan sonra yer hələ də balıqqulağı, sədəf, irili-xırdalı və iti daşlarla dolu idi. Bölük komandirinin özü bizimlə olduğuna görə sürətimizi azalda və ya dayanmağa cürət etmirdik. Qardaş Fəthi bizi o qədər ayaqyalın qaçırtdı ki, dayananda ürəyimdə dedim: "Gözlə, şeytanın necə ayaqqabımıza girdiyini sənə göstərərəm!"

Həmin gün Xosrov Mollazadə ilə məsləhətləşəndən sonra yerə nə qədər mərmi və raket barıtı tökülmüşdüsə, hamısını toplayıb boş bir mərminin içinə doldurduq. Gecə yarısı mərmini bölük komandirinin səngərinin üstünə qoyduq və yandırıb qaçdıq. Əsla fikirləşmədik ki, düşmən bununla düşərgənin koordinatını öyrənib tezdən hər şeyi vura bilər. Və həmin gün səhər proqramı keçirilmədi, çünki düşmən başımıza raket yağdırırdı. Atəş bitəndən sonra bayıra çıxdıq; aləm bir-birinə dəymişdi.

Get-gedə səhər proqramı qaydasına düşdü. Qaçış məsafəsi hər gün artırdı. Qaçışdan sonra qardaş Həmid Allahyari ortada dayanıb idman edirdi. Əlbəttə, səhər proqramı, qaçış və idman fiziki hazırlıq üçün yaxşı idi və kəşfiyyat zamanı bizə çox kömək edirdi. Lakin əziyyətinə görə onu sevmirdik və səhər proqramından qaçmaq üçün daim bir şey fikirləşirdik.

Bölük komandirinin diviziya komandiri ilə çoxsaylı iclaslarından sonra kəşfiyyatın iki istiqamətdə işləməsi qərara alındı. Bu məqsədlə kəşfiyyat bölüyünə biri yeddinci, biri də doqquzuncu kanalın yaxınlığında olmaqla iki səngər verildi.

Bizim komandanın tapşırığı sağ tərəfdəki mövqelərin vəziyyətini öyrənmək idi. Məlumat toplamaq üçün birinci istehkamdakı yeddinci kanalın girişində yerləşən səngərə getdik. Özümüz yerləşəndən sonra istehkamın üstündə münasib bir yer tapıb müşahidə postu düzəltdik və durbini yerləşdirdik. Düşmənin hərəkətlərini müşahidə işi dərhal başlandı. İraqlıların heç nədən çəkinmədən təmas xəttinə get-gəl etdiyini görəndə narahat olurduq.

– Bu nə deməkdir?! Heç elə bil, bura təmas xətti deyil! Elə bil, xalasının evinə gəlib. Gərək bu haqda bir ölçü götürək.

Təbii ki, iraqlılar şəxsi heyətin dəyişildiyindən xəbərsiz idilər. Onlar heç bir vuruşma olmayan və bölgənin öz-özünə barış yerinə çevrildiyi günlər kimi azad şəkildə hər tərəfə gedirdilər. Bu isə bizə ağır gəlirdi. Xosrovun təklifi ilə işə başladıq. O, dedi: "Bu gün gərək elə bir iş görək ki, sabahdan hamısı kanalın içinə girsin!" Onun sərrast atəşindən sonra biz də atəş açdıq. Maraqlı idi ki, ikinci gün iraqlıların heç biri bayırda hərlənmədi.

– Sabahdan hamısı dəmir papaq qoymalıdırlar.

Bu qərarın ardınca düşmənin başı hədəf seçildi və növbəti gündən istisnasız olaraq bütün iraqlılar başlarına dəmir dəbilqə qoydular. Lakin hələ də məsələni lazım olduğu qədər ciddiyə almırdılar.

– Gərək elə edək ki, sabahdan kanalın içində əyilə-əyilə gəzsinlər.

Əziyyətli iş idi, amma bəhrəsi şirin idi. Ertəsi gündən bütün iraqlılar tam ehtiyatla hərəkət edirdilər və onların da güclü cavab atəşləri başlamışdı. Beləliklə, mövqe həqiqətən, təmas xəttinə oxşadı.

Bir axşam qardaş Əlipərəsti ilə səngərimizdə qaldıq və digərləri qərargaha qayıtdılar. Gecənin yarısı partlayış səsinə yuxudan oyandıq. Səs o qədər güclü idi ki, hər ikimiz diksindik. Dərhal bayıra çıxdıq. Hər şey toz-torpağın altında idi və biz bir neçə saniyəyə qədər nə baş verdiyini bilmədik. Nəhayət, 80 kalibrli raketin səngərimizin üstünə düşdüyünü öyrəndik. Səngərlər möhkəm olduğuna görə bizə və səngərə ziyan dəyməmişdi. Səngərə qayıdıb yatmağa çalışdıq. Düşmənin atəşi isə hələ davam edirdi.

İlk kəşfiyyat zamanı gəlmişdi. Əziz komandirimiz qardaş Məhəmmədi məni də layiq bilib özü ilə apardı.

Bölgədə ilk kəşfiyyatın həyəcanı ürəyimə dolmuşdu. Düşmən bölgəsini tanımırdıq, xüsusən gecə hərəkətləri haqda məlumatımız yox idi. Düşməndən bildiklərimiz ümumi məlumatlar idi ki, yalnız işin çox çətinliyinə dair təsəvvür yaradırdı. Seyid Qədir Qənizadə də ehtiyat tədbiri olaraq, bizimlə gəldi. Yeddinci kanala girib ortalarına qədər getdik, oradan çıxıb sol tərəfdəki minalanmış sahəyə doğru hərəkəti davam etdirdik. Düşmən çox sayıq idi, dəqiqəbaşı fişəng atırdı və hər yer gün kimi aydın idi. Fişənglərin altında aydın görünəcəyimizi bilib çox yavaş hərəkət edirdik. Kompas Məhəmmədidə idi və 280 dərəcə istiqamətində irəliləyirdik. 200 addımdan sonra ehtiyat qüvvə üçün əlverişli bir yer tapdıq. Orada kiçik bir təpəcik vardı, arxasında bir nəfər zorla gizlənə bilərdi. Seyid Qədiri orada qoyub ikimiz yola davam etdik. Bu

kəşfiyyatda məqsəd minalanmış sahəni və maneələrin nədən ibarət olduğunu öyrənmək idi. Biz elə bilirdik ki, minalanmış sahə ilə məsafəmiz çoxdur, lakin birdən hər yer sükuta qərq oldu. Güllə və hətta fişəng səsləri də kəsildi. Sükut və qaranlıqdan istifadə edib sürətlə irəliləməyə başladıq. Təxminən 150 addım getmişdik ki, birdən hər yer işıqlandı. Tez yerə uzandıq. Çox ləhləyirdim. Düşünürdüm ki, bölgəyə bir də sakitlik çöksə, minalanmış sahəyə çatarıq. Lakin birdən fişəngin işığında bir addımlığımda bir şey parladı. İnanılmaz olsa da, fişəng minası idi. Halım dəyişdi: "İlahi, Sən necə də mehribansan!"

Minalanmış sahənin düz biraddımlığında idik. Həmin anda yalnız bircə addım öndə olsaydıq, Allah bilir, nə baş verərdi. Qeybi yardımı ilk dəfə deyildi ki, bütün vücudumla hiss edirdim, amma ürəyimi sakitləşdirən hiss yeni idi. Orada dayanıb qaranlıqda görən durbinlə ətrafa baxmağa başladıq. Bizim bir neçə addımlığımızda pusquda dayanmış düşmənlərin səsini eşidirdik. Gecə durbini ilə ehtiyatla bütün maneə və sahələrə baxdıq; bir cərgə fişəng minası, onun arxasında bir cərgə tikanlı məftil, ondan iki metr aralıda bir-birinin üstünə topalanmış dairəvi tikanlı məftillər, onun arxasında da X şəklində yerə basdırılmış bir cərgə xüsusi minalar. Tapşırıq layiqincə yerinə yetirilmişdi. Durbinlə iraqlılara baxırdım; başları söhbətə qarışmışdı və hətta fişənglərin işığı altında da bizim hərəkətlərimizdən şübhələnmirdilər.

"Vəcəəlna" ayəsini[1] oxuyurduq. Çox ehtiyatla geri qayıdıb Seyid Qədirə çatdıq və oradan da birlikdə səngərə döndük.

Səhər çağı kəşfiyyatın məruzəsini yazıb bölük komandirinə verdik.

Bölük komandirinin istəyi çox idi. Biz nə yolla olursa-olsun, minalanmış sahəyə girib düşmənin əsas mövqeyini öyrənməli idik.

Həmin axşam qardaş Əlipərəsti ilə yola düşdük. Öncəki təcrübələrə əsaslanıb xüsusi plan hazırladıq. Minalanmış sahədə düşmənin keçid yerini tapıb ondan istifadə etməli idik. Bilirdik ki, düşmən sahənin içində özü üçün təmiz yerlər saxlamışdır. Biz onları tapa bilsəydik, ehtiyatla keçib düşmən mövqeyinin içinə girə bilərdik. Əks-təqdirdə, tikanlı məftilləri açmalı və minaları zərərsizləşdirməli idik. Birinci variantda düşmən sahədə heç bir dəyişiklik görməyəcəkdi. Buna əsasən, kəşfiyyat bir əməliyyat işindən daha çox zərif incəsənətə bənzəyirdi.

Biz beşinci və altıncı kanalların arasında bir yer tapıb bayıra çıxdıq və minalanmış sahəyə doğru getdik. Qərara gəldik ki, mən durbinlə oturum, Əlipərəsti 30 addım irəli getsin, sonra o oturub göz-qulaq olsun və mən hərəkət edim. Atəş və fişəng səsləri sürəti zəiflədirdi. Mən baxdım, Əlipərəsti yola düşdü. Tikanlı məftili görürdüm və diqqətim öndə idi. Bir anın içində irəlidə beş iraqlı gördüm. Əlipərəsti düz onların üstünə gedirdi. O məndən aralanmışdı və səsləyə bilmirdim. İraqlılar da yalnız mənim qaldığım yerdən

[1] "Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də görmürlər". (Yasin, 8)

görünürdülər. Onların bəlkə Əlipərəstini görmədiklərini düşünüb gözlədim, amma düşüncəm yanlış idi. Onların biri ayağa qalxıb Əlipərəstiyə atəş açdı. Onun ardınca hamısı atəş açdılar və o, yerə yıxıldı. Mən yerimdə donub qalmışdım, nə edəcəyimi bilmirdim. Fikirləşirdim ki, Əlipərəstinin cənazəsini orada qoyub tək qayıdım, yoxsa yox. Hələ yerimdən tərpənməmişdim. Birdən Əlipərəstinin tərpəndiyini gördüm. Bir anın içində yerindən qalxıb tez öz mövqelərimizə sarı qaçmağa başladı. O qədər cəld qaçırdı ki, tezliklə mənim yanımdan keçib getdi və mən onun arxasınca qaçmağa başladım. Düşmənlər əllərində olan hər bir silahla bizə atəş açırdılar; RPG, pulemyot, kalaşnikov və s. Ayağımızı götürdüyümüz hər bir yerə güllə dəyirdi. Düşmən çox simicliklə bizi öldürmək istəyirdi, amma biz sağlam halda istehkamın arxasına çatıb nəfəsimizi dərdik. Bu dəfə də canımıza başqa bir qorxu düşdü: istehkam o qədər sakit idi ki, səhv gəldiyimizi fikirləşdik. Nə keşikçi vardı, nə də atəş səslərinə yuxudan oyanan bir kəs. Ehtiyatla səngərlərin birinə girib Kərbəla batalyonunun ikinci bölüyünün Bəsic üzvlərini tanıdım. Hamı şirin yuxuda idi.

***

Bir neçə gecə sonra yenidən kəşfiyyata getdik. Yolumuz öncəki gecələrdə getdiyimiz yol idi və biz qaldığımız yerdən irəliləyib yeni məlumatlar öyrənməli idik. Yolun ortalarında bir iraqlını gördüm. Düz yolumuzun üstündə oturmuşdu. Təcrübələrimə əsasən, anladım ki, kəşfiyyat işlərimiz ifşa olunmayıb, sadəcə, düşmən pusquları bizim cəsarətimizdən xəbərdar olub fəaliyyətlərini artırmışlar. Həmin gecə məcburən əliboş qayıtdıq. Bu hal müxtəlif formalarda təkrar olunur və iş zəif gedirdi. Vaxtımızın çoxu yolumuzun üstündə səyyar pusquların olub-olmadığını öyrənməyə sərf olunurdu. Ehtiyatımız bir neçə dəfə artmışdı, yolun əvvəlindən ehtiyatla hərəkət edirdik, çünki iraqlıların haraya qədər gəldikləri bəlli deyildi. Bütün bunlar kəşfiyyatımızın çox da uğurlu olmamasına gətirib çıxarırdı. İş o yerə çatdı ki, ağa Mehdi məni və Məhəmmədini çağırıb gecəki kəşfiyyatın məruzəsini istədi, biz danışanda isə çox narahat oldu.

– Nə olub? Nə üçün irəliyə getmirsiniz? Deyin görüm...

– Qorxuruq, ağa Mehdi?

– Nədən?

– Qorxuruq ki, bizi əsir tutarlar və əməliyyatın üstü açılar.

– Əgər sizi əsir tutsalar, deyin ki, burada 50 diviziya əməliyyata hazırlaşır.

Onunla sağollaşanda fikirləşirdim ki, bəlkə bu bölgədə kəşfiyyat aparmaq düşməni aldatmaq üçündür.

İraqlılar bizim cəsarətimizi və qorxmazlığımızı öyrəndikləri kimi, biz də get-gedə onların hərəkət tərzlərinə bələd olurduq. Qərara gəldik ki, bölgədə bəzi hərəkətlər edək və düşmən bizim kəşfiyyat apardığımızı yox, hərbi nəzarət etdiyimizi düşünsün. Düşməndə belə bir fikir yaratmaqdan ötrü gecə durbini götürür və düşmən pusquya çıxanda vururduq. Bəzən tez hərəkət edib onların səngəri və ya pusqusu olduğunu bildiyimiz yerə gedir və onlar

gəlməzdən öncə mina basdırır və tələ qururduq. Beş-altı dəfə belə iş gördük ki, düşmən bunların adi hərəkət olduğunu düşünsün.

***

Bir neçə gün idi Xosrov Mollazadə ilə Əhvaz dondurması həvəsinə düşmüşdük. Bölük komandirindən icazə alıb Əhvaza yollandıq. Əhvazın yaxınlığında post qurulmuşdu və cəbhədən şəhərə gedənləri yoxlayırdı. Həmin postdan keçmək düşmənin minalanmış sahəsindən keçmək qədər çətin idi. Həddən artıq yoxlanışları Xosrovun onlarla dalaşmasına səbəb oldu. Mən də Xosrova kömək etməyə məcbur oldum və nəticədə, cənub düşərgəsinin post əsgərləri ilə bərk dalaşdıq. Nəhayət, postun növbətçisi gəlib bizi barışdırdı.

Nəhayət, Əhvaza çatdıq. Şəhərdə çox veyilləndik və axşam özümüzü Şəhid Bərati məktəbinə çatdırdıq. Ora diviziyanın təchizat bölməsi və anbarı idi. Diviziyanın bütün qədim döyüşçüləri oranı tanıyır və adətən, oraya gedirdilər. Orada böyük bir hüseyniyyə düzəldib nahar və şam yeməkləri, çay və şərbət verirdilər, diviziyanın əsas düşərgəsindən və ya başqa yerlərdən Əhvaza gələnlər orada istirahət edirdilər.

Səhər tezdən Zeydə gedən maşınla yola düşdük. Orada hər kəs kədərli görünürdü. Səbəbini bilmədim və təəccübləndim. Qardaş Kərim Fəthi məni görən kimi dedi: "Tez maşına min". Mindim və yola düşdük. Kərim Hörməti də bizimlə idi və hamı kimi o da narahat idi.

– Kərim, nə olub? Məhəmmədi haradadır?

Kərimin cavabı məni utandırdı.

– Kül təpənə! Bəs sən haradasan?

– Axı nə olub?

– Çatanda bilərsən.

Komandirimizin idarə etdiyi maşınla təmas xəttinə çatdıq. Postun yanında dayandıq və orada qardaş Bakirinin maşınını gördüm. Həyəcanlı idim, nə baş verdiyini və hamının nə üçün oraya toplaşdığını təxmin edə bilmirdim. Səngərə girdik. Əlipərəsti orada idi və ağa Mehdiyə nə isə izah edirdi. Onun sözlərindən hər şeyi başa düşdüm: Gecə Əlipərəsti ilə Məhəmmədi kəşfiyyata getmişlər və minalanmış sahədə düşmən qüvvələri gəlib onların arasında pusqu qurub. Əlipərəsti səhərə qədər gözləyib, amma iraqlılar oradan getməyiblər. Nəhayət, o, öz mövqelərimizə qayıtmağa məcbur olub.

Həmin gün axşama qədər durbinlərlə düşmənin minalanmış sahəsinə baxdıq, amma Məhəmmədidən əsər-əlamət görmədik. Axşam oldu. Məhəmmədinin əsir düşdüyü və bölgədəki fəaliyyətlərimizin üstünün açıldığı fikri hamını narahat edirdi. Elə bir halda bölgəyə getməyə və onu axtarmağa hazırlaşdıq. Əlipərəsti öndə gedirdi, arxasınca mən, məndən sonra da qardaş Fəthi. Beşinci və altıncı kanalların arasındakı birləşdirici kanaldan çıxdıq. Hava tam qaralmışdı. Bir qaraltının bizə doğru gəldiyini hiss etdim. Daha diqqətlə baxdım. Birdən bir səs dedi: "Əlipərəsti, sənsən?!"

– Məhəmmədi, sənsən?!

Qaçıb onu qucaqladıq. Sanki son görüşümüzdən illər ötürdü. Onu yenidən bizə qaytardığına görə Allaha şükür edirdik. Qardaş Fəthinin sözündən sonra özümüzə gəldik. Qayıdıb ağa Mehdini və digərlərini narahatlıqdan çıxarmalı idik. Öz mövqelərimizə çatdıq. Uşaqlar bizi gördükdə sevincək yanımıza qaçdılar. Məhəmmədinin sağ-salamat, gümrah və əlidolu qayıtdığına heç kim inanmırdı.

Həmin bir gündə hissolunacaq dərəcədə arıqlamışdı. Gecə yatdıq, səhər başına gələnləri danışdı. O, düşmənin pusqusu gələndən sonra bir qədər gözləmiş, amma onların getmədiyini görəndə təkbaşına düşmən mövqeyinə doğru getmişdi. Düşmən istehkamının önündəki kanala çatıb bütün sahəni və istehkamları öyrənmişdi. Qayıdanda günəşin qalxdığını görmüş, çarəsiz qalıb minalanmış sahədə partlayışdan əmələ gəlmiş bir çuxur tapmış və bütün günü orada 50 dərəcə istinin altında ac-susuz qalmışdı. Günəş batandan sonra da öz mövqelərimizə sarı yola düşmüş və nəhayət, bizi görmüşdü.

Məhəmmədinin bu məlumatları bizim minalanmış sahəyə və düşmənin istehkamlarına dair suallarımıza aydınlıq gətirdi və ondan sonra bütün bölgədə kəşfiyyat işi daha yaxşı davam etdi. Bizim mövqeyimizdə hərəkətlilik çoxalmışdı. Batalyon rəhbərləri bir-birinin ardınca əməliyyat zonası ilə tanış olmağa gəlirdilər. Get-gəlin çoxalması düşmənin diqqətini çəkmişdi və onlar əsas əməliyyatın yerini öyrənməkdən ötrü ciddi işə girişmişdilər.

Bütün bunlarla yanaşı, səfalı döyüşçü kollektivi arasında yaşamaq xatirə dolu və gözəl idi. O günlər iyuna və mübarək ramazan ayına təsadüf edirdi. Xuzistan günəşinin misilsiz istiliyi gündüzlər hərəkəti azaltmışdı. Günəş batanda isə özümüzü təchizat səngərinə verib Məhəmməd əminin iftarına şərik olurduq. Əvvəllər əkinçi olmuş Məhəmməd Məlikcani oğulları ilə birgə cəbhəyə gəlmişdi və bizim bölüyün təsərrüfat işlərinə baxırdı. O, Zeyd bölgəsinin 50 dərəcə istisində oruc tuturdu, axşama yaxın daha bədənində taqət qalmırdı. Onda da biz başının üstünü alırdıq: "Necəsən, Məhəmməd əmi?" Görürdük ki, iki meyvə şirəsi var. Üç qonağının olduğunu görüb deyirdi: "Ağa, mən daha təsərrüfatda qalmayacam, kalaşnikovu götürüb vuruşmağa gedəcəm".

Biz utanmırdıq. O da bilirdi ki, yeməyə çağırılmamış qonaqları gözləməlidir.

***

Bir gün səngərdə oturmuşduq. Gənc bir döyüşçü içəri girib əşyalarını bir tərəfə qoydu. Qardaş Məhəmmədi dedi: "Bu qardaş bölüyə yeni gəlib və inşallah, bizim komandamızda xidmət edəcək".

O, təxminən mənimlə həmyaşıd idi və ilk baxışdan xoşuma gəldi. Onun hərəkətlərini izləyirdim, baxışında məni özünə çəkən nəsə vardı. Yaxınlaşıb sadə bir hal-əhval tutmaqla onunla dostluğa başladım.

– Haralısan?

– Təbrizli.

– Bəsic üzvüsən?
– Yox, pasdaram.
– Adın nədir?
– Hüseyn Məhəmmədian.
– Əvvəl harada çalışmısan?
– İdarədə.

Uşaqların idarə işləri ilə araları yaxşı deyildi. İdarədə işləyənlərə "Anten", "Casus" və "Dəmpayi[1] giyənlər" ləqəbləri vermişdilər. Onlar bu önyarğı səbəbindən Hüseynlə bir qədər tərslik edirdilər, mənsə çox tez dostlaşdım. Elə ilk dostluqda dedi: "İndi ki dost oluruq, gərək hər gün ilk görüşümüzdə bir hədis deyək". Mən də qəbul etdim.

İlk günləri əzbər bildiyim məşhur hədislərlə yola verdim, amma çox tez bir zamanda bundan ötrü mütaliə və araşdırmanı ciddiləşdirməyə məcbur oldum. Harada hədis görürdümsə, əzbərləyirdim ki, Hüseynin "ya əxi, həddisni"[2] – sözləri qarşısında əlim dolu olsun; onun özü kimi.

Hüseyn Məhəmmədianla dostluğumdan üç həftə ötməmiş onun yaralandığını eşitdim. Qardaş Mehdi Xeyrullahi onu işlədiyi keçidə aparmışdı. Qayıdanda Hüseynin yerini tapa bilməmiş və onun qayıtdığını düşünərək öz mövqelərimizə dönmüşdülər. Hüseyn də bir müddət gözləmiş, səhərə yaxın düşmənin onun görə biləcəyini düşünüb özü qayıtmaq qərarına gəlmişdi. Bizim mövqeyimizə yaxınlaşanda keşikçilərimizdən biri düşmən hərbçisi olduğunu düşünüb ona sarı bir əl qumbarası atmışdı. Uşaqlar deyirdilər ki, onu müalicə üçün geriyə aparanda ağlayıb deyirdi: "Heyf ki əməliyyatdan qaldım".

***

Bir gün Kərbəla batalyonunun komandiri Həsən Kərbəlayi mənə dedi: "Düşmən üçüncü kanal tərəfdən Ərvənd çayının suyunu bölgəyə yönəldib. Bizim istehkamımızla düşmən istehkamı arasındakı bölgəyə su dolur".

Motosikletlə onun dediyi yerə getdik. Bölgədə ilğım görmək təbii idi, amma o vaxta qədər yaxşı öyrənmişdim ki, ilğım nə vaxt və hansı istiqamətdə görünür. Gördüklərimiz ilğım deyildi. Qardaş Kərbəlayi haqlı idi, su yavaş-yavaş qalxıb kanallara girirdi. Ondan sonra fikirləşməyə başladıq ki, oraya su dolsa, nə etməliyik.

Su hələ də axırdı, amma iş dayanmamışdı, bizdən arxadakı bölgə Ramazan əməliyyatı zamanı cəbhənin mühüm bölgələrindən olmuşdu.

O vaxt əksər bölgələrdə minalanmış sahələr vardı və bu, dəstək qüvvələrinin yerləşməsinə çətinlik yaradırdı. Bu səbəbdən kəşfiyyat bölüyünə həmin minaları zərərsizləşdirmək tapşırıldı. Davud Qüreyşi, Məhəmməd Məhəmmədi və Kərim Hörməti minaları təmizləməyə getdilər və mən səngərdə qaldım. Kəşfiyyat bölüyünün avtomobilini səsindən tanıyırdım. Səsi

[1] Çəkələk
[2] "Ey qardaşım, mənə hədis söylə!"

eşidib bayıra çıxdım. Davudun kədərli üzü diqqətimi cəlb etdi, yaxınlaşanda isə çox qorxdum. Maşının yeri qanlı idi və Kərim Hörmətinin orada olmadığını gördüm.

– Nə olub? Kərimin başına bir iş gəlib?

– Ayağı minaya düşdü və...

Çox pis oldum. Ən yaxşı dostlarımdan ikisinin əməliyyat qabağı yaralanması çox üzücü idi. Kərimi çox istəyirdim, yaralandığını eşidəndə isə daha çox istədim. Davud deyirdi: "Mina partlayanda və Kərim yerə yıxılanda qışqırdı: "Ey Mehdi! İmdada gəl!"

III

Ölkənin vəziyyəti, siyasi-iqtisadi problemlər və digər dövlətlərin təzyiqləri cəbhəyə çox mənfi təsir etmiş, döyüşçülərin əhval-ruhiyyəsi zəifləmişdi. Cəbhəyə gələnlər də azalmışdı və komandirlərin bu baxımdan problemlə üzləşdikləri hiss olunurdu. Kəşfiyyat bölüyünün bütün uşaqları ilə birgə diviziya komandirini dinləmək üçün hüseyniyyəyə toplaşdıq. Qardaş Əli Faiqi kamerasını hazırlamışdı və hamımız gözləyirdik. Ağa Mehdi əlində Quran hüseyniyyəyə girib silah qutularından düzəltdiyimiz tribunaya keçdi. Üzərinə "Ya Əba-Əbdillah" yazılmış qara və qırmızı bayraqlar hüseyniyyənin torpaq kisələrindən düzəlmiş divarlarını bəzəyirdi. Mübarək Ramazan ayı idi və o ayın sayəsində üzlərdə başqa bir nur vardı. Ağa Mehdi Allahın adı ilə söhbətə başladı və ilk cümlədə qardaş Faiqiyə müraciət etdi: "Mömin, məgər kasetiniz artıqdır məni çəkirsiniz?!"[1]

Əziz komandirimizin dərdli ürəkdən gələn sözlərini sevə-sevə dinlədik. Ağa Mehdi cəbhənin vəziyyətindən, canlı qüvvə çatışmazlığından və bizim daha güclü müqavimət göstərməyimizin lazımlığından danışırdı. O, həmişəki kimi Qurandan seçdiyi bəzi ayələri oxuyur və nazilolma səbəbini açıqlayırdı. Peyğəmbərin səhabələrinin işgəncə və yorğunluğun zirvəsində ikən ondan "Allahın yardımı hanı?" – deyə soruşduğunu və "Allahın yardımı yaxındır" ayəsinin nazil olduğunu danışıb bu yaxınlığın əlli ildən çox sürdüyünü və müsəlmanların yalnız o zaman dünyada qələbə çaldığını bildirirdi. Ağa Mehdi nəticə alırdı ki, biz hələ bir iş görməmişik ki, bu tezliyə yorulaq. Biz Peyğəmbərdən və onun dostlarından dərs alıb vəzifəmizi yerinə yetirməliyik.

Qəhrəman komandirimizin sözləri şəxsi heyətin ruhlanmasına çox müsbət təsir göstərirdi. Söhbət dua və salavatla bitdi və ağa Mehdi həmişəki kimi uşaqların arasında gözdən itdi.

***

Günəş rəhimsizcəsinə saçırdı. Günorta azanına az qalırdı. O günlər qardaş Məhəmmədi ilə qardaş Fəthinin arasında bir az soyuqluq yaranmışdı. Məhəmmədi bölükdən getmişdi və bizim komandamız başsız qalmışdı.

[1] Həmin çıxışın videoyazısı Sepahın arxivində mövcuddur.

Hamımız əl-ələ verib bütün işləri görməyə çalışırdıq. Həmin gün günorta səngərimizə gedəndə gözüm ağa Mehdinin səngərinə sataşdı. Nə qədər etdimsə, getməyə bilmədim. Ağa Mehdi Zeyddə olduğumuz müddətdə bizə sadəliyi və səmimiliyi öyrətmişdi. Vacib işi olmayanda bir dəvətlə, bir "buyur" deməklə "ya Allah" deyib içəri girirdi. Onun səngərinə giriş üçün də xüsusi səbəbə və icazəyə ehtiyac yox idi. İçəri girdim. Sakitlik idi. Ağa Mehdi üstünə ağ çəfiyə atmışdı və həmişəki kimi əynində ikinci dərəcəli Koreya hərbi geyimi vardı. Bir ayağını o birinin üstünə aşırıb sakitcə yatmışdı. Yorğun görünürdü. Bizim tanıdığımız ağa Mehdi yorulub-əldən düşməsəydi, gündüz heç vaxt yatmazdı. Bir qədər dayanıb ona baxdım. Düşünürdüm ki, çox yorğunluqdan və yuxusuzluqdan gözlərinin altında yaranmış çökək müharibənin sonuna qədər elə də qalacaq. Susuz idim. Komandir səngərinin buzluğundakı sudan bir az içmək istədim. Su olduqca isti idi. Kauçuk buzluğun qapağını götürdüm. Buz vardı və bir qədər qatıq. Fürsətdən istifadə edib həm ağa Mehdiyə ayran düzəltmək, həm də termosu sərin su ilə doldurmaq istədim. Buzu sındırdım. Buz parçalarının bəzisi termosun ağzından böyük idi. Onları termosun ağzına qoyub yavaş bir zərbə vururdum və buz termosun içinə düşürdü.

– Mömin, evdə anan sənin termosa bu şəkildə buz tökdüyünü görsəydi, nə deyərdi?!

– Bağışlayın, ağa Mehdi!

Bunu deyib şirin xəcalət hissi keçirdim. Ağa Mehdinin dəqiqliyini yenə təcrübə edirdim. Sərin sudan doyunca içdim.

***

İşlər daha ciddi şəkildə davam edirdi. Mən gecə-gündüz təmas xəttində qalıb suyun vəziyyətinə diqqətlə nəzarət edirdim. Su get-gedə bütün bölgəni bürümüşdü. Biz 25 sm. dərinliyində suda kəşfiyyat aparmaq üçün bir şey fikirləşməli idik. Su gələndən sonrakı ilk kəşfiyyat Zeyd bölgəsinin ilk kəşfiyyatı qədər çətin idi. Şalvarımızın balağını dizə qədər qatladıq, çəkmələrimizi çıxardıq və suya girib minalanmış sahəyə doğru yola düşdük. Beşinci və altıncı kanalların arasındakı kanalın yanından keçdik. Bölgənin ümumi vəziyyəti çox da dəyişməmişdi, amma ayaqlarımızın palçıqda hərəkətindən çıxan şappıltı səsi işi korlayırdı. Əmin idik ki, o vəziyyətdə səsimiz düşmənə çatacaq, amma bunu təsdiqləyəcək heç bir reaksiya görmürdük.

Maneələrə çatıb minalanmış sahəyə girdik. Çox diqqətlə palçığın içində minaları tapıb irəlilədik, nəhayət, sahənin içində yüz metr gedəndən sonra həmin yolla geri qayıtdıq.

İraq pusqularının bizim səsimizə qarşı heç bir reaksiya verməmələrindən təxmin edirdik ki, su onları pusqudan qaçırıb. Təxminimiz düz idi. Su pusqu səngərlərinə, hətta kanala girmiş və düşmən bölgəni boşaltmağa məcbur olmuşdu. Ondan sonra hərəkət sürətləndi. Bu kəşfiyyatlar zamanı bəzən təbii

amillərlə də çarpışmalı olurduq. Məsələn, islanmayaq deyə şalvarımızın balağını qatlayırdıq, amma birdən sinəyə qədər suya batırdıq. Bilirdik ki, su ilə dolmuş bir çalaya düşmüşük. Minaları axtaranda da bir neçə dəfə suyun altında partlayış oldu, amma heç biri güclü yaralanmaya səbəb olmadı. Məhəmməd Purnəcəf suyun altında mina axtararkən üçlü bir mina tapdı; tank, avtomobil və piyada əleyhinə. O minanın adı "Purnəcəf minası" qaldı.

Bir neçə kəşfiyyatda düşmənin ilk xəttinin yaxınlığına qədər ərazini təmizlədik və əməliyyata hazırlaşdıq.

Mövcud vəziyyət komandirlərin xüsusi bir plan düşünmələrinə səbəb olmuşdu. Diviziyanın əməliyyat bölməsində bir adam ölçüsündə kauçuklar kəsmişdilər. Onun üstünə uzanıb suyun üzündə qalmaq və qolların köməyi ilə hərəkət etmək olurdu. Hələ qayıqdan istifadə ciddiləşməmişdi. Həmin şəraitdə şəxsi heyətə komandir tərəfindən məzuniyyət xəbəri verildi. Dörd ay yarımdan sonra mən də məzuniyyətə darıxmışdım. Bütün acı və şirin hadisələri ilə birgə Zeyd bölgəsini əməliyyatsız tərk etdik.

Hur

I

Bir neçə gündən sonra bölgəyə qayıtdım, amma uşaqlardan heç kim yox idi. Kəşfiyyat bölüyünün bir qismi iki bölgədə kəşfiyyatla məşğul idi. O bölgələrin biri "Bəndər-Abbas" adı ilə məşhur olmuşdu. Biz bilirdik ki, eşidənləri çaşdırmaq üçün qoyulan adlardandır. Belə nəzərə çarpırdı ki, uzun müddət heç bir hadisə baş verməyəcək. İmtahanlara da az qalırdı. Oturub öz-özümə fikirləşdim ki, imtahanlarda iştirak etmək istəyirəmsə, tez başlamalıyam. Qərara gəldim ki, təhvil-təslim edib Təbrizə qayıdım.

Təbrizə qayıdanda ilk işim adımı on birinci sinfə yazdırmaq oldu. Dərslə yanaşı Dehxuda liseyinin İslam birliyində də çalışırdım. İslam birliyi mənə Şəhid Simsarinin xatirələrini canlandırırdı. O, bir dəfə Razi orta məktəbində mənə dedi: "Daha bizim məktəbimizdə İslam birliyinin olması zəruri deyil, çünki uşaqların hamısı yollarını çox yaxşı tanıyır və gedirlər". O, doğru deyirdi. Mən bilirdim ki, bütün uşaqlar bu düzgün seçimlərini ona və Şəhid Bəxtşükuhiyə borcludurlar. Onların uşaqların kədər və narahatlıqlarına necə şərik olduqlarını və uşaqların onlarla hansı həddə doğmalıq hiss etdiklərini dəfələrlə görmüşdüm.

Cəbhədə yaşadığım şərait, çəkdiyim əziyyətlər, gözümlə gördüyüm şəhadət və yaralanma səhnələri əhval-ruhiyyəmə böyük təsir etmişdi. Dəfələrlə imtahandan kəsilib sinifdə qalmış öncəki Mehdidən çox fərqlənirdim. O zaman cəbhə ilə məktəb arasında bir fərq görmürdüm, dərsdə də cəbhədəki qədər ciddi və fəal olmağın vacibliyini düşünürdüm. On birinci sinifdə ciddiliyim elə bir həddə çatmışdı ki, sinif birincisi oldum və hətta ən tələbkar müəllimin dərsindən də 20 aldım. Mənim onsəhifəlik inşalarım məktəbdə məşhurlaşmışdı. Uşaqların israrı və müəllimin istəyi ilə inşamı oxuyanda bütün uşaqlar ağlayırdılar, müəllim də həvəsləndirici cümlələrlə inşamın altından 20 yazırdı.

Şəhərdə başımı çox qarışdırmışdım, amma nəhayət, cəbhə həvəsi məni rahat buraxmadı. Nə qədər vəziyyəti özümə izah edib şəhərdə qalmağa çalışsam da, olmadı ki olmadı.

II

Əhvazda Hava hücumundan müdafiə qarnizonunda gördüyüm ilk şəxs Əliəkbər Rəhbəri idi.[1] Görüşüb-öpüşəndən sonra verdiyi ilk sual bu oldu: “Nə üçün cəbhədən bu qədər uzaq qaldın?”

Qürurla cavab verdim: "Dərs oxuyurdum".

[1] Seyyidüş-şühəda batalyonunun qəhrəman komandiri Əliəkbər Rəhbəri bir aydan sonra Şəhid Himmət dördyolunda raket qəlpəsindən şəhadətə qovuşdu.

Əliəkbər gülüb dedi: "Qarışqalar da şaxsey deyirlər!"[1]

***

Bölüyün qərargahı Əhvazın Hava hücumundan müdafiə qarnizonunda idi. Bir nöqtədən başlayan üç qol formasında üçmərtəbəli binalar idi. Kəşfiyyat bölüyü üçüncü mərtəbədə yerləşirdi. Üçüncü mərtəbənin digər qollarında da diviziya komandirliyi və əməliyyat bölməsi yerləşirdi.

Kəşfiyyat bölüyünün otağında məni Məhəmməd əmi qarşıladı. Kəşfiyyatçılar müxtəlif bölgələrdə tapşırıqda idilər. Məhəmməd əmi həmişəki kimi çay süfrəsi açmışdı. Suyu üçüncü mərtəbəyə qaldırmaq onun uşaqların öhdəsinə qoyduğu yeganə iş idi.

Uşaqlar gəldilər, amma mən iş barədə onlardan bir şey öyrənə bilmədim. Kimdən soruşurdumsa, gülüşlə və ya bir hədislə sözü dəyişirdi. Səhər yola düşəndə fikirləşdim ki, özüm maşının yolundan kəşfiyyat bölgəsinin hara olduğunu öyrənə bilərəm. Maşın qarnizondan çıxanda onu gözüm görənə qədər izlədim: “Bəli, məlum oldu ki, Dezful tərəflərdir”.

Axşamüstü uşaqların hər şeyi düşündüklərini öyrəndim. Onlar iz azdırmaq üçün əvvəlcə başqa bir istiqamətə gedir və bir qədər sonra əsl yola dönürmüşlər.

Nəhayət, Kərim Hörməti mənə cavab verdi. Ayağının yarası hələ sağalmamışdı. Onu özü açıb-bağlayır, uşaqlarla birgə kəşfiyyata gedirdi. Bir-birimizi görməyə çox sevindik. Nəhayət, doğru bir cavab eşidəndə sevincim tamamlandı. Kərim dedi: "Hə, məşğuluq. Mən Kərim ağa ilə söhbət edərəm, səni də bizim komandaya verər".

Qardaş Kərim Fəthinin cavabı bizi arxayınlaşdırdı: "Sən də uşaqlarla get, Mehdi!"

Ertəsi gün səhər çağı mən də digər uşaqlarla birgə mikroavtobusa minib tapşırıq yerinə yollandım. Cəbhədən uzaq qaldığım bir neçə ayda hər şey nəzərəçarpacaq həddə dəyişmişdi. Uşaqların əhval-ruhiyyəsi yüksək idi, hətta maddi-texniki imkanlar baxımından da böyük irəliləyiş vardı. Əvvəllər uşaqlar hər bir iş üçün təchizat bölməsinə getməyə məcbur olurdular. Orada da həmişə soruşurdular ki, bu əşyanı hansı iş üçün istəyirsiniz? Bu sual-cavab kəşfiyyat uşaqları üçün həmişə problem idi. Ağa Mehdi bu problemi həll etmək üçün yol düşünmüş və bölüyə lazımi imkanlar verilmişdi.

Yolda uşaqların qəribə mənəvi halları vardı. Mikroavtobusun sürücüsü Həmid Qəleyi idi. O da maraqlı adam idi, xüsusi bir işə bağlı deyildi; həm mikroavtobus sürücüsü idi, həm də mersedes; həm özüboşaldan yük maşını sürürdü, həm də toyota. Lazım olanda təcili yardım maşınını da idarə edirdi. İş yeri də bəlli deyildi; həm kəşfiyyat komandasında idi, həm diviziya komandirinin sərəncamında, həm də başqa yerlərdə. Bölükdə komanda başçısı olan Mənsur Furqani bir dəfə zarafatla dedi: "Həmid ağa, sən mersedes

[1] Uşaqlar təəccüblərini bildirmək üçün bu cümlədən istifadə edirdilər.

sürücüsüsən, diviziya komandirliyində işləyirsən, işin kəşfiyyat bölüyündədir, yoxsa bizim komandamızla çalışacaqsan? Cavabımızı ver, biz də işimizi biləkdə!" Həmid ağa da həmişəki kimi təbəssümlə cavab verdi: "Eh, ağa Mənsur, mən hər yerdə işləyirəm; bir gün sizin komandanızda, sabah da ağa Mehdi harada desə, orada..."

Zarafat və gülüş dolu mikroavtobus yoluna davam edirdi. Uşaqlar xorla oxuyurdular:

"Ay şofer, şad olasan, sən ki bizi şad elədin,
O qədər qurdaladın, dəndəni[1] fərman[2] elədin".

Həmid Qəleyi də cavabsız qalan deyildi; eyni qafiyədə bir cavab qoşdu:

"Şad olasız, mən ki sizi şad elədim.
O qədər qurdaladız, burnuzu novdan[3] elədiz".

Yenə uşaqların arasında idim və olduqca həzz alırdım. Bir neçə ay öz ixtiyarımla cəbhədən uzaq qaldığıma təəccüblənirdim. Gözümü pəncərədən görünən mənzərəyə dikmişdim. Fəth üçyolunu və Şəhid Himmət yolunu tanıyırdım. Xeybər körpüsünün parçaları, yanmış tank və maşınlar, Seyyidüş-şühəda magistralı və digər əlamətlər Xeybər əməliyyatından məhrum qalmağın həsrətini yenidən ürəyimdə oyatdı. Hurun qoxusunu duydum.

Məcnun adasında günəş böyük və qırmızı idi. Huru ilk dəfə idi görürdüm. Günbatan çağı idi, günəş qamışlığın arxasında qızarırdı. Külək əsirdi və qamışların səsi adama başqa bir həyəcan verirdi. Hurun qürubunun çox darıxdırıcı və gözəl olduğunu eşitmişdim. Azan səsi də bu gözəlliyi artırırdı. Cəld kəşfiyyat bölüyünə doğru hərəkət etdik, Seyid Mənsur Furqaninin komandasının yerləşdiyi səngərə getdik. Əşyalarımızı ora qoyub özümüzü namaza çatdırdıq. Namazdan sonra bir neçə dəqiqə dualar oxundu, nafilə və qüfeylə namazları qılındı. Bu müstəhəb əməllər cəbhədə vacib kimi idi. Qədim dostlarla görüşdük; Hüseyn Məhəmmədian, Məhəmməd Purnəcəf, Rəsul Səidi, Yusif Sarimi və s. Bölüyün dəcəlləri yenə bir yerə toplaşmışdılar və hər an bir hadisə baş verə bilərdi.

Həmin axşam əvvəlcə Rəsul Səidi ilə təsərrüfat çadırına baş çəkdik. Ora qardaş İmani baxırdı. Yerimizi təzə rahatlamışdıq ki, cinlərdən söhbət düşdü və çox tezliklə qardaş İmaninin cindən çox qorxduğunu bildik. Nadincliyimiz cuşa gəldi: "Uşaqların biri deyir ki, hamama getmişdim, həm də çox yorğun idim. Bir də gördüm ki, kimsə kürəyimi kisələyir. Çox sevindim, amma uzun dırnaqlarını, əlinin üstündəki qara tükləri görəndə..." Yazıq İmani yerində donub qalmışdı. Rəsulla mən bir-birimizə baxdıq, tez oradan çıxıb çadırın arxasına keçdik və bir küncünü qaldırıb bir neçə dəqiqə ərzində çoxlu meyvə şirəsi və konserv götürdük. Səs-küyümüz çox idi, bəlkə qardaş İmani də

[1] Sürət qutusu
[2] Sükan
[3] Nov

eşidirdi, amma söhbətimiz onu o qədər qorxutmuşdu ki, bir qədər meyvə şirəsi və konservdən ötrü "gecə cinlərinə" yaxınlaşmayacağına əmin idik.

Ələ keçirdiyimiz malları səngərə gətirdik. Mən Mənsur Furqaninin komandasının səngərində qalacaqdım. Heç kim duyuq düşmədən meyvə şirələrini oraya yerləşdirdim, ertəsi gün uşaqlar kəşfiyyatdan dönəndə hamısını meyvə şirəsinə və konservə qonaq etdim.

Hüseynlə hədis əzbərləmə dərsi şirəiçmə iclaslarına çevrilmişdi. Görüşəndə hərəmizin əlində bir meyvə şirəsi qarnizonun sonuna, boş və səssiz yerə gedir, saatlarla oturub içir və danışırdıq.

***

"Hur əl-Hüveyzə" Kərxə və Süveyb çayları yolunda yerləşən bir göldür. O çayların hər ikisi sonda Dəcləyə tökülür. Ora müxtəlif bitkilərlə örtülmüş çökək və neft mədənli bir yerdir. Şimali və Cənubi Məcnun adaları da oradadır. İraq tərəfi müharibədən öncə Huru qurutmaq və neft quyularından istifadə etmək üçün suyun içində yollar çəkmişdi. Neft quyularına qədər uzanan bu yolların sonunda işçilərin yerləşməsi üçün futbol meydançası boyda geniş bir yer düzəltmişdilər. Bu yolların bəzisinin sonunda 2-3 neft quyusu vardı. Şimali Məcnun adasında belə yolların sayı yeddiyə çatırdı. Kəşfiyyat bölüyü xudmani bir yer olan üçüncü yolda yerləşirdi.

Adanın imkanları bizi xarici dünyadan ehtiyacsız edirdi. Hətta kəşfiyyat bölüyünə xüsusi bir poçt indeksi ayrılmışdı və məktublarımız diviziyanın poçt qutusuna girmədən birbaş özümüzə gəlirdi.

Kəşfiyyat bölüyünün bölgədə dörd komandası vardı. Onlara Əsədbəyi, Mənsur Furqani, Məhəmmədhüseyn Əlipərəsti və Mehdi Davudi başçılıq edirdilər. Bütün komandalar üçüncü yolda xüsusi səngərlərə yerləşmişdilər. Bu səngərlərin biri böyük idi və kəşfiyyat bölüyünün namazxanası olmuşdu.

Uşaqlar tez-tez kəşfiyyata gedirdilər. Şimali adanın üçüncü yolunun müdafiəsi də öz üzərimizə düşürdü və hamı növbə ilə keşik çəkirdi. Mən hələ bikar idim. Digərlərinin daim çalışdığına, özümünsə bikar durduğuma görə narahat olurdum. Nəhayət, ağa Mənsur dedi: "Ağa Mehdi, qayıqla tanışlığın var?"

– Yox, ağa Mənsur, heç nə bilmirəm.

– Yavaş-yavaş başla, gərək öyrənəsən.

– Baş üstə!

Başqa bir nəfərlə birgə təlimə başladıq. Əsgər Abbasquluzadə komandamıza yeni qoşulmuşdu. Bölük Təlaiyyədə çalışanda orada qayıq sürməyi öyrənmişdi. O, ağa Mənsurun "sən də bilmirsən?" sualına "bilirəm" deməyə utandı və nəticədə, ikimizi Təbriz Sepahının kəşfiyyatından gəlmiş bir pasdara tapşırdılar. Qardaş Xosrovi Meşkin şəhərindən idi. Özü orada qayıq sürməyi öyrənmişdi və işində çox ciddi idi. Ertəsi gün səhər təlimə başladıq. Ondan öncə Abbasquluzadə ilə heç bir tanışlığım yox idi, amma çox çəkmədən onun bəzi dəcəlliklərdə məndən betər olduğunu anladım. Təlimin

ikinci günündə lazım olan hər şeyi öyrənmişdik, amma bəzən müəllimimizin həddən artıq tələbkarlığı səbəbindən özümüzü anlamazlığa vurur və onu hirsləndirirdik. O, hirslənib bizə çox nəsihət verirdi ki, ciddi olaq və təlim zamanı nadinclik etməyək. Biz də bir-iki saat sakitləşir, sonra yenidən başlayırdıq. Özümüzə və qayığa bir-iki təkan verəndə qayıq çevrilir və Xosrovi qışqırırdı. O, əlimizdən təngə gəlmişdi, amma istəyəndə qayığı yaxşı idarə etdiyimizi görüb ağa Mənsura şikayət etmirdi.

Adada hərə bir işlə məşğul idi. Bizim təlimimiz də artıq məşqə çevrilmişdi və qardaş Furqani məni hər dəfə görəndə təkidlə deyirdi: "Nə qədər bacarırsan, məşq elə, qabaqda çox işimiz var". Mənsə uzun məşqlər edən deyildim, hövsələm çatmırdı və kəşfiyyata getmək üçün səbirsizlənirdim.

Ağa Mənsur deyirdi: "Səhər yuxudan oyanıb namazını qılan kimi Əsğər ağa ilə qayığı götürüb məşqə gedin və axşam qayıdın".

Mən də "baş üstə" – deyib başımı aşağı salır və birbaş qardaş Mehdi Davudinin komandasına gedirdim. O komandanın bütün uşaqları qədim dostlarım idilər; Hüseyn Məhəmmədian, Yəqub Şikari, Əbülfəz Fərəhmənd, Məhəmməd Purnəcəf və başqaları. Onların yanında olanda zaman bir göz qırpımı kimi keçirdi. Günorta dəstəmaz almağa çıxanda hərdən ağa Mənsurla üzləşirdim. O deyirdi: "Ağa Mehdi, gəldiniz?!"

– Bəli, qayıtdıq.

– Amma bir az tez gəlmisiniz. Hələ namaza yarım saat var, get bu yarım saatı da məşq elə, gəl.

Sakit qalıb dəstəmaz alır və ağa Mənsur gedəndən sonra yenidən uşaqların yanına qayıdırdım. Bəzən günbatan çağı qayığı sakit yerlərə aparırdıq; ot və qamışlıq olmayan sakit sulara. Orada qayığı saxlayırdıq. Əsğər ağa tərtillə gözəl Quran oxuyurdu. Saatlarla orada qalırdıq. Əsğərin mələhətli səsi Huru bürüyürdü və biz qayıdanda çox rahatlaşmış olurduq.

***

Hava get-gedə soyuyurdu. Gecə namazı qılanlar adətən, qoltuqlarında bir ədyalla səngərdən çıxırdılar, orada isə, səngərin içində qılmağa məcbur idilər. Səngərimiz kiçik idi və gecə namazına oyananlar istər-istəməz digərlərini də oyadırdılar. Hər səhər yuxudan oyananda Əbülfəz Fərəhməndin giley-güzarı başlayırdı: "Allahu Əkbər! Əşi, nə olub axı?! İnsaf da yaxşı şeydir! Sizin saatlarınızın cır-cır səsindən boğaza yığıldım. Mən gecə namazı qılanlardan şikayətçiyəm... Mərdimazarlar! Gələn dəfə bu saatı götürüb atacam bayıra, görərsiz!"

Əbülfəzin haray-həşiri yüksəldikcə bəzi səngər yoldaşlarımızın üzü daha çox gülürdü. Hamımız bilirdik ki, qardaş Fərəhmənd gecə namazı qılanlardan şikayətçidir və lazım olsa, onları ifşa da edər. O mərhələdə gecə namazı qılmaq qeyri-adi bir şey olmasa da, uşaqlar ibadətlə və gecə namazı qılmaqla məşhur olmaqdan çox qaçırdılar. Onlar düşünürdülər ki, günah vasitələrinin çox olduğu şəhərlərdən fərqli olaraq, cəbhədə şeytanın əl-qolu bağlıdır və

kimsə yolunu azsa, yalnız qeybət və riya yolu ilə azar. Müstəhəb namazları gizlətməyin ən mühüm səbəblərindən biri bu idi.

Əbülfəz Fərəhməndin səs-küyü səhər proqramının bir hissəsinə çevrilmişdi, hamımız səhəri onun haray-həşirləri ilə açırdıq. Məhəmməd Purnəcəflə mən də bikar dayanmayıb özümüzə bir vacib iş düşündük: Bu səs-küyün səbəbkarlarını, yəni gecə namazı qılanları tapıb üzə çıxarmaq!

Plana uyğun olaraq, gecə yarısı hamıdan qabaq oyanıb əlimizdə bir fanarla səngərin önündə gizləndik. Dəstəmaz almaq üçün səngərdən çıxan hər kəs iki-üç addımdan sonra gözlərini qamaşdıran fənər işığından dayanırdı. Bir neçə gecənin içində səngərin gecə namazı qılanlarının çoxunu tapdıq və beləliklə, lazım olduqda istifadə etmək üçün əlimizdə rıçaq oldu. Bu plan hələ davam edirdi və biz hamını tapıb üzə çıxardığımızı düşünürdük. Lakin bir gecə fənərin işığında Əbülfəz Fərəhməndin öz çöhrəsini ziyarət edəndə mat-məəttəl qaldıq: "Qəribədir! Deməli, sən də?! Sənə rəhm edən deyilik. Gözlə, gör səhər səni necə rüsvay edəcəyik!"

Səhər çağı Əbülfəz səngərin ən məzlum gecə namazı qılanı oldu. Məhəmmədlə mən məsələni bir az da bəzəyib hamıya danışanda uşaqların gülüş və zarafatları qarşısında Əbülfəzin rəngi tez-tez dəyişirdi.

İş o yerə çatmışdı ki, mənim kimi sübh namazına qədər yatmaq istəyənlər namazxanaya mühacirət edirdilər. Çiynimdə ədyal namazxanaya gedib bir tərəfdə özümə yer hazırladığım ilk gecə Məhəmməd Purnəcəf başımın üstünü alıb çox amiranə tərzdə dedi: "Qalx, yerini yığ, get!"

– Axı niyə?!

– Niyəsi yoxdur, bura Müqavimət mərkəzidir, sənsə müqavimətin üzvü deyilsən. Buna görə də, buradan istifadə etməyə haqqın çatmır!

Elə danışırdı ki, deyəsən, məsələ ciddi idi. Ona dedim: "Yaxşı, mənim adımı da müqavimətə yaz".

– Belə olmaz, gərək bəzi sənədləri gətirəsən. Özünün və ata-ananın şəkli, bütün ailə üzvlərinin kimliyi, nikah şəhadətnamələrinin surəti, 3000 tümən pul... Bir də imkan olsa, özünlə bir soyuducu və iki-üç stəkan-nəlbəki də gətir.

Təxminən əlli sənəd adı çəkdi və nəhayət, uşaqların gülüşlərindən səsini eşitmədim. Namazxananın Müqavimət mərkəzinə çevrilməsi və ona üzv qəbul olunması kəşfiyyat bölüyünün komandirinin də qulağına çatdı.

– Ağa Kərim, bu asanlığa məsciddə yata bilməzsən.

– Nə üçün?

– Axı oranın bir müqavimət sədri var, özgələri buraxmır. Adı da Məhəmməddir.

İnanmamışdı. Uşaqlar sözlərini sübut etmək üçün bir gecə onu məscidə gətirmişdilər. Təsadüfən, Məhəmməd yuxuda imiş. Uşaqların biri onu oyatmışdı ki, qalx, biri buraya üzv olmağa gəlib, nə gətirməlidir? Məhəmməd də tənbəllik eləməyib lazım olan bütün sənəd və əşyaları birnəfəsə və təkrarsız saymışdı.

***

Qış gəlmişdi. 1985-ci ilin əvvəlləri soyuq keçirdi və hava get-gedə soyuyurdu. Hura gəlişimizdən 20 gün ötəndən sonra nəhayət, xoş xəbər eşitdim: "Qayığın önündə otur və avar çək!" İlk kəşfiyyat vaxtı gəlmişdi.[1] Onlarla birgə getdiyimə görə sevincimdən yerə-göyə sığmırdım. Həmid Allahyari qayığın arxasında oturmuşdu, Kərim Hörməti və Xosrovi də ortada. Hərəkət altıncı yoldan və Mutə adlı bir arxdan başlandı. Hərəkətdən öncə Kərim Həmidlə mənə dedi: "Əgər bir işiniz olsa və bir-birinizə baxmaq gərəksə, qayığı bir qədər tərpədin ki, mən bilim". Kərimin sözü yaxşı bəhanə oldu. Çox keçmədən qayığı tərpədib kəşfiyyat komandasının başçısı olan Kərim Hörmətiyə dedim ki, mən yoruldum.

– Xosrovi, sən keç önə.

Xosrovi qayığın önündə dizi üstə oturdu. Qayıq Hurun təbii arxlarında irəliləyirdi.[2] Nəzərdə tutduğum işin tam zamanı idi; qayığı elə tərpətdim ki, az qaldı Xosrovi suya düşsün. Özünü güclə saxlayıb qəzəblə mənə baxdı. Qara dərisinin yanında ağ dişləri həmişəkindən də çox parlayırdı. Həmidlə mən güldük, o isə daha da hirsləndi, asta səslə Kərimə dedi: "Ağa Kərim, görürsən, məni ələ salırlar".

Kərimi də gülmək tutmuşdu. Xosrovi kəşfiyyat bölüyünə yeni qoşulmuşdu. İlk dəfə bölüyümüzə gələn hər kəs bir neçə gün bu hissi keçirir və bölük üzvlərinin hər şeyi zarafata saldığını düşünürdülər. Bir müddətdən sonra uşaqların xasiyyəti ilə tanış olur və etiraf edirdilər ki, kəşfiyyat bölüyünün uşaqları ən dəcəl döyüşçülər olsalar da, əməliyyat zamanı batalyon uşaqlarının arasında olmaları qorxmazlığa və ruh yüksəkliyinə səbəb olur; onlar lazım olanda hətta bir batalyon komandirini də əvəzləyə bilirlər.

Mutə arxı sonda döngələrə ayrılırdı. Biz oranın adını Zeyd qoymuşduq: Zeyd-1, Zeyd-2, Zeyd-3.

Zeyd-3-dən düşmənin bəndinə qədər yalnız 1 km. məsafə vardı. Yolda heç bir pusqu ilə rastlaşmadıq. Bu yol öncədən məqsədyönlü şəkildə seçilmişdi. Biz əməliyyat zamanı ilk hücuma keçən qüvvələri bu yolla aparmalı və düşmənin bəndinə qədər vuruşmadan getməli idik. Zeyd arxının yaxınlığında dayandıq, ondan o tərəfə getmək olmazdı. Günəş zəifləmiş, qürub yaxınlaşmışdı. Namaz vaxtı idi. Kəşfiyyat yolumuz düşmənin nəzarətində olmadığından və düşmən bölgəyə xüsusi həssaslıq göstərmədiyindən yolun bir hissəsini gündüz çağı arxayın gələ bilmişdik. Qərara gəldik ki, orada namaz qılaq. Təlimin ilk günlərində bizi dəfələrlə suda qoymuş qayıq çox ram idi,

[1] Bu, həmin bölgədə kəşfiyyatın ikinci mərhələsi idi. Hələ Aşura diviziyası bölgəni təhvil almazdan öncə bəzi cəsur uşaqlarımız, o cümlədən Şəhid Seyid Mənsur Furqani, Şəhid Mehdi Davudi və qardaş Əsədbəyi orada gizli kəşfiyyat aparıb düşmən bəndinə qədər getmiş, düşmən mövqelərinin içində olan yol və avtomobillərin filmini çəkmişdilər.

[2] Hurda təbii arxlardan əlavə süni yolla yaradılmış qac və kanallar da vardı. Aşura diviziyasının əməliyyat istiqamətindəki sular əksərən təbii arxlardan ibarət idi.

içində asanlıqla hərəkət edə və Hurdan dəstəmaz ala bilirdik. Öz-özümə pıçıldadığım yerdə Hurun yalnız uzaqdakı heyvanların səsi ilə pozulan sükutu birdən pozuldu: "Tap!"

Kərimin saatı suya düşdü. Əlimizdən heç bir şey gəlmirdi. O qaranlıqda və suyun dibindəki otların arasında saatı tapa bilməzdik. Hamımız narahat olduq. Düşmən bəndinə yaxınlaşdıqca suyun dərinliyi azalırdı. Hücum gecəsinə qədər düşmən qüvvələrindən kimsə oradan keçə bilərdi. Əgər saatın günəş şüası altında parıltısı onun diqqətini cəlb etsəydi, oraya kiminsə gəldiyini düşünəcəkdi. Bu isə kəşfiyyat bölüyünün bir neçə aylıq zəhmətinin hədər getməsi demək idi. Təsirini dəfələrlə öz gözlərimizlə gördüyümüz "Vəcəəlna" (Yasin, 8) ayəsini oxuyub qorxu və ümidlə oranı tərk etdik. O saatın fikri hücum gecəsinə qədər bizi narahat etdi.

Həmin gün Zeyd-3 arxına qədər yolu, habelə Seyyidüş-şühəda batalyonunun hərəkət yolunu yaxşıca öyrənib qayıtdıq. Dərhal kəşfiyyat məruzəsini hazırlayıb komandirlərə təqdim etdik. Bölgənin coğrafi və hərbi vəziyyətinə dair verdiyimiz məlumatlar əməliyyat planında digər informasiyalarla birgə diviziya rəhbərləri tərəfindən əsas götürülürdü. Var qüvvəmizlə çalışırdıq ki, işin gedişinə təsirli olduğunu düşündüyümüz hər bir məsələni komandirlərə ötürək.

– Hava soyuqdur və getdikcə soyuyur;

– Suyun üzündəki ot və bitkilər o qədər sıxdır ki, bəzən qayığın önünü kəsir və keçəndə səs edir;

– Arxlar bəzən çox ensizləşir və qayığı sağa-sola döndərmək olmur;

– Yol kənarındakı və qonşu arxlardakı pusqulardan daim ehtiyatlı olmalıyıq, onlar hər bir qeyri-təbii səsə həssasdırlar;

– Bölgənin yerli heyvanları, məsələn, ördəklər, bəzi quşlar və qurbağalar insanı görəndə səslərini ucaldırlar. Onların reaksiyası düşməni də duyuq sala bilər.

Bütün kəşfiyyat qüvvələri üçün əhəmiyyətli olan başqa bir məsələ namaz, istirahət və tualet məsələsi idi. Hər bir kəşfiyyatda minimum get-gəl yolu təxminən 12 km. idi ki, bu da bütöv bir gün demək idi. Qışın soyuq havası bu müddətdə tualetə ehtiyac yarada bilərdi. Xüsusən bir qayıqda hərəkət etdiyimizdə bu problem çox ciddiləşirdi, amma hər halda, birtəhər keçinirdik.

***

Aşura diviziyasının Hur bölgəsindəki əməliyyat istiqamətlərinin komandirləri Mirzə Əli Rüstəmxani və Məhəmməd Əjdəri[1] idi. Onlarla müzakirələrə başladıq və çox tezliklə bölgəni onlara izah etmək tapşırığı verildi. Uşaqlar onları gedə bildiyimiz yerə qədər apardılar. Kəşfiyyatçılarımız əməliyyatdan öncə bütün komandirlərimizi bölgə ilə yaxından tanış etməyə aparırdılar. Onların tanışlığından sonra yeni ehtiyaclar ortaya çıxdı və

[1] Onların hər ikisi Bədr əməliyyatında şəhadətə qovuşdular.

kəşfiyyatın başqa bir mərhələdə davam etdirilməsi lazım gəldi. Bu dəfə bizə arxların növlərini, pusquların arxlarla dəqiq məsafəsini, bəndin önündəki bitki örtüyünün necəliyini, yaxınlığındakı maneələri, bəndin üstündəki səngərlərin formasını, bir-biri ilə məsafəsini və digər məsələləri öyrənmək tapşırıldı. Altıncı yol yenə də kəşfiyyat komandamızın qayığının kəşfiyyata başlama nöqtəsi oldu. Bizimlə yanaşı digərləri də başqa istiqamətlərdə kəşfiyyat aparırdılar. Onların tapşırığı pusqu ilə vuruşacaq canlı qüvvəni düşmənin içərisinə çatdırmaq idi, bizim tapşırığımız isə ən öndə gedib mövqeyi tutan qüvvələri aparmaq. Yol həmişəki arx idi, qayıq suda sürətlə irəliləyirdi. Biz gözlərimizi ətrafa dikmişdik və çalışırdıq ki, ən kiçik məqam da diqqətimizdən yayınmasın. Tapşırıq birgünlük nəzərdə tutulmuşdu və biz lazım olanları götürmüşdük: gecə durbini, silah-sursat, döyüş alətləri və içməli su. Hərçənd, Hurun suyu da şirin idi və ondan istifadə edə bilərdik.

Qayıqlarla irəliləyə-irəliləyə Vəlfəcr-hazırlıq əməliyyatından öncəki kəşfiyyatlarımızı xatırlayırdım. Orada kompassız yolu tapmaq mümkün deyildi, burada isə suyun özü bizi aparırdı. Hər iki tərəfində qamışlar bitib bizi hər bir baxışdan qoruyan boş və ensiz arx idi. Bəzən açıq bir yerə çatırdıq və ondan sonra arx iki-üç yerə ayrılırdı. Yolu tapmaq üçün müəyyən nişanlardan istifadə edirdik.

Bəzən çox zəif bir səs eşidib düşmən olduğunu ehtimal edir, qayığı tez suyun kənarındakı bitki və qamışların iki-üç metr içərisinə sürüb gizlənir və düşmən qayığının keçib getməsini gözləyirdik. Belə anlarda qayığı idarə etmək üçün sürət və məharət çox zəruri idi və xoşbəxtlikdən, bizdə hər ikisi vardı.

Gecə düşmən mövqelərinin qaraltısı görünür və səsləri aydın eşidilirdi. Düşmənin yüzmetrliyinə çatmışdıq və məsafə get-gedə azalırdı, amma qayıq tikanlı məftilə dəyib dayandı. Əgər tikanlı məftil də bir ot qədər yumşaq olub onun sakit hərəkəti qarşısında ram olsaydı, bir az da irəliləyər, minimum məsafədən lazımi məlumatları öyrənərdik. Lakin orada qalıb gördüklərimizi qeyd etdik, sonra isə getdiyimiz kimi sakitcə geri döndük.

Bu kəşfiyyatdan sonra düşmənin bölgədə necə yerləşdiyinə əmin olduq. Birinci cərgədə pusqular vardı və həssas mövqedən 1 km., 500 və ya 200 metr öndə yerləşirdi. Pusquların düzülüşü göstərirdi ki, düşmən arxlardan təhlükə duyur. Əmin idik ki, həssas keçidlərdə, məsələn, üçyol və dördyollarda bu pusqular hazır vəziyyətdədir. Bitki örtüyü olmayan və bu səbəbdən gediş-gəliş imkanının çox olduğu hər bir arx bir və ya bir neçə pusqu tərəfindən qorunurdu. Bütün bunlara baxmayaraq, düşmənin diqqət yetirmədiyi bəzi arxlar da vardı. Bizim kəşfiyyat üçün istifadə etdiyimiz və hücum gecəsində canlı qüvvəni aparacağımız keçidlər həmin arxlar idi. Bəndin 20-30 metrlik məsafəsində tikanlı məftillər qayıqların önünə sədd çəkirdi. Bəndin sinə hissəsinə də üç cərgəyə qədər dairəvi tikanlı məftillər yapışmışdı. Bu bənd düşmənin birinci hərbi mövqeyi idi. Onun arxasında ikinci hərbi mövqe

yerləşirdi və bu iki mövqeyin arasında hərbi texnika cəm olmuşdu. Qərargahlar, zenitlər və digər silahlar ikinci mövqeyin arxasında idi. Əlbəttə, birbaşa görüb öyrənə bilmədiyimiz yerləri durbinlə baxmaqla və havadan şəkillərini çəkməklə araşdırırdıq.

Dəclə çayı İraqın ikinci mövqeyinin arxasından keçirdi. Xəritədə görürdük ki, bizim əməliyyat istiqamətimizdə Dəclənin döngəsi var. Xəritənin üzərində Humayun, Həribə və digər kəndlər, onların arxasında da əhəmiyyətli Bəsrə-əl-İmarə avtobanı görünürdü. Avtobanın arxasında "Hur əl-Himar" adlı başqa böyük bir çay vardı.

Yanvar ayı sürətlə ötdü və fevral girdi. Fəcr ongünlüyü və inqilabın qələbəsinin ildönümü idi. Şahın getdiyi və inqilabın qələbə çaldığı zamandan altı il ötürdü. Mehdi Davudi namazxanada bayram keçirməyimizi təklif etdi.

– Necə?

– Bir teatrla. Uşaqların əhval-ruhiyyəsinə yaxşı təsir edər.

Proqram ildırım sürətilə hazır oldu. Üçüncü yolda olan hər kəs, o cümlədən, bölgədə Aşura diviziyası ilə əməkdaşlıq edən və əksəri yerli döyüşçülərdən ibarət "Nüsrət" birləşməsinin təxminən 15 kəşfiyyatçısı da mərasimə dəvət olundu.

Teatrın məşqə ehtiyacı yox idi. İraq ordusunun komandirləri Müdafiə nazirinin yanında anbaan öz məğlubiyyətlərini və cəbhədən "qəhrəmancasına" qaçışlarını məruzə edirdilər, Səddam da bu "xoş" xəbərləri "nuşi-can" edirdi. Mehdi Davudi əyninə İraq partizan forması geyinmiş, kəmərinə də tapança bağlamışdı. O, bu forma ilə məğlub olub əsəbiləşmiş Səddamın rolunu yaxşı ifa edirdi. Mən də İraq ordusunun yüksək rütbəli zabitlərindən biri idim. Hər birimiz əynimizə iraqlılardan qənimət götürdüyümüz bir forma geyinib bacardığımız hər bir ləhcə və satirik ifadə ilə müharibənin vəziyyətini məruzə edirdik. Məhdud imkanlarımıza görə, yaxşı teatr idi. Nüsrət qərargahının son sırada oturmuş uşaqlarının şən gülüş səsləri teatrın əvvəlindən axırına qədər bizi müşayiət etdi.

Teatrdan sonra öncədən hazırladığımız şirniyyat paylandı və növbə kəşfiyyat bölüyünün komandiri qardaş Kərim Fəthinin çıxışına çatdı. O, yaxşı danışırdı və biz Allaha yalvarırdıq ki, nəsihət üçün olsa da, bir neçə cümlə danışsın. Bu ehtiyac hissi o günlərdə daha çox hiss olunurdu. O zaman hamımız əcnəbi radiolardan yayılan yalan xəbərlərə görə narahat idik. Bütün dünyada İranın cəbhələrdə məğlubiyyətindən və daha əməliyyat keçirməyə qadir olmadığından söz gedirdi. Düşmən bəzi cəbhələrdə məhdud hərəkətlər etmiş və bununla bizim xarici "dostlarımızda" bu fikri gücləndirmişdi. Bu "dostlar" bizimlə münasibətlərini cəbhələrin vəziyyətinə əsasən quran ölkələr idi. Biz cəbhədə üstünlüyü ələ alanda həmin dövlətlər də bizimlə əməkdaşlığa həvəslənirdilər, lakin bir müddət xüsusi bir əməliyyat keçirməyəndə onlar da düşmənin təsiri altına düşüb sözlərindən qaçırdılar.

Xeybər əməliyyatından təxminən bir il ötürdü. Orada cəsədi itkin düşmüş şəhidlərin qəm-kədərini daşıyanların hamısı gözləyirdilər. O ərəfədə bizim əməliyyatımız həm düşmənin təbliğatını zərərsizləşdirə, həm də bizi xarici siyasətdə gücləndirə bilərdi.

Həmin gün qardaş Fəthi kəşfiyyatda inkişafdan və belə bir dönəmdə əməliyyatın əhəmiyyətindən danışdı və inqilabın "Hur əl-Hüveyzə" bölgəsindəki qələbə tədbirini döyüşçülərin həmişəki duası ilə sona çatdırdı: "İlahi! İlahi! Mehdinin (ə) inqilabına qədər Xomeynini saxla!"

Əməliyyatda iştirak edəcək batalyonlar uyğun təlimlər keçmək üçün əməliyyat bölgəsinə oxşayan Sərhəngiyə və Kəsur bölgələrinə getmişdilər. Bu təlimlərin ən mühüm hissələrindən biri qayıq sürmək idi. Batalyonlara təlim keçən zaman onların rəhbərlərinə dəfələrlə və müxtəlif formalarda mövqeyi başa saldıq; bəzən xəritə üzərində, bəzən birbaşa bölgəyə aparmaqla, bəzən məruzələr əsasında, bəzən də müşahidə postundan durbinlə göstərməklə.

Seyyidüş-şühəda və İmam Hüseyn (ə) batalyonları ilk hücuma keçəcək batalyonlar idilər. Əli Əkbər və Qasim batalyonları isə onların arxasınca hərəkət edəcək və mövqe süqut edəndən sonra hərəkətə keçəcəkdilər. Bu dörd batalyonun bütün şəxsi heyətinə su və quru yolları izah olundu. Mövqeyi yaracaq iki batalyonun yolu Mutə arxında eyni idi. İmam Hüseyn (ə) batalyonu yolun bir hissəsində Fəth arxına dönəcəkdi, Seyyidüş-şühəda batalyonu isə düz gedib Zeyd arxına çatacaq və oradan düşmənə hücum edəcəkdi. Son ehtiyaclar araşdırılır, problemlərin həlli üçün yeni təkliflər irəli sürülürdü. Diviziya və bölük komandirliyi tərəfindən təklif olunan məsələlərdən biri arxlara nişan qoymaq idi. Yolda kəşfiyyatçının başına bir iş gəlməsi və yaxud gözlənilməz bir səbəbdən yolu səhv getməsi ehtimalı vardı. Bu baxımdan, arxlara nişan qoymaq fikri məntiqli idi və canlı qüvvənin düzgün yolla getməsini təmin edirdi. Adət üzrə hamı bu barədə həmfikir oldu və qərara gəldik ki, səliqəli kauçuklar hazırlayıb üzərlərinə ad və nişanlar yazaq. Sonra hər bir yerin dərinliyinə uyğun olaraq, onları bir şeyə bağlayıb suya buraxaq. Beləcə sabit qalıb yolu bəlli edərlər. Kauçuk nişanları hazırlamaq Seyid Mürtəza Zəfərançının rəhbərliyi altında mənə və başqa bir neçə nəfərə tapşırıldı. Onların üzərinə oxunan xətlə yazdıq: "Birinci istiqamətə doğru"; "İkinci istiqamətə doğru"; "İmam Hüseyn (ə) batalyonunun yolu" və s. Bu tablolar bir müddət səngərimizdə qaldı və əməliyyatdan öncə qardaş Abbasquluzadə və başqa bir neçə nəfər tərəfindən uyğun yerlərə yerləşdirildi.

***

Seyyidüş-şühəda batalyonunun Kəsur bölgəsindəki qərargahında iclas idi. Ağa Mehdi, Seyyidüş-şühəda batalyonunun komandiri Cəmşid Nəzmi, Mahmud Dövləti, Hüseyn Kərbəlayi, Mustafa Şahbazi, bölük komandirləri və Seyyidüş-şühəda batalyonunu aparacaq kəşfiyyatçılar bir yerə toplaşmışdılar. Bölüklərin hər birinin hücum planı və əməliyyat tapşırığı müzakirə olunurdu. Ağa Mehdinin iclasda iştirakı onun bütün hərbi məsələlərə diqqətini göstərirdi.

İclasda qərara alındı ki, Mənsur Furqaninin komandasından üç nəfər Seyyidüş-şühəda batalyonunun üç avanqard dalğıc dəstəsinə bələdçilik etsin. Ağa Mənsur bizi qədim toyota ambulansa mindirdi, özü də sükanın arxasına keçdi. Maşının arxasında sıxlaşıb oturduq.

– Sizdən üç nəfər bu işə könüllü olmalıdır; olmasa, özüm üç nəfəri təyin edəcəyəm.

Bu iş o qədər çətin idi ki, ağa Mənsur öz komandasını tanımasına rəğmən, məsələni bu tərzdə ortaya qoydu. Lakin bunu deyəndən sonra bizim israr və xahişlərimiz başlandı.

- Mən mütləq getməliyəm, ağa Mənsur!

– Yox, hamı bilir ki, mən yolları yaxşı tanıyıram...

– Ağa Mənsur, özün yaxşı bilirsən ki, mənim üzgüçülüyüm yaxşıdır. Mən dalğıc geyimində də elə hərəkət edə bilirəm...

İnanılmaz idi. Biz cəbhədə elə yetişmişdik ki, dostlarımızın istəyini öz istəyimizdən önə keçirirdik, burada isə hamımız bu işə daha uyğun olduğumuzu sübut etməyə çalışırdıq. Hər kəs bir formada öz məharətlərini qeyd edirdi. O vaxta qədər heç birimiz dalğıc təlimi keçməmişdik. Qısa müddət ərzində dalğıc olmalı və əməliyyat gecəsi beş nəfərlə birgə düşmən mövqeyinə hücum etməli idik. Asan deyildi, amma şirin idi və ondan şəhadət ətri gəlirdi. Bu, hamını həvəsləndirirdi. Daha söz yox idi. Ağa Mənsur bizə baxıb üç nəfərin adını çəkdi: "Səməd Yusifi, Rəsul Benam, Mehdiqulu Rzayi".

***

Dalğıc geyimini ilk dəfə idi görürdüm. Onun barəsində heç bir təsəvvürüm yox idi. Birtəhər əynimə geyinib suya girdim. Suyun üzündə qalmışdım. Suya batmaq istədim, amma olmadı. Şar kimi suyun üzərində üzürdüm.

– Bu geyim nə üçün belədir?

– Gərək özünə ağırlıq bağlayasan.

Müəllimin köməyi ilə ağırlıq bağladım. Bu, problemi müəyyən həddə həll etdi və suyun üzündəki sabitliyi suyun altında da əldə etdim. Birinci gün işimiz bərbad idi və təlim keçənlər etiraz edirdilər: "Vay-vay! Siz heç nə bilmirsiniz!" Beş müəllimimizin hamısı Bəndər-Ənzəlidə, Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrində təxminən iki ay dalğıc təlimi keçmiş kəşfiyyatçılar idi. Onlar bizim dalğıclıqdan və hətta dalğıc avadanlıqlarından anlayışımızın olmadığını görəndə təəccüblənirdilər ki, bu mühüm tapşırıq üçün niyə bunları seçmişlər. Müəllimlərimiz dalğıclığın sirlərinə çox yaxşı bələd olsalar da, bu işi onlara tapşıra bilməzdilər, çünki kəşfiyyatda iştirak etməmişdilər. Bu baxımdan, üstünlük bizdə idi.

Ciddi təlim keçirdik, amma su bizimlə yola getmirdi. Suyun altında əl-ayaqlarımızı vursaq da, irəli gedə bilmirdik. Məyusedici idi, amma bizim üçün yox; çünki biz kəşfiyyatda olduğumuz müddətdə öyrənməyə həmişə hazır olmağa alışmışdıq. Fiziki hazırlığımız o həddə idi ki, çox tez formaya düşürdü və hər bir yeni təlimi adi adamlardan tez və yaxşı qavrayırdıq.

Biz suyun üzərində üzərkən müəllimlər xüsusi ayaqqabılar geyinib suya girdilər və sürətlə hərəkətə başladılar.

– Deməli belə! Əsas məsələ bu ayaqqabılardır!

– Bu ayaqqabılara üzgəc deyilir.

Üzgəclər həm işimizi asanlaşdırdı, həm də başqa bir problem yaratdı. Çünki suyun altındakı ot və bitkilərə ilişib hərəkəti zəiflədirdi. Bu problem haqda da çox fikirləşdik, amma çarə tapmadıq. Nə suyun altındakı bitkiləri qopara bilirdik, nə də üzgəcsiz irəliləyə bilirdik. Bu, bizim çarə tapmadığımız ilk problem deyildi. Həmişə olduğu kimi, Allaha təvəkkül etməli və Onun vəzifəmizi yerinə yetirməkdə bizə kömək edəcəyinə əmin olmalı idik. Bizim vəzifəmiz işğalçı düşmənlə vuruşmaq və bu işə mane olan bütün təbii amillərlə döyüşmək idi.

Üçüncü gün artıq özümüzü suya atıb balıq kimi üzməyi bacarırdıq.

İşin yolunu öyrənmişdik və artıq dalğıc komandalarına bələdçilik etməyə hazır olduğumuzu deyə bilərdik.

***

Birinci kəşfiyyatçı, ikinci partladıcı, sonra beş və ya altı mahir dalğıc, onların arxasınca da ehtiyat üçün başqa bir kəşfiyyatçı gedəcəkdi. İlk hücuma keçəcək üç dalğıc komandası bu formada idi. Bizə dalğıc təlimi keçmiş qardaşların üçü ehtiyat üçün seçildilər. Dalğıc komandalarının rəhbəri öndə hərəkət edən kəşfiyyatçı idi. Hər komanda bir qayıqla hərəkət edirdi və üç qayıq bir batalyonun yolunu açacaqdı.

Ümumi plan belə idi ki, qayıqlar bir-birindən 700-800 metr məsafə ilə təyin olunmuş yerlərə çatacaqdılar. Bu yerlər Seyyidüş-şühəda batalyonunun istiqamətinin sol, sağ və orta cinahları idi. Orada qayıqlar batacaqdılar ki, dalğıclar suyun üzündə qalıb düşmən bəndinə doğru hərəkət etsinlər. Dalğıclar düşmən mövqeyinə çatıb bir ayaq yeri tapan kimi qayıqlardakı şəxsi heyətə işarə verəcəkdilər. Bu canlı qüvvənin hamısı düşmən bəndinin 200 metrliyində gözləyəcək və işarədən sonra döyüşə girəcəkdilər.

***

Diviziya komandirinin beşinci yoldakı əməliyyat qərargahında tikilən səngərin işləri bitmək üzrə idi, lakin ağa Mehdinin o səngərə ehtiyacı yox idi. Onun heç kəsə və heç nəyə ehtiyacı yox idi. Səngərin hazır olmaması onun istirahət anlarını kəşfiyyat komandirinin səngərində keçirməsinə yaxşı bəhanə olmuşdu. Bizim onunla ünsiyyətimiz artmışdı. Uşaqlar ən xüsusi hallarını ona deyirdilər. Onunla əlaqələri o qədər yaxınlaşmışdı ki, hətta onun Həmidin şəhadətindən sonrakı halını soruşmuşdular. Hamı bilirdi ki, o, Həmidin şəhadətindən sonra ailəsinə yalnız bir məktub göndərməklə kifayətlənmişdi. Bu isə onun hər bir döyüşçünün şəhadətindən sonra gördüyü iş idi.

Bir gün səngərdə oturmuşduq. Hamı orada idi: Kərim Hörməti, Seyid Mənsur Furqani, Həmid Allahyari, Xosrovi, Həmid Yusifi, Söhrab Qurbani və mən. Ötən gecəki kəşfiyyat, habelə əməliyyat və planlar haqda danışırdıq.

Birdən onun səsini eşitdik: "Kərim, nə iş görürsüz?" Səngərimizin kiçik pəncərəsindən ağa Mehdinin qərarlı və səmimi üzünü gördük.

Kərim dedi: "Ağa Mehdi, əməliyyat məsələlərini və gecəki kəşfiyyatı araşdırırıq.

– Gecə necə getdiniz, necə qayıtdınız?

– Ağa Mehdi, gəl içəri.

Əlavə təklifə ehtiyac yox idi, onunla həmsöhbət olmağı necə sevdiyimizi bilirdi. Birlikdə oturduq. Müzakirə və araşdırma yenidən başlandı. Bir qədər sonra ağa Mehdi getməyə hazırlaşdı.

– Hara, ağa Mehdi, burada qal və bir az istirahət elə.

Gülümsəyib yenidən oturdu.

***

Namazxana döyüşçülərin sığınacaq yeri idi. Kim gecə namazı qılanların səsindən qorunmaq istəyirdisə, oraya gedirdi. Lakin gecə yarısı oyananda namazxananın qaranlıq künclərində kimlərinsə başlarına çəfiyə atıb Allahla raz-niyaz etdiklərini görmək olurdu. Bir gecə Hüseyn Məhəmmədianla mən həmişəki kimi bir-birimizə yaxın uzanıb danışırdıq. Təsadüfən, uşaqların çoxu yatmışdı və namazxana zülmət qaranlıq idi. Birdən kiminsə namazxanaya bir pişik buraxdığını hiss etdik. Bilirdik ki, növbətçi Məhəmməd Purnəcəfdir və belə işlər ondan çıxar.

– Mehdi, gəl bu pişiyi çığırdaq, sonra da səs-küy salaq ki...

Pişik miyoldaya-miyoldaya namazxanada gəzişirdi. Bizim yanımıza çatanda Hüseyn onu tutdu və birdən qorxunc çığırtısı ucaldı. Gözlənilməz səs idi. Onun ardınca mən də qışqırmağa başladım: "İnsafsızlar! Nə üçün yatmağa qoymursunuz?! Xəcalət də yaxşı şeydir ha..." Dayanmadan danışırdım. Pişiyin səsinə oyanmayanlar mənim səsimə oyandılar.

– Mömin, nə olub? Nə üçün səs-küy salırsınız?

Çox utandım. Namazxananın küncündən ağa Mehdinin səsi gəlirdi. Onun bir qədər öncə namazxanaya gəlib bir küncdə gecə namazına başladığını heç kim görməmişdi.

***

Hurda qələbəlik günü-gündən artırdı. Qayıqlar, onlara minmək üçün istifadə olunan xüsusi estakadalar, müxtəlif silah və avadanlıqlar Məcnun adasına aparılırdı. Canlı qüvvə əməliyyatdan bir gecə öncə adaya gedəcək və onların gizlənməsi üçün qazılmış böyük bir kanalda yerləşəcəkdilər. Qayıq və estakadalar da gizlədiləcəkdi. Hər şey uçuşdan öncəki son anlara bənzəyirdi.

Batalyonlar adaya gəlişləri ilə Hura sevinc və həyəcan qatmışdılar. Həmin gün kəşfiyyat bölüyünə son tapşırıq verildi və biz bir neçə gün öncədən hazırlayıb səngərə qoyduğumuz kauçuk nişanları götürüb Əsğər Abbasquluzadənin başçılığı ilə yola düşdük.

Nişanları təyin olunmuş yerlərə elə qoyduq ki, öncədən bilənlərdən başqa heç kim onları görə bilməzdi. Həssas yerlərə qoyulacaq bəzi nişanları isə

Əsğər ağa bir neçə nəfərlə birgə əməliyyat gecəsi hərəkətdən öncə həll edəcəkdi.

Nəhayət, çox gözlədiyimiz gün gəlib çatdı. Sübh namazı səmavi bir ab-havada qılındı. Həmin gün Əhd duasının da başqa bir həzzi vardı. Həmin gün bizim bəlkə də maddi həyatımızın işlərini görmək üçün son fürsətimiz idi. Namazdan sonra hərə bir tərəfə getdi. Uşaqların bir qismi əşyalarını hazırlamağa başladılar, bir qismi kağız-qələm götürüb son məktub, xatirə və ya vəsiyyətnamələrini yazmaq üçün sakit bir yerə çəkildilər. Bəziləri də Quran və duaya qərq olub Allahla münacat edirdilər. Günorta azanında hamı özünü namazxanaya çatdırdı. Camaat namazı qıldıq. Bəzi simalar səhərdən bəri çox nurani olmuşdu. Onlar namazı göz yaşı ilə bitirib yenidən xəlvətə çəkildilər. Heç kimin başqası ilə işi yox idi. Bəzi uşaqların halı o qədər qeyri-adi idi ki, hətta salamın cavabını işarə ilə verib ötürdülər.

Azanın yaxınlaşdığını müjdələyən Quran səsinə yenə hərə bir tərəfdən özünü kollektivə çatdırdı. Həmin gün Hurun qürub çağı daha darıxdırıcı idi. Uşaqların bir neçəsinin azan səsi ucalmışdı. Kəşfiyyat bölüyünün komandiri bəzilərinin əməliyyatda şəhid olacağını və yerlərinin həmişəlik boş qalacağını düşünüb kameraları işə salmışdı. Gözəl səhnə idi: Bəzi uşaqlar utandıqlarından və ya həmişəki təvazökarlıqlarından kameradan gizlənir, bəziləri isə təbəssüm və zarafatla kamera önünə çıxırdılar.

Namaz əvvəldən sona qədər göz yaşı və həzin zümzümələrlə müşayiət olundu, ağlamaqdan çiyinlər tərpənirdi. Ötən hər bir saniyə bizi yerdən uzaqlaşdırıb Allaha götürürdü. Heç nə qabaqkı kimi deyildi; bəzi üzlərin kədəri, bəzilərinin yaş içində itmiş mehriban gözləri, bəzilərinin ağır sükutları, huşunu itirənlər, uzun səcdələr, islanmış canamazlar...

Namazdan sonra hamımız qardaş Kərim Fəthinin söhbətini gözləyirdik. O, söhbətə başladı və çox tez bir zamanda sözləri xüsusi tərzə düşdü. O, deyirdi: "Batalyondakı döyüşçülər kəşfiyyatçı uşaqlara bir komandir kimi, hətta ondan da üstün baxırlar. Vuruşma zamanı sizin hamıdan öndə olmanız onları qat-qat ruhlandırır... Yaddan çıxarmayın ki, sizin birinci vəzifəniz canlı qüvvəni tapşırılan yerə sağlam çatdırmaqdır. Canlı qüvvə çatandan və vuruşma başlayandan sonra harada daha səmərəli olacağınızı düşünürsünüzsə, özünüzü oraya çatdırın və əlinizdən gələni edin. Harada və hansı halda olsanız, batalyonların uşaqlarına kömək edin... Digərlərinin hərəkətə keçməsi üçün daha böyük cəsarət və fədakarlığın lazım olduğunu gördükdə özünü qurban verməyə hazır olan ilk adam siz olun!"

Daha qardaş Fəthinin səsini eşitmirdik. Utanıb-çəkinmədən sevinc və kədər dolu güclü mənəvi halla hamı ağlayırdı. O, sözləri ilə bizim azadlığımıza icazə vermişdi. Qabaqkı əməliyyatlarda bizə deyilirdi ki, şəxsi heyəti tapşırıq yerinə çatdırandan və onlar döyüşə başlayandan sonra tez geri qayıdın. Bizə həmişə vuruşmadan çəkinməyi tapşırırdılar, çünki bir kəşfiyyatçını itirmək bütün batalyonların ziyanına olurdu. Kəşfiyyat bölüyünün şəhidlərinin yeri asanlıqla

dolmurdu. Biz o günə qədər əldən verdiyimiz şəhidlərin boş yerlərini hiss edirdik. Həmin gecə isə vəziyyət fərqli idi, hər kəsə əlindən gələni etməsi tapşırılırdı. Qardaş Fəthinin sözləri ilə dini vəzifə nöqteyi-nəzərindən də arxayın olduq. Artıq bəndin azad olunması və əməliyyatın daha rahat davam etməsi üçün əlimizdən gələni etməyimiz əmr olunurdu. Onun sözlərinin yaratdığı həyəcan qardaş Abbas Məhəmmədinin yanıqlı səsi ilə pik həddə çatdı. O, çox ürəkdən Quran oxuyurdu: "Ey (öz imanından və Allahın vədindən) xatircəm olan kəs! (“Ey arxayın nəfs!”) Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! (Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol və cənnətimə gir!" ("Fəcr", 27-30) Bu ayə bizi daha da ruhlandırdı.

Qəribə halda idim. Ürəyim istəyirdi ki, gözlərim çoxalsın və bu azad insanların hamısının bəndəliyini görüb yadımda saxlayım. Sinə vurmaq mərasimi başlanmışdı. Hüseyn Əbülqasimzadə mərsiyə oxuyurdu. Daxili çirkləri təmizləmək üçün əllər yuxarı qalxıb sinələrə enirdi. Uşaqlar İmam Hüseynə (ə) və həzrət Zəhraya (ə) təvəssül edirdilər. Əliboş qayıtmayacağımıza hamımız əmin idik. Hamının halı dəyişmişdi; kimin nə sözü və duası var idisə, dili ilə deyirdi. Bəzilərinin halı maraqlı idi. Belələrindən biri Yəqub Şikari idi. O, bir neçə gün öncə məzuniyyət istəmişdi, lakin əməliyyat ərəfəsi olduğuna görə vermirdilər. Nəhayət, çoxlu isrardan sonra icazə alıb getdi, amma bir gün ötmədən geri döndü. Hamımız təəccüblə soruşduq: "Sən o qədər əziyyətlə məzuniyyət aldın, nə oldu ki, bir günə qayıtdın?" Yəqub fəxrlə dedi: "Anam evdə qalmağa qoymadı. Dedi ki, nə üçün qələbədən öncə dönmüsən?! İndi məzuniyyət zamanı deyil!" Yəqub dönmüş, amma başqa bir Yəqub olmuşdu. O, ayaq üstə durub ucadan deyirdi: "Bu axşam şəhadətimizə imza almayınca əl çəkən deyilik. Gərək İmam Hüseyn (ə) bizə şəfaət etsin və şəhid olacağımıza zəmanət versin".

“Döyüşçülər ümidi! Hüseyn, Hüseyn, Hüseyn vay!

Cəbhələrin ümidi! Hüseyn, Hüseyn, Hüseyn vay!”

Əzadarlıq bitmişdi, amma bəzi uşaqlar qurtarmaq bilmirdilər. Onların mənəvi hallarını pozmağa heyfimiz gəlirdi. Yavaş-yavaş hamı qalxdı və hərə bir tərəfə getdi. Mən də Mehdi Davudinin komandasının səngərinə getdim. Hüseyn Məhəmmədian orada idi və mən hər bir fürsətdən istifadə edib ona baş çəkirdim. Sabahkı gün və keçid icazəsi almış şəxslər haqda fikirləşirdim. Səməd Yusifiyə baxır, üzündən yağan bütün məsumluğu görüb ürəyimdə deyirdim: "Məgər bu adam şəhid olmaya bilər?!" Bəhmən Məhbubinin üzünə baxıb öz-özümə deyirdim: "Əgər bu dəfə də şəhid olmasa, buna necə dözəcək?!" Bəhmən Marağadan idi, bölüyün azsaylı ailəli uşaqlarından olsa da, məzuniyyətə az gedirdi. Uşaqların çoxu onun da bizim kimi subay olduğunu düşünürdü. O, bir neçə gün öncə mənə oğlunun dünyaya gəldiyini söylədi: "Allah mənə bir oğul nəsib etdi, adını Mehdi qoydum. Sənin adaşındır".

Bu düşüncələrdə ikən Yəqub Şikari gülə-gülə səngərə girdi. Halı bir neçə dəqiqə öncədən fərqli idi. Dərhal dedi: "Uşaqlar, mən bu axşam istədiyimi aldım, siz nə etdiniz?"

Hamımız ona baxdıq. O qədər rahat və arxayın idi ki, bu gecə onun son gecəsi olduğuna əmin olduq. Təsadüfən, o zaman maqnitofon da açıq idi və Yəqubun səsi kasetə yazıldı.

Bədr Kərbəlası

I

Səhər tezdən qardaş Fəthinin səsi gəldi: "Cəld əşyalarınızı hazırlayıb maşına minin".

Tapşırıqlar öncədən verilmişdi. Bəziləri gedəcək, bəziləri qalacaqdı. Əmrə tabe olub qalanlar gedənlərin hər birini qucaqlayıb öpürdülər. Bəhanə halallıq istəyi idi, əsl dərd isə bu idi ki, getsən, səni həmişəlik itirəcəyəm. Elə buna görə də, hər adamla görüşüb sağollaşmaq dəqiqələrlə uzanırdı.

– Sənin yadından çıxıb, amma mən bilirəm ki, səni incitmişəm. İki ay öncə idi... mən gülürdüm, sən də fikirləşdin ki... indi məni halal etməsən, getmərəm.

– Heç nə xatırlamıram. Axı nə üçün israr edirsən ki, məni narahat etdiyini söyləyim?!

Bu söhbətlər müxtəlif formalarda təkrar olunurdu. Uşaqlar bütün dünyəvi haqq-hesablarını təmizləmək və boyunlarında insan haqqının qalmamasını istəyirdilər. Hər bir adam maşına minəndə qalanların yaşlı gözlərində yeni bir tufan başlayırdı. Zümzümələr şeir oxuyan Abbas Məhəmmədiyə kömək edirdi:

“Xəbər ver, ey Səba, əhli-vilaya,
Gedir döyüşçülər Kərbübəlaya!
Azançı, ver azanı!
Yola sal karivanı!”

Abbas Məhəmmədi gözəl səsi ilə ürəkdən və yanıqlı azan verirdi. Göz yaşı və təbəssüm bir-birinə qarışmışdı. Nəhayət, maşınlar tərpənə bildi. Qədim adət olaraq, səngərlərdə qalanlar arxamızca su tökdülər.

***

Şimali Məcnun adasının içində bir metr yarım enində və iki metr dərinliyində bir kanal qazmışdılar. Növbə ilə onun hər iki tərəfindən qollar ayrılırdı. Batalyonların şəxsi heyəti soyuq fevral gecəsində səhərə qədər orada qalmışdı. Məhəmməd Dövlətinin bölüyünə yaxınlaşdım. Bölüyün dalğıc komandasının bələdçiliyi mənə tapşırılmışdı. Mahmud diviziyanın qədim, cəsarətli və etimadlı döyüşçülərindən idi. Ağa Mehdi onu çox sevirdi. Onun zarafatcıl olması bütün şəxsi heyət tərəfindən sevilməsinə əlavə bir səbəb olmuşdu. Yanağında qəlpə yeri vardı. Mən hər dəfə onu görəndə erkən İslam çağının qəhrəman sərkərdəsi Malik Əjdəri xatırlayırdım.

Mahmud mənə diviziyanın şəhid komandirlərini xatırladırdı. Məni görən kimi bölüyünün taqım komandirlərini çağırıb orada, kanalın içində axırıncı tapşırıqlarını verdi. Mahmud şəxsi heyətin arasında gəzib hamıya təkidlə tapşırırdı ki, silah və əşyalarını yenidən yoxlasınlar. O, taqım komandirlərinə deyirdi: "Gedin, hər bir əsgərə baş çəkin. Bu vəziyyətdə heç kimin çatışmazlığı olmamalıdır".

Kanalda Mahmud Dövlətinin bölüyünün şəxsi heyəti arasında olduğum müddətdə bir neçə nəfərin səmimiliyi və zarafatcıllığı diqqətimi çəkdi. Zarafat həvəsi tutmuş adamlardan biri Əhməd Feri idi. O, deyirdi: "Bəh-bəh! Hamınız şəhid olacaqsınız, sonra mən özüm bölük komandiri olacağam!" Kimə gəldi, söz atır, hamıdan çox İsmayıl Rismaniyə sataşırdı: "Sən keçəlsən, cənazən suya düşəndə ayağımı başına basacağam ki, başının işığı bizi ələ verməsin". İsmayıl da cavabsız qalmırdı: "İxtiyar sahibisən! Amma əvvəlcə özünü göndərəcəyik ki, yolu səhv getmədiyinə əmin olaq..."

***

– Ya Əli! Sıra ilə hərəkət edin.

Bəzisi maşınla, bəzisi də piyada və sıra ilə altıncı yola doğru yola düşdülər. Estakada hazır idi və qayıqlar bizi gözləyirdi. Özümü altıncı yoldakı müşahidə postuna çatdırdım. Kəşfiyyat bölüyünün uşaqları son olaraq, oraya toplaşmışdılar: Mənsur Furqani, Kərim Hörməti, Söhrab Qurbani, Həmid Allahyari, Səməd Yusifi, Əlirza Söhrab Direxşi, Davud Xosrovi, Həsən Ləkləri və bir neçə hövzə tələbəsi. Canlı qüvvə o ətrafdan getmişdi və yavaş-yavaş sükut bizi qucağına alırdı. Heç kim danışmırdı. Bir-bir bütün uşaqlara baxdıqdan sonra qayığa minib estakadaya getdik. Estakada körpü parçalarından ibarət idi, 5-10 metr məsafə ilə iki cərgədə yan-yana düzülmüşdü. Seyyidüş-şühəda batalyonu ön cərgədə, İmam Hüseyn (ə) batalyonu da arxa cərgədə oturmuşdu. Bu iki estakadanın arasında qamışla örtülmüş körpülər vardı. Bu körpülərin hər iki tərəfində şəxsi heyəti aparacaq qayıqlar xüsusi sıra ilə gizlədilmişdi.

Günorta saat üç idi. Ətrafıma baxdım. Seyyidüş-şühəda batalyonunun komandiri Cəmşid Nəzmi bir tərəfdə şəxsi heyətlə danışırdı: "Əgər mən şəhid olsam, batalyonun başçısı Mahmud Dövlətidir". Mahmud ayağa qalxdı. Cəsur qamətini görəndə ixtiyarsız olaraq, ürəyimdən keçdi ki, həqiqətən də şəhadətə layiqdir.

– Hamınız yaxşı gördünüz. Əgər mənim və müavinlərimin başına bir iş gəlsə, batalyonun başçısı Mahmuddur.

Bir tərəfdə də Əsğər Qəssab şəxsi heyəti arasında gəzişib danışırdı. Uşaqların əhval-ruhiyyəsi qəribə idi. Halallıq alma, sağollaşma, zarafat, təkliyə çəkilmə, təbəssüm, göz yaşı və sükut səhnələrini ilk hücuma keçəcək batalyonların şəxsi heyətində də görürdüm. Bir anlığa ilk dəfə cəbhəyə gəldiyim günü xatırladım. Avtobusa minik sırasında narahat halda ətrafıma baxırdım ki, kimsə məni qaytarmağa gəlməsin. İndi orada gizlicə özünü estakadaya çatdırmış və nəyin bahasına olursa-olsun, irəli getmək istəyən adamları görürdüm. Eşitdim ki, keçən gecə onların bir qismi əməliyyatda iştirak etmək üçün gecənin qaranlığından istifadə edib kilometrlərlə arxadan gəlmişlər. İmam Hüseynin (ə) qəribliyini və tənhalığını xatırlayır, əsrlər sonra ardıcıllarının onun Kərbəlasından azadlıq dərsi öyrənib ölüm üçün bir-birindən necə önə keçdiklərini görürdüm. Birdən gözüm bir döyüşçünün tanış üzündə

donub qaldı. Əli Təcəllayi idi. Onun barəsində görüb-eşitdiklərimin hamısı sürətlə beynimdən keçdi. O, Süsəngirdi süqutdan xilas edən azərbaycanlı döyüşçülərin ilk komandiri idi. Fəthülmübin əməliyyatına ezam olunan və mənim də olduğum şəxsi heyətə o, başçılıq etmişdi. Fəthülmübindən qayıdanda Təbrizin dəmiryol vağzalında gül çələngləri arasında çəkilmiş şəkli hələ də albomumda idi. Onun Xasibandakı ağır təlimlərini və Dafus adlı komandirlik kurslarını keçmiş azsaylı komandirlərdən olduğunu eşitmişdim.

Əməliyyatda iştirak etmək üçün gizli şəkildə gəlmiş tanış simalardan biri də Əbülhəsən Ali-İshaq idi. Bir neçə gün öncə üçüncü yolda bölüyün qərargahına naməlum bir adam gəlmişdi və israrla hamımızın qablarını aparıb yuyurdu. Biz də arxasınca onu tərifləyirdik: "Kimliyini bilmirik, amma yaxşı adamdır, çox ixlasla çalışır". Həmin yaxşı adam Ali-İshaq idi, Təbriz Sepahının ilk komandirlərindən biri! O günlərdə biz onun necə eşqlə özünü oraya çatdırdığını bilmirdik. O, ağa Mehdiyə uzun məktub yazıb çox israrla önə keçməsinə icazə alıbmış. Ağa Mehdi cavab verib ki, yalnız kəşfiyyat bölüyünün qərargahına qədər gedə bilərsən. Orada qardaş Fəthinin yanında qalmalısan, ondan önə keçməyə haqqın yoxdur..."

Gözüm Əsğər Qəssabı, Qasim Herisini və Əli Təcəllayinin qardaşı Məhəmmədi axtarırdı. Məxfi şəkildə oraya gələnlərin halını dərk edirdim. Estakada başqa bir aləm olmuşdu. Namaz qılmaq üçün onun üstündə çiyin-çiyinə dayandıq və dərhal yola düşdük.

Ustad Cəfərinin[1] imamlığı ilə camaat namazı qılındı. Uşaqların halları möhtəşəm idi. Bu halı yalnız bir neçə saatdan sonra bu torpaq keçiddən ən gözəl şəkildə xilas olacaqlarını bilənlər təcrübə etmişlər. Mən bu gözəl hissi ikinci dəfə idi yaşayırdım. Bütün əməliyyatlar öncəsi bu hiss qəlbimə dolurdu. Hüseynlə və bölüyün digər uşaqları ilə sağollaşmışdım. Onlar İmam Hüseyn (ə) batalyonunun şəxsi heyətinə bələdçilik edəcəkdilər. Gözlər bir yerdə durmurdu. Hərəkət zamanı gəlmişdi. Döyüşçülər dalğıc paltarlarını geyinmək üçün cəld bir tərəfə çəkildilər. Mən də paltarımı geyinib hazır oldum. Dalğıc geyinmiş 15-16 yaşlı yeniyetmələri görəndə ürəyim yanır və öz-özümə deyirdim: "Axı bu uşaq bu zəif cüssəsi və az yaşı ilə hansı cürətlə düşmənə hücum etmək istəyir?!"

II

Qayıqların üstünə tökdüyümüz qamışları kənara çəkdik və dalğıclar digərlərinin həsrətli baxışlarının müşayiəti ilə bir-bir qayıqlara mindilər. Az yaşlarından və zəif bədənlərindən dolayı qorxduğum uşaqların arxayın üzləri

[1] Höccətülislam Cəfərzadə Xalxal rayonundan cəbhəyə gəlmiş yaşlı ruhani idi. O, diviziyada Ustad Cəfəri adı ilə məşhur olmuşdu, döyüşçülərin əhval-ruhiyyəsinə müsbət təsir edirdi. Mən onu Xeybərdən öncə diviziyada görmüşdüm. Nəhayət, Vəlfəcr-8 əməliyyatında şəhadətə qovuşdu.

məni utandırırdı. O əsnada bütün səslərdən seçilən bir qayığın səsi diqqətimi cəlb etdi. Ağa Mehdinin motorlu qayığı idi. O, tək idi və qayığı özü idarə edirdi. “İlahi! Ağa Mehdi nə üçün belə olub?!”

Bir an sakit durmurdu. Bəzən təkbaşına, bəzən də hansısa iş üçün qayığına minən bir-iki nəfərlə birgə estakadanın ətrafını gəzirdi. Dalğıcların özünə, qayıqlara və suya baxır, sonra qayığı ilə arxa tərəf gedirdi. O, qayığı sürətlə arxın iki tərəfindəki qamışlıqlara doğru sürürdü. Bunu dəfələrlə təkrarlayırdı ki, güclü qayığı yolu enləşdirsin və digər qayıqların hərəkəti asanlaşsın. Birdən qəlbim sındı, o su, o qamışlıq və hər şey nədənsə mənə Aşura gününü və Kərbəla çölünü xatırlatdı; Aşura imamı xəncərlə çölün tikanlarını təmizləyir ki, sabah qızlarının ayağına az tikan batsın... Boğazımı qəhər tutmuşdu: “Görəsən, ağa Mehdi də... Yox! Məgər bu, mümkündür?! Biz onsuz nə edərik?!”

Çox çalışırdım ki, hər şeyi unudub yalnız üzərimə düşən iş haqda düşünüm, amma olmurdu. Ağa Mehdini və ya uşaqların hər hansı birini hər dəfə görəndə yenidən ürəyimdə tufan qopurdu. Çox tez yola düşməyimizi istəyirdim.

Nəhayət, ilk qayıq yola düşdü. Kərim Hörməti o qayıqda idi və bütün dalğıcları tapşırıq yerinə çatdırmaq onun üzərinə düşürdü. Onun arxasınca mən gedirdim və bizim arxamızca da hər biri bir qayığa minmiş iki dalğıc komandası. Qayığın sürətini artırıb Kərimə çatdım. Yavaş-yavaş Mutə arxına yaxınlaşırdıq. Kərim sonuncu dəfə lazımi tapşırıqlarını təkrarlayır, mən də diqqətlə qulaq asırdım.

Günəşin qürubu “Hur əl-Hüveyzə” sularına xüsusi gözəllik vermişdi. Ağa Mehdinin qayığı qarşı tərəfdən gəlirdi. Bizə çatanda sakitcə bir tərəfdə dayanıb Kərimi çağırdı: "Kərim, bura gəl". Kərimin qayığı ağa Mehdinin qayığına yaxınlaşdı.

– Kərim, yola düşürsünüz?

– Bəli, ağa Mehdi, Allaha ümidlə.

– "La ilahə illəllah”, "Subhanəllah" və "Əlhəmdu lillah" zikrləri yadınızdan çıxmasın. Daha uşaqları tapşırmıram.

Bizim qayığımız yavaşca onların yanından ötdü. Külək ağa Mehdinin uşaqlardan nigaran qalan tanış səsini qulağıma çatdırırdı. Arxamca qayıq kolonu hərəkət edirdi. Hamı ağa Mehdinin önündən keçirdi. Ürəyim istəyirdi ki, bir bəhanə ilə orada qalım və onların bir-birinə necə baxdıqlarını, bir-birinin yanından necə keçdiklərini görüm. Hərdən başımı çevirib arxaya baxır və getdikcə kiçilən qayığı görürdüm. Nəhayət, gözümdən itdi, amma bilirdim ki, o, hələ oradadır və diviziyasının ilk hücuma keçəcək iki batalyonunun bütün heyətini yola salana qədər orada qalacaq.

Saat beş idi. Səmaya baxdım, qürubun qızartısının Hurun üstünə yayıldığı yerə. Narahat idim. Onlarla fikir və sual xora kimi canıma düşmüşdü: "Əgər bir helikopter başımızın üstünü alsa, bu qədər qayıq harada gizlənəcək? Əgər düşmən duyuq düşmüş və bir az öndə pusqu qurmuşsa, necə olacaq? Əgər..."

“Vəcəəlna" ayəsini oxudum. Bilirdim ki, bütün kəşfiyyatçılar belə narahatdırlar. Fikirləşirdim ki, mənim böyük cihadım bu qorxulara qalib gəlmək, bizi buraya qədər gətirmiş Allahın daha irəliyə aparacağına da inanmaqdır.

Mutə arxı İmam Hüseyn (ə) və Seyyidüş-şühəda batalyonlarının Fəth üçyoluna qədərki müştərək yolu idi. İmam Hüseyn (ə) batalyonunun şəxsi heyəti orada bizdən ayrılıb Fəth yoluna girəcək, bizsə yenə Mutə ilə irəliləyib Zeydə çatacaq və oradan hücuma keçəcəkdik. Hələ üçyola çatmamış helikopter səsinə diksindim. Səs get-gedə yaxınlaşırdı.

– Qamışlıqlara girin! Ya Allah! Tələsin!

Bütün qayıqlar bir anda qamışlığın içində itdi. Orada sakitcə yoldaşlarımın üzünə baxdım. Üç qayıq yan-yana dayanmışdıq və uşaqları nəzərdən keçirmək üçün yaxşı fürsət yaranmışdı. Mehdi Qaytançı yanaşı qayıqda idi.

Dalğıc geyiminin bəndini aşağı çəkdi, qollarını çıxarıb Hurun suyu ilə dəstəmaz almağa başladı. Martın onunun günbatan çağının soyuq havasında bədəni üşümürdü. O, dəstəmaz alır, mən də ona baxırdım. Yaşı uzaqbaşı 16 olardı, amma bədəni əzələli və güclü idi. Ona qibtə edib şəhidliyin ona yaraşdığını düşünürdüm.

– Mehdi, elə bil, bu gecə səni də xərcləməli olacağıq!

Başını qaldırıb təbəssüm etdi.

Öz komandama baxdım. Əhməd Yusifi gözümü çox tutmuşdu. O, Mehdi Qaytançıdan da kiçik idi; həm yaş, həm də cüssə baxımından. Düşünürdüm ki, belə yaşı və boy-buxunu ilə cəbhəyə gəldiyinə, üstəlik, dalğıc və ilk hücumçu olduğuna görə çox zirək uşaqdır. Elə də həyəcanlı görünmürdü. Düşünürdüm ki, kəşfiyyat işinə çox yarayan cəsarətli, ürəkli uşaqlardandır. Fikirləşirdim ki, gələcəkdə ondan daha çox istifadə etməliyik. Komanda üzvlərindən başqa birisi Əlirza Söhrab Dirəxşi idi. Çox fikirli idi və nə haqda düşündüyünü təxmin etmək olmurdu. Təxminən on beş dəqiqə qamışlığın içində gizləndik. Helikopter getmişdi və hava günəşin batdığını göstərirdi. Fikirləşdim ki, üçyola çatanda dayanmadan hərənin öz yolu ilə getməsi üçün namazımızı orada qılsaq, yaxşıdır. Hamı namaza hazırlaşdı. Dalğıc paltarını geyinməzdən öncə dəstəmaz almış olsaq da, dəstəmazımızı təzələdik. O namazın və o dəstəmazın başqa ləzzəti vardı. Yalnız Allah üçün, dünyadan və dünyəvi bağlardan uzaq idi... Döyüşdən bir neçə saat öncə Hurun qaranlığında... Allah bilirdi ki, bir neçə saatdan sonra hansımız qana boyanacaqdıq...

***

Kərim Hörməti hərəkət əmri verdi. Hər qayığın sonuncu adamı özündən arxadakı qayığın birinci adamına bu mesajı ötürdü: "Hərəkətə hazır olun!" Qamışlığın arasından çıxdıq və bir neçə dəqiqədən sonra üçyola çatdıq. İmam Hüseyn (ə) batalyonunun uşaqları Fəth yoluna döndülər, biz də Mutədə yolumuzu davam etdirdik. Səma get-gedə qaralırdı. Qəribə hisslər keçirirdim. Hər yer zülmət qaranlıq olsa, hətta ay görünməsə də, xüsusi aydınlıq duyur,

özümü hər şeyi görməyə qadir hiss edirdim. Düşmənin bəndinə çatanda öz dəstək qüvvələrimizdən 6 km. aralanmış olacaqdıq. Orada nəsə baş versəydi, Allahdan başqa köməyimiz olmayacaqdı. Özümü Allaha həmişəkindən də çox möhtac hiss edirdim. Qayıq sakitcə və yavaş-yavaş irəliləyirdi. İnkişaf etmək üçün münasib zamanın gəldiyinə əmin olurdum. Yüzillik bir yolun bir gecə qədərincə qısaldığı zamanlardan idi.

Eşitmişdim ki, şəhidin ilk qanı yerə tökülməndə bütün günahları bağışlanır. Orada isə düşünürdüm ki, bu uşaqların hətta bir damla qanları tökülmədən də bağışlanmışlar.

Hamımız yorğunluqdan ləhləyirdik. Avarlar suya batıb-çıxırdı. Sanki hansı işdən ötrü getdiyimi, harada və nə etməli olduğumu unudub Allahdan nazil olmuş əzəmətə qərq olmuşdum. Tezliklə Zeyd və Mutə yolayrıcına çatdıq. Orada qayıqlar iki dəstəyə bölünməli, hərəsi öz tapşırıq yerlərinə getməli idilər. O haldan çıxmaq, qayıqların bir-bir ayrıldığını görmək istəmirdim. Bölgəyə mütləq sükut hakim idi. Sanki aləmlərin Rəbbi dünyanın bütün zərrələrinə əmr etmişdi ki, sakit olun və Mənim bəndələrimə baxın. Mart küləyinin və qamışların, dalğa, qurbağa və quşların, hərdən avarın ucundan daman damcıların səsi - hamısı heç idi, yalnız biz vardıq və suyu yararaq vəzifəmizi yerinə yetirməyə gedirdik. Hər şey o qədər sakit idi ki, yuxuda olduğumu düşünürdüm. Sanki başqa bir aləmə daxil olmuşdum; elə bir aləm ki, insan orada özünün Allah nümayəndəsi olduğunu dərk edib.

Zeyd yoluna çatmışdıq. Oradan düşmən bəndinə üç yol gedirdi. Onların adlarını Zeyd-1, Zeyd-2 və Zeyd-3 qoymuşduq. Düşmənin pusqusuna hücum edəcək döyüşçülər Zeyd-2-dən gedib bizdən ayrıldılar. O komandanın kəşfiyyatçısı Söhrab Qurbani idi, bütün komandanın komandiri isə Musa Muxtari. Musa Seylabdan qara oğlan idi, çox yaxşı futbol oynayırdı. Orada düşündüm ki, mən bu uşaqlar haqda nə qədər az bilirəm; bəlkə bir neçə saatdan sonra bizdən çox uzaqlaşacaqlar və onları tanımaq qeyri-mümkün olacaq. Onlar Zeyd-2-yə döndülər, biz də bir neçə saniyədən sonra Zeyd-3-ə girəcəkdik.

Uşaqların baxışı üzümə ağırlıq edirdi, hamısını sağ-salamat bəndə çatdırmaq istəyirdim. Bilirdim ki, bizdən 500 metr arxada bütün Seyyidüş-şühəda batalyonu döyüşün başlanmasını və bizim işarəmizi gözləyirlər. Ayrılıq zamanı gəlmişdi. İşarə ilə uşaqlara bildirdim ki, hərə öz istiqamətinə getsin. Gözlərim Kərim Hörmətinin baxışına sataşdı. Sanki bizdən ayrılmaq istəmirdi. Nigaran idi. Qayığı bizə tərəf sürdü, amma heç nə demədi. Baxışla sağollaşdıq və biz bəndə sarı irəliləməyə başladıq. Kərim orada dayanmışdı və arxadan bizə baxırdı. Bəndin üstündəki nişanlar önümüzdə idi. Onların arasında 200-400 metr məsafə vardı. Yəni hər qayıq düşmənin təmas xəttinin bir neçə yüz metrliyində idi. Məntiqli deyildi; düşmənin 3 kilometrlik cəbhəsi beş qayıq döyüşçü tərəfindən ələ keçirilməli idi. Düşmən isə istehkamını təzəlikcə gücləndirmişdi.

Texnika, qərargah, səngər – hər şeyin yerini havadan çəkilmiş fotolarda görmüşdük. Yerinə yetirməli olduğumuz böyük iş haqda düşünürdüm. İraq ordusunun üçüncü korpusunun qüdrətli və istedadlı komandanı Mahir Əbdürrəşid 10-15 qayıq döyüşçü tərəfindən əsir tutulmalı idi.

– Uşaqlar, yavaş-yavaş qayığın ağzını əyin ki, içinə su dolsun.

Çox çəkmədən qayıq suya batdı və biz öz-özünə suyun üzündə qaldıq. "İlahi, Özün şahid ol ki, daha ayağımızın altındakı qayıq da yoxdur və bu dünya ilə yeganə bağımızı da batırdıq..." Qollarımı uşaqlara uzatdım və dairəvi toplaşdıq.

- İpi saxlayın ki, bir-birimizdən ayrılmayaq. Mən sürətimi artıranda siz də tez gəlin. Çatanda bəndə çıxacağıq. Əhməd, sən sol tərəfdəki səngərə getməlisən! Əlirza və Tohid, siz ikiniz qarşıdakı səngərə gedəcəksiniz. Hücuma keçəndən sonra nəyin bahasına olursa-olsun, hətta yaralı olsaq da, batalyonun xətti yaran döyüşçülərinə keçid açmalıyıq.

Səsim dairənin içində yavaşca yayılırdı. Götürdüyüm ipi açdım və hamımız ondan yapışdıq. Hərəkət başlandı. Daha nə suyun soyuqluğu, nə bəndin önündəki tikanlı məftillərin fikri, nə görünüb bir atəşlə həmişəlik suda qalmaq təhlükəsi - bunların heç biri haqda fikirləşmirdim. Bütün diqqətim irəliləməyə, düşmənin bəndinə keçmək üçün ayaq yeri tapıb işarə verməyə yönəlmişdi.

– Dayan!

Bəndə 20 metr qalmış tikanlı məftilə ilişdim. Suyun dərinliyi təxminən 130 sm. idi və mən artıq yeriyirdim. Əlirza və Əhməd isə arxamca ayaqlarını çalır və qurbağa hərəkəti kimi səssizcə suyun altı ilə gəlirdilər. Tikanlı məftil haqda düşünməmişdim. Bəndə çatmağa çox tələsirdim. Elə bilirdim ki, tikanlı məftil yalnız bir sıradır və o da suyun üzərinə çəkilib. Hələ bir iş görməmiş birdən güclü atəş səsi ilə bölgənin sükutu pozuldu. Bizim sağ tərəfimizdə, əl-Mehdi briqadası istiqamətində vuruşma tez başlanmışdı. Oradan RPG raketi atılandan sonra düşmənin onları gördüyünə əmin oldum. Bizim tərəfdə kor atışmalar olurdusa, orada vuruşma rəsmən başlamışdı. Dayanmaq olmazdı. Hələ bizim qarşımızdakı səngər reaksiya verməmişdi, tikanlı məftillərdən keçmək üçün fürsət vardı. Partladıcı döyüşçüyə dedim: "Mən tikanlı məftili kəsmək üçün suyun altından gedirəm, sən də arxamca gəl".

Suyun altına girəndə önümdə tikanlı məftildən bir divar gördüm. Tez həmin döyüşçünü aşağı çəkdim. O, məsələni anladı və tikanlı məftilləri kəsdi. Oradan keçib bütün məftil cərgəsini kəsdim. Orada bir fosfor bağlayıb bəndə doğru hərəkətimi sürətləndirdim.

Sağ tərəfdə vuruşma get-gedə şiddətlənirdi.

– Nə üçün önümüzdəki səngərlər heç bir şey etmirlər?

Vuruşmanın başlanmasına rəğmən, Allahın lütfündən, düşmən hələ əməliyyatdan duyuq düşməmişdi. Hər nə idisə, xeyrimizə idi və biz bəndə doğru gedirdik. Suyun dərinliyindən asılı olaraq, hərdən sürüşürdük, hərdən dördəlli yeriyirdik. Bəndə çatdıq. Səngərləri son dəfə müəyyən etmək

istəyəndə arxamdan bir səs eşitdim. İnana bilmirdim; tikanlı məftili kəsib fosfor qoyduğum yerdən bir qayıq gəlirdi. Mən qayığı görürdüm, amma düşmən keşikçisi hələ görmürdü.

– Əlirza, sən o tərəfə get. Siz ikiniz də onlarla gedin.

Altı nəfər idik; iki nəfər Əlirza ilə getdi, ikisi də mənimlə. Bir əl qumbarası çəkib səngərə atdım. Səngərin partlaması ilə eyni zamanda qayıq da sahilə çatdı. Qayıqdan bəndə doğru qaçan uşaqların təkbir səsləri ucaldı. Əlirzanın qaçdığı o biri səngər güclü atəş açırdı. Uzaqdan Əlirzanını yıxıldığını gördüm. Qayıqdan düşən uşaqların biri dərhal minomyotla səngəri göyə uçurdu. İki səngəri ələ keçirməklə düşmən bəndinin təxminən 60 metri əlimizdə idi. Gözlərim önündə sürətlə bir-birindən maraqlı hadisələr baş verirdi. Düşmənin bir SUV avtomobili bəndin üstündə sürətlə gedirdi. Döyüşçülərimizin biri dizi üstə oturub RPG raketini atdı. Avtomobil yandı və içindən iki nəfər özünü bayıra atdı. Bir neçə metr öndə uşaqların güllələri onları yerə sərdi. Qayıqlar bir-bir gəlir, bəndin üstündə tanış üzlər get-gedə çoxalırdı. Düşmən qorxmuşdu və gözlədiyimizin əksinə olaraq, müqavimət göstərmirdi. İlk dəfə idi ki, düşmən mövqelərinin belə asanlıqla süqut etdiyini görürdüm.

Bəndin ələ keçirildiyindən arxayın olandan sonra düşmənin içinə doğru bir yol tapmağın ən vacib məsələ olduğunu düşündüm. Məhəmmədrza Bazqoşanın[1] komandirlik etdiyi Əli-Əkbər batalyonu oradan düşmən bölgəsinə girib əməliyyatı davam etdirməli idi. Mən yolu tapa bilsəydim, onlar gecikməyib tez hərəkət edəcəkdilər. Bənd boyunca Rutə çayına doğru yola düşdüm və asanlıqla yolu tapdım. Düşmən bəndindən başlayan yol qərbə, Dəclə çayına gedirdi.

Yolun Dəcləyə getdiyini xəritədən bilirdim. Əhməd Yusifini və batalyonun üç-dörd döyüşçüsünü çağırıb dedim: "Bu yolla 100-200 metr irəliləyin, diqqətli olun ki, yolda səngər qalmasın. Əgər bacarsanız, Əli-Əkbər batalyonu gələnə qədər yolu saxlayın. Onlar gələndən sonra qayıda bilərsiniz".

Onlar getdilər və mən döyüş yerinə qayıtdım.

Əli-Əkbər batalyonu da gəlmişdi. Kolonun önündə batalyonun kəşfiyyatçıları olan Mənsur Furqanini, Həmid Allahyarini və Həmid Qəleyini gördüm. Əli-Əkbər batalyonu onların arxasında, qəhrəman komandir müavini Əlirza Cəbəli[2] də orada idi. Hamısı xüsusi hadisə və döyüş olmadan sağ-salamat bəndə çatmışdı. Bizim çatdığımız zamandan 15-20 dəqiqə ötürdü. Mənsur Furqani məni görən kimi soruşdu: "Yol hanı? Tapa bildin?"

– Bəli, ağa Mənsur, irəlidədir.

Onlarla getdim. Yolu göstərib dedim: "Uşaqların bir neçəsini göndərmişəm ki, yolu saxlasınlar. Diqqətli olun, bizimkilərdir". Onlar yolla bölgəyə doğru

[1] Bir neçə gündən sonra həmin bölgədə başından qəlpə yarası aldı və beyni zədələndiyinə görə bir də cəbhədə iştirak edə bilməyib müqəddəs müdafiənin dözümlü əlillərindən oldu.

[2] O, Bədr əməliyyatında qəhrəmancasına vuruşduqdan sonra canını cananına təqdim etdi.

hərəkət etdilər. Bir neçə dəqiqədən sonra yolu saxlayanlar geri döndülər. Mövqe get-gedə sakitləşirdi. Gəzə-gəzə gördüyüm hər döyüşçüdən halını soruşurdum. Birdən bir nəfər dedi: "Sizin bir komandiriniz vardı..."

– Hansı komandir?

– Deyəsən, adı Kərim Hörməti idi.

– Bəli.

– Şəhid oldu.

İnanmadım. Bu asanlığa gedə bilməzdi. Ondan xəbər öyrənmək üçün qaçdım. Bəndin üstündə olduğunu bilirdim. Narahatlığımdan bağrım yarılırdı: "Haradasan, Kərim?" sualı boğazımda qaldı və bayıra çıxmadı. Nəhayət, onu tapdım. Başdan-ayağa qanın içində yerə yıxılmışdı. Onun şəhid olduğuna inana bilmirdim. Yaxınlaşıb qorxa-qorxa onu çağırdım. Mənə cavab verməyəcəyindən qorxurdum: "Kərim... Kərim..."

– Hə, nədir? Nə deyirsən?

Yorğunluqdan hərəkət etməyə taqəti yox idi. Uşaqları yuxarı çatdırmış, özü orada uzanmışdı. Heç elə bil, bir neçə addımlığında döyüş getmirdi. Qaranlıqda yaş paltarı mənə qanlı görünmüşdü.

– Heç nə, nigaran qaldım. Elə bildim, qəlpə dəyib.

Kərimdən arxayın olandan sonra yaralıları yerləşdirmək üçün bir səngər axtarmağa başladım. Hüseyn Kərbəlayi[1] mənim də qatıldığım bölüyün komandiri idi. Köməkləşib bir səngər tapdıq və yaralıları oraya apardıq. Fikirləşdim ki, bəlkə bəndin əvvəlində, sudan çıxdığımız yerdə yaralı var. Ora getdim. Əlirza Söhrab Dirəxşi və Mehdi Qaytançı yan-yana qan içində yatmışdılar. Əməliyyatın ilk dəqiqələrində şəhid olmaları ürəyimi yandırdı. İtməsinlər deyə, bəndin əvvəlində və suda olan şəhid cənazələrini uşaqların köməyi ilə təhlükəsiz bir yerə daşıdıq. Bənd sakit görünürdü. Düşmən mühasirəyə düşmüşdü və hələ bəndin üstündə atəş yağışından xəbər yox idi. Mənim vəzifəm bölük komandirinə kömək etmək idi. Onu tapıb dedim: "Kərbəlayi qardaş, Mahmud dövlətinin heyətindən bir xəbər varmı?"

– Mehdiqulu, tamam yadımdan çıxıb, get, gör nə edə bilərsən?

– Yaxşı, siz işinizdə olun, mən görüm bölüyünüzün axırıncı heyəti haradadır?

Getməzdən öncə ratsiya ilə Mahmud Dövləti ilə danışdım. Qərara gəldik ki, onlar da bir adamı göndərsinlər və bölüklərinin son əsgərini də tapıb bizə doğru gəlsin. Yola düşəndə Raşid Xakpakini gördüm. O, Seyyidüş-şühəda batalyonunun daimi döyüşçülərindən idi. Böyük ruhu kiçik yaşına uyğun gəlməyən mehriban oğlan idi. Çoxdan cəbhədə idi. Əməliyyatdan öncə onu çox narahat görmüşdüm. Raşid də getməyə hazır olduğunu düşündüyüm döyüşçülərdən idi.

– Raşid, qalx gedək.

[1] O da Bədr Kərbəlasında şəhadətə qovuşdu.

Bizə iki-üç nəfər də qoşuldu və bənd boyunca yola düşdük. Hüseyn Kərbəlayinin bölüyünün sonuncu adamından təxminən 50 metr uzaqlaşmışdıq ki, canıma qorxu düşdü. Orada heç kim yox idi!

– Bəlkə burada heç bir iş görülməyib və biz üç-dörd nəfər düşmənin içinə gedirik?

Təxminən 10 metr də irəliləyəndən sonra bəndin üstündən ərəbcə danışıq səsi eşitdim. Yoldaşlarıma ehtiyatlı olmalarını tapşırıb səsə doğru getdim. Hələ nə edəcəyimə qərar vermədən birdən düz yanımdan bir minomyot keçdi.

Uşaqlar həmin istiqamətə atəş açdılar. Bəndin o tərəfində iraqlılar yerləşmişdilər, bu tərəfində biz. Bəndin üstündəki yolun eni 3-4 metr idi. Yəni bizim düşmənlə məsafəmiz bu qədər az idi. Güclü döyüşə başladıq. Ətrafıma bir göz atmaqla bir neçə şəhid cənazəsini gördüm. Təxmin etdim ki, bizim vuruşduğumuz tərəfdəki iraqlılar iki bölük tərəfindən təmizlənmiş düşmənlərdir. Onlar iki bölüyün ortasına toplaşıb özlərinə mövqe seçmişdilər.

Raşidə dedim: "Tez get, Hüseyn Kərbəlayiyə xəbər ver. Mahmud Dövləti ilə də əlaqəyə girin. Deyin ki, onlar da o tərəfdən bir neçə nəfər göndərsinlər. Gərək köməkləşib bunların bizə problem yaratmasına imkan verməyək".

Raşid getdi. Güclü atışma davam edirdi. Tezliklə bildik ki, o tərəfdən də uşaqlar gəlmişlər və atəş açırlar. İki cinahdan təzyiq artdıqca onların müqaviməti də şiddətlənirdi. Fikirləşirdim ki, sayları 50, ya da bir qədər artıq olar. Hər halda, bizi orada saxlamışdılar və hələ ki iki bölüyün birləşməsi mümkün olmamışdı. Onların arasında Ərbildən və ya Kərkükdən də döyüşçülərin olacağını ehtimal edib azəricə qışqırdım: "Əgər səhərəcən müqavimət göstərsəniz, səhər birinizə də rəhm etməyəcəyik. Yaxşısı budur indidən təslim olasınız".

Səsimi eşidib-eşitmədiklərini bilmirəm, amma müqavimətlərinə təsir etmədi. Səma get-gedə işıqlanırdı. Mahmudun uşaqları ilə əlaqəyə girdim: "Atəşimizi gücləndiririk. Uşaqların bir qismini bəndin o tərəfinə göndərin, biz də göndəririk". Bu iş baş tutdu və çox tez bəhrəsini verdi. İraqlılar sağ-soldan atəşə məruz qaldıqdan sonra duruş gətirməyib bir anda geriyə qaçmağa başladılar. Biz də var qüvvəmizlə onlara doğru atəş açdıq. Orada qalanların bir qismi əsir düşdü, iki-üç nəfərdən başqa qalanı da həlak oldu. Əsirlər Kərbəlanın şəklini bizə göstərib şiə olduqlarını deyirdilər. Mənim uşaqlardan seçildiyimi görüb tez-tez üz-başımı öpürdülər. Dünyanın ən çirkin varlıqlarının sağ qalmaqdan ötrü məni öpdüklərini hiss edirdim. Onlar bir neçə dəqiqə öncəyə qədər mənə və döyüş yoldaşlarıma son güllələrini də atmışdılar. Şəhidlərin - Mehdinin, Əlirzanın və adlarını bilmədiyim çoxlarının isti qanı hələ yerdə, üzləri isə bütün şəhidlər kimi məsum idi.

Əsirləri batalyon komandirinin yanına göndərdim və uşaqlara dedim: "Qardaş Cəmşid Nəzmini tapıb bunları təhvil verin".

Bənd "Bəəs"[1] qüvvələrinin murdar tapdağından təmizlənmiş, bizimkilər ikinci mövqeyi də ələ keçirmişdilər. Yanımda bir dəstə oturub namaz qılırdı. Sudan çıxandan səhərə qədər dayanmadan yol getmiş və ya vuruşmuşduq. Hərəkətdə olanda soyuğu çox hiss etmirdim, amma dayanan kimi səhərin qılınc tək kəsən küləyi iliyimə işləyirdi. Soyuqdan titrəyirdim. Vəziyyət qeyri-sabit idi və dalğıc paltarını çıxarıb dəstəmaz almağa fürsət yox idi. Orada bəndin üzərində təyəmmüm etdim və ayaq üstə namaz qılmağa yer tapmaq üçün aşağı endim. Dayandım, amma nə qədər çalışdımsa, titrəməyə bilmədim. Namazı bitirənə qədər soyuqdan əsdim. Salamı deyib ayağa qalxdım. Bir tərəfdən İmam Hüseyn (ə) batalyonunun eşqi başıma vurmuşdu, digər tərəfdən də orada xüsusi bir vəzifəm yox idi.

Gedib əziz dostum Hüseyn Məhəmmədianı tapmaq istəyirdim. Yola düşdüm. Yolda gözüm dost-aşna axtarırdı. Bu adamlardan biri Əliəkbər Puzeşpəzir idi. O vaxta qədər onun barəsində bildiyim ancaq bu idi ki, Mahmud Dövlətinin bölüyündə bir taqım komandirinin bacarıqlı müavinidir. O da zarafatcıl, cəsarətli və imanlı biri idi, cəbhəyə ayağı açılandan orada qalmışdı. Bilirdim ki, anası yoxdur və hərdən çox darıxır. Qısası, bir-iki dəfə görüşməklə ürəyimdə özünə yer açmışdı. Onun barəsində və orada görə biləcəyim digər döyüşçülər haqda fikirləşərkən bir nəfər diqqətimi cəlb etdi. Alnını istehkama dayamışdı və kürəyi qorxunc şəkildə yarılmışdı. Bilmədim ki, qəlpə dəyib, yoxsa zərbə dalğasına düşüb. Yaxınlaşanda gördüm ki, öz Əliəkbərimizdir. Vəziyyəti ağır idi; nə nəfəs alırdı, nə də hərəkət edirdi. Fikirləşdim ki, yəqin elə əvvəllərdə şəhadətə qovuşub. Əlimi çiyninə qoyub bir fatihə oxudum.[2] Qəm-qüssə ürəyimə ağırlıq edirdi. Ayağa qalxıb İmam Hüseyn (ə) batalyonunun mövqeyinə sarı yola düşdüm. Bəndin uzununa sol tərəfə gedərkən İmam Hüseyn (ə) batalyonunun ilk döyüşçülərini gördüm.

– Ay bala, ittilaat[3] uşaqlarınız hardadılar?

– İkisi bir az aşağıdakı səngərdədirlər.

Tez özümü göstərdikləri səngərə çatdırdım. Təbəssümüm Hüseyn Məhəmmədianla Yəqub Şikarinin təbəssümünə qarışdı. Hələ soyuqdan əsirdim və o halda hal-əhval tutmağa hövsələm yox idi. Hər ikisinin sağ-salamat olduğuna görə sevindim. Hüseyn mənim vəziyyətimi görüb narahat oldu, tez səngərdən çıxıb haradansa bir ədyal gətirdi. Ədyal iraqlıların idi, o qədər ayaq altda qalmışdı ki, hər dəfə tərpədəndə toz-torpaq qalxırdı. Lakin o anda məni soyuqdan və titrəmədən xilas etdi. Bədənim qızışır, gözlərim yumulurdu.

---

[1] Bəəs – diriliş, dirçəliş deməkdir, Səddam Hüseynin başçılıq etdiyi Ərəb Sosialist Dirçəlişi Partiyasının qısa adıdır.

[2] Bədrdən sonra Əliəkbər Puzeşpəziri Təbrizdə görəndə heyrətə gəldim. O, nisbətən yaxşılaşandan sonra yenidən cəbhəyə döndü və müharibənin sonuna qədər sağ qaldı.

[3] Kəşfiyyat

III

Orada bir saatdan da az yatdım. Günəş çıxmışdı və hava get-gedə qızırdı. İstilik halımı yaxşılaşdırmışdı.

– Mən gedirəm görüm bayırda vəziyyət necədir.

Səngərdən çıxanda Yəqub Şikari dedi: "Mən də gəlirəm".

Hüseynlə və digərləri ilə sağollaşıb bayıra çıxdıq. Suyun kənarı ilə gəzirdik. “Hur əl-Hüveyzə”yə və arxlara İraq bəndi üzərindən tamaşa etmək üçün yaxşı imkan yaranmışdı.

Fikirləşirdim ki, bölüyün qərargahına qayıtmaq və lazım olduqda əməliyyatın növbəti mərhələlərinə hazırlaşmaq vaxtıdır. Qayıtmaq üçün gözüm bir qayıq axtardı. Bu zaman əllərində ratsiya bizə doğru gələn böyük bir qrup diqqətimi cəlb etdi. Öz-özümə dedim: "Bəlkə ağa Mehdi gəlib?!" Bizə çatmalarını gözlədik. Ağa Mehdi idi; qərarlı və ümidli. Bizi görəndə yaxınlaşdı, üzümüzü öpüb "yorulmayasınız" dedi. Soyuq və yorğunluq yadımdan çıxdı.

– Vəziyyət necədir?

Deyəsən, mövqeyə yeni gəlmişdi və gördüyü ilk məlumatlı adamlar biz idik. Gecə baş verənləri danışdım: "Qasim batalyonu gəlməyib. Burada uşaqların bir az çətinliyi vardı. Əli Əkbər batalyonu da irəlidədir və hələ vuruşur. Uşaqlar indi ikinci mövqedədirlər..."

Yan-yana gedirdik; mən danışırdım, o da dinləyirdi. Deyəsən, mənim görkəmim ağa Mehdinin diqqətini çəkmişdi. Məndən soruşdu: "İndi bu vəziyyətdə hara gedirdiniz?”

– Üçüncü yola qayıtmaq istəyirdik.

– Yox, geri qayıtmayın. Hələlik yanımda olun, sizinlə işim var.

Sevə-sevə onlarla getdim. Ağa Mehdinin rabitəçilərinin içindən Əbdürrəzzaq Mirabı tanıyırdım. Onların arasında bir-iki fars da vardı. Deyirdilər ki, qərargah tərəfindən diviziyaya göndəriliblər. Bənddən İraq mövqelərinin içinə doğru enirdik. Bəndin 20 metrliyində düzəldilmiş bir təpənin kənarından keçdik. Düşmən düzəltdiyi bu təpələrdən müşahidə aparmaq və hava hücumları əleyhinə silahlarını yerləşdirmək üçün istifadə edirdi. Təpənin üstündəki dördlü zenit pulemyotu əlimizə sağlam keçmişdi. Gündüz çağı hər şeyi asanlıqla görmək olurdu. Təxminən səhər saat doqquz idi. Batalyonlar bir-bir rabitə əlaqəsi yaradır və diviziya komandirinə son xəbərləri verirdilər. Bizim yaxınlığımızdakı Seyyidüş-şühəda batalyonunun komandiri bir plan fikirləşmiş, şəxsi heyətini irəli aparmışdı ki, dəstək qüvvələr arxadan gələndə bənddə gecikməsinlər. Mahmud Dövlətinin bölüyü də İraqın ikinci hərbi mövqeyinə çatmışdı. Əli Əkbər batalyonundan sonra canlı qüvvənin üçüncü dalğası, yəni Əli Əsğər və İmam Səccad (ə) batalyonları da bölgədəki qüvvələrə qoşulmuşdular. Döyüş hələ davam edirdi.

İmam Hüseyn (ə) batalyonunun mövqeyi bizim sol tərəfimizdə idi. Seyyidüş-şühəda batalyonunun mövqeyinə nisbətən kiçik olsa da, oranın

əhəmiyyəti vuruşmanın şiddətlənməsinə səbəb olmuşdu. Təpənin yanından keçəndə tankların Dəclə bəndinin üstündən bölgəni tərk etməkdə olduqlarını aydın görürdük. Ağa Mehdi tankların qaçdığı yerə hamıdan yaxında olan Əli Əsğər batalyonunun komandiri ilə cəld əlaqə saxlayıb dedi: "Tağılı, o tankları qaçmağa qoyma!"

Ağa Mehdi narahat idi, tankların hərəkəti ona problemli gəlirdi. Tanklar bir müddətdən sonra planla geri dönüb bizə zərbə vura bilərdilər. Ağa Mehdi tankları məhv etməyə tələsirdi, amma məsələnin əhəmiyyətini başa düşməyənlər gecikir və tankların başına ağa Mehdinin istədiyi kimi atəş yağdırmırdılar. Bu isə onların sapsağlam keçib getmələrinə gətirib çıxardı.

Məcid Tağılı ratsiyadan ağa Mehdiyə deyirdi: "Mən üşüyürəm, ağa Mehdi!"

Deyəsən, kodla danışırdı. Lakin ağa Mehdi təkidlə deyirdi ki, tankları qaçmağa qoymayın, onları vurun, yoxsa bizə hücum edəcəklər.

- Mən səni cəsur bir əsgər kimi tanıyıram, Tağılı, o tankları salamat getməyə qoyma!

Əməliyyat istiqamətinin komandiri Rüstəmxani də yanımızda idi. Tez ağa Mehdidən icazə aldı və bir rabitəçi ilə birgə problemi həll etmək üçün Əli Əsğər batalyonuna köməyə getdi.

Biz də Rüstəmxaninin ardınca yola düşdük. İkinci hərbi mövqe istehkam formasında Dəclə boyu uzanırdı və birinci mövqe olan bənddən təxminən 1-2 km. uzaqda idi. Həmid Əhədinin başçılıq etdiyi İmam Səccad (ə) batalyonu onun arxasında yerləşmişdi. Mahmud Dövlətinin bölüyü də mövqeyin arxasına çatmışdı. Tərəflər arasında atışma gedirdi. İstehkamın bir hissəsindən qarşı tərəf yaxşı görünürdü. Yəqub Şikari ilə mən ağa Mehdinin yanında istehkamın sinəsinə uzanmışdıq. Ağa Mehdi qarşı tərəfə və düşmən qüvvələrinə baxırdı. Dəcləyə qədər yalnız bir düşərgə vardı. Dedim: "Ağa Mehdi, qarşımızdakı bu düşərgə İbrahim qüvvələri düşərgəsidir. Dəclə çayı onun arxasındadır..." Ağa Mehdi hələ də gözlərini qarşıya dikmişdi. Birdən sakit səsini eşitdim: "Qoyun bu Bəsicilər[1] Kərbəlanın ziyarətinə getsinlər..." Ağa Mehdinin pıçıltısı mənə xüsusi mənəvi hal verdi. Bir qədər sonra ayağa qalxdı və dedi: "Uşaqlara deyərsən Mehdi irəliyə getdi..." Bunu deyib istehkamı aşdı. Tez şəxsi heyətinin yanında olan Mahmud Dövlətini çağırdım: "Mahmud, ağa Mehdi getdi. Uşaqlara de gəlsinlər". Bir neçə saniyədən sonra şəxsi heyət "Allahu-Əkbər" deyib düşərgəyə və Dəcləyə sarı enməyə başladı. Sanki hamı ağa Mehdini gözləyirmiş. Bir neçə dəqiqədən sonra vuruşmadan düşərgəyə çatdıq. Ora deyəsən, gecə boşaldılmışdı. Orada qalmış azsaylı iraqlılar izdihamı görüb müqavimət göstərmədən təslim oldular. Düşərgənin giriş qapısının üzərindəki tabloya "Quvat İbrahim" (İbrahim qüvvələri) yazılmışdı. Biz havadan çəkilmiş

[1] Xalq könüllülərindən ibarət Bəsic təşkilatının üzvləri

fotolarda dəfələrlə oranı görmüş və əməliyyat iclaslarında barəsində danışmışdıq.

Orada Əyyub Zərbi[1] zarafatla məni çağırdı. Əyyubla çoxlu yaxşı xatirələrimiz vardı, bir-birimizə çox sataşırdıq. Bir dəfə Məhəmməd Purnəcəflə Dezfulda olanda gəlib dedi ki, onu bölük komandiri təyin ediblər. Zarafata dedim: "Bölük komandiri sənə çoxdur". Təqdimat vərəqini çıxarıb göstərdi. Vərəqi alıb cırdım və dedim: "Əyyub, get, de ki, adını taqıma yazsınlar". İndi də o, mənə sataşıb deyirdi: "Mehdi, sən nə bətər[2] oğlansan!"

- Niyə ki?

- Əməliyyata ayaqyalın gəldiyin üçün.

Gecə dalğıc üzgəclərimi çıxarandan sonra hələ ayaqqabı tapmamışdım. O da elə bilib ki, məsələn, Dəcləyə ayaqyalın getməyimi nəzir etmişəm. Dedim: "Allah köməyin olsun! Geyinməyə ayaqqabı tapmamışam, buna görə ayaqyalın qalmışam". O isə əl çəkmirdi.

- Yox! Mən hələ səndən zirəyini görməmişəm...

- Qaç o tərəfə, məndən əl çək.

Əyyub yaxında idi və mən adətim üzrə, sevdiyim bütün adamlar kimi ondan da uzaq olmağa çalışırdım. Çünki döyüş qızışanda fikrim onların yanında qalırdı və yaxşı işləyə bilmirdim. Az sonra Dəclə tərəfdən İraq helikopterləri gəldi. Düşərgənin ətrafındakı istehkamların arxasında dörd DŞK pulemyotu vardı. Ağa Mehdi onları işlətməyimizi əmr etdi. Helikopterlər göydən atəş açırdılar. Pulemyotların birinin arxasına keçib helikopterləri nişan aldım. Atışma davam edirdi və birdən mənim atdığım DŞK dayandı. Nə qədər etdimsə, onu düzəldə bilmədim. Qərargahdan ağa Mehdi ilə birgə gəlmiş qardaşların biri köməyə gəldi və DŞK-nı işə saldı. Sonralar adının Əmin Şəriəti olduğunu öyrəndim. Pulemyotların atəşindən helikopterlər bölgəni tərk etməyə məcbur oldular. Ağa Mehdi dedi: "Mömin, DŞK-ları birtəhər götürün, irəli gətirin". Öndə Dəclə çayı axırdı. Ağa Mehdinin sözünü uşaqlara dedim. Əyyub Zərbi dərhal bir DŞK pulemyotunu təkbaşına çiyninə qoyub yola düşdü. Başqa biri də dayaqlarını götürdü. Bilmirəm Əyyub o ağırlıqda bir silahı necə daşıyırdı!

Hamımız Dəcləyə doğru yola düşdük. Oradan Dəcləyə təxminən 200 metr məsafə vardı. Dəcləyə hər addım yaxınlaşdıqca ürəyimdə qəribə coşqu yaranırdı. Biz Dəclə çayına çatanda günəş səmanın ortasına yaxınlaşırdı. Dəclə sözünün kökü bizim inanclarımıza qayıdır. Dəclə və Fərat çayları İmam Hüseyni (ə) və Kərbəla susuzlarını xatırladırdı.

İmam Hüseyn (ə), Əli Əsğər və Qasim batalyonları bizim solumuzda vuruşurdular və ağa Mehdi tez-tez ratsiya ilə onlarla əlaqə saxlayırdı.

---

[1] O, mehriban və duyğusal oğlan idi, əzadarlıq məclislərini çox sevirdi. O, yol yeriyəndə də heyətdə imiş kimi "Hüseyn! Hüseyn!" deyirdi. Nəhayət, qürur dolu Vəlfəcr-8 əməliyyatında şəhadətə qovuşdu.

[2] Yaman, yaxşı

Dəclənin şərqindəki Dəclə bəndinə çatmışdıq. Mahmud Dövləti yanımda idi. Hər ikimiz diz çökdük: "Salam olsun sənə, ey Əbu Abdullah Hüseyn!" Əlimizi Dəclənin soyuq və axar suyuna salıb 1985-ci ilin 11 martının günorta namazını qılmaq üçün dəstəmaz aldıq. Dəclənin həmin tərəfində özgələr yox idi. Biz o mərhələdə Dəcləyə çatmış ilk qüvvələr idik. Hər kəsin xüsusi mənəvi halı vardı və bu hal özünü müxtəlif formalarda göstərirdi; ağlamaqla, səcdə ilə, şükür namazı ilə, sükutla, baxışla...

Vaxt az idi. Tez namazımızı qılmalı idik, çünki ağa Mehdinin hər an bizimlə işi ola bilərdi. Mahmudla çiyin-çiyinə dayanıb namaza başladıq. Necə şirin idi o namaz! Vacib namazlardan sonra iki rəkət müstəhəb namaz qılmaq istəyərkən ağa Mehdi bizi çağırdı: "Nə edirsiniz?!"

– Müstəhəb namaz qılmaq istəyirik.

– Hələlik daha vacib işimiz var, buraya gəlin.

Ağa Mehdi narahat idi. Çox tez öyrəndik ki, düşmən qüvvələri Dəclənin o tərəfinə yaxınlaşmışlar və səngər qurub bizim Dəclədən keçməyimizə mane olmaq istəyirlər. Ağa Mehdi istəyirdi ki, düşmən öz yerini bərkitmədən Dəclənin o tərəfinə keçək.

– Tez gedin, bənddən qayıq gətirin.

Hüseyn Parçabaf[1] hamıdan tez ayağa qalxıb dedi: "Ağa Mehdi, bu saat gedirəm".

Düşərgənin içində təkərinə güllə dəymiş bir IFA avtomobili vardı. Parçabaf bir qardaşla birgə onu işə saldı və oradan ilk maşınımız bəndə sarı yola düşdü.

Onlar gedəndən sonra ağa Mehdi mənə və Yəqub Şikariyə dedi: "İmam Hüseyn (ə) batalyonu Rutənin yanındadır, imamzadənin yaxınlığında. Humayun kəndi tərəfdən oraya gedin və onları tapıb Dəclə bəndinə gətirin".

Heç bir söz demədən ağa Mehdidən ayrılıb Humayun kəndinə yola düşdük. Bir qədər aralıda Yəqub dedi: "Mehdi, gəl bu səngərə girək, bəlkə özümüzə ayaqqabı tapdıq". Mənim kimi o da ayaqyalın idi. Səngər çox qaranlıq idi. Ayaqqabı axtarışına yeni başlamışdıq ki, bir səs eşitdik: "Mömin, axı mən sizə iş tapşırdım!" Ağa Mehdi idi. Çox xəcalət çəkdik. O, bizim səngərə girdiyimizi görmüşdü. Bizim bəlkə qənimət üçün səngərə girdiyimizi düşünməsindən çox qorxdum.

– Ağa Mehdi, qənimət götürdüyümüz hərbi sənədlər səngərdə idi, onları gizlədirdik.

– Sənədlər mühüm deyil, döyüş mühümdür. Gedin işinizin ardınca!

Yəqub tapdığı bir cüt qırmızı dəri ayaqqabını geyindi, mənim qismətimsə Bədrdə ayaqyalın vuruşmaq imiş.

Cəld İmam Hüseyn (ə) batalyonunun yerləşdiyi istiqamətə yola düşdük. Rutə çayına yaxınlaşmışdıq ki, çox təsadüf nəticəsində yerə uzanıb əməliyyatı

[1] Bədr əməliyyatının son günlərində şəhadətə qovuşdu.

idarə edən Rüstəmxanini[1] gördük. İrəlidə Rutə çayı boyunca qızğın döyüş gedirdi. Kanala bənzəyən bir çalanın içində bir nəfər oturmuşdu. Diqqətlə baxanda Bəsic üzvü olduğu bilinirdi. Kanalın üstü ilə də bir Bəsic kolonu gəlirdi. Çox inanılmaz olsa da, onların biri əlindəki iki əl qumbarasını kanalın içinə atdı. Təəccübləndim; yəni bunlar bilmirlər ki, hər iki tərəf bizimkilərdir?! Yəquba dedim: "Yəqub, inan, hər iki tərəf Bəsicdir!"

– Hanı? Durbini mənə ver, görüm.

Baxıb dərhal Rüstəmxaniyə dedi: "Rüstəmxani qardaş, vuruşan hər iki tərəf Bəsicdir". Rüstəmxani bizə inandı. Ratsiya ilə əlaqə saxladı, durbinlə baxa-baxa hər iki tərəfi bir-birinə təqdim etdi və dedi ki, bir-birinizə birləşin. Atışma bir anda kəsildi. Durbindən gördüm ki, uşaqlar qalxıb bir-birinə yaxınlaşdılar və bir-birini qucaqladılar. Mən və Yəqub da Rüstəmxani ilə birgə yola düşdük. Hərəkət zamanı Rüstəmxaniyə dedim ki, bizə İmam Hüseyn (ə) batalyonunu bəndə aparmaq tapşırılıb. Tezliklə İmam Hüseyn (ə) batalyonunu ikinci xəttin ətrafında tapdıq. Əli Əsğər batalyonu da yaxında idi. Ağa Mehdinin mesajını onlara çatdırdım. Dərhal hazırlaşdılar və yola düşdük. İkinci mövqeyin arxasındakı həmin hissədə qamışla örtülmüş kiçik bir bataqlıq vardı. Ötən gecə qaçmış iraqlılar orada qalmışdılar. Sayımızın çoxluğunu görən kimi oradan çıxıb təslim oldular. Əllərini yuxarı qaldırıb bizə sarı gəldiklərini görürdüm.

Orada çox yubanmadan şəxsi heyəti Dəclə bəndinin yoluna çıxardıq. Ağa Mehdinin danışdığı imamzadə Humayun kəndində və Dəclənin Kisəli adlı bir hissəsinin kənarında idi. Oranı ziyarət etməməyə heyfim gəldi. İçəri daxil oldum. Dəmir pəncərələri, sarı kərpicləri, sadə və qərib görkəmi vardı. Qəbrin üstünü yaşıl parça ilə örtmüşdülər. Təkbaşına imamzadəni ziyarət etdim. Bayıra çıxmaq istəyirdim, amma divardakı böyük saatı gözüm tutmuşdu. Fikirləşdim ki, bölük üçün yaxşı saat ola bilər, amma ürəyim gəlmədi. Düşündüm ki, imamzadənindir, olmaz! Yalnız bir Kərbəla möhürü götürüb bayıra çıxdım. Gözəl ətri var idi və üzərinə belə yazılmışdı: "Əsl Kərbəla türbəti".

Şəxsi heyət imamzadənin yanından keçirdi. Yəqubla birgə ağa Mehdinin yanına yollandıq. Oraya çatanda öyrəndik ki, uşaqlar qayıq gətirmişlər və Dəclədən keçid başlanmışdır. Həmin müddətdə bir neçə nəfər Dəclənin şərqinə keçmişdi. Mahmud Dövləti də onların arasında idi. İşimizi ağa Mehdiyə məruzə edib üçüncü qayığa oturduq.

Aşura diviziyasının əməliyyat bölgəsində Dəclə çayının bir döngəsi vardı və kisəyə bənzər bir yer əmələ gətirmişdi. Biz Dəclədən keçib Kisəli adlanan həmin yaşıl və səfalı yerə girirdik. 30-40, bəzi hissələrdə isə 100 metr

[1] Rüstəmxani birinci istiqamətin komandiri idi, Seyyidüş-şühəda, İmam Səccad (ə) və Əli Əkbər batalyonlarını idarə edirdi. O, bir neçə gündən sonra elə həmin əməliyyatda şəhadətə qovuşdu.

uzunluğunda xurmalıqlar vardı. Xurmalığın arxasında Həribə adlı bir kənd vardı, yolu həmin xurmalıqdan keçirdi. Həribə torpaqlarında əkilmiş buğdalar qışın sonlarında inkişaf edib təxminən otuz santimetrə çatmışdı; yaşıl, gözəl və ürəkaçan idi. Orada öz kəndimizi xatırladım.

Həribə kəndinə və onun arxasından uzanan Bəsrə-əl-İmarə magistralına baxıb düşünürdüm ki, əməliyyatdan öncə bu qədər irəliləyişi təsəvvür etmək qeyri-mümkün idi. Digər diviziyaların irəliləyişindən xəbərimiz yox idi, Aşura diviziyasının döyüşçülərinin üzü isə qələbə sevinci ilə alışıb-yanırdı.

Axşamüstü idi və günəş şüası o soyuqda çox gözəl təsir bağışlayırdı. Ötən gecədən heç nə yeməmişdim, aclıq taqətimi üzmüşdü. Yeməyə bir şey axtararkən gözüm Əhməd Yusifiyə sataşdı. O, İraq səngərlərinin birində ciddi məşğul idi. Yaxınlaşıb soruşdum: "Əhməd, nə olub?"

– Buyur, xurmalı süddür.

İraqlılar konserv qutusunda olan xurmalı südü küncüd yağı ilə qarışdırıb yeyirdilər. Orada həm xurmalı süd vardı, həm də küncüd yağı. Əhmədin yanında oturub qarnımıza yaxşı qulluq etdik. Yeyib doyandan sonra Yusif Sarimini gördüm. Bizə dedi: "Fəthi qardaş dedi ki, uşaqlar tez İbrahim qüvvələri düşərgəsinə gəlsinlər".

Getdiyimiz yolu Dəcləyə qədər qayıtdıq, oradan da düşərgəyə yollandıq. Şəxsi heyətin Dəcləni keçdiyinə əmin olandan sonra ağa Mehdi İbrahim qüvvələri düşərgəsinə dönmüşdü və digər komandirlərlə növbəti planları hazırlayırdı. Binanın bayırındakı taxta stullarda oturduq. Qədim və sakit bir çayxanaya bənzəyirdi, köhnə yaşıl stulları vardı. Əbdürrəzzaq Mirab da orada oturmuşdu. Dabanına güllə dəymişdi, amma halı yaxşı idi. Bir ayağımı o birinin üstünə aşırıb dedim: "Mirab, bilirsən indi adama nə ləzzət edər?! Bir qəlyan!"

Bir-birimizlə zarafatlaşırdıq. Qardaş Fəthinin qərargahda bizə hansı plan cızdığından xəbərsiz idik. Orada xəbər tutduq ki, Hüseyn Məhəmmədian bizdən qabaq qərargahda imiş, ağa Mehdi və qardaş Fəthi ona və başqa bir neçə kəşfiyyatçıya tapşırıq vermişdir. Onlar Dəclənin o tərəfinə keçib Bəsrə-əl-İmarə avtobanına gedən yolu və Həribə kəndini öyrənməli, batalyonlardan birini o yola aparmalı idilər.

Hüseynin həyatda olduğundan arxayınlaşdım və bizə veriləcək yeni tapşırığı gözlədim. Diviziyanın nəzarət etdiyi bölgədə xüsusi döyüş getmirdi və bu baxımdan, rahat idik. Qələbə əhval-ruhiyyəmizi yüz qat artırmışdı və növbəti tapşırığı gözləyirdik.

– Yorulmayasınız!

Qardaş Kərim Fəthi idi. Məni çağırıb dedi: "Siz arxaya gedib orada gözləyin. Nə vaxt çağırsaq, gələrsiz".

- Arxaya gedək?! Özü də indi... Yox! Biz getmirik.

Bu əmr mənimlə birgə Mehdi Davudiyə də aid idi. Hər ikimiz orada qalmaq istəyirdik, amma əmr başqa idi. Mehdi israr edib qaldı, mənsə qayıtmağı qəbul

etdim. Münasib vəziyyətim və paltarım yox idi, gecə yaxınlaşdıqca və hava soyuduqca yenidən titrəməyə başlayırdım. Hisslərimi kənara qoyub bəndə doğru yola düşdüm.

Bəndin vəziyyəti dəyişmişdi. Üzən körpüləri böyük gəmi halına salmış və ağır texnikanı onların vasitəsilə Hurdan keçirib yeni mövqelərə gətirmişdilər. Kreativ fikir idi.

Bir neçə ekskavator ciddi məşğul idi. Bir tərəfdə yerə çoxlu meyvə şirəsi, bir tərəfdə də konserv tökülmüşdü. Bunlar bölgəyə ərzağın gətirildiyindən xəbər verirdi. Tibb məntəqəsi də açılmışdı. Maşınlar bəndin üstü ilə hərəkət edirdilər. Orada xüsusi qələbəlik vardı, amma hələ əməliyyat marşı çalınmırdı. Fikirləşdim ki, əməliyyatın qələbəsi hətta qərargahın komandirlərinə də gözlənilməz olduğundan xəbərləri xalqa çatdırmağa tələsmir və yekun nəticəni gözləyirlər.

Suyun kənarında bir qayıq hazır vəziyyətdə dayanmışdı. Mən də mindim. Qayıqda qanaxmadan və soyuqdan titrəyən bir neçə yaralı var idi. Altıncı yola çatan kimi onlardan ayrıldım və tapdığım ilk maşınla yola çatdım. Bir neçə dəqiqədən sonra isə kəşfiyyat bölüyünün üçüncü yoldakı qərargahında idim.

Orada da vəziyyət dəyişmişdi. Ordu oraya çoxlu gəmi yerləşdirmişdi. Üçüncü yol artıq Nəcəf diviziyasının mövqeyi idi və oranın uşaqları bizim oradan çıxmamız üçün bəhanə axtarırdılar. Hərdən qulağıma belə sözlər dəyirdi ki, sizin istiqamətiniz beşinci yoldur, oraya gedin. Nəcəf diviziyasının çoxlu qayıqları oraya düzülmüşdü və biz orada qərib idik. İlk işim hamama getmək və özümə bir cüt çəkmə tapmaq idi. Hamamdan sonra səngərə getdim və bir-iki gün işim yalnız ratsiya dinləmək oldu.

IV

Elə ilk saatlarda öyrəndim ki, bizim diviziyamız Dəclədən keçsə də, hələ sağ tərəfimizdəki hərbi birləşmələr Xəndək yolunda vuruşurlar. Xəndək yolu Bədr əməliyyatının mühüm hədəflərindən biri idi və mütləq ələ keçirilməli idi.[1] O, Aşura diviziyasının şimal hissəsindən 6 km. kənarda idi. Həmin istiqamətdə güclü döyüş gedirdi. Ora ələ keçiriləndən sonra Əli ibn Əbu Talib (ə) diviziyası bölgənin ən strateji körpülərindən olan əl-Üzeyr körpülərinə doğru getməli və hər bir mümkün vasitə ilə onları dağıtmalı idi ki, düşmənin arxa ilə əlaqəsi azalsın. Biz mövcud vəziyyəti təhlil edəndə aydın şəkildə başa düşürdük ki, bu iş qeyri-mümkündür.

Eşitdiklərim məni narahat edirdi. Aşura diviziyasının durumunu dərk etməyə başlayırdım. Bizim sağımızdakı diviziyalar mühüm uğur qazana

[1] Dilimizə tərcümə olunmuş "Allahdan nur almış insan" kitabında Bədr əməliyyatının Xəndək yolu istiqamətindəki döyüşləri təsvir olunub. Zalım Səddam rejiminin hərbi qüvvələri orada daha güclü müdafiə sistemi qurduqlarına görə həmin istiqamətdə düşmən səddini yarmaq mümkün olmamış, Xorasan diviziyasının İmam Cavad (ə) batalyonunun qəhrəman komandiri Əbdülhüseyn Burunsi də orada şəhadətə qovuşmuşdu.

bilməmiş və düşmənə cinah vermişdilər. Hərbi baxımdan bizim boş bir cinahımız vardı. Solumuzda vuruşan Nəcəf diviziyası da Rutə çayının solundakı hədəflərə çatmamışdı və hələ vuruşurdu. Həzrət Rəsul diviziyası da Aşura diviziyasının ən solunda vuruşurdu. Bütün bunlar Aşura diviziyasını pis vəziyyətə salmışdı. Təxminən 9 km.^{2} bir ərazidə irəliləyiş olmuşdu, amma digər qüvvələr bizimlə paralel irəliləyə bilməmişdilər.

Ratsiyadan ayrılmırdım. Kəşfiyyat bölüyünün uşaqları hərbi məlumat baxımından elə mərhələyə çatmışdılar ki, hətta ekspert rəyi verə bilirdilər. Hamımız yekdil fikirdə idik ki, diviziyamızın mövqeyi çox ağır və təhlükəlidir, çox tez bir zamanda ya diviziyanı əvəzləməlidirlər, ya da ən azı, ön diviziya yerləşdirməlidirlər ki, digər diviziyalarla bir xətt bərpa olunsun. Digər tərəfdən, hər bir ratsiya danışığında diviziyanın mühüm fiqurlarından birinin şəhadət xəbərini eşidir və döyüşün ağırlığına dair fikrimizin düzgünlüyünə əmin olurduq.

– İmam Səccad (ə) batalyonunun komandiri Həmid Əhədi şəhid oldu.

– Rüstəmxani qardaş da şəhadətə qovuşdu.

– Əjdəri ağır yaralandı və onu geriyə göndərdik.

– İmam Hüseyn (ə) batalyonunun komandiri Əsğər Qəssab şəhid oldu.

– Əli Təcəllayi də şəhadətə qovuşdu...

Sonuncu xəbər Ali-İshaqın şəhadət xəbəri idi. O, gizli şəkildə və çox israrla əməliyyata qatılmışdı və ağa Mehdinin ciddi əmrinə görə, qardaş Fəthidən ayrılmağa haqqı yox idi. Kərim Fəthi İbrahim qüvvələri düşərgəsində idi və Ali-İshaq da düşərgənin bombalandığı zaman şəhadətə qovuşmuşdu. Öz-özümə düşündüm ki, belə davam etsə, çoxlarını itirəcəyik, nə üçün diviziyanı əvəz etmirlər?! Ratsiya kənarında oturmaq məni daha da kədərləndirirdi: Bəs nə üçün bizi çağırmırlar? Yəni bizim əlimizdən heç bir iş gəlmir?! Bəlkə bizi yaddan çıxarıblar...

Nigaran idik və kədər bizi pərişan etmişdi. Hərdən yola gedirdik. İtki böyük idi. Hər an özümdən soruşurdum ki, irəlidə nə baş verir? Bu sualıma cavab yox idi. Yalnız ürəyim istəyirdi ki, Dəcləyə qədər uçum və uşaqların yanında olum.

Nəhayət, öldürücü intizar sona çatdı. Məhəmməd Məhəmmədini ratsiyaya çağırmış və ona bəzi uşaqların cəld irəli gəlmələrini əmr etmişdilər. Mənim adım da həmin siyahıda idi.

Dərhal yola düşdük. Bir neçə dəqiqədən sonra Hur çayını yarıb bəndə doğru irəliləyən qayıqda idik. Gördüklərim inanılmaz olsa da, həqiqət idi. Bir anda düşmənin tupolev hərbi təyyarəsi diviziyanın bütün mövqeyini alova qərq etdi. Bombardman o qədər şiddətli idi ki, bütün bölgəyə qaranlıq çökdü. Zenit raketləri də ciddi reaksiya vermədi. Qırıcı bir sərnişin təyyarəsi kimi gəlib bombalarını tökdü və rahatca qayıtdı.

Bizim canlı qüvvə daşıyan helikopterlərimiz də alçaqdan bölgəyə doğru hərəkət edirdi. Deyəsən, ordu birləşmələrini daşıyırdı. Təyyarələrin gurultusu,

partlayışların səs-küyü, alov və tüstü qəribə səhnə yaratmışdı. Bizim qırıcılarımız alçaqdan və sürətlə səmada uçur, bombalayır və yenidən silahlanmaq üçün geri dönürdülər. Bəndə çatana qədər bu səhnələri qayıqdan görür və Dəclənin o tərəfində nə baş verdiyini təxmin edirdik. Bəndə enəndə hər tərəfimizdən başımıza atəş yağmağa başladı. Bizə doğru top mərmisi, raket və hətta dördlü zenit pulemyotu atırdılar. Hər tərəf qışqırıb-zarıyan yaralılarla dolu idi. Yaralıların çoxu ordudan olan qardaşlar idilər. Təxmin edirdim ki, helikopterlərdən enəndən sonra dərhal bombardmana məruz qalmışlar. RPG-11 silahı ilə təchiz olunmuş PC-7 təyyarələri qorxmadan bölgənin səmasında uçur və önlərinə çıxan insanı, maşını – hər şeyi vururdular. Biz belə bir şəraitdə özümüzü İbrahim qüvvələri düşərgəsinə çatdırmalı idik. Yıxıla-yıxıla qaçırdıq, amma dayanmırdıq. Ürəyim əsirdi, boğazımı tutan qəhərin heç vaxt çəkilməyəcəyini hiss edirdim. Ətrafıma baxanda ürəyimin yanğısı şiddətlənirdi; toyotalar hədəf seçilmiş və içindəki bütün heyət şəhadətə qovuşmuşdu. Onların yanmış bədənləri avtomobilin içində idi... Yolda, suda, qamışlıqda – hər yerdə qana bələşmiş əlsiz-ayaqsız şəhid cəsədləri vardı.

Ardıcıl partlayışlar bölgəni titrədirdi. Toz-torpaq, tüstü və barıt qoxusu hər tərəfə dolmuşdu. Raketlər o qədər yaxınlığımıza düşürdü ki, hər bir səs eşidəndə işimizin bitdiyini düşünürdük. Lakin bütün güllə və qəlpələr arasında İbrahim qüvvələrinə salamat çatdıq. Kimsə ilə danışa bilmirdim. Bilirdim ki, bu bir neçə günü burada qalmış uşaqlarla danışmaq lazımdır, amma onlara təskinlik üçün nə deyə bilərdim?! Qərargahda oyan-buyana gedirdim. Ucadan ağlamaq istəyirdim, amma ağlamaq yeri deyildi. Orada kiçik bir otaq var idi. Özümdən asılı olmadan, qapısını açdım və qucağıma bir şəhid cəsədi düşdü.

Aşura dostlarının kəsilmiş bədən üzvləri hər tərəfə düşmüşdü; əl, barmaq, ayaq - hər şey qana və torpağa bələşmişdi.

– İlahi! Uşaqlar burada necə döyüşmüşlər?! Necə şəhid olmuşlar?!

Günəş batmaqda idi, bundan artığını görməmək üçün batırdı. Səmanın rəngi qırmızı və göy idi. Kimə çatırdımsa, uşaqları soruşurdum.

– Yəqub Şikari haradadır?

– Məlum deyil... Deyirlər şəhid olub.

- Kərim Hörməti haradadır?

– Yaralandı, geriyə apardılar.

– Hüseyn Məhəmmədian necə, onu görmədiniz?

– Hüseyn də yaralanmışdı.

– Bəs Mehdi Davudi?

– Xəbərimiz yoxdur. Onu kimsə görməyib.

– Bəs Bəhmən Məhbubi?

– Dəclənin kənarında şəhid oldu.

– Bəs Həmid Qəleyi?

– Yaralandı.

– Bəs Əlipərəsti?

– Yaralandı.
– Bəs Həmid Əlizadə?
– Yaralandı...

Eşidəndə ürəyim parçalanırdı. Şəhid dostlarımızın məsum çöhrələri bir an da gözlərim önündən getmirdi. İstəyirdim ki, çox tez bizə də bir tapşırıq versinlər; xüsusən qanaxmanın qarşısını ala bilməyən yaralıların bölgədə qalıb işlədiklərini və vuruşduqlarını görəndə. Qardaş Fəthi hələ bizim tapşırığımızı bildirməmişdi. Eşitdim ki, İmam Hüseyn (ə) batalyonu oradadır. Onun çoxlu uşaqlarını tanıyır və hücumçu batalyon olduğunu bilirdim. Onlardan xəbər öyrənmək üçün o tərəfə getdim, amma gördüklərim ürəyimin dağını təzələdi: İmam Hüseyn (ə) batalyonundan yalnız on nəfər qalmışdı! Qalanı ya şəhid olmuşdu, ya da yaralanmışdı. Həmin on nəfərdən də yalnız Məhəmməd Təcəllayi ilə Məhəmməd Balapur sağlam idilər, digərləri yüngül yaralanmışdılar.

Bölüyə yeni dönmüşdüm ki, Kərim Fəthi Mənsur Furqanini çağırıb ona nəsə dedi. Ağa Mənsur tez bizim yanımıza qayıtdı və hamımız onunla yola düşdük. Hədəf Dəclə çayı idi. Yolda bölgəni tərk edən döyüşçüləri görürdüm. Torpaq, qan, qəm və yorğunluq üzlərini örtmüşdü. Biz isə irəliləyirdik və tapşırığımızı son nəfəsimizə qədər yerinə yetirməkdə qərarlı idik: "Özünüzü Həribəyə çatdırın və lazım olsa, ağa Mehdinin əl-ayaqlarını bağlayıb geri gətirin".

Aşura diviziyasının çayın üzərində saldığı böyük körpü top və raket zərbələrindən uçmaqda idi. Dəclənin qərbində və Kisəlinin içində vəziyyət qat-qat ağır, vuruşma və atəş dəfələrlə güclü idi. Hiss edirdik ki, düşmən hər tərəfdədir, soldan, sağdan, yerdən və göydən atəş yağdırır. Dəclənin kənarında diviziyamızın komandir müavini Mustafa Mövləvini gördük. Çox narahat idi. Bizi görən kimi ağa Mənsuru çağırıb nəsə dedi. Ağa Mənsur qayıdanda başıaşağı gəlirdi. Bizə dedi: "Qayıdırıq! Daha getmək lazım deyil".

Beynimdə yüzlərlə sual vardı, amma soruşmaq istəmirdim. Əvvəldən qaçdığım cavabı eşitməkdən qorxurdum; estakadadan yola düşdüyümüz ilk anlarda ağa Mehdini görəndə beynimdə fırlanan və inanmağa cəsarət etmədiyim cavab. Qərargaha necə çatdığımı bilmədim. Mənsur Furqani birbaş Kərim Fəthinin yanına getdi. Bu dəfə o, qardaş Fəthiyə yavaş-yavaş nələrsə deyirdi. Gözüm Kərim Fəthinin üzündə idi. Ağa Mənsurun ağzından çıxan hər bir sözdən sonra gül kimi solurdu. Üzü daha narahat ifadə alır və bütün vücudundan qəm-kədər yağırdı. Yorğun və dərdli səslə dedi: "Qayıdın!"

Qayıdanda hava yavaş-yavaş qaralırdı. 1985-ci ilin 16 martı necə də ağır keçdi! İşıqlı güllələri və partlayış şölələrini aydın görə bilirdik. Düşmənin əsas hücumu sağ cinahdan başlamışdı. Aşura diviziyası orada yerləşmiş yeganə hərbi birləşmə idi. Deyilənə görə, orada ordudan və digər birləşmələrdən də bəzi döyüşçülər vardı. O kiçik bölgədə elə ağır döyüş gedirdi ki, sanki alovdan və qaynar qurğuşundan divar çəkmişdilər. Qayıdanda solumuzda Xəndək yolu

görünürdü. Yerlə göyü bir-birinə tikən işıqlı güllələrin aramsız axını görünürdü. Özünü qurban vermək zamanı gəlmişdi. Əlimizdən gələni edirdik. Düşündük ki, o anlarda ən mühüm iş canlı qüvvəni bəndə doğru yönəltməkdir. Bir-birimizdən ayrıldıq və hərə bir tərəfə getdi.

Yaralıları bəndə çatdırır, qayıqlara bələdçilik edirdik. Sağ qalmış canlı qüvvəni o cəhənnəmdən çox tez çıxarmağa çalışırdıq. Bölgədə təxminən tənzimləyici rolunu oynayırdım. Hələ məsələdən xəbəri olmayan ağır texnikanı birtəhər başa salırdım ki, özlərini dördüncü yola çatdırsınlar və Fəth məktəbinin yanındakı körpüdən geri çəkilsinlər.

Maşınları yönəltdiyim körpü əməliyyatdan dərhal sonra dördüncü yolla İraq bəndinin arasında, məktəbin yanında salınmışdı. Mənsur Furqani və Əsğər Abbasquluzadə ilə qaçırdıq. Bacardığımız hər adamı və hər şeyi geriyə yönəldir, o qısa fürsətdə və güclü atəş altında apara bilmədiklərimizi partladırdıq ki, düşmənin əlinə sağlam keçməsin. Bir neçə topu partladandan sonra cəld dördüncü yoldakı Fəth məktəbinə sarı getdik. Oradakı müxtəlif maşınların sıxlığı yolu bağlamışdı. Qəribəsi bu idi ki, heç biri tərpənmirdi. İrəliyə qaçdım. Körpünün yanında iki gözətçi dayanmışdı.

– Qardaş, nə üçün qoymursunuz bunlar getsin?

- O tərəfin növbəsidir. İndi o tərəfdən maşınlar gəlməlidir, sonra bu tərəfə növbə çatacaq.

Özümü güclə saxladım. Biz bu tərəfi boşaltdığımız halda onlar o tərəfdən gələn maşınlara yol açırdılar.

- Hələlik o tərəfi yaddan çıxar. İş-işdən keçib. Birtəhər o tərəflə əlaqə saxla, de ki, hərəkəti dayandırsınlar. İndi isə yolu açın, bu maşınlar tez keçsin. Vaxt bitir, tələsin!

Mehriban Allahın lütfündən sözlərimiz təsir etdi və bir neçə saniyə ərzində maşınların hərəkəti başlandı. Təxminən bütün bölgə bizimkilərdən təmizləndi. Düşmən gəlsəydi, qarşısına çıxacaq bir qüvvə yox idi, amma yenə yaxınlaşmırdılar; ya ehtiyat edirdilər, ya da hərbi taktikaları belə idi və yalnız bölgəni atəşə tutmaq istəyirdilər. Bu baxımdan, orada qalmış yaralıları çıxarmağa imkan vardı. Ciddi məşğul idim və orada bir neçə kəşfiyyatçıdan başqa bir kəsin qalmadığına fikir vermirdim. Özümüzün də qayıtmaq vaxtımız çatmışdı.

Nə qədər axtardıqsa, bəndin üstündə qayıq tapmadıq. Məcbur olub atəş altında olan həmin yolu yenidən Fəth məktəbinə qədər güllə və qəlpələrin arası ilə qaçdıq. Körpünün üstündən keçmək dəlilik idi, çünki düşmənin aramsız raketlərinin hədəfinə çevrilmişdi. Lakin başqa yolumuz yox idi. Körpünün üstü ilə qaçmağa başladıq. Bəzən raket yanımızda suya düşürdü və bizə "Hur əl-Hüveyzə" çayının suyu qismət olurdu, bizi başdan ayağa yuyurdu, bəzən də arxamızda körpü yarılırdı.

Alovu İbrahimə gülüstan edən və qüdrətinə inandığımız Allah ən kiçik yara almadan bizi körpüdən keçirdi. Artıq bölgədə şəhidlərin qanlı cəsədlərindən başqa heç kim qalmamışdı.

Özümü üçüncü yoldakı kəşfiyyat qərargahına çatdırdım. Uşaqların vəziyyətini yoxlamaq imkanı yaranmışdı. Bizdə diviziyanın digər döyüşçülərinin bilmədiyi bir xəbər vardı. Bu xəbər ürəyimizi parçalamışdı. Yalnız ağlamaqla təsəlli tapa bilərdik, amma yox, ağlamaq və əzadarlıq da az idi. Qardaş Fəthi o qədər ağlamışdı ki, bir günün içində bir neçə il qədər qocalmış və arıqlamışdı. Həzrət Zeynəbin bir gecənin içində nə üçün və necə qocaldığını, qamətinin büküldüyünü o gecə anlamağa başlayırdım...

Diviziya həmin gecə Mehdisiz nə etdi?! Hər birinin şəhadəti ürəyimizə dərin yara vurmuş dostlarımızın xatirəsi ilə gecəni necə başa vurduq, səhəri necə açdıq... O gənclər müharibədə kişi olmuşdular. O insanların yeri heç zaman dolmayacaq. Həmin gecə üçüncü yol səhərə qədər səmimi dostlarından ayrılmış uşaqların yanıqlı sızıltıları ilə yanıb-yaxıldı. Mehdi Davudi qalmışdı, Yəqub Şikari isə hücum gecəsi mövlasının verdiyi vədə qovuşmuşdu. Yüksək əhval-ruhiyyəsindən enerji aldığımız Mehdi elə bir halda idi ki, onu görəndə dünyanın bütün qəm-kədəri ürəyimizə çökürdü. Həmin gecə Aşura diviziyasının məzlum şəhidlərinin Şami-qəribanı[1] idi. Şəhidlərin çoxu Dəclənin o tərəfində yerdə qalmışdılar və nə vaxta qədər qalacaqları da bəlli deyildi.[2]

Səhər xəbər gəldi ki, hamımız Əhvaza gedirik. Maşınlar hazır idi. Bütün əşyaları yığıb üçüncü yolu tərk etdik. Əhvazda Hava hücumundan müdafiə qarnizonuna yerləşdik. Bir gün qəm-kədər və sükut içində qaldıq. İkinci gün isə Aşura diviziyasının sağ qalmış şəxsi heyəti məscidə toplaşdı və qardaş Ahəngəran əzadarlığa başladı:

“Ey Hüseyn, ey qəmi həmdəmimiz olan!
Ey göz yaşlarımıza və kədərimizə şahid olan!
Sən bizim can verdiyimizi gördün,
Necə imtahan verdiyimizi gördün.
Qəlbimizin yarasından xəbərin var...”

Ağa Mehdi Bakirinin şəhadət sirri açılmış, dağlı sinələrin ah-naləsi ərşə dirənmişdi. Xatirələr beynimə hücum edirdi: Çox sadəliyinə görə ağa Mehdini batalyonun sıravi döyüşçüləri ilə səhv saldığımız günlər, onunla diz-dizə oturub birgə xörək yediyimiz günlər, kəşfiyyatın detallarını bizdən istədiyi və "Vəcəəlna" ayəsini oxumağı tövsiyə etdiyi günlər, kəşfiyyata gedəndə bizi yola saldığı və özü təmas xəttində oturub bizi gözlədiyi günlər...

---

[1] Qəriblər gecəsi; Kərbəla əsirlərinin Aşuradan sonrakı ilk yalqız gecələri belə adlanır.

[2] Bədr əməliyyatının bəzi şəhidlərinin pak cəsədləri sonralar geri gətirildi, amma Mehdi Bakiri, Əli Təcəllayi kimi bəzi şəhidlərdən heç bir nişan tapılmadı.

Ürəyimi boşaltmaq üçün yaxşı fürsət yaranmışdı. Şəhidlərin böyüklüyü və səmimiliyi mənə şirin bir yuxu kimi idi. Əslində, özümüzə əzadarlıq edirdik, çünki şəhidlər öz sevgililərinə qovuşmuşdular; Mehdi Bakiri, Əli Təcəllayi, Əsğər Qəssab, Ali-İshaq, Rüstəmxani, Yəqub Şikari, Mahmud Dövləti, Əlirza Cəbəli, Məhəmmədrza Basir, Mehdi Qaytançı, Bəhmən Məhbubi, Mustafa Şahbazi, Əsğər Rəhbəri...

Əzadarlıq bu tezliyə bitən deyildi. Diviziyanın qərargah rəisi Seyid Mehdi Hüseyni tribunaya keçib bizə bir müraciət oxudu. Müraciətdə deyilirdi ki, döyüşçülər mövcud vəziyyəti dəyişdirməyə çalışsınlar. Ürəyim çox sıxılırdı. Təxmin edirdim ki, əməliyyatın nəticəsi İmam Xomeyniyə məruzə olunub və o, narahat olub. O şərait imamı bir an belə narahat görməyə dözməyən bizlər üçün böyük bir imtahan idi.

Orada başqa bir müraciət də oxundu. Sepahın komandanı qardaş Möhsün Rzayinin müraciəti idi: "Allahu-Əkbər! Allahu-Əkbər! Allahu-Əkbər! Hər bir döyüşçü əlindəki hər hansı silahla irəli!"

Başqa bir fürsətdən söz gedirdi. Qardaş Rzayinin müraciətində şəxsi heyətə Xəndək yolu istiqamətində əldə olunmuş mühüm uğurlar xəbər verildi. Hamıda ruh yüksəkliyi yarandı.

– Biz yenidən getmək istəyirik.

– Hərə bir silah götürsün.

Mən bir RPG minaatanı götürdüm, Mehdi Davudi pulemyot, digərləri də başqa silahlar. Getməyə tələsirdik. Bəzi yaralılar hospitaldan qaçıb özlərini cəbhəyə çatdırmışdılar və hücum olacağı təqdirdə diviziya ilə getmək istəyirdilər. Bütün bunlara baxmayaraq, diviziyanın təxminən bütün komandirlərinin şəhid olduqlarını və ya yaralandıqlarını yadıma salanda fikirləşirdim ki, yenidən hücuma keçsək də bir şey hasil olmayacaq.

Ertəsi gün hamıya 15 günlük məzuniyyət verildi və mən Təbrizə yola düşdüm.

İmam Hüseyn (ə) batalyonu

I

Çox narahat idim. Müsəllaya[1] gedə-gedə fikirləşirdim ki, bu, bir zaman cəbhədə 19 batalyonu olan Təbrizdir; indi isə bütün uşaqları toplasan, güclə üç batalyon edər.

Şəhərə döndüyüm iki gün içində dərdlərim və darıxmağım güclənmişdi. Hər yer bizdən onlar üçün dua etməmizi istəyən adamlarla dolu idi. O adamlara güllə, qəlpə və qan bir yana, heç cəbhənin toz-torpağı da dəyməmişdi. Cümə idi. Darıxır və bilirdim ki, bu vəziyyətdə şəhər bizim yerimiz deyil. Nadir hallarda küçələrdə öz döyüşçü əzizinə baxırmış kimi baxan mehriban və təvazökar üzlər, tanış baxışlar bizi bir qədər sakitləşdirirdi.

Hüseynin səsi məni o tənhalıqdan və acizlikdən xilas etdi. Cümə namazına gəlmiş izdihamın arasında məni görüb halımı təxmin etmişdi.

– Necəsən, Mehdiqulu?

– Yaxşıyam.

– Hövsələn bitməyib?

– Çox darıxıram... Axı nə üçün buraya gəldik?! Bizim burada nə işimiz var?!

Başqa bir sözə ehtiyac qalmadı; dərdimiz də, dərmanımız da bir idi. Yusif Sarimini və Məhəmməd Purnəcəfi görəndə onların da eyni mövzuda söhbət etdiklərini öyrəndik. Elə orada, cümə namazında qərarımızı verdik və axşamüstü saat beşdə qatara minib Tehrana, oradan da Əhvaza yola düşdük.

***

1985-ci ilin baharının əvvəllərində kəşfiyyat bölüyü öz bacarıqlı qüvvələrindən çoxunu itirdiyinə görə yeni cəlb olunmuş şəxsi heyətə təlim keçirdi. Diviziyanın bütün bölükləri yeni diviziya komandirinin təyin olunmasını gözləyirdilər. Kəşfiyyat bölüyünün uşaqları isə hamıdan çox narahat idilər. Şəhid dostlarımızın qəm-qüssəsi ilə yandığımız halda bölüyümüz barədə deyilən bəzi sözlər qulağımıza çatır və bizi çox narahat edirdi. Hamı bilirdi ki, kəşfiyyat bölüyünün işi yalnız əməliyyat günlərinə aid deyil. Əməliyyatlar arasındakı bəzən bir ilə çatan fasilələrdə də kəşfiyyatçılar ya təlimdə idilər, ya da kəşfiyyatda. Əməliyyat zamanı işləri ən çətin və ən mühüm işlərdən idi. Bununla yanaşı, bir əməliyyatda hərbi qələbə əldə olunanda bəziləri uşaq kimi qələbəni özlərinə aid edirdilər, lakin məğlub olanda adət üzrə tez səbəb axtarırdılar və son sözləri bu olurdu: "Kəşfiyyat bölüyü canlı qüvvəyə yaxşı bələdçilik edə bilmədi".

Halbuki ən azı, Bədr əməliyyatında Aşura diviziyasının kəşfiyyatçıları vəzifələrini ən yaxşı şəkildə yerinə yetirmişdilər. Məhz buna görə də, bizim

[1] Şəhərin cümə namazının qılındığı böyük məscid

istiqamətimizdə nəzərdə tutulmuş mövqelərə tez və asanlıqla çatdıq. Əgər digər diviziyalarda da belə olsaydı, bəlkə əməliyyatın taleyi ayrı cür olardı. Hər halda, biz bu sözlərə təbəssümlə cavab verir və onların bizə mühüm olmadığını göstərməyə çalışırdıq. Bütün işlərimiz yalnız Allahın razılığına görə idi.

Kəşfiyyat bölüyünün uşaqları hətta məzuniyyətlərinin yarısını belə qalmadan yenidən diviziyaya qayıtmışdılar. Bəzi uşaqlar hələ də Bədr yaralarını sarıyırdılar. Dezfulun Şəhid Bakiri hərbi qarnizonu ilə üzbəüz Dez çayına yaxın bir yer seçib çadır qurduq. Sadə bir komandamız vardı və yeni diviziya komandirinin təqdimatı üçün şəxsi heyətin qalanını gözləyirdik.

Bir gün hamımız sıra ilə düzülüb bir-bir suya atılırdıq. Birdən arıq bir gənc bizə sarı qaçıb bütün uşaqları suya itələdi, axırda da özü hoppandı. Üzü tanış gəlirdi, amma kim olduğunu və nə üçün oraya gəldiyini bilmirdik. Yusif Sarimi Kərim Fəthiyə dedi: "İstəyirsən qulağından tutub onu suya atım?" Başqa birisi soruşdu: "Axı bu kimdir?"

– O, yeni diviziya komandirimizdir.

Hamı gülümsədi. Yeni komandir bizə yaxınlaşıb gülə-gülə dedi: "Elə bilməyin ki, azəricə bilmirəm; nə dediyinizi anladım". Xatırladım ki, bu farsdilli arıq gənc Bədr əməliyyatında qərargah tərəfindən diviziyaya göndərilən və İbrahim qüvvələri düşərgəsində mənə DŞK-nın mərmi qutusunu dəyişməyi öyrədən döyüşçüdür. Adı Əmin Şəriəti idi.

Yeni diviziya komandiri ilə ilk görüşdən sonra bir tədbir keçirildi və qardaş Şəriəti şəxsi heyət önündə çıxış etdi. Diviziya yenidən canlanmışdı. Yeni komandir Şəhid Bakirinin döyüş yoldaşlarından idi və uzun müddət rəsmi sənədlərin altından "Şəhid Mehdi Bakiri tərəfindən" yazaraq imzalayırdı. Bu kimi işləri onunla çox tez ünsiyyət qurmamıza səbəb oldu.

Bir neçə gündən sonra çadırlarımızı toplayıb kəşfiyyat bölüyü üçün nəzərdə tutulmuş yeni yerə daşındıq. Dez bəndinin arxasındakı gölün düz ortasında nisbətən böyük bir ada vardı. Biz oraya yerləşdik. Adada bizi üç komandaya böldülər və hərəsinə bir başçı təyin olundu: Əsğər Abbasquluzadə, Hüseyn Məhəmmədian və mən.

Dərhal komandanın şəxsi heyəti ilə təlimlərə başladım. Məhəmməd Purnəcəf və Rəsul Səidi də mənim komandamda idilər. Bölgünün ilk günlərində diviziya komandiri bizə baş çəkmək üçün adaya gəldi. Qardaş Kərim Fəthi adət üzrə bir-bir uşaqları təqdim edirdi. Təsadüfən, mən, Purnəcəf və Səidi yanaşı oturmuşduq. Növbə bizə çatanda qardaş Fəthinin səs tonu dəyişildi: "Bu üç məzlum da Rzayi, Purnəcəf və Səididir. Diviziyada bunlardan məzlumu yoxdur".

Qardaş Şəriəti də başını yellədi; yəni ki, nə demək istədiyini başa düşdüm.

Ciddi təlimə başladıq. Xəritə çəkməyi, bölgənin rəsmini çəkməyi, istiqamətləri tanımağı, qayıq sürməyi – hərbi kəşfiyyatın sirlərini öyrədirdik.

Eyni vaxtda sahildə batalyonlara da təlim keçirilirdi. Bu təlimlərin komandiri Ələddin Nurməhəmmədzadə, müavini də Rəhmətullah Ovhani[1] idi. Ovhani qardaşla yeni tanış olmuş və ilk tanışlıqdan qarşılıqlı səmimi münasibət yaranmışdı. O, hər dəfə məni görəndə deyirdi: "Gərək bir gün mənimlə güləşəsən; ya mən səni yıxacağam, ya da sən məni".

O, üzməyi bacarmadığından, bizi hər dəfə suda görəndə qaçmağa çalışırdı; çünki əlimizə keçsəydi, mütləq suya düşəcəkdi. Çadırında bir kauçuk soyuducu vardı, həmişə meyvə və meyvə şirəsi ilə dolu olurdu. Bir gün təlim keçən döyüşçülərə qarpız vermişdilər. Hamıya paylaması üçün bütün qarpızları Ovhaninin çadırına qoymuşdular və bu, bizi vəsvəsə edirdi.

Qaldığımız adadan sahildəki komandir çadırına qədər təxminən 5 km. məsafə vardı. Rəsul Səidi və Məhəmməd Purnəcəflə birgə Ovhaniyə ziyan vurmaq qərarına gəldik. Qayıqla yola düşdük, yavaşca sahilə yan aldıq və təhlükəyə atılmağımıza dəysin deyə heç nədən keçmədik. Sonuncu meyvə şirəsi və meyvədən əlavə, qardaş Ovhaninin çəkmələrinə də rəhm etmədik və adaya əlidolu döndük.

Adada günlərimiz yaxşı ötürdü və Kərim Fəthinin gecə təlimlərinə dair tövsiyələrini qulaqardına vururduq. Onun artan israrları önündə söz verir, amma əməl etmirdik.

– Fəthi qardaş, təlim üçün bu gecə mütləq suya girəcəyik.

Gecə olanda başımızı atıb yatır və sübh azanının "Allahu-Əkbər" səsinə oyanırdıq.

Bir gün sübh namazından sonra adət üzrə yorğanın altına girib yatmışdıq. Səhər saat doqquzda Kərim Fəthi qayıqla adaya gəlmiş və heç kəsi görməyəndə sevinib fikirləşmişdi ki, yəqin hamılıqla təlimə getmişik. Lakin çadırlara yaxınlaşıb hamının yatdığını görəndə çox hirslənmiş və bizi cəzalandırmaq məqsədilə üstündəki qaz bombasını çadıra atmışdı.

Güclü partlayış səsinə yerimdən hoppandım. Başımı itirmişdim. Digər uşaqların vəziyyəti daha pis idi. Fısıltı səsi, göz və burun yandırması, göz yaşarması... Hamı tələsik özünü suya çatdırırdı. Məhəmməd Purnəcəfin həyəcanlanıb tələsməsi isə başına iş açdı. O, həmin vaxtlarda üzməyi bacarmırdı və suyun dərinliyinin yarım metr olduğunu bilmədən üçmetrlik bir qayadan başı üstə suya tullandı. Nəticədə başı suyun dibindəki daşlara dəymişdi. Digərlərinin vəziyyəti də yaxşı deyildi. Qaz bombasının dəlikləri adətən, bir-bir açılır, bizim bəxtimizdən isə hər üç dəliyi birdən açılmış və güclü qaz bütün çadıra dolmuşdu. Bu partlayışda bir plastik qəlpə də Kərim Hörmətiyə dəymişdi. Bu xəbər uşaqların arasında dolaşdı və belə bir məsəl ortaya çıxdı: "Hətta Tehranın Topxana meydanında da bir bomba partlasa, onun bir qəlpəsi mütləq Kərim Hörmətiyə dəyəcək!"

[1] O, Kərbəla-4 əməliyyatında şəhadətə qovuşdu.

Gözlərimiz, burnumuz və boğazımız saatlarla yanır, üzümüzdən yaş axırdı. Orada öz-özümə dedim: "Eybi yox, komandir, əvəzini görərsən!"

Gözyaşardıcı cəza bir müddət bəhrəsini verdi. Ondan sonra hər dəfə çadırda namaz qılanda səcdədən gözüyaşlı qalxırdıq. Əvvəllər çox təəccüblənirdik, sonra isə kəşf etdik ki, gözyaşardıcı qazın təsiri hələ ədyallarda qalıb. Ədyalları təmizləmək olardı, çadırı isə yox. Fikrimin doğruluğunu yoxlamaqdan ötrü nahar vaxtı uşaqların yemək yediyi yerdə çadırın üstünə kiçik bir daş atdım, içəri girəndə isə uşaqların yaşlı gözlərindən xəcalət çəkdim.

Bir neçə gündən sonra qardaş Həmid Səlimi[1] diviziya və bölük komandiri ilə birgə adaya gəldi. Təsadüfən, nahar yeməyinə adada qaldı və həmin çadırda süfrə yoldaşı olduq. Yaxşı fürsət yaranmışdı. İşarə ilə Məhəmməd Purnəcəfə ilahi intiqam vaxtının gəldiyini bildirdim. Bir bəhanə ilə bayıra çıxdım və çadırın üstünə iki-üç daş atdım. Qonaqlar çadıra nə üçün daş atıldığını soruşanda uşaqlar belə cavab vermişdilər: "Bir şey deyil, yəqin uşaqlar zarafatlaşırlar". Çadıra girəndə hamıdan əvvəl qardaş Şəriətini gördüm; gözləri qızarmışdı və burnundan su axırdı. Digərlərinin vəziyyəti də onun kimi idi; burunlarının qarşısını ala bilmirdilər. Qardaş Şəriəti və Səlimi məsələni soruşanda dedik: "Fəthi qardaş gözyaşardıcı qaz atıb, onun qalığı sizə də nəsib oldu".

Təlim bitəndən sonra daha adada qalmağa səbəb yox idi. Uşaqlar oradan çox da məmnun deyildilər, hamımız oranı tərk etmək əmrini gözləyirdik. Komandirlər Dezfulda yerləşməyi düşünürdülər. Nəhayət, Dezfulun Şəhid Bakiri hərbi qarnizonuna daşındıq. Hələ qarnizonda tam yerləşməmiş kəşfiyyat bölüyündən çıxmaq fikrinə düşdük. Çoxları kəşfiyyat bölüyünə həsrət çəkirdilər, özümüz də ötən bir il ərzində bu bölüyün əhəmiyyətini yaxşı anlamışdıq. Elə buna görə də, kim bizim qərarımızı eşidirdisə, təəccüblənirdi: "Bəs hara getmək istəyirsiniz?"

– İmam Hüseyn (ə) batalyonuna.

– Nə üçün ora?

– Batalyonda olanda əməliyyatlarda məhdudiyyətimiz olmayacaq. Kəşfiyyatda olanda gərək həmişə əmr gözləyək, əməliyyatın ilk günündə geri qayıdaq və s. Biz belə bir şey istəmirik.

İmam Hüseyn (ə) batalyonunu seçməyə də kifayət qədər səbəbimiz var idi. İmam Hüseyn (ə) və Seyyidüş-şühəda batalyonları Bədr əməliyyatında qəhrəmancasına döyüşmüşdülər. Onların hər biri bir neçə mərhələdə ardıcıl əməliyyatlarda iştirak etmiş, əksər komandir və döyüşçüləri şəhid olmuşdular. Bu bizim həmin iki batalyonu sevməyimizə səbəb olmuşdu. Xüsusən İmam Hüseyn (ə) batalyonunun bizim üçün başqa bir mənası var idi və buna görə kəşfiyyat bölüyü ilə sağollaşmağa razı olmuşduq.

[1] O, Nuh-nəbi qərargahının komandiri idi və Vəlfəcr-8 əməliyyatında şəhadətə qovuşdu.

Getmək fikri Hüseyn Məhəmmədiana məxsus idi. Biz onunla o qədər səmimi dost idik ki, Hüseynin mənsiz getməyəcəyini bölükdə hamı bilirdi. Biz bu qərarı bir neçə gün müxtəlif formalarda Fəthi qardaşa çatdırdıq.

Nəhayət, bir gün Kərim Fəthinin özü bizi çağırdı. Nəsihətlərə yeni başlamışdı ki, gözləri yaşardı. Bizim israrlarımıza yaxşı cavabları vardı: "Kəşfiyyat bölüyünün sizə ehtiyacı var. Əgər bu səbəblə hamı bölükdən getsə, nə baş verər?! Siz bölüyün təcrübəli uşaqlarındansınız. Biri gəlib sizin bilik və təcrübələrinizi öyrənənə qədər bilirsiniz nə qədər vaxt lazımdır?!

Kərim Fəthinin göz yaşları ilə müşayiət olunan məntiqli dəlilləri və səmimiliyi bizi fikrimizdən döndərdi.

***

Ondan sonra Kərim Fəthi bölükdə daha çox olurdu. Onun məşhur xüsusiyyətlərindən biri səhər proqramı keçirmək idi. Biz onun bu işdə ciddiliyini və tələbkarlığını öncədən görmüşdük. Hüseynlə mən səhər proqramından necə qaçmaq mövzusu ətrafında söhbətlər edirdik.

– Sakit bir yer tapıb yatsaq, necə olar?! Onlar səhər yuxudan oyananda bizi görməyəcəklər; həm biz səhər proqramından yayınmış olacağıq, həm də nizam-intizam pozulmayacaq.

Bunu Hüseynə təklif etdim və yaxşı fikirləşəndən sonra yatmağa bir yer tapdıq. Ora İmam Hüseyn (ə) batalyonunun sıra meydanının arxasında idi. Təsadüfən, bu yaxınlarda milləri qaynaq edib çardaq da düzəltmişdilər. Ədyallarımızı ora aparıb iki gecə çox rahat yatdıq. Üçüncü gün axşamüstü bizim yoxluğumuz Kərim Hörmətini şübhəyə salmışdı. Gecələr yerimizin boş olduğunu, səhər proqramında da iştirak etmədiyimizi bilmişdi. Gecə bizi izləyib məxfi yerimizi tapmış və ertəsi gün səhər sirrimizi qardaş Fəthiyə söyləmişdi.

Hüseynlə mən hər yerdən xəbərsiz halda sübh namazından sonra yatmışdıq. Lakin çardağın metal milinə dəyən ilk daşın narahatedici səsi bizi yuxudan oyatdı. Gördük ki, bölüyün bütün uşaqları bizim yatdığımız yerdən keçirmişlər və dayanıb hamısı bizim çardağımıza daş atır. Biz yuxulu-yuxulu oturduq və uşaqları oraya gətirmiş Kərim Hörmətiyə dedik: "Yaxşı oğlan, uşaqları apar o tərəfdə qaçırt, nə üçün hamını buraya toplamısan..."

Kolonun içindən bir nəfər ayrılıb bizə yaxınlaşdı. Gördük ki, Kərim Fəthidir. Salam verməyə də macal tapmadıq. Çox hirslə dedi: "Qalxın! Tez qalxın! Bölüyə gəlin, sizinlə işim var". O getdi, biz də ardınca kəşfiyyat bölüyünün qərargahına yollandıq. Əvvəl Hüseyni çağırdı. Mən bayırda dayanıb gözləyirdim. Qardaş Fəthinin məşhur xüsusiyyətlərindən biri də bu idi ki, uşaqları bir-birinin yanında danlayıb nəsihət verməzdi.

– Gəl görüm, ağa Mehdiqulu!

İçəri girdim. Narahat idi.

- Bu nə vəziyyətdir?! Deyəsən, yorulmusan, zəifləmisən. Bəlkə cəbhədən yorulmusan?! Nə üçün səhər proqramından qaçırsan?! Nə üçün bu işləri ciddiyə almırsan?!

Bir səhər proqramından ötrü bu sözləri eşidəcəyimi düşünməzdim. Utanıb üzr istədim və söz verdim ki, sabahdan səhər proqramında iştirak edəcəyəm.

II

Mən də daxil olmaqla bir dəstə kəşfiyyatçı komandirin əmri ilə Məcnun adasına və beşinci yola getdik. Bütün yolboyu eyni yolla Məcnun adasına getmiş və orada cəsədləri itkin düşmüş dostları xatırladıq.

Adada yerləşəndən sonra iş başlandı. İlk araşdırmalarda bildik ki, düşmən bizim bölgədəki hərəkətliliyimizə heç bir reaksiya vermir, sanki orada nəsə baş verəcəyini gözləmir. Biz kəşfiyyatlar zamanı düşmənin müdafiə istehkamları və maneələr qurmaqda çox ciddi və diqqətli olduğunu görmüşdük. Oradakı vəziyyətin adını isə "laqeydlik" qoymaq olardı. Düşmənin hazırlıq tərzi ilk baxışdan axmaq olduğunu göstərirdi, amma dərindən düşünəndə bu nəticəyə gəlirdik ki, bizimlə düşmən arasındakı su məsafəsinin çoxluğuna görə orada geniş hərbi əməliyyat gözlənilmir və bu baxımdan, güclü istehkamlara ehtiyac yoxdur.

Kəşfiyyat bölgəsi Bədr əməliyyatının keçirildiyi bölgənin bir hissəsi idi. Hər dəfə sulara girəndə qeyri-iradi olaraq Bədri xatırlayırdım, ağa Mehdinin və digər Bədr şəhidlərinin üzləri bir-bir gözlərim önündən keçirdi.

Təkidlə tapşırmışdılar ki, adada kəşfiyyatla məşğul olduğumuz müddətdə bizim kim olduğumuzu və nə üçün gəldiyimizi heç kəs bilməsin. Diviziyanın əməliyyat qərargahı bir müddət öncədən beşinci yola köçmüşdü və hələ diviziyanın bir batalyonu bölgədə müdafiə işi ilə məşğul idi. Biz də öz işimizlə məşğul idik, özümüzünkülərlə rastlaşmamağa çalışırdıq ki, onlara işimizi izah etməyə və ya yanlış cavablar verməyə məcbur olmayaq. Lakin bir gün uşaqların biri birbaş yanımıza gəlib soruşdu: "Buranın komandiri haradadır?"

Diviziyanın artilleriya bölüyündən gəldiyini bildim. Yaxınlaşıb dedim: "Əmriniz varsa, buyurun".

Komandir olduğuma inandılar. Bölgədəki müdafiə batalyonunun uşaqlarından şikayət edib deyirdilər: "Bizə tapşırılıb ki, bura bir neçə top yerləşdirək, onlar isə mane olurlar".

– Nahaq yerə mane olurlar! Biz özümüz topların orada yerləşdirilməsini istəmişik. Siz gedin, işinizi görün, mən zəng vurub məsələni həll edərəm.

Onlar getdilər və təbii ki, telefon zəngi də olmadı. Lakin bir neçə saatdan sonra topları yerləşdirməyə başladıqlarını öyrəndik. Eşitdik ki, batalyonun uşaqları yenidən etiraz edəndə onlar "istiqamət komandirinin" sözlərini bir-bir demişdilər və məsələ həll olunmuşdu.

***

“Hur əl-Hüveyzə”də həyat öz axarı ilə davam edirdi. Böyük və yaraşıqlı bir səngərimiz vardı, adını Zabitlər klubu qoymuşduq. Zabitlər klubu iki iç-içə səngərdən ibarət idi. Səngərin girişi zal kimi idi, oradan bir otağa keçirdin. Biz orada otururduq. Oradan da yataq otağına keçid vardı. Çarpayı kimi qoyduğumuz kauçuklara görə yataq otağına çox bənzəyirdi.

Zabitlər klubunun böyük problemləri adada yaşayan siçanlar idi. Bədr əməliyyatından sonra sayları artmış, daha cəsarətli olmuşdular. Sərbəst şəkildə və qorxmadan kürəyimizə dırmaşır, əl-ayaq barmaqlarımızı çeynəmək istəyirdilər. Yuxuda olanda bu hücum daha ciddi hal alırdı. Hərdən xırçıltı səsindən siçanların saçımızı yemək istədiklərini anlayırdıq. Uşaqlar onların namərd hücumlarına bir neçə dəfə sərt cavab verdilər. Bir dəfə qardaş Dəmirçi yuxuda ikən burnunun çeynənməsinə oyanıb əli ilə siçana elə zərbə endirmişdi ki, zavallı siçan tavanın dəmir millərinə dəyib parça-parça olmuşdu.

Kəşfiyyat işi davam edirdi. İstirahət üçün səngərə qayıdanda da ev düşmənləri ilə mübarizə başlayırdı. Onlara qarşı heç bir effektiv mübarizə üsulumuz yox idi. Get-gedə vəziyyətə vərdiş etdik. Çünki hamımızın daha ciddi problemləri vardı və onlara çarə düşünməli idik.

***

Adanın gecələri qərib gecələr idi. Haradasa ibadətlə məşğul olan birinin ruhani aləminə baxmağa cəsarət toplayanda necə dərin mənəviyyatlarının olduğunu görürdük. Günboyu hamıya sataşan, gecə namazı qılanları xəbər verən ən nadinc uşaqlar da gizlicə qaranlığa çəkilirdilər və səhərə yaxın anlarda münacatlarının yanıqlı səsi eşidilirdi.

Kəşfiyyat bölüyünün adadakı qüvvələri iki istiqamətdə işləyirdilər. Hər istiqamətdə iki komanda çalışırdı. İstiqamətlərin komandirləri Mehdi Davudi və Kərim Hörməti idi. Mehdinin müavini Hüseyn Məhəmədian idi, Kərimin müavini də mən. Mehdi və Kərim bütün kəşfiyyatlarda iştirak edirdilər. Mən də tapşırılmış bölgəni üç mərhələdə öyrəndim.

Adətən, kəşfiyyata apardığımız uşaqları iki qayığa yerləşdirirdik. Bir sutkalıq ərzaq, silah, kompas, adi və gecə durbiniləri və digər kəşfiyyat alətləri yanımızda olurdu. Fəth arxından başlayıb Zeyd yoluna qədər irəliləyirdik. Zeyd yolu Mutədən ayrılıb məktəbin yanında Fəth yoluna birləşirdi. Biz yolun davamında Zeyd-1-dən Zeyd-2-yə, oradan da düşmənin yenidən yerləşdiyi bəndə gedirdik. Gecə durbinilə düşmənin mövqelərini nəzarətdə saxlayır və bəzən hərəkət zamanı da bölgəyə baxırdıq.

Bu üç mərhələdə təyin olunmuş bütün hədəfləri, o cümlədən maneə və pusquların yerini, növünü və düşmənin yerləşdiyi mövqeləri öyrənməyə müvəffəq olduq. Hüseyn Məhəmmədianla mən çox nadir hallarda eyni vaxtda bikar olub birgə otura bilirdik. Hərdən belə imkan yarananda bir neçə meyvə şirəsi götürüb qayığa minir və suyun ortasında bir yerdə dayanırdıq. Hüseynin söhbətləri başqa cür olmuşdu. Orada Hüseyn özü idi; tək olanda nadinc siması kənara çəkilirdi, mənəviyyatı və irfanı üzə çıxırdı. Söhbətlərimiz bəzən dörd-

beş saat uzanırdı. Şəhidlərdən danışır, arxada qoyduğumuz gün və anları xatırlayır, cəbhədə iştirak etdiyimiz üç ildən, ölümün gənclərə necə asanlaşdığından söhbət açırdıq. İnsan necə bir mərhələyə çata bilər ki, bütün söz, əməl və düşüncələri Allahın razılığından və Allahla dostluqdan ötrü olsun?! Necə olur ki, bəzi uşaqlar belə sürətlə şəhadət körpüsündən keçib məşuqlarına qovuşurlar?! Bəs biz qovuşmaq üçün nə etməliyik?..

Hüseynin qardaşı hövzə tələbəsi idi. Hər dəfə gələcəkdən söz düşəndə həvəslə deyirdi ki, müharibədən sonra dini təhsil alacağam.

Biz kəşfiyyat işlərimizin keyfiyyəti haqda da fikir mübadiləsi aparırdıq. Hüseynin kəşfiyyat üçün yeni ideyaları vardı. Ona görə, məlumat toplamaq düşməni imkan daxilində tanımaq demək idi. Kəşfiyyat tərzi haqda düşüncələrinə güvənirdi, cəsarətlə və qüdrətlə çalışırdı. Bədr əməliyyatından sonra bəzi kəşfiyyat üsulları onun adı ilə bağlanmışdı. Bölüyün uşaqları deyirdilər: "Bu kəşfiyyat Hüseyn Məhəmmədian üsulu ilədir".

Hüseynlə aramızdakı səmimilik günbəgün artırdı. Bir-birimizin halından xəbərimiz olurdu. Bizim aramızda hətta gizli mənəvi əlaqə yaranmışdı; Hüseynin gəldiyi ürəyimə damanda məsum baxışı və mehriban çöhrəsi ilə peyda olurdu. Uşaqlar da bizi bir yerdə görməyə adət etmişdilər.

Bəzən Seyid İshaq Rəcəbi də daxil olmaqla üçümüz zarafatlaşa-zarafatlaşa kəşfiyyata gedirdik. Seyid İshaq Xalxaldan və bölüyün ailəli döyüşçülərindən idi. O, dünyaya yeni gəlmiş körpəsini görmədən 1987-ci ilin ilk günlərində Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşdu.

***

Bölgədə iş əsnasında kəşfiyyat bölüyünün komandir müavini İsmayıl Məhəmmədi kəşfiyyat vəzifəsini yaxından yoxlamaq üçün bölgəyə gəldi. Tədricən iki-üç yeni döyüşçü də bölüyə qatıldı. Qardaş Məhəmmədinin baxışları bizdən tam fərqli idi. O, Vəlfəcr-4 əməliyyatında kəşfiyyat bölüyünə gəlmiş, Bədrdən öncə isə komandir müavini təyin olunmuşdu. Ondan öncə kəşfiyyat bölüyünün komandir müavini qardaş Məhəmməd Məhəmmədi idi. O, bəzi məsələlərə, o cümlədən hövzə təhsilinə görə bölüyü tərk etdi. Qardaş İsmayıl Məhəmmədinin fikirlərini ayrı-ayrılıqda araşdıranda görürdük ki, hamısı işi yaxşılaşdırmaq istiqamətindədir, amma qan qrupu bizdən tam fərqlənirdi. Onun sözü və düşüncəsi bizim üçün əsla anlaşılan deyildi. Məsələn, o, bölüyə yeni gəlmiş uşaqları daha çox işlətməyə çalışırdı. Köhnə kəşfiyyatçılar isə bunu normal qəbul etmir və bəzilərinin bölükdən uzaqlaşmasına səbəb olacağını düşünürdülər.

İş o yerə çatdı ki, bir neçə dəfə qardaş Fəthiyə müavinini dəyişdirməyi, onun uşaqlar arasında təfriqəyə səbəb olduğunu çatdırdıq, lakin heç nə baş vermədi. Bir dəfə bir məsələ üstündə Mehdi Davudinin də Məhəmmədi ilə mübahisəsi düşdü. Qısası, o vəziyyətə dözmək mənə çətinləşmişdi. Qardaş Kərim Fəthinin yanına gedib açıq şəkildə dedim ki, biz o bölgədə qardaş Məhəmmədi ilə işləyə bilmirik. Gözlədim, amma komandir tərəfindən heç bir

addım atılmadı. Nəhayət, son sözü demək üçün yenidən Fəthinin yanına getdim.

- Mənim göndərişimi yazın, gedim. Mən daha bu vəziyyətdə qala bilmərəm. Nəhayət, qardaş Fəthi əsəbi halda göndərişimi yazıb əlimə verdi. Vərəqə belə yazmışdı: "Bacarıqsızlığına görə göndərilir". Bu cümlə məni çox narahat etdi, üstündən xətt çəkib yazdım: “İş qaydalarının uyğun gəlmədiyinə görə". Gecikmədən göndəriş vərəqəmi diviziyaya apardım. Onlar məktubun mətnini dəyişdirdiyimə görə narahat oldular.

Səbəbini soruşanda dedim: "Əgər kəşfiyyat işində bacarıqsızlığıma görə olubsa, bəs nə üçün orada olduğum üç ildə bunu bir dəfə də olsun söyləməyiblər?!"

– Yaxşı, hara getmək istəyirsən?

– İmam Hüseyn (ə) batalyonuna.

Mənim kəşfiyyat bölüyündə keçmişim və onların İmam Hüseyn (ə) batalyonuna dair baxışları istəyimlə razılaşmamalarına səbəb oldu. Mənim israrım artdıqca onların imtinası da güclənirdi. Lakin mən iki ayağımı bir başmağa dirəmişdim ki, mütləq İmam Hüseyn (ə) batalyonuna getməliyəm. Tabesizliyə görə işimi tribunala göndərdilər. Orada mənim xeyrimə hökm çıxarıldı və qərargaha belə bir məktub yazdılar: "Qardaş Mehdiqulu Rzayini İmam Hüseyn (ə) batalyonuna göndərin!"

III

İmam Hüseyn (ə) batalyonunun əksər komandirlərini tanıdığıma görə məni sevinclə qarşılayacaqlarını düşünürdüm. Lakin gözlədiyimin əksinə olaraq, reaksiyaları soyuq və çox rəsmi oldu. Çox narahat oldum. Mənim İmam Hüseyn (ə) batalyonunun komandir müavini Məhəmməd Səbzi ilə dostluğum bugünə-dünənə aid deyildi, uzun müddət öncəyə qayıdırdı. O və digərləri tərəfindən belə qarşılanmaq inanılmaz idi. Əlbəttə, ürəyimin dərinliklərində mənimlə adi bir əsgər kimi davranacaqlarına görə sevinirdim. Bölükdən çıxanda əhd etmişdim ki, batalyonda bir snayper kimi xidmət edim.

Soyuq qəbuldan sonra məni Əli Çərtabın komandirlik etdiyi üçüncü bölüyə göndərdilər. Əli də məni Əyyub Əyyubinin başçılıq etdiyi üçüncü taqıma yolladı və beləliklə, İmam Hüseyn (ə) batalyonunun döyüşçüləri arasında həyat başlandı.

Çox tez yeni dostlar tapdım: Rza Əfxəmi, Nadir Danayi, Seyid Məhəmməd Vətəni, Əli Zarepur və s. İstədiyim yerdə olsam da, kəşfiyyat anlarına və kəşfiyyat bölüyünün uşaqlarına darıxırdım. Bununla yanaşı, öz-özümə deyirdim: "İmam Hüseyn (ə) batalyonunda qalmaq daha yaxşıdır. Çünki əməliyyatlarda işinin bitdiyini söyləyib səni geri göndərməyəcəklər”.

Üçüncü taqımın iki çadırı vardı. Onların biri həqiqətən, “əntiqə” idi; dəlik-deşik, cırıq və parçalanmaq üzrə! Mən və oxşar xarakterlərimiz olan yeni dostum Rza Əfxəmi həmin çadırda qalırdıq.

– Ağa Mehdi, çadırımızın vəziyyəti pisdir, gərək bir iş görək.

– Məsələn nə iş?

– Mən diviziyanın anbarında bir neçə top kisə görmüşəm. Bəlkə onlarla nəsə etmək olar.

Özümüzü anbara çatdırıb idarə işləri görmədən, kağız vermədən nə qədər kisə lazım idisə, səxavətlə götürüb dərhal çadırımızı təmir etməyə və bəzəməyə başladıq. Sonda çadırımız kiçik və gözəl bir kinoteatra bənzədi. Paltarları sərmək üçün bir qədər məftil, silahlarımızı asmaq üçün də bir neçə metr telefon kabeli tapdıq və millərə bağladıq. Bir qədər şalban parçası tapıb çadırın giriş hissəsinə və arxasına düzdük, çadırın bayırında kiçik bir eyvan düzəltdik. Elə gözəl bir çadırın döşəməsiz qalması heyf olardı. Uzun müddət öncə tikilib palazla döşənmiş binaya[1] hücum edib yetərincə palaz gətirdik və çadırın içinə sərdik. Bütün uşaqlar bizim çadırımıza heyrətlə baxır, adi döyüşçülərin özlərinə belə təmtəraqlı bir çadır düzəltmələrini qəbul edə bilmirdilər. Get-gedə bildik ki, bölüyün bizim çadırımızı görməyə gözü yoxdur. Qardaş Çərtab qəzəblə bizi yanına çağırdı. Nəsihət iclası iki saat davam etdi. Qardaş Çərtabla öncədən dost və qonşu olduğumuza görə nəsihətləri çox da təsir etmir, bayıra çıxan kimi yadımdan çıxırdı.

Xoşbəxtlikdən, çox tez bəzi hadisələr baş verdi və döyüşçülərin diqqəti yayındı. Batalyon təkmilləşəndən sonra səhər proqramları qaydaya düşdü və İmam Hüseyn (ə) batalyonunun məşhur olduğu xüsusi mənəvi ab-hava yenə hər tərəfi doldurdu.

Bizi çağırıb batalyonun çadırlarını başqa bir əraziyə daşımağımızı söyləyəndə anladım ki, həm xidmətçilik püşkü bizim adımıza çıxıb, həm də inşallah, yaxında əməliyyat olacaq. Mənim kimi bir neçə nişançı da seçilmişdi. Haraya getdiyimizi bilmədən gecə ikən maşınlara minib yola düşdük. Pəncərənin arxasında gördüyümüz qaranlıq yerlərdən orta cəbhələrə getdiyimizi təxmin etdik. Hətta yoldakı hündür dağ və təpələr yeni məkanımızın ölkənin qərbində olacağına dair şübhə yaradırdı, amma təxminimiz səhv idi. Səhər çağı maşın dayananda Çəzzabədə olduğumuzu gördük. Yolu yanlış gəlmişdik. Nəhayət, soruşa-soruşa Hurda və Şətt-Əli sahilinin yaxınlığındakı yeri tapdıq.

Ayağımız yerə dəyən kimi qardaş Nasir Əmininin əmr seli axmağa başladı. Batalyonun sürücüsü olan Əmini Sərabdan idi. Onun başqa bir məxfi işi də vardı: batalyonun çəkənlərinə siqaret gətirirdi. Diviziyada siqaret çəkmək qadağan idi və bu adəti hələ tərk etməyi bacarmayanlar gizli şəkildə çəkirdilər. Nasir Əmini özü siqaret çəkən olduğuna görə səhabələrinin siqaretini də təmin edirdi.

Orada qardaş Əmini çadır qurulmasını əmr etdi. Kimsə bir dəqiqə dayanan kimi öz ləhcəsi ilə qışqırırdı: "Ay ədə! Nə qayrısız?! Niyə bekar durmusuz?!"

[1] Döyüşçülər orada təhsillərini davam etdirirdilər.

Qardaş Əmininin nəzarəti və bütün uşaqların səyi ilə batalyonun çadırları hazır oldu. Özümüzə tər-təmiz bir çadır seçmişdik ki, daha təmirə və bəzəməyə ehtiyac olmasın.

Batalyonun şəxsi heyəti gəlib Sərhəngiyədə yerləşdi. Məhərrəm ayına yalnız bir neçə gün qalırdı. Əzadarlıq dəstələri yaradılır və İmam Hüseyn (ə) batalyonunun mənəvi halı güclənirdi. Orada vilayətin Yoxsullar və Əlillər Fondunun sədri qardaş Veysi də batalyona qoşuldu və bizim taqıma gəldi. O, hər taqıma kiçik bir radio gətirmişdi və işimizə çox yarayırdı.

Batalyon yerləşən kimi təlimlər başladı. Deyirdilər ki, hamıya dalğıclıq təlimi keçəcəklər, lakin ibtidai və çox aşağı səviyyəli təlimlər keçirilirdi. Üzgəcdən söhbət belə getmirdi, suyun içində oyan-buyana hərəkət edir, ya da qayıq sürürdülər. Uşaqların çoxunun ilk təcrübəsi olduğundan bunun dalğıc təlimi olduğunu düşünürdülər.

Fikirləşməkdən bezmişdim. Oranın vəziyyətini kəşfiyyat bölüyünün şəraiti ilə müqayisə edəndə çox rahat olduğumu görürdüm. Daha ağır təlimlərdən, gərgin kəşfiyyatlardan, yorğunluqdan və zəhmətdən əsər-əlamət yox idi. Lakin bir fikir xora kimi canıma düşmüşdü və o, məsuliyyətdən qaçmaq fikri idi. Düşünürdüm ki, görəsən, bölükdən çıxarkən göstərdiyim səbəbə görə məsuliyyətdən qaçmaq düz idimi? Düşünürdüm ki, kəşfiyyat bölüyündə xidmət etdiyim müddətdə qazandığım təcrübə, bacarıq və məlumatlardan yaxşı istifadə edə bilməmişəm. Daim özümdən soruşurdum ki, vəzifəni yerinə yetirməyin namaz kimi vacib olduğu bir yerdə mən nə üçün üzərimə düşəni yerinə yetirmədim? Daxilimdə gərginlik vardı, amma bir iş görə bilmirdim. Heç kimə bir söz demədən işimi Allaha tapşırdım və təlimlərə ciddi yanaşmağa başladım. Tezliklə üzümə rəhmət qapısı açıldı və qardaş Çərtab məni çağırıb dedi: "Sən bu bölüyün dalğıclıq müəllimisən".

Həmin gecə səhərə qədər uşaqlara nə deyəcəyimi, təlimin faydalı və səmərəli olması üçün nə edəcəyimi düşündüm. Səhər çağı bölüyün bütün şəxsi heyəti bir yerə toplaşanda öncədən düşündüyüm planla başladım: "Bu, dalğıc geyimidir, belə geyilir. Bu, corabdır, bu da papaq..."

Tədricən dalğıc geyimi ilə suda hərəkət tərzini və ağırlıq bağlamağı öyrətdim, bu işlərin səbəblərini dedim və praktik təlim başlandı.

Ağırlıq daşı olmadığına görə hərəsi bir daş və ya kərpic parçası tapıb özündən asan uşaqların gülər üzləri maraqlı idi. Təlim üçün seçilmiş yerin dərinliyi elə idi ki, yerimək lazım gəlirdi. Boyu qısa olan və özünə ağır daş bağlamış bəzi uşaqlar dərin yerdə bir neçə dəfə batdılar, tez özümü çatdırıb onları bayıra çıxardım. Boğazlarına çoxlu su getmişdi və halsız olmuşdular.

Təlim yaxşı gedirdi və işimdən razı idim. Zəruri məqamları hamıya çatdırmağa çalışırdım. Deyəsən, bu səyim və onun açıq nəticələri batalyon rəhbərlərinin diqqətini cəlb etmişdi. Çünki qardaş Səbzi məni çağırıb vəzifəmi artırdı: "Qardaş Rzayi, Qasim batalyonunda dalğıc müəllimi yoxdur, oraya get və onlara da təlim keç".

Yeni vəzifəmə sevinib iki gün də Qasim batalyonunda ibtidai səviyyədə qısa dalğıc təlimi keçdim. İmam Hüseyn (ə) batalyonuna qayıtmaq istəyəndə dedilər: "Diviziya komandiri təlimin vəziyyətini yoxlamaq üçün buraya gəlir".

Kəşfiyyat bölüyündən ayrılandan qardaş Şəriətini görməmişdim və düşünürdüm ki, məni Qasim batalyonunda görmək ona gözlənilməz olacaq. O, qardaş Ələddin Nurməhəmmədzadə ilə gəldi və məni görən kimi tərs-tərs baxmağa başladı. Bəlkə də şəxsi heyəti nəzərə alıb orada bir söz demədi.

– Bəli, ağa Mehdi, de görək nə etmisiniz?

Təlimdə öyrətdiklərimi qısa şəkildə dedim. Əmin ağa soruşdu: "Bəndə hücum edən qüvvələr necə hərəkət etməlidirlər?"

Şəxsi heyəti suyun içində hərəkət etdirdim, qayıqları şərti bəndin yaxınlığında batırdıq, quruya doğru hərəkət etdik və yavaşca bəndin üstünə çıxdıq. Beləliklə, Bədr əməliyyatının ilk gecəsində etdiklərimizi sadə bir səhnə ilə onlara izah etdim. Onların yanına qayıdanda diviziya və batalyon komandirlərinin təlimdən razı qaldıqlarını anladım. Əmin ağa işarə ilə soruşdu: "Sən burada nə edirsən?!"

Baş verənləri danışıb kəşfiyyat bölüyündən çıxma səbəbimi açıqladım. Bir söz demədi. Onlar getdilər, mən də Qasim batalyonunda işimi bitirdiyimə görə İmam Hüseyn (ə) batalyonuna qayıtdım.

***

Şətt-Əli cəbhəsinin arxasında yerləşən üç batalyonun arasında İmam Hüseyn (ə) batalyonu məhərrəm əzadarlıqlarının keçirilməsi və mənəviyyat baxımından birinci idi. Dəstə əzadarlığa başlayanda bütün işlər dayanırdı; bir müddət mərsiyə oxuyub sinə vurur, sonra da birlikdə Təvəssül duası oxuyurduq. Aşura ziyarətnaməsi batalyonun ümumi toplantısında oxunmasa da, bəzi çadırlarda oxunurdu.

Batalyonun mərsiyə oxuyanları Hacı Nuri, Hacı Böyük Asayiş, İbrahim Asayiş və Əyyub Rzayi idi. Batalyonun daimi məddahı birinci bölükdən olan Əyyub idi.

Məhərrəm ayının ilk on günündə iki-üç dəfə Səhər heyəti proqramı icra olundu və bütün batalyon səhər yeməyini bir yerdə yedi. Aşura yaxınlaşdıqca sanki səbir külü altında gizlənmiş daxili köz alışırdı. Hər bir batalyon öz şəhərinin adət-ənənəsinə uyğun şəkildə əzadarlıq edir, mərsiyə oxuyurdu. Batalyonlar dəstə-dəstə əzadarlıq meydanına gəlirdilər. Qəzvinli uşaqlar üz və başlarına palçıq sürtüb köynəklərini çıxarmışdılar və sinə vura-vura bizim dəstəmizə qoşulurdular. Ərdəbillilər də öz növhələrini oxuyurdular...

Aşura günü tufan idi. Aşura diviziyası ilk dəfə idi ki, Aşura günü şəhid komandanı ağa Mehdi Bakirinin xatirəsi ilə əzadarlıq edirdi. Ağa Mehdini və digər şəhidləri xatırlayırdıq. Onların parça-parça olmuş bədənləri hələ bölgədə günəşin və yağışın altında qalmış, ya da sulara qovuşmuşdu və yalnız Allah bilirdi ki, nə zamana qədər ünvansız qalacaqlar.

***

1985-ci ilin yayı idi: Gündüzün istisi, ağcaqanadların hücumu, davamlı təlimlər, gecə döyüşləri, yavaş-yavaş gedəsi olduqları bilinən simalar... Dalğıc geyimi yeniyetmə Bəsic üzvlərinə böyük idi. Onlar hər dəfə suya girəndə su paltarlarından keçirdi və ağırlıq onları batırırdı, amma yenə də dayanmırdılar. Bədəndən kiçik yeniyetmələr pulemyot kimi ağır silahlar götürürdülər. Bəzən tarazlıqlarını qoruya bilməyib suya batırdılar, lakin nə silahlarını buraxırdılar, nə də növbəti cəhddən ümidlərini üzürdülər. Təlimlərin çətinliyi çoxaldıqca uşaqların fəallığı və səmimiliyi də artırdı. Hər şey hücum və hicrətin yaxınlaşdığından xəbər verirdi.

Uşaqlar qayıq sürməyi məşq edəndə Hacı Böyük Asayiş daşınan mikrofonunu götürüb bir qayıqda oturur, inqilabi nəğmə və mərsiyələr oxuyurdu. İmam Hüseynin (ə) adını eşidəndə uşaqlar çox ruhlanırdılar. Bəzi uşaqların ürəklərinə dammışdı ki, çalışsalar, şəhadət yolunu tapa bilərlər. Seyid Məhəmməd Vətəni və Əli Zarepur Əli Çərtabın bölüyündən idilər. Onların həmin gün çalışmalarından və çəkdikləri əziyyətdən bilinirdi ki, nəsə əldə etmişlər. İbrahim Əlinejad və Cəlal Zahidi də qəribə şövqlə digər bölüklərə təlim keçirdilər.

Təlim və məşqlər davam edirdi. Mən öz bölüyümüzün və Qasim batalyonunun təlimində iştirak etdiyimə görə sevinirdim. Nəhayət, bir gün əməliyyat layihəsi hazır oldu və onu incələyərkən bölüyümüzün tapşırıq yerinin bir hissəsinin boş olduğu üzə çıxdı. Qərara gəldilər ki, bir neçə nəfər oraya gedib bir-iki pusqu səngərini həll etsinlər. Bu iş mənə və başqa iki-üç nəfərə tapşırıldı.

***

O zaman Əli Çərtab və bəzi komandirlər tanışlıq üçün Şətt-Əliyə getdilər. Kəşfiyyat bölüyü uzun müddət öncədən orada işə başlamışdı. Qayıdanda öyrəndim ki, Kərim Hörməti onlarla danışmış və məni kəşfiyyat bölüyünə qaytarmaq üçün təxminən bütün batalyon rəhbərlərinin razılığını almışdı. Lakin mən əməliyyata qədər sevimli batalyonumda qalmaqda qərarlı idim və elə bu günlərə görə kəşfiyyat bölüyündən ayrılmışdım.

Hər yerdə əməliyyatdan söhbət gedirdi. İmam Hüseyn (ə) batalyonunun sıra meydanı gözəl ətrə boyanmışdı. Bir səhər müştərək səhər proqramının olacağına dair sözlər dolaşdı. Cəld hazırlaşdıq və hər batalyon öz yerində dayandı. Birazdan batalyonların hərbi hərəkətləri başlandı.

– Düzlən! Farağat! Diqqət mərkəzə!

Mühüm bir şəxsin gəldiyini təxmin etmək olurdu. Bir qədər oturub-qalxandan sonra aralarından biri tribunaya keçdi. Yanımda bir-iki nəfər pıçıldaşırdı: "Bu kimdir? Nə üçün gəlib?"

Diqqətlə baxıb çıxış edəni tanıdım.

– Rəhim Səfəvidir, Sepahın Quru qoşunlarının komandanı.

Uşaqların həyəcanı artdı və pıçıltılar çoxaldı: "Kim gəlib? Nə danışacaq? Birdən..."

Uşaqlar qorxurdular ki, birdən qardaş Səfəvi əməliyyatın ləğv olunduğunu deməyə gələr. Həyəcanlı anlar idi. Qardaş Səfəvi söhbətə başladı və yavaş-yavaş uşaqların ağlamaq səsləri gəldi. O, əməliyyatın ləğv olunduğunu açıq şəkildə deməsə də, nəsə baş verdiyi bilinirdi. Şayiə bazarı qızışdı və hərə bir söz deməyə başladı. Bəlkə elə o şayiələri bitirmək məqsədilə ertəsi gün əməliyyata hazırlıq ifadə edən bəzi işlər görüldü və hətta bəzilərinə silahlar da verildi. Alın lentləri gələndə isə hamının üzü güldü. Bizim bölüyümüzə verilmiş lentlərin arasında iki-üç yaşıl lent də vardı. Uşaqların bəzisi, o cümlədən, Seyid Məhəmməd Vətəni onlardan axtarırdı. Təsadüfən, o lentlərin üzərinə seyidlərin çox sevdiyi "Ya Zəhra" sözü yazılmışdı. Seyid Məhəmməd qışqırırdı: "Mən seyidəm, gərək alın lentim yaşıl olsun..."

Uşaqlarda həm əməliyyatın başlanması sevinci vardı, həm də ləğvi qorxusu. Çox sual-cavab etmək istəmirdim, amma təcrübə və qəlbim deyirdi ki, əməliyyat olmayacaq. Bir gün diviziya komandiri qardaş Şəriətini dinləmək üçün hamı Qasim batalyonunun sıra meydanına toplaşdı. Bəziləri elə bilirdilər ki, hücum həmin gecə başlayacaq. Mənim kimi bəziləri isə hələ tərəddüd içində idilər. Bəziləri hətta alın lentlərini bağlayıb gəlmişdilər.

– Qardaşlar! Bu sözlər əməliyyatın ləğv olunması demək deyil. Sadəcə olaraq, əməliyyat bəzi səbəblərə görə bir qədər təxirə salınıb. Siz inşallah, məzuniyyətdən qayıdandan sonra əməliyyatda iştirak edəcəksiniz.

Uşaqların ağlamaq və sızıltı səsləri gəldi. Bəziləri başlarına və sinələrinə vurur, bəziləri başlarına torpaq töküb ucadan ağlayırdılar. Ötən günlər hücum həvəsi ilə keçmişdi. Hamının bu intizarın bitdiyini eşitmək istədiyi dəqiqələrdə isə hər şey yenidən təxirə düşürdü. Bu xəbər şəhadət şövqünün hər bir ürək döyüntüsü ilə bədənlərinə qan və ümid verdiyi şəxslərə acı və ağır idi. Qardaş Şəriətinin çıxışı uşaqların səsi ilə bir neçə dəfə dayandı. Heç kimin halı yaxşı deyildi.

***

Cəld hərəkətə hazır olmağımız əmr ediləndə avtobuslar şəxsi heyəti daşımağa hazır vəziyyətdə idilər. Tez çadırları yığıb avtobuslara mindik. Sərhəngiyəni qəm-kədərlə tərk edib Dezfula yola düşdük. Şəhid Bakiri qarnizonunda enəndə bütün şəxsi heyətə məzuniyyət verildi. Təxminən on nəfərdən başqa hamı getdi. Həmin on nəfər qalıb İmam Hüseyn (ə) batalyonunun məscidini hazırlamalı idi: Əhməd Yusifi, İbrahim Əlinejad, Cəlal Zahidi, Əliəkbər Puzeşpəzir, Məhəmməd Səbzi, mən və digərləri.

Namazxana üçün öncədən bir yer təyin olunmuş və torpağı qazılmışdı. Bir yerə toplaşıb məscidin tikintisinə dair təkliflərimizi bölüşdük. Mən yenə diviziyanın anbarını və mövcud imkanları yada salıb dedim: "Anbarda böyük borular var, çadır və kisə də yetərincədir. Millərdən də istifadə edib çadır və kisələrlə örtə bilərik". Bu təklif tez qəbul olundu. Anbara gedib lazımi materialları götürdük.

Əvvəlcə batalyonun həyətində qiblə istiqamətində böyük bir çadır qurduq. Böyük direklərindən məscidin möhkəmliyinə əmin olduq. Qum və çınqıl gətirib məscidin divarını qaldırdıq. İstədiyimizi tikənə qədər bir neçə gün çəkdi. Böyük və yaxşı bir məscid alındı. Orada aramızda belə bir söz yayıldı: "İmam Hüseyn (ə) batalyonunun torpağının hər kvadrat metri 2000 tümən bahalaşdı". Qardaş Səbzi bir mikroavtobus təşkil etdi və hamımız şəhərə qayıtmağa hazırlaşdıq. Tehrana çatanda Əhməd Yusifi təklif etdi ki, uşaqlardan ayrılıb Məşhədə gedək.

Sözünü ciddiyə almadım, amma fikrindən dönmədi. Çox israr edirdi ki, birlikdə İmam Rzanın (ə) ziyarətinə gedək. Tərəddüd içində idim. Bir tərəfdən Təbrizə getmək istəyirdim, digər tərəfdən də Əhmədin həvəsli israrına "yox" deyə bilmirdim. Kərəcə yaxınlaşırdıq. Uşaqlar da məsələdən xəbər tutmuşdular. Qardaş Səbzi son sözü dedi. Üzünü mənə tutub narahat halda dedi: "Bu qədər israr edir, nə üçün getmirsən?!" Dərhal fotoaparatını çıxarıb verdi ki, orada şəklinizi də çəkin. Uşaqlar da "bizim üçün də dua edin" dedilər. Orada maşından enib Tehrana qayıtdıq. Xəzanə avtovağzalından iki bilet alıb Məşhədə yola düşdük. Əhməd Yusifi məni Məşhədə aparan ikinci cəbhə yoldaşım idi. Əvvəl bir dəfə Məhəmməd Məhəmmədpurla İmam Rzanın (ə) ziyarətinə getmişdim. Onda bilmirdim ki, bu iki böyük dost hansı diləklə İmam Rzanın (ə) ziyarətinə gedir və nə deyirlər ki, qəbul olurlar.[1]

Gecə yarısı Məşhədə çatdıq. İlk işimiz məqbərənin yaxınlığında bir mehmanxanada bir otaq tutmaq idi. Əşyalarımızı ora qoyandan dərhal sonra Əhməd dedi: "Qalx, gedək ziyarətə". Sübh çağı idi. Təbillərin səsi ürəkdə qəribə coşqu yaradırdı. Özümüzü məqbərəyə çatdırdıq.

Günorta yemək üçün mehmanxanaya qayıdanda Əhməd ayrı cür olmuşdu. Aclığımızı aradan qaldırmaq üçün bir şey yedik və yenə ziyarətə yollandıq. Mən ziyarət qaydalarını ilk dəfə orada Əhməddən öyrəndim. O, mənə dedi ki, hər bir duanı öz yerində oxumaq yaxşıdır. Ziyarət də belədir: Baş tərəfdən ziyarət, mübarək üz tərəfdən ziyarət və ayaq tərəfdən ziyarət. Həmin gecə Əhmədlə yoldaşlıq naminə məqbərəyə yollandım və səhərə qədər orada qaldıq. Əhmədin qəribə halına təəccüblənirdim. Ziyarətçilər məqbərənin zallarında yatmış və ya uzanmışdılar, amma səhərə qədər nə vaxt Əhmədə baxdımsa, təzim halında idi və üzü göz yaşı ilə islanmışdı. Əhməd həmin aşiqanə səfərin bütün yeddi gecəsində elə qərib halda məqbərədə qaldı. Diqqətlə çalışır və ziyarət əməllərini düzgün yerinə yetirməyə çalışırdı. Az yeyirdi. Həmin bir həftədə heç bir gecəni bütün yatmadı. Rəftarı da dəyişmişdi. Saatlarla məqbərədə oturub Quran oxuyur və ağlayırdı. Necə təvazökarlıq və ümidlə hacətini istədiyini və bu istəkdə necə ixlaslı və ədəbli olduğunu yaxından görürdüm.

---

[1] Məhəmməd Məhəmmədpur Vəlfəcr-8, Əhməd Yusifi isə Nəsr-7 əməliyyatında arzularına çatdılar.

Müqəddəs Məşhəddə olduğumuz müddətdə məqbərədən əlavə Xacə-Rəbi və Xacə Murad kimi digər ziyarətgahlara da getdik. Yeddinci gün vida məqsədi ilə məqbərəyə gedib Əhmədin aram və hüzurlu halını görəndə istədiyinə nail olacağına şübhəm qalmadı.

Mənəviyyat taqımı

I

Qayıdandan üç gün sonra Əhmədi gördüm, dedi ki, gəl cəbhəyə qayıdaq. Əliəkbər Puzeşpəzir də bizimlə idi. Qatara bilet alıb yola düşdük. Şəhid Bakiri qarnizonuna gedirdik. Qatarda yaşlı bir kişi ilə eyni kupeyə düşdük. Bizi görüb çox təəccübləndi. Bizim hər birimizin bir neçə ildir cəbhədə olduğumuza, bir neçə əməliyyatda iştirak edib dəfələrlə yaralandığımıza inana bilmirdi. Əhməd hərdən bəzi xatirələrdən danışıb onu çox təsirləndirirdi. Əliəkbər qulağıma dedi: "Mehdi, bu Əhmədin çoxlu xatirələri var. Sən onu danışdır, mən də səsini yazım".

Beləliklə, qatardan düşənə qədər Əhməd deyilməmiş çoxlu sözləri dedi.

Əndiməşkdə qatardan endik. Oradan Dezfula getdik və beş tümənlə özümüzü Şəhid Bakiri qarnizonuna çatdırdıq. Diviziyanın şəxsi heyətinin ezamiyyətdən dönməsinə hələ bir neçə gün qaldığına görə orada kimisə görməyimizi gözləmirdik. Lakin düşüncəmiz yanlış idi, çünki Cəlal Zahidi ilə İbrahim Əlinejad bizdən öncə şəhərdən qaçmışdılar.

Payız gəlsə də, cənubun havası hələ yay rejimində idi. Gecələr İmam Hüseyn (ə) batalyonunun təsərrüfat anbarında yatırdıq. Oranın havası daha sərin idi. Şəhid Bakiri qarnizonunun bizim batalyonumuzun yaxınlığında yerləşən hamamı yeni açılmışdı. Hələ şəxsi heyət məzuniyyətdən dönmədiyinə görə hamamdan maksimum istifadə etmək olurdu. Hər gün sübh təxminən saat 4-də Cəlal məni oyadırdı: "Qalx, gedək hamama". Birinci dəfə hamama gedəndə Cəlal isti su kranını açdı, hovuzu doldurub isti suya girdi. Mən də elə etdim. Çox rahatladıcı idi. Batalyonlar gələnə qədər iki-üç gün sübh azanından qabaqkı proqramımız isti hovuza girmək oldu. Çox xoşumuz gəlirdi, amma ikimiz də bərk xəstələndik. Xoşbəxtlikdən, Hacı Böyük Cabbarian gəldi və bizə dadlı şorbalar bişirdi.

Həmin günlərdə Cəlalla daha yaxından tanışlıq üçün çox yaxşı fürsət yarandı. Öncə Ayətullah Şəhidi məscidində görüşmüşdük və nisbi tanışlığımız vardı. Ondan sonra isə dostluğumuz möhkəmləndi. Tədricən bütün dostlarımız gəlib yığışdılar. İmam Hüseyn (ə) batalyonu yenidən qələbəlik oldu. Şəxsi heyət gələndən sonra bölgülər başlandı və taqımlar ayrıldı. Mən bu dəfə üçüncü bölüyə düşdüm. Dərhal əmr gəldi ki, birinci bölüyün bütün şəxsi heyəti Seyyidüş-şühəda batalyonuna getsin. Bu xəbər gələn kimi bəzi uşaqların naməlum xəstəliyi başlandı. Diviziya və batalyon komandirlərinin bu yerdəyişməyə yaxşı səbəbləri vardı: İmam Hüseyn (ə) batalyonunun bütün şəxsi heyəti bacarıqlı və təcrübəli idi. Onların bir bölüyünü Seyyidüş-şühəda batalyonuna göndərməklə həm o batalyon güclənərdi, həm də o qədər istedad və yaradıcılıq İmam Hüseyn (ə) batalyonunda passiv qalmazdı. Uşaqların hamısı bunu bilir, amma İmam Hüseyn (ə) batalyonunu çox sevdiklərindən bu yerdəyişmədən yayınmaq üçün hər işə əl atırdılar. O günlərdə yayılan ümumi

xəstəlik bundan qaynaqlanırdı. İş o yerə çatmışdı ki, Seyyidüş-şühəda batalyonunda "bunların əksəri bacarıqsız olduğundan bizim batalyona göndərilirlər" demişdilər. Bəziləri bu xəstəlikdə o qədər irəli getdilər ki, onları yenidən İmam Hüseyn (ə) batalyonuna qaytardılar. Əlbəttə, zaman ötdükcə bu məsələ də həll oldu. İmam Hüseyn (ə) batalyonunda sıravi döyüşçü olanların çoxu digər batalyonlarda taqım və hətta bölük komandiri oldular.

Həmin dəyişikliklər ərəfəsində köhnə dostum Hüseyn Məhəmmədian peyda oldu. Onu görməyə çox sevindim, o isə başqa bir iş üçün gəlmişdi.

– Mehdiqulu, bölüyə qayıtmağın vaxtı çatmayıb?!

Hüseynin sözü yatmış arzumu oyatdı, amma inadkarlığım tutmuşdu: "Nə qədər ki, o, oradadır, oraya ayağımı qoymaram!"

Hüseyn geri çəkilmədi. O, deyirdi ki, indi sənin vəzifən bölüyə qayıtmaqdır. Ürəyimdə bir hiss baş qaldırıb "gəlirəm, gəlirəm" deyirdi, amma şeytan vəsvəsə edirdi ki, sözümün üstündə durum. Hüseyn nə qədər israr etdisə, qəbul etmədim ki etmədim. Hüseyn qardaş Kərim Fəthidən mənim üçün yerdəyişmə vərəqəsi aldığını demədi. Mənsiz qayıtdı, amma onun iti və həssas gözü batalyonda olduğu müddətdə üç nəfəri kəşfiyyat bölüyü üçün oğurlamışdı: Həsən Təyyar, Rəsul Rzazadə və Məhəmmədrza Balud.[1] Məhəmmədrzanın yerdəyişməsi baş tutmadı, amma Rəsul və Həsənin işi tez həll oldu və Hüseynlə birgə gedib onun komandasında işə başladılar.

Hüseynin gəlib-getməsi məni yenə tərəddüdə saldı. Ürəyimdə bir hiss deyirdi: "Sən hara getsən də, axırda kəşfiyyat bölüyünə qayıtmalısan. Sənin müharibədən qismətin kəşfiyyat bölüyüdür..." Bunları düşünə-düşünə öz-özümə deyirdim ki, İmam Hüseyn (ə) batalyonunda olmağım hələlik bilmədiyim bir məsləhətə görədir.

Bir bölüyün Seyyidüş-şühəda batalyonuna verilməsindən sonra batalyonumuzda çoxlu dəyişikliklər baş verdi və birinci bölüyün qalan heyətini bizim bölüyümüzə verdilər. Həmin əsnada qardaş Çərtab məni çağırıb dedi: "Qardaş Zarepur imtahanlarını vermək istəyir. O olmayanda birinci taqıma başçılıq edən lazımdır. Sən hələlik onların çadırına get, görək nə olur". Bu təklif batalyona gələrkən özümə verdiyim sözə zidd olsa da, batalyonda faydalı olmaq ümidilə qəbul etdim. Bəlkə elə bir şərait yaranacaqdı ki, batalyonda qalmaq və ya kəşfiyyat bölüyünə qayıtmaq barədə ciddi bir qərar qəbul edəcəkdim.

II

Mahmud Ağəndə, İbrahim Asayiş, Cəlil Hacınuri və Səməd Salehniya son dəyişiklikdən sonra birinci taqıma qoşulmuşdular. Məsud Fərzamian, Hüseyn Qocayi, Pedram Şakiri, Rza Bədri, Əli Zeynəlabidinzadə, Həbib Şiri, İbrahim Əlipur, Əyyub Rzayi və digərləri də birinci taqımda idilər. Taqımın şəxsi

[1] Məhəmmədrza Balud Şələmçənin müdafiəsi zamanı şəhadətə qovuşdu.

heyətinin əksəriyyəti məni qabaqcadan tanıdığına görə səmimi qarşılandım və çox tezliklə uşaqlarla dostlaşdım.

Hər şeydən öncə iki çox təmiz çadır əldə etdik. Çadırımızın yerini palaz və ədyalla örtdük, girişdə kiçik bir otaq düzəltdik. O otaq həm yağışda ayaqqabılarımızı qoruyurdu, həm qeyri-zəruri əşyalarımız üçün anbar sayılırdı, həm də soyuğun və küləyin qarşısını qismən alırdı. Bu işlərdən sonra taqımımız çox tez bir zamanda bölükdə diqqət cəlb elədi. Uşaqların bir-biri ilə münasibətləri gözəl idi və hər gün ötdükcə hiss edirdim ki, Allah o taqımda olmaq üçün İmam Hüseyn (ə) batalyonunu mənə qismət etmişdir.

Əyyub Rzayi ilə aramda qarşılıqlı ünsiyyət və hörmət artmışdı. Uşaqların hər biri özəl xüsusiyyətlərinə görə gözümü tutmuşdu. Pedram Şakiri 16 yaşında olsa da, döyüş zamanı zirəkliyə və qorxmazlığa çevrilən nadincliklərı ilə diqqətimi çəkirdi. Onun o yaşda və o halda cəbhədə iştirakı digərlərinin əhval-ruhiyyəsini yüksəldirdi. Pedramın çox zarafat edib sataşdığı adam Rza Bədri idi. Rza cəbhəyə ilk dəfə gələndə Pedram ona o qədər "hələ ağzından süd iyi gəlir" demişdi ki, yalnız buna görə şəhərə dönmüş və yenidən cəbhəyə ezam olunmuşdu ki, cəbhəyə ikinci gəlişi olduğunu desin.

Birinci taqıma gəldiyim ilk günlərdə Seyyidüş-şühəda batalyonundan bizim taqıma üç nəfər yolladılar. Onlar bizim çadırımıza girəndən sonra özümü bölük komandirinin səngərinə yetirib dedim: "Qardaş Çərtab, lütfən bu uşaqları başqa bir yerə göndər, mən ki bunları gördüm, nə mənimlə düz gələcəklər, nə də uşaqlarla".

Qardaş Çərtab məntiqli cavab verdi: "Axı hələ onları tanımırsan, qoy yerləşsinlər, görək nə olur".

Çadıra döndüm. Həmin üç nəfər çadırda oturmuşdu. Birincisi kök idi, ikincisi arıq idi və axsayırdı, üçüncüsünün isə hələ bığının yeri göyərməmişdi. Fikirləşirdim ki, taqımımızın ikigünlük qonaqlarıdır və bizimlə düz gəlmədikləri sübut olunan kimi qardaş Çərtab özü onları başqa yerə göndərəcək.

İki gün ötdü, amma xüsusi bir hadisə baş vermədi. Özünü İbrahim Xəlil Xətibi kimi təqdim edən kök kişi o iki gündə əsla danışmamışdı. Fikirləşirdim ki, bəlkə narahatlığı var, ya da bizim aramızda olmaqdan xoşlanmır. Özümü toplayıb ona dedim: "Hacı ağa, Allah səni qorusun, nə üçün bizimlə danışmırsan? Biz sizdən ruhlanmalıyıq, bu qardaşlar..."

– Allah bu qardaşların ata-babalarına rəhmət eləsin!

Yerimdə donub qaldım. Hər bir sözü gözləyirdim, bunu isə yox. Uşaqlar hörmətsizlik olmasın deyə gülüşlərini güclə saxladılar. Elə həmin gündən İbrahim Xəlilin qısa kəlamlarından ibarət sel axını başladı. Heç kim o kəlamların qarşısında özünü saxlaya bilmirdi. Hacı Xəlil bir söz demək üçün ağzını açan kimi uşaqlar gülməyə başlayırdılar.

Bir gün axşamüstü Hacı Xəlil çadırın önündə dayanmışdı. Fikirləşirdim ki, bu şən simanın arxasında başqa sözlər də ola bilər. Düşündüm ki, bəlkə

cəbhəyə gəlişini danışmaq istəyər. Onun səsi düşüncələrimi dağıtdı: "Qardaş, haqqını halal elə".

– Məgər mənə nə etmisən ki, halal edim?!

Batalyonumuzun komandir müavini qardaş Səbzinin səsini eşitdim. Bizim çadırımızın önündən keçirdi. İbrahim Xəlil yenidən dedi: "Yox, gərək məni bağışlayasan". Məsələ ciddiləşdi. Hamımızı maraq götürdü ki, İbrahim Xəlil çatar-çatmaz nə edib ki, belə israrla halallıq istəyir. Qardaş Səbzi deyirdi: "Axı mənə nə etdiyini bilmirəm, necə bağışlayım?!" İbrahim Xəlil məsələyə aydınlıq gətirəndə uşaqların gülüş səsi ərazidə raket effekti verdi.

– Əşi, heç nə. Mən həmişə fikirləşirdim ki, sən düz-əməlli adamsan, amma necə səhvə yol verdiyimi yenicə anlamışam.

İbrahim Xəlil üçün böyük-kiçik, komandir-qeyri komandir fərq etmirdi. O, bu səmimiliyinə görə tezliklə digər taqım və bölüklər arasında da məşhurlaşdı. İş o yerə çatdı ki, İbrahim Xəlili hər gün bir çadıra dəvət edirdilər. Biz arzu edirdik ki, bir gün də öz taqımımızda qalsın. Bəzən uşaqlar gedib ondan vaxt alırdılar ki, öz çadırımıza da baş çəksin.

Bizə qoşulmuş üç qardaşla taqımımız hər cəhətdən - həm zarafat, həm də mənəviyyat baxımından təkmilləşdi. Bizə yeni qoşulmuş arıq gənc olan Abdullah əvvəllər yaralanmışdı və bir ayağı axsayırdı. O, müsəlman və mömin bir döyüşçü anlayışının real nümunəsi idi. Abdullahın mənəvi cəhəti o qədər güclü idi ki, həm danışığı, həm də sükutu bəndəlik ruhu ilə aşıb-daşırdı. Ona baxanda və yanında olanda insan Allahı xatırlayırdı. Həmişə düşünürdüm ki, Məşədi Abdullahın nurlu siması və əlçatmaz halı taqımımızın hörmət və etibarını artırmışdır. O, həqiqətən, Abdullah – yəni Allah bəndəsi idi. Bütün müstəhəb əməlləri yerinə yetirməyə çalışan, həyatı ibadətlə qarışmış azsaylı insanlardan idi və batalyonun kollektiv proqramlarında işin bir ucu onun iradəsinə bağlı olurdu.

Batalyon üçün kreativ bir bak düzəltmişdik. Batalyonun bütün şəxsi heyəti bir yerə toplaşanda böyük bir samovar yerinə ondan istifadə edirdik. Həmin günlərdə Məşədi Abdullahı o bakın yanında tapmaq olardı; çay hazırlamaqla məşğul idi, geniş və nurlu alnında tər damcıları parlayırdı.

Taqım üzvlərinin çoxluğunu nəzərə alıb başqa bir çadır da qurduq. Uşaqların səkkizi gecələr orada yatırdı. Uşaqlar hər gecə birlikdə gecə namazına qalxırdılar. Qərara gəlmişdik ki, kim tez oyansa, digərlərini də oyatsın. Hacı Xəlil gecə namazına çətin oyanırdı, Pedram isə əsla oyanmırdı. Hər gecə hamı oyanıb namaza və duaya hazırlaşanda gözlərimizi taqımımızın qocasına dikirdik ki, bu dəfə hansı əda ilə oyanacaq.

Bir gecə uşaqların biri onu çox səslədi. Hacı İbrahim Xəlil çox zəhmətlə yerindən qalxdı. Bir az dayandı, onu oyadanı qucaqlayıb öpdü, sonra yerindən qalxıb çadırın sonuna getdi. Çətinliklə qapını açmağa çalışırdı, amma orada qapı yox idi. Qapı onun qarşı tərəfində və çadırın bu başında idi. Yuxulu Hacı

İbrahim uşaqların ucadan gülməsinə səbəb oldu. Ona yaxınlaşıb qolundan tutdum və çadırın qapısına tərəf apardım.

Səhər məsələni soruşanda dedi: "Taksiyə minmək istəyirdim, nə illah etdimsə, qapısını açа bilmədim. Əgər sən olmasaydın, orada qapının arxasında qalacaqdım".

Pedram Şakiri də şuluqluqda öndə gedənlərdən idi. O, gecə namazına qalxmadığını bildiyimiz azsaylı adamlardan idi. Bir gecə fikirləşdim ki, onu bir qədər ələ salmağın vaxtıdır. Rza Bədriyə dedim: "Pedram tapşırıb ki, onu da gecə namazına oyadaq. Get, yuxudan oyat".

Rza başının üstünü alıb dedi: "Pedram... Pedram..."

Pedramın yuxusu o qədər dərin idi ki, bir neçə dəfə çağırmaqla oyanan deyildi. Uşaqların hamısı xorla və tərpədə-tərpədə onu çağırırdılar: "Pedram, qalx ayağa! Pedram, qalx ayağa!" Nəhayət, oyanıb dedi: "Nə olub? Sizə nə olub?"

- Qalx! Məgər gecə namazı qılmaq istəmirdin?!

Pedramın hirslənməyi də maraqlı idi.

- Mən?! Mən qələt eləyib gecə namazı qılmaq istəmişəm...

Xoşbəxtlikdən, gecənin yarısı onun yuxusunu kimin pozduğunu bilmədi, yoxsa səhər acığını çıxardı.

Uşaqların arasında dostluq o qədər güclənmişdi ki, bir-birinin ən sirli hallarından da xəbərdar idilər. Taqımın başçısı olduğuma görə bu sədaqət və mehribanlığın mənə təsiri daha böyük idi. Öncədən əsla görmədiyim işləri görürdüm. Çadırda məndən yaşlılar olsa da, hamıya qarşı atalıq hissi keçirirdim. Get-gedə havalar soyuyur və gecələr daha soyuq olurdu. Bütün uşaqların yatdığına əmin olmadan yatmırdım. Sonra kənara düşmüş ədyallarını düzəldirdim. Özümün üç ədyalım vardı, bəzən onları da uşaqların üstünə atırdım. O ədyalların birini Hacı İbrahimə ayırmışdım. Fikirləşirdim ki, digərlərindən yaşlıdır və daha çox üşüyər. O anlarda çox dəyişdiyimi, böyüdüyümü, öncədən dərk etmədiyim çox şeyi anladığımı hiss edir, özümdə bir növ hazırlıq yaradırdım. Nəyim varsa, nə bacarıramsa, taqımımın üzvlərinə vermək istəyirdim. Uşaqlara baxıb onların Allahın pak və ixlaslı bəndələri olduqlarını xatırlayanda onlara başçılıq etdiyimə və lazım olanda əmr verdiyimə görə xəcalət hissi keçirirdim.

Bəzən digər batalyonların şəxsi heyətini öz batalyonumuza səhər yeməyinə dəvət edirdik. Bu, hamının əməkdaşlığına ehtiyaclı olan kollektiv iş idi, birlik və yardımlaşma ruhuna çox müsbət təsir edirdi. Səmimi bir mühitdə vəhdət süfrəsi başında səhər yeməyini yemək bütün döyüşçülər üçün unudulmaz xatirəyə çevrilirdi. Bu mərasimlərdə bizim taqımımızın uşaqları, xüsusən də Mahmud Ağəndə, Məşədi Abdullah və Hacı Xəlil Xətibi əsas işləri görürdülər. Bu işlər sevgi və dostluqları artırırdı.

Taqımımızın uşaqları ilə yekdil qərara gəlmişdik ki, bütün batalyonu taqım-taqım öz çadırımıza dəvət edək. Bu işi gördük və bununla batalyonun bütün

şəxsi heyəti arasında dostluq yarandı. Təxminən hamımız bir-birimizi tanıyırdıq, dostluq və qardaşlıq bazarı qızışmışdı.

Batalyon komandirliyinin bizə qonaq gəldiyi gün hamılıqla hazırladığımız sadə şam yeməyindən yedik, sonra bir-birimizlə daha yaxından tanış olmaq üçün hər kəsin özünü təqdim etməsini təklif etdim. Əvvəlcə İmam Hüseyn (ə) batalyonunun komandiri qardaş Seyid Həsən Şəkuri özünü təqdim etdi. Sonra Məhəmməd Təcəllayi və komandir müavini Balapur özlərini təqdim etdilər. Növbə İbrahim Xəlilə çatdı. O vaxta qədər çox sakit oturmuşdu və yalnız baxırdı. Birdən ucadan və çox sürətlə avtomat kimi başladı: "Salam əleyküm. Bismillahir-Rəhmanir-Rəhim. Mən Hacı İbrahim Xəlil Xətibi Azəri Maralani Təbrizi..." Çadırda aləm bir-birinə dəydi.

Bir dəfə Hacı İbrahim Xəlil narahat halda çadıra girdi. İlk dəfə idi onu belə görürdüm.

– Hacı, nə olub? Niyə narahatsan?

– Sizin mollanız məni narahat edib.

Təəccübləndim. Məqsədi Hacı Əbu Fəllah idi. O, İraq mücahidlərindən idi və İslam ordusuna qoşulmuşdu. Soruşdum ki, məgər nə deyib?

– Deyir ki, kim camaatı güldürsə, yeri cəhənnəmdir. Yəni mənim də yerim cəhənnəmdir.

Bir söz deyə bilmədim. Gülüşümü saxladım və mövzunu dəyişməyə çalışdım. Təsadüfən, həmin gün Seyid Məhəmməd Vətəni boş bir ətir şüşəsini çayla doldurub Hacı İbrahim Xəlilə hədiyyə vermişdi. Həmin hədiyyədən söhbət düşdü. Hacı İbrahim o ətrə görə o qədər sevinmişdi ki, hamıya göstərib deyirdi: "Baxın, görün məhəllə uşağımız mənə nə hədiyə verib. Baxın, öyrənin..." Əyyub Rzayi də onu yaman pərt edib gülə-gülə dedi: "Nə qoyub, nə axtarırsan, Hacı İbrahim?! O, yalnız bir şüşə çaydır..."

Hacı İbrahimin sifəti maraqlı vəziyyətə düşdü, heç nə demədi. Bir qaşı yuxarıda, bir qaşı aşağıda oturub düz Əyyub Rzayiyə baxdı. Onu o görkəmdə görmək də bizi güldürürdü. Nə dediksə, cavab vermədi. Sanki heç bir sözü cavabsız qoymayan Hacı İbrahim deyildi. Onu birtəhər sükutdan çıxarmağa çalışdım.

– Hacı ağa, buyurun...

Birdən sanki minbərin üstündə oturub bizi danlayırmış kimi ucadan və amiranə tərzdə dilləndi: "Siz Seyyidüş-şühədanın qanına xəyanət edirsiz..." Uşaqların gülüş atəşləri çadırın sükutunu darmadağın etdi.

Hacı İbrahim uşaqların yanında hətta narahat halda olanda belə, sevinc və şənlik gətirirdi. Gördüm ki, hacını belə sakitləşdirmək olmayacaq. Dedim: "Hacı ağa, axı nə olub ki, bu qədər narahatsan".

– Nə olub?! Ruhaniniz deyir ki, camaatı güldürənin yeri cəhənnəmdir, hədiyyəniz də ki belə.

- Bəlkə Hacı ağa Əbu Fəllahın dediyi söz nəyinsə əlavəsi olub. Elə bu dəqiqə qalx, get yanına və məsələni aydınlaşdır.

Bizim tövsiyəmizlə nahar da yeməyib dərhal getdi. Bir müddətdən sonra qayıtdı, gülər üzünü görəndə cəhənnəmə getmək fikrindən çıxdığını anladıq.

– Vəziyyət necədir, Hacı İbrahim?

– Gedib ona dedim ki, siz insanları güldürənin yerinin cəhənnəm olduğunu deyirsiniz, uşaqlar da mənim sözlərimə gülürlər, yəni mən cəhənnəm əhliyəm? Hacı Əbu Fəllah dedi ki, sən uşaqları güldürmək üçün nə deyirsən? Mən də sizə dediyim sözlərdən bir-ikisini ona dedim. Bir də gördüm ki, yerə uzanıb, ayaqlarını çadırın divarına söykəyib və gülməkdən uğunub. Sonra da dedi ki, belə sözlərin eybi yoxdur.

Beləliklə, Hacı İbrahim yeni icazəni əsas tutaraq daha arxayın şəkildə çadırlara gedirdi və hamının ürəyində özünə yer açmışdı. Onun həyatı barədə öyrənəndə əqidəsinə, imanına və haqq yolunda möhkəmliyinə qibtə etdik. Hacı İbrahim Xəlil Xətibinin beş övladı vardı. Kürdüstanda döyüşlər başlayanda, ailəsinin ağır vəziyyətinə rəğmən, özünü oraya çatdırıb və bir müddət Şəhid Çəmranın partizan dəstələrində vuruşub. Məzuniyyətə gələndə atası deyib ki, daha onun ailəsini saxlamayacaq və özü bir şey fikirləşməlidir. Hacı Xəlil də cəbhəni tərk etməyəcəyini deyib ailəsini özü ilə Əhvaza aparmış və orada onlara bir yer tapmışdı. Nəhayət, Əliəkbər Rəhbəri[1] ona nəsihət vermişdi ki, belə düzgün deyil, qayıt, inşallah, ailənə bir ev tapandan sonra yenidən gələrsən. İbrahim Xəlil ailəsi ilə Təbrizə qayıtmış və qısa müddətdə gecə-gündüz işləyərək kiçik bir mənzil ala bilmişdi. Ailəsini oraya yerləşdirəndən sonra yenidən cəbhəyə dönmüşdü.

Birinci taqıma gələndən kəşfiyyat bölüyü tam yadımdan çıxmışdı. Nəhayət, bir gün qardaş Çərtab məni bölüyün çadırına apardı. Oradan Əhvazın Hava hücumundan müdafiə qarnizonundakı kəşfiyyat qərargahına getdim və Hüseyn Məhəmmədianın yaralandığını öyrəndim. Qardaş Məhəmməd Məhəmmədi mənimlə çox danışdı və nəhayət, bölüyə qayıtmağa razı saldı. Qardaş Fəthidən göndəriş kağızını alıb Dezfula getdim. Batalyondan ayrılmağım haqda uşaqlara heç nə demədim. Birbaş birinci taqımın çadırına gedib orada qaldım.

Bir-iki gündən sonra qardaş Səbzi məni çağırıb dedi: "Ağa Mehdi, əşyalarını götür, bölüyün çadırına gəl".

Ürəyim üzüldü. Taqımımıza o qədər alışmışdım ki, uşaqlardan ayrılmaq mənə ağır gəlirdi. Çox açıq şəkildə dedim: “Ağa Məhəmməd, mən o taqımdan ayrılan deyiləm”. Qardaş Səbzi çox səbirlə sözünü bir neçə dəfə müxtəlif formalarda təkrarladı. O qədər dedi ki, nəhayət, uşaqlara heç nə demədən əşyalarımı bölüyün çadırına apardım və Seyid Məhəmməd Vətəni dərhal birinci taqımın komandiri oldu.

Taqım komandiri vəzifəsindən çıxdığıma görə sevindim, amma sıravi döyüşçü kimi olsa belə, həmin uşaqlarla qalmaq istəyirdim. Lakin batalyon

[1] O, Seyyidüş-şühəda batalyonunun komandiri idi və Bədr əməliyyatından öncə şəhadətə qovuşdu.

komandirinin istəyi mənimkindən fərqli idi. O, deyirdi: "Sənlə başqa işim var".

Birinci taqımdan ayrılığın ciddi və daimi olduğunu görəndə bölüyə qayıtmağın və ya ən azı, o batalyondan çıxmağın vaxtı çatdığını düşündüm. Məktubu batalyon komandirinə vermək üçün münasib zaman gözləyirdim. Birinci taqıma qayıtmaq fikrini də başımdan çıxarmışdım. Çünki nə qədər fikirləşirdimsə, kəşfiyyat bölüyünün ehtiyacı mənə daha böyük görünürdü. Təsadüfən, elə ilk günlərdə münasib şərait yarandı. Qardaş Səbzi bölüyün çadırına getməmə dair xəbər yollamışdı. Mən də getdim.

– Əşyalarını götür, bizim çadırımıza gəl.

Mənim yerdəyişməmdən xəbəri olan Mahmud Ağəndə dedi: "Hə, oğul! Allah sənə balam deyibdi! Bir gün dəstə,[1] bir gün quruhan,[2] bir gün də qordan!"[3]

O vaxta qədər Əhvazda baş verənlərdən heç nə deməmişdim. Ürəklənib dedim: "Qardaş Səbzi, birinci taqımda mənim yerim çox yaxşı idi".

– Yox, biz batalyonda kəşfiyyat bölüyü yaratmaq istəyirik. Sən də batalyonun kəşfiyyat komandiri olacaqsan. Əməliyyat bölgələrinin izahı üçün də səndən istifadə etmək istəyirik.

Kəşfiyyat bölüyündən narahatlıqla ayrılıb ondan səmimi münasibət gözlədiyim, amma etinasızlığı ilə üzləşdiyim günləri xatırladım. Ümumiyyətlə, son zamanlara qədər mənimlə yaxın münasibətdən qaçırdı. Ona dedim: "Qardaş Səbzi, lütfən göndəriş vərəqəmi imzalayın. Mən kəşfiyyat bölüyünə qayıtmaq istəyirəm". Narahat oldu. Mənə çox ehtiyac duyduğu bəlli idi.

– Xeyr, bölüyə qayıtman lazım deyil.

Qardaş Fəthinin məktubunu hirslə cırdı, lakin mən geri çəkilmədim. Əmin idim ki, o şəraitdə vəzifəm çox tez bölüyə qayıtmaqdır.

– Kəşfiyyat bölüyünün uşaqlarından bir neçəsi yaralanıb. İndi bizim vəzifəmiz orada xidmət etməkdir. Mənim orada olmam sonunda sizin batalyonunuza və bütün şəxsi heyətə faydalıdır.

Məni qucaqlayıb üzümü öpəndə bildim ki, razılaşıb.

– Haqqını halal et, ağa Mehdi.

– Nə üçün?

– Mən əvvəllər sənin barəndə ayrı cür fikirləşirdim. Mənə demişdilər ki, səni kəşfiyyat bölüyündən ixrac ediblər...

– Mühüm deyil. Mən İmam Hüseyn (ə) batalyonuna gələndə özümə söz verdim ki, sadə bir döyüşçü olum – elə də oldu...

---

[1] Taqım
[2] Bölük
[3] Batalyon

Qardaş Səbzinin ilk günlərdəki etinasızlığının səbəbini bilib arxayınlaşdım. İmam Hüseyn (ə) batalyonunda sağollaşdığım yeganə şəxs o oldu. Bilirdim ki, ayrıldığımı bilsələr, uşaqlar da mənim qədər narahat olacaqlar.

Dalğıclar

I

Cəld kəşfiyyat bölüyünün Əhvazdakı düşərgəsinə getdim. Kərim Hörməti məni görən kimi sevinib yaxınlaşdı, salam verəndən və qucaqlayandan sonra dərhal Kərim Fəthinin yanına gedib gəldiyimi xəbər verdi. O şəraitdə hətta bir nəfərin bölüyə qoşulması da işin gedişatına müsbət təsir edirdi. Bilirdim ki, Hüseyn yaralanmazdan öncə "Hur əl-əzim" bölgəsində kəşfiyyat aparırdı. Düşündüm ki, həmin nahiyədə iş hələ də davam edir. Bir qrup kəşfiyyatçı da qərbdə məlumat toplamaqla məşğul idi. Kərim Hörməti mənim tapşırığım haqda danışmazdan öncə özüm təklif etdim ki, Hüseyn Məhəmmədianın komandasında çalışım. O isə dedi: "Oranı düşünmə, daha zəruri işlər var. Öz istiqamətimizdə sənə ehtiyacımız var". Bir söz demədim və qərara gəldik ki, qardaş Hörmətinin başçılıq etdiyi istiqamətdə xidmət edim.

Karun çayının sahilinin bir hissəsində Seyyidüş-şühəda və Əli Əsğər batalyonları təlim üçün yerləşmişdilər. Qardaş Hörməti dedi: "Seyyidüş-şühəda batalyonunun dalğıclıq təlimi bizə tapşırılıb. Sən də bölüklərdən birinin dalğıc müəllimi olmalısan".

– Bu səviyyədə öyrətmək üçün özüm çox şey bilmirəm.

Proqram hazırlandı və iki-üç gün ərzində üzgəclə dalğıclığı və onun müxtəlif məsələlərini tam mənimsədim. Üzgəclə hərəkət, kolon hərəkəti, suda şəxsi heyətin düzülüşü və hətta suda atəş açmaq tərzini də yaxşı öyrəndim. Seyyidüş-şühəda batalyonuna təlim keçməyə hazırlığımı bildirəndə düşmən mövqeyinə ilk hücuma keçəcək dalğıc qrupları yetişdirə biləcəyimə əmin idim.

Seyyidüş-şühəda batalyonunun iki bölüyü ilk hücumçu seçilmişdi. Üçüncü bölük onlara dəstək verəcəkdi. Hər bir hücumçu bölükdən iki taqım dalğıclığı öyrənəcək, başqa bir taqım su-quru qüvvəsi olaraq dəstəkçi rolunu oynayacaqdı. Hücumçu dalğıc taqımlarına təlim keçmək üçün bir qrup kəşfiyyatçı səfərbər olunmuşdu: Həmid Allahyari, Əli Şeyxəlizadə, İbrahim Əsğəri, Mirdavud Hüseyni, Nasir Rzapur, Möhsün Kiyani, Mirisa Həssam və mən. Bu qardaşların əksəri təlim başçısı olmazdan öncə Ərvəndrudun ilkin kəşfiyyatında iştirak etmişdilər. Ərvənd çayı və onun axınları ilə tanış olmaları təlimin keyfiyyətinə böyük təsir edirdi. Onlar Ərvəndin necə çay olduğunu və ondan keçmək üçün dalğıcların hansı bacarıqlara yiyələnməli olduqlarını bilirdilər.

Seyid Möhsün Musəvianın komandirlik etdiyi ikinci bölüyə təlim mənə tapşırıldı. "Bismillah" deyib işə başladım.

1986-cı ilin soyuq qış günlərində düşmən mövqelərinə hücum edəcək şəxsi heyətə qısamüddətli ağır təlimlər başlandı. Təxminən səhər saat 7-də keçirilən səhər proqramından sonra yemək yeyilir və saat 8-dən günortaya qədər təlim

keçirilirdi. Günorta azanı veriləndə bir neçə saatlığa sudan çıxıb bütün gündəlik namazlar kimi günorta namazlarını da hüseyniyyədə və hər iki batalyonla birgə qılırdıq. Namaz və nahardan sonra bir-iki saat istirahət vaxtımız olurdu və çox vaxt iki batalyon arasında futbol yarışı keçirilirdi. Saat 3-də yenidən təlim başlayırdı. Uşaqlar hələ qurumamış dalğıc geyimlərini geyinib Rza Daruiyanın mərsiyələrinə sinə vura-vura Karun çayının sahilinə gedirdilər. Saat 6-da axşam azanı veriləndə sudan çıxırdıq və gecə yarısı yenə suya girib 3 saat məşq edirdik.

Hava elə soyuq idi ki, su axmasaydı, donardı. Elə şəraitdə sutka ərzində 10 saat təlim və məşq yalnız və yalnız eşq qüvvəsi ilə mümkün olurdu. Uşaqların demək olar, hamısı ilk dəfə idi dalğıclıqla məşğul olurdular. Onların çoxu yaxşı üzə də bilmirdilər. Bunların hamısı məsələnin bir tərəfi idi. Havanın çox soyuq, geyimlərin uyğunsuz olması, pis qidalanma şəraiti və saatlarla soyuq suda qalmaqdan yaranan xəstəliklər də məsələnin başqa bir tərəfi idi. Mən hələ Ərvənd çayında olmadığımdan işin digər cəhətlərindən xəbərsiz idim, amma onu yaxından görənlər daha çox narahat idilər. Buna baxmayaraq, Əhməd Məhdəvi kimi döyüşçülər dalğıc dəstələrinə düşmək üçün əllərindən gələni əsirgəmirdilər.

Dalğıc geyimini geyinmək, üzgəcdən istifadə və suda hərəkət ilk təlimlərdən idi. Daha çox hazırlıq üçün suya girməzdən öncə sahildə bəzi məşqlər edirdik. Xüsusən, ayaq üstə velosiped sürmə hərəkəti əzələləri gücləndirmək üçün yaxşı məşq idi və bunu çox təkidlə tapşırırdıq. Əvvəllər gecə döyüşlərindən qaçdığım halda orada hamının çətinlikləri ilə maraqlanmalı idim. Gecə-gündüz uşaqların başının üstündə idim. Onlarla birgə suya girirdim, təlimdən və ümumi izahdan sonra bir-bir uşaqların problemlərini həll etməyə çalışırdım. Bəziləri bir sıra hərəkətləri yerinə yetirməyə çətinlik çəkirdilər, bəzilərinə silah daşımaq, bəzilərinə bədənlərinin müvazinətini qorumaq ağır gəlirdi, böyük bir qisim də fiziki problemlərlə çarpışırdılar.

Fiziki yorğunluq və soyuq işin çətinliyini dəfələrlə artırırdı. İlk dəfə idi ki, o şəraitdə və o genişlikdə dalğıc təlimi keçirilirdi və heç kim uşaqların münasib qidalanması haqda fikirləşmirdi. Karunda qış çox soyuq keçirdi. Hətta sudan bayırda və paltarla da soyuqdan əsirdik. Suyun içində isə soyuq daha da güclənirdi. Kimsə orada hərəkətsiz qalsaydı, soyuqdəymədən həlak olardı. Təlim fasilələrində dalğıc geyimləri qurumurdu və uşaqlar hər dəfə yaş paltarı geyinib əvvəlcə quruda idman edir, sonra suya girirdilər. Bu iş sutka ərzində üç dəfə təkrar olunurdu. Bu isə o demək idi ki, uşaqlar gecə-gündüz soyuqda qalırdılar. Orada yalnız yaxşı qidalanma soyuğa dözümü artıra bilərdi, halbuki uşaqlar həmişə sadə, bəzən də soyuq yeməklər yeyirdilər; nə xurma vardı, nə bal, nə qoz, nə də başqa gücləndirici qidalar. Bütün bunlara baxmayaraq, heç kim vəziyyətdən şikayət etmirdi. Uşaqlar adətən, bədənlərinə böyük olan dalğıc paltarlarını geyinir, standart ağırlıqlar yerinə özlərinə kərpic

və daş bağlayıb Karunun buzlu və bulanıq suyunda saatlarla məşq edirdilər. Nadir Danayi, Məcid Tayfa və digər ürəkli dalğıclar eşqlə suya girirdilər və səma sakini olacaqları bəlli idi.

Bədənimdə soyuğun təsirini görəndə orta yaş hədləri 17 olan döyüşçülərin o şəraitə davam gətirib əməliyyat üçün lazımi bacarıqlara yiyələnəcəklərini qəbul edə bilmirdim. Hərdən keçmiş ağır anları yada salıb özümü ümidləndirirdim ki, bu soyuq su və təlim də onlar kimidir. Müslim ibn Əqil əməliyyatını xatırladım; gecədən səhərə qədər soyuqdan titrədim, hətta üstümə çəkdiyim toz-torpaqlı kisə də kömək etmədi və səhərə qədər dişlərim bir-birinə dəydi. Ağa Mehdini, digər şəhidləri, Bədri və Dəclənin qanlı sahillərini xatırladım... Lakin Karunun vəhşi soyuğu yenə başqa dillə danışırdı və mən o dili başqa heç bir şeylə müqayisə etməyə qadir deyildim.

Uşaqların əksəriyyəti o çətinliklər qarşısında fiziki güclərini itirib xəstələnmişdilər, lakin iki batalyon səviyyəsində baş tutan mənəvi proqramlar ruhlarını bərkidib gücləndirmişdi. Uşaqlar əyinlərinə dalğıc geyimi geyinib Seyyidüş-şühəda batalyonunun məddahı Rza Daruiyanın mərsiyəsinə sinə vura-vura suya girirdilər. İstirahət saatlarında tərk olunmayan proqramlardan biri də əzadarlıq idi. Əhli-beyt (ə) eşqi daxildə elə bir günəş idi ki, onun istisindən qəddar soyuqluq və heç bir dözülməz şərait bizi saxlaya bilmirdi. Həmin günlərdə kəşfiyyat bölüyünün ixlaslı uşaqlarından olan İbrahim Əsğərinin mərsiyə və təvəssülü dilimizin əzbəri olmuşdu.

Gecə idi və təlimə bir neçə saat qalırdı. İbrahimin yanıqlı mərsiyəsi ruhumuza işləyir və iki batalyonun göz yaşları qiyamət qoparırdı. Kərbəlanı yada salmaq dünyanın bütün dərd və müsibətlərini asanlaşdırırdı...

Uşaqlar bu iman və inamla çətinliklərə sinə gərir, bu işdə bir-birindən önə keçməyə çalışırdılar. Təlimdən başqa bir neçə proqram da heç vaxt tərk olunmurdu: səhər idmanı, günorta istirahətində futbol yarışı, şam namazından sonra əzadarlıq. O şəraitdə uşaqların fədakarlığı da möhtəşəm idi. Bəzən Əli Hacıbabayinin səsi batalyonu başına alırdı: "Kimin yuyulmamış paltarı varsa, gətirsin". O, batalyon uşaqlarından bir neçəsinin köməyi ilə böyük bir paltar topasını yuyub sahiblərinə təhvil verirdi.

Günlər ötür, lakin soyuğun şiddəti və təlimin çətinliyi azalmırdı. Allahla mənəvi əlaqə gücləndikcə kollektiv davranışlar da fərqlənirdi. Seyyidüş-şühəda batalyonunun bölükləri bir-biri ilə sağlam rəqabət aparır, dalğıc bacarıqlarında birinci olmağa çalışırdılar. Onlar ehtimal verirdilər ki, hansı bölük daha güclü və məharətli olsa, düşmən mövqeyini ələ keçirməyə də onu göndərəcəklər. Bəzən suda uşaqların damarları dolaşır, əzələləri tutulurdu. Bu zaman fiziki baxımdan güclü olanlar kəskin ağrıya dözə bilirdilər, lakin çoxları bir şey edə bilmirdilər. Bu problemin həllinə də heç bir çarəmiz yox idi. Yeganə yol bu idi ki, ayağımızın damarının dolaşmaq istədiyini hiss edəndə hərəkətsiz qalaq və ağrının öz-özünə keçməsini gözləyək. Lakin soyuq

suyun içində bu iş asan deyildi, çünki bir neçə saniyə hərəkətsiz qalan kimi donmağa başladığımızı hiss edirdik.

Əksəriyyəti təşkil edən bu ixlaslı döyüşçülərdən başqa təlimin ilk həftələrində müxtəlif bəhanələrlə çətinlikdən qaçan azsaylı adamlar da vardı. Uca boyu və güclü bədəni olan birinin yaxınlaşaraq "mənim apendisitim var, qarnım ağrıyır, əzələm qıc olur..." dediyini və öz acizliyini etiraf etdiyini görəndə soyuğu, yorğunluğu və ağrını məsxərə edənlərin ruh yüksəkliyindən, mənəvi əzəmətindən heyrətə gəlirdim. Daha çətin işlər onlar üçün daha dəyərli idi.

***

Kəşfiyyat bölüyünün qərargahı Karunun yaxınlığında dağılmış bir kənddə idi. O boş kəndin bir evini qərargah etmişdik və hər komanda istirahət saatlarında bir otaqda dincəlirdi. Seyyidüş-şühəda batalyonunun hücumçu dalğıclarına təlim keçən komandamız ən zəhmətkeş komandalardan idi. Biz təlimdən və uşaqların problemlərini aradan qaldırandan sonra batalyon və bölük komandirlərinin iclaslarında iştirak edirdik. Bu iclaslarda adətən, əməliyyat haqda müzakirələr gedirdi. Yorğunluqdan tərpənməyə də taqətimiz olmayanda və istirahət üçün kəndə qayıdanda da bölüyün xüsusi proqramları ilə məşğul olurduq. Gündəlik namazları iki batalyon üçün tikilmiş məsciddə camaat namazı şəklində qılırdıq. Hər gün sübh namazından sonra Quran oxuyurduq və qardaşların biri Nəhcül-bəlağənin bir hissəsini oxuyub tərcümə edirdi. Uşaqların həyatında Quranın elə yeri vardı ki, o ağır şəraitdə təlim və kəşfiyyatın məşəqqətlərinə Quransız dözmək olmazdı. Bütün işlərin meyarı Quran və Əhli-beytin davranışı idi. Əli Qəffarpur,[1] Cəfər Haqqu[2] və Əsğər Abbasquluzadə bu dərslərə böyük əhəmiyyət verirdilər. Nəhcül-bəlağə dərsləri adətən, onların otağında keçirilirdi.

Bəziləri hər gün ən azı, bir cüz Quran oxumağı özlərinə vacib etmişdilər. Hər səhər Aşura ziyarətnaməsi, axşamüstü isə Təvəssül duası oxuyurduq. Təvəssül və Kumeyl duaları Aşura diviziyasının hücumçu döyüşçüləri arasında xüsusi mənəvi ab-hava yaradırdı. Seyyidüş-şühəda və Əli Əsğər batalyonlarının, habelə kəşfiyyat bölüyünün bütün döyüşçüləri məscidə yığışırdılar. Duanı Rza Daruiyan başlayırdı, yorulanda isə Məhəmməd Məhəmmədpur davam etdirirdi. Məhəmməd o zaman Rzadan məddahlıq öyrənirdi və o qədər yaxşı oxuyurdu ki, Rza ona deyirdi: "Bizim bazarımızı öldürməyəsən ha!"

Namazxanada Məhəmməd Məhəmmədpurun yanında oturduğum ilk axşam gördüklərimə məəttəl qaldım. Məhəmmədlə ibtidai məktəbdən dost idik. O mənim cəbhəyə gəlməyimə dəfələrlə kömək etmiş, sonra özü də Seyyidüş-şühəda batalyonunun sabit döyüşçülərindən olmuşdu. Bir-birimizlə çox

[1] "Ya Mehdi" əməliyyatında şəhadətə qovuşdu.
[2] Vəlfəcr-8 əməliyyatında şəhid oldu.

səmimi münasibətimiz olsa da, az-az görüşürdük. İmkan olanda Məhəmmədin qaldığı təbliğat çadırına gedirdim. O, mənimlə çox zarafat edirdi. Bəzən mərasimlərdə də yan-yana otururduq. Həmin axşam isə ilk dəfə idi bütün Kumeyl duasında onunla yanaşı oturdum. Məhəmməd elə duanın əvvəlindən ağlamağa başladı. Qəribə zümzümələr edirdi. Gördüm ki, ondan uzaq qaldığım müddətdə çox inkişaf etmişdir. Ondan sonra Məhəmmədin göz yaşlarına, mənəvi halına və sözlərinə qibtə edir, onun yanında daha çox olmağa çalışırdım. Gecənin çoxunu namazla keçirir və çox vaxt ağlayırdı. Dua və münacatı onun nəsə görərək bu qədər kövrək və qərarsız olduğunu açıqca bildirirdi.

Hər gün bir hadisə baş verir və biz digərlərinin mənəvi halları qarşısında xəcalət çəkirdik. Batalyon uşaqları hər gün nəzərəçarpacaq dərəcədə dəyişilirdilər. Hətta Çətirbaz adlandırdığımız su-quru qüvvələri də fərqlənmişdilər. Dalğıcların çəkdiyi böyük əziyyətlərə görə digər batalyonların işinin çətin olmadığı, onlar kimi Karunun dəhşətli soyuğunda gecə-gündüz məşq etmədikləri və nəticədə, daha rahat olduqları nəzərə çarpırdı. Buna baxmayaraq, su-quru qüvvələri də təlimlərdə ciddi şəkildə iştirak edirdilər. Onlar sutkanın əksər saatlarını təmizləmə, taktika, irəliləmə təlimləri və manevrlərlə keçirir, dalğıclara nisbətən əziyyət çəkmədiklərini düşündüklərindən çox ciddi çalışırdılar. Hətta başçıları onlara deyirdi: "Bizim əziyyətlərimiz dalğıcların əziyyəti qarşısında bir şey deyil. Onların bir dəfə suya girmələri ilə də müqayisə oluna bilməz. Buna görə də, biz bacardığımız qədər çalışmalı və mövqe tutulandan sonra əməliyyatı gözəl şəkildə davam etdirməliyik".

Hamı öz işini kiçik sayırdı. Batalyon komandirinin çadırına "Batalyona xidmət çadırı" yazılmışdı. Hər bir komandirin çadır və səngərinin yanında "Ey Hüseyn, komandirlik sənə məxsusdur" cümləsi diqqət çəkirdi.

Kəşfiyyat bölüyündə təlimlərdən başqa işlər də görülürdü. Batalyon uşaqları 9-10 saat suda idilərsə, kəşfiyyatçılar 12-13 saat suda olurdular. Çünki biz həm təlim keçirdik, həm kəşfiyyata gedirdik, həm də kəşfiyyat bölüyünə yeni gəlmiş şəxsi heyətə lazımi işləri öyrədirdik. İclaslarda iştirak edib mövqeləri izah etmək də kəşfiyyatçıların üzərinə düşürdü. Bütün bu iş və məsuliyyətlərə rəğmən, kəşfiyyat bölüyünün uşaqları onlara verilən bir əlavə balıq konservinə görə narahat idilər və xəcalət çəkirdilər. Diviziya rəhbərləri kəşfiyyatçıların fiziki baxımdan güclü olmalarının vacibliyini hamıdan yaxşı dərk edir, buna görə də, bölüyə çox vaxt əlidolu gəlirdilər.

Biz o zaman 15 nəfər bir otaqda qalır, birlikdə yemək yeyirdik. Mən komandanın başçısı kimi bütün işləri uşaqların arasında bölmüşdüm, özüm də nəzarət edirdim.

– Möhsün qardaş,[1] bu gün otağın təmizliyi sənin üzərinə düşür, görüm nə edirsən.

– Həmid, bu gün qabları yumaq sənin növbəndir.

– Buyur, süpürgə!

Bu işlər heç vaxt yerdə qalmırdı, uşaqlar könüllü şəkildə yerinə yetirirdilər. Lakin zarafat üçün olsa belə, səs-küy salıb vəzifələri bölür və hətta işini düzgün yerinə yetirməyənləri cəzalandırırdım. Səngərin küncündə ocaq qalamışdıq və bölükdə bol olan badamların qabığını yandırıb kül edirdik.

– Kim tənbəllik etsə, gərək bir dəfə başını ocağın içinə salsın!

Əli Şeyxəlizadə bəzən zarafata işlərindən boyun qaçıranda tez deyirdim: "Gərək başını ocağa salasan". Hərdən Mirdavud tənbəllik eləyəndə deyirdim ki, cəza olaraq Rzapurun ayağının yarasını təmizləməlisən. Qısası, çətin olsa da, səfalı dövr idi...

***

Batalyonların şəxsi heyəti lazımi bacarıqlara yiyələnəndən sonra təlim boyu qarşıya çıxan məsələləri həll etmək haqda düşündük. Onun ardınca suda manevr mövzusu ortaya çıxdı. Məsələlər kateqoriyalara bölündü və həll yolları göstərildi. Yekdil qərara gəldik ki, düşmən suyun altında atəş açsa, bu, ya məqsədsiz və təsadüfi atış olub kimlərinsə yaralanmasına və ya şəhid olmasına səbəb olacaq, ya da suyun altındakı hərəkətlənməni fərq edib bizim canlı qüvvəmizi dayandırmaq məqsədilə atəş açmış olacaq. Birinci variantda düşmənin kor atəşlərindən yaralananlar səs çıxarmamalı və nəyin bahasına olursa-olsun, sükut qorunmalıdır. Qərara gəldik ki, hücum gecəsi bu məsələni öndə gedən bütün dalğıclara açıqlayaq. Komandirlər əmin idilər ki, uşaqlar bu baxımdan problem yaratmayacaqlar. İkinci variant, yəni düşmənin məqsədyönlü atəşi isə ciddi məsələ idi və şəxsi heyətin hazırlığı üçün digər təlimlərin keçirilməsini vacib edirdi. Düşmən bizim suda olduğumuzu bilsə, uşaqlar əllərindəki yüngül silahlarla suyun içindən cavab atəşi açmağa məcbur olacaqdılar. Bu tədbirlərin ardınca yeni və kreativ məşqlərlə suda atəş təlimi başlandı.

Bir qədər paralel üzgəc vurmaqla bədən suyun üzünə çıxır və bunu davam etdirəndə müvazinət qorunurdu. Bu zaman isə hətta minomyot da atmaq olardı. Lakin başqa bir mühüm məsələ Ərvənd çayının vəziyyəti və onun digər çaylarla, o cümlədən Karunla böyük fərqi idi. Uşaqlara tez-tez deyilirdi ki, Ərvənd çayına nisbətən Karunun axını heçnədir. Ərvəndin axınları, gecə sudan əsən küləklər, iki metrə çatan dalğalar və suyun qabarma-çəkilmələri elədir ki, siz eni 250-500 metr arası dəyişən Karunu asanlıqla keçə bilsəniz, deməli, Ərvənd çayında 4 metr hərəkət edəcəyinizə əmin ola bilərsiniz. Gərək Ərvəndin dəli dalğaları ilə mübarizəyə hazırlığınızı bacardıqca artırasınız.

---

[1] Kəşfiyyat bölüyünün igid dalğıclarından olan Möhsün Kiyani bir neçə gündən sonra Vəlfəcr-8 əməliyyatında şəhadətə qovuşdu.

Biz güclü motorlu qayıqlarla sürətlə dirəklərin yanından keçərək yarım metrdən hündür dalğalar yaradıb şəxsi heyəti Ərvənd çayının vəziyyəti ilə, qismən də olsa, tanış edirdik.

Diviziyanın qalanı Ərvənd çayının kənarında idi. Daha batalyonların yanında qalmaq zəruri olmadığından, kəşfiyyatçılar da oraya daşındılar. Bu daşınmadan iki gün öncə Hüseyn Məhəmmədian ikinci dəfə yanıma gəldi. O, bir az yaxşılaşandan sonra bir müddət idi cəbhəyə dönmüşdü. O, Şətt-Əlidə kəşfiyyat istiqamətinin başçısı idi və bir neçə komanda ilə orada işləyirdi[1]. Hüseyni görən kimi narahatlığını duydum. O, Şətt-Əlidən Abadana getmiş, oradan da bizi görməyə gəlmişdi. Diviziyada qardaş Şəriəti onu görüb demişdi: "Sənin vəzifən başqa bölgədədir. Get, orada ol, buraya nə üçün gəlmisən?!" Bu söz əməliyyat ab-havasından uzaq düşüb Şətt-Əlidə kəşfiyyat aparan Hüseynə ağır gəlmişdi. Çox narahat idi. Məni görən kimi dedi: "Elə bilirlər ki, şəhadət yalnız əməliyyat bölgəsində və döyüş zamanı qismət olur. Bilmirlər ki, Allah adamı harada istəsə, orada da aparır..." Ondan heç vaxt belə söz eşitməmişdim. Onu sakitləşdirə bilmədim. Nə qədər israr etdimsə, gecəni qalmadı, tez Şətt-Əliyə qayıtmaq istəyirdi. Unudulmaz şəkildə bir-birimizi qucaqladıq və yaşlı gözlərlə sağollaşdıq.

Həmin gün Əhvaza yola düşdü və onu daha heç vaxt görmədim.

II

Dalğıclar lazım olan hər şeyi öyrənmişdilər və daha kəşfiyyatçılara ehtiyac yox idi. Mikroavtobus və toyota gəldi. Əşyalarımızı yığıb əməliyyat bölgəsinə yola düşdük. Yolumuz Ərvənd çayının kənarındakı xurmalıqlara idi.

Aşura diviziyasının yerləşdiyi bölgədə Ərvənd çayından ayrılıb xurmalıqlara doğru gedən yeddi qol vardı. Qolların eni təxminən 6 metr, dərinliyi təxminən 3 metr, uzunluğu da 20 km.-ə qədər idi. Bu qollar Ərvəndin kənarındakı xurmalıqları suvarırdı. Əli ibn Əbutalib (ə) qolu kimi məşhur olan bir arxın yanında bir məscid vardı. Kəşfiyyat bölüyü oraya yerləşmişdi. Məsciddə bir otaq tikib üstünü torpaqla örtmüşdülər. Beləliklə, məscidin içində elə bir səngər əmələ gəlmişdi ki, düşmənin hava hücumlarına, top və raket atəşlərinə məruz qalsaydı da, ciddi ziyan görməzdi. Binalardan bu növ istifadənin gizlətmə funksiyası da vardı və bölgədə heç bir artımı göstərmirdi. Diviziyada əksər birləşmələr bu məqama riayət etmişdilər. Məsələn, diviziyanın tibb məntəqəsi orta məktəbdə yerləşmişdi. Son günlərə qədər

[1] Adətən, eyni zamanda müxtəlif yerlərdə kəşfiyyat aparılırdı ki, düşmən əməliyyat yerini öyrənə bilməsin. Canlı qüvvə də əməliyyat bölgəsinə gizlicə aparılırdı və düşmən gözlənilməz hücumla qarşı-qarşıya qalırdı. O zaman kəşfiyyatçılar Ərvənd çayında, Şətt-Əlidə, Mərivanın Min zirvə yüksəkliklərində və digər yerlərdə işləyirdilər. Kəşfiyyatçılar təcrübələrinə əsasən, hansı istiqamətdə hücum ehtimalının zəif olduğunu bilir və yalnız əmrə tabelik səbəbindən əməliyyatdan uzaq qalmaq acısını qəbul edirdilər. Həmin günlərdə Hüseyn Məhəmmədian da bir bölgədə yayındırıcı kəşfiyyatla məşğul olub vəzifəsini yerinə yetirirdi.

diviziyanın qərargahı da həmin zonada idi. Əməliyyata yaxın günlərdə isə üstübağlı səngərlər tikildi və qərargah oraya köçürüldü.

Səngərlər kəndin evlərindən ibarət idi. Lakin məxfilik işi bununla bitmirdi. Bölgədə canlı qüvvə artımının qarşısını almaq üçün uzun müddət idi orada çalışan kəşfiyyatçıların hər biri bir neçə nəfərin işini görürdü. Oraya çatdığım ilk gündə anladım ki, kəşfiyyat bölüyü bir diviziyanın işini görür. Çünki həm hava hücumundan müdafiə onların üzərinə düşürdü, həm tikinti işi, həm təsərrüfat, həm də kəşfiyyat.

Orada arxlardan ibarət cinahlar yaradılmış, istehkamlar qurulmuşdu. Çox yerdə istehkam da yox idi, uşaqlar torpaq dolu kisələri üst-üstə yığıb özlərinə bir yer düzəltmişdilər. Kəşfiyyatın bəzi uşaqları diviziyanın tikinti-mühəndis bölüyündən bir özüboşaldan maşın alıb yol çəkirdilər. Bu işlərdən əlavə, bölgənin zastavalarına ərzağın çatdırılması da onların üzərinə düşürdü və bütün bunlar kəşfiyyat bölüyünün əsas işindən, yəni kəşfiyyatdan və məlumat toplamaqdan əlavə işlər idi.

Kəşfiyyat bölüyünün bir qrup üzvü fevral ayının soyuğunda Ərvənd çayının kənarındakı zahirən sakit bir kənddə təsəvvürolunmaz dərəcədə gərgin rejimdə işləyir, yorğunluğun nə olduğunu bilmirdilər. Oraya çatan kimi bizi məscidə apardılar. Məscidin otaqlarından səngərimizə keçdik. Qrupumuz mehriban və səmimi olsa da, işin çoxluğu və gərginliyi səbəbindən heç kim o birinə diqqət yetirməyə macal tapmamışdı. Boş vaxtlar yalnız qısa istirahətə yetirdi, dərhal yeni bir iş başlayırdı.

Komandirimiz qardaş Kərim Hörməti idi. O, Zeyd bölgəsində kəşfiyyat zamanı minaya düşmüşdü və o vaxtdan ayağı axsayırdı. Bədrdə də yaralanmış və bir müddət şəhərdə müalicə olunmuşdu. Eşitmişdim ki, nisbətən yaxşılaşandan sonra ailəsini dolandırmaq üçün bir zavodda iş tapıbmış. Digər tərəfdən, cəbhənin və kəşfiyyat bölüyünün ona ehtiyacı vardı. Nəhayət, diviziyadan onunla əlaqə saxlayıb deyiblər ki, bacardığı təqdirdə özünü bölgəyə çatdırsın. O da işini və evini Allaha tapşırıb dərhal cəbhəyə gəlmişdi.

Kəşfiyyat bölüyü o bölgəni batalyonların təliminə başlamadan öncə təhvil alıb ilk kəşfiyyatlara başlamışdı. Şəxsi heyət ilk dəfə idi su əməliyyatına hazırlaşırdı. Ərvənd çayının axını, düşmənin bölgədə imkanlarını artırması və işin çoxluğu hamını narahat edir, həyəcanlandırırdı. Bunlardan əlavə, radar məsələsi də vardı. Düşmən bütün əməliyyat bölgələrində radar sistemindən istifadə edirdi. Müharibə onlar tərəfdən bir elektron müharibəyə dönmüşdü. Kəşfiyyatçılar öyrənmişdilər ki, radarlar o bölgədə çox problem yaratmayacaq. Çünki Ərvənddən əsən güclü axın radarların görüntüsünü sıradan çıxarırdı. Həmçinin Ərvənddə yaşayan heyvanlar da radarlarda insanla eyni şəkildə görünürdü. Oradakı radarlar maşınların hərəkətinə nəzarət etmək və izlərini tapmaq kimi işlərə yarayırdı.

Kərim Hörməti günortaya yaxın bölgəyə gəlmiş, qardaş Fəthi ilə söhbətdən öyrənmişdi ki, uşaqlar aciz qalıblar və iş irəliləmir. Özünün daimi təbəssümü

ilə kəşfiyyat bölüyünün komandirini əmin etmişdi ki, problem deyil, elə bu gecə özüm kəşfiyyata gedəcəyəm. Qardaş Hörmətinin bu sözü bəlkə də başqalarına zarafat görünürdü. Çünki digər amillərlə yanaşı, onun son bir ildəki ardıcıl yaralanmaları əlil olmasına gətirib çıxarmışdı. Çoxları düşünürdülər ki, o, suda işləyə bilməz. Onu yaxşı tanıyan qardaş Fəthi isə yalnız bunu demişdi: "Digər uşaqlar yaxşı təlim görmüşlər, amma yaxşı irəliləyə bilməmişlər". Kərim Hörməti də demişdi ki, eybi yoxdur, mən də bu gün təlim görərəm.

– Harada?

– Elə bu çayda.

Çayın içində bir-iki saat dalğıc məşqi etdi və həmin gecə kəşfiyyatçıların biri ilə yola düşdü. Onlar ilk mərhələdə bəndin önündə və suyun içindəki tikanlı məftilləri və günəşəbənzər istehkam millərini arxada qoyub uğurlu və gözlənilməz bir kəşfiyyatdan sonra qərargaha sağ-salamat döndülər. Kərim Hörmətinin işinin təsiri dərhal göründü: Ertəsi gündən kəşfiyyat işi sürətlə davam etməyə başladı.

Diviziyanın kəşfiyyatı iki istiqamətdə işləyirdi. Birinci istiqamətin komandiri Əsğər Abbasquluzadə idi, ikinci istiqamətin komandiri də Kərim Hörməti. Bölgənin həssaslığını nəzərə alaraq, çox tez bir zamanda kəşfiyyatçıları batalyonlara böldülər. Hər bir hücumçu taqıma iki kəşfiyyatçı nəzərdə tutulmuşdu. Ümumilikdə hər istiqamətdə altı-səkkiz kəşfiyyatçı hücumçu dalğıclara yoldaş olacaqdı. Onların hamısı batalyonların təlimindən öncə və sonra Ərvənd çayını və düşmənin bəndini dalğıc kəşfiyyatı ilə öyrənmiş döyüşçülər idilər. Onların üzərinə həqiqətən, mühüm və ağır iş düşürdü. Digər kəşfiyyatçılar əməliyyatın uğurundan istifadə edib batalyonları düşmən mövqelərinin içinə aparıb əməliyyatı davam etdirəcəkdilər.

İlk hücuma keçəcək dalğıc taqımlarına bələdçilik üçün orada uzun müddət işləmiş və bölgə ilə daha yaxından tanış olan kəşfiyyatçıları seçdilər və mən dalğıc əməliyyatından məhrum oldum. Mənə də İmam Hüseyn (ə) batalyonunun yolunu öyrənmək tapşırıldı. O batalyona bələdçiliyin mənim üzərimə düşüb-düşməyəcəyi qəti deyildi, lakin İmam Hüseyn (ə) batalyonunun işinin həssas olduğuna və onlarla mütləq təcrübəli və məlumatlı bir kəşfiyyatçının getməsinin vacibliyinə əsasən, bu işdə faydalı olacağıma ümidvar idim.

Bölgüdən sonra ağır məsuliyyət hissi keçirib bütün səyimi İmam Hüseyn (ə) batalyonunun yolunu öyrənməyə yönəltdim. Yolumuzda qarşıya çıxacaq ehtimalları, gediş yolunu və batalyonun çatacağı nöqtəni müxtəlif cəhətlərdən araşdırırdım.

Göydən çəkilmiş fotolardan, durbinlə müşahidədən və digər araşdırmalardan İmam Hüseyn (ə) batalyonunun əməliyyat zonasının bütün incəliklərini elə öyrəndim ki, hər metrini şərh edə bilərdim. Bilirdim ki, sudan çıxandan sonra filan arxa qədər neçə addım getməli, oradan qayıq formalı

istehkamlara necə çatmaq lazımdır və yolda hansı maneələr var. Hətta bölüklərin işini də eyni diqqətlə araşdırırdım və beynim bölgəni daha çox öyrənməklə məşğul idi.

Hələ sualtı kəşfiyyat davam edirdi. Uşaqlar bizim istiqamətimizdə məşğul idilər. Mənim gecə-gündüzüm də müşahidə postunda, mövqeyi öyrənməklə və havadan çəkilmiş şəkilləri araşdırmaqla keçirdi.

Günlər ötür, iş eyni soyuq və sükut içində davam edirdi. Bir gün günorta namazını qılandan sonra qardaş Hüseyn Əbülqasimzadə sıradan çıxıb önə keçdi. Adətən, iki namazın arasında qısa söhbət olurdu. Həmin gün də qardaş Əbülqasimzadənin söhbət edəcəyini gözlədik, lakin çox keçmədən narahat üzünü gördüm. Səsi tutulmuşdu və kədərli idi. O, dedi: "Bismillahir-Rəhmanir-Rəhim. Bir qəhrəmanın güclü əlindən bir bayraq düşsə, başqa bir qəhrəman onu götürüb meydana getsin!" İmamın bu sözünü eşidəndə hamı kimi mənim də ürəyimə qorxu düşdü. Bildim ki, diviziya komandirlərindən hansınınsa başına bir iş gəlib. Üz və adlar bir-bir təsəvvürümdən keçirdi. Birdən qardaş Əbülqasimzadənin sözü bir zərbə kimi ruhuma endi: "Qardaşımız... Hüseyn... Məhəmmədian..."

Vücudumun dərinliyindən bir fəryad qopdu. Hüseynin dərin gözləri, "ey qardaş mənə hədis söylə" deməsi, mehribanlığı, zirəkliyi və ağıllılığı... Hüseyn... Nə üçün başa düşmədim?! Həmin gün Karunun sahilinə gəlmişdin ki, gedəcəyini söyləyəsən... "Elə bilirlər ki, şəhadət yalnız əməliyyat bölgəsində və döyüş zamanı qismət olur..." Gəlmişdin, həm də kövrək idin. Nə üçün dünən qarnizonun girişində sənin qəlpə dəymiş və bütün şüşələri sınmış maşınını görəndə başa düşmədim?! Nə üçün bu barədə uşaqlardan soruşanda onların şübhəli cavablarından anlaya bilmədim şəhid olduğunu, mənim Hüseynim?! Niyə təxmin etmədim ki, sən bütün yolları qaçmısan və artıq qırmızı uçuş zamanıdır... şəhadət vaxtı...

Kəşfiyyat bölüyünün riyasız uşaqları gözlərim önündə üz-başlarına vurub ağlayırdılar. Uşaqların sızıltıları, ah-nalələri arasında "Hüseyn, Hüseyn" sözlərini eşidirdim, amma özümün nə etdiyimi bilmirdim. Uzun müddət idi hər bir dostun şəhadəti ilə canıma hopan ağır dərd son həddə çatmışdı. Bütün qəm-qüssələrin və həsrətlərin yanında şəhid dostlarımızın şəfaətinə ümid bəsləyir, canımızdan əziz qardaşlarımızın ayrılığına bu ümidlə dözürdük ki, çox keçmədən biz də şəhid karvanına qoşulacağıq. Lakin mənimlə ən yaxşı dostum arasındakı fərqlərə görə, bu düşüncə və ümidlər məni sakitləşdirə bilmirdi. Hüseyn cəbhə və qan dövründə arxalana, ümid bəsləyə biləcəyim bütün yaxşılıqların məcmusu idi, indi isə... Və indi dərk edirdim ki, Yəqub Şikarinin Bədrdə şəhadətindən sonra vəfalı dostu Mehdi Davudini nə üçün gülən görməmişəm...

Səngər ah-nalə ilə dolmuşdu. Hüseynin şəhidliyi bölüyün bütün üzvlərini, ən çox da məni narahat etmişdi. Artıq əmin idim ki, Hüseyn həmişə məni

görür. Həmin riyasız əzadarlığın nə qədər sürdüyünü bilmirəm, amma uşaqlar namazxanadan çıxanda mənə başsağlığı verirdilər.

- Allah səbir versin, Mehdiqulu!

- Allah ruhunu şad eləsin!

Hüseynin şəhadət xəbəri verilən gün mənim növbəti dönüş nöqtəm idi. Ona söz verdim və Allahla əhd bağladım ki, son günə qədər cəbhədə xidmət edim, Hüseynin fikirlərinə əməl etməyə çalışım və onun yolunu özü istədiyi kimi davam etdirim.

Kəşfiyyat bölüyü tərəfindən namazxanada əzadarlıq mərasimi keçirildi. Qardaş Ahəngəranı da dəvət etmişdik. Gözəl əməliyyat ətri də duyulurdu. Vüsal ətrini duyan döyüşçülər məclisə gözəl eşq qatırdılar. Hüseyn Məhəmmədianın şəhadət xəbəri hələ yeni idi və bu xəbəri ilk eşidən hər kəslə birgə mən də çox ağlayır, Allahdan dözüm və Hüseyndən şəfaət istəyirdim.

III

Batalyon və istiqamətlər təyin olunmuşdu. Biz batalyonların kəşfiyyat və bələdçilik işinə məsuliyyət daşıyırdıq. İkinci istiqamətin başçısı qardaş Ələddin Nurməhəmmədzadə, oranın kəşfiyyat komandiri isə Kərim Hörməti idi. Seyyidüş-şühəda batalyonu qardaş Cəmşid Nəzminin, İmam Hüseyn (ə) batalyonu qardaş Seyid Həsən Şəkurinin və Həbib ibn Məzahir batalyonu qardaş Seyid Məcid Fatiminin başçılığı altında bir-birinin ardınca həmin istiqamətdən hücuma keçəcəkdilər. Birinci istiqamətin başçısı da qardaş Abdullah İraqi və həmin istiqamətin kəşfiyyat komandiri qardaş Əsğər Abbasquluzadə idi. Orada da Əli Əsğər batalyonu Mənsur İzzətinin komandirliyi ilə digər batalyonlardan öncə hərəkət edəcəkdi. Mahmud Bəni-Haşimin[1] başçılıq etdiyi Qasim batalyonu Əli Əsğər batalyonuna dəstək verəcəkdi. Seyid Əjdər Mövlayinin başçılıq etdiyi Əbülfəz batalyonu isə növbəti mərhələdə hücuma keçəcəkdi.

Sonralar Vəlfəcr-8 adı ilə məşhur olan bu əməliyyatın məqsədi birinci mərhələdə düşmənin bəndini tutmaq, ikinci mərhələdə Qüds magistralına (Fav-Ümm əl-bihar yoluna) çatmaq və üçüncü mərhələdə Qələbə magistralına (Fav-Bəsrə yoluna) qədər irəliləmək idi.

Bizim istiqamətimizdə üç keçid vardı və hər keçid bir komandanın yolu idi. Kəşfiyyatlar da həmin yollardan baş tuturdu. Hər bir kəşfiyyat adətən, bir saat yarım, bəzən isə üç saatdan artıq sürürdü. Uşaqların suya girdiyi andan onlarla bölük arasında heç bir əlaqə qalmırdı. Kəşfiyyata gedən uşaqların üstündə heç bir rabitə vasitəsi, hətta silah da olmurdu. Bəzən yalnız bir tapança götürürdülər. Çünki kəşfiyyat yerlərində vuruşma qadağan idi, yol getmək üçün də imkan daxilində yüngül olmaq lazım idi. Hər keçiddən bir-birinin ardınca üç nəfər Ərvənd çayına girirdi. Hərəkət üzgəclə idi. Batalyonların

[1] O, Nəsr-7 əməliyyatında şəhadət məqamına nail oldu.

dalğıc komandalarında döyüşçülər arasında əlaqəni qorumaqdan ötrü suyun içində ipdən və ya başqa bir əşyadan istifadə olunurdu. Kəşfiyyatda isə Ərvəndin vəhşi axını qarşısında hər kəs təklikdə mübarizə aparmalı idi və başqasına bel bağlamaq mənasız idi.

Ərvənd çayından keçid hər gecə təkrarlanırdı və Ərvənd öz qərarsızlığını hamıya göstərirdi. Fars körfəzinin qabarma-çəkilmələri Ərvənd çayına güclü və qəfil təsir buraxırdı. Bir sutka ərzində bəzən Ərvənd çayının axını iki dəfə Fars körfəzinə tərəf, iki dəfə də əks istiqamətə - Bəsrəyə tərəf dəyişirdi. Bizi düşündürən ən mühüm məsələ Ərvənd çayından keçid idi. Dəqiq cavablarını tapmadığımız suallar vardı:

İstədiyimiz yerdən çıxmaq üçün qabarma zamanı haradan suya girməliyik?

Suyun tam qabarması dəqiq olaraq, saat neçədə başlayır?

Qabarma və çəkilmə nə qədər uzanır?

Sutka ərzində çayda neçə dəfə qabarma-çəkilmə olur?

Tam qabarma və tam çəkilmədə suyun dərinliyi nə qədər olur?

Ayın günlərində qabarma-çəkilmədə, onun müddətində və suyun dərinliyində dəyişiklik olur, yoxsa yox?

Uşaqlar adətən, tam qabarma zamanı suya girir və qayıdanda suyun çəkilmə zamanına düşürdülər. Onlar əvvəllər öz yollarını tənzimləyib elə yerdən suya girirdilər ki, çıxanda düşmən tərəfdən istədikləri yerdən çıxsınlar. Lakin əmin idilər ki, qayıdanda suya girdikləri yerdən çox uzaqdan çıxacaqlar. Əgər üçüncü arxdan suya girmişdilərsə, qayıdanda birinci arxdan çıxacaqdılar. Bir dəfə suyun qabarma və çəkilməsinin sərtliyi və axının sürəti qayıdanda uşaqları Qəsr qəsəbəsinə aparmışdı. Ora isə nəzərdə tutulmuş yerdən 10 km.-dən çox uzaq idi. Gecə yarısı sudan üç naməlum dalğıcın çıxması Qəsr qəsəbəsindəki müdafiə qüvvələrimizə problem yaratmışdı. Məsələ aydınlaşandan sonra da uşaqları oradan kəşfiyyat bölüyünə aparmaq problemi qarşıya çıxmışdı. Əgər bu hadisə təkrar olunsaydı, kəşfiyyat sirrini qorumaq imkansız olacaqdı. Bu məsələnin əhəmiyyətinə görə, düşüncə və enerjilər ən çox çəkilmə, qabarma və hərəkətlərin vaxtına sərf olunurdu. Ərvənd çayında kəşfiyyat işi başlayandan çəkilmə və qabarmanın başlanma zamanı heç vaxt eyni olmamışdı. Bir gün su saat 9-da qabarmağa başlamışdısa, ertəsi gün 8-də qabarırdı və birisi gün üçün də proqnoz vermək olmurdu. Ayın cazibəsi, fəslin günləri, yağıntının miqdarı – bütün bunlar Ərvənd çayının qabarma-çəkilməsinə ciddi təsir edirdi. Bu məsələ üzərində ciddi elmi işə ehtiyac duyulurdu. Kəşfiyyat bölüyünün uşaqları bu zərurəti hiss edib statistikanı və yeni təcrübələri araşdırmağa başlamışdılar. Baş verən dəyişikliklərin zamanını öyrənmək üçün müxtəlif yerlərdə suyun içində nişanlar qoyulmuşdu. Bəzən suyun səviyyəsi o qədər qalxırdı ki, arxlar aşıb-daşırdı və ətrafdakı xurmalıqları su basırdı.

Mütəxəssislər Ərvənd çayının ötən on ildəki qabarma və çəkilmə statistikasını hazırlayıb bizə vermişdilər. Həmin məlumatlara və mövcud

vəziyyətə əsasən, ciddi tədqiqat və araşdırma davam edirdi. Hücum baharda, ya da yayda olsaydı, həmin statistikalara əsasən, qabarma və çəkilmənin müxtəlif günlərdəki səviyyəsini bəlkə də təyin etmək olardı, amma payız və qışda mövcud vəziyyət statistikaya ciddi təsir edirdi. Çünki Ərvəndin suyunun çox və ya azlığı yağıntıdan asılı idi və axınları dəyişdirən ən mühüm amil bu idi.

Bütün bunlara əsasən, vəhşi Ərvəndi və ondan keçmək məsələsini öyrənməklə biz yalnız düşmənlə mübarizə aparmırdıq, qarşıdakı əməliyyat həm də insan imanının və iradəsinin təbiət üzərində qələbəsi üçün idi.

Biz sahildə bütün bu problemlərlə qarşı-qarşıya qalmışdıq. Tam qabarmaya görə bir neçə dəqiqəliyə sakitləşmiş Ərvəndi arxada qoyandan sonra digər problemlər başlayırdı. Əgər düşmən sahilinə çatanda çayın suyu hələ qabarma halında olsaydı, günəşəbənzər millər və tikanlı məftillər suyun altında qalacaq və onlardan keçmək asan olmayacaqdı. Lakin bəzən suyun axarı naməlum səbəbdən qəfildən dəyişir və dəli dalğaların sürəti uşaqların önünü kəsirdi. Uşaqların bütün qüvvəsi əks istiqamətli dalğalarla mübarizəyə sərf olunurdu və yorğunluqdan sürətləri zəifləyirdi. Elə bir şəraitdə onlar maneələrə çatanda çəkilmə başlanmış və suyun səviyyəsi enmiş olurdu. Düşmənin sahilinə çatarkən bir neçə dəqiqə gecikmək günəşəbənzər millərlə və tikanlı məftillərlə qarşılaşmaq demək idi. Elə olduqda uşaqlar düşmənin öz keçidlərindən istifadə etməyə məcbur olacaqdılar. Öncəki dəqiq kəşfiyyatlara görə, bu keçidlərdən istifadə mümkün idi. Bəzi hissələrdə günəşəbənzər istehkam milləri bir-birindən insan keçidi qədər aralı olurdu və oradan keçmək mümkün idi. Uşaqlar kəşfiyyat zamanı tikanlı məftilləri açır, qayıdanda yenidən bağlayırdılar ki, düşmən bilməsin.

Düşmən sahilində başqa bir problem hərəkət tərzi idi. Kəşfiyyatçılar heç bir şəraitdə iz buraxmamalı idilər. Xoşbəxtlikdən, düşmənin sahili palçıq idi və Ərvəndin axınlarına görə bataqlığa çevrilmişdi. Bataqlıq ayaq izini tez örtürdü. Lakin uşaqlar sahildən uzaqlaşdıqca daha ehtiyatlı olmalı idilər. Çünki ayaq izi 2-4 saata qədər yerdə qalırdı. Bu problemi həll etməkdən ötrü uşaqlar düşmən sahilindən getdikləri yolu yadda saxlayıb gələndə həmin yolla qayıdır və ayaq izlərini təmizləməyə çalışırdılar; ya əllə, ya da hətta yerdə sürüşməklə. Çünki belə olanda yerdə iz qalsaydı da, insan izinə oxşamırdı və düşmən uzaqbaşı gecə heyvanların orada olduqlarını düşünəcəkdi.

Keşikçilərin sayıqlığı və səngərlərin necəliyi də mühüm məsələ idi və uşaqlar hər dəfə qayıdanda onu xatırladırdılar. Düşmən bəndindəki səngərlər Bədr əməliyyatında gördüyümüzdən çox fərqlənirdi. Üstübağlı səngərlərin hamısı betondan idi və bir-birinə yapışmışdı. Səngərlərdə atəş açmaq üçün dəliklər də nəzərdə tutulmuşdu. Düşmən suyun səviyyəsindən təxminən 20 metr hündürü, habelə sağ və solunu tam görürdü. Yəni bütün səngərlər eyni zamanda atəş açsaydılar, yerdən 20 metr hündürlüyə qədər bütün bölgə gülləyə tuş gələrdi. Bu vəziyyətdə hücum gecəsi müvəffəqiyyətlə çıxış etmək

yalnız Allaha təvəkküllə və İmam Mehdinin (ə) rəhbərliyi ilə mümkün ola bilərdi.

Əməliyyat istiqamətlərində kəşfiyyat işi bitəndə və istiqamətlərin bağlanması əmr olunanda Aşura diviziyasının bütün istiqamətində hətta düşmənlə bir rastlaşma və döyüş baş verməmişdi. İslam döyüşçülərinin sayıqlığı, ciddiliyi və Allaha təvəkkülü işi o mərhələyə qədər yad gözlərdən uzaqda apara bilmişdi. Bölgənin mühafizəsi o qədər aktiv idi ki, hətta bölgədə işləyən kəşfiyyatçılar da bəzən problemlə üzləşir və onların maneələrindən keçmək üçün xüsusi yollar axtarırdılar. Bölgəyə giriş üçün hər kəsin və ya nəqliyyat vasitəsinin xüsusi icazə vərəqəsi olmalı idi. Əks təqdirdə, kim olsaydı və hansı iş üçün getsəydi belə, buraxılış məntəqəsində saxlanırdı. Bu icazə vərəqələri Abadanın girişindən, hətta Əhvazın yol polisindən yoxlanırdı.

Biz bir neçə dəfə postları keçmək üçün xüsusi yollara əl atmalı olduq. Bir nəfəri postdan keçirmək üçün əlində icazə vərəqəsi olan bir adam rahatlıqla keçir, postun o tərəfində keçid vərəqəsini bölgədən çıxan adama verirdi və çıxışda müəyyən bir adama verməsini istəyirdi. Əlbəttə, bu iş icazə vərəqəsi almağa imkan olmayan təcili hallarda yalnız tanıdığımız kəşfiyyatçılar arasında icra olunurdu.

Bölgəyə gedib-gəlmək üçün arxasında baqaj kabinləri olan Suv toyotalardan istifadə edirdik. Bölgəyə giriş-çıxış, hətta avtomobillərin içindəki adamların sayı diqqətlə qeyd olunurdu. Həmin proqrama uyğun olaraq, canlı qüvvə üstübağlı maşınlarla, o cümlədən üstünə brezent çadır çəkilmiş özüboşaldanlarla və ya konteynerli iri yük maşınları ilə bölgəyə daşındı. Sözügedən mühafizə ciddiliyinə görə düşmən əməliyyat gününə qədər zonanın ordu tərəfindən Sepaha təhvil verildiyini bilmədi, o qədər canlı qüvvənin daşınması Allahın köməyi ilə casusların və peyklərin[1] gözündən uzaq qaldı.

Bölgədə tikinti işləri çox sürətlənmişdi. Kəşfiyyatın Hüseyn Səfaşur kimi bəzi uşaqları ağır tikinti maşınlarını da idarə edirdilər. Ağır maşınların sürücüləri bəzən işin həssaslığını yaxşı dərk etmir və problem yaradırdılar. Bu baxımdan, bütün işləri uşaqlar öz üzərlərinə götürdülər ki, təyin olunmuş günə qədər düşmən böyük hücum hazırlığından xəbər tutmasın.

Son günlər qərib günlər idi; həm darıxmaq çoxalırdı, həm də həzz almaq. Mən Hüseyndən sonra gördüklərimin yeni mənalarını anlayırdım. Xurmalıq sığınacağım olmuşdu. Xurma ağaclarına çoxlu vəsiyyətlər yazılırdı. Namazlar, göz yaşları, dualar, Allaha və şəhidlərə ürək sözləri... Bəzi günlərdə istirahət imkanı yaranan məhdud dəqiqələrdə xurmalıq təkliyə çəkilmək üçün ən yaxşı yer idi.

[1] Ərvənd çayındakı əməliyyat bölgəsində kosmik aparatlar və Ərəbistanın AEW&C - Uzaq Radiolokasiya Aşkarlama və İdarəetmə təyyarələri də Səddam rejiminə kəşfiyyat və informasiya dəstəyi verirdi.

Hərdən fikirləşirdim ki, bu xurmalıq olmasaydı, Hüseyndən ayrılıq və onu bir də bu dünyada görməmək fikri mənə çox çətin gələrdi. Qürub çağında xurmalıqda xüsusi ab-hava vardı; Əmirəlmöminin İmam Əlinin (ə) yalqızlığını və qəm-kədərini təsəvvür edirdim. Şəhid dostlarımı xatırlamadan, demək olar, bir günüm keçmirdi. Qüssənin ağırlığından xurmalıqda ağlayırdım. Sanki bütün şəhidlər orada idilər. Bəzən uşaqlarla birgə oturub ağa Mehdidən və digər şəhidlərdən danışırdıq. Hamı əminliklə deyirdi: "Əgər ağa Mehdi olmasaydı, biz işi buraya çatdıra bilməzdik. Şəhidlər də bizi yad edirlər. Heç bir iş görməsələr də, kəşfiyyat və hücum gecələrində bizə dua edirlər". Hər gün baş verən yüzlərlə hadisənin yalnız biri kifayət edirdi ki, qəlb gözləri açıq olanlar Ərvəndin güllə və qəlpə dolu sahilinə Allahın xüsusi rəhmətinin endiyini görsünlər.

Zona tədricən dəyişirdi. Əməliyyat yoluna çınqıl yayırdılar. İstiqamət və batalyon komandirləri bölgə ilə tanış olmaq üçün daim get-gəldə idilər. Tədricən ağır silahlar gətirildi və canlı qüvvəni yerləşdirmək üçün münasib yerlərin axtarışına başlandı.

Kəşfiyyat bölüyünün işi azalmamışdı. Hər gün bir şəklə düşürdü, amma ağırlığı və əhəmiyyəti yerində idi. Uşaqlar gecə-gündüz çalışır, əməliyyatın yaxınlaşdığını göstərən hər bir şeyi görüb yorğunluqlarını çıxarırdılar. Əməliyyat yolunu çəkib bitirdiyimiz səhər böyük səhər idi. Əli Şeyxəlizadə ilə birgə yolda ilk addımlarımızı atdıq. Əli dəyişmişdi; yolda qaçır, gülür, atılıb-düşür, mayallaq aşır və qışqırırdı: "Bu, əməliyyat yoludur, əməliyyat yolu!" Və mənim artıq o qədər təcrübəm var idi ki, Əlinin də bu əməliyyatda azadlığa qovuşacağına əmin oldum.

Bölgə ilə tanış olmağa gəlmiş komandir və zabitlər bir daha suya aparıldılar. Onlar çox irəliləyib təyin olunmuş tapşırıq yerlərini gördülər. Ağıllısı bu idi ki, hücum gecəsinə qədər əməliyyat zonasında və Ərvəndin içindəki keçidlərdə qələbəlik olmasın. Hamımız bundan ehtiyatlanırdıq. Batalyonlar o vaxta qədər iki bölgədə yerləşmişdilər; hücumçu batalyonlar Karunun sahilində idilər, dəstəkçi batalyonlar da Bəhmənşirdə.

Bütün canlı qüvvə daşınandan sonra qərara alındı ki, hücumçu batalyonlar çayın dördüncü qolunun kənarında yerləşsinlər. İmam Hüseyn (ə) batalyonunun yerləşdiyi yer isə həm bizə, həm də qərargaha yaxın bir kənddə idi. Arxların kənarında və Ərvənd çayının yaxınlığındakı zastavalar təxminən səkkiz taqım olan hücumçu dalğıclar üçün nəzərdə tutulmuşdu. Qərara alınmışdı ki, batalyonlar arxlara yaxın olsunlar, çünki oradan qayıqlara minib hərəkət edəcəkdilər və çayla məsafələri nə qədər az olsaydı, sürət bir o qədər çox olardı.

Şətt-Əlidə işləyən kəşfiyyatçılar bizim yanımıza gəlmişdilər. Məhəmməd Purnəcəf də onların arasında idi. Hüseyn şəhid olanda yanındakı yeganə adam o idi. Deyirdi ki, Hüseyn başına dəyən xırda bir qəlpə zərbəsindən şəhadətə qovuşdu; sakit və səssiz.

Qədim dostları görmək narahatlığımı azaldırdı. Əməliyyatdan bir gün öncə qədim dostum Məhəmməd Məhəmmədpuru görmək üçün Seyyidüş-şühəda batalyonuna getdim. O, həmişəki kimi yenə də dedi: "Mehdi, daha bu dəfə gələcəyəm, bir yerdə olacağıq". Həmin günlərdə qəlbi sınmışdı, narahat və tənha idi. Təəssüf ki, bəziləri onun haqqında yanlış sözlər demişdilər. Onun gündəlik namazları da ağlamaqla sona çatırdı, o ki qala gecə namazlarına və gizli münacatlarına. Həmin gün birlikdə şəkil çəkdirdik. Qayıdanda qucaqlaşıb öpüşdük. Məhəmməd gülə-gülə dedi: "Gördux-görmədux! Həlal elə!" Güldüm və sözünü təkrarladım.

Diviziyada əməliyyat müzakirələri başlamışdı. Əmrə əsasən, əməliyyatın ikinci mərhələsini və İmam Hüseyn (ə) batalyonunun istiqamətini diqqətlə araşdırmışdım, amma hələ həmin batalyonda olub-olmayacağıma əmin deyildim. İmam Hüseyn (ə) batalyonunun komandir müavini Məhəmməd Səbzi iclasdan qayıdanda yanıma gəlib gülə-gülə dedi: "Qalx, şələ-şüləni yığışdır, gedək!"

Səhər çağı İmam Hüseyn (ə) batalyonuna getdik, amma mən uşaqları görə bilmədim. Çıxış proqramı üçün bölüyə qayıtmalı idim. Bölüyün bütün uşaqları toplaşmışdılar. Qardaş Fəthi söhbətə başlayıb yenidən mühüm məqamları xatırlatdı: "Lazım olsa, canınızı da əsirgəməyin. Uşaqlar sizə baxırlar, sizin iştirakınız onlarda ruh yüksəkliyi yaradır. Harada olmağınız bir düyünü açacaqsa, mütləq oraya gedin... Əməliyyatın səhərinə qədər harada olsanız və hansı işi məsləhət bilsəniz, görün, amma səhər çağı sahildəki estakadaya və təyin olunmuş səngərə qayıdın".

Qardaş Fəthinin söhbətinin son hissəsi, yəni səhər çağı qayıtmaq məsələsi ürəyimizcə deyildi, amma heç kim səhəri fikirləşmirdi. Əməliyyat gecəsində şəhadətə ümid olduqca böyük idi və bizi həvəslə irəli aparan da bu idi.

Təbəssümlər, gözlər, salamlar – hər şey xüsusi rəngə boyanmışdı. Qardaş Faiqi bir kənarda dayanıb uşaqların son anlarını və vida səhnələrini lentə köçürürdü. Ərvəndin sahilindəki başsız xurma ağacları uzun müddət imamın həqiqi müntəzirlərinin gecə namazlarındakı qərib və yanıqlı pıçıltılarını eşitmiş, şəhid dostlarının ayrılığına görə gizli ağlamalarını görmüşdü, indi də onların dünya ilə gözəl vida səhnələrinə şahid olurdu.

Əməliyyatın parolu "Ya Fatimətüz-Zəhra" idi. Bu parol Bədr əməliyyatında da döyüşçülərin dilindən düşməmiş, onlara qol-qanad vermişdi. Kəşfiyyat bölüyündə olduğum bir neçə saatda tanış üzlərə doyunca baxdım. Məhəmmədrza Mehrpak gözümün önündə idi. O, bəzilərinin düşündüyünün əksinə olaraq, çox nadinc idi. Bəziləri onu yaxşı tanımırdılar. Bəlkə buna görə ki, halını gizli saxlamağı bacarırdı. Yaxşı qələmi vardı və gözəl yazırdı. Hərdən dəftər-qələmini götürüb məscidin küncündə otururdu. Biz də pusqu qurub gözləyir, yazısını bitirən kimi başının üstünü alırdıq.

O, bizdən xurmalığa qaçırdı. Ardınca qaçıb israrla yazılarını oxumaq istəyirdik, o isə vermirdi. Həmin günlərdə Məhəmmədrza bacısı oğluna cavab

olaraq yazmaq istədiyi bir kitabdan bəhs edirdi. O, deyirdi: "Tehranda bacım oğlu ilə dama çıxmışdım. Orada məndən soruşdu: "Dayı, deyirlər Allah göydədir. Bəs hanı? Allahı göstər, görüm". Orada ona yaxşı cavab verə bilmədim. İndi isə ona cavab olaraq bir kitab yazıram".

İki-üç gün öncə qardaş Fəthi bölüyün bütün uşaqlarından ona ürəklərindən gələni yazmalarını istəmişdi. Özü təkidlə deyirdi ki, bu yazıların böyük dəyəri var və sonradan onlardan istifadə edəcək. Mehrpak da bu istəyə "ləbbeyk" deyənlərdən idi və yazırdı.

Hərəkət zamanı gəlmişdi. Hücumçu dalğıclar öncədən yola düşmüşdülər. Günəş batmaq üzrə idi. Buludlar səmanı qarışdırmışdı və mənim ürəyim yağış müjdəsi verirdi. Göz yaşları ilə islanmış üzləri görməyə taqətim yox idi. Cəbhəni özlərinə ev və həyat etmiş uşaqlar belə vida səhnələrini dəfələrlə görmüş, sonra isə çiyinlərində dostlarının cəsədlərini daşımışdılar. Onların "birdən yenə qalaram" fikirləri yalnız göz yaşı ilə ifadə olunurdu. Gödəkcəm çiynimdə idi. Dedim: "Uşaqlar, daha gedək". Bu sözü deyib heç kimlə sağollaşmadan kəşfiyyat bölüyündən ayrıldım. Kiminsə gəlib "haqqını halal et" deməsini istəmirdim. Heç kimdən zərrə qədər incik deyildim və bilirdim ki, komandirimiz Kərim Fəthidən başqa heç kimi incitməmişəm.

İmam Hüseyn (ə) batalyonuna çatanda xurmalığın müxtəlif yerlərindən uşaqların azan səsləri gəlirdi. Mikrofondan istifadə qadağan idi və hər kəs öz halına uyğun olaraq, azan deyir, münacat edirdi. Rza Xeyri,[1] Yəqub Əlizadə və başqa bir-iki nəfər Seyyidüş-şühəda batalyonunun son bölüyünə qoşulmağa gedirdilər. Uşaqlar onlara qibtə edirdilər, çünki onlar hücumun ilk mərhələsində Seyyidüş-şühəda batalyonu ilə düşmən mövqeyinə girəcəkdilər. Onları bir-bir qucaqlayırdılar, hıçqırtılı ağlamalarından çiyinləri tərpənirdi. Bu səhnələr canımı yandırırdı. Onlar bir saatdan sonra hücuma keçəcəkdilər və yalnız bir saat gecikdiklərinə görə belə qərarsız idilər... Əməliyyatdan öncəki anlarda üçüncü bölüyün birinci taqımının mənəviyyatlı uşaqları arasında olmaq istəyirdim. Mən ən şirin xatirələrimi o taqımda yaşamışdım. Soruşa-soruşa otaqlarını tapdım.

Qapını açan kimi qaranlıq, ah-nalə və "ya Hüseyn" zümzümələri ilə rastlaşdım. Orada başqa bir aləm vardı. Hacı Xəlil başını Cəlil Hacınurinin çiyninə qoymuşdu. Bir-birini qucaqlayıb elə ağlayırdılar ki, sanki son vidalarıdır. İbrahim Xəlil məni görüb qucaqladı. Çoxdan idi bir-birimizi görmürdük. Hamı ağlayırdı. Hacı Xəlil ağlaya-ağlaya yavaşca qulağıma dedi: "Sən gedəndən sonra daha heç kim gecələr üstümə ədyal atmır, ağa Mehdi!" Qəribə xəcalət hissi keçirdim. Onlarla çox şey öyrənmişdim. Rəhmətin nazil olduğu anlarda mənəviyyat və səmimiyyətləri məni də ağladırdı. Namaz vaxtı idi və mən namazımı orada qıldım.

[1] O, Kərbəla-5 əməliyyatında şəhadət şərbətini içdi.

Ərvəndin quşları

I

1986-cı ilin 9 fevral gecəsi dalğıcların hərəkət vaxtı idi. Narahat idim. Orada nə qədər çox qalsaydım, ayrılmağım bir o qədər çətinləşəcəkdi. Cəld bir-bir hamısını öpüb halallıq istədim. Özümü İmam Hüseyn (ə) batalyonunun komandiri qardaş Seyid Həsən Şəkuriyə çatdırmalı idim. Narahat idim, amma batalyon rəhbərlərinin bizim qədər narahat olduqlarını görmürdüm. Bəlkə də biz vəziyyətdən xəbərdar olduğumuza görə çox narahat idik; proqnoz edilməmiş problem və hadisələr, Ərvəndin dəli dalğaları... Onların yanında qala bilməyib bayıra çıxdım. Yaxınlıqdakı bir təpəyə gedib-gəlirdim. Hücumçulardan olmayıb döyüşün başlandığı anlara uzaqdan baxmağım az olmuşdu. Ratsiya arxasında hücumçu qüvvələrin zəngini gözləyən uşaqların halını anlayırdım. Yağış bəzən qısa müddətə dayanır, sonra yenidən yağmağa başlayırdı. Öz-özümə düşünürdüm ki, görəsən, indi dalğıclar haradadırlar? Döyüş başlamayıb ki? Bu axşam fırtına var, birdən uşaqlar suda qalıb mövqeyə çata bilməzlər!

Təpədən endim. Batalyon rəhbərləri şəxsi heyəti hazırlayır və hansı bölüyün hansı qayıqlarla öndən gedəcəyini təyin edirdilər. Qərara gəldilər ki, ilk qayıqda mən birinci bölüyün komandiri Mustafa Pişqədəmlə və bölükdən bir neçə döyüşçü ilə hərəkət edim. İşlər bilinəndən sonra uşaqların hərəsi bir tərəfdə dua oxumağa başladılar. Mən yenidən təpənin üstünə çıxıb gözümü qarşıya dikdim. İlk döyüş oradan başlayacaqdı. Çəkilmə və qabarmanı, düşmənin hazırlığını, silah, səngər və keşikçilərini fikirləşməkdən bezdim. Uşaqların asta dua səsləri məni bir az sakitləşdirdi. Birdən ilk səslər gəldi. Kərbəla diviziyası istiqamətində bir qədər qarşılıqlı atışma oldu və yenə sükut başladı.

Əməliyyatlarda adətən, ilk atəşi düşmən açırdı, sonra bizimkilər döyüşə başlayırdılar. İndi isə sükutun mənasını anlamırdım. Beşdəqiqəlik sükutu iztirab tufanları arasında yaşadım. Təxminən gecə saat 12-də öz istiqamətimizdən gələn düşmən güllələrinin səsi sükutu pozdu və atışma başlandı. Güman ki Aşura diviziyasının dalğıcları mövqeyə çatmışdılar. Birdən səs kəsildi və yenə ətrafa sükut çökdü.

Çox çətin anlar idi. Hücumçu qüvvələrin yanında olmadığıma görə təəssüflənirdim. Nigaranlıqdan nə edəcəyimi bilmirdim. Sükut bu dəfə 10 dəqiqədən çox sürdü və bu müddətdə uşaqların fikri məni çox narahat etdi.

Birdən bizim sahildən atışma başlandı. Müharibə boyu ilk dəfə idi düşmənin başına belə güclü atəş yağırdı. Ötən gecə sahilə yüngül və ağır silahlar, top və katyuşalar yerləşdirilmişdi və bir anda bütün silahlar düşmən bəndini hədəf seçmişdi. Nəhayət, ratsiya dilləndi: "Tez uşaqları hazırlayın, yola çıxın!" Mustafa ilə mən yan-yana qaçırdıq. Tez özümüzü qayığa

çatdırdıq. Bizim arxamızca bütün batalyon qayıqların gözlədiyi çaya doğru qaçdı. Yaxşı bilirdim ki, bir qədər gecikmək suyun səviyyəsinin azalmağa başlaması və qayıqların palçığa batması demək idi.[1] Biz tərpənəndən sonra digər qayıqlar da yola düşdülər. Uzaqda işıqlı nöqtə kimi parlayıb bizi özünə çağıran nişana doğru irəliləyirdik. Uşaqların biri fənərlə işarə verirdi və biz Ərvənddən keçərkən problemlə üzləşmədik. Yalnız sol tərəfdən düşmən bizə atəş açırdı. Hələ bənd tərəfdən arxayınlaşmamışdım. Düşmən bənddə bizi gözləyər və biz vuruşmağa məcbur ola bilərdik.

Ərvəndi tanıyırdıq. Həmin gecə arabir yağış yağsa da, ən sakit gecələrdən idi. Bəndin yaxınlığında maneələrə çatanda Rza Daruiyanın tanış üzünü gördüm. Dalğıc geyimində dəyişmişdi. Qayıq tikanlı məftillərə çatdı. Xoşbəxtlikdən, uşaqlar tikanlı məftilləri açmışdılar və yol açıq idi. Rza da məni suda görüb çağırırdı: "Mehdiqulu, sizsiz?"

Ona yaxınlaşanda qayığı tutub istiqamətini düzəltdi. Bir neçə metr öndə daha qayıqla getmək mümkün deyildi. Cəld suya atıldıq. Su dizdən yuxarı idi. Sahilə doğru getdik.

Bəndin üstündə dalğıcların hərəsi bir tərəfə qaçırdı. Onların çarpışdığı soyuğu hiss edə bilirdim. Kimə çatırdımsa, "Salam. Yorulmayasınız!" - deyirdim, amma uşaqlar o qədər yorğun idilər ki, bizim xoş-beşimizə cavab verməyə halları qalmamışdı.

– Uşaxlar, yaxçı hesablarına yetişdiz.[2] Yorulmiyəsiz!

Onlar Ərvəndin eninə iki saatdan çox üzüb düşmən bəndinə hücum etmişdilər. Soyuq və yorğunluq onlarda taqət qoymasa da, hələ səngərləri təmizləməklə məşğul idilər. Yolumun üstündə olan ilk səngərə girdim. Başının qanı bütün üzünü örtmüş İbrahim Əsğərini gördüm. Qəlpə başını dərin yaralamışdı. Bir az onunla danışmağın əhval-ruhiyyəsinə müsbət təsir edəcəyini düşündüm. Amma məni görən kimi qışqırdı: "Siz nə üçün buraya gəldiniz?" Bildim ki, halı normal deyil və mən o vəziyyətdə ona kömək edə bilmərəm. Odur ki, səngərdən çıxdım.

Qayıqlar sahilin yaxınlığında dayanır və şəxsi heyət sürətlə bəndə doğru gəlirdi. Onları irəliyə aparmaq zamanı idi. Əməliyyatdan öncəki günlərdə müşahidə postundan durbinlə baxarkən, kəşfiyyata gedərkən və göydən çəkilmiş şəkilləri incələyərkən düşündüklərim real olaraq önümdə idi. Elə gedirdim ki, sanki orada dəfələrlə gəzmişəm, yolları, istehkamları və təpələri tanıyıram. Yolumuz haraya qədər davam etdiyini bildiyim bir arxın üzərindən keçirdi. Mustafa Pişqədəm silahını əlində tutub tez-tez arxamca gəlirdi, onun arxasınca da İmam Hüseyn (ə) batalyonu. Mən kolonun önündə silahsız gedirdim. Birdən mənim beş addımlığımda iki nəfər qalxıb ərəbcə nəsə dedi. Mustafa avtomatla onların sözünü kəsdi. Ondan sonra qərara gəldik ki, yolu

[1] Sonralar eşitdim ki, bəzi bölüklərdə belə də olmuşdu.
[2] Yaxşı dərslərini verdiz.

magistraldan kənarda və ikinci istehkamın yanı ilə davam etdirək. Uşaqları istehkamın digər tərəfinə apardım. Bu müddətdə Kərim Hörmətinin heç kimə heç nə demədən İmam Hüseyn (ə) batalyonunun şəxsi heyəti ilə gəldiyini bilmirdim. Orada məni tanıyan uşaqların biri dedi: "O dostun şəhid oldu". Məqsədi Kərim Hörməti idi. Anlaya bilmirdim ki, onlar Kərim Hörmətini bizim istiqamətimizdə necə görüblər. Xəbərə pis oldum, amma vəzifəm şəxsi heyətə bələdçilik etmək idi və hər bir acı xəbərə dözməli idim.

İkinci mövqeyin qərb kənarı ilə irəliləyərkən birdən yanımızda istehkama bir tank mərmisi düşdü. Bildik ki, bizi nişan almışlar. Tez şəxsi heyəti mövqeyin şərq hissəsinə, yəni bir qədər əvvəl getdiyimiz tərəfə apardım. Özüm silah götürməmişdim və döyüşə qatılmadan cəld qərar verə, yolu dəyişməklə uşaqları nəzərdə tutulmuş yerə çatana qədər atəşdən uzaq saxlaya bilirdim. Birinci bənd boyu davam edən ikinci mövqeyi dövrə vurub birbaş qayıq şəkilli istehkamlara çatırdıq. Bu istehkamlar düşmənin üçüncü müdafiə cərgəsi idi və xüsusi formasına görə onlardan keçmək çox çətin idi. Həmin ərazidə bir düşərgə vardı və uşaqlarımız onun güclü atəşi altında qalmışdılar. Ora üçbucaq istehkamın bir tərəfini təşkil edirdi və biz istehkamın digər tərəfindən keçib düşməni arxada qoymaq istəyirdik. Oradakı düşmənlər sonradan bizə maneçilik törətməsinlər deyə onları məhv etməyə bir komanda göndərdik. Onların qayıtmasını gözləməyə vaxt yox idi. Cəld kolonu apardım və tezliklə qayıq şəkilli istehkamlara çatdıq. Bir qədər yuxarıda bölüklər bir-birindən ayrılacaq, ikinci və üçüncü bölüklər irəli gedəcəkdilər. Rza Ənkutiyə tapşırdım ki, yolu davam etdirsin. O, getdi, mənsə Məhəmməd Əsədi[1] ilə qaldım. Birinci bölüyü sol tərəfə yönəltdim. Çox keçmədən qarşımızda bir magistral yol peyda oldu. Araşdırmalardan bilirdim ki, bu yolların hamısı Qüds magistralı ilə birləşir. Lakin mənim nəzərdə tutduğum yol düşmən zastavalarından birinin yaxınlığında idi və biz hələ oraya çatmamışdıq. Havanın qaranlığı məni daha çox şübhəyə saldı. Bəlkə o zastavadan keçmişik və xəbərimiz olmayıb. Birinci bölüyün komandiri Mustafa Pişqədəm yanımda idi. Yavaşca ona dedim: "Ağa Mustafa, sən burada qal, mən ətrafa bir göz atım, görüm zastava var, yoxsa yox". Rəhman Hərati ilə Məhəmməd Əsədini çağırdım: "Rəhman, sən sağ tərəfə get, Məhəmməd də sol tərəfə gedir. 200 metr irəliləyin və tez qayıdın". Özüm də düz getdim. Seyyidüş-şühəda batalyonunun su-quru qüvvələrinin yerləşdiyi yerə çatdım. Onlardan soruşanda dedilər: "Zastava irəlidədir. İraqlılar oradan bizə atəş açırlar". Bildim ki, yolu düz gəlmişik. Tez qayıtdım. Fikirləşirdim ki, gec qayıtdığıma görə uşaqlar nigaran qalarlar. Təxminən əmin idim ki, Rəhman və Məhəmməd artıq qayıtmışlar.

[1] Rza Ənkuti və Məhəmməd Əsədi kəşfiyyat bölüyündən idilər və biz birlikdə İmam Hüseyn (ə) batalyonuna bələdçilik edirdik.

Təxminim düz idi; qardaş Pişqədəm nigaran qalmışdı. Məhəmməd Əsədi də yanında idi. Şəxsi heyəti tez bir zamanda yola çatdırmağa tələsirdim. Yola düşmək istəyəndə sağ tərəfdən qara geyimli iki nəfərin bizə yaxınlaşdığını gördüm. Yolumuzun əvvəlində iki iraqlı ilə rastlaşdığımıza görə, uşaqlar yenə düşmən olacaqlarından və hər an atəşə məruz qalacaqlarından qorxub önə keçdilər. Mənim gördüyümü Mustafa da gördü. O, silahını qaldırdı və əlimlə silahının lüləsini endirmədən öncə atəş açdı.

– Vurma, Mustafa, özümüzünkülərdir.

Ürəyim üzüldü. Düşündüm ki, birdən Rəhman olar. Həyəcanla qaçdım. Çatanda gördüm ki, güllə Rəhman Həratinin düz alnına dəyib. O, sakitcə ruhlar aləminə qanad çalmışdı. Yanındakı Böyük Şəmsəlizadə isə belindən yaralanmışdı. O vaxta qədər onun da Rəhmanla getdiyini bilmirdim. Tibb işçisi tez gəldi. Ona "Tez bunlarla məşğul ol" - deyib ayağa qalxdım. Dayanmaq olmazdı, hərəkət etməli idik. Rəhmanın şəhid olduğuna görə Mustafa Pişqədəmin üzünə elə qəm-kədər çökdü ki, baxa bilmirdim.

Kolonumuz yola çatdı. Düşündüm ki, bu yolla getsək, zastava bizə maneçilik törətməz. Bir neçə tərəfdən düşmənin atəşi altında idik. Mustafa ilə birgə uşaqların amanını kəsmiş PK və DŞK pulemyotları tərəfə getdik. Ora dağılmış bir kəndin qalığı idi. Kəndin önündən keçən çay qurumuşdu, ətrafında yaşıllıq və qamışlıq görünürdü. Çayın o tərəfindən 15-20 metr aralıda düşmən səngərləri vardı. Mövqeyi araşdırdım. Oradan dayanmadan bizə atəş açırdılar. Avtomat səsləri bir an da kəsilmirdi. Səngərə 2-3 RPG raketi atıldı, amma təsirsiz oldu. İrəliyə getməyə də imkan yox idi. Şəxsi heyət səngərin aramsız atəşi altında qalmışdı. Bölüyün cəsur və qorxmaz uşaqları özlərini bizə çatdırıb səngərə yaxınlaşmaq və onu zərərsizləşdirmək üçün icazə istəyirdilər. Qərara gəldim ki, könüllü olan Seyid Məhəmməd Vətəni ilə birgə gedim. Lakin hərəkət etməyə macal tapmadım. Əhməd Yusifi özünü çatdırıb əminliklə dedi: "Ağa Mehdi, mən tez gedib məsələni həll edə bilərəm".

Bilirdim ki, Əhməd bu işin öhdəsindən yaxşı gələr. O, dedi: "Siz yalnız güclü atəş açın və mən oraya çatana qədər başlarını qarışdırın". O, qalxdı, biz də barmaqlarımızla tətiyi sıxıb saxladıq. Əhməd qısaboy, amma enlikürək idi. Bir neçə saniyə ərzində özünü səngərə çatdırıb divarına söykəndi. Başının üstündə bir dəlik vardı, bizə oradan atəş açırdılar. Düşmən Əhmədin orada olduğunu öyrənməmiş cəld əl qumbarasını çəkib dəlikdən içəri atdı və sürətlə səngərdən bir neçə addım uzaqlaşıb təkbir deyə-deyə yerə uzandı. Bir anın içində səngər və içindəki hər şey güclü alovla birgə göyə uçdu. Deyəsən, qumbara silah qutusunun üstünə düşmüş və eyni zamanda onlarla partlayış baş vermişdi.

Bu partlayış həmin istiqamətdə vuruşan düşmənlərin qəlbinə qorxu saldı, iyirmidən artıq iraqlı dərhal əllərini qaldıraraq bayıra çıxdılar.

Şəxsi heyətin verdiyi itkiləri araşdırmağa imkan yaranmışdı. Kərim Əzimi, Kərim Corabbaf və Rəsul Rəcəbpur orada 60 kalibrli raketin qəlpəsindən yaralanmışdılar.

Canlı qüvvəni yerbəyer edib yola düşdük. Bir neçə dəqiqədən sonra Fav-əl-Bihar yoluna, yəni Qüds magistralına çatdıq. Bütün istiqamət boyu magistrala çatmış ilk döyüşçülər idik. İmam Hüseyn (ə) batalyonunun sağ cinahdan irəliləyən ikinci və üçüncü bölükləri ilə əlaqə saxladıq. Onlar da magistralın yaxınlığına qədər gəlmişdilər, amma deyirdilər ki, xurmalıq tərəfdən açılan atəşlərə görə dayanmışlar.

Canlı qüvvə magistralda yerləşdi, amma mən rahatlaşa bilmirdim. Qərara gəldim ki, irəliyə gedib məlumat toplayım. Qaranlıq gecədə arabir yağış yağıb ətrafa baxış üçün əlverişsiz şərait yaratsa da, bölgəni öyrənməyi çox istəyirdim. Məhəmməd Əsədini götürüb yola düşdüm. Təxminən 700 metr irəlidə başqa bir magistral çəkilmişdi. O, Qələbə magistralı idi.

Qələbə magistralı Favdan Bəsrəyə qədər çəkilmişdi və oranı Həbib batalyonu götürəcəkdi. Yolun üzərinə nazik asfalt çəkmişdilər. Yenə içimdə bir şübhə baş qaldırdı ki, birdən bura Qüds magistralı olar və biz şəxsi heyəti səhvən qabaqkı yolda yerləşdirmiş olarıq. Çünki bu iki magistral arasında heç bir düşmənlə rastlaşmadıq. Yenidən beynimdə araşdırmaya başladım və bütün dəlilləri nəzərə alandan sonra əmin oldum ki, səhv etməmişəm. Sonra isə Qüds magistralına qayıtdım.

O fasilədə Kərbəla diviziyası sol cinahdan bizə çatmışdı. İmam Hüseyn (ə) batalyonunun komandirini tapıb dedim: "Ağa Seyid Həsən, imkan varsa, qərargahla əlaqə saxlayın və biz şəxsi heyəti Qələbə magistralına aparaq".

- Yox, buna lüzum yoxdur.

- Əgər biz bütün gecəni burada qalsaq, səhər Qələbə magistralı istiqamətindən bizə problem yarana bilər. Düşmən səhərə qədər oranı doldura bilər.

İsrar etdim ki, əlaqə saxlayıb vəziyyəti izah etsin. Əlaqə saxladı, amma diviziya komandirinin cavabı da Qüds magistralında qalmaq oldu. Məncə, səbəbi bu idi ki, batalyon çox səpələnməsin və təmizləmə işi asanlıqla baş tutsun. Çünki Qasim batalyonu hələ Qüds magistralına çatmamışdı və o şəraitdə bizim Qələbə magistralına getməyimiz düşmənə cinah verməyimizə səbəb olardı. Belə olduqda da düşmən bizim qüvvələrimizi asanlıqla qayçılaya bilərdi.

Üçüncü bölüyə getdim. Qələbə mehi əsirdi, hər kəs sevincindən mayallaq aşırdı. Uşaqların arasında gəzirdim. Onların təbəssümü mənə yaxşı təsir bağışlayırdı. Hacı İbrahim Xəlili axtarırdım. Nəhayət, onu gördüm. Arxası üstə uzanıb göyə baxırdı.

– Salam, hacı.

Üzü güldü. İbrahim Xəlilin baxışında qələbə şövqü başqa cür parlayırdı. Yanında oturdum. Gedəsi olduğunu aydın hiss edirdim. Xüsusən ona görə ki,

ağlayıb yalvarmaqla və vasitəçi tapmaqla hücumda iştirak etməyə icazə aldığını görmüşdüm.

– Hacı Xəlil, çantanda yeməyə bir şey var, yoxsa yox?

Çantasını açıb qarşıma qoydu. O gecə həmişəkindən də mehriban idi. Bir neçə dəqiqə yanında oturdum. Halı fərqli idi, çox danışmadı.

– Yerini öyrəndim. İmkan olsa, yenə gələcəyəm. Hələlik Allaha əmanət!

Bunu deyib qardaş Mustafa Pişqədəmi görməyə getdim.

Gecənin sonları idi və havada xüsusi təravət vardı. Azan ətri insan qəlbini vəcdə gətirirdi. Fikrim Mustafada qalmışdı. Onun yanına çatanda sübh namazına hazırlaşırdı. Orada təyəmmüm aldıq və yan-yana namaza başladıq. Mustafa çox kədərli idi, mən də nə deməli olduğumu bilmirdim. Hava işıqlaşmağa başlayanda dedim: "Ağa Mustafa, mən seyidin yanına gedirəm, görüm vəziyyət necədir". O, yenə heç nə demədi.

Hava işıqlanırdı və mən ətrafda gəzişən itləri aydın görə bilirdim. Gördüyüm hər bir iti güllə ilə vururdum, şəhidlərin cəsədlərinə yaxınlaşmalarından qorxurdum. Quduz olub-olmadıqları da bəlli deyildi. Seyid Həsən Şəkurinin yanına getməyə tələsərkən birdən uzaqdan bir ekskavator diqqətimi çəkdi. Yaxınlaşanda gördüm ki, İmam Hüseyn (ə) batalyonu onu düşməndən qənimət götürüb və magistral üzərində istehkam qurur. Sürücü o qədər kiçik idi ki, kuzada görünmürdü.[1]

Qardaş Şəkurinin yanına çatdım.

– Ağa seyid, günəş çıxıb, yenə komandirlə əlaqə saxla, Qələbə magistralına gedək.

– Yox, ağa Mehdi, lazım deyil.

– Onda mən gedim görüm magistralın vəziyyəti necədir.

Yaxınlığımda ən uyğun adam Əli Zeynəlabidinzadə idi. Birlikdə yola düşdük. Qarşımızdakı istehkamlar düşərgəyə bənzər şəkildə düzəldilmişdi, amma heç bir səs və hərəkət yox idi. İstehkama daxil olanda məni qorxu bürüdü. Ora gözlənilməz şəkildə boş idi. Çiyin-çiyinə istehkamın uzununa ehtiyatla gəzdik. Ora düşərgə üçün hazırlanmış yerə bənzəyirdi, amma bir döyüşçünün olduğunu göstərən silah və ya başqa bir əşya yox idi. Düşərgənin sonundakı istehkama çatıb ehtiyatla yuxarı qalxdıq. Qələbə magistralı qarşımızda idi. Hər şey eynilə gecə təxmin etdiyim kimi idi. Magistralın o tərəfində qara bir nöqtə hərəkət edirdi. Bir düşmən kolonunun magistrala doğru irəlilədiyini bilmək üçün azca diqqət kifayət edirdi. Təxminən bir taqım idi, çox yavaşca və ehtiyatla irəliləyirdi.

– Əli, gərək tez seyidə deyək uşaqları gətirsin.

[1] Sonradan Fərəc Quluzadədən öyrəndim ki, ekskavatorun sürücüsü Marağadan bir Bəsic üzvü olan yeniyetmə imiş. O, varlı bir ailənin ikinci oğlu idi, qardaşı cəbhəyə gedəndən sonra o da yalvararaq, qardaşını vasitə salaraq cəbhəyə getməyə və əməliyyatda iştirak etməyə icazə almışdı.

Ehtiyatla getdiyimiz bütün yolu qaça-qaça qayıtdıq. Məsələni Seyid Həsən Şəkuriyə dedik, o da komandirlə əlaqə saxladı.

İstehkam boyunca gəzərkən yenidən gözüm Hacı İbrahim Xəlilə düşdü. Məni görən kimi çağırdı: "Ağa Mehdi, deyəsən, qarşıdan bizi incidirlər, gərək özüm gedib məsələni həll edim".

Təbəssümlə ondan ayrıldım. Hələ də uzanmışdı və tanış təbəssüm üzündə idi.

Düşmənlə vuruşmaq və ya Qələbə magistralına irəliləməyə dair əmr gəlməmişdi. Günəş yavaş-yavaş qalxır və havanın soyuqluğunu azaldırdı. Qardaş Fəthinin əmrinə əsasən, səhər açılan kimi bütün kəşfiyyatçılar özlərini sahilə çatdırmalı idilər. Qardaş Şəkurini tapıb dedim: "Ağa seyid, mənimlə işiniz yoxdursa, görüm qardaş Fəthinin əmri nədir?"

– Get, Allah amanında!

Sağollaşıb İmam Hüseyn (ə) batalyonunun komandirinin də olduğu yolla bəndə qayıtdım. Yolda çoxlu ekskavator və buldozer gördüm. Ağır texnikanın yanından yenicə keçmişdim ki, bir neçə nəfərin gülüş səsi diqqətimi cəlb etdi. Ləhcələrindən Nəcəf diviziyasından olduqlarını anladım. Onlar bir düşmən cəsədini dövrəyə almışdılar. Biri cəsədə təpik vurub deyirdi: "Fərsiz, saatın yox idisə, nə üçün müharibəyə gəlirdin?!"

Dostları güldülər. Məni də gülmək tutdu. Onlara dedim: "Məgər siz bikarsınız?! Gedin işinizin ardınca!" Onlardan uzaqlaşıb gecə dalğıclar tərəfindən ələ keçirilmiş birinci düşmən mövqeyinə yola düşdüm. Hələ iyirmi addım uzaqlaşmamış yerdə bir saat görüb götürdüm. Yəqin həmin bədbəxtin imiş.[1]

II

Yolboyu tanış üzləri görmək istəyirdim, amma yolda get-gəl edənlər əksərən digər diviziyaların uşaqları idilər. Xoşbəxtlikdən, Seyyidüş-şühəda batalyonunun şəxsi heyətindən iki-üç nəfəri gördüm. Batalyonun komandiri Cəmşid Nəzmi də orada idi. Bu isə o demək idi ki, batalyonun bütün şəxsi heyəti oraya yerləşmişdi və mən Məhəmməd Məhəmmədpuru görə bilərdim. Batalyonun uşaqlarından çoxunu tanıyırdım. Onlarla hal-əhval tutarkən Hadi Nəqdi ilə Söhrabinin bir müddət lal-dinməz mənə baxdıqlarını gördüm. Uşaqlarla sağollaşmaq istəyəndə Hadi yaxınlaşıb dedi: "Mehdi, Məhəmməd səni gözləyir". Məqsədi Məhəmməd Məhəmmədpur idi. Soruşdum ki, haradadır?

[1] Müharibə boyu götürdüyüm bir neçə qənimətdən biri də o saat idi. Sonralar onu kəşfiyyat bölüyünün ən zirək uşaqlarından olan Yusif Həqqayiyə hədiyyə verdim. O, Kərbəla-5 əməliyyatının hücumçu heyətinin yanında qəhrəmancasına döyüşdən sonra şəhadətə qovuşdu və Rəhmət vadisi məzarlığında dostlarının yanında dəfn olundu.

– Buradan get, o cığıra çatanda sola dön. Çayın üstündəki piyada körpüsünü keçəndən sonra görəcəksən.

Hadinin məni hansı tərəfə yönəltdiyinə diqqət yetirmədim. Məhəmmədi görməyi elə istəyirdim ki, hətta onun orada təkbaşına nə etdiyini də soruşmadım. Dediyi istiqamətə yola düşüb körpüyə çatdım. Keçmək istəyəndə qarşıda geniş və boş bir ərazi gördüm. Qürbət hissi qəlbimi parçaladı. Çayın kənarında gəzib Məhəmmədi gözləməyə başladım. Sakitlik idi və nigaranlığım hər an artırdı. Gəzə-gəzə çaydan uzaqlaşdım. Təxminən yüz metr irəlidə, o geniş və boş torpaqda bir nəfər tək-tənha yerə yıxılmışdı. Ətrafıma baxdım. Heç kəs yox idi. Ürəyimə dammışdı ki, bizim uşaqlardandır. Necə yalqız və qərib şəhid olduğunu düşünə-düşünə ona yaxınlaşdım. Yaşıl pasdar köynəyi ayaqlarımın taqətini üzdü, daha addım ata bilmədim. Üzü üstə yerə yıxılmışdı və mən onu arxadan görürdüm. Saçından Məhəmmədə oxşayırdı... Boy-buxunu, hərəkətsiz qolları...

– Məhəmməd, sən burada nə edirsən?! Nə üçün təksən?!..

İnana bilmirdim ki, o qərib şəhid mənim uşaqlıq dostum Məhəmməddir. Başını yerdən qaldırdım. Üzünün bir tərəfi göyərmişdi.

Onu öpürdüm, gözlərimdən ixtiyarsız axan yaş onun göyərmiş və torpaqlı üzünə tökülürdü. Saçını tumarlayıb göz yaşı içində onunla bütün xatirələrimi yadıma saldım: Şərbətzadə məscidində Quran dərsləri, birinci sinif, "O kişi gəldi", "İnqilab qələbə çaldı", Şərbətzadə məscidinin 6 saylı Müqavimət mərkəzi... Hər yerdə birlikdə idik. Nəhayət, bir gün sən cəbhəyə getdin, mən qaldım. Sən qayıdanda da mən getdim. Nəhayət, elə bir gün gəldi ki, hər ikimiz cəbhədə olduq. İndi də mən qalmışam, bəs sən haradasan?! Haradasan, Məhəmməd?!..

Qucaqlayıb zamana və yerə əhəmiyyət vermədən onunla dərdləşirdim. Əl qumbarasının xırda bir qəlpəsi ürəyinə dəymiş və sinəsinin qanı yeri islatmışdı. Bir neçə kiçik qəlpə də boğazını qızartmışdı. Ürəyimdə hiss edirdim ki, boğazında düyünlənən, namaz və dualarda açılan qəhər azadlığına zamin olmuşdu. Cibində kiçik bir xatirə dəftəri vardı. Qırmızı cildinin üzündə imamın şəkli görünürdü. Dəftərçənin hələ bir neçə vərəqi ağ idi. Onun sonuncu sətirlərini oxudum: "Bu gün qardaş Mehdiqulu Rzayini gördüm və son dəfə onunla vidalaşdım". Bu cümlə bütün vücudumu yandırdı. Deməli, Məhəmməd hər şeyi bilirmiş. Yanında oturmuşdum və o anların bitməsini istəmirdim. Bir dəstə adam mənə sarı gəlirdi. Qardaş Səməd Qasimpur da onların arasında idi. O, heç bir söz demədən şəhidin üzünə baxdı və çöhrəsinə qəm-kədər çökdü. O da Məhəmmədi yaxşı tanıyırdı. Yanındakılar cənazəni geriyə aparmaq istəyirdilər.

– Yox, hələlik irəli gedək. Güman ki orada da bəziləri şəhid olmuşlar.

Bunu dedim və sahilə tərəf getdik. Hücumçu dalğıcların bir qismi Ərvənd çayının həmin hissəsindən çıxmışdılar. Məhəmməddən təxminən 500 metr aralıda başqa bir tanış şəhid gördüm: məzlum Əli Şeyxəlizadəmiz. O, Məcid

Tayfanın komandirlik etdiyi taqımın kəşfiyyatçısı idi. O, kəşfiyyatçı olduğuna görə öndən getmiş və yəqin ki hamıdan qabaq şəhadətə qovuşmuşdu. Onun şəhadət tərzi ürəyimi sıxdı: Qəlpə boğazını yarmışdı, o da bədənini sıxan dalğıc geyimini çıxarmağa çalışmış, elə həmin vəziyyətdə şəhadətə qovuşmuşdu. Sanki boğulurdum. Bölüyün növhəxanı Hüseyn Əbülqasimzadənin sözü yadıma düşdü. Deyirdi ki, hərəkətdən sonra Əli onu çağırıb deyibmiş: "Hüseyn, bundan sonra yadından çıxmasın, harada mərsiyə oxusan, şəhid anasının dili ilə mənə mərsiyə oxu və ağla..." Və biz yeni öyrənmişdik ki, onun anası yoxdur...

Bir neçə addım öndə, düz sahildəki maneələrin içində də tufan qopmuşdu. Uşaqlardan səkkizinin parça-parça olmuş cansız cəsədləri maneələrin içində yanaşı düzülmüşdü. Günəşəbənzər istehkam millərinə sarı getdik - taqımın kəşfiyyatçılarından olan Kərim Vəfanın şəhadətə qovuşduğu yerə.

Kərim güllə zərbəsindən elə atılmışdı ki, başı istehkam milinə girmiş və ayaq üstə şəhadətə qovuşmuşdu; eynilə nizəyə sancılan və Aşuranı tarixə ötürmüş başlar kimi.

Kərimin arxasında taqımın partladıcısı tikanlı məftilləri kəsdiyi yerdə şəhadətə qovuşmuşdu. Güllə beynini yarmış, beyninin parçaları laxtalanmış qanla tikanlı məftilin üzərinə və Ərvəndin palçıq sahilinə tökülmüşdü. Ondan sonra üç şəhid yan-yana yıxılmışdı: taqım komandirinin müavini Nadir Naqil Danayi, Raşid Xakpaki və Zəncandan Nadir adlı bir partladıcı. Tanış şəhid üzlərinin hər biri bir balta kimi başıma enirdi. Şəhidləri tanımaq üçün çarəsiz vəziyyətdə və qəm-qüssə içində cığırla irəliləyirdim. Bir qədər kənarda Abdullah Şükufə qana boyanmış, onun arxasında Əhməd Məhdəvi sakitcə gözlərini yummuşdu. Dalğıc geyimi hələ arıq bədənində zarıyırdı, kiçik və güclü qolları sahilin palçığı üzərində qana boyanmışdı. O dəstənin son quşu Məhəmməd Şəms idi. Ərvənd çəkilmə halında və sakit idi, suyun səviyyəsi enmişdi. Məhəmmədin dalğıc geyimi tikanlı məftillərə ilişmiş, cəsədi palçığa batmışdı.

Qəhər içində boğulurdum. Oranın mütləq sükutunda mələklərin qanadlarının səsini duymaq olurdu. Hadisəni təxmin etmək mümkün idi: Kəşfiyyatçılar taqımın önündə hərəkət edirlər və birdən düşmən onları görür. İsti güllələr atılır və uşaqlar bir-bir yerə yıxılırlar. Əvvəl kəşfiyyatçılar, sonra partladıcı bölüyün nümayəndəsi, sonra taqım komandirinin müavini və digərləri.

Eşitdim ki, Məhəmməd Şəms sahilə çatmazdan öncə suyun içində düşmənin kor atəşi nəticəsində yaralanmış, düşmən səsini duymasın deyə dostundan onu suda boğmasını istəmişdi. O, məzlumcasına və səssizcə can vermişdi. Dostu Məhəmmədin şəhidliyinə vasitə olsa da, onun cansız cəsədini özü ilə sahilə çıxarmış, Ərvəndin dalğaları aparmasın deyə dalğıc geyimini tikanlı məftillərə ilişdirmişdi. Sonra onun özü də şəhadətə qovuşmuşdu.

Uşaqlar maneələrə çatanda su enibmiş və onlar maneələri açmağa məcbur olublar. Bu zaman isə düşmən keşikçisi fənərin işığında onları görmüşdü. Uşaqlar maneələrin arasında müdafiə imkanından məhrum halda bir-bir güllələnib şəhid olmuşdular. Bunları həmin dalğıc taqımının komandir müavini, taqımın digər dalğıcları ilə birgə düşmən mövqeyini ələ keçirmiş Seyid Rza Musəvi danışırdı.

Cəsədləri bir-bir qaldırırdıq. Qanları hələ isti və yeni idi. Heç kim danışmırdı. Yalnız sinələrin hıçqırtısı, çiyin və qolların titrəmə səsi gəlirdi və hər dəfə şəhidlərin üzünə baxanda səs də ucalırdı.

Məhəmməd Şəmsi götürəndə halım pis oldu. Onu ilk dəfə Zeyddə ayrılmaz dostu Cavad Əfşurdi ilə birgə görmüşdüm. Onlar təqdimatlarını kəşfiyyat bölüyünə gətirmişdilər, bir müddət bir yerdə olduq. Zeyd bölgəsinin maneə və yollarını öyrənmək ağır və yorucu iş idi. Kəşfiyyatdan qayıdanlar bir yerdə oturan kimi yuxulayırdılar. Məhəmmədlə Cavad isə hamını məəttəl qoymuşdular. Biz tapşırıqdan dönəndə, gecə saat bir-ikidən sonra onların ibadət vaxtı idi. Bir ədyal götürüb bizdən uzaqlaşır və sübh namazına qədər raz-niyaz edirdilər. Dalğıc təlimi keçmək üçün Seyyidüş-şühəda batalyonuna gedəndə Məhəmməd Şəmsi bir də gördüm. Bu dəfə tək idi. Cavadı soruşanda dedi: "Cavad Quruculuq cihadı təşkilatı ilə gəlib, hələlik Əhvazdadır".[1]

Bütün şəhidləri maneələrin arasından çıxaranda günəş səmanın ortasına çatırdı. Şəhidləri aparmaq işini uşaqlar üzərlərinə götürdülər. Qardaş Qasimpurdan ayrıldım və kəşfiyyat uşaqlarını tapmaq üçün sahillə yoluma davam etdim. Bir qədər sonra uzaqdan bölüyün uşaqlarını gördüm. Hamısının üzündə qəmlə sevinc bir-birinə qarışmışdı. Qələbə böyük idi; Ərvəndi məğlub etmiş şəhidlər qədər böyük! Uşaqları soruşanda yaxınlıqdakı bir səngəri göstərdilər. Səngərə girəndə divarların məni sıxdığını hiss etdim. Bəzi uşaqlar yaralanmışdılar və hələ orada idilər, mənim kimi bəziləri də yorulmuşdular və sınıq qəlblərini oraya çatdırıb qardaş Fəthinin əmrini gözləyirdilər.

Mehdi Davudinin gəlişi ilə səngərdə sevinc yarandı. Mehdi mənə çox şeyi xatırladırdı. Bir vaxtlar o, Hüseyn Məhəmmədianın komandiri idi, Hüseyn şəhid olan günlərdə isə onun tabeliyində xidmət edirdi. Köhnə dostu Yəqub Şikari Bədr əməliyyatında şəhadətə qovuşandan kimsə Mehdinin güldüyünü və zarafatlaşdığını görməmişdi. Orada isə Mehdinin vəziyyəti digərlərindən fərqli idi. Dəstəmazının suyu saqqalından axa-axa azan verirdi. "La ilahə illəllah" cümləsini deyən kimi çəfiyəsini kəmərinə bağlayıb qəribə əminliklə dedi: "Mən şəhid olmağa gedirəm. Kim şəhid olmaq istəyirsə, gəlib arxamda namaz qılsın!" Mehdi "Qəd qamətis-səlah" deyəndə Abbas Məhəmmədi ilə Əbülfəz Yəqubi onun arxasında idilər və daha dördüncü adama yer yox idi.[2]

---

[1] Maraqlıdır ki, iki gündən sonra Cavad Əfşurdi də şəhadətə qovuşdu. İndi Təbrizin Rəhmət vadisi məzarlığında Məhəmmədin yanında uyuyur. Xoş hallarına!

[2] Mehdi Davudi həmin gün, Əbülfəz Yəqubi ertəsi gün, Abbas Məhəmmədi də Nəsr-7 əməliyyatında şəhadətə qovuşdu.

***

- Kərim ağa dedi irəli gəlin.

Tez səngərdən çıxdıq. İrəlidə bir imamzadə ziyarətgahı vardı. Qasim batalyonu onun ətrafında yerləşmişdi. Qardaş Fəthinin olduğu səngər həmin imamzadənin önündə idi. Tez imamzadəni ziyarət edib hərəmiz bir Kərbəla möhürü götürdük və düşmənin atəşi altında özümüzü səngərə çatdırdıq. Mehdi Davudi bizdən öncə oraya çatmışdı və qardaş Fəthi onun tapşırığını vermişdi. Biz çatanda o, bir neçə nəfərlə birgə yola düşdü.

– Estakadaya gedin, oradan Çin gəmisinə girin. İndiyə qədər heç kim ona baş çəkməyib. Oradan əmin olandan sonra bölüyə qayıdın.

Əsğər Abbasquluzadə və Həmid Allahyari ilə yola düşdük. Dördçıraq estakadası ilə üzbəüz və düşmən sahilindən təxminən 200 metr aralıda bir Çin gəmisi lövbər salmışdı. Sahildə qayığa minib torpağa oturmuş gəmiyə sarı yola düşdük.

Ərvənd çəkilmə halında idi və gəmiyə dırmaşmaq çox çətinləşmişdi. Çox zəhmətlə yuxarı qalxdıq. O qədər yuxarı çıxmışdım ki, gəminin metal otaqlarını və sürətlə onlardan birinə qaçan bir adamı görə bilirdim. Gəmiyə girəndən sonra həmin otağa sarı qaçdıq. Əsğər əlindəki qumbaranı çəkib otağın içinə atdı. Dərhal bir nəfər özünü otaqdan bayıra tulladı. Bu, o qədər sürətlə baş verdi ki, Əsğər qeyri-ixtiyari olaraq çaxmağın üstünə qoyduğu barmağını basdı və güllə iraqlı hərbiçinin alnını dəldi.

Qumbara partlayandan və bir iraqlı öləndən sonra dörd nəfər bayıra çıxdı. Qorxu və təşviş nigaran gözlərindən aydın sezilirdi. Bildik ki, gəmidə pusqu qurmuş və uşaqlarımızı o günə qədər bir an da rahat buraxmamışdılar. İraqlıların çıxdığı otaq böyük və qaranlıq bir zal idi. Biz oradan xüsusi bir şey tapmadıq. Onlar bildirdilər ki, gəmidə başqa heç kim yoxdur, lakin düşmənə inanmaq axmaqlıq olardı. Dedim: "Əsğər ağa, biz bir-bir bütün otaqları gəzməli, hər yerə baxmalıyıq".

Gəminin bütün künc-bucağını axtardıq, amma başqa bir adam tapmadıq. Əsirləri gəmiyə gəlmiş digər uşaqların köməyi ilə geriyə göndərdik. Birdən təyyarələr peyda oldu.

Qışda günəş istisinin başqa həzzi var. Öz estakadamıza sarı hərəkət edir və səsucaldanlardan tanış səsləri dinləyirdik. Günortadan Vəlfəcr-8 əməliyyatının başlanması xəbəri bütün ölkəyə yayılmışdı. Bu xəbəri əməliyyat yerində eşitmək çox gözəl hiss idi. Əməliyyatdan öncəki gecə və gündüzlərin sükutu səs-küylə, hərəkətliliklə, müxtəlif maşın və texnikaların get-gəli, yüngül və ağır silahların gurultusu ilə əvəzlənmişdi. Tikinti-mühəndis, təchizat və digər bölüklər də ciddi məşğul idilər.

Həftələrlə sığınacağımız olmuş məscidə sarı yola düşdük. Məscid matəm içində idi. Kəşfiyyat bölüyündən sağ qalıb əmrə əsasən, bölüyə qayıtmalı olanlar bir-bir yığışırdılar. Şəhidlərin boş yeri bir yara kimi canımızı

yandırırdı. Hamı ağlayırdı. Bəzi uşaqların şəhadət xəbərini biz verirdik, bəzilərini də onlardan eşidirdik.

– Əli Şeyxəlizadə şəhid oldu.

– Cəfər Haqqu da getdi.

– Uşaqlar, bilirsiniz Kərim Vəfa necə şəhid oldu?!

– Məhəmmədrza Mehrpak da şəhid oldu.

Toplantımız öz-özünə əza məclisinə dönmüşdü. Biri mərsiyə oxuyurdu; Vəlfəcr-8 əməliyyatının ilk şəhidlərinin xatirəsinə! Gecə bizimlə, indi isə Allahla olan uşaqların xatirəsinə! Növhəxan şəhidlərin adlarını çəkə-çəkə İbrahim Əsğəriyə çatdı: "Şəhid əsğərilər getdilər, amma dönmədilər..."

- İbrahim yaralanıb, özüm gördüm.

Bunu mən dedim, amma İbrahimin dostu əlavə etdi: "Yox, sonra o da şəhid oldu".

İbrahimin yarası dərin olsa da, o yara ilə şəhid olduğuna inanmırdım. "O da gələcək, görəcəksiniz". Bu söz ürəyimdən keçdi, amma dilimə gətirə bilmədim. Hamımız ağlayırdıq, kimsə başqa bir şey fikirləşə bilmirdi. Bu əsnada birdən İbrahim Əsğəri içəri girdi. Əzadarlıq kəsildi və uşaqların ən azı, birinin döndüyünə görə məscidə sevinc yayıldı.

Əldə olunan bəzi sənədlərin tərcüməsindən sonra bildik ki, düşmən keşikçiləri bəzi hərəkətlənmələri sezmişdilər. Təmas xəttindəki düşmən taqımı bölüyə məruzə etmişdi ki, hərəkətlənmə var və bizcə, iranlılar nəsə etmək istəyirlər.

Bölük batalyona, batalyon da qərargaha məlumat vermişdi. Bunlar göstərirdi ki, düşmən müəyyən həddə əməliyyatdan duyuq düşmüşdü, lakin buna baxmayaraq, zamanında reaksiya verməmiş və hücum gecəsi qəfildən yaxalanmışdı.

Bizim tapşırıqlarımız bitmişdi. Hamı kimi özümüzü Fava çatdırmağı arzulayırdıq. İraqın ən cənub limanı olan və Ərvənd çayının sahilində yerləşən Fav limanı ötən gecə Kərbəla diviziyasının igid döyüşçüləri tərəfindən azad olunmuşdu. Favda ehsanlar verilirdi, səsucaldanların səsi mühitlə tanışlığı asanlaşdırırdı. Uşaqların çoxu orada idilər. Hər bir görüş sevinc və kədərlə müşayiət olunurdu; bir dostu sağ-salamat görməyin sevinci, başqa bir dostun şəhid olmasının və ya yaralanmasının kədəri.

Həmin gündən etibarən məzuniyyət elan olunana və bizim şəhərə yola düşdüyümüz günə qədər iki nəfərin şəhadət xəbəri hamısından çox qəlbimə od vurdu: İbrahim Xəlil Xətibi və Mehdi Davudi.

III

Şəhərə qayıtmaq üçün ən əsas səbəbim əziz dostum şəhid Məhəmməd Məhəmmədpurun dəfnində iştirak etmək idi. Axşam Təbrizə çatdım. Xəbərlər şəhərə bizdən tez çatmışdı. Müqavimət mərkəzinin uşaqları məni görən kimi dedilər: "Get, Məhəmmədin şəhid olduğunu ailəsinə xəbər ver". Məndə buna

taqət yox idi. Qərara gəldik ki, xəbəri məhəllənin ağsaqqallarından bir neçəsi versin.

Həmin axşam biz də onlara getdik. Öz evləri kiçik olduğuna görə qonşu evdə yas məclisi keçirilirdi. Uşaqların arasında oturmuşdum və Məhəmmədin atasının üzünə baxa bilmirdim. Bilmirdim ondan xəcalət çəkirəm, Məhəmməddən, yoxsa camaatdan. Hər əməliyyatdan sonra şəhərə qayıdanda belə çətinliyim olurdu. Bu dəfə isə Hüseyn, Məhəmməd və digər bir çox dostlarım mühacirət etmişdilər, mənə isə hətta bir yara da qismət olmamışdı.

Məhəmmədin atası gözünü üzümə dikmişdi. Başım aşağı idi. Xəcalət çəkir, özümdən acığım gəlirdi. Yalnız Allahın onların gedib bizim qalmamızı istədiyini düşünəndə bir az sakitləşdim, sonra yenə Məhəmmədin atasını görəndə eyni hissləri keçirməyə başladım. Uşaqlar sabahkı dəfn mərasiminə hazırlaşır və işləri bölürdülər.

– Sən şəklini böyüt.

– Sən də plakatları yaz.

Ayağa qalxdım. Daha şəhid atasının baxışına dözə və mənasını anlaya bilmirdim. Qapıdan çıxanda tez yaxınlaşıb məni qucaqladı. Sanki bütün göz yaşlarını o ana saxlamışdı. Uzun müddət başlarımızı bir-birimizin çiyninə qoyub ağladıq. Sanki "Məhəmməd" olduğumu və onun atasının baxışlarının mənasını anladığımı hiss edirdim. Hamı dayanıb bizə baxırdı. Məhəmmədin atası titrək səslə dedi: "Məhəmməd yoxdur, amma sən varsan. Sən mənim üçün Məhəmmədsən!"

Sözü mənə çox təsir etdi. Dedim: "Ata, mən daha bu şəhərdə qala bilmirəm. İnşallah, sabah Məhəmmədin dəfnindən sonra cəbhəyə dönəcəyəm".

Məhəmmədin atasının sözü bütün şəhid atalarının sözü ola bilərdi, amma bir şeyi başa düşürdüm ki, onun mənim "Məhəmməd" olmağıma ehtiyacından çox, mənim Hüseyn, Məhəmməd və digər şəhidlər kimi olmağa ehtiyacım vardı.

Həmin gecə altı aydan sonra ilk dəfə evdə yatdım. Anam məni sağ-salamat gördüyünə görə sevinir və təəccüblənirdi, mənsə o qədər narahat idim ki, danışmaq və dinləmək istəmirdim. Yatdım, özü də necə! Yuxuda şəhid dostlarımın gülər üzlərini gördüm. Özüm güclü dalğalar arasında çabaladığım halda onlar çayın o tərəfində idilər.

***

Təbrizin Rəhmət vadisi məzarlığında qələbəlik idi. Kürsünün önündəki həyətin son cərgələri də dolurdu. Hamısı qollar üstə gəlmişdilər: Məhəmməd Şəms, Cavad Əfşurdə, Abdullah Şükufə, Əhməd Məhdəvi, Raşid Xakpaki, Nadir Naqil Danayi, Hüseyn Ərcüməndi...[1] Hüseyn Məhəmmədianın məzarı

[1] Hüseyn Ərcüməndi su-quru qüvvələrindən idi. Onların getdiyi hissədə hələ mövqe ələ keçirilməmişdi. O, qayıqla düşmən sahilinə keçib təkbaşına oranı düşməndən aldı və elə qayığın içində də şəhadətə qovuşdu.

hələ yeni idi. Çox narahat idim. Növbə Məhəmmədin dəfninə çatdı. Bir tərəfdə dayanıb ağlayırdım. Birdən Məhəmmədin atasının səsi hamının sızıltısını üstələdi: "Şəhid vəsiyyət edib ki, onu dostu məzara qoysun". Pıçıltılar başladı: "Hansı dostu?"

– Mehdiqulu Rzayi.

Sanki yuxu görürdüm. "Məni neyləyirsən, Məhəmməd?!" Ürəyimdə tufan idi. Mənə yol açdılar. Məzara yaxınlaşdım. Allahı özümə heç vaxt o qədər şahid hiss etməmişdim. Məhəmmədlə baş-başa idim... Yox, Məhəmməd mələklərin yanında idi... Məzara girməzdən öncə atası onun pasdar köynəyini uzadıb dedi: "Məhəmməd demişdi ki, şəhadətimdən sonra bu köynəyi Mehdi geyinsin".

Məhəmməd öz bədənini yeni yerinə uzatmağıma kömək edirdi. Onu qiyamətə qədər Allahla tək buraxırdım. Məhəmmədi qucaqladım. O anlarda necə də yüngül idim! Alnını və göyərmiş yanağını öpdüm, torpağın üzərinə qoydum və yavaşca qulağına dedim: "Məhəmməd, gördux-görmədux, bizə də şəfaət elə!"

Yandakı məzarlar boş idi. Əmin idim ki, onların biri mənimkidir. Bu ümid məni rahatladırdı. Günortadan sonra Məhəmmədin mənə ayırdığı köynəyi qatlayıb boğçama qoydum ki, müharibənin sonuna qədər hansı əməliyyatda iştirak etsəm, geyinim. Elə həmin gün axşamüstü cəbhəyə yollandım.

Duz zavodunda döyüş

I

Əhvazın yol polisindən Dezfula və Əndiməşkə gedən magistral bir üçyola çatırdı. Həmin üçyoldan 2 km. solda ordunun Hava Hücumundan Müdafiə qarnizonu yerləşirdi. Həmin günlərdə kəşfiyyat bölüyünün qərargahı orada idi. Məhəmməd Purnəcəf və Yusif Sarimi ilə birgə oraya getdik, lakin bölgə və iş barədə məlumat verəcək bir kəs yox idi. Uşaqların harada olduqlarını bilmirdik. Çarəsiz qalıb bir maşınla Ərvəndə yola düşdük. Orada gecəni kəşfiyyat bölüyünün yerləşdiyi məsciddə qaldıq.

Səhər çağı ilk gördüyüm məlumatlı adam Nasir Dibayi idi. Nasir kəşfiyyat bölüyündən idi və o zaman əməliyyat istiqamətinə başçılıq edirdi. O, döyüş mövqeyindən qayıdırdı. Ondan öyrəndim ki, şəxsi heyətimiz xurmalıqda, Fav-əl-bihar, Fav-Bəsrə magistrallarının və duz zavodunun yaxınlığında yerləşmişdir.

Duz zavodu bölgəsində Kərbəla diviziyası ilə Aşura diviziyasının arasında təxminən 3 km. uzunluğunda bir yol düşmənin əlinə keçmişdi və böyük problem yaranmışdı. Aşura diviziyasının havadan müdafiə sistemi hovuzlar tərəfdə və duz zavodu istiqamətində idi. Hovuzlar kvadrat şəklində, en-uzunları təxminən 1 km. idi. Orada başqa bir böyük hovuz da vardı və hamısı düşmənin əlində idi. Lakin duz zavodundan Ümm əl-qəsr magistralına qədər hava hücumundan müdafiə sistemi yerləşmişdi, ondan sonra magistral boyunca Xor-Abdullaha tərəf hərbi mövqelər qurulmuşdu və düşmənin həmin istiqamətdən su hücumları ehtimalını azaldırdı. Bundan əlavə, iraqlılar uzun müddət öncə su kənarındakı düzənlikdə maneələr yaratmışdılar və indi özlərinin əleyhinə istifadə olunurdu. Bu baxımdan, o hissədən bizi xüsusi təhlükə gözləmirdi. Əsas təhlükə duz zavodu tərəfdən idi. Orada həm bölgə çox həssas yer idi, həm də düşmənlə aramızdakı məsafə az idi. Digər tərəfdən də, düşmən bizimlə Kərbəla diviziyası arasındakı cinahdan hücumunu günbəgün gücləndirirdi.

Ümumilikdə vəziyyət xeyrimizə deyildi. Orada hər gün nə qədər döyüşçümüz şəhid olur və yaralanırdı. Müdafiə xəttini düzəltmək zəruri idi. Bunlardan əlavə, canlı qüvvə çatışmazlığımız da vardı. Səhv etməsəm, bölgədə üç batalyon həddində şəxsi heyəti olan yeganə diviziya Nəcəf diviziyası idi. Canlı qüvvənin əksəriyyəti Vəlfəcr-8 əməliyyatının ardıcıl mərhələlərindən sonra məzuniyyətə getmişdilər. Şəhidlərin yeri boş idi, əməliyyatda yaralananların çoxu da hələ sağalmamışdı. Əmin Şəriəti, Kərim Fəthi və Mustafa Mövləvi də Vəlfəcr-8 əməliyyatında yaralanmışdılar. Həmin bir neçə gündə onların yeri də çox hiss olunurdu.

Bölgəni daha yaxından öyrənmək üçün qardaş Dibayi ilə birgə duz zavoduna getdik. Ərvənd çayını keçəndən sonra birinci mövqedə nisbətən

uzaq bir məsafədə sahildən Qüds magistralına, oradan da Qələbə magistralına çəkilmiş və sonda Ümm əl-qəsr magistralına çatan bir yol vasitəsi ilə diviziyanın müdafiə mövqeyinə çatdıq. Ümm əl-qəsr magistralı duz zavoduna gedən yolayrıcında Ölüm üçyolu kimi məşhurlaşmışdı. Ora düşmənin gözü önündə və güclü atəşi altında idi. Sürücülər oradan sürətlə və xüsusi məharətlə dönə bilməsəydilər, bir neçə raketə tuş gəlmələri qaçılmaz idi.

Nəhayət, diviziyanın duz zavodundakı komandir səngərinə sağ-salamat çatdıq. Qardaş Şəriəti yaralanandan sonra Aşura diviziyasını qardaş Kaşani idarə edirdi. Qardaş Seyid Mehdi Hüseyni diviziyanın qərargah rəisi idi, Mirhöccət Kəbiri də uzun müddət öncədən komandir müavini vəzifəsində çalışırdı. Komandir qərargahı seçilmiş üstüörtülü səngər İraqın yeddinci korpusunun bir diviziyasının komandir səngəri olmuşdu. O qədər möhkəm görünürdü ki, üstünə raket düşsəydi də, ona ciddi ziyan dəyməzdi. Kəşfiyyat bölüyünün əsas avadanlıqları Ümm əl-qəsr magistralının kənarındakı sahilin yaxınlığında olsa da, kəşfiyyat üçün orada da bir yer ayırmışdılar.

***

Xəbər gəldi ki, Həsən Zindədelin başçılığı ilə Aşura diviziyasının Hürr batalyonu bölgəyə göndərilib və həmin gecə hücuma keçəcəklər. Onlar Fav şəhərinə girən kimi silahlanmışdılar. Dərhal əməliyyat iclası başlandı. Əməliyyatı Hürr batalyonunun iki bölüyü iki istiqamətdən həyata keçirəcək, üçüncü bölük də onlara dəstək verəcəkdi. Əməliyyatda məqsəd düşməni geri itələmək, müdafiə xəttini tamamlamaq idi. Qərara gəldilər ki, bir bölük qələbə magistralı istiqamətindən hücuma keçsin. Bu bölüyün kəşfiyyat dəstəyi Əhməd Bayramiyə və başqa bir nəfərə tapşırılmışdı. Bu əməliyyat istiqamətinin başçısı və əlaqələndiricisi də qardaş Mirhöccət Kəbiri idi. İkinci bölük duz zavodu istiqamətindən hərəkətə keçəcəkdi və onun kəşfiyyat dəstəyi Nasir Dibayiyə tapşırılmışdı. Mən də onunla idim. Duz zavodu istiqamətinin komandiri və bütün Aşura diviziyasının əlaqələndiricisi qardaş Kaşani idi. Özlüyümdə əməliyyat planına görə narahat idim, amma komandirin əmri olduğuna və qərargahdan bildirildiyinə görə heç nə demədən qəbul etdim. Qərara aldılar ki, qardaş Kəbirinin istiqaməti ratsiyada Höccət-1, qardaş Kaşaninin istiqaməti də Höccət adlandırılsın.

Axşam gələndə tərəflərin atışması daha da güclənirdi. Böyük Vəlfəcr-8 əməliyyatından təxminən səkkiz gün ötsə də, bölgədə atışma nəinki azalmamış, hətta çoxalmışdı da. Bunu o müddətdə müdafiə işini üzərinə götürmüş uşaqlar deyirdilər. Digər diviziyaların nəzarət etdiyi istiqamətlərdən ətraflı məlumatım yox idi. Diqqətim düşmənin atəşini bəndin üzərinə və yola mərkəzləşdirməsinə yönəlmişdi. Fikirləşirdim ki, belə şəraitdə iki bölüklə hücuma keçmək nə qədər səmərəli ola bilər. Axşam düşmüşdü, amma hələ məni sakitləşdirəcək cavab tapmamışdım.

Canlı qüvvə hazır vəziyyətdə idi və təyin olunmuş vaxtda hərəkət başlandı. Düşmən bəndin arxasında bir metr yarım hündürlükdə maneələrin arxasında

gizlənmişdi. Ora düşmən üçün müdafiə istehkamı rolunu oynayırdı. Bəndin üstündə avtomobil yolu vardı. Qələbə magistralından yola düşmüş bölük düşmənin amansız raket, güllə və qəlpə atəşləri altında idi. Hazırlıqlı düşmən həmişəkindən də diqqətlə uşaqları sıxışdırmışdı. Həmin bölükdən heç kim düşmənin istehkamına çata bilmədi. Onlarla eyni vaxtda bizim bölüyümüz duz zavodu istiqamətindən yola düşdü. Əmr belə idi ki, uşaqlar bizim mövqeyimizdəki kiçik bir bina tərəfdən keçib düşmən qüvvələri ilə vuruşsunlar. Hələ bu iş baş tutmamış düşmənin ehtiyat qüvvələri müdafiəçilərin köməyinə gəldilər və bəzi uşaqlarımız tərəfindən təmizlənmiş hissəni bərpa etməyə çalışdılar. Həmin anlarda qardaş Kaşani mənə əmr etdi ki, bölüyü tez binanın yanına çatdırım. Öncədən o yolu getməsəm də, zehnimdə müəyyən etdiyim əlamət və nişanlara görə yolu tapmaq çətin olmadı. Düşmənin atəşi altında yola düşdük.

Atəş o qədər güclü idi ki, hər dəqiqədə və hər 2 kv. metr sahədən bir yerə bir raket düşdüyünə əmin idim, amma bəndin yolu ilə getməkdən başqa çarə yox idi. Çünki duz zavodunun hovuzları su ilə dolu idi. İmkan daxilində atəşdən qorunmaq məqsədilə bölüyü yolun kənarından və bəndin yoxuşu ilə aparırdım, amma xeyri olmurdu. Hər bir mərmi və raketin fit səsi gələndə kolon yerə uzanırdı. Yolda bəziləri şəhid oldular, çoxu da yaralandı.

Zəif sürətlə hərəkət edirdik. Vəziyyət elə bir həddə çatmışdı ki, hovuzların içinə düşən mərmi və raketlərə diqqət yetirmədən hərəkəti davam etdirirdim. Yola düşən raketlər isə bizi və yolu titrədirdi, bir müddət uzanmalı olurduq. Duz zavodundan başladığımız bir kilometr yarımlıq yolda kolonun iki-üç metrliyində ən azı, on dəfə raket partlayışına düşdük. Öz mövqeyimizdən keçəndən sonra binaya qədər daha 700 metr yol vardı. Sanki alov içində yanan həmin məsafəni sürətlə keçdik, amma binanın yanında güclü atəş yenidən bizi dayandırdı. Batalyonun komandiri qardaş Həsən Zindədel orada şəhadətə qovuşdu. Öncədən tapşırıqları verilmiş taqım komandirləri təşəbbüsü ələ aldılar. Güllə və partlayış səsi bir an da kəsilmirdi. Torpaq, kəsək, palçıq və güllə altında, dəhşətli gurultuların arasında ratsiyadan deyilənləri eşidib daha da narahat oldum. Qələbə magistralı tərəfindən yola çıxmış bölüyün komandiri nə etməli olduğunu soruşurdu. Vəziyyəti izah edib təkrarlayırdı: "Nə edək? Höccət... Höccət..."

Onun səsindən sonra ratsiyadan iki fərqli əmr eşitdim.

– Geri qayıdın! Cəld şəxsi heyəti geri çəkin.

– Orada qalın!

Düşünürdüm ki, bu ziddiyyətli əmrlər rabitəçini və hətta bölüyün komandirini çaş-baş salmışdır. Yaralandığını eşitdiyim qardaş Kəbiri geri qayıtmağı, qardaş Kaşani isə qalmağı əmr edirdi. Bu iki əmr əslində, ayrı-ayrı bölüklərə verilirdi, amma o anda hər şey elə qarışmışdı ki, məsələni izah etməyə macal yox idi.

Vəziyyəti cəld analiz edib bu nəticəyə gəldim ki, canlı qüvvə burada qalsa, maksimum iki saat müqavimət göstərə bilər. Üstəlik, ondan sonra da düşmənə nisbətən heç bir hərbi üstünlük əldə olunmayacaq.

Bütün əlamətlər göstərirdi ki, düşmənin atəşi altında ya geri çəkiləcək, ya da hamımız qətliam olacağıq. Uşaqlara dedim ki, bizim düşmənə doğru atəşimizdən istifadə edib yaralıları bacardıqları qədər geriyə aparsınlar.

Düşmən dəli kimi atəş yağdırırdı və bizim zəifliyimizi gördüyünə görə daha da cəsarətlənmişdi. O atəşin altından bəzilərinin salamat çıxdığından arxayın olanda qəlpədən yaralanmış qardaş Kaşaniyə yaxınlaşdım. Məni görən kimi öndəki vəziyyəti soruşdu. Vəziyyəti izah etməyə çalışdım.

– Düşmənin birinci istehkamında və binanın ətrafında bir müddət düşmənlə və sonradan gələn ehtiyat qüvvələri ilə vuruşduq. Şəxsi heyət son nəfərə qədər müqavimət göstərməyə çalışdı, amma düşmən güclü atəş yağdırıb istehkamını bərpa etdi. Şəhidlərin cənazəsi və bəzi yaralılar düşmənin istehkamında və mövqeyin arxasında qaldı.

Orada anladım ki, Hürr batalyonundan sağ qalan döyüşçülər yalnız mənim geriyə göndərdiklərimdir. Narahatlıqdan nə danışmağa halım vardı, nə də kimisə dinləməyə.

Səhər yaxınlaşırdı. Uşaqlar bütün gecəni amansız atəş altında "irəli" əmrinə qeyd-şərtsiz tabe olub getmişdilər, o vəziyyətdə bir nəfər də "yox" deməmişdi. Durbinlə baxanda pak cənazələrini görürdüm. Qələbə magistralı tərəfdən hərəkətə keçmiş canlı qüvvənin əksəri düşmən istehkamının yanında və ya üzərində şəhadətə qovuşmuşdu. Bəzi şəhidlərin pak cəsədləri də hovuzlarda üzürdü. Çox dilxor idim, əlimdən bir şey gəlmədiyinə görə dəli olurdum. Salamat qayıdanların yorğun və yaralı üzlərinə baxırdım. Üzümdə acı təbəssüm vardı: "Şəhidlər arzularına çatdılar!"

Duz zavoduna qayıdıb bir saat qərargahda qaldım. Çox yorğun və yuxusuz olmağıma baxmayaraq, uşaqların fikri məni rahat buraxmırdı. Səhər açılanda qərara gəldim ki, bütün sözlərimi qardaş Kaşaniyə deyib bölgəni tərk edim. Bölüyün motosikletlərindən biri diviziyanın komandir səngərinin yanında idi.

– Nə yaxşı! Sözlərimi deyəndən sonra bu motosikletlə qayıdaram.

Bunu öz-özümə deyib içəri girdim. Səngərin içində Nasir Dibayi görkəmimdən nə üçün gəldiyimi anlayıb dedi: "Ağa Mehdi, sən belə şeylərdən ötrü çox fikir eləmə". Lakin halım yaxşı deyildi. Bir saniyədən sonra qardaş Kaşani ilə üz-üzə dayanıb ürəyimdəkiləri deyirdim. Qardaş Kaşani də narahat olmuşdu və deyirdi: "Bu, əmr idi və yerinə yetirməli idik". Lakin cavab qaneedici deyildi. Son qərarımı vermişdim: "Əgər əmriniz yoxdursa, mən getmək istəyirəm".

– Uzağa getməyin, sizinlə işim var.

Səngərdən çıxanda Nasir Dibayi də arxamca gəldi. Motosikleti axtarırdım, amma ondan əsər-əlamət qalmamışdı.

– Nasir, motosiklet hanı?

– Bilmirəm, gərək buralara baxaq.

Səngərin ətrafında motosikleti axtarmağa başladıq, nəhayət, səngərin damında bir neçə yanmış dəmir parçası formasında tapdıq. Düşmən raketi düz motosikletin üstünə düşmüşdü. Xoşbəxtlikdən, motosiklet kimi vasitələr çox idi və onlardan birini icazəsiz götürmək problem yaratmırdı.

Cəld estakadaya yola düşdüm. Diviziyanın nəqliyyat bölməsi Favın yaxınlığındakı xurmalıqda yerləşirdi. Oradan bir avtomobil alıb Ümm əl-qəsr magistralının yaxınlığında yerləşən kəşfiyyat qərargahına getdim. Bölüyümüzün bütün əşyalarını avtomobilə toplayıb Əhməd Bayrami və Məhəmməd Purnəcəflə birgə yola düşdük. Onlar məsələdən xəbərdar idilər. Belə zamanlarda adətən, hamı daha təcrübəli kəşfiyyatçının qərarına əməl etdiyindən, heç bir söz demədən mənimlə gəldilər. Daim fikirləşirdim ki, bu komandirlərin belə qərarlar çıxardıqları bir yerdə qalıb əbəs yerə uşaqların həyatını təhlükəyə atmaq düzgün deyil.

Əşyaları Ərvənd çayının kənarındakı məscidə boşaltdıq, sonra bölüyün bütün uşaqlarını məscidə topladım və qərara gəldik ki, Əhvazın Hava Hücumundan Müdafiə qarnizonuna gedək. Fikirləşirdim ki, gec-tez kimsə bizi axtarıb baş verənləri soruşacaq, orada qalmağımızı, ümumiyyətlə, diviziyadan getməyimizi və ya yenidən dönüb işləməyimizi söyləyəcək. Düşünürdüm ki, həmin bir nəfər tapılanda mən də sözlərimi deyərəm.

II

Diviziyanın təcrübəli batalyon komandirlərindən və bir müddət artilleriya müşahidəçisi olmuş qardaş Yasir Zirək Vəlfəcr-8 əməliyyatından öncə kəşfiyyat bölüyünə gəlmişdi. Qardaş Fəthi yaralarından müalicə aldığına görə, əməliyyatdan sonra kəşfiyyat bölüyünün komandir müavini kimi işlərə o, başçılıq edirdi. Həmin günlərdə aldığı bir mesaja görə döyüş xəttinə gedib qardaş Kaşani ilə görüşmüş və orada məndən söz düşmüşdü. Qardaş Kaşani ilə tanışlığım yalnız hücum gecəsinə aid olduğundan güman ki mənim adımı da unudubmuş. Qardaş Yasirdən adımı soruşmuş və sonra demişdi: "Get, onun diviziyadan ixrac vərəqəsini yaz. Elə et ki, başqa bir diviziyaya da gedə bilməsin".

Yasir Zirəki qarnizonda gördüm.

– Vəziyyət necədir?

– Qardaş Kaşani sənin barəndə bəzi sözlər deyirdi...

Onun bütün sözlərini mənə danışandan sonra dedim: "Problem deyil, götür, yaz". Yasir də çəkinmədən ixrac vərəqəmi yazdı, kağızı əlimə verdi, özü isə avtomobili işə saldı. Arxasınca gedib soruşdum: “Haraya gedirsən?”

– Dezfula.

– Onda məni də apar.

Diviziyanın Baş qərargahı Dezfulda yerləşirdi və mən məktubu oraya aparmalı idim. Yanında oturdum və avtomobil sürətlə qarnizondan çıxdı.

Dezfula çatanda imamzadənin ziyarətinə getdik. Sonra birlikdə nahar etdik və şəhərdə gəzdik. Mən cəbhəyə ilk gəldiyim günlərdən Yasir Zirəklə dost olmuşdum.

Həmin müddətdə nə o, nə də mən ixrac haqda bir söz dedik. Nəhayət, Yasir avtomobili saxlayıb eyhamla dedi: "Mənə bax, bəs sən nə vaxt avtomobildən enəcəksən?!"

– Nə üçün enim?

– Get qərargaha, komandirlər oradadırlar.

Bilirdim ki, məni ələ salır və ciddi görünmək üçün özünü zorla saxlayıb.

- Axı sən nə karəsən ki, məni ixrac edəsən?! Bölüyün komandirisən, yoxsa müavini?! Üstəlik, verdiyin kağızı cırıb atdım.

Ucadan güldü, başını yelləyə-yelləyə məni yenidən qarnizona qaytarmağa məcbur oldu.

***

Bölükdən ixrac edilməsəm də, vəziyyət əvvəlki kimi deyildi. Kəşfiyyat bölüyü Vəlfəcr-8 əməliyyatında iştirak etmiş qüvvələrin bir qismini Məşhədə ziyarətə yolladı, amma mən bu səadətdən məhrum oldum.

Əhvazın Hərbi Hava Hücumunda Müdafiə qarnizonunda qalmışdım. Hərdən şəhərə baş çəkirdim, hərdən əməkdaşlıq hissim cuşa gəlirdi və uşaqların qablarını yuyurdum. Bu işlər bir neçə gün başımı qarışdırdı, nəhayət, qardaş Zirək yanıma gəlib dedi: "Əmin ağanın səninlə işi var".

- Məgər gəlib?!

- Bəli, diviziyanın nəqliyyat qərargahında səni gözləyir.

Diviziya komandirimizin yaxşılaşıb cəbhəyə döndüyünə sevindim. Qardaş Şəriəti məni görən kimi gülümsədi, çox səmimi və dostcasına görüşəndən dərhal sonra dedi: "Ağa Mehdi, nə üçün belə etmisən?" Mən də Hürr batalyonunun şəxsi heyətinin şəhadətini və bundan ötrü narahatlığımı ona izah etdim.

- Eybi yoxdur. Elə buradan bir əməliyyatımız olacaq. Biz oranın müdafiə xəttini düzəltməliyik. İmkan varsa, siz də gedin, işinizə başlayın.

Beləliklə, ixracdan söz belə getmədən yeni tapşırığım üçün düşmən mövqelərinə doğru yola düşdük. Bu dəfə uşaqların bir qismi ilə yoldaş idim. Dərisinin rənginin bir qədər tünd olduğuna görə uşaqlar arasında Qara Rəsul kimi məşhur olmuş Rəsul Rzazadə və bölüyə yeni gəlmiş Əmir Əsədullahi və Möhsün Əqdəmikiya da bizimlə idilər. Onlar haqda heç nə bilmirdim. Yalnız Möhsün Əqdəmikiyanın öncədən partladıcı bölükdə olduğundan xəbərim vardı. Kəşfiyyat bölüyündən olan Qəhrəman Məəttəli də həmin gün məzuniyyətdən dönüb bizə qoşulmuşdu. Əşyaları təhvil alıb Ərvəndin kənarındakı məscidə yola düşdük.

Tapşırığımız haqda həmin istiqamətin komandiri qardaş Kaşaniyə məlumat verməyimiz lazım idi. Qardaş Şəriətinin yaxşı münasibətinə görə qardaş Kaşani ilə problemin həll olunduğunu düşünürdüm. Təsadüfən, məni görən

kimi ayağa qalxdı və görüşüb-öpüşdük. Məni yaxşı qarşıladığına çox təəccübləndim.[1]

- Xoş gəldin, ağa Mehdi. Necəsən? Hara getmişdin?

Onun əmrilə az qala ixrac olunduğumu demədim. Bu barədə ürəyimdə heç bir narahatlıq da qalmamışdı. Bilirdim ki, o hadisə yüksək rütbəli komandirlərin əmrindən irəli gəlmiş və müharibənin yekun məqsədi istiqamətində olmuşdu.

Gecikmədən bölgədə işə başladıq. Aşura diviziyasının Əli Əkbər batalyonu bölgədə müdafiə mövqeyi seçmişdi. Düşmənin saxladığı cinahdan yaranan problem get-gedə böyüyürdü. Hürr batalyonunun şəxsi heyətinin əksərinin şəhidliyi ilə nəticələnən əməliyyatda düşmən daha da irəliləmişdi. Belə ki duz zavoduna gedən yolda bizimkilərlə yalnız 10 metr məsafələri qalmışdı. Bu yol Fav-Bəsrə magistralını duz zavoduna birləşdirirdi, zavoddan sonra da Fav-Ümm əl-qəsr magistralına, yəni Şəhadət üçyoluna çatırdı. Düşmən Vəlfəcr-8 əməliyyatından öncə təmir məqsədilə duz zavoduna qədər yola hər 30 metrdən bir qum boşaltmış, amma yaymağa macal tapmamışdı. Bu səbəbdən, düşmən qüvvələri onların arxasında müdafiə mövqeyi seçə bilirdilər.

Əməliyyatdan öncə bu yol mütləq təmizlənməli idi. Tapşırığa əsasən, Kərbəla diviziyası Fav-Bəsrə magistralı istiqamətindən, Aşura diviziyası da duz zavodu istiqamətindən yolda kəşfiyyat aparmalı idi.

Təpələr duz zavodu tərəfdən nömrələnmişdi. 19 və 20-ci təpələrin yanında yanmış bir tank vardı. Düşmən orada pusqu qurmuşdu. Ora sutkalıq mərkəzi pusqu idi, hər axşam oradan qonşu təpələrə canlı qüvvə göndərilirdi. Bizim uşaqlar da bikar oturmurdular: Hər gecə bir neçə nəfər pusqu formasında üçüncü təpə istiqamətindən yola düşüb səhərin ala-toranlığında qayıdırdı. Əli Əkbər batalyonu öncədən bölgədə olan Yusif Sariminin bələdçiliyi ilə dördüncü təpəyə qədər ərazini təmizləyib orada yerləşmişdi. Onlar hər gecə bir-iki təpə irəliləyirdilər, lakin önəmli olan magistralın üzərində və təpələrin arasında tez bir zamanda əlaqə kanalı qazmaq idi. Bu, növbəti təpələrə doğru irəliləməni gecikdirirdi. Yalnız 200 metr aralıda yerləşən düşmənin güclü atəşi altında kanal qazmaq çox çətin idi.

Bölgədəki kəşfiyyatçılarla partladıcı bölük arasında iclaslar keçirildi. İlk təklif bu idi ki, Əli Əkbər batalyonu hər gecə bir təpəni ələ keçirsin və magistralın sağ tərəfində kanal qazsın ki, biz də günboyu orada qala bilək. Düşmən qısa müddətdə magistralın sol tərəfinə yerləşmişdi və kanal qazmaq işi geciksəydi, günboyu təpədə qalmaq mümkün olmayacaqdı. Partladıcı bölüyə kanal qazmaq üçün bir yol fikirləşmələri tapşırıldı. Onlar bundan ötrü Banqalor torpedindən istifadəni təklif etdilər. Bu, magistral üzərində yaxşı

[1] Cəbhə uşaqlarının gözəl adəti belə idi: Hər hansı səbəbdən bir-birindən incisələr də, çox tezliklə elə görüşürdülər ki, inciklik insanın tam yadından çıxırdı və heç bir kin-küdurət qalmırdı.

effekt verəcəkdi, amma yol qədər bərk olmayan kənar torpaqda onu partlatmaq böyük bir yer açacaqdı və daha kanal olmayacaqdı. Təxminən iki həftə ərzində uşaqlar sadə alətlərlə dördüncü təpəyə qədər kanal qazmışdılar və orada yerləşmişdik. Bölüyün bəzi uşaqları orada idilər, hər gecə iki nəfər irəliləyirdi ki, düşməndən öncə təpələri alıb yerləşsinlər. Bir az gecikmək düşmənin təpələrə qədər irəliləməsi demək idi.

Bir gecə Seyid Əli ilə Qəhrəman dördüncü təpədən beşinci təpəyə yola düşdülər. Onlar bir qədər gec tərpəndilər. Düşmən də on doqquzuncu təpədən irəliləməyə başlamış və bizim uşaqlarımızdan öncə təpələri tutmuşdu. Bizim uşaqlarımız öncəki gecələr kimi, yenə yaxınlıqda düşmənin olmadığını düşünüb arxayın halda təpəyə yaxınlaşdıqları yerdə birdən onlara atəş açılmışdı. Onlar dördüncü təpəyə qədər birnəfəsə qaçmışdılar. Seyid Əlinin bədənində iki-üç güllə vardı. Həmin gecə onu geriyə göndərdik. Bu hadisədən sonra hamı fikirləşirdi ki, iraqlılar təkcə gecələr deyil, gündüzlər də təpələrin başında olurlar.

Növbəti gecə Qəhrəman Məəttəli beşinci təpədən səkkizinciyə getdi, səhərə qədər orada qaldı və səhər qayıtdı. O, gələndən sonra əmin olduq ki, iraqlılar hər bir neçə gecədən bir bizim yaxınlığımıza qədər gəlirlər.

***

Qardaş Seyid Fatiminin rəhbərlik etdiyi Həbib batalyonu bölgədə Əli Əkbər batalyonunu əvəzləmişdi. Təpələrdə yerləşmiş bölüyün komandiri də qardaş Sövdagər idi. Təpələri ələ keçirmək üçün təklif olunan bütün yollar nəticəsiz qalmışdı. Nə düşmənlər günboyu təpələrdə qala bilirdilər, nə də biz. Təpələrin üzərində səngər düzəltmək də bir gecənin işi deyildi. Bu baxımdan, gizlənqaç oyunu davam edirdi.

Bir gecə Yusif Sarimi ilə mən beşinci təpədə təzəlikcə düzəldilmiş səngərimizdən çıxıb qarşıdakı təpələrə yola düşdük. Yusif yolun solu, mən də sağı ilə gedirdim. Fikirləşirdik ki, birdən düşmən qarşı təpəyə qədər gəlib qaranlıqda pusqu qurmuş olar. Altıncı təpəyə qədər otuzmetrlik məsafəni qət etdik. Orada heç kim yox idi. Təpənin başında oturub rahat nəfəs aldıq.

– Yusif, bəlkə daha irəli gedək?

Yola düşdük. Təpələr bir-birindən 30-40 metr aralıda idi. Yeddinci təpəyə yaxınlaşanda məni qorxu bürüdü; bir neçə addımlığımızdan yavaş bir səs eşitdim.

– Yusif, deyəsən, yuxarıda kimsə var.

– Məncə də.

Hər ikimiz yolun üstündə uzandıq. Bir səs ərəbcə tez-tez danışırdı.

– Qumbara at.

Yusif bir əl qumbarası atdı. Bir neçə saniyədən sonra qumbara partlayışı düşmənin atəşinə calandı. Var gücümüzlə geri qaçmağa başladıq. Güllələr ətrafımızda yerə dəyirdi. Tez beşinci təpədəki səngərimizə çatdıq. İraqlılar da arxamızca altıncı təpəyə qədər gəldilər. Ləhləyə-ləhləyə səngərdəki

minomyotçuya dedim: "Qalx, qalx, altıncı təpəyə bir raket at". O, tələsik səngərdən çıxdı. Bir neçə saniyədən sonra raketin səsini və dərhal da öz qışqırtısını eşitdik: "Yandım... Əlim yandı".

Cəld bayıra çıxıb gördüm ki, raketi atarkən dəstəkdən tutmaq yerinə lülədən tutmuş və əli çox yanmışdır. Onu da geriyə göndərdik.

Bir neçə dəqiqədən sonra düşmənin bizim səngərimizə doğru RPG atəşi açıldı. Hər tərəfi toz-torpaq bürüdü və Yusif Sariminin "ax" səsi gəldi. Yanağına bir qəlpə dəymişdi. O, əli ilə üzünü sıxıb deyirdi: "Ox... ox... Mən də yaralandım". Özümü saxlaya bilməyib gülməyə başladım. Yusif hirsləndi: "Sən nəyə gülürsən?!" Zavallı necə danışdığını bilmirdi. Yusifi də təcili yardıma apardım və həmin gecə əməliyyat bu hadisələrlə bitdi.

Sonralar Yusifin yaralandığını danışıb deyirdim: "Bəli, Yusifə qəlpə dəyəndə qışqırmağa başladı: "Ox... ox... Qara Rəsul, haradasan, mən yaralandım!" Yusiflə Rəsulun arası yaxşı deyildi və bu sözü eşidəndə hər ikisi narahat olurdu.

Ertəsi gün səhər qədim dostum Həmid Allahyari peyda oldu. O, israr edirdi ki, gecə onu da irəliyə aparaq. Ona dedim: "Baba can, kim irəli gedir, vururlar!"

– Yox, məni vurmazlar. Sən hələ məni tanımırsan.

Bölgə ilə tanış olsun deyə, əvvəlcə onu üçüncü təpəyə gətirdim, oradan düşmənin mövqeyini və öz mövqelərimizi göstərdim.

– Hər gecə biz də, iraqlılar da təpələrdə irəliləməyə başlayırıq. Dünən onlar on doqquzuncu təpədən altıncı təpəyə qədər gəlmişdilər...

Bunu eşidən Həmid təəccübdən qaşlarını çatıb dedi: "Oğlan, bura aşdan da qarmaqarışıqdır, kim-kimədir!"

– Mən dedim ki, vəziyyət belədir.

Sakit otura bilmədi.

– Qoy bir də baxım.

Başını yuxarı qaldıran kimi üzünün yanından bir güllə keçib burnunu və yanağını siyirdi. Oturanda Yusif kimi onun da əli üzündə idi. Gözüm üzünə sataşan kimi yenə məni gülmək tutdu.

– Və deyirdin ki, səni vurmazlar?!

Həmidi Ərvəndə qədər apardım. Yolda mən gülürdüm, o da hirslənirdi. Ərvəndin sahilində onu qayığa mindirib özüm geri qayıtdım. Yolda bölgə haqda fikirləşirdim. Ötən 24 saatda baş verənlər uşaqları həqiqətən, narahat etmişdi. Qədim və bacarıqlı kəşfiyyatçıların əksəri orada deyildi və duz zavodunda döyüş ağır vəziyyətə gəlib çıxmışdı. Həm düşmənlər çox qorxurdular, həm də biz. Bu ikitərəfli qorxu və narahatlıq aydın hiss olunurdu və mən düşünürdüm ki, tez bir zamanda əsaslı bir çıxış yolu tapmalıyıq.

Bölgəyə çatanda partladıcı bölüyün uşaqlarından xoş xəbər eşitdim. Dedilər ki, Banqalor torpedini yolun üstündə sınaqdan keçiriblər; üstünə bir kisə qoyublar və çox yaxşı bir kanal açılıb.

– Çox yaxşıdır. İnşallah, bundan sonra hər gün iki təpə ala bilərik.

Gecə Qəhrəmanla birgə beşinci təpədən çıxıb heç bir problemsiz yeddinci təpəyə çatdıq. Yeddinci təpənin o tərəfində tikanlı məftil çəkmişdilər. Qorxurdum ki, tikanlı məftillərin arxasında minalanmış sahə olar. Lakin iş yeni başlanmışdı və bu ehtimallarla ləngidə bilməzdik.

Özümüzlə partladıcı batalyonun uşaqlarından ikisini götürmüşdük. Bizim işimiz bitmişdi və növbə onların idi. Onlar Banqalor torpedini 40-50 metr uzunluğunda bir yerdə dolayıb beşmetrlik məsafələrlə üstünə torpaqla dolu kisələr qoydular. Partlayışdan sonra kanal formasında açılmış yeri təmizlədilər. Bu, təpələrdə kanalqazma üsulu idi. Canlı qüvvə səhərə qədər o kanalda qalırdı, gecə isə oradan hərəkət başlayırdı. Torpedlərin köməyi ilə sürətlə kanal hazırlanırdı. Bir neçə gün ərzində uşaqlar həmin minvalla irəliləyib tezliklə on dörd və on beşinci təpələri ələ keçirdilər. Fikirləşdim ki, əməliyyat istiqamətlərinin bölgüsü və kəşfiyyat işinə başlamaq vaxtı gəlmişdir. Təpələri ələ keçirəndən sonra bir istiqamət açılırdı və biz təpələr tərəfdən hücuma keçə bilərdik.

Bu müddətdə duz zavodunda bizə verilmiş üstüörtülü səngərdə partladıcı uşaqlarla birgə qalırdıq. Partladıcı bölüyün uşaqlarının cəsarəti və mənəvi paklığı uzun müddət öncədən hamımıza sübut olunmuşdu.

Rəhim Xıdır[1] hamı ilə zarafatlaşırdı, hazırcavablığı çox yüksək idi. Səngərin gecə namazı qılanları həmişə onun diqqət mərkəzində idilər və onları çox utandırırdı. Əlirza Ətayi, Əhəd Baharlı, Kazim Afaqi, Höccət Şəriəti, Əbdülvahid Məhəmmədi və Hüseyn Xudayi də bizim səngərimizdə qalan partladıcılardan idilər. Adətən, namazlar camaat namazı şəklində qılınırdı və qardaş Xudayi pişnamaz olurdu. Partladıcı bölüyün bütün uşaqları təxminən eyni əhval-ruhiyyədə idilər, Təvəssül duasına və gecə namazına böyük əhəmiyyət verirdilər. Camaat namazından sonra qardaş Xudayi şeir və münacat oxumağa başlayırdı: "Gecələr tək olanda..." Rəhim onların hamısını yadda saxlayıb duadan sonra Hüseynə yaxınlaşır və deyirdi: "Baba can, bunu namazdan sonra oxuma, yaxşı deyil! Sənin oxuduğun bu şeir şah dövrünə aiddir..." Və yenə hamı gülür, zarafat məclisi qızışırdı.

Həbib batalyonunun və partladıcı bölüyün uşaqlarından əlavə, bölgədə təxminən on diviziyadan ibarət iri və dözümlü siçan ordusu da səmimi şəkildə işləyirdi. Elə şoranlıqda siçanların necə davam gətirdiyi təəccüblü olsa da, hər halda, bizim aramızda yaşayırdılar. Siçanların komandir səngərinin içində və ətrafında daha aktiv fəaliyyətləri oranın digər yerlərlə fərqini anladıqlarına dair versiyanı gücləndirirdi. Raket və mərmi partlayışlarından çoxlu siçan yaralanırdı. Hər bir atəşdən sonra hər tərəfdə ölü siçanlar görünürdü. Zərbə dalğasına məruz qalmış siçanların yol yeriməsi çox maraqlı idi; bəzən quyruqları ayaqlarının altında qalırdı və başı üstə yerə yıxılırdılar. Buna

[1] O, Kərbəla-5 əməliyyatında şəhadətə qovuşdu.

baxmayaraq, siçanların sayında dəyişiklik hiss olunmurdu. Bu böyük qoşunun mənfi nəticələrindən biri də siçan qaraları idi. O zaman bu problemi həll etmək üçün heç bir tədbir nəticə vermədi. Hər yer, hətta kauçuk soyuducunun içi və süfrə də siçan qarası ilə dolu olurdu.

***

Bölgədə kəşfiyyat işi üç istiqamətdən başlandı. Uşaqları üç yerə böldüm. Yusif Həqqayi, Qəhrəman Məəttəli, Rza Sultanzadə və mən bir saylı istiqamətdən və on beşinci təpənin yanından, Rəsul Rzazadə, Əmir Əsədullahi və Möhsün Əqdəmi iki saylı istiqamətdən, Əli Qəffarpur və Möhsün üçüncü istiqamətdən başlayacaqdıq. Kəşfiyyat müddəti iki gün idi.

O bölgənin özünəməxsus xüsusiyyətləri vardı. Şoranlıq idi və ötən 45 gün ərzində düşmənin daimi atəşi altında qalmışdı. Atəş zərbələri yeri elə şumlamışdı ki, partlayışlardan çoxlu çala əmələ gəlmişdi. Həmin çalalara görə biz daha fişənglərdən qorxmurduq, təhlükəli anlarda gizlənmək üçün onlardan istifadə edirdik. Lakin çalaların çoxuna şor su yığılmışdı; girəndə islanır və dibindəki duza batırdıq.

Oranın başqa bir xüsusiyyəti bu idi ki, bədənimizin hansısa hissəsində yüngül bir yara olsaydı, şor su ilə təmasdan get-gedə daha da dərinləşib böyüyürdü.

İlk kəşfiyyatda Rza Sultanzadə ilə birgə təpələrin qarşısından yola düşdük. Orada düşmənlə məsafəmiz təxminən 250 metr idi. Yolun 200 metrini xüsusi bir hadisə yaşamadan getdik. Düşmənin əllimetrliyində daha diqqətli və ehtiyatlı olmamız lazım idi. Düşmənin oradakı imkanları barədə yetərli məlumatımızın olmaması işi çətinləşdirirdi. Bütün bunlar birinci kəşfiyyata aid problemlər idi. Get-gedə fişənglər arasındakı zaman fasiləsi də azaldı. Rzaya dedim: "Sən burada qal, mən irəli gedirəm. Mən oturanda sən hərəkətə başla və məndən qabaqda dayan".

Bu şəkildə müəyyən həddə bir-birimizi qoruya bilirdik. Hələ yerimdən tərpənməmiş başqa bir fişəng səmanı işıqlandırdı. Yerə uzanıb yavaşca Vəcəəlna ayəsini oxudum. Hər gecə olduğu kimi, yenə hədəfsiz işıqlı atəşlər açılırdı. Bu güllələr yeni döyüşçülərdə qorxu yaratsa da, biz atəş açılan yeri təyin edə bilirdik. Mən oturmuşdum. Rza yanımdan keçib məndən öndə oturdu. Mənim növbəm idi. Hərəkətə başladım və Rzanın yanından yenicə keçmişdim ki, fişəng tapançası açıldı. Səsi eşidən kimi çalaya uzandım. Fişəngin səmanı işıqlandırmasını görmək üçün gözümü göyə dikdim, amma səma işıqlanmadı. Birdən məndən bir metr aralıda yerə bir şey düşdü. Fişəng idi. İşığı və tüstüsü məni qorxutdu, ürəyimin döyüntüsü sürətləndi. Vəcəəlna ayəsini dilimlə və qəlbimlə oxuyurdum, amma düşmənin gözləri önündə uzandığıma və onların indi mənə baxdığına dair fikir bir an da beynimdən çıxmırdı. Özümü Allaha tapşırdım və fişəng sönənə qədər ayə dilimdən düşmədi. Yenidən hər tərəfə qaranlıq çökdü. Düşmənin məni görmədiyinə inanmırdım. Rza yanımdan keçib bir neçə addım irəlidə oturdu. Ona baxdım.

İkimizin də qorxduğumuza baxmayaraq, hələ işimizi düzgün yerinə yetirdiyimizə sevindim. "Ya Əli" deyib yola düşdüm. Təxminən otura-otura gedirdim.

Tezliklə suya çatdıq. Su düşmən mövqeyindən təxminən 10-15 addım aralıda idi. Dərinliyi təxminən yarım metr idi. Bir müddət öncə düşmən yol çəkmək üçün oradan torpaq götürmüşdü və istehkamın önündə bir çala kimi qalmışdı. Oradan keçmək çətin deyildi, istehkam boş idi, amma sağ-solumuzda düşmənin pulemyot səngərləri görünürdü.

Qərara gəldik ki, bacardıqca irəliləyib özümüzü istehkama çatdıraq.

Sudan keçəndən sonra birinci addımımı yerə qoyanda bütün planlarımız pozuldu. Orada yer duzla örtülmüşdü və əmin idim ki, ayağımın izi qalacaq. Daha ondan irəli getmək məsləhət deyildi. Ayağımı götürdüm və ayaqqabımın izini itirməyə çalışdım. Gəldiyimiz yolla sakitcə geri döndük. Qayıdanda xüsusi bir hadisə baş vermədi. Mən düşmənin bölgədə heç bir maneə yaratmadığına təəccüblənirdim.

Tezliklə öyrəndim ki, düşmən həmin istehkamı bir maneə və bəlkə də keşik postu kimi nəzərdə tutmuşdur. İranlıların inanılmaz şəkildə Ərvənd çayından keçib Favı tutduqlarını və duz zavoduna qədər irəlilədiklərini görmüş düşmənin belə qorxu içində olması təbii idi. Düşmən proqnoz verirdi ki, İslam döyüşçüləri gec-tez oraya da hücuma keçəcəklər. Bu baxımdan, o bölgədə ciddi bir iş görməmiş, hətta bir cərgə tikanlı məftil də çəkməmişdi.[1]

***

Kəşfiyyatın ikinci günü idi. Mahir kəşfiyyatçılardan olan qardaş Əbdürrza Əkrəmi kəşfiyyat komandiri olaraq, oraya gəldi. Əməliyyatın həssaslığından yaxşı xəbərdar olduğum üçün Əbdürrzanın gəlişinə çox sevindim. Əvvəlki planları pozmadan və iş tərzini dəyişmədən razılaşdıq ki, mən təpələrlə məşğul olum, o da ikinci və üçüncü istiqamətlərlə. Kəşfiyyat zonası daraldığına görə işimiz asanlaşdı və diqqətimizi daha yaxşı toplayıb işləyə bildik.

Kəşfiyyat zamanı bölüyə yeni gəlmiş döyüşçüləri yoxlamaq üçün əlverişli fürsət yaranırdı. Adətən, təcrübəli kəşfiyyatçılar kəşfiyyat əsnasında yeni qüvvələrin işini dəyərləndirib gələcəyə planlar qururdular. Çalışdığım qrupda bəzilərini gözüm tutmuşdu. Fikirləşirdim ki, gələcək əməliyyatlarda onlara yaxşı tapşırıqlar vermək olar. Qəhrəman Məəttəli, Yusif Həqqayi, Əli Qəffarpur və Əmir Əsədullahi[2] belələrindən idilər. Onların sualları, diqqətləri, bölgəni izah edərkən əsaslandırmaları, bacarıqları və kreativlikləri məni çox ümidləndirirdi. Bu uşaqlara görə bölüyün gələcəyinin yaxşı olacağına əmin idim.

---

[1] Əməliyyatdan sonra gördüm ki, onlar özlərinə səngər də düzəltməmiş, yolu qazıb kanal kimi bir yer açmış və orada keşik çəkirmişlər.

[2] Onların dördü də şəhadət məqamına nail oldular.

Biz adətən, bu dəyərləndirmələri komandirlərə ötürürdük və bölüyün bütün kəşfiyyatçıları keyfiyyət baxımından daim yoxlanırdılar.

Bir gün qardaş Şəriətinin mənimlə işi olduğunu söylədilər. Rəhmətullah Ovhani ilə birgə Ərvənd çayına doğru yola düşdük. Əmin ağa Ərvəndin o tərəfində idi. İclasda bölgədə aparılan kəşfiyyat işlərini məruzə etdik. Dedim ki, biz on beşinci təpəyə qədər irəliləmişik, amma Kərbəla diviziyasının irəliləyişi haqda dəqiq məlumatımız yoxdur. Bölgənin vəziyyətini izah edib bildirdim ki, düşmən istehkamının 10-15 metrliyində bir gölməçə var və biz kəşfiyyat təhlükəsizliyi baxımından onun o tərəfinə keçməmişik. Bizim məruzəmizdən sonra qardaş Şəriəti dedi ki, bütün istiqamətdə Əli Əkbər batalyonu mövqeyi yaracaq və ona İmam Hüseyn (ə) batalyonu dəstək verəcək. Əməliyyatdan öncə Əli Əkbər batalyonuna hücum bölgəsinin vəziyyətini açıqlamaq lazımdır.

Qərargahda düşmən mövqeyinin yaxınlığındakı gölməçəyə ciddi yanaşmışdılar. Çünki qardaş Şəriəti mənə dedi: "Siz qardaşlardan iki-üçü ilə birgə Xor-Abdullaha gedin və oxşar bölgədə hərəkət edin; dalğıc geyimi ilə və geyimsiz. Görün əməliyyat zamanı uşaqlar dalğıc geyimi geyinsələr, yaxşıdır, yoxsa yox".

Yeni tapşırıqla Xor-Abdullaha yola düşdük. Özümüzlə iki dəst dalğıc geyimi götürmüşdük. Rəhmətullah Ovhani ilə paltarları geyindik və Xorun düşmən bölgəsinə çox oxşayan bir hissəsindən hərəkətə başladıq. Çoxlu sınaqlardan sonra bu qərara gəldik ki, bədənə yapışan şalvarlar yaxşıdır və səs çıxarmır. Lakin dalğıc şalvarı geniş olanda hərəkət zamanı ayaqları bir-birinə sürtünüb səs çıxarır. Dalğıc köynəyini isə düşündük ki, geyinməsək, yaxşıdır. Ərvəndin sahilindəki komandir qərargahına qayıdıb məsələni Əmin ağaya bildirdim.

- Qardaş Əmin, çoxlu sınaqlardan sonra bu nəticəyə gəldik ki, yalnız "dar" şalvarlar yaxşıdır.

Bu zaman qardaş Əmin Şəriəti ucadan gülməyə başladı. Gülüşünün səbəbini bilmədən təəccüblə ona baxdım. O, fars idi və məndən soruşdu: "Necə şalvarlar, ağa Mehdi?!"

Onda anladım ki, türk və fars dillərini bir-birinə qarışdırıb “dar” sözünü türkcə demişəm. Orada qərar qəbul olundu ki, həmin istiqamətdə dar dalğıc şalvarı geyinsinlər.

Həbib batalyonu mövqeləri İmam Hüseyn (ə) batalyonuna təhvil verdi. İmam Hüseyn (ə) batalyonunda unudulmaz xatirələrimiz olan tanışlar çox idi. O batalyonun uşaqları arasında olmaq həmişə bizi ruhlandırırdı. Lakin orada əksər döyüşçülərin bizim gözlədiyimiz səviyyədə olmadıqlarını hiss edirdim. Düşünürdüm ki, bəlkə bunun səbəbi duz zavodunda baş tutmuş ağır döyüşdür. Hər halda, birinci bölük mövqeyə yerləşdi və ikinci bölük pusquya. Üçüncü bölükdən yalnız bir taqım gəlmiş, digər iki taqım arxada qalmışdı. İmam Hüseyn (ə) batalyonunun cəbhələrdə yetişmiş qədim döyüşçülərdən ibarət

komandirləri həmişəki kimi bizi səmimi və gülərüzlə qarşıladılar. Batalyonun komandiri qardaş Seyid Həsən Şəkuri, müavini də Məhəmməd Səbzi idi. Əli Çərtab, Cəfər Zəvvar və Mustafa Pişqədəm də bölüklərin komandirləri idilər. Məhəmməd Təcəllayi, Məhəmməd Balapur, Rza Xeyri, Əyyub Əyyubi və Maqsud Nikkərd də batalyonun tanınmış və aktiv simalarından idilər. Bütün batalyon yerləşəndən sonra fikirləşdim ki, bir gün uşaqlarla təpələrə gedək, ondan sonra əməliyyat gecəsinə qədər ən azı, iyirminci təpəyə qədər özləri gedə bilsinlər və bizim kəşfiyyata vaxtımız qalsın. Günortadan sonra qərara gəldik ki, Seyid Məhəmməd Vətəni bəzi uşaqlarla on səkkizinci təpəyə qədər irəliləsin. Partladıcı bölüyün uşaqları da öncədən sınaqdan keçirdikləri torpedləmə yolu ilə kanal və səngər düzəltməyə hazır idilər.

Axşamı gözlədik, hava qaralmağa başlayanda yola düşdük. İki nəfər öndən gedib təpəyə çıxırdı və bomba partlayan kimi digər uşaqlar kanalı təmizləyib yerləşirdilər. On səkkizinci təpəyə çatdıq və uşaqlara sabahkı hərəkət barədə məlumat verildi. Onlara bildirdim ki, bu təpələrdə hərəkət tərzi belədir və təpələrin hamısını bu üsulla azad etmişik.

Ertəsi gün duz zavodunda bütün kəşfiyyatçıların iştirakı ilə bir iclas keçirildi. Qərara alındı ki, həmin gecə son olaraq bütün istiqamətlər yoxlansın və əməliyyat başlayana qədər kəşfiyyatı dayandıraq. Çünki o bölgədə batalyonu aparmaq sadə iş idi. Bütün yol təxminən 250 metrdən ibarət idi və onu durbinlə göstərmək olurdu. Günortaya yaxın iclas bitdi. Birgə nahar etdik və iclasın nəticələrini qardaş Seyid Həsən Şəkuriyə bildirmək üçün dərhal motosikleti İmam Hüseyn (ə) batalyonuna sürdüm.

– Ağa seyid, biz bu axşam kəşfiyyata gedəcəyik, uşaqlar özləri təpələrə gedə bilərlər?

– Bəli, amma bizdə gecə durbini yoxdur. Bu haqda bir şey fikirləşməliyik.

– Bizim kəşfiyyata gedib-gəlməyimiz yarım saatdan çox çəkmir. Qayıdanda durbini sizə verərik.

Bu söhbətdən sonra qardaş Şəkuri ilə sağollaşdım. Onun özü də batalyonun təkbaşına və kəşfiyyatçıların bələdçiliyi olmadan təpələrə gedə biləcəyini söyləsə də, qəribə həyəcanım vardı. Bu həyəcan axşama qədər məni rahat buraxmadı.

Şam və işa namazlarımızı qılıb özümüzü on birinci təpəyə çatdırdıq. Biz oradan son kəşfiyyat məlumatlarını toplamalı idik. Hələ nəfəsimizi dərməmiş Seyid Məhəmməd Vətəni tələsik yanımıza gəldi, çatan kimi dedi: "Ağa Mehdi, durbini verin, biz məmuriyyət (tapşırıq) yerinə gedirik". Seyid Məhəmməddən çox xoşum gəlirdi. Ciddi və təxminən əsəbi idi. Hərdən qardaşlar hirsləndirmək üçün bilərəkdən onunla zarafat edirdilər. Onun hirslənməsi də maraqlı idi.

Ona dedim: "Qaç get, oğlan. Səndən məmuriyyətə gedən çıxmaz!" Yavaş-yavaş hirslənirdi. Əlini tutub dedim: "Otur, seyid, indi uşaqları kəşfiyyata göndərəcəyik. Qayıdandan sonra gedərsiniz".

Orada, on ikinci təpədə mənim yanımda oturdu. Son kəşfiyyata Yusif Həqqayini və Qəhrəman Məəttəlini seçmişdim. Rza Sultanzadə də bölgəni yaxşı tanıyırdı, amma həmin günlərdə məzuniyyətdə idi. Yusiflə Qəhrəman yola düşdülər. Məndə adi durbin vardı və aydın səmanın köməyi ilə onları görə bilirdim. Arabir fişənglər də yeri-göyü işıqlandırırdı. Uşaqlar bizdən təxminən yüz metr aralanmışdılar və bizimlə düşmən mövqelərinin ortasında idilər. Təbii olaraq, bizim kimi düşmən də onları görməli idi. Mən düşmənin onları hələ görmədiyinə təəccüblənirdim. Bu təəccüb və nigaranlıq Seyid Məhəmmədə olduqca çox idi. Gözlənilmədən ilk kəşfiyyatda mənim başıma gələnlər bu dəfə onların başlarına gəldi. Uşaqların bir neçə addımlığında yerə bir fişəng düşüb yandı. Seyid Məhəmməd həyəcanla deyirdi: "İndi görəcəklər... İndi görəcəklər..."

– Gözlə, görək nə olur. Vəcəəlna ayəsini oxu, seyid.

Uşaqlar gözdən itmişdilər. Təxminən 10 dəqiqə onlardan xəbərimiz olmadı. Ömründə ilk dəfə uzaqdan kəşfiyyat işini izləyən Seyid Məhəmmədin böyük həyəcanı mənə maraqlı gəlirdi. Düşünürdüm ki, hərdən belə mövqelər yaranmalı və kəşfiyyatçılar işlərinin dəqiqliyini və həssaslığını digərlərinin baxış bucağından görməlidirlər. Həmin 10 dəqiqəni Seyid Məhəmməd Vətəniyə tamaşa etməklə keçirdim.

– Gəlirlər.

Seyid təbəssümlə deyirdi. Deyəsən, yavaş-yavaş sakitləşirdi. Uşaqlar çatanda gecə durbinini alıb seyidə verdim və lazımi tövsiyələri yenidən təkrarladım.

– Seyid, necə getdiyimizi dünən gördünüz: iki nəfər öndən gedir, əgər öndə düşmən olsa, əl qumbarası atırlar, olmasa, gedib təpənin başında otururlar. Partladıcı bölüyün uşaqları Banqalor torpedini hazırlayırlar. Səngər düzələndən sonra artıq məsələ həll olunub".

Seyid Məhəmməd durbini əlində möhkəm tutub qayıtmağa tələsirdi. Getdi və bu, bizim son görüşümüz oldu.

Bölgədə yekun araşdırmam müvəffəqiyyətlə başa çatdı. Birlikdə digər istiqamətə gedib uşaqların kəşfiyyatdan dönüşünü gözlədik. Onlar qayıdandan sonra hər şeyin qaydasında olduğunu bilib hamılıqla bir toyotaya mindik və duz zavodundakı qərargahımıza qayıtdıq.

Səhərə az qalırdı. Sübh namazını qılıb tələsik bir çay dəmlədim. Tələsdiyimə görə uşaqları gözləməyib bir qədər səhər yeməyi yedim və saat 7-də motosikletə minib İmam Hüseyn (ə) batalyonuna getdim. Məni oraya nəyin apardığını bilmirdim; ya daxilimdəki qəribə gərginlik idi, ya da yeni vüsal ətrini duyurdum...

Uşaqlara demişdim ki, gecə onların təpələrə necə getdiklərini öyrənmək istəyirəm. Batalyon komandirliyinin önündə idim, amma ayaqlarım getmirdi. Komandir səngərinə girə bilmədim. Səngərin önündəki toyota məni özünə çəkirdi. Əli Çərtab mənə yaxınlaşdı. Toyotanın düz qarşısında dayanmışdım.

Toyotanın arxasında üzərinə ədyal örtülmüş üç cəsəd vardı. Əli dedi: "Bunları tanıyırsan?"

– Nə olub? Nə vaxt şəhid olublar?

– Bu gecə, təpələrdə.

Dinləyə bilmir və heç bir şey eşitmirdim. Ədyalın altında qan içində olan üç cəsədin sakit üzünü gördüm: Məhəmməd Səbzi, Mirheydər Payidar və ikinci tağımın pulemyotçusu Nasir. Gözlərim Məhəmməd Səbzinin gözündə donub qalmışdı. Bir gözünə qəlpə dəymişdi, bir gözü isə hələ açıq idi. Əlimi yaralı üzünə çəkib yavaşca gözünü bağladım. Həyəcanımın səbəbini bildim. Nə baş verdiyini və bizim nə qədər itki verdiyimizi ətraflı bilmirdim.

Yola düşüb kanalla irəliləyərkən atışma səsindən gic olmuşdum. On altıncı təpədən keçəndən sonra iki təcili yardım işçisi və bir xərək gördüm. Atışma güclü idi və təcili yardım işçiləri yaralını istehkamın üzərinə qoyub özləri kanalın içində yatmışdılar. Göydən 30 kalibrli pulemyot güllələri yağırdı. Hirslə tibb işçilərinə dedim: "Cəld qalxın! Yaralını bayırda qoymusunuz, özünüz isə burada köpmüsünüz. Cəld onu geriyə aparın. Ya Allah!"

Çox əziyyətlə xərəyi oradan götürdük. Yaralı Hacı Sadiq Sidqi idi, güclü qanaxmadan danışa bilmirdi. Halı yaxşı deyildi və tibb məntəqəsinə çatana qədər davam gətirib-gətirməyəcəyini bilmirdim. Tibb işçilərini həmin kanalla təhlükəsiz yerə qədər ötürdüm, sonra yenidən geri qayıtdım. Hələ də inanmırdım ki, kəşfiyyatçıların bələdçiliyi olmadan bir gecə irəliləmək bu qədər ağır bitəcəkmiş.

Bütün əlamətlər göstərirdi ki, canlı qüvvə gecə onlara deyilən qayda ilə getməyib. Oradakı uşaqların dediyinə görə, onlar həddən artıq irəliləmiş və səhərə yaxın düşmənlə rastlaşmışdılar. Bir təpəni ələ keçirmək bir neçə nəfərin şəhadəti ilə baş tutmuşdu. Digər şəhid və yaralılar da kanalı təmizləmək üçün getmiş və düşmənin ağır atəşi altında qalmış uşaqlar idilər.

– Kim şəhid oldu?

– Hacı Sadiq yolda şəhid oldu.

– Daha kim?

– Seyid Məhəmməd Vətəni də.

Kanalı qayıda-qayıda daxilimdəki tufanı yatırmağa çalışırdım. Canlı qüvvə mənə baxırdı. Biz heç bir şəraitdə döyüşçülərin əhval-ruhiyyəsini endirəcək bir iş görməməli idik. Beş şəhidin üzü bir an da gözlərim önündən getmirdi. Kanal birinci təpəyə qədər davam edirdi. Dəstək və təchizat səngərləri orada yerləşirdi. Ora düşərgəyə bənzər bir əraziyə çevrilmişdi. Batalyon komandirinin səngəri də kanalın qarşısında idi. Səngərin girişində oturmuş Məhəmməd Təcəllayidən soruşdum: "Ağa Seyid Həsən haradadır?"

– Səngərdə.

Narahat halda ucadan Məhəmməd Təcəllayiyə dedim: "Oraya bu qədər döyüşçü yollamanıza ehtiyac yox idi. Nə üçün bu qədər uşaq yolladınız ki, tələfat da çox oldu?"

Cavab gözləmədim. Məhəmməd Təcəllayi də halımı anladığına görə heç nə demədi. Oradan qərargaha yollandım. Qəhərdən qurtulmaq üçün bir neçə damcı göz yaşı lazım idi.

III

Qərargah yeni xəbərlə dolu idi. Dedilər ki, əməliyyatın bu gecə başlama ehtimalı var. Əli Əkbər batalyonunun mövqe yaran qüvvələri oraya gəlmişdilər və tapşırıq yerinə getməyə hazır idilər. Hücuma hazır vəziyyətdə olan canlı qüvvənin çoxluğunu görmək qəlbin köhnə yaralarına həmişə məlhəm olurdu.

Əli Əkbər batalyonunun rəhbərliyi ilə iclas keçirib hər bir bölük və taqımın kəşfiyyatçılarını təyin etdik. İki batalyonun hücuma keçəcəyi əməliyyat istiqamətinin komandiri Zəncandan və qədim döyüşçülərdən olan qardaş Bəhmən Nuri idi.

Hərəkətdən öncə öz şəxsi heyətimi tapşırılan istiqamətə apardım və onların əməliyyatdan öncə yerləşmələri üçün yerlər seçdim. İmam Hüseyn (ə) batalyonu dəstək qüvvəsi idi və mövqe ələ keçiriləndən sonra bölgəni təmizləməyə gedəcəkdi. Onlar üçün münasib yer seçilməli idi. O istiqamətin kəşfiyyat işini özüm başlamışdım, hər qarışını tanıyırdım. On birinci təpənin arxasındakı dərin kanalı cənab Çərtabın bizim istiqamətimizə dəstək verəcək bölüyü üçün nəzərdə tutdum, on ikinci təpədəki kanalı da Əli Əkbər batalyonunun mövqe yaran döyüşçüləri üçün.

Bölüyün uşaqlarını bir yerə toplamağa yaxşı imkan yaranmışdı. Onların hamısını tapandan sonra Ərvəndin arxasındakı məscidə yola düşdük. Fikirləşdim ki, orada həm hamama gedərlər, həm də birlikdə oturub söhbət edərik. Əmin idim ki, bu gecə də bəziləri bu torpaqdan köç edəcəklər. Onların mənəvi hallarına fikir verirdim, heç bir söz, sükut, gülüş və fikrə dalmalarını nəzərdən qaçırmırdım. Nahar yeməyini həmin səfalı məsciddə birlikdə yeyib şəxsi heyətin yanına qayıtdıq.

Toyotaya minəndə Qəhrəman Məəttəlinin çox dəyişdiyini duydum. Məscidə gedib-gəlməyimiz iki saatdan çox çəkdi. Bütün yolboyu Qəhrəmanın gözlərindən sakit və səssiz yaş axırdı. Mənə yalnız onun halına qibtə eləmək qalırdı; gec gəlmişdi, amma çox tez gediş iznini alırdı.

***

Axşamüstü idi. Hərəkət vaxtı yaxınlaşırdı. Şəxsi heyət təyin olunmuş mövqelərə yerləşmişdi. Qəhrəman Məəttəli və Yusif Həqqayi ilk hücuma keçəcək heyətə bələdçi seçilmişdilər. Yusifi seçmək mənə ağır idi. Çünki o, Vəlfəcr-8 əməliyyatında yaralanmışdı və bir neçə ay keçsə də, hələ yarası tam sağalmamışdı. Bilirdim ki, kəşfiyyat zamanı bölgənin şor suyu və duzu ilə təmasdan ayağının yarası böyümüş, dərinləşmişdir. Bunu bilə-bilə onun mövqe yaran qüvvələrlə birgə getməsinə mane ola bilmədim. Çünki

kəşfiyyatlar zamanı bircə dəfə də ah-naləsini və yaradan şikayətini eşitməmişdim.

– Yusif, sən qal...

– Yox, uşaqları özüm aparacağam. Arxayın ol.

Hərəkət başlandı və kolon bu iki nəfərin arxasınca yola düşdü. İstehkamın arxasında qardaş Bəhmən Nurinin yanında dayanıb gözümü kolona dikmişdim. Bütün narahatlığım bundan ötrü idi ki, əgər düşmənin yalnız bir pulemyot səngəri uşaqları görsəydi, bütün kolon düzənlikdə müdafiəsiz qalacaq və Hürr batalyonunun başına gələnlər yenidən təkrar olunacaqdı. Lakin dəqiq və mütəmadi kəşfiyyat məlumatlarını və ümumi hücum planını yadıma salanda bu dəfə işlərin düşünülmüş və planlı hazırlandığına dair fikrim güclənirdi. Həm də bu əməliyyat ağanın mübarək xatirəsilə "Ya Mehdi" adlandırılmışdı.

Düşmənin kor atəşləri hər gecə olduğu kimi idi, lakin kolon gözdən itdiyinə görə hər bir atəş səsinə narahat olurduq. İşıqlı güllələrin istiqaməti də bu şübhəni gücləndirirdi. Hamı narahat idi və bu narahatlıq İmam Hüseyn (ə) batalyonunun kanalda gözləyən şəxsi heyətində daha çox idi. Əli Çərtabın işarəsi ilə Rəsul Aftabinin və Haşim Tarinin zarafatları başlandı. O dəqiqələrdə zarafat və gülüş uşaqların əhval-ruhiyyəsinə müsbət təsir bağışlayırdı. Kanaldan Quran və dua zümzümələri də gəlirdi. Mən yenidən özümü danlamağa başladım ki, nə üçün öndə getmədim və burada qaldım. Rahatlaşa bilmirdim. Bu daxili gərginlik əsnasında uşaqların yuxarı çıxacaqları yerdən bir əl qumbarasının partlayış səsi məni yerdən qaldırmağa kifayət etdi: "Ağa Bəhmən, mən gedirəm, görüm nə olub".

Uşaqlara çatana qədər qaçdım. Fikirləşirdim ki, yolda yaralı görsəm, geri apararam. Yolda heç kimi görmədim. Düşmən mövqeyinin onmetrliyindəki duzluğa, ilk kəşfiyyatda ayaq izlərinə görə gedə bilmədiyim yerə çatmışdım. Düşmən mövqeyini yarıb istehkamı aşan kolonun son döyüşçülərini gördüm. Əməliyyat başlamışdı, amma atəş həcmi bir neçə saniyə öncəki ilə çox da fərqlənmirdi. Düşmənin orada bu qədər zəif olduğuna inanmırdım. Pusqudan qaçmış düşmən qüvvələri oraya toplaşmışdılar. Kərbəla diviziyası da həmin xəttin davamında əməliyyata başlamışdı.

İstehkamdan keçdim. Yusif və Qəhrəmandan nigaran idim. Gördüyüm ilk adamdan onları soruşdum. Dedi: "Onlar irəli getdilər".

Pusqu tərəfdən atışma səsi gəlirdi. Həmin pusqu qardaş Əkrəminin və digər kəşfiyyatçıların işlədiyi istiqamətdə idi. Orada atışma gedirdi, mən olan yerdə isə xüsusi döyüş yox idi. Mənə göstərilən yerdə Qəhrəmanı və Yusifi axtarmağa başladım. Get-gedə digər qüvvələrlə məsafəm o qədər çoxaldı ki, təxminən tək qaldım. Qorxu məni bürüdü.

– Bəs bu Qəhrəman haradadır?

Daha sürətlə hərəkətimi davam etdirdim və partladıcı bölüyün tanış uşaqlarından birinin qısa boyunu görəndə arxayınlaşdım. Ərdəbildən Davud Rzayi[1] idi. Ondan Qəhrəmanın yerini soruşdum.

– İrəli get, orada səngərləri təmizləyir.

– Təkdir?

– Bilmirəm.

Qaçırdım. Məhəmməd Məhəmmədpurun cənazəsi ilə rastlaşdığım acı xatirə yadıma düşdü. Orada da mənə istiqamət göstərdilər və mən onu hamıdan uzaqda yerə yıxılmış vəziyyətdə gördüm. Ürəyim sinəmdən qopmaq üzrə idi. Uzaqdan yerə yıxılmış bir adam gördüm.

– Qəhrəman...

Başını qaldırıb güldü. Yanında oturdum. Ayağına güllə dəymişdi və güclü qan axırdı. Alnını öpüb onu ayağa qaldırdım. İmam Hüseyn (ə) batalyonunun uşaqlarına çatanda onu iki nəfərə tapşırıb dedim ki, cəld geri aparın. Qəhrəmanın aparıldığına əmin olandan sonra səngərləri təmizləyən uşaqlara kömək etməyə başladım. İmam Hüseyn (ə) batalyonunun şəxsi heyəti İraqın müdafiə bəndinin iki tərəfində hərəkət edib bölgəni təmizləyə-təmizləyə düşməni Kərbəla diviziyası ilə ortaq nöqtəyə qədər geri qovurdular. Oradan atışma gedən pusquya tərəf yola düşdüm. Atışmanın bu qədər uzanmasının səbəbini öyrənmək istəyirdim. Qarşıda bir üçyol vardı. Üçyoldan biri pusquya, biri uşaqların vuruşduğu təpələrə, üçüncüsü də başqa bir istiqamətə gedirdi. Həmin üçyolda düşmənin nisbətən möhkəm səngərləri vardı. Onlar müqavimət göstərib uşaqları bir qədər gecikdirirdilər. Dərhal Əli Əkbər batalyonunun uşaqlarını topladım. Bilirdim ki, bir güclü hücumla səngərlərin işi bitəcək.

– Uşaqlar, buraya qədər çox yaxşı gəlmisiniz... Daha bir şey qalmayıb... Ya Əli!

Kəşfiyyatçılar həmişə döyüşçüləri ruhlandırır, düşmən əleyhinə vuruşa cəlb edirdilər.

Güclü bir atəşin ardınca iraqlılar təslim oldular. Gecə idi və o şəraitdə komandirlərin əsirlər haqda hansı qərarı qəbul etdiklərini bilmədim. İrəliləməkdə olduğumuza görə əsirləri saxlamaq ağılsızlıq olardı. Orada problem həll olundu və atəş səsi azaldı. Artıq ekskavator və buldozer səsləri aydın eşidilirdi. Hücumdan öncəki iclaslarda qərara alınmışdı ki, mövqe ələ keçiriləndən sonra buldozerlər yolu hamarlaya-hamarlaya düşmən mövqeyinə doğru getsinlər, təpələrdən ibarət yol döyüş yerinə birləşdirilsin və get-gəl asanlaşsın. Aşura diviziyasının tikinti-mühəndis bölüyünün uşaqları o qədər operativ idilər ki, vuruşma bitən kimi yol istehkama birləşdirildi. Lakin bu sevinc mənim üçün çox sürmədi.

Kimə çatırdımsa, kəşfiyyat bölüyünün uşaqlarını soruşurdum. Rəsul Rzazadə yerə yıxılmışdı və dərin yaraları vardı. Onu geriyə apardılar.

[1] Sonralar onun şəhadət xəbərini də eşitdim.

Deyirdilər ki, Möhsünün də ayağı kəsilmiş və uşaqlar onu geri yollamışlar. Əli Qəffarpuru soruşanda da yaralandığını söylədilər.

– Əlini kim apardı?

Dəqiq bir cavab eşitmədim. Bir nəfər dedi: "Uşaqlar onu o tərəfdə istehkamın yanına qoydular".

Lakin onun göstərdiyi yer yeni salınan yolun altında qalmışdı. İnana bilmirdim ki, bizim yaralı Əlimiz o qədər torpağın altında dəfn olunsun. Bütün istehkam boyu bir neçə dəfə gəzdim. Haraya çatdımsa, onu soruşdum, axtarmalarını tapşırdım, amma əsər-əlamət tapılmadı.[1]

Səma yavaş-yavaş işıqlanırdı. İmam Hüseyn (ə) batalyonunun döyüş yerinə yola düşdüm. Çatan kimi bölgənin vəziyyətini soruşdum. Dedilər ki, hələ Kərbəla diviziyası ilə birləşə bilməmişik. Həmin istiqamətdə olmağımın zəruriliyini düşünüb yola düşdüm. Cinahları vaxtında birləşdirməmək təcrübəsini və bunun ağır nəticələrini çoxlu əməliyyatlarda, habelə duz zavodu istiqamətində çoxlu şəhid verdiyimiz sonuncu əməliyyatda görmüşdüm. Nə olursa-olsun, cinahları birləşdirmək lazım idi. Qardaş Şəriəti ratsiyadan deyirdi: "Kərbəla diviziyası deyir ki, biz lazım olan yerə qədər gəlmişik, amma siz yoxsunuz". Bu cümləni ilk dəfə eşitmirdim. Özüm iştirak etdiyim və həddən artıq irəlilədiyimizə əmin olduğum yerlərdə də ratsiyadan deyirdilər ki, Aşura diviziyası yaxşı irəliləməyib.

Məsələnin düzgünlüyünü isbatlamaq yeri deyildi. Cəld ora yola düşdüm. Yolda Əhməd Yusifinin qarabuğdayı dostu Kərim Purkərimi gördüm. Bir səngərin içində tək oturmuşdu. Ona salam verib keçdim. Ondan sonra diqqətimi cəlb edən məsələ kanalın içində düşmən ölülərinin çoxluğu idi. Düşmənlər Kərbəla və Aşura diviziyaları istiqamətindən oraya qaçmışdılar. Güman ki İmam Hüseyn (ə) batalyonu gecə gölməçədən keçib istehkamı tutmuş və əl qumbarası ilə bu qədər düşmən öldürmüşdülər. Yolda tək-tük bəzi uşaqları görüb deyirdim ki, bizim müdafiə xəttimiz gölməçə tərəfdən olmalıdır və onlar istehkamın o tərəfini özlərinə səngər etməlidirlər. Danışdığım uşaqların biri üzünü çəfiyə ilə örtmüşdü, amma mənə çox tanış gəlirdi. Onu səsindən tanıdım: Rza Daruiyan idi.

– Bu nə vəziyyətdir, Rza? Nə üçün üzünü örtmüsən?

– Deyəsən, Əmin ağa buraya gəlib. Məni burada görsə, çox hirslənər.

Bildim ki, gizlicə hücumçu qüvvələrə qoşulub oraya qədər gəlib. Təbəssümlə ondan ayrılıb yoluma davam etdim. Səhərin aydınlığında ön xətdən qaçıb qarşıdakı hovuzlardan keçən Bəəs qüvvələrinin bir qismi yaxşı görünürdü. Döyüşçülərimizin bir qrupu onları ovlamaq üçün oturmuşdular. Tezliklə uşaqların biri qışqırdı: "Kərbəla diviziyası gəlir".

---

[1] Əli Qəffarpur Nəhcül-bəlağəni çox oxuyur və bölükdəki Nəhcül-bəlağə dərslərini idarə edirdi. Onun pak cəsədi 1996-cı ildə tapıldı və vətəni Sərab şəhərində torpağa tapşırıldı. Allah rəhmət eləsin!

Onların təpələrdəki döyüşü haqda dəqiq bir şey öyrənə bilmədim. Cinahlar birləşəndən sonra yola düşdüm. Daha orada qalmağım vacib deyildi. Bölgə sakit idi və ciddi atışma getmirdi. Qayıdanda hələ üzünü açmamış Rzanı da özümlə gətirdim. Bir qədər aralıda Əhməd Yusifini də gördüm.

– Əhməd, dostun səngərdə idi. Sən də gördün?

– Yox, indi haradadır?

– Mən onu bu səngərdə...

Üzümü çevirəndə gördüm ki, orada səngərə oxşar bir şey qalmayıb. Düz onun üstünə bir raket düşüb dağıtmışdı. Altında kiminsə qaldığını ehtimal edib Əhməd və Rza ilə birgə səngərin uçmuş tavanını kənara çəkdik. Bir neçə kisəni götürəndən sonra Kərimin bədəni göründü. Üçnəfərə onu dağıntının altından çıxardıq. Huşunu itirmişdi və deyəsən, boğulmaq üzrə idi. Bir müddətdən sonra gözlərini açıb adi tənəffüsə başladı. Ayaq üstə dayana biləndən sonra onu da özümüzlə batalyon komandirliyinə doğru apardıq.

Kəşfiyyat bölüyünün işi demək olar, bitmişdi. Bütün alətlərimizi toplayıb məscidə apardım. Yolda gülər üzləri, nəğmə səslərini və əməliyyat marşını eşidirdim, amma ürəyim çox narahat idi. Bir gün öncəni xatırlayırdım. Həmin yolu uşaqlarla getmişdik, indi isə onların əşyalarını qaytarırdım. Qəhrəman Məəttəlinin gözləri yadıma düşürdü; nurlu siması vardı, hələ saqqalı tam çıxmamışdı, amma qorxmaz idi və Qəhrəman adı ona həqiqətən, yaraşırdı.

Məscidə çatanda hər şeydən öncə şəhidlərin əşyalarını səliqəyə salmağa və evlərinə göndərmək üçün lazımi yerdə saxlamağa çalışdım. Əvvəlcə Qəhrəmanın çantasını açdım. Şəhadət xəbərinə inanmırdım. O yara ilə gedəcəyini düşünməzdim. Uşaqlar deyirdilər ki, güllə ayağının arteriyasına dəymiş və güclü qanaxmadan təcili yardıma çatmazdan öncə şəhid olmuşdu. Vəsiyyətnaməsini hazır şəkildə əşyalarının üstünə qoymuşdu. Götürüb oxudum: "Ömrümün son saatlarıdır, anbaan Allaha yaxınlaşıram. Cəbhədə olduğum bu müddətdə anladım ki, Allaha qovuşmağın ən sürətli və ən yaxın yolu şəhidlikdir..."

Göz yaşı mənə aman vermirdi. Qəhrəmanın dünənki göz yaşlarına bütün vücudumla qibtə edirdim. Necə əminliklə şəhadətindən yazmışdı və sözlərində necə müqəddəs fəlsəfə vardı!

Axşama qədər orada qaldım. Bölüyün sağ qalmış üzvləri bir-bir gəlirdilər.

Məscidin axşamı başqa bir axşam idi. On nəfər idik. Heç kim danışmırdı. Heç kəsdə daxilini ifadə edəcək qüvvə yox idi. Yalnız sükut, hıçqırtı və qarışıq zümzümələr vardı.

***

Səhər əşyaları toyotalara qoyub Əhvaza yola düşdük. Əhvazda eşitdiyim ilk xəbər bu idi ki, kəşfiyyat bölüyü tərəfindən müqəddəs Məşhəd ziyarətinə göndərilən uşaqlar qayıtmışlar və indi Şətt-Əlidədirlər. Özümü toparlamağa çalışsam da, narahat və kədərli halımı hərəkətlərimdən oxudular.

– Mehdi, bir neçə gün məzuniyyətə çıx.

– Yox, burada qalmaq istəyirəm.

Yasir Zirək məni daha yaxşı başa düşürdü. O, dedi: “İstəyirsən, uşaqların yanına get. Onlar indi Şətt-Əlidədirlər”.

Uşaqları görmək həmişə bizə ən yaxşı dərman idi.

Qarnizondan çıxmazdan öncə maşını götürüb təchizat bölməsinə getdim. Qayda belə idi ki, kim bölüyün qərargahlarından birinə getsəydi, anbardan ora bəzi əşyalar aparırdı. Bu barədə təchizat bölməsinin başçısına xüsusi tapşırıq verilmişdi.

Diviziyanın təchizat bölməsinin başçısı Hacı Həmid özü anbarın qapısını açdı və maşını içəri apardı. Maşının arxasını doldurdu, əşyaları səliqəyə saldı və hazır şəkildə mənə təhvil verdi. Sürətlə Şətt-Əliyə doğru yola düşdüm.

Aldadıcı bölgə

I

Şətt-Əli ən yaxşı dostum Hüseynin şəhidlik xatirəsi ilə yadımda qalmışdı. O günə qədər oranı görməmişdim. Çatanda maşını buraxılış məntəqəsində saxlayıb zəng vurdum və kəşfiyyat qərargahına getmək üçün bələdçi gözlədim. Kəşfiyyat qərargahı suyun içində idi. Orada gözlədiyim bir neçə dəqiqə Hurun havasını yenidən udmaq üçün yaxşı fürsət idi. Uşaqların biri dedi: "Hüseyn Məhəmmədian orada şəhid oldu". Onun göstərdiyi istiqamət baxışımı apardı. Qəribə həzz alırdım; dərin bir kədərdən doğulan həzz idi.

1986-cı ilin mayı idi və Hurun gözəl havası vardı. Vəlfəcr-8 bölgəsi, Ərvənd çayı, Fav və duz zavodu o qədər böyüklüyünə rəğmən, Hura çatmırdı. Hurun təbiəti elə idi ki, insanı öz kökünə yaxınlaşdırırdı.

Bizə sarı gələn motorlu qayığın səsi intizarın bitdiyini bildirirdi. Qayıq estakadaya çatıb dayandı. Yan-yana qoyulmuş iki avtomobil körpüsü bir estakada rolunu yaxşı ifa edirdi. Körpülərin hər tərəfinə maşın təkərləri düzülmüşdü ki, qayıqlar dəyəndə nə onlara, nə də körpüyə ziyan toxunsun. Gözüm qayığı sürən döyüşçüyə sataşanda ixtiyarsız güldüm. Öz Məhəmməd Purnəcəfimiz idi. Uşaqların sözü ilə desəm, yenə iki nadinc birləşmişdi. Hal-əhval tutandan və əşyaları maşından qayığa daşıyandan sonra yola düşdük.

Şətt-Əli Xəndək kimi məşhur olmuş yolun sağ tərəfində yerləşirdi. Mən Bədr əməliyyatı zamanı ilk dəfə Hurda qalmışdım, amma bu hissə əsla oraya bənzəmirdi. Bədr əməliyyatı Xəndək yolunun sol tərəfində baş tutmuşdu. Şətt-Əlinin Bədr bölgəsi ilə əsas fərqi arxların çoxluğu, az bitki örtüyü, habelə heç bir bitkisi olmayan geniş və dərin gölməçələrin olması idi. Onların ən önəmlisi Ümm əl-niac gölməçəsi idi. Şətt-Əliyə getdiyim ilk gündə diqqətimi çəkən ən maraqlı şey Təhəl adlı üzən adalar idi. Tezliklə mən də onların necə düzəldildiyini öyrəndim. Bölgənin bəzi hissələri qamışlarla o qədər sıx örtülmüşdü ki, oranı yerdən qoparıb yuxarı qaldırmaq olurdu.

Suyun altından qoparılıb çıxarılan torpaq suyun üzündə bir ada kimi üzürdü. Onların bəzisi o qədər geniş idi ki, uşaqlar onun üzərində otaq düzəltmiş və hətta maşın da qoymuşdular. Nisbətən kiçik olanları qayığın arxasına bağlayıb istədiyin yerə aparmaq olurdu. Onları tərpətməyincə suyun üzündə hərəkətsiz qalırdılar, çünki Hurda suyun axını çox zəif idi.

Şətt-Əlidə canlı qüvvə iki istiqamətdə yerləşmişdi. Birinci istiqamət piyada körpüsündən düzəldilmişdi. Kauçuk körpülərin üstündə bir neçə çadır və otaq vardı. Bütün istiqamətin komandiri qardaş Rəhmətullah Ovhani orada olurdu. İkinci istiqamət isə kəşfiyyat bölüyünə aid idi. Üç-dörd cərgə körpü yanaşı düzülüb böyük bir kvadrat əmələ gətirmişdi. Çadırların yaxınlığında təxminən on piyada körpüsü yan-yana düzülmüş və iyirmi metr uzunluğunda bir dəhliz düzəltmişdi. Ayaqyolu dəhlizin sonunda yerləşirdi. Bu iyirmimetrlik yolun

ortasında dəhlizə iki-üç körpü əlavə olunmuş, təchizat çadırı orada qurulmuşdu. Ayaqyolunun yanından keçən yeddi kauçuk körpü qərargah otağına gedən arxa qədər bir yol əmələ gətirmişdi. Kəşfiyyat bölüyünün yerləşdiyi ərazi hovuz kimi idi və uşaqlar üzmək üçün oradan istifadə edirdilər.

Hurun o hissəsində tualetdə bir zərrə nəcisin belə qalmasına imkan verməyən balıqlar yaşayırdı. Sanki onlar Hurun çirkabını təmizləmək üçün yaranmışdılar. Uşaqlar bu balıqlara bığlı balıq deyirdilər. Onlar insana hücum edib əqrəb kimi sancırdılar və dişlədikləri yer qaralıb şişirdi. Mən bu balıqları Bədr bölgəsində də görmüşdüm, amma uşaqlar buradakıların böyük olduğunu deyirdilər. Xüsusən, bölgəyə yeni gələnlərə təkidlə tapşırırdılar ki, onları görsəniz, ya yaxınlaşmayın, ya da güllə ilə vurun. Çünki onların sancması mütləq ölümlə nəticələnir. Mən bığlı balıqların böyüklərindən görməyincə bu sözləri ciddiyə almırdım. Lakin bir dəfə onlarla qarşı-qarşıya gələndə məsələni anladım: bir metr uzunluqları vardı və ağızlarından təxminən dörd-beş qarmaq çıxmışdı. Onları görəndə anamın döşək tikmək üçün istifadə etdiyi qıyıqlar yadıma düşdü.

Ətrafımızı sarımış qamışlıqların içində digər canlılar da yaşayırdı. Siçanlar belə canlılardan idi. Bu siçanlar suya kəllə vurmaqda və sualtı üzgüçülükdə xüsusi məharətə sahib idilər.

Onlar adam görən kimi suya kəllə vurur və on metr uzaqdan çıxırdılar. Hurda əsas problemimiz bu siçanlar idi. Gecədən səhərə qədər hakimiyyət onların əlində olurdu və nəticədə, meriya işlərinin siyahısı uzanırdı. Bölüyün meri nəcisyuyanlar adlı bir qrupa da nəzarət edirdi. Mən də könüllü şəkildə bu qrupa qoşulmuşdum. Səhər hamıdan qabaq əlimizə bir vedrə götürüb çadırdan çıxır və bütün körpüləri yuyurduq. Çadırın içini, qayıqların içini və körpüləri elə yuyurduq ki, hətta bir siçan qarası da qalmırdı. Bu işin ən bariz nəticəsi o idi ki, gün ərzində oralarda bir siçan da görünmürdü. İş o yerə çatmışdı ki, biz haradansa qayıdanda öz qayığımıza minməzdən öncə ayaqlarımızı yuyurduq. Qayığımıza başqa bir adam minsəydi, yenə onu təmiz yuyurduq, çünki digərlərinin də bu məsələyə ciddi yanaşdıqlarına əmin deyildik.

Bölgə ilə tanışlıq, onun yeniliyi və nəcis yumaq kimi işlər bir neçə gün başımı qarışdırdı. Kəşfiyyat bölüyünün təxminən bütün uşaqları oraya gəlmişdilər. Bölüyün qədim və nadinc uşaqları ilə qaynayıb-qarışmaq dəcəllik istedadımı yenidən oyatsa da, Hüseyn Məhəmmədianın şəhidliyindən sonrakı məsuliyyət hissim məni bu haqda düşünməyə vadar edirdi. Bəzən düşünürdüm ki, uşaqların vaxtının çoxu hədər gedir. Bir dəfə bölüyün oradakı qüvvələrinin komandiri qardaş Abbasquluzadəyə dedim: "Əsğər ağa, bu qədər dəyərli döyüşçü bir yerə toplaşıb, heyfdir bir proqramımız olmasın". Və təklif etdim ki, bir təlim kursu üçün proqram hazırlayaq.

– Mən bu sözü ilk dəfə səndən eşidirəm, ağa Mehdi. Uşaqlar yavaş-yavaş tənbəlliyə adət edirlər, heç kim bu haqda düşünmür.

Əsğər ağanın bu sözü təklifimi qəbul etmək demək idi. Dərhal dalğıc təlimi, daha doğrusu, dalğıclıq və kəşfiyyat məşqləri üçün proqram hazırladıq. Proqram belə idi ki, hər gün günortaya qədər qayıq sürməyi, günortadan sonra da dalğıc məşqi edəcəkdik. Tezliklə xəritə, mövqe təyinetmə və hərbi axtarış sinifləri və təcrübə mübadiləsi başlandı. Mənim böyük ümid bəslədiyim ən mühüm sinif təcrübə mübadiləsi sinfi idi. Sinfi hər gün bir nəfər idarə edir, müxtəlif kəşfiyyat və əməliyyatlarda topladığı təcrübələrdən danışırdı. Mən gizli şəkildə bu dərslərin bir neçəsini maqnitofona yazdım.

***

Kurslar get-gedə təkmilləşir, uşaqların kreativliyi dəcəlliklə birgə ortaya çıxırdı. Bu arada qardaş Ovhani ilə aramızdakı bir neçə hadisədən sonra onun əleyhinə hərəkətə keçmək qərarına gəldik.

– Komandir olandan özünü yaman çəkir...

– Dünənə qədər bizim səngərimizdə yeyib-yatırdı, indi isə bizimlə belə danışır...

Məhəmməd Purnəcəf və Rəsul Səidi də mənim kimi bu məsələyə həssas olmuşdular. Onlarla birgə bu haqda ölçü götürmək qərarına gəldik. Birinci istiqamətin vəziyyəti barədə yetərli məlumatımız yox idi. Əvvəlcə oranı öyrənməyi qarşımıza məqsəd qoyduq. Günortanın sakitliyindən istifadə edib dalğıc geyimi ilə suya girdik. Komandir çadırının arxasına gedən arxla hərəkət etdik və bir neçə dəqiqədən sonra çadırın yanına çatdıq. Hər yer sakit idi. Sudan çıxıb çadırın yanında gizləndik. Komandir səngərinin kauçuk soyuducusu yaxında idi. Çadırın altından əl uzadıb asanlıqla içini boşaltmaq olurdu. Bu iş baş tutdu, amma bir neçə meyvə şirəsi və qazlı su bizim məqsədimizi təmin edə bilməzdi. Dedim: "Yox, bu Ovhanini ki mən tanıyıram, bu işlə tənbeh olan deyil".

– Bəs nə edək?

– Bəlkə rabitə kabellərini kəsək?

İşə başlayıb əlimizə keçən hər bir kabeli kəsdik. Həmin əsnada bir səs eşitdik: "Bəs belə! Qardaş Ovhaniyə deyəcəyəm ki..."

Əsğər Neməti idi. Üç dalğıcın komandir çadırının yanında səssiz dayanması diqqətini çəkmişdi. Körpünün yanından bizə baxmış və tanımışdı. Lakin Rəsul Səidi sözünü bitirməyə qoymadı, çox ciddi halda dedi: "Əgər ona nəsə dediyini eşitsəm, başını kəsərəm!" Cəld suya girdik. Rəsul hərdən dönüb əl işarələrilə hədələrini davam etdirirdi. Qayıdanda gülə-gülə Ovhani üçün bəzi şüarlar da düzəltdik.

Həmin gün istiqamət komandirliyindən bizə qarşı heç bir hərəkət görmədik və Əsğər Nemətinin hədələri ciddi qəbul edib heç kimə bir söz demədiyini bildik. Ertəsi gündən hər dəfə Ovhanini görəndə ürəyimizdən şüar demək keçirdi:

“Salam olsun hava hücumundan müdafiəyə!

Ölüm olsun Ovhaniyə!

Salam olsun keşikçiliyə!
Ölüm olsun Ovhaniyə!”

Yazıq çox hirslənirdi. Bəzən vacib bir işdən ötrü kəşfiyyat bölüyünə gəlməyə məcbur olanda onu “gözəl” sözlərimizlə qarşılayırdıq.

Hamı bilirdi ki, Ovhani üzmək bilmir. Buna görə də, ayağını qayıqdan körpünün üstünə qoyan kimi bizim qəfil hərəkətlərimizlə üzən körpü tərpənir və o, suya düşürdü. Suya düşəndən sonra da bəzi sözlər deyib ortalığı lap qarışdırırdı və ardınca on nəfər özünü suya atıb onu boğmağa başlayırdı.

Vəziyyət o həddə çatmışdı ki, sanki onunla şərtləşmişdik və bir-birimizi görəndə normal şəkildə yolumuza davam edə bilmirdik. Bu baxımdan, bizim ətrafımızda çox hərlənmirdi. Hərdən biz suda qayıq sürəndə motorlu qayığı ilə gəlirdi. Bilirdik ki, bizi təqib edir və əziyyətlərimizin əvəzini çıxmaq istəyir. Birdən çox sürətlə qayığımızın yanından keçirdi. Bu zaman qayıq çevrilirdi və biz qayıqla birgə suya düşürdük. Ovhani bu şəkildə zarafat etdiyimiz yeganə şəxs idi.

***

Orada həyat su və üzgüsüz keçmirdi. Üzməkdə o qədər ustalaşmışdıq ki, hətta qərargahın bu tərəfindən o tərəfinə keçmək üçün özümüzü suya atırdıq. Çünki üzməklə daha rahat və tez çatırdıq. Hər an suya atılmağa hazır vəziyyətdə idik. Buna görə də, adətən, yüngül paltarlar geyinirdik ki, suya girəndə rahat üzək. Suda yaşamağın ən böyük nəticəsi bütün kəşfiyyatçıların fiziki hazırlığı idi. 8-10 km. uzunluğunda yolları üzərək getmək adi bir işə çevrilmişdi. Ümumiyyətlə, qərargahın Aşura diviziyasını belə bölgələrdə yerləşdirməkdə uzunmüddətli məqsədlərindən biri bu idi ki, şəxsi heyət gələcək əməliyyat zonalarına oxşar yerlərdə lazımi qüvvə və bacarıqlar əldə etsin.

***

Ramazan ayı idi. Bütün mümkün yollardan istifadə edib komandirlərdən oruc tutmağa icazə istədik, amma verilmədi. Əza məclisləri də rövnəqlənmişdi. Bazar ertəsi günləri oxunan Təvəssül duası əzadarlıqla bitirdi. Cümə axşamları da Kumeyl duası oxuyurduq. Bütün namazlar camaat namazı şəklində qılınırdı və imamımız Həsən Nəsiri[1] adlı bir hövzə tələbəsi idi. Hər səhər kollektiv şəkildə Əhd duasını oxuyurduq və Hurda günəşin gözəl doğuşunu təxminən həmişə görürdük.

Yay idi. Gündüz hava isti olur, gecə də ağcaqanadların hücumu ara vermirdi. Piyada körpülərinin hissələrindən çarpayı düzəldib ətrafına tor çəkmişdik. Açıq hava çadırlardan çox sərin və gözəl idi. Suyun üzündən əsən mehin sərinliyi, qamışların sakit səsi və ulduzla dolu aydın səma Şətt-Əli gecələrinə gözəllik verirdi.

[1] Kərbəla-8 əməliyyatında şəhadət məqamına nail oldu.

Su ilə əhatə olunmağın başqa bir gözəl cəhəti də vardı: Qüslə ehtiyacı olan uşaqlar hamam işində çətinlik çəkmirdilər. Hərdən səhərlər suyun səsinə yuxudan oyananda bilirdim ki, kimsə suya tək girməsin deyə özündən başqa iki-üç nəfəri də suya itələmişdir.

Bir dəfə səhər tualet növbəsində uşaqların biri qulağıma pıçıldadı: “Mehdi, məni suya itələ, bir az yuxum qaçsın”.

– Mən niyə itələyim, özün atıl.

Lakin o, məni və növbə gözləyən başqa bir neçə nəfəri də suya itələdi.

Bəzi uşaqlar bundan utanmasınlar deyə birdən səs-küy qopurdu: "Körpünün üstündə heç kim qalmasın!" Bu zaman hamı suya girməli idi. Məsələni şirinləşdirməkdən ötrü bəziləri bu kollektiv qərardan yayınmağa çalışırdılar. Beləliklə, suda olmayanları tapmaq üçün axtarışlar başlayırdı və öz xoşuna suya girməyənin vəziyyəti pis olurdu.

Bəzən biz də fərarilərdən olurduq. Əynimizdə paltar olanda isladıb, sonra qurutmaq istəmirdik. Belə zəruri hallar üçün heç bir kələk keçmirdi. Bəzi uşaqlar "Hamı suya!" əmrini eşidən kimi tez üzüqibləyə dayanıb "Allahu-Əkbər" deyirdilər. Lakin uşaqlar belələrinə də rəhm etmir və elə həmin halda qaldırıb suyun ortasına atırdılar. Bir gün gizlicə çadırın üstündəki millərdən yuxarı qalxıb tavanın yoxuşu üzərində uzandım. Uşaqlar məni görməyib axtarmağa başladılar. Maraqlı idi; ilk dəfə idi ki, kimsə özünü xilas edə bilmişdi. Birdən Yusif Sarimi qışqırdı: "Aaa... Çadırın yuxarısındakı kimdir?.. Kölgəsi görünür". Yusif çadıra girib yuxarıda bir nəfərin qeyri-adi kölgəsini görmüşdü. Fikirləşməyə macal tapmadan birdən kürəyimə dəyən güclü bir zərbəni hiss etdim. Qeyri-ixtiyari olaraq əllərim millərdən açıldı. Zərbə o qədər güclü idi ki, uşaqlara əziyyət vermədən məni suya sala bilərdi. Lakin bədbəxtlikdən, suya deyil, körpünün yanındakı qamışlığa düşdüm. Ciddi yara almadım, amma elə yıxıldım ki, kənardan baxanlar başıma bir iş gəldiyini düşünmüşdülər.

***

Kəşfiyyat bölüyündə təxminən, adət etdiyimiz hadisələrdən biri də kiçik əşya və paltarlarımızın itməsi idi; qurumağa qoyduğumuz maykadan tutmuş canamaza qədər.

Dostlara özümüzdən artıq inanırdıq. Üstəlik, itən əşyalar kiminsə işinə yarayacaq şeylər deyildi, nə də kimsə zarafata bu işi daim təkrarlaya bilərdi. Nəhayət, bir gecə körpülərin üstündə hərəkət səsi, kauçuka bənzər bir şeyin şıqqıltısı bir neçə dəfə məni yuxudan oyatdı. Körpü hissələrindən düzəldib ətrafına tor çəkdiyimiz çarpayılar artıq öz təhlükəsizliyini əldən vermişdi. Çünki gecələr körpülərdən gələn səs adamı vahiməyə salırdı. Ürəklənib fikrimi uşaqlara dedim: "Uşaqlar, bu siçanlar gecələr nə özləri yatırlar, nə də bizi yatmağa qoyurlar. Məncə, körpülərdə nəsə var".

Nəhayət, qərara gəldik ki, siçanları izləyib körpülərin içindəki səsin sirrini öyrənək.

Həmin gecə izlədiyimiz bir siçan körpülərin birinin içinə girdi və bizə şirin yuxunu haram edən səslərdən gəldi. Əmin olduq ki, siçan kauçukların içi ilə irəliləyir, çünki səsin yeri tədricən dəyişirdi. Səsin dayandığı yer yəqin ki siçan üçün mühüm yer imiş. Körpünün həmin hissəsini açdıq. Ağır iş idi və çox vaxtımızı aldı. Kauçuk parçalarını çıxarandan sonra qamışa bənzər hissəyə çatdıq. Altında bir neçə yarpaq parçası da vardı. Yarpaqları götürəndən sonra yumşaq parçalar bayıra çıxdı. Bir şortik də tapıldı. Əsğər ağanın hələ də axtardığı canamazı da orada idi. Əlbəttə, canamazın üstündə beş siçan balası vardı. Deyəsən, yeni doğulmuşdular. Canamazı içindəkilərlə birgə suya atdıq və bala siçanların hamısı tez Hurun balıqlarına yem oldular. Ondan sonra həm ehtiyatımız çoxaldı, həm də kiçik paltarların itməsinə çox da təəccüblənmədik.

***

Uşaqların içində olmaq darıxmağı müəyyən həddə unutdursa da, yenə də mənim ən mühüm istirahətim hamıdan uzaq sakit bir yerə getmək idi. Quşlar, ördəklər, su samurları, balıqlar və digər heyvanlar suda, quruda və göydə sakitcə həyatlarını davam etdirirdilər. Sanki illərdir burada müharibə olmamış, mərmi və raket partlamamışdı. Bəzən saatlarla səssizcə suda qalırdım. Mənə adət etmiş heyvanlar adi işlərində idilər. Çox əlverişli fürsət idi. Mən Hurun gizli səfasını və təbiətin əl dəyməmiş gözəlliyini orada görürdüm. Mübarək ramazan ayı təlimlərlə keçirdi. Qədr gecələri ibadət və dua gecələri idi. Xüsusən o gecələrdə düşünürdüm ki, Hurun gözəlliyi orada yaşayan insanların ruhunun gözəlliyinə borcludur. Mübarək Ramazan ayının son cüməsində, yəni Qüds günündə biz də körpülərin üstündə yürüş keçirdik və "İsrailə ölüm" şüarı ilə ərazini gəzdik.

***

Hələ bölüyə xüsusi bir tapşırıq verilməmişdi. Əsğər ağa orada kəşfiyyata başlamaq üçün yeni bir proqram fikirləşirdi. Məqsəd yeni qüvvələrin təcrübə keçməsi, köhnə kəşfiyyatçıların da məşq etmələri idi. Hələ yeni qərarı tam müzakirə etməmiş 12-13 nəfəri Əhvaza çağırdılar. Mənim də daxil olduğum bu qrup Şətt-Əlini tərk edib Əhvaza yola düşdü.

II

Qardaş Fəthi Əhvazda idi. Onunla son görüşümüzdən uzun müddət ötürdü və onun nəsihətlərinə darıxmışdım. O, şəxsi heyətin önündə qardaş Hörmətini kəşfiyyat bölüyünün komandir müavini kimi təqdim etdi. Vəlfəcr-8 əməliyyatından və qardaş Fəthinin yaralanmasından aylar ötürdü və bəzi səbəblərdən o, bölükdə az olurdu. Bu seçimlə qardaş Hörməti işləri yerbəyer edə biləcəkdi. Orada gələcək təlim üçün seçəcəyimiz yerin xüsusiyyətlərini dedilər və biz bölük üçün nəzərdə tutulmuş əşyaları təhvil alıb Əhvazın Hava Hücumundan Müdafiə qarnizonunu tərk etdik.

Yedditəpənin yaxınlığından bir yolla Kərbəla diviziyasına doğru getməyə başladıq. Orada Dez çayının eni 600-700 metr idi və digər yerlərə nisbətən çox

enli sayılırdı. Suyun axını güclü idi, çaydan keçid və dalğıc təlimi üçün əlverişli yer idi. Çayın sahilində bölüyə yaxşı yer tapmadıq, amma suyun içində bizə uyğun bir ada vardı. Adada qalsaydıq, keşik çəkməyə də ehtiyat olmayacaqdı. Suya iki-üç motorlu qayıq saldıq, iyirmi nəfər üçün lazımi əşyaları, o cümlədən çadır, ədyal və ərzağı adaya apardıq. Oxşar yerlərdə olduğu kimi, orada da adanın sahilində bir estakada qurduq.

Adanın eni-uzunu təxminən 200-500 metr idi. Adanı yaşıl çəmən örtmüşdü və su bölgələrinə xas iynəyarpaqlı ağaclar bitmişdi. Yay olduğuna görə istilik və rütubət bitkilərin inkişafına əlverişli şərait yaradırdı. Karun çayının həmin hissəsi Yedditəpə Əkinçilik və Sənaye Mərkəzinə yaxın idi. Çuğundur tarlalarına verilən su yenidən çaya tökülürdü. Bu səbəbdən çayın həmin hissəsi həmişə bulanıq olurdu.

Şəxsi heyətə təlim proqramı hazırlandı və ilk gündə Şətt-Əlidə qalanların da köçürülmə xəbərini eşitdik. Onların kəşfiyyat üçün ölkənin qərbində yerləşən Şeyx Saleh bölgəsinə göndəriləcəyini deyirdilər. Diviziyanın batalyonlarının da tədricən qərb cəbhələrinə köçürüləcəyini söylədilər. Bu xəbərləri yan-yana qoyanda ehtimal verdik ki, diviziyanın gələcək əməliyyatı qərbdə baş tutacaq. Bu isə o demək idi ki, bizim əməliyyatda heç bir rolumuz olmayacaq. Bu xəbərin mənfi təsiri hamının üzündə görünürdü. Mən o günə qədər əksər əməliyyat və kəşfiyyatlarda iştirak etmişdim, uşaqların qərbdə kəşfiyyat apardıqları və hücuma hazırlaşdıqları bir zamanda adada qalıb başımı təlim və məşqlə qarışdırmağı qəbul edə bilmirdim. Bu fikir bütün uşaqları narahat etsə də, mənim qəlbimdə xüsusi bir ümid vardı ki, əsas iş bizimkidir. Kəşfiyyatın əsas və bacarıqlı qüvvələri bizim aramızda idilər. Bizim əməliyyatdan uzaq qaldığımızı göstərən əlamətlərə baxmayaraq, əmin idim ki, bu dəfə üzərimizə hələ bölüyün xəbəri olmayan təhlükəli bir iş düşəcək. Bu daxili səs həvəsimi artırırdı, hər bir işə gedir, hər bir məsuliyyəti qəbul edirdim ki, ilahi baxış məni də aparsın. Hüseyn Məhəmmədianın şəhidliyindən sonra vərdiş etdiyim sükut və tənhalıq get-gedə uşaqların arasında yaddan çıxırdı. Lakin daxildən qaynayan bulaq bəzən yandırır, bəzən yuyub təmizləyir, bəzən də tufan qoparıb vücudumun dərin qatlarına işləyirdi. Vəlfəcr-8 və "Ya Mehdi" əməliyyatlarından salamat qayıdanda bir fikir ruhumu yorurdu: düşünürdüm ki, bəlkə tənbəlliyimə və iradəsizliyimə görə mənə şəhidlik qismət olmur. Əhd etmişdim ki, harada nə iş olsa, bütün vücudumla xidmət edəcəyəm. Buna əsasən, həmişəkinin əksinə olaraq, hay-küy salmadım, sakit qaldım ki, Hüseynin şəhadətindən bir neçə gün öncə zümzümə etdiyi fikri bir qədər təcrübə edim: "Aldadıcı bölgədə işləmək hissi".

Bütün şəxsi heyətə Əsğər Abbasquluzadə başçılıq edirdi. Qərara gəldik ki, şəxsi heyət iki istiqamətdə və dörd komanda halında işləsin. Nasir Dibayi ilə mən təlim istiqamətlərinin komandiri olduq. Kərim Ahənclə Rza Sultanzadəni həmin istiqamətdə təlim keçən komandalara başçı təyin etdim. Bütün şəxsi heyətin bilik, təcrübə və fiziki qüvvə baxımından eyni həddə olduqlarına görə

istiqamət və komanda başçılarını seçmək çətin deyildi. Kəşfiyyat bölüyü müharibə boyu xüsusi siyasətinə görə üstünlüyünü sübuta yetirmiş, müxtəlif dönəmlərdə istiqamət və komanda başçılarını dəyişməklə hamıya bu imkanı yaratmışdı.

Vəzifə bölgüsündən sonra ən mühüm məşğuliyyətim uşaqların fiziki gücünü artırmaq üçün proqram hazırlamaq idi. Dalğıclıq və üzgüçülük təlimləri bütün uşaqlar üçün sadə məsələlər idi.

Fikirləşdim ki, ən yaxşı iş suyun axınının əksinə üzməkdir. Həmin hissədə axının sürəti saatda 40-50 km.-ə çatırdı. Təlim dalğıc geyimi ilə aparılırdı və uşaqlar üzgəclə suyun axınının əks istiqamətinə irəliləyirdilər. İşin yeniliyi və çətinliyi hamını həvəsləndirirdi və təlim yaxşı gedirdi. Kəşfiyyat sirlərini qorumaq üçün bir neçə iş gördük. Bu işlərin birincisi adaya yeni bir ad qoymaq idi. Bu iş müharibə boyu kəşfiyyat bölüyündə ənənəyə çevrilmişdi.[1] Uşaqlar hətta öz aralarında da yerin həqiqi adından istifadə etmirdilər.

Biz o adanın adını Bermud üçbucağı qoyduq. İkinci qərar məzuniyyəti ləğv etmək və şəhərə get-gəli minimuma endirmək idi. Belə ki yalnız xəstələnən və adi dərmanlarla müalicəsi mümkün olmayan xəstələr Bermud üçbucağından çıxırdı.

Bütün bu işlərin yanında uşaqlar qərb cəbhələrindən xəbər öyrənmək üçün fürsət axtarırdılar. Ən mühüm informasiya mənbəyimiz də təchizat bölməsinin başçısı Amanullah Amani idi. O, etimadlı adam idi və hər dəfə gələndə suallarımızın əlli faizini cavablayırdı. Onun sözlərindən yaranan təsəvvürlərimiz əməliyyatdan öncəki hazırlıqlarla üst-üstə düşürdü.

Bir-birinin ardınca qərbdən hücumu təsdiqləyən xəbərlər gəlirdi və biz yorğunluğumuzu, etiraz və arzularımızı namaz səcdələrinə aparırdıq. Şəhərlərin siyasi vəziyyəti, iqtisadi blokada və xəbərlərin təhlilindən anladığımız digər məsələlər bizi cəbhəyə və ilahi ruha daha çox bağlayırdı. Cəbhədə olub əməliyyatdan uzaq qalanda yalnız dua, münacat və Allahla daha çox ünsiyyət bizi sakitləşdirirdi. Əksər dualar göz yaşları ilə müşayiət olunurdu: "İlahi, yardımını bizim uşaqlarımızdan əsirgəmə! Bu əməliyyatda da bizə kömək ol!"

Bu dua və münacat halı ümumi idi. Daha heç kim ibadətini gizlətmirdi. Uşaqlar riyanın əl-qolunu arxadan bağlamışdılar və kim necə idisə, elə də görünürdü. Gecə namazına qalxanlar digərlərindən uzaqlaşmadan elə oradaca çəfiyələrini sərirdilər. Əməliyyatdan uzaq düşmək hamının qəlbini sındırmışdı və hamı öncəkindən daha təvazökar, daha mehriban olmuşdu.

[1] Həmin günlərdə uşaqlar Şeyx Salehə Bəndər-Abbas deyirdilər. Sonralar Sərdəştdə aparılan kəşfiyyat bölgəsinin adını Qarayer, Mavutun adını Mığmığalıq qoydular. Bunu yalnız kəşfiyyat bölüyünün uşaqları bilirdilər. Müqəddəs müdafiə dövrünün sonuna qədər hətta döyüşçülərin çoxu bilmədi ki, bizim gündəlik danışıqlarda Bəndər-Abbas dediyimiz yer Şeyx Saleh idi.

Həmin günlərdə nisbətən yeni gəlmiş bəzi uşaqların naşılıqları bizə maraqlı gəlirdi və bu da istər-istəməz zarafat bazarını qızışdırırdı.

Özüm də bundan istisna deyildim. İlk dəfə düşündüm ki, bəzilərinə mütləq nəsihət vermək lazımdır. Onları bir yerə topladım. Qəribə baxışlarını görəndə isə nəsihətdən öncə dedim: "Qardaşlar, mən Şimr-zad deyiləm, sizin kimi bir adamam..." Əlbəttə, qardaşlar da məni yaxşı anladılar, çünki gülüşlərini zorla saxladıqlarına görə hamısı qıp-qırmızı olmuşdu. Bu hadisə tezliklə Bermud üçbucağına yayıldı, hətta sonralar bütün bölükdə məşhur oldu. Belə ki məni görən hər kəs deyirdi: "Bəli, ağa Mehdi, sən Şimr-zad deyilsən..."

Şəxsi heyət arasında bəziləri diqqətimi cəlb etmişdilər. Əmir Əsədullahi "Ya Mehdi" əməliyyatında özünü sübut etmiş uşaqlardan idi. On yeddi yaşı vardı, əxlaqına, ixlasına, mədəni davranışına və gecə namazlarına görə hamı ona hörmət edirdi. O və onun kimi başqa bir neçə nəfər gözlərimiz önündə şəhadət üçün yetişirdilər. Belə uşaqların ən mühüm xüsusiyyəti bu idi ki, heç kimin onlardan inciməməsinə çalışırdılar. Üzlərində həmişə mehriban təbəssüm vardı. Hətta təsadüfən onlara baxanda da gülümsəyirdilər. Qısası, dua, qünut və səcdələrinin ləzzəti hamını məst edirdi.

***

Xəbərlər başlayan kimi radioya yapışanlardan olmuşdum. Gündəlik dünya xəbərlərini dinləməyi özümə vacib etmişdim. Bir dəfə Xarici İşlər Nazirliyinin Birləşmiş Millətlər Təşkilatına şikayət etdiyini eşitdim. Mövzu qərb cəbhələrində düşmənin kimyəvi raketlərdən istifadə etməsi idi. Birdən-birə kədərlə sevinc arasında qaldım. Qərbdəki uşaqların fikri ruhumu incidirdi. Lakin digər tərəfdən, qərbdəki əməliyyatın üstünün açıldığını güman edirdim. Belə olsaydı, əməliyyat bizim tərəfdən olacaqdı və bu məni çox sevindirirdi. Bu təhlilləri uşaqların müzakirəsinə çıxardım.

- Uşaqlar, bildiyiniz kimi, Şeyx Saleh bölgəsi kimyəvi hücuma məruz qalıb".

- Sən haradan bilirsən? Xəbərlərdə yalnız "qərb cəbhələri" dedilər.

- Təsadüfən, qərbdə yalnız orada işləyirlər, oranı da bombalayıblar... Güman ki kəşfiyyat və hücum dayandırılacaq.

Söhbət bəzilərinin təsdiqi, bəzilərinin də "bilmirəm" sözü ilə bitdi. Sonda qərara gəldik ki, Allaha təvəkkül edək və Onun istəyinə razı olaq.

Bu xəbərdən iki gün ötməmiş adanı tərk etmək əmri verildi. Cəld bütün əşyaları toplayıb yeni bölgəyə yollandıq.

III

Yeni bölgə Vəlfəcr-8 əməliyyatının keçirildiyi yer idi. Diviziyanın keçmiş qərargahına yerləşdik. Məqsəd Ərvənd çayında təlim keçmək idi. Bölgülər aparıldı, vəzifələr təyin olundu. Mən yeni bir vəzifə də qəbul etdim: aşpaz köməkçisi. Bermud üçbucağında olduğu kimi, orada da yeməyi özümüz bişirirdik. Çünki diviziya orada deyildi və iyirmi adama yemək bişirmək də

çox vaxt almırdı. Hər həftə bizə üç-dörd donmuş qoyun verirdilər. Quru ərzağımız da vardı. Diviziyadan göndərilmiş aşpaza kömək edərək həm günboyu başımızı qarışdırır, həm də aşpazlığı öyrənirdik.

Əməliyyata hazırlıq məşqlərini gecələr edirdik. Karun çayında axının əks istiqamətinə 3 km. üzə bilirdik, Ərvənd çayında isə yüz metr getmək ondan çətin idi. Həm axın sürətli idi, həm dalğalar bir an sakitləşmirdi, həm də axının istiqaməti tez-tez dəyişirdi. Su qabarma zamanı Bəsrəyə doğru axırdı, çəkilmə zamanı isə Fars körfəzinə doğru. İstiqamətin dəyşildiyi bir neçə dəqiqədə də Ərvənddə qiyamət qopurdu; çayın ortası Fars körfəzinə doğru axırdı, kənarları Bəsrəyə sarı.

Ərvəndlə və onun daim dəyişən axınları ilə tanışlıqdan ötrü zamana ehtiyac var idi. Hər axşam Ərvəndlə mübarizəmiz başlayırdı. Get-gedə bacarığımız artsa da, Ərvəndin vəhşi qürurunu yenmək üçün daha güclü olmaq lazım idi. Təlimin ortasında Həmid Allahyari ilə başqa bir döyüşçünü seçib Xürrəmşəhrə apardılar. Biz o günə qədər Şeyx Salehdə işləyən qüvvələrin hamısının Xürrəmşəhrə aparıldığını bilmirdik. Beş günün içində Ərvənddə gecə təlimi keçənlərin hamısını Xürrəmşəhrə çağırdılar.

***

Xürrəmşəhrdə uşaqlara bir qərargah vermişdilər. Orada gördüyüm ilk adam Həmid Allahyari idi. O, bir neçə gün ərzində bölgənin vəziyyətinə dair geniş məlumat toplamışdı. Ona çox güvənir, hörmət edirdim. Birgə əməliyyatlarda iştirak etdiyimiz uzun müddətdə bir-birimizə sirdaş olmuşduq.

- Həmid, nə xəbər? Vəziyyət necədir?

- Gözlə - deyib əlində kağız və karandaş məni bir tərəfə apardı. - Bura Ümm əl-rəsasədir... bura da Bəvarindir... Ərvənd çayı buradadır və bura Ümm əl-təvilədir... Boğaz buradadır, böyük ehtimalla kəşfiyyat buradan başlayacaq...

Həmidin verdiyi ümumi və faydalı informasiya işimə yaradı.

İlk fürsətdə Xürrəmşəhri gəzməyə başladıq. Şəhərdə qəribə ab-hava vardı. Şəhər dağılmışdı; küçələr, evlər, ağaclar - hər şey bir-birinə qarışmışdı. Şəhərin nisbətən varlılar yaşamış bölgəsində Aşura diviziyası bəzi evləri özünə qərargah seçmişdi. Kəşfiyyat bölüyü üçün seçilmiş ev kiçik idi. Buna görə də, yaxınlıqda yerləşən və yuxarı mərtəbələri dağılmış üçmərtəbəli bir evin birinci mərtəbəsinə palaz döşədik. Şəhərin üç və dördmərtəbəli binalarının hamısı uçub dağılmış, ancaq birinci mərtəbələri salamat qalmışdı. Su və elektrik yox idi. Təsadüfən, hansısa krandan gələn azca su boruda qalmış su idi, pis qoxusu və dadı vardı.

Xürrəmşəhrə bir baxışla şəhərin iki hissədən ibarət olduğunu bilmək olurdu: çox varlı və çox kasıb hissələr. Bir neçə il ötsə də, hələ əksər evlərin əşyaları dururdu. Varlı və kasıb evlərinin ərazi və əşyaları arasındakı ziddiyyət maraqlı idi. Bəzən bir mərtəbədə dörd təmiz hamamı olan təmtəraqlı və

dəbdəbəli evlərdə əxlaqsız jurnallar görürdük. Palçıq divarları olan kiçik evlərin taxçalarında isə güllə bəzənmiş parçanın içində bir Quran olurdu.

Şəhərdə mülki adam yox idi. Xürrəmşəhrin işğalçıların əlində əsir qaldığı bir il bir neçə ayda Bəəs hərbçiləri faydalı hər bir şeyi qarət etmişdilər. Digər əşyalar isə qalın toz-torpağın altında güllə və qəlpə yaraları ilə qalmışdı. Din alimlərindən şəriət icazəsi almadan evlərdə qalmış sağlam əşyalardan istifadə etməyi haram bilirdik. Vəlfəcr-8 əməliyyatında Ərvənd çayının sahilindəki xurmalıqda yerləşdiyimiz zaman da müctəhidlərdən icazə hökmü gəlməyincə get-gedə qurumaqda olan xurmalara heç kim əl vurmadı. Xürrəmşəhrə gələnlər də həmin adamlar idilər. Bu dəfə mövzu xurma deyil, dəbdəbəli ev əşyaları olsa da, İslam döyüşçülərinin qəlbində dünya sevgisi çoxdan ölmüşdü.

Bölükdən gətirdiyimiz əşyaları evə yerləşdirdik. Şəhərə ehtiyacımızı azaltmaqdan ötrü həyətdə bir hamam tikmişdik. Növbə meriya və evdarlıq işlərinə çatdı. Öz bacarıq və maraqlarına uyğun olaraq, hərə evin bir işini üzərinə götürdü.

- Yeməyi hazırlayıb süfrəyə gətirmək işi Mehdiqulunun.
- Çörəyi isladıb hazırlamaq Abbas Məhəmmədinin.
- Mehdi Əliəkbəri süfrəni sərəcək və toplayacaq.
- Otaqları süpürmək...

Süfrəyə xörək gələn kimi hamı duaya başlayırdı: "İlahi! Bizə çoxlu halal və gözəl ruzi yetir! Qarnımızı haram və şübhəli qidalardan qoru!"

Bu kollektiv duadan sonra yemək başlanırdı. Süfrəni yığmazdan öncə də hamı bir-bir dua edir, digərləri də “amin” deyirdilər. Bəzi dualar çox gözəl idi və ürəyə yatırdı. Bir dəfə Mirdavud Hüseyni çox ciddi halda belə dua etdi: "Allah! Bizi adam elə!" Amin yerinə uşaqlardan gülüş səsi ucaldı. Mirdavud daha ciddi görkəm alıb əlavə etdi: "Bəs necə?! Hələ adam olmamışıq... Gərək adam olmağımızı istəyək".

***

Xürrəmşəhrdə boş vaxtımın çoxunu şəhəri və evləri gəzməklə keçirirdim. İnqilab tarixini və 1979-cu ildən öncəki dövrü öyrənmək üçün evlərdən məlumat toplamaq olurdu. Bəzi evlərdə Xalq fədailəri partizanlarının kitab, jurnal və bəyanatları və Ərəb Xalq Partiyasının nəşriyyələri görünürdü. Hər bir ev sakinlərinin düşüncələrinə hakim olmuş siyasi ab-havanı onlardan öyrənmək mümkün idi. Eşitmişdim ki, müharibədən öncə Azərbaycandakı Müsəlman Xalq Partiyası kimi, cənubda da Ərəb Xalq Partiyası varmış. Orada onların ideya və məramlarını oxuyub öyrənirdim.

Bir gün Məhəmməd Purnəcəf və Mirdavud Hüseynilə birgə şəhərə çıxdıq. Evlərin damından bütün şəhərin mənzərəsi görünürdü. Birdən səmada bir neçə qara nöqtə peyda oldu. Yaxınlaşanda yeddi düşmən qırıcısı olduğunu bildik. Dedim: "Məhəmməd, bunlar bombardmana gəliblər. Qaçdıq!"

Cəld pillələrdən endik. Birdən aləm bir-birinə dəydi; partlayış səsi, toz-torpaq, uçqun... Bir anlığa başımı göyə qaldırdım və gördüklərimdən dəhşətə

gəldim. Hiss etdim ki, düz başımızın üstünə şığımış qırıcının pilotu bizi nişan alıb. Bir neçə addımlığımızda küçəyə bir raket düşdü; nərdə, pəncərə, damdakı baklar, tavanın dəmirləri, torpaq, daş, kəsək... Başıma tökülənlərin altında boğulmağa qalmışdım. Mirdavud Hüseyni qışqırdı: "Vay başım!"

- Nə oldu?

- Deyəsən, qəlpə dəydi.

Özümü ona çatdırdım. Hələ toz-torpaq yatmamışdı. Boynundan qan axırdı. Başının arxasındakı dərin qəlpə yarasını gördüm. Köynəyimi çıxarıb başını bağladım. Məhəmmədlə hərəmiz bir tərəfdən qoltuğuna girib yola düşdük. Səma bir an da qırıcılardan boşalmırdı. Hələ birinci dəstə getməmiş ikincisi də gəldi. Şəhər titrəyirdi. Qırıcılar sanki şəhəri yerlə-yeksan etməyə gəlmişdilər. Bir neçə dəfə yolumuzu dəyişib bölüyün qərargahına çatdıq. Orada vəziyyət daha pis idi. Tüstü və toz-torpaq hər yeri bürümüşdü. Köynəyim olmadığına görə çox üşüyürdüm. Yalnız yaralı dostumu tibb məntəqəsinə çatdırmağı düşünürdüm. Bombardman bir an da dayanmırdı. Hirslənib öz-özümə deyirdim: "Birdən-birə şəhərə bu qədər canlı qüvvə toplayanda təbii ki, düşmən xəbər tutacaq. Casuslar və peyklər tətildə deyillər ki".

Aşura diviziyasının əksər bölükləri Xürrəmşəhrə yerləşmişdi. Digər diviziyalar da şəhərin başqa yerlərində mərkəzləşmişdilər. Düşmən çox düşünülmüş şəkildə gəlmişdi. Bizim istifadə etdiyimiz əsas prospektdə eni-uzunu təxminən altımetrlik bir yer açılmışdı. Bombalar yerə yaxınlaşanda cəsarət edib baxsaydın, sanki altımetrlik bir konteynerin başına endiyini görərdin. Bomba və raketlər bütün nəqliyyat vasitələrini məhv etmişdi, maşınların şüşələri sınmışdı. Mirdavudu tibb məntəqəsinə aparmaq üçün bir şey axtarırdım. O həngamədə hamamın qapısı açıldı və Həmid Qəlei əynində bir şortik bayıra qaçdı.

Kərim Fəthi oyan-buyana qaçıb qışqırırdı: "Qaçın içəri... Cəld içəri qaçın!"

O bizdən nigaran idi, Əmin ağa da ondan.

- Özün içəri gir!

Kərim Təriqət də onların yanında idi. Belə bir vəziyyətdə sağlam bir motosiklet tapmaq sevindirici idi. Motosikleti işə salıb güclü qanaxmadan əldən düşmüş Mirdavudun yanına getdim. Əsğər Abbasquluzadə də bizi görüb oraya gəlmişdi.

- Gözlə, birlikdə gedək.

Özü irəlidə oturdu, Mirdavud ortada, mən də arxada.

Motosiklet yola düşdü. Hərəkət etdiyimizə görə qırıcıların diqqətini daha çox cəlb edirdik. Bütün yollar bağlanmışdı.

Yol əleyhinə bombalar Xürrəmşəhrdə küçə adlı bir şey qoymamışdı. İsti qəlpələrin, daş və şüşələrin altından dayanmadan keçib təcili yardıma çatmalı idik. Azca dayanmaq atəşə tuş gəlmək təhlükəsini dəfələrlə artırırdı. Gərgin dəqiqələrdən sonra çatdıq. Orada qələbəlik idi. Mirdavudu tibb işçilərinə tapşırıb bölüyə qayıtdıq. Tüstü və toz-torpaqdan şəhərin havası bozarmışdı.

Axşamüstü idi. Təxminən üç saat idi düşmən dayanmadan şəhərə atəş yağdırırdı. Qayıdanda özümü çoxlu şəhid cəsədini görməyə hazırlayırdım, lakin bölüyümüzdən Mirdavuddan başqa heç kimin xəsarət almadığını öyrənəndə Allaha şükür etdim. Diviziyanın digər bölmələrindən bəziləri yaralanmış, bəziləri şəhid olmuşdu.

Hava qaralanda düşmən təyyarələri Xürrəmşəhrin səmasından uzaqlaşdılar. Deyilənə görə, şəhəri otuz qırıcı bombalamışdı. Evlər yerlə-yeksan olmuşdu. Vəziyyət elə bir həddə idi ki, diviziya komandirinin əmrilə bütün şəxsi heyət elə həmin gecə Karunun sahilində bir bölgəyə köçürüldü.

Şəhadət əməliyyatı

I

Karun çayının həmin hissəsində qabarma və çəkilməni öyrənmək Rəsul Kərimi adlı bir gənc hövzə tələbəsinə tapşırılmışdı.[1] Oranın Ərvənd çayı ilə məsafəsi bir kilometrdən az idi. Ərvəndin qabarma və çəkilməsi orada da eynilə təkrar olunurdu. Orada xurmalığın içində iki bina vardı. Kəşfiyyat bölüyünün uşaqları çatan kimi qardaş Rəsul Kərəmidən ilhamlanıb oranın adını Rəsulabad qoydular.

Binalar xurma ağacları ilə yaxşı gizlədilmişdi və düşmənin diqqətini çəkmirdi. Orada da təlimlər başlandı. Əməliyyat xəbəri və yeni bölgələrdə kəşfiyyat olmadan həyat yorucu keçirdi. Hamı tapşırıqdan ötrü darıxırdı. Nəhayət, bir gün bölüyün komandiri Rəsulabada gəldi. Mən də daxil olmaqla bir qrupu ayırıb dedi: "Əşyalarınızı götürün".

Nasir Dibayi, Məhəmməd Purnəcəf və Yusif Həqqayi də aramızda idi. Lakin yenə əməliyyatdan və kəşfiyyatdan söz getmədiyinə görə narahat idim. Fikirlərimin digərlərinin əhval-ruhiyyəsinə mənfi təsir etməməsi üçün bu barədə heç kimlə danışmırdım. Nasir Dibayinin də mənim kimi qərarsız olduğunu təxmin edirdim.

***

Yeni məkanımız Qəcəriyyə idi. Hərbi Dəniz Qüvvələrinin bəzi divizionları, Həbib və Vəliəsr batalyonları orada yerləşmişdilər. Dağılmış bir kəndin yerində kəşfiyyat bölüyünə yer seçdik. Nasirin narahat üzü mənimlə eyni halda olduğunu göstərirdi. O, söhbətə başlayıb dedi: "Mehdiqulu, nə üçün kəşfiyyatdan bir xəbər çıxmır? İndi nə etməliyik?"

Bizə tapşırılanları yerinə yetirməkdən başqa yolumuz yox idi. Biz Həbib və Vəliəsr batalyonlarının dalğıclarına təlim keçməyə gəlmişdik.

Həbib batalyonunun ikinci bölüyü dalğıc seçilmişdi. Bu bölüyün təlimi Əhməd Bayrami və Mehdi Heydəri ilə mənə tapşırıldı. Karunda Vəlfəcr-8 əməliyyatının təlimləri zamanı cənubun soyuğunu təcrübə etmişdik, lakin bu çayın soyuq və kobud üzü təcrübələrlə yumşalan bir şeyə bənzəmirdi.

Şəxsi heyətə dalğıc geyimləri verildi. O geyimlərin əksəri Vəlfəcr-8 əməliyyatında da istifadə olunmuşdu. Paltarların çoxunun bəndi xarab olmuşdu və bağlanmırdı. Bəzilərinin corab hissəsi yox idi, olanlar da yaman gündə idi. 24-25 yaşlı gənclərin əyninə tikilmiş paltarlar 15-16 yaşlı yeniyetmələrə böyük qalırdı. Paltarı əyninə tam oturanlar barmaqsayı idi. Böyüklükdə, xarablıqda və cırıqlıqda ən "mükəmməl" paltar Əlibarat Etibara nəsib olmuşdu. O, paltarının qol və ayaqlarını bir neçə dəfə qatlayırdı, amma genişliyinə çarə tapa bilmirdi. Paltarın bəndi başdan-ayağa xarab idi. Standart

[1] O, Marağadan olan üç Kərəmi qardaşlarından biri idi. Qardaşların hər üçü şəhadət məqamına nail oldu.

ağırlığı olmadığına görə qardaş Fərəc Quluzadə ona kərpic bağlayırdı. Bütün bunlara baxmayaraq, Əlibarat RPG götürüb suya girirdi. O zaman isə bədəni bir neçə istiqamətdən su axınına məruz qalır və suda batırdı. Mən onu dəfələrlə suyun altından çıxardım, amma həmin vəziyyətdə də ağır silahını buraxmırdı.

Mahmud Növcavan adlı 14 yaşlı bir yeniyetmə də vardı. O, suya girməzdən öncə soyuqdan titrəyir, suya girəndə isə ayağının əzələləri tutulurdu. Bir dəfə gözlərim önündə huşunu itirdi. Bütün bədəni keyimişdi və tərpənə bilmirdi. Tez yaxınlaşıb üzə-üzə onu sudan çıxardım və sahilə uzatdım. Özünə gələnə qədər bir müddət ötdü. Bilirdim ki, bayırdakı hava daha soyuqdur, suyun soyuğuna dözmək quru havanın yandırıcı soyuğuna dözməkdən asandır.

O, yavaş-yavaş gözlərini açdı, quruda olduğunu görüb ağladı və titrək səslə dedi: "Siz istəyirsiniz mən dalğıc olmayım..." Döyüşçülər arasında illərlə qalmış, belə ruhiyyəli uşaqlarla dəfələrlə rastlaşmışdım, amma soyuqda onun vəziyyəti o qədər ağır idi ki, belə sözlər deməsini gözləmir və təəccüblənirdim.

Payızın son günlərində dondurucu suda saatlarla qalmaq insanın sidiyini suda və dalğıc geyimində boşaltmasına səbəb olurdu. Başqa çarə yox idi və məhz buna görə sudan çıxandan sonra hamı təmiz su ilə yuyunurdu. Bu kimi məsələlərdə böyük təcrübəsi olan kəşfiyyat uşaqları çox tezliklə problemin həllini tapdılar. Qərargahda bir su tankeri tapdılar. Ona uzun bir boru bağladıq və aşağısında odun qoymağa yer hazırladıq. Ocağı qalayanda tankerin suyu qızırdı və biz hər təlimdən sonra orada isti su ilə yuyunurduq. Lakin bölüyün uşaqlarının bir çoxu Vəliəsr batalyonundan aşağıda yerləşən estakadada paltarlarını çıxarıb soyuq su ilə bədənlərini yuyurdular.

Çadırların yanındakı çökəklərə adətən, su yığılırdı. Biz hər səhər suyun üzünün donduğunu görürdük. Bu baxımdan, temperaturun günün bəzi saatlarında sıfırdan aşağı düşdüyünə əmin idik. Lakin uşaqlar elə soyuq su ilə yuyunur və qüsl verirdilər.

Təlim əsnasında bölük komandirləri ilə iclaslarımız olurdu. Əsğər Əlipur,[1] Əbdüləli Mütləq və Məhəmməd Sövdagər Həbib batalyonunun mövqe yaran dalğıc bölüklərinin komandirləri idilər. Məhəmməd Sövdagərə bədən və boy-buxun cəhətindən batalyonda az adam çatardı. Ağır dalğıc təliminə dözmək ona çətin deyildi. Əsğər Əlipur isə fiziki baxımdan zəif idi, əvvəllər yaralanmış və əlil olmuşdu. Buna görə də, dalğıc təlimləri onun üçün qat-qat ağır olurdu. O, suda yaxşı hərəkət edə bilmir, çox vaxt geri qalır və şəxsi heyətinə çata bilmirdi. Elə bilirdi ki, günah özündədir və yaxşı öyrənmədiyi üçün suda qalır. Mənsə düşünürdüm ki, günah onun mövqe yaran dalğıc bölüyündən əl çəkməyən böyük ürəyindədir. O, tez-tez mənə müraciət edirdi: "Ağa Mehdi, mənim vəziyyətim belədir, suda qalıram, nə edim?" Hər dəfə bir

[1] O, Kərbəla-5 əməliyyatında bədən qəfəsindən azad oldu.

şəkildə qane etməyə çalışırdım ki, belə fiziki şəraitdə dalğıc bölüyünə başçılıq etmək ona vacib deyil.

Onunla bu barədə dəfələrlə söhbət etməyimizə baxmayaraq, nə qane olurdu, nə də sualından əl çəkirdi. Get-gedə halı pisləşdi. Onun özünü necə çətinliyə saldığını anlaya bilirdim. O, daha çox məşq etməli olduğunu düşünüb suda hamıdan çox qalırdı; halbuki bədəni hələ öncəki əməliyyatların yaraları ilə mübarizə aparırdı. İş o həddə çatdı ki, ona dedim: "Qardaş Əlipur, əgər həqiqətən, bu işi görə bilməsən, vəzifən budur ki, gedib bölük komandirliyindən istefa verəsən".

Qəm-kədəri üzündən oxuyurdum. O, yenə də bədənini daha çox əziyyətə salmağı üstün tutdu.

Bütün çətinliklərə baxmayaraq, hamı təlimin səviyyəsini qaldırmağa, su axını ilə mübarizəni gücləndirməyə və kolonun sağa-sola yayınmasının qarşısını almağa çalışırdı. Bunun bir nümunəsi boğazdan keçmək idi. Biz əməliyyatda boğazdan keçməyə məcbur qala bilərdik və onu məşq etməli idik. Kolon nizam-intizamla boğaza yaxınlaşırdı, amma onun 200 metrliyində suyun axını kolonun yolunu döndərirdi və uşaqlar sahilə doğru gedirdilər. Bu hal bir neçə dəfə təkrar olundu. Mənim bütün diqqətim bu problemin həllinə yönəlmişdi. Təlimi daha ciddi şəkildə davam etdirdim. Bəlkə digər batalyonlarda olmayan ağır məşqlər keçirdim. Nəhayət, bütün kolon 150 metrlik boğazdan keçməyi bacardı və suyun axını onu sağa-sola döndərə bilmədi. Təlim zamanı bəzi uşaqların üzgəc vurmaqda tənbəllik etdiyini görmüşdüm. Bu uşaqları ayırıb kolonun əvvəlinə qoyurdum ki, ayaqlarını vurmağa məcbur olsunlar. Həmişə kolonun önünə qoyduğum uşaqlardan biri Həmid Qəmsüvar idi. Onun üzgəc vurmaqla əsla arası yox idi. Onu kolonun avanqardı edəndən bir neçə gün sonradan hər dəfə məni görəndə deyirdi: "Daa fin vurmaxdan ipim əşildi!"[1]

Təlimin əvvəlində kolonu tənzimləmək üçün xarici bir amildən istifadəni nəzərdə tutmamışdıq. Lakin müzakirələrdən sonra nəhayət, ip məsələsi ortaya çıxdı. Əlaqə kəsilməsin deyə, uşaqlara kolon uzunluğunda ip verilirdi. Əməliyyat gecəsi üçün isə ip yerinə plastik borular təklif etdilər. Səbəbi bu idi ki, Ərvənddən keçərkən oyan-buyana əyilməyən bir əşya daha yaxşı olardı. Əlbəttə, mən boruya razı deyildim və işi çətinləşdirdiyini düşünürdüm.

Bizim ciddiliyimiz və tələbkarlığımız uşaqların səyi və ruh yüksəkliyi ilə əl-ələ verdi və təxminən iki-üç həftədən sonra bütün bölük əməliyyata lazımi bacarıqlara yiyələndi. Hərçənd, narahatlıq yenə qalırdı.

Şəxsi heyəti əməliyyat zonasında təsəvvür edəndə tapşırıqları yerinə yetirəcəklərinə inanmırdım. Onlar bir kilometr üzəndən sonra sudan çıxanda soyuqdan və yorğunluqdan qollarını qatlaya bilmirdilər, soyuq damarlarını və sümüklərini də dondururdu. Onlar hücumun ilk planında olan 10-12 kilometr

[1] Daha üzgəc vurmaqdan həlak oldum!

yolu keçməli, düşmən mövqeyinə çatandan sonra soyuqdan qurumuş və yumruq kimi sıxıla bilməyən əllərlə tətik çəkib atəş açmalı idilər. Təklikdə hərəkət məsafəsini ölçüb hava şəraitini araşdırır, uşaqların fiziki və mənəvi hazırlığını dəyərləndirirdim, yenə də hücum gecəsinə dair nikbin bir şey təsəvvür edə bilmirdim.

Həmin günlərdə Rəsulabadda qalmış kəşfiyyatçıların bir qismi oraya gəldi. Bölüyün komandiri Kərim Fəthi və müavini Kərim Hörməti də gələnlərin arasında idilər. Onları görəndə dərdim təzələndi. Şəxsi heyətə təlim keçdiyimiz müddətdə fikirləşirdim ki, Rəsulabadda qalmış kəşfiyyatçılar əməliyyata hazırlıq görürlər və yəqin ki bu əməliyyatda bizim rolumuz yalnız dalğıc təlimi keçmək olacaq. Bu fikirlə nə etdimsə, narahatlığımı gizlədə bilmədim. Nəhayət, cəbhədə düşünməyi belə günah saydığımız sözləri dilimə gətirdim və giley-güzarımı hamıdan qabaq Kərim Hörmətiyə ünvanladım: "Siz bizi nə hesab edirsiniz?! Nə üçün bizdən istifadə etmirsiniz? Elə bilirsiniz ki..."

Mən hirsləndikcə Kərim Hörməti mehriban təbəssüm edirdi. O, mənə təskinlik vermək istəyirdi, mənsə dinləmirdim. Kərim Hörmətidən sonra növbə İbrahimə, Yusifə və Əsğərə çatdı. Həmin gün səmimi dostlarımdan küsdüm, orada bizsiz qaldıqlarına və bizə dair bir şey fikirləşmədiklərinə görə onlarla danışmadım. İbrahim Əsğəri mənim küsməyimə fikir verməyib ətrafımda dolanır və deyirdi: "Mehdi, nə olub? Xəstəsən? Niyə dinmirsən? Soyuqlamısan? İşin ağır deyil ki?"

- Yox! Məni rahat burax. Mənimlə danışma, get daha.

Yusif Sariminin suallarını da belə cavabsız qoydum. Dərdimi heç kimin başa düşmədiyini düşünür, buna görə də, onlarla danışmağa lüzum görmürdüm.

Kərim Fəthi danışdığı dostuna əvvəlcə bir-iki yumruq vurmağa adət etmişdi. Məni də həmin mehriban yumruqları ilə saxladı.

- Nə olub? Çox narahatsan.

- Narahat olaram da. Siz nə vaxtacan bizə əziyyət verəcəksiniz?!

Elə danışır və etiraz edirdim ki, uzaqdan görən olsaydı, mənə qarşı böyük haqsızlıq edildiyini düşünərdi.

- Çox gözəl! İndi ki belədir, get Nasirə de, ikiniz də dalğıc əşyalarınızı götürüb gəlin.

Öz-özümə fikirləşdim ki, yəqin bizi başqa bir yerə göndərib başımızı qatmaq istəyir; bəlkə də başqa bir batalyona təlim keçməyə göndərəcək. Pərişan halda dalğıc paltarımı götürdüm və Nasir Dibayi ilə birgə maşına doğru yola düşdük. İbrahim, Yusif və Həmid də maşında idilər. Maşın getdikcə Ərvəndin qoxusunu daha çox hiss edirdim.

***

Rəsulabad təlim yerindən 50 kilometrdən də uzaq idi. Ora çatanda işin ciddiliyinə əmin oldum. Rəsulabad qərargahı boş idi. Bizdən başqa yalnız

qardaş Həmzə[1] orada idi. Bir neçə dəqiqədən sonra oturub söhbətə başladıq. Mövzu axşamkı kəşfiyyat tapşırığı idi. Ümumi plan belə idi ki, çayın kənarındakı məktəbdən suya girib Bəvarin boğazına qədər gedəcəkdik. Oradan da Bilcaniyə çayına qədər irəliləyəcəkdik. Üç istiqamətdə kəşfiyyat aparılmalı idi. Kəşfiyyatın son həddi İraqın petrokimya zavodu idi. Oraya gedib-gəlmək üçün Ərvənd çayında 22 kilometr üzmək lazım idi. Çayın hər iki tərəfində isə düşmən mövqeləri yerləşirdi. Bəvarin boğazına qədər bir sahil bizimkilərdə idi, ondan sonra isə həm kiçik adalar, həm də Ərvəndin iki sahili düşmənin əlində idi və biz düşmənin içinə girməli idik. Qərara gəldik ki, hərəmiz yalnız bir tapança götürək.

Rəsulabadda təcili yardım maşınına minib təmas xəttinə yola düşdük. Yollar çox idi və hamısı bir-birinə bənzəyirdi. Çox əziyyətlə bizə lazım olan yolu tapdıq. Bu kəşfiyyatın həssaslığını hamımız yaxşı dərk edirdik. Yola düşməzdən öncə Xatəmül-ənbiya qərargahında Tehranla əlaqə saxlamışdılar. Onlar hava şəraitini, suyun qabarma və çəkilməsini və digər məsələləri nəzərə alandan, əmri bir neçə dəfə ləğv və təsdiq edəndən sonra nəhayət, kəşfiyyata icazə vermişdilər.

Təmas xəttinin yaxınlığındakı məktəbdə idik. Məktəb dağılıb müdafiə səngərlərinə çevrilmişdi. Bir səngərdə dalğıc paltarlarımızı geyindik. Son dəfə bir yerə toplaşıb istiqamət bölgüsü apardıq. Kəşfiyyat qrupunun başçısı Əsğər Abbasquluzadə dedi: "İbrahim Əsğəri və Yusif Sarimi Bilcaniyə adasının ortasındakı estakadaya gedirlər, Nasir Dibayi və Həmid Allahyari də mayakın arxasındakı hissəyə".

Nasirlə Həmidə tapşırılan yer ilk hədəf sayılırdı. Mənim adımı çəkmədiyinə görə yenidən narahat olmağa başladım, üz-gözümü turşutdum. Təsadüfən, Əsğər ağa da mənə baxırdı. Fikirləşirdim ki, görəsən, nə qədər hirsləndiyimi başa düşürmü.

- Yaxşı, qardaşlar, Mehdiqulu ilə mən də inşallah, petrokimyaya gedəcəyik.

Xəcalətimdən başımı aşağı saldım. Tapşırığın ən çətin hissəsi petrokimya istiqamətini öyrənmək idi. Təxmin edirdim ki, fiziki hazırlığıma və dalğıclıq məharətimə görə bu işə seçilmişəm. Biz suya hamıdan qabaq girib hamıdan sonra çıxacaqdıq. Yolumuz daha uzun, daha təhlükəli idi.

Qəribə hisslər keçirirdim. Qorxu və sevinc, coşqu və həyəcan qarışmış hisslər idi. Bədr əməliyyatından sonra sudan kəşfiyyata getməmişdim. Əsğər Abbasquluzadə ilə birlikdə olmaq ümidimi artırırdı.

Hərəkət zamanı idi. Özümə iki ağırlıq bağlayıb iki əl qumbarası götürdüm. Tapançamın kəmərini boynumdan asıb belimə bağladım. Əsğər ağa da bir tapança götürdü. Silahın olub-olmaması bizim işlərimizdə rol oynamırdı.

[1] Qardaş Həmzə Ərdəbil Bəsicindən və çox mehriban insan idi. Adətən, təsərrüfat işlərində bölüyümüzə kömək edirdi. Həm də sürücü idi və işini yaxşı bacarırdı. Bəzən israr edib kəşfiyyatda da iştirak edirdi.

Kəşfiyyat zamanı birinci qayda səssiz hərəkət etmək idi. "O, çox ehtiyatlı olsun və heç kəs sizdən duyuq düşməsin!" (Kəhf, 19) ayəsi qardaş Əsğərin dilinin əzbəri idi. Tapança və qumbara bizi yalnız bir az ürəkləndirirdi.

Uşaqlardan ayrıldıq. Əsğərlə çiyin-çiyinə təmas xəttindəki postumuza qədər getdik. Postda duranlara kəşfiyyat haqda məlumat verdik. Belə vaxtlarda keşikçilər məlumatlandırılmalı idilər. Onlar səhərə yaxın bizim qayıtmağımızı gözləyəcəkdilər. Ərvənd çayından 200 metr aralıda yerləşən keçidə yollandıq. Sakitcə və çiyin-çiyinə gedirdik. Bəzi qamışlar yanmış, bəzisi qırılmışdı. Raket və mərmilərdən yaralanıb qırılmış qamışlar iti olurdu. Vaxtımız geniş olduğundan yolu yavaş-yavaş, iti qamış və qəlpələrdən ehtiyatla gedə bilirdik.

Suyun kənarında oturub çəkilmənin başlanmasını və axının Bəsrəyə doğru istiqamət almasını gözlədik. Hər yer sakit idi. Ay səmada idi və şəkli hər bir dalğaya düşürdü. Külək qarşıdakı sahildən düşmən keşikçilərinin gülüş və zarafatlarının zəif səsini gətirirdi. Gözümü suya dikmişdim. Səma qaranlıq idi. Ay onun zülmət alnında işıqlı bir nöqtə kimi parlayırdı. Su çox sakit idi.

- Hazır ol!

Əsğər ağanın bu sözündən sonra yavaşca suya girdik. Bizim hərəkətimizdən yaranan hər bir dalğa ayın şəklini yellədirdi. Bütün gözəlliyinə rəğmən, bu səhnə məni qorxudurdu. Suyun bu qədər sakit olmasını arzulamırdım. Düşmən mövqeyi ilə məsafəmiz azaldıqca və tənhalıq hissi artdıqca Allaha təvəkkül və inam da çoxalırdı. Dua ilə suya girmişdik. Kəşfiyyatçıların dilinin əzbəri və səssiz kəşfiyyat anlarının zümzüməsi olan Vəcəəlna ayəsi dilimizdə və ürəyimizdə təkrarlanırdı. Ümm əl-rəsas və Bəvarinin arasındakı boğaza yaxınlaşdıq. Allaha yalvarırdım: "İlahi! Bu su dalğalı olsaydı, nə yaxşı olardı!"

Möcüzə baş verdi. Dua hələ ürəyimdə ikən sakit dalğalar suyun durğunluğunu pozdu. Hər dəfə dara düşəndə Allahın qoşunları gizlicə köməyimizə gəlirdi. Orada, 1986-cı ilin payızının son gecələrində Ərvənd çayında da bizə yardıma gəlmişdi. Yalqız və qərib idik. Əsğərlə mən idim. Əslində, biz deyildik, o iki dalğıcı Allah aparırdı. "Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də, görmürlər". (Yasin, 9) “İlahi! Əgər məni bir an buraxsan, suya batıb boğularam...” Sanki düşmən mövqelərinə kəşfiyyata yox, Allahla mənəvi əlaqələrimizi kəşf etməyə gedirdik.

Boğazın eni 150 metr idi. Bəvarinin düz dimdiyində boğaza nəzarət edən hündür bir keşikçi səngəri vardı. Ondan o yana sahilin hər iki tərəfində, hətta çayın ortasındakı adalarda da düşmən yerləşmişdi və biz düşmənin içinə girməli idik.

Boğazdan keçəndə iki fişəng səmanı aydınlatdı. Ayın mülayim işığında səngər və istehkamların qaraltısı görünürdü, fişənglərin işığında isə düşməni daha yaxşı gördük. Üzümüzü sahilə tutub düşmənin yaratdığı imkandan istifadə edirdik.

Ümm əl-rəsasın son hissəsində suyun ortasında başqa bir pusqu vardı. Sülh dövründə mayak olmuş bu pusqu yaxşı bir səngərə çevrilmişdi. Biz onun yanından keçməli idik və keçdik də. O pusqunun keşikçisindən və Bəvarinin üstündəki düşməndən gözümü bir an da çəkmirdim. Bir qədər sonra boğazı və mayakı arxada qoyub soyuq və sükutda Bilcaniyə sahili ilə düşmən mövqelərinin təxminən 3 kilometr içərilərinə girmişdik.

Şətt əl-ərəb çayı Bilcaniyə adasına çatanda iki yerə ayrılır və o tərəfdə yenidən birləşirdi. Bilcaniyənin yanında Şətt əl-ərəbin eni təxminən iki kilometrə çatırdı. İrəlilədikcə yorğunluq və soyuq daha çox təsir edirdi. Birdən suda batdığımı hiss etdim. O qədər yorulmuşdum ki, suyun üzündə qala bilmirdim. Dərhal ağırlıqların birini açıb müvazinətimi qorudum. Üç kilometrdən sonra Bilcaniyə sahilinə dönməli idik. Sahilə yaxınlaşdıqca onu Ərvəndin Vəlfəcr-8 əməliyyatındakı sahilinə bənzədirdim. İnanılmaz idi; düşmən təmas xəttindən bir neçə kilometr içəridə də güclü istehkamlar və sıx maneələr qurmuşdu. Bu, Bəsrənin onlar üçün necə əhəmiyyətli olduğunu göstərirdi. Sahilə yaxınlaşdıqca səngərlərinin sayını, bir-biri ilə məsafəsini, hətta hərbçilərin sayını və mövqeyini də yaddaşıma köçürürdüm. Bilcaniyə adasının sonuna çatmışdıq. Müharibədən sonra sükut içində yatmış petrokimya zavodu qərb tərəfdə gözlərimiz önündə idi. Orada da Bilcaniyənin Ərvənddən ayırdığı bir arx vardı. Arxa doğru getdik. Eni təxminən 15 metr idi. Gözlərimə inanmırdım: arx bir neçə metr irəlidə Bilcaniyəni petrokimyanın sahilinə birləşdirən yolla kəsilmişdi. Bütün planlar pozuldu. Bizim olduğumuz yerdən yolun yaxınlığına qədər maneələrlə dolu bir çala vardı. Diqqətlə baxdım: əvvəlcə bir cərgə günəşəbənzər istehkam milləri, sonra tikanlı məftillər, yenə günəşəbənzər millər, yenə tikanlı məftil halqaları və yenə günəşəbənzər millər.

Bu maneələr təxminən bütün sahilboyu davam edirdi. Bilcaniyəni öyrənmək üçün oradan yaxşı yer tapmaq olmazdı. Soyuqdan əllərimiz keyimişdi və çətinliklə açılıb-yumulurdu. İstehkam milindən tutub sahili araşdırmağa başladıq.

Başımızın üstündə iki səngər vardı: biri Bilcaniyə, biri də petrokimya sahilində. Tapşırığa uyğun olaraq, diqqətimizi Bilcaniyə adasına yönəltdik. Əsğər ağa da eyni fikirdə idi. Kanalın eni ilə adaya getməli idik. Milləri buraxmadan qolumuzun köməyilə suyu yarıb adaya yaxınlaşmağa başladıq.

Su bir neçə saat öncəki kimi sakit deyildi, bəzən hündürlüyü iki metrə çatan güclü dalğalar vardı. Bilcaniyə adasında suyun düz kənarında yerləşən səngərə doğru gedirdik. Sahildəki maneələrin üzərinə 75-100 sm. hündürlüyündə kisə düzmüş, sonra dördayaq qoyub üstünü örtmüşdülər. Bu səngər suya nəzarət etmək üçün yetərli idi. Səngərin içində bir keşikçi də görünürdü. Biz mütləq səngərin önündən keçməli idik. Səngərə yaxınlaşanda keşikçi əsgər ayağa qalxdı. Dəmir papağı ay işığında parlayırdı. Biz millərdən yapışmışdıq. Əsğər ağa ilə aramızda yarım metr məsafə vardı. Gözümü bizə doğru gələn iraqlı

əsgərin gözünə dikmişdim. O mənə tərəf baxdı, mən də ona. "Bismillahir-Rəhmanir-Rəhim" deyib yenə Vəcəəlna ayəsinə müraciət etdim.

O bizi görürdü. Mən onun gözlərindəki təəccübün get-gedə həyəcana çevrildiyini hiss edirdim, lakin ayənin onu kor etdiyinə əmin idim. Soyuq, tənhalıq - hər şey unudulmuşdu. Tapançanı hazırladım ki, hərəkət etsə, birinci mən vurum. Çənəsi tapançamın hədəfində idi. Ərəbcə nəsə deyib çaxmağı çəkdi. Gözüm tətikdə idi. Su bizi aşağı-yuxarı yellədirdi. Bir neçə saniyə sükutla keçdi. Qəlbimdə isə tufan idi. Birdən geri döndü, qurbağa telefonunu götürüb ərəbcə nəsə dedi. Əsğər ağa mənə yaxınlaşıb qulağıma pıçıldadı: "Deyir ki, suda şübhəli bir şey görüb".

O vaxta qədər fikirləşirdim ki, ya bizi görüb və qorxudan bir iş görə bilmir, ya da bizim iranlı dalğıc olduğumuzu həqiqətən, anlayıb. Vaxtımız az idi. Millərdən əlimizi çəkib Ərvənd çayının ortasına doğru getdik. Bir neçə saniyə ərzində səngərdən təxminən 15 metr uzaqlaşdıq. Hündür dalğalar bizə köməyə gəlmişdilər, səsləri sükutu pozurdu. Bizim çayda olduğumuza əmin olsaydılar da, coşqun dalğaların arasında tapmaları asan deyildi.

“İndi nə edək?” Tez fikirləşib qərara gəlməli idik. Orada qalsaydıq, suyun axını bizi Bəsrəyə aparacaqdı. Qərara gəldik ki, qarşıdakı Ümm əl-təvil adasının sahilinə gedək. Bu ada Bəvarindən sonra və petrokimya ilə üz-üzə idi. Ensiz uzun ada idi. Uzunluğu 10 kilometrdən çox idi, eni isə bəzən bir yol qədər daralırdı. Həmin gecə təəccüb hissi də daim mənimlə idi: düşmən Ümm əl-təvilin sahilini də maneə və istehkamlarla doldurmuşdu. Orada maneələrin sıxlığı az olsa da, düşmənin hazırlığı və ciddiliyi təsəvvürolunmaz dərəcədə idi.

Ümm əl-təvilin sahilində səngərlər böyük məsafə ilə düzülmüş, adanın hər yeri qamışla örtülmüşdü. Özümüzü birtəhər adaya çatdırıb qamışlığın içinə girdik. Qərara gəldik ki, mən adanı öyrənim, Əsğər ağa suyu. Qamışlar bizi görünməkdən qorusa da, düşmən mövqelərinin 12 kilometrliyində hər bir hadisə baş verə bilərdi.

Adada bir yol çəkilmişdi. Təsadüfən, bizim sığındığımız yer adanın ensiz hissələrindən idi və yol sudan çox da uzaqda deyildi. İki nəfərin səsini eşidib qulaqlarımı şəklədim. Tezliklə qaranlıqda bir velosiped və iki nəfər göründü. Onlar yaxınlaşdıqca ay işığında daha yaxşı görünürdülər. Biri velosipedi sürürdü, o biri də velosipedin arxasından tutmuşdu. Onlar səs-küylə bizə doğru gəlirdilər. Bildim ki, velosipedi sürən naşıdır və arxadan tutan yoldaşı ona velosiped sürmək öyrədir. Naşı velosipedçi hər an bizim üstümüzə aşa bilərdi. Allaha yalvarırdıq ki, buradan salamat keçsinlər və velosipedləri aşmasın. Hələ onların keçdiyinə əmin olmamış Əsğər ağa dedi: "Ehtiyatlı ol! Gir suyun altına!"

İkimiz də suya girdik. Nəfəs almaq üçün yalnız başım bayırda idi. Düşmən qayığı arxamızdan fənərlə suya baxa-baxa bizə yaxınlaşırdı.

Dünyəvi qüvvələrdən əl üzdüyümüz bütün zamanlarda olduğu kimi, yenə də Ona üz tutdum: "İlahi! Özün bizi qoru ki, əsir düşməyək və əməliyyatın üstü açılmasın!"

Qayıq bir neçə saniyə içində sakitcə yanımızdan ötdü. Fənərin işığı üzümüzdən keçdi. Mən onları gördüm, Əsğər ağanın da gördüyünə əmin idim, lakin deyəsən, onlar başqa bir şey axtarırdılar. Bütün bu mərhəmətlərə heyran qalmışdım.

Şətt əl-ərəbin soyuq suyunda düz 5 saat üzmüş, Ərvəndin dalğaları altında 12 km. yol gedib düşmən mövqelərinə girmişdik. Artıq yolu davam etdirməyə nə taqət vardı, nə də vaxt. Məsləhətləşdik. Verəcəyimiz qərar ilk baxışdan özümüz üçün olsa da, sonda bütün bölüyün və növbəti mərhələdə, hücuma keçəcək bütün uşaqların taleyilə birbaş bağlı idi. Yavaşca qamışların birini qırdıq: "Su nə vaxt qamışın bu hissəsindən aşağı düşsə, yəni çəkilmə başlayıb və biz qayıda bilərik".

Soyuqdan titrəyə-titrəyə düz bir saat suda gözlədik. Saat üçə yaxın suyun səviyyəsi enməyə başladı. Bilcaniyə sahilindəki qabaqkı yerimizə qayıtmağı düşündük. Axının istiqaməti dəyişmişdi. İrəli getsəydik, düz petrokimya sahilinə çatacaqdıq. Yola düşüb bir saat öncə görüşdüyümüz əsgərin səngərindən 5-10 metr kənarda dayandıq.

Bütün diqqətimizi əməliyyat üçün önəmli olan amillərə yönəltdik. Səngərləri, istehkamları, səngərlərin bir-birindən məsafəsini, silahları, maneələri - hər şeyi diqqətlə yadda saxlayırdıq. Bəzən maneələrə yaxınlaşıb yaxından baxırdıq. Suyun səviyyəsi endiyinə görə daha yaxşı görmə imkanımız vardı.

İşimiz bitmişdi. Tapşırılan bütün yolu öyrənmişdik. Lakin bütün bölgə, maneə və keçidlərlə tanışlıq həvəsi yolu tez qayıtmağa qoymadı. Hər ikimiz Bilcaniyə sahilində yerləşən estakadaya yaxınlaşdıq. Oradan keçəndə iraqlıların səslərini aydın eşidir, suda üzən, tez-tez dolub-boşalan qayıqlarını görürdük. Yolumuzu mayaka doğru döndərdik. Düşmən sahilindən bir az uzaqlaşmışdıq ki, öz vəziyyətimizə baxdım. Əsğər ağanın əzələləri tutulmuşdu və ayaqlarını vura bilmirdi. Ayaq damarlarının ağrısı yorğunluğuna qarışıb hərəkət etməyə qoymurdu. Mənim də vəziyyətim yaxşı deyildi. Qolundan tutub dartdım. Ayağımı hər qaldıranda elə bilirdim ki, sonuncu olacaq. Yorğunluq və soyuq məni də əldən salırdı. Daha ayaqlarımı tərpətmədim. İki dəqiqə ötdü.

“Qayıdırıq. Su bizi aparır. Yox, təslim olmamalıyıq. Daha bir şey qalmayıb”. Bu sözlərin hamısı daxilimdən gəlirdi. Zikr deyirdim və Ağa Mehdi gözlərimə görünürdü: "Allah bəndəsi, Vəcəəlna yadından çıxmasın. De: “La hovlə və la quvvətə illa billah".[1]

[1] Allahsız heç bir qüvvə və qüdrət yoxdur!

Ayaqlarımı vurmağa başladım. Fikirləşmək də vaxt aparırdı və bütün əziyyətlər hədər gedə bilərdi. Ümm əl-rəsasın arxasında iki kiçik ada vardı. Düşmən bu adaları torpaq bəndlə bir-birinə və hər ikisini Ümm əl-rəsasa birləşdirmişdi. Su həmin bəndlərdə dayanırdı. Əgər axın bizi oraya aparsaydı, dönməyimiz qeyri-mümkün olardı və günəşin ilk şüası düşən kimi hər şey bitərdi. Bütün qüvvəmizi toplayıb özümüzü mayakın soluna çatdırmalı idik. Əsğər ağa bütün bunları məndən yaxşı bilirdi. Hər ikimiz üzməyə başladıq. Tədricən hər ikimizin əzələləri tutulurdu, ayaqlarımızı tərpədə bilmirdik. Belə anlarda bir-birimizə kömək edib birtəhər irəliləyirdik. Bir anlığa gözümü açanda mayakı qarşımda gördüm. Ona 10 metrdən də az qalırdıq. Keşikçi ayaq üstə dayanıb ovuna baxırdı. Onların Şətt əl-ərəbi və bizim Ərvənd çayımız yenidən dalğalanmağa başladı. Özümü suyun üzərində hərəkətsiz qalmış ölü bir balıq kimi hiss edirdim; həyatı seçsəm də, hərəkət etməyə taqətim qalmamışdı. Allaha yalvardım: "İlahi! Özümüzə görə yox, uşaqlara görə, şəhidlərə, imama, əməliyyata, xalqa görə..."

Daha yadıma bir şey düşmədi. Gözəgörünməz bir qüvvə donmuş bədənimizə yenidən hərarət verdi. Çox çalışıb həmin 10 metrdə əsirlik taleyini yox, azadlığı seçdik və sonunda mayakın sol tərəfində özümüzü suya tapşırdıq. Axın bizi boğaza tərəf apardı. Yavaş-yavaş təhlükə sovuşurdu. Həyəcanın bütün vücudumu bürüdüyü o gərgin anlarda bağırsaqlarım da dillənirdi. Soyuq aman vermirdi. Yorğunluqdan taqətim qalmamışdı, ovcumu açıb-yummağa da gücüm çatmırdı. Soyuqdan donma ayaq barmağından başlayıb yavaş-yavaş bütün əzələlərə keçirdi. Əsğər ağanın vəziyyəti də pis idi. Düşmən mövqelərinin sonuna yaxınlaşdıqca həm həyəcanımız, həm də sevincimiz çoxalırdı. Saat təxminən beş idi. Bir qədər də gecikməydik, günəş çıxacaqdı. Arabir atılan fişənglər bir neçə saniyəliyə ətrafı işıqlandırırdı. Qeyri-ixtiyari olaraq, boğaza baxdım. Fişənglərin işığı altında gözəl mənzərəsi vardı, amma boğazda gözlənilməz bir şey də görünürdü. Əsğər ağa dedi: "Mehdiqulu, o nədir?"

Ümm əl-rəsasdan Bəvarinə qədər təxminən iki metr hündürlüyündə enli bir şey boğazın ortasına qədər gəlirdi.

Bir qədər fikirləşəndən sonra hər ikimiz yekdil rəyə gəldik: Düşmən boğazı bağlayır. Gedəndə su qabarma halında olduğuna görə biz məftillərin üstündən keçmişdik. Qayıdanda isə suyun səviyyəsi enmişdi və məftillərlə rastlaşmışdıq. Bütün problemlər bir tərəfə idi, bu məftilləri görmək və boğazın bağlanmağı bir tərəfə.

Bütün əməliyyat o boğaza bağli idi. Düşmən onu bağlaya bilsəydi, heç kim keçə bilməz və hamı boğazda şəhid edilərdi.

Maneəyə toxunmayacaq tərzdə hərəkət etdik. Boğazın bağlanması bizdə güclü məyusluq yaratmışdı. Soyuq artıq düşünmə qabiliyyətimizi də sıradan çıxarırdı. Başımın donduğunu hiss edirdim. Bir tərəfdən suyun soyuğu, digər tərəfdən də dalğıc geyiminin sıxlığı bir neçə dəfə suda sidik ifrazına səbəb

olmuşdu. Hər dəfə bədənin temperaturu bir qədər yüksəlirdi və qızışırdıq, bir qədər sonra isə əksinə olurdu və soyuq hər an güclənirdi. Suda partlayan raketin zərbə dalğasına düşən və hələ diri olduqları halda suyun üzündə oyan-buyana gedən balıqlar yadıma düşdü. Özümün o balıqlara çox oxşadığımı hiss edirdim. Bəvarin adasının dimdiyinə yaxınlaşdığımızı gördüm. Gedəndə pusqudan 50 metr aralıdan keçmişdik, gələndə isə nə qədər çalışdımsa, özümü səngərdən uzaqlaşdıra bilmədim. Hava işıqlaşmağa başlamışdı. Fikirləşirdim ki, mən keşikçini gördüyüm kimi o da məni görsə, nə etməliyəm. Bir neçə dəqiqədən sonra səngərin beşmetrliyindən yavaşca keçdik. Keşikçi ya yatmışdı, ya yorğun idi, ya da bu soyuqda və sübh çağı kiminsə suda olması ağlına gəlmirdi. O pusqudan öz sahilimizə qədər daha heç nədən qorxumuz yox idi. Düşmənin təmas xətti sayılan sahil maneələri daha sıx və möhkəm idi və biz oradan keçəndən sonra öz sahilimizi görürdük. O anda məni ürəkləndirən rahatlıq və təhlükəsizlik hissi elə idi ki, sanki düşməndən kilometrlərlə uzaqda, Əhvazın küçələrində gəzirdim. Düşmən mövqelərinin 10 kilometr dərinliyinə getmiş və soyuq suda düşmənlə üz-üzə kəşfiyyat aparmış bizlər üçün öz sahilimizi görmək ümidverici idi. Əl-ayaqlarımda taqət qalmamışdı, yalnız Əsğər ağadan uzaqlaşmamağa çalışırdım. Soyuq ayaqlarımızı keyitdiyindən hər ikimiz yorğun qollarımıza bel bağlamışdıq. Yarım metrdən az dərinlikdə hərəkət edirdik və suyun axını bizi sahilə aparırdı. Sudan çıxacağımız yerdə vurulmuş nişanı uzaqdan gördüm. Son məqsədimiz oraya çatmaq idi və Allahın Özü bizi ora yönəldirdi. Nəhayət, bədənim torpağa dəydi. Əl və ayaqlarımızın köməyi ilə yavaş-yavaş sudan ayrıldıq.

Payızın son günlərinin kəsici soyuğu bədənimi titrətdi. Allahın köməyilə bu tapşırığı başıuca yerinə yetirdiyimizə görə Allaha ürəkdən şükür edirdik. Əsğər ağa halımıza yaraşan ən gözəl işi gördü: çətinliklə və xüsusi mətanətlə səcdə etdi; şəfəqin sökülməsi ilə eyni zamanda şükür səcdəsi! Onun səcdəsini görüb bütün şəhid dostlarımı xatırladım, onların duasının bizə əl tutduğunu düşündüm və ixtiyarsız olaraq gözlərimdən yaş axdı.

Keşikçilərə qədər 200 metr yolumuz vardı. Yer yanmış qamışlarla dolu idi; bədənin harasına dəyirdisə, kəsirdi. Lakin biz ehtiyat edəcək durumda deyildik. Ayağa qalxmağa, hətta danışmağa da taqətimiz yox idi, amma bir-birimizin baxışlarını oxuyurduq: "Hərəkət etməliyik, burada oturmaqdan bir şey çıxmaz!"

Çox əziyyətlə ayağa qalxdım, amma ilk addımda yıxıldım. Ayaqlarım sözümə baxmırdı. Hətta qolumu, ayağımı, paltarımı və bədənimi kəsən qamışları və tikanlı məftilləri də hiss etmirdim. Həmin 200 metrlik məsafəni yıxıla-yıxıla keçib keşikçilərin bizi görəcəyi yerə çatdıq. Onların sevincini görəndə bildim ki, daha qayıtmağımıza ümidləri qalmayıbmış. Keşikçilərin köməyilə səngərə çatdıq. Hamı narahat halda gözləyirdi. Tapşırığımızın nədən ibarət olduğunu bilənlər Allah bilir ki, səhərə qədər nə çəkmişdilər. Bizi görüb

gülə-gülə yanımıza gəldilər. Elə gülürdülər ki, biz nəsə bir hadisə baş verdiyini düşündük. Bəlkə elə buna görə Əsğər ağa ağzını açıb nəsə demək istədi, amma boğazından çıxan səs anlaşılmaz idi: "E... o... a..."

Həmid Allahyari bərkdən güldü. Yadıma düşdü ki, Əsğərlə mən son dəfə boğazın bağlanması haqda danışmışdıq. Ondan sonra bir-birimizə bir söz də deməmişdik. Soyuq canımıza elə yerimişdi ki, güclə ağzımızı açanda nə dilimiz tərpənirdi, nə çənəmiz.

Sobanın yanında oturdum. Uşaqlar bizi dövrəyə aldılar və əvvəlcə hərəmizə bir neçə qaşıq bal verdilər. Marağa və Ərdəbil əhalisindən gəlmiş hədiyyələrin içində təbii bal da vardı. Hər bir qaşıq balı çətinliklə udanda bədənimə isti bir şeyin yayıldığını hiss edirdim. Namaz qılmaq üçün özümüzü paklamalı idik. Həmin gecə bütün uşaqlar müxtəlif istiqamətlərə kəşfiyyata getmişdilər və vəziyyətləri bizimki kimi idi.

Dedilər ki, hamamda neft yoxdur. Bölüklərin birindən neft alıb suyu qızdırmalı idik. Buna görə də, paltarımızı dəyişmədən maşına minib Rəsulabaddakı qərargahımıza getdik. Saat 6 idi və namaz qılmaq üçün bir saatdan az vaxtımız vardı. Mindiyimiz təcili yardım maşını sürətlə gedirdi. Birdən maşının çevrildiyini hiss etdik. Belim bərk ağrıdı. Maşından enəndə gördük ki, tikinti-mühəndis bölüyü körpü salmaq üçün yolu bir metr dərinliyində qazıbmış. Yaxınlıqdakı ekskavator cəld maşını oradan çıxardı. Xoşbəxtlikdən, maşına ciddi ziyan dəyməmişdi və biz tez yolumuza davam etdik.

Çatan kimi dalğıc paltarlarımızı çıxarıb yuyunduq və namazlarımızı qıldıq. Bir qədər öncə bizi dəfələrlə təhlükələrdən salamat çıxarmış, bizə düyünləri açmış Yaradana həmd etmək necə ləzzətli imiş; həm də elə bir halda ki, bütün vücudumuza işləmiş soyuqdan hələ də titrəyirdik.

Yuxusuzluq, yorğunluq və soyuq durumumuzdan bəlli idi. Ağa Həmzə bizə yataq salmışdı. Üstümə iki-üç qalın ədyal atdım, amma yenə üşüyürdüm.

II

– Əşhədu əlla ilahə illəllah...

Bu şəhadətin mənasını, Allahdan başqa heç bir tanrının olmadığını ətim və qanımla dərk edirdim. Günorta idi və gözəl azan səsini dinləmək insana həzz verirdi. Yuxudan oyandım. Günəş səmanın ortasında dayanmışdı. Səngərdən çıxdım. Diviziya tərəfindən ağa Həmzəyə tapşırılmışdı ki, uşaqların kəşfiyyatdan uğurla qayıtdıqlarına görə iki qurbanlıq qoyun gətirsin. Namazdan sonra uşaqların köməyi ilə qoyunları kəsdilər və ağa Həmzə bişirməyə başladı.

Mən hər şeydən öncə dalğıc geyimimi axtarmağa başladım, onu və silahımı yudum, sonra gecəki kəşfiyyatın məruzəsini yazmaq üçün Əsğər ağa ilə bir tərəfdə oturduq. Kərim Fəthi də gülərüzlə gəldi, mənə çatanda dedi: “Daha qaşqabaqlı deyilsən ki?!”

– Daha yox, tövbə etmişəm.

Hər ikimiz güldük. Rəsulabadda nahar yedik və məruzəni yazandan sonra batalyonların yerləşdiyi Qəcəriyyəyə yola düşdük.

Ertəsi gün təlimə hazırlaşdıq. Adətən, ya biz batalyonların yerləşdiyi yerə gedirdik, ya da onlar kəşfiyyat bölüyünə gəlirdilər. Bölüyümüzün təxminən önündə yerləşən sahildə təlim məşqləri üçün əlverişli yer vardı. Həmin gün bölüyün ərazisindən çıxan kimi batalyon uşaqlarının bölüyün önündəki sahildə toplaşıb məni dəcəl baxışlarla süzdüklərini gördüm. Bəzi qədim döyüşçülər də mənim birgünlük yoxa çıxmağıma dair təxminlər etmişdilər. Onlara çatanda ilk sual belə oldu: "Paltarların niyə belə olub, Mehdiqulu?"

Paltarlarım qamışlara və tikanlı məftillərə ilişib dəlik-deşik olmuşdu və bu, uşaqların diqqətini çəkmişdi. Onların hamısı mənim harada olduğumu bilmək istəyirdilər. Dedim ki, Əhvaza getmişdim.

– Maraqlıdır! Əhvaza gedənin paltarı cırılır?!

– Məsələ gülüşlə və səs-küylə sona çatdı. Uzun müddət öncədən əməliyyat ətrini duyanlar eyhamla sevinclərini büruzə verdilər.

***

Təlim elə bir mərhələyə çatmışdı ki, uşaqlar dalğıc balonları ilə təlim keçməli idilər. Daha bir çətin mərhələ başlamışdı. Bundan ötrü ilk iş dalğıcın çəkisini artırmaq idi. Adətən, hər bir normal adam üçün üç-dörd dalğıc ağırlığı kifayət edirdi. Bundan sonra dalğıcın batmaq istədiyi dərinliyə uyğun olaraq ağırlıqları artırıb-azaltmaq lazım olurdu. Hətta suda beş santimetr daha batmaqdan ötrü də ağırlıqdan istifadə olunurdu. Həm dalğıc geyimlərinin cırıq, böyük olduğuna, bəndlərinin işləmədiyinə, həm də ağırlıq çatışmazlığı olduğuna görə kərpic parçalarından istifadə edib bir-bir uşaqların ağırlığını və suda qalma vəziyyətlərini tənzimləyirdik. Həbib batalyonunun bölüklərindən biri balonla təlim zamanı bir şəhid vermişdi. Lakin xoşbəxtlikdən, bizim təlim bölüyümüzün uşaqları o qədər diqqətli və bacarıqlı idilər ki, belə bir hadisə baş vermədi.

Uşaqların hava balonları ilə tanışlığı üçün düşündüyüm ilk iş suda tənəffüs məşqi idi. Uşaqları suyun dərin yerinə apardım, hamını sıraya düzdüm. Bir işarə ilə hamısı başlarını suya batırıb balonla nəfəs almağa çalışırdı. Bunu bir neçə dəfə təkrarlayandan sonra suda hərəkət başlanırdı. Bütün hərəkətlər kolonla idi. Bütün uşaqların başları suyun altında olanda mən başımı bayırda saxlayırdım ki, kolon səhvən sahilə tərəf getsə, estakadaya, qayığa və ya başqa bir şeyə yaxınlaşsa, istiqamətlərini dəyişim. Tədricən ağlıma gəldi ki, kolonun yoldan yayınmasının qarşısını almaq üçün başqa bir iş də görmək olar. Uşaqlardan birinə kolonun arxasınca hərəkət etməsini tapşırdım; başını bayırda saxlasın, kolon sola və ya sağa dönsə, cəld hərəkəti və yerdəyişməsi ilə kolonu düzəltsin. Həmin adam kolonun sonunun əyildiyini görəndə qarşı tərəfdə üzgəclərini vurur və beləliklə, kolonun hərəkətinə nəzarət edirdi. Bu,

yaxşı üsul idi və düşünürdüm ki, əməliyyat gecəsi də bundan istifadə edə bilərik.

Təlimlərin yaxşı gedişi və əməliyyatın yaxınlaşması səbəbindən dua, əzadarlıq və təvəssül proqramları da çox rövnəqlənmişdi. Hacı Əsğər Zəncani və dəyərli Əhli-beyt (ə) şairi Ustad Kəlami uşaqların arasında idilər. Adətən, bütün şəxsi heyət ya Həbib batalyonunun məscidinə toplaşırdı, ya da Vəliəsr batalyonunun məscidinə.

Camaat namazı şəklində qılınan gündəlik namazlardan sonra həmişə dualar oxunurdu, sonra isə hamımız qardaş Niknəfəsin səsini gözləyirdik: "Qardaşlar, hamılıqla şükür səcdəsi!"

Hamı səcdəyə gedirdi, o isə ya dua, ya da irfani bir şeir oxuyurdu:

“Ey munisim, qəmxarım, həbibim, ya Rəbb!

Salehlərin ibadətini et nəsibim, ya Rəbb!

Məni haqq yolçuları ilə həmsöhbət et,

Özün hər bir dərdə ol təbibim, ya Rəbb!”

Oxunan şeirlər şəxsi heyətə çox müsbət mənəvi təsir bağışlayırdı. Bəzən uzun müddət onları zümzümə edirdik:

“Ey Dost, mənə elə bir qəlb ver ki, Sənin yerin ordadır,

Səndən elə bir şey istəyirəm ki, razılığın ondadır!”

Çox vaxt namaz və münacat İmam Hüseyn (ə) əzadarlığı ilə bitirdi. Məhərrəm ayı olmasa da, əza dəstələri önə çıxırdı və bəzən uşaqlar dalğıc geyimi ilə dəstələrə qoşulurdular.

İmam Hüseynə (ə) ağlamağın və təvəssül etməyin xüsusi bir zamana ehtiyacı yox idi. Bəzən uşaqlar qərargahdan çaya qədər yolu əzadarlıqla, sinə vura-vura gedirdilər. Manevr olan gecələrdə əzadarlıq daha böyük coşqu ilə keçirdi. Bu ümumi proqramların yanında hər bir batalyonun, bölüyün və taqımın xüsusi mərasimləri də olurdu.

Bir gün komandirlər əmr etdilər ki, uşaqların yolunu 3-5 dəfə artıraq və onların suda daha çox qala bilmələrini təmin edək. Kəşfiyyat gecəsindən sonra bu işin vacibliyini çox hiss edirdim. Bilirdim ki, uşaqların dalğıclıq məharəti nə qədər çox olsa, hücum gecəsində daha az çətinlik çəkərlər. Tədricən suda təlim keçdiyimiz yol elə bir həddə çatdı ki, uşaqlar hər məşqdə ən azı, 5-6 km. üzürdülər.

Təlim ağırlaşandan sonra o vaxta qədər çətinliklə dözmüş bəzi uşaqlar tab gətirə bilmədilər. Soyuq suda uzun yol getmək şəxsi heyətə çox ağır idi və bizə sübut olunmuşdu ki, bəzi uşaqlar soyuğa dözə bilməyəcəklər. Onları dalğıclıqdan əl üzmələrinə birtəhər razı salmalı idik. Dalğıc bölüklərindən birinin komandiri olan Əsğər Əlipur da belələrindən idi. Ağlayıb israr etməsi adamı pis vəziyyətə salırdı, amma bədəninin bu qədər soyuğa və əziyyətə dözmədiyini özü də görürdü. Belələrinin təlimdə olması digərlərinin əhval-ruhiyyəsinə çox müsbət təsir edirdi. Onların özlərini oda-suya vurmalarını və nə olursa-olsun, dalğıc bölüyündə qalmaq istədiklərini görəndə digər şəxsi

heyət komandirlər demədən bütün imkanlarını səfərbər edirdilər. Əhməd Musəvi də bu qisimdən idi. Hamı ona Balaca Seyid Əhməd deyirdi.[1] O, bəzən əldən düşəndə mənə yaxınlaşıb deyirdi: "Bəs mən nə edim?! Suya girəndə bütün damarlarım tutulur... Amma geri çəkilə bilmərəm. Əməliyyatdan və dalğıclıqdan vaz keçə bilmərəm. Nə olursa-olsun, bu uşaqlarla bir yerdə olmaq istəyirəm..."

Əvvəllər tez-tez qulağına pıçıldayırdım ki, bu vəziyyətdə hücumçu bölüyündə dalğıc olması vacib deyil; yaxşı olar ki, yerini başqasına versin və özü su-quru bölüyünə getsin. Onların işi də mühüm və çətin idi, dalğıclardan dərhal sonra hərəkət etməli və işi sona çatdırmalı idilər. Lakin bu sözlərin heç bir faydası olmurdu. Yalnız Seyid Əhməd deyil, hamı "dalğıc" sözünə ayrı cür baxırdı. Vəlfəcr-8 əməliyyatından sonra qardaş Səməd Qasimpurun Qəvvaslar (Dalğıclar) şeiri dillər əzbəri olmuşdu. Bəzən uşaqlar əzadarlıq zamanı həmin şeirə sinə vurub ağlayırdılar. Sözügedən israrlara bunun da təsiri olduğunu düşünürdüm. Seyid Əhmədin israrla yalvarması önündə aciz qalanda ona dedim: "Sən kolonun ipini tut, amma harada yorulsan, ayaqlarını vurma, uşaqlar səni apararlar".

Günlər ötürdü. Uşaqlar hər gecə təyin olunmuş yerlərdən suya girirdilər. Əvvəllər bölüklərə müxtəlif tapşırıqlar verilirdi və uşaqlar tapşırığa əsasən, suya girirdilər. Onlara necə suya girmək, üzgəcləri necə çıxarmaq, sahildən bəndə qədər necə hərəkət etmək, tikanlı məftilləri keçmək və düşmənlə rastlaşdıqda necə vuruşmaq, istehkama və bəndə necə qalxmaq yolları öyrədilirdi. Bəzi yerlərdə bənd su ilə eyni səviyyədə olurdu, bəzi yerlərdə isə hətta 70 metrə qədər hündürdə.

Bu manevrlərdə hər bölük öz vəzifəsini yerinə yetirirdi və təbii ki, heç biri atəş açmırdı, çünki məqsəd əməliyyata hazırlıq idi.

***

Əmr gəldi ki, qardaş Şəmxani və qardaş Şəriətinin iştirakı ilə briqada miqyasında bir manevr keçirilsin. Manevrin yeri batalyonların qərargahından uzaqda idi və uşaqlar özüboşaldan maşınlarla oraya aparılacaqdılar.

Yağış yağırdı. Uşaqlar o halda əza heyətləri ilə gəldilər. Hacı Əliəsğər Zəncani oxuyur, onlar da sinə vururdular. Hamı sıra ilə maşınlara mindi. Mən minəndə Hacı Əliəsğərin səsindən bildim ki, maşının arxasında onun mərsiyəsinə və gözəl səsinə dəstək verəcək riyasız bir təvəssül məclisi başlayıb. Bu nemətə yağış da bərəkət qatırdı.

Yol bitdi, amma hələ nəzərdə tutulmuş yerə çatmamışdıq. Yolun qalanını piyada getməli idik. Yağış kəsilmişdi, yer sürüşkən idi. Elə palçıqda hərəkət etmək çox çətin idi. Həbib batalyonunun təbliğat bölməsinin başçısı qardaş

[1] O, Kərbəla-4 əməliyyatında itkin düşdü. Nəhayət, 1997-ci ildə cəsədi tapılıb əziz vətəninə göndərildi və Təbrizin Rəhmət vadisi məzarlığında dəfn olundu.

Abdullahi orada sürüşdü və ayağı sındı. Problem və narahatlığımıza biri də əlavə olundu.

Hər bir manevr müsbət və mənfi cəhətləri, problem və ehtimalları araşdırmaq üçün yaxşı imkan idi. O manevrdə də fikirləşdim ki, birdən əməliyyat gecəsi də yağış yağsa və yer sürüşkən olsa, nə edəcəyik.

Manevr üçün nəzərdə tutulmuş yer Karun çayının təxminən 8 km.-lik bir hissəsi idi. Uşaqlar dalğıc balonları ilə üzməli idilər. Çayın ortasında çoxlu adalar vardı. Manevr yolu da iki adanın arasındakı boğazdan keçirdi. Boğazdan sonra qarşıda qurulmuş estakadalara çatırdıq. Estakadanın arxasında istehkam qurulmuşdu və oradakı şərti düşmənə qarşı hücuma keçməli idik. Bu manevr şərti düşmənin atəşi altında baş tuturdu. İstehkamı ələ keçirəndən sonra xurmalığın arxasındakı yolla getməli idik. Həmin yol şəxsi heyətin düşərgə saldığı Qəcəriyyə yolu idi.

Yol əməliyyat bölgəsinə nisbətən qısa olsa da, soyuğa və güclü yağıntıya görə uşaqların çoxunun yolda qalacağını ehtimal edirdim.

Karunun sahilində, suya girəcəyimiz yerdə oturub əmri gözlədim. Batalyondan ayrılıb yola düşəcək ilk qüvvələrə mən bələdçilik edəcəkdim. Rəhim Sarimi, Həsən Kərbəlayi və Əhəd Müqimi də həmin dəstədə idilər. Sakit oturub gözləmək soyuğun şiddətini artırırdı. Sahil güclü yağışdan palçıq olmuşdu və biz əslində, palçığın içində oturub bir az qızışırdıq. Orada soyuqdan titrəyən uşaqlara dedik ki, palçıqda otursunlar. Üzüm soyuqdan yanırdı, onu palçığa batırdım, bir az yaxşılaşdı. Soyuq aman verməyəndə arabir bu işi təkrarlayırdım. Nəhayət, əmr verildi: "Hərəkət edin!"

Diviziya komandirinin rabitə üzrə müavini Mirabın səsini tanıyıb dedim: "Gözləyin, görüm nə olur".

Əmin ağa mənim səsimi tanıyıb dedi: "Sarəllah diviziyasının uşaqları deyiblər ki, biz suyun altında 40 km. yol gedirik".

Bu sözü mənə dediyini bilib narahat oldum. Fikirləşdim ki, inandırıcı deyil. Başa düşürdüm ki, diviziya komandirimiz bizi həvəsləndirmək istəyir, amma orada bizim uşaqlarla birgə çəkdiyimiz əziyyətlərə qarşı haqsızlıq olunduğunu hiss edirdim. Soyuqdan titrəyən, amma dalğıc bölüyündə qalmaq eşqilə heç nədən şikayət etməyən uşaqların üzü gözlərim önündə idi. Fikirləşirdim ki, təlim zamanı imkan daxilində tələbkarlıq edib ağır məşqlər keçmişik, daha digər diviziyaları bizə misal çəkmək lazım deyil.

Şəxsi heyətə bir daha təkidlə tapşırdım ki, boğazdan keçərkən ehtiyatlı olsunlar və kolonun axırı adaya və ya sahilə dəyməsin. Arxayın olmaqdan ötrü Əhməd Bayrami ilə Mehdi Heydərini kolonun axırına qoydum və tapşırdım ki, kolonun yoldan yayındığını görsələr, əks-istiqamətə üzsünlər.

Hərəkət başlandı. Hamı yük və silahla manevrdə iştirak edirdi. Özüm də uşaqlarla birgə suya girdim və yola düşdük. Boğazdan altı bölük keçdi, amma adalara dəymədən keçən yeganə bölük bizimki oldu. Boğazı keçəndən sonra

özümü qayığa çatdırdım ki, uşaqların hərəkətinə fikir verim. Soyuq gücləndi. Qayıqda Rza Musaxani dedi: "Seyid Məhəmməd Fəqihin taqəti qalmayıb".

Yenidən suya girdim. Seyid Məhəmməd soyuqdan əsirdi. Onu qayığa mindirdim. Onun güclü titrəyişi qayığı da tərpədirdi. Danışmağa və hərəkət etməyə taqəti yox idi. Məndə də onu qızdırmağa bir şey yox idi. Qayığın küncündəki bir kisəyə ümidləndim. Kisəni onun üstünə çəkdim, amma əmin idim ki, özünə gəlməsi üçün saatlarla vaxt lazımdır. Fikirləşirdim ki, seyidi yenidən suya qaytarsam, daha yaxşı olar, çünki yandırıcı soyuq bayırda daha güclü idi. Hər halda, o, qayıqda qaldı və mən çətinlik çəkdiklərini hiss etdiyim uşaqlara kömək və bələdçilik etmək üçün yenidən suya girdim.

Estakadaya çatana qədər xüsusi bir problem yaranmadı. Uşaqlar sudan çıxan kimi, öncədən təlim keçdikləri kimi, dərhal irəliləməyə başladılar. Estakadaya çatan ikinci dəstə birincinin sol tərəfində yerləşdi. Beləliklə, hamı sahilə çatdı, üzgəcləri çıxarıb palçıq sahildə hərəkətə başladılar. Hərəkət o qədər sakit idi ki, şərti düşmən bizim ora çatdığımızı bilməmişdi. Mən partladıcı bölüyün uşaqları ilə gedirdim. Yol açıb istehkama qalxdıq. Kolon da arxamızca gəlirdi. Ləhcələrindən bildim ki, istehkamın arxasındakı şərti düşmənlər zəncanlı uşaqlardır. Onların biri mənim düz qabağımda idi, amma bizi görmürdü. Əlimlə palçıqdan bir güllə düzəldib üzünə vurdum. Dalğıcların istehkamdan keçdiklərini onda bildilər. Digər keşikçilər də fişəng açılana qədər uşaqların sudan keçdiklərini bilməmişdilər. Ondan sonra quruda hərəkət davam etdi və mən orada qalmağa ehtiyac görməyib bölüyə qayıtdım. Yağış hələ yağırdı. Qayıdanda bir neçə dəfə ayağım sürüşdü və yıxıldım. Hirsli və narahat idim: "Əgər hücum gecəsi yağış yağsa, necə olacaq?!"

Bölüyə çatan kimi hamamı qalayıb yuyundum və paltarlarımı yuyub sobanın yanından asdım. Paltarlarım bir-iki saata qədər tam quruyurdu və səhər rahat geyinə bilirdim. Lakin fikrim uşaqlarda qalmışdı. Onların hələ bir neçə saat da işləri vardı, qayıdandan sonra bədənlərini və paltarlarını həmin soyuq suda yuyacaqdılar. Çünki orada soba və digər imkanlar yox idi. Onlar paltarlarını qısa xurma ağaclarının üstünə sərəcəkdilər. O soyuqda paltarların səhərə qədər quruması imkansız idi. Uşaqların səhər yeməyindən sonra buzlu paltarlarını geyinib təlimə getdiklərini dəfələrlə görmüşdüm.

***

Səhər təlimimiz olmayacaqdı. Uşaqlara baş çəkib gecəki manevr haqda soruşmaq üçün yaxşı imkan vardı. Gödəkcəmi çiynimə atıb çəkmələrimi geyindim, əlimə təsbeh götürdüm və başıma papaq qoyub batalyonun qərargahına getdim. Əvvəlcə qardaş Sövdagərin çadırına getdim: "Vəziyyət necədir? Gecə haraya getdiniz?"

Söhbət qızışdı və bir-iki stəkan çay içdim. Uşaqların xahişi ilə ürəyimin xatirə dəftəri açıldı və uzun müddətdən sonra öncəki əməliyyatlar haqda danışmağa başladım. Oradan Rza Daruiyanın taqımına baş çəkdim, sonra da batalyon komandirinə. Hər bir çadıra gedəndə çay və xatirə məsələsi müxtəlif

formalarda təkrar olunurdu. Həmin gün bildim ki, uşaqlar atəş, təmizləmə və irəliləmə mərhələlərinin hamısında yaxşı çıxış etmişlər və heç bir problem yaranmamışdır. Uşaqların qüvvə və bacarıqlarının həm özlərinə, həm də diviziya başçılarına sübut olunduğuna görə sevindim.

***

Ertəsi gün səhər Karun çayında suyun səviyyəsinin artdığını hamı hiss etdi. Xəbər aldıq ki, ötən bir neçə gündə ölkənin qərbində güclü yağış yağmışdır. Cənubda özümüz də manevr gecəsi yağışa canlı şahid olmuşduq. Karunun səviyyəsi qalxmışdı və bənd salınmayan yerlərdə su yavaş-yavaş ətraf çöllərə axırdı.

Bizim yerləşdiyimiz kənd Karundan yuxarıda idi. Kəndə gedən yol suyun səviyyəsindən hündürdə idi, amma tədricən kəndin ətrafını da su basdı. Suyun kəndə də gələcəyini ehtimal edib bütün əşyalarımızı asfalt yola apardıq. Fikirləşirdik ki, belə davam etsə, batalyonların düşərgəsini də su basacaq və bir müddət təlim və məşqlərdən qurtulacağıq. Bəlkə bizi əvvəlki yerimizə, Rəsulabada da qaytaracaqlarını düşünürdük. Lakin tezliklə Əmin ağa gəldi və gətirdiyi xəbər bütün həvəsimizi məhv etdi: "Su düşərgəyə girməyib, yerlərinizə qayıdın!"

Suyun hücumundan qorunmuş yerlər yalnız batalyonların düşərgəsi, asfalt yol və bizim kəndimiz idi.

Batalyonların düşərgəsinə gedəndə gördüm ki, uşaqlar suyun irəlilədiyini görüb tikinti-mühəndis bölüyünü gözləmədən özləri bellə, boşqabla, kasa ilə, dəbilqə ilə - əllərinə keçən hər bir şeylə suyun önünə torpaqdan sədd çəkmişlər. Su o kustar səddin arxasında dayanmışdı.

Karunun bir hissəsində su daşqını bir gecə öncədən başlanmışdı və hətta yolun bir hissəsini də aparmışdı; belə ki hətta tikinti-mühəndis qrupu da o yoldan keçə bilməmişdi. Həmin gecə Əhəd Müqimi bir qrup uşaqla briqadanın SUV toyotasına minib batalyona gələrkən yolda suyun yaratdığı və heç kimin bilmədiyi bir çalaya düşmüşdü. Maşın orada qalmışdı, uşaqlar özlərini batalyona çatdırmışdılar. Əhəd maşının çalaya düşməsini elə maraqla danışırdı ki, təkrar eşitməkdən də həzz alırdıq. Əhəd Müqimi birinci briqadanın məsul şəxslərindən idi. Onunla görüşəndə zarafat hisslərimiz cuşa gəlirdi. Birinci briqadanın komandiri Mənsur İzzətinin, Əsğər Abbasquluzadənin və Həmid Allahyarinin olduğu yerdə təsadüfən, Əhəd də olsaydı, o, bizim uşaqlarımızın familiyalarını bilə-bilə qarışdırıb deyirdi: "Kərim Abbasquluzadəyə salam de. Əsğər Fəthi necədir? Seyid Məcid İzzəti haradadır?"

Təlim günlərində Əhəd Müqimi Behzad Pərvin Qüdslə qərargaha gəlib batalyon komandirləri ilə təlim keçirdi. Mən də qayıqla ətraflarına fırlanıb dalğa yaradırdım ki, daha çox su içsinlər və əziyyət çəksinlər.

***

Tezliklə suyun səviyyəsi endi. Karun çayının önündə torpaq bənd qurmaqdan ötrü bir D9 buldozeri gəldi. Lakin işinə yeni başlamışdı ki,

Karunun sahilində palçığa batdı. Onu heç bir yolla çıxara bilmədik. Sabaha qədər orada qaldı və daha çox palçığa batdı. Beləcə get-gedə bataqlığa batırdı və bir neçə gündən sonra yalnız dudkeşi bayırda qaldı.[1]

Briqadada keçirilən manevrdən sonra tez-tez əməliyyat iclasları keçirilirdi. Həbib batalyonunun komandirlərinin keçirdiyi iclasa batalyon komandiri qardaş Seyid Fatimi məni də dəvət etmişdi. İclasın mövzusu su-quru bölüyünə şəxsi heyət və komandir seçimi idi. Əmin idim ki, bu bölüyün tapşırığı digərlərindən ağır olacaq. Bu bölük kimə təklif olunurdusa, qəbul etmirdi. Çünki hamı ilk hücuma keçəcək dalğıc bölüyündə olmaq istəyirdi. Onlar heç bir vəzifələri olmasa da, dalğıc bölüyündə iştirak etmək istəyirdilər.

– Qardaş Sövdagər...

– Yox.

– Siz necə, qardaş Mütləq?

– Yox, ağa seyid, icazə verin dalğıc bölüyündə qalım.

İsrar çoxalanda inkar da güclənirdi. Dalğıc qüvvələrinin şəhadət ehtimalı olduqca böyük idi. Bölük komandirlərinin hamısı təcrübəli və qədim döyüşçülərdən idilər, hər biri çoxlu dostlarının şəhadət qəmi ilə yaşayırdı və birinci qüvvələrdən olmaq onlar üçün böyük bir imkan demək idi. Növbə Əsğər Əlipura çatdı. Təlim boyu onunla dəfələrlə danışmışdıq. Özü də bilirdi ki, soyuğa dözümü yoxdur, amma o iclasa qədər heç kim onunla bacarmamışdı. Çoxlu müzakirələrdən sonra qərara alındı ki, qardaş Əsğər Əlipur su-quru bölüyünün komandiri olsun. İclasda bir söz deyə bilmədi, lakin narahatlığından elə oradaca ağladı. İclas bitəndən sonra da daim onun üzündə dərin narahatlıq ifadələrini görürdüm.

Dərhal başqa bir iclas keçirildi. Bu dəfə taqım komandirlərinə qədər bütün məsul şəxslər iştirak edirdilər. Bölüklərə ezam olunmuş kəşfiyyatçılar da gəlmişdilər və hamı batalyon komandirinin çadırına toplaşmışdı. Qardaş Mənsur İzzətidən sonra qardaş Seyid Fatimi danışdı və sonda kəşfiyyat uşaqları bölgə barədə məlumat verdilər.

Həbib batalyonundan sonra Vəliəsr batalyonunun komandir çadırında da iclas keçirildi. Orada iki batalyonun bölük komandirləri, kəşfiyyat qüvvələri və diviziya komandiri iştirak edirdi. Əmin ağanın işarəsi ilə bölgəni öyrənmiş kəşfiyyatçılar xəritə vasitəsilə bölgə barədə məlumat verdilər. Növbə mənə çatanda suya girdiyimiz yerdən başladım, adalar, maneələr və səngərlər haqda məlumat verdim. Elə danışmağa çalışırdım ki, bütün uşaqlar bizim həmin bölgələri gözlərimizlə gördüyümüzə əmin olsunlar. Diviziya komandiri də bizə elə tapşırmışdı. Bilcaniyə sahili haqda inamla danışdım və xırdalıqlarına qədər geniş açıqlama verdim. Sözüm boğazın məftil torla bağlanmasına çatanda Əmin ağa əyilib qulağıma pıçıldadı: "Bunu demə, elə danış ki, uşaqlar ruhlansınlar". Mən də cəld səhifəni çevirdim.

[1] Sonralar eşitdim ki, həmin buldozeri yayda Neft şirkətinin 90 tonluq kranı ilə çıxarmışlar.

– Allaha şükür ki, deyilənlərdən əlavə yolda xüsusi bir problem yoxdur və inşallah, boğazı keçəndən sonra hədəfə çatacağıq.

İclasda əməliyyat mərhələlərindən heç biri haqda sual və şübhə olmasa da, mən o boğazın bağlanmasından narahat idim. Durbinlə boğaza nəzarət edir, bəzən qabarma zamanı günəş işığında parlayan məftilləri görürdük. Fikirləşirdik ki, güclü kəlbətinlə məsələni həll edə bilərik. Gedəndə maneə ilə rastlaşmaq ehtimalı yox idi, çünki qabarma zamanı oradan keçəcəkdik. Lakin hər halda, ağılla hərəkət etməli və bir faiz təhlükə ehtimalını da ciddiyə almalıydıq. Bilirdik ki, selə və yağıntıya görə bizim kəşfiyyata getdiyimiz zaman suyun səviyyəsi həddən artıq yüksək olmuşdu. Əməliyyat başlayana qədər müxtəlif səbəblərdən suyun səviyyəsi enə də bilərdi.

Son açıqlamadan sonra başqa bir iclas keçirilmədi. Taqım, bölük və batalyon komandirləri bəzən manevr planları təqdim edirdilər. Briqada və diviziya komandirlərinin müəyyən dəyişikliklərindən sonra uşaqların hazırlığını artırmaq üçün bu manevrlər icra olunurdu.

Təlimlər taqım komandirlərinin rəhbərliyi altında davam edirdi və kəşfiyyatçılar yavaş-yavaş Rəsulabada köçməyə hazırlaşırdılar.

***

Bir bölgədə iş bitəndə və başqa bir yerə getmək tapşırılanda tərk etdiyim bölgənin xatirələri gözlərim önündə canlanırdı: Rza Daruiyan bir zorxana düzəltmişdi və hər gün sübh namazından sonra qədim idmanla məşğul olmaq üçün hamı oraya toplaşırdı; uşaqlar bir çala düzəltmişdilər və yalnız qoçaqlar oraya girə bilirdilər. Zəncanlılar da özlərinə bir zorxana təşkil etmişdilər. Onların biri bir qazana vurub zorxana şeirləri oxuyurdu, digərləri də təkrar edirdilər.

Kəşfiyyat bölüyünün futbol yarışı tətil olmurdu. Qoz qutularına hücuma keçməkdə Məhəmməd Purnəcəflə mən ustad olmuşduq. Balla və digər enerjili qida maddələri ilə bölüyə verilən qoz ləpəsi bizi həvəsləndirirdi. Cibimiz həmişə qoz ləpəsi ilə dolu olurdu, gördüyümüz hər kəsi ona qonaq edirdik.

Camaat namazlarından sonra batalyonlarda dua və əza məclisləri keçirilirdi. Həsən Kərbəlayi olanda mütləq əza dəstəsinin qabağında gedirdi. Həsən Vəkilzadə, Məhəmməd Muxtari[1] və bölükdə heç vaxt əzadarlıq imkanı olmayan bizlər harada belə məclislərin keçirildiyini eşidirdiksə, oraya gedirdik.

III

Rəsulabada köçdük və yenə kəşfiyyat bölüyü üçün Bəhmənşir və Karun çaylarında təlim məşqləri başlandı. Əməliyyatın zamanı bəlli deyildi. Bu müddətdə bekar qalmamaq və bədənimizin soyuq suya adət etməsi üçün belə təlimlər zəruri idi.

[1] Onların hər ikisi Kərbəla-5 əməliyyatında şəhadət məqamına nail oldular.

Həmin günlərdə yeni düzəldilmiş müşahidə postundan düşmən bölgəsinə baxmaq məsələsi qarşıya çıxdı. Post böyük və kvadrat idi. Aşağısı enli idi, yuxarı qalxdıqca eni azalırdı və ən yuxarıda 2-3 nəfərə yetəcək kiçik bir otağa çevrilirdi. Onun heç bir dayağı yox idi, külək əsəndə tərpənirdi. Yuxarı qalxmaq üçün nərdivan da yox idi, uşaqlar ayaqlarını şuruplara qoyub qalxırdılar.

Çıxdığım ilk dəfədə anladım ki, davamlı dalğıc təlimlərinə baxmayaraq, ora qalxmaq üçün hələ yetərli gücüm yoxdur. Küləkdən əlavə, bəzi yerlərdə şurupun olmaması da yıxılma ehtimalını gücləndirirdi. Hər dəfə külək əsəndə yerlə-göy arasında asılı qaldığımı və postla birgə yıxılacağımı hiss edirdim.

Yıxılanda parça-parça olmaq həyəcanı ilə 75 metr hündürlüyü olan və tərpənən bir şeyin üstünə çıxmaq Ərvənd çayında üzmək qədər çətin idi. Bu qədər qorxu və çətinlikdən sonra növbə bölgəni öyrənməyə çatırdı. İnsaf naminə deyim, post elə qurulmuşdu ki, Xürrəmşəhri, Ərvənd çayını, Ümm əl-rəsası, Bəvarini, Ümm əl-babı, Şələmçəni və hətta Bəsrəni də görmək və bütün bölgəni yaxşı müşahidə etmək olurdu.

Ertəsi gün yorğunluq və ayaqlarımın zoqqultusu taqətimi çəkdi. Sanki 3000 metrlik bir dağa çıxmışdım. Üç dəfə ora çıxdım və hər dəfəsində belə oldu. Uşaqların bir neçəsi onun xüsusi növbətçiləri idilər, tez-tez çıxıb-düşdüklərinə görə bu iş onlara adiləşmişdi.

***

Dekabrın sonları idi və bölgədə əməliyyat ətri duyulurdu. Keçmiş əməliyyatlarda olduğu kimi, bölüyün rəhbərləri uşaqların səs və görüntülərini qeyd etmək fikrinə düşdülər. Kərim Fəthi bölüyün operatoruna tapşırmışdı ki, bir-bir uşaqların şəklini çəksin. Bu tapşırıq işin incəliyini artırırdı. Uşaqlar kameradan qaçdıqca operatorun hünəri və komandirlərin uşaqları müsahibəyə cəlbetmə səyləri də çoxalırdı. Uşaqların halını anlayır və onların könülsüz kamera önündə dayandıqlarını bilirdim. Əmin idim ki, bir neçə gündən sonra onların bəzisi aramızdan gedəcəklər. Buna görə də, hansı yolla olursa-olsun, hamını müsahibəyə razılaşdırmağa çalışırdım.

Uşaqların könülsüzlüyü və operatorun israrı işi uzatdı, amma nəticədə, Kərbəla-4 əməliyyatından öncə bütün kəşfiyyatçıların görüntüsü lentə köçürüldü. Suallar eyni idi: "Hizbullahçı ümmətə hansı mesajınız var? Əməliyyat haqda hisslәriniz necədir?.." Bəzi uşaqlar zirəklik edib qısa cavablarla canlarını qurtarırdılar.

– Uşaqlar, əməliyyat yaxınlaşır, hansı hissləri keçirirsiniz?

– Xüsusi bir hiss keçirmirəm.

– Döyüşçülərin ruh yüksəkliyi hansı səviyyədədir?

– Onların özlərindən soruşun.

Təvazökarlıq və məşhurlaşmadan qaçmaq cəbhələrin bəhrəsi idi. Dəfələrlə görmüşdük ki, əzadarlıq zamanı kamera gələndə mərasim soyuyurdu. İxlaslı uşaqlar batalyonda və ya bölükdə onlardan danışılacağını görəndə tez oradan

uzaqlaşmağa çalışırdılar. Rza Daruiyan belələrindən idi. O, Seyyidüş-şühəda batalyonuna, sonra Qasim, sonra Əli Əsğər, həmin günlərdə də Həbib batalyonuna getmişdi. Hamı bilirdi ki, o, bir yerdə qərar tutmur.

Batalyonlara bələdçilik etmək üçün kəşfiyyatçılar arasında bölgü aparıldı. Həmişə olduğu kimi, uşaqların bir qismi əməliyyatın ilk mərhələsində iştirak etməkdən məhrum oldular. Əməliyyatdan iki-üç gün öncə bəziləri nə mövqe yaran qüvvələrdə, nə də əməliyyatın davamında onlara bir tapşırıq verilmədiyini biləndə başqa cür olurdular. Qəlbləri sınırdı və bu, onların bütün hərəkətlərindən bilinirdi. Biz təcrübədən bilirdik ki, əməliyyatlarda iştirak edənlərdən çox onlar şəhadətə qovuşurlar.

***

Kənddə palçıq bir ev bölüyümüzün namazxanası olmuşdu. Bir qədər aralıda sarı kərpicləri ilə seçilən mətbəx yerləşirdi. Onun önündən Karuna birləşən kanal keçirdi. Kanalın üstündə körpü vardı və körpünün o tərəfində uşaqların kazarması yerləşirdi. Qərargaha gedən yol məscid tərəfdən idi. Çox da böyük olmayan bu ərazi həmin gün Seyyidüş-şühəda dostlarının vida meydanına dönmüşdü. Bir döyüşçü qolunu dostunun boynuna salıb onu bir tərəfə aparır və bir neçə ay öncə ona dediyi "sənə nə?!" sözünə görə halallıq istəyir, bağışlamasını xahiş edirdi. Orada Allahın razılığı olmayan hər bir şey günah idi. Qəribə idi ki, uşaqlar bütün söz və əməllərini diqqətlə yadda saxlamışdılar. Bəzən qarşı tərəf incikliyi xatırlamırdı, lakin bütün haqq-hesablarını təmizləyib getmək istəyən dostunun yaşlı gözləri önündə onu sakitləşdirmək üçün "nə olubsa, halal edirəm, sən də mənə şəfaət edərsən" deməkdən başqa çarəsi qalmırdı. Tək-tük bəzi uşaqların bu işlərlə arası yox idi, hər bir fürsətdən istifadə edib zarafatlaşır, uşaqları ələ salırdılar. Məhəmməd Purnəcəf, Rəsul Səidi və mən belələrindən idik.

O zaman bizə batalyonun komandir heyətini Ərvəndin sahilinə aparmaq tapşırıldı. Şəxsi heyət hücumdan öncə bu məqsədlə hazırlanmış istehkamın arxasında istirahət edəcəkdi və biz komandirləri həmin yerlə və hücum nöqtəsi ilə tanış etməli idik.

Həbib batalyonunun komandirlərini aparmaq mənə tapşırıldı. Qaranlıq gecə idi. Yeni yola düşmüşdük ki, Rəhim Sarimi dedi: "Sən səhv gedirsən".

Qədim dostluğumuza görə məni ələ saldığını bilirdim.

– Əşi, məndən əl çək, bilirəm ki, sən şah dövründən burada olmusan və hər yeri tanıyırsan.[1]

Rəhim sözündən dönmürdü. Sınıq körpüyə çatanda adət üzrə çıraqları söndürdük. Çalışırdıq ki, maşınlar düşmənin diqqətini cəlb etməsin. Hətta əyləc işığının üstünə də palçıq sürtmüşdük. Təmas xəttində duranlara da təkidlə tapşırılırdı ki, əsla siqaret çəkməsinlər. Bu səbəbdən bəzən müxtəlif

[1] Cəbhə zarafatlarından biri bu idi: Kim özünün çoxdan cəbhədə olduğunu bildirən bir söz desəydi, deyirdilər: "Bəli, sən şah dövründən cəbhədə olmusan!"

səbəblərdən orada get-gəl edən maşınlar yolu azır və ya hansısa bərbad yolda ilişib qalırdılar.

Hər halda, o şəraitdə və qaranlıqda irəliləmək kifayət qədər çətin idi. Bundan əlavə, Rəhim Sarimi də dayanmadan deyirdi: "Sən səhv gedirsən, mən bilirəm".

Bir müddətdən sonra bölgənin qəribəliyi məni şübhəyə saldı. Getdiyimiz yolun bir hissəsini geri qayıtdıq və məktəbə çatanda yolun bir hissəsini səhv getdiyimizi bildim.

Məktəbin önündə bir-birinin üstünə yığılmış üç cərgə kisə vardı. Bizim son mövqeyimiz ora idi. Oradan yavaşca keçib suyun kənarı ilə irəlilədik. Dalğıclar orada dayanıb əmri gözləyəcək, sonra suya girəcəkdilər. İclaslarda dəfələrlə komandirlərə və şəxsi heyətə bölgənin vəziyyəti, düşmən xətti ilə məsafəmizin azlığı barədə bildirmişdik. Çalışırdıq ki, onlar daha ehtiyatlı olsunlar. Lakin o qədər təkid və tövsiyələrə baxmayaraq, uşaqlar buna inanmırdılar və elə bilirdilər ki, bəzi sözləri özümüzdən çıxarırıq. Həmin gecə iraqlıların öskürək səsi gəlirdi, ucadan danışanda sözləri aydın eşidilirdi. Əsğər ağa ilə kəşfiyyata gedib mövqelərimizin düşmənə yaxınlığını görəndən sonra bəzi təlimləri proqrama salmışdıq: suya ehtiyatla girmək, qolların səsi gəlmədən hərəkət etmək, ən kiçik səs və dalğa yaratmadan başı suda tərpətmək.

İlk hücumçu batalyonlardan olan Həbib batalyonunun komandirləri həmin gecə təlimlərin vacibliyini yaxından dərk etdilər. Onların təklifi ilə qərara gəldik ki, dalğıcların suya girdiyi yeri kanal kimi qazaq və uşaqlar suya girəndə həmin kanalın içindən sakitcə girsinlər.

Komandirləri hücum zonası ilə tanış edəndən sonra bölüyə qayıtdıq. Ertəsi gün komandirlər gördüklərini şəxsi heyətə çatdırdılar və biz də əməliyyatın ilk mərhələsini tənzimləmək üçün bir yerə toplaşdıq. Bölgənin olduqca həssaslığına görə qərargahda irəli sürülən və həll yolları göstərilən müxtəlif ehtimalları müzakirə etdik.

– Diviziyamızın sol və sağ cinahları hansılardır?

– Cinahlar harada və necə birləşəcəklər?

– Ərvənd çayının müxtəlif axınlarına qarşı nə etməliyik?

– Əgər uşaqlar suya girməzdən öncə düşmən duyuq düşsə və atışma başlansa, vəzifəmiz nədir?

– Əgər suya girəndən sonra və ya dalğıclar suda olanda atışma başlansa, nə etməliyik?..

Bütün bu ehtimallar irəli sürülürdü və hər birinin özünəməxsus tapşırığı vardı. Bütün belə zəruri hallarda qərar qəbul etmək kəşfiyyatçıların üzərinə düşürdü. Yadımdadır, bölgəni tam nəzərə alandan, hərəkət problemlərini görəndən, düşmənin sayıqlığını biləndən sonra bütün bu məsələləri yan-yana qoyub belə nəticəyə gəldik ki, bu bölgədə əməliyyatı davam etdirmək imkansızdır və bütün uşaqların şəhidliyi ilə nəticələnə bilər. Bu narahatlıqlar

daha yüksək komandirlərə məruzə olundu, onlar da bəzi hazırlıqlar gördülər, amma qaneedici olmadı. Bu barədə İbrahim Əsğəri ilə danışdıq, əməliyyat vəziyyətini ölçüb təhlil etdik. Nəhayət, İbrahim bir cümlə ilə narahatlığımıza son qoydu. O, dedi: "Mehdi, bu gün bizim vəzifəmiz şəhadətdir və bu əməliyyat şəhadət əməliyyatıdır!"

***

Hərəkət zamanı gəldi: 23.12.1986. Kanalın üstündəki körpünün ətrafında Həbib batalyonuna bir yer ayrılmışdı. Şəxsi heyət hündür bir istehkamın arxasına toplaşdı və gecə vaxtı biz də onlara qatıldıq. Mən istehkamda Həsən Kərbəlayinin və Məhəmməd Sövdagərin yanında uzanıb göyə baxırdım. Həmin gecə fişənglərin işığı ulduzları görməyə imkan vermirdi.

Səma fişənglərlə dolub-boşalırdı. Səmaya baxan hər kəs ixtiyarsız olaraq, əməliyyat barədə şübhəyə düşürdü. Ötən bir ay boyunca uşaqlar hər gecə fişənglərin sayını qeyd etmişdilər və nəticə dəhşətli idi. Əgər bizim gəldiyimiz birinci gün heç bir fişəng atılmırdısa, əməliyyat gecəsi axşamdan səhərə qədər üç yüzdən artıq fişəng yeri-göyü işıqlandırırdı.

Əməliyyata üç qərargah rəhbərlik edirdi və Aşura diviziyası Kərbəla qərargahının tabeliyində idi. İlk mərhələdə əməliyyatın məqsədi Bəsrə ilə Ümm əl-bihar arasındakı əsas yolu tutmaq idi. Bundan ötrü ilk hücumda bənddən yola qədər ərazini ələ keçirməli idik. İkinci mərhələdə əməliyyat iki hissəyə bölünürdü: biri Ümm əl-qəsrə gedirdi, digəri Bəsrəyə. Xor-Ümm əl-qəsr körfəz suyunun oraya qədər irəlilədiyinə görə göydən çəkilmiş fotolarda çoxlu budaqları olan ağaclara bənzəyirdi. Buna əsasən, şəxsi heyət oraya çatıb yerləşə bilsəydi, sözügedən təbii formasına görə yaxşı müdafiə imkanı yaranardı və bizimkilər ondan səmərəli istifadə edə bilərdilər.

Ümumilikdə, əməliyyatın məqsədi Ərvəndin o tərəfini ələ keçirmək və Bəsrə şəhərini təhlükəyə salmaq idi. Bəsrə əməliyyatın mühüm və böyük məqsədi idi. Bir tərəfdən, əməliyyatın həcmi və genişliyi, digər tərəfdən də düşmənin hazırlığını göstərən əlamətlər bu əməliyyatın daha çox hərbi riskə çevrilməsinə səbəb olmuşdu. Uğursuz çıxış etdikdə biz bölgə itirməyəcəkdik, amma uğurlu alınsaydı, mühüm və dəyərli bölgələri ələ keçirib düşmənin varlığını sual altına sala bilərdik.[1]

***

Əməliyyat gününün səhər çağında məsciddə süfrə açıldı və hamımız birgə səhər yeməyini yedik. Süfrəni yığışdırandan sonra bölüyün komandiri qardaş Kərim Fəthi söhbətə başladı. Mövzu kəşfiyyatçıların əməliyyatda vəzifələri haqda idi. Əsas məsələlər təxminən bütün əməliyyatlarda deyilənlər idi, yalnız hər bir əməliyyatın iqlim şəraitinə, hərbi və siyasi durumuna görə bəzi əlavələr

[1] Klassik əməliyyatlarda düşmən bölgəsində məhdud əməliyyatlar həyata keçirilir və bununla düşmənin zəif nöqtələri üzə çıxır. Kərbəla-4 əməliyyatı da növbəti əməliyyat üçün belə bir hazırlıq idi. Belə ki Kərbəla-5 əməliyyatı Şələmçə və Beşbucaq bölgəsindən baş tutdu və düşmənin həmin bölgələrdə hərbi zəifliyi Kərbəla-4 əməliyyatında üzə çıxmışdı.

olurdu. O, şəhadətdən, müqavimətdən və fədakarlıqdan danışıb deyirdi ki, bu gecə bizə haqqını halal etməmiş heç kim suya girməsin, çünki bu əməliyyat şəhadət əməliyyatıdır və bölüyün uşaqları kəşfiyyat zamanı bunu hamıdan çox dərk ediblər.

Söhbətlər bitmişdi, amma hələ məsciddə, bayırda və digər yerlərdə görüşüb-öpüşmə, vidalaşma davam edirdi. Operator kamerasını çiyninə qoyub yaşlı gözləri ilə uşaqların arasında gəzir, onların ayrılıq anlarını qeyd edirdi. Gedənlərin göz yaşları sevinc təbəssümünə qarışmışdı. Qisməti qalmaq olanların göz yaşları isə narahatlıqdan və həsrətdən xəbər verirdi. Hamımız bilirdik ki, bu dəfə şəhadət imkanı bütün Ərvənd qədərdir; yəni suya girəndən düşmən mövqelərinin dərinliyinə çatana qədər.

O günə qədər bütün əməliyyatlarda bölüyün ümumi siyasəti belə idi ki, kəşfiyyatçılar əməliyyatın növbəti mərhələləri həyata keçirilən daha üç gün üçün bölünürdülər. Bütün uşaqlar bilirdilər ki, məqsəd yalnız ilk mövqeyi ələ keçirmək deyil, əslində, irəliləyib mərhələ-mərhələ bütün hədəfləri tutmaqdır. Lakin Kərbəla-4 əməliyyatında bölgənin xüsusi vəziyyəti və əməliyyatın mövqeyi hamını inandırmışdı ki, Ərvəndə ayaq basan hər kəs böyük ehtimalla elə orada da qalacaq. Dalğıc bölüklərində də dəfələrlə deyilmişdi ki, kimin şəhadətə hazırlığı varsa, qalsın, kim özündə bir qədər inamsızlıq, qorxu və tərəddüd hiss edirsə, bu bölüklərlə gəlməsin; çünki suya girəndən sonra qayıdış təxminən qeyri-mümkün olacaq.

Bölükdə qalan uşaqların göz yaşları dayanmırdı. Biz onları görməyə dözə bilmirdik. Sürücüyə dedik ki, tez yola düşsün. Maşın hərəkətə başladı və uşaqlar ən əziz adamları kimi bizi yaşlı gözlərlə yola saldılar. Maşının sürəti artdı, küləyin səsi və yolun toz-torpağı bizi onların gözündən itirdi.

Maşın batalyonların toplaşdığı istehkamın yanında dayandı. Yerə enib şəxsi heyətin hazırlaşmasını və təyin olunmuş vaxtda hər kəsin öz batalyonuna və bölüyünə getməsini gözlədik.

Uşaqların arasında müxtəlif hallar görünürdü: bəziləri təkliyə çəkilir, bəziləri bir yerə yığışıb dünyəvi haqq-hesablarını bağlayırdılar. Halallıq və şəfaət istəkləri hamının dilinin əzbəri idi. Bizim vəzifəmiz ağır olduğuna görə yenə toplaşıb düşmənin mövqeyi, canlı qüvvəmizin vəziyyəti, bələdçilik, suyun durumu və digər məsələlər haqda danışmağa başladıq. Bu məsələlər barədə dəfələrlə fikir mübadiləsi aparmışdıq və hər dəfə deyirdik ki, filan məsələ barədə son dəfə danışırıq. Lakin yenə qane olmur, düşünürdük ki, çıxış yolları tapmaq, bir-birimizin təcrübə və təkliflərindən istifadə etmək belə qeyri-rəsmi iclaslarda mümkün olur. Diviziyanın bəzi məsul şəxsləri bizim orada oturduğumuzu öyrənəndə yaxınlaşıb son dəfə halallıq istəyir və sağollaşırdılar. Rəhmətullah Ovhani də gəldi. Bölüyün uşaqları onu çox sevirdilər. Onun uşaqların yanından sakit və zarafatsız keçməsi mümkün deyildi, lakin həmin gün orada başqa halda idi.

Məni bərk qucaqlayıb dedi: "Haqqını halal et, Mehdiqulu".

– Sən halal et, sən yüz faiz şəhid olacaqsan. Bizi bağışla, sənə çox əziyyət vermişik.

Üzü kədərli, gözləri yaşlı idi. Bölüyün operatoru qardaşların nurlu üzlərini son dəfə lentə köçürürdü. Həmid Allahyari, Məcid Məhəmmədzadə, Kərim Ahənc, Hüseyn Yusifi və Əlirza Şairi də müsahibə verənlərdən idilər.

Hərəkət zamanı idi. Batalyonların toplaşdığı istehkama sarı yola düşdük. Günortadan sonra saat 4 idi, kəşfiyyatçıların tapşırıq yerlərinə getmələrinin vaxtı çatmışdı. Sağollaşdıq və mən əşyalarımı götürmək üçün Həbib batalyonunun komandirlərinin yanına qayıtdım. Dalğıc geyimimi götürdüm və geyinməzdən öncə uşaqlara da geyinmələrini söylədim. İstehkam boyu gəzib kanalın ətrafında oturmuş uşaqlara deyirdim ki, səngərlərinə gedib dalğıc geyimlərini geyinsinlər. Düşmən yenidən raket hücumuna keçə bilərdi və o şəraitdə ehtiyatı əldən verməmək birinci qayda idi.

Artıq neçənci dəfə idi ki, istehkamın uzununa gəzib uşaqlara geyinmələrini və kanala sığınmalarını tapşırırdım. Gördüklərim gözəl idi: heç kim dəstəmaz almadan paltarını geyinmirdi. Uşaqlar bəlkə də kəfənləri olacaq paltara yaxşı hörmət edirdilər. Üzlər sakit və təbəssümlü idi. Saat 5 oldu və qürub yaxınlaşdı. Birdən gözüm batalyonun partladıcısı olan Mustafa Fəxr Zakiriyə sataşdı. Oturub çox dərin fikrə getmişdi.

– Mustafa, qalx, paltarını geyin. Vaxt azdır.

Ayağa qalxıb mənə baxdı. Üzündə qəribə təravət vardı. Gülərüzlə paltarını götürüb geyinmək üçün oradan uzaqlaşdı. Mən də yoluma davam etdim, lakin çox uzaqlaşmamış yaxınlığımda bir partlayış səsinə diksindim. Bir dəqiqədən sonra uşaqların bir nəfəri gətirdiklərini gördüm. Hələ dalğıc paltarını geyinməmiş bir döyüşçü qana boyanmışdı. Yanımdan keçəndə isə yerimdə quruyub qaldım. Mustafa şəhid olmuşdu. Onun təbəssümlə getdiyi yer şəhadət məkanı olmuşdu. Mustafadan əlavə iki-üç nəfər də həmin raketin qəlpələri ilə yaralanmışdı.

Buna çox üzüldüm. Mustafa Fəxr Zakiri mənimlə gedəcək partladıcı idi. Tez onun yerinə başqa birini tapmaq lazım idi. Orada qalmadım, uşaqların yanına gedib dedim: "Uşaqlar, iplərinizi hazırlayın".

Bunu deyib Həbib batalyonunun komandiri qardaş Seyid Fatiminin səngərinə getdim. O, diviziya komandirinin yanından yeni qayıtmışdı və hələ dalğıc paltarını geyinməmişdi. Məni görüb dedi: "Ağa Mehdi, mən əməliyyat qərargahından gəlirəm, necə hərəkət etməyimiz və əməliyyatın üstü açılmışsa, nə edəcəyimiz haqda bir nəticə əldə edə bilmədim. Sən get, Əmin ağa ilə danış və bu bizim son söhbətimiz olsun".

Eşitmişdim ki, uşaqlar onun əməliyyatda iştirakına mane olmaq və onu şəxsi heyətlə arxadan ratsiya ilə əlaqə saxlamağa məcbur etmək məqsədilə paltarlarını gizlətmişdilər. Seyid Fatimi narahat idi. Mən oradan çıxıb diviziya komandirinin yanına getmək istəyəndə qardaşı Seyid Yunusa belə dedi: "Sən

paltarını çıxar, mən geyinim. Mənim paltarımı tapsan, geyinib gələrsən, tapmasan..."

Əməliyyat qərargahına çatıb səngərə girdim. Qardaş Əmin çoxlu ratsiyaların yanında oturmuşdu. Uşaqların vəziyyətini soruşdu. Dedim ki, hərəkətə hazır vəziyyətdədirlər.

– Allah sizinlə olsun!

– Qardaş Əmin...

Bunu deyəndə Əmin ağa oraya sualsız gəlmədiyimi bildi. Sözümə davam etdim: "Suya girəndə döyüş başlasa, nə edək".

– Bayıra çıxın, hərəkəti saxlayın.

– Əgər suyun ortasında döyüş başlasa, nə edək?

– Onda özünüzü ən yaxın sahilə çatdırın. Əgər Ümm əl-rəsasa yaxın olsanız, oraya gedin; Bəvarinə yaxın olsanız, oraya gedin; öz mövqelərimizə yaxın olsanız, tez qayıdın.

Bu izahlardan sonra daha qaranlıq bir şey qalmadı. Çıxmaq istəyəndə qardaş Şəriəti dedi: "Hərəkət bir saat təxirə düşdü".

– Nə üçün?

– Güman ki əməliyyatın vaxtı bilinib.

Oradan çıxanda qəribə həyəcanım vardı. Artıq əmin idim ki, yalnız əməliyyatın olacağı yox, hətta başlanma saatı da bilinib, casuslar ən dəqiq məlumatları da düşmənə çatdırıblar və biz hər bir hazırlığını görüb bizi gözləyən düşmənə hücum edəcəkdik.

Bütün diviziyadan suya ilk girən kolon mənim apardığım kolon idi: Həbib batalyonundan qardaş Sövdagərin bölüyü.

Hava yavaş-yavaş qaralmaqda idi. Hərəkət vaxtı çatmışdı. Uşaqları tez hazırladım. Əməliyyatdan öncəki son anlarda qəribə hadisələr baş verib beynimi məşğul edirdi. Kolon hazır olanda dedilər ki, ip qırılıb və bəzi uşaqlar çaş-baş qalıblar. Tez göstərdikləri tərəfə qaçdım, oturub ipin qırılmış tərəflərini bir-birinə bağladım.

– Cəld hərəkət edin.

İpi bağlayanda üzgəclərimi orada unudub şəxsi heyətlə yola düşdüm. Çalışırdım ki, kolon təlimdə öyrəndikləri kimi yavaşca və səssiz hərəkət etsin. Bundan ötrü çox əziyyət çəkmişdik və artıq bəhrəsini görürdük. Kanala girib məktəb tərəfdən çıxdıq, axırıncı dayanacağımıza sarı yola düşdük. Keçdiyimiz yer müxtəlif partlayışlardan yanmış qamışlıq idi. Hər tərəf tikanlı məftillə dolu idi; yanmış qamışlarla birgə uşaqların ayaqlarını yaralayırdılar. Ərvəndin öz mövqelərimizə aid sahilində adi kanal formasında bir çökək vardı. Biz onun içi ilə hərəkət edib suya çatdıq. Uşaqları kanalın içində uzandırdıq ki, atəş başlasa, itkimiz az olsun. Diviziyanın əməliyyat qərargahı ilə razılaşdığımız bir nəfər bizim keçiddə idi və tez-tez məndən soruşurdu: “Nə üçün yola düşmürsünüz?"

– Qərargahın əmrini gözləyirik. Gərək əvvəlcə əmr verilsin, sonra hərəkət başlansın.

Onu və digər uşaqları sakit saxlamağa çalışırdım, amma daxilimdə tufan idi. Üzgəclərimin olmadığını yeni öyrənmişdim. Ətrafımdakı uşaqlardan soruşdum, heç kimin xəbəri yox idi. Yanımdakı kəşfiyyatçı Mehdi Heydəriyə[1] dedim: "Sən üzgəclərini mənə ver, özünə üzgəc tap". Çox narahat olsa da, bir söz demədən üzgəclərini mənə verdi və özünə üzgəc tapmaq üçün ayağa qalxdı. Elə o anda tanış bir səs eşitdim: "Mehdiqulu! Mehdiqulu!"

Əli Hacıbabayi idi. Bizə çatanda əlində bir cüt üzgəc gördüm. Məndən çox Mehdi Heydəri sevindi.

- Gələndə bunları yerdə gördüm, sənin üzgəclərinə oxşayır.

Üzgəclərimi geyinib arxayınlaşdım. Uşaqların hamısı bizə baxırdı. Mən də onlara son dəfə baxıb yavaşca suya girdim. Səs çıxmadı. Orada dayanıb uşaqların girməsini gözlədim. Əhməd Bayrami yanımda idi. Yavaşca ona dedim: "Əhməd, sən öndən yola düş və qabaqdakı örtüyün altında bizi gözlə".

Ərvəndin sahilindəki qamış örtüyü uşaqların düşməndən gizlənməsi üçün yaxşı maneə idi. Hələ hücum anına qədər vaxtımız vardı. Fikirləşirdim ki, bu müddətdə qamışlığın içində olsaq, düşmən fişəng atsa da, görünməyəcəyik.

Bütün şəxsi heyət bir-bir sakitcə və vüqarla suya girdi. Rza Daruiyan və Seyid Fatimi uşaqlara suya girməyə kömək edirdilər. Bizimlə paralel olaraq, Həbib batalyonunun digər bölüyü də suya girmişdi və irəliləyirdi. Hər iki bölük birgə hərəkət etməli idi.

Bir neçə dəqiqədən sonra Həbib batalyonunun şəxsi heyəti düşmənin diqqətini çəkmədən suya girmişdi. Hamımız hərəkət etmək üçün batalyon komandirinin əmrini gözləyirdik. Qardaş Sövdagərlə mən kolonun önündə idik. Əhmədi tez-tez qardaş Seyid Fatiminin yanına göndərirdim ki, hərəkətə icazə verilib-verilmədiyini öyrənsin. Əhməd bir neçə dəfə "yox" cavabı ilə gəldi. Biz Ərvənd çayında qamışlığın içində gözləyirdik. Hava tam qaralmışdı. Suyun soyuqluğu da yavaş-yavaş hiss olunurdu. Lakin soyuqluq şəhadət əməliyyatı zamanı şəxsi heyətin yüksək əhval-ruhiyyəsinə təsir edə bilməzdi.

Bölük komandiri qardaş Sövdagərlə danışıb son dəfə lazımi məsələlərə aydınlıq gətirirdik. Dalğıc taqımlarının birinin komandiri qardaş Fərəc Quluzadə də arxamızda idi və bizi dinləyirdi. Ara-sıra atılan və suyun üzünü işıqlandıran fişənglər məni narahat edirdi: "Birdən uşaqlar görünərlər və əməliyyatın üstü açılar". Fikirləşirdim ki, az əməliyyatda belə hisslər keçirmişəm. Bu dəfə vəziyyət başqa cür idi. Bir tərəfdən, əməliyyat çətin idi, bir tərəfdən də düşmən hazır idi və böyük ehtimalla əməliyyatdan xəbər tutmuşdu. Lakin qara paltarlı dalğıcların nurlu çöhrələrinə baxanda bütün çətinliklər asanlaşırdı.

[1] O, təxminən iki həftə sonra Kərbəla-5 əməliyyatında şəhid oldu.

Bizdən az sonra İmam Rza (ə) briqadasının uşaqları suya girməyə başladılar. Onların səs-küyünü eşidib yerimdə qurudum. Biri deyirdi: "Rza, getdin?! Haqqını halal elə". Səs mənə elə aydın çatırdısa, yüz faiz düşmən də eşidirdi.

Tez Sövdagərə dedim: "Ağa Məhəmməd, get, onlara de, səs salmasınlar".

O, getdi. Onun səsini eşitmədim, amma verilən cavabı aydın eşitdim.

"Qəribədir! Bunlar nə üçün məsələni anlamırlar?!" Bunu ürəyimdə dedim və nə edəcəyimi bilmirdim. Sövdagər gəlib dedi: "Sözümə qulaq asmırlar".

Narahat halda dedim: "Eybi yox, indi bəlli olar!"

Bir neçə nəfərin səs-küyü bütün istiqamətin işinin üstünü açа bilərdi; hələ üstəlik, düşmən hiss etmişdi və hazır idi. Gözümü suya dikib "hərəkət edin" əmrini gözləyirdim ki, birdən suyun üzündəkini görüb yerimdə dondum.

– Bu təpə nədir belə?

– Bəh-bəh! Bizə dedilər başınızı da suya yaxınlaşdırın, bunlar isə piyada körpüsündən silah daşıyırlar!

Diviziyalardan birinin dalğıc kolonu piyada körpüsünün üzərinə silah-sursat qoymuşdu və bir neçə nəfər onu itələyirdi. Əmin idim ki, düşmənlər də bunu görmüşlər. Bu narahatlıq çox çəkmədi. Çünki düşmən təyyarələri bir anda üzüm salxımı kimi yayılıb bütün bölgəni təxminən yeddi dəqiqə işıqlandıran fişənglər atdılar və bütün səma işıqlandı. Bununla eyni zamanda iraqlıların atəşi başlandı. Bizim sahilimizə doğru ağır atəş yağışı yağmağa başladı. Allaha şükür edirdim ki, bizim uşaqlarımız qamışlıqdadırlar və düşmən onları görmür. Lakin bu, dərdimi azaltmırdı. Çünki suyun ortasındakı uşaqların güllə və raket atəşləri altında parça-parça olduqlarını görürdüm. Düşmən kolonları suyun ortasını raket və minaatanlarla vururdu. Raket suda da partlayırdı. Fişənglərin işığı altında uşaqların yaralanmasını və hətta suyun qızarmasını da görürdüm. Bu səhnələri görmək çox ağır idi. Əhmədə dedim: "Get, gör, nə etməliyik".

Gedib tez qayıtdı.

– Ağa seyid dedi ki, uşaqları sudan çıxarın.

Atəş çox güclənmişdi. Vəliəsr batalyonunun dalğıclarının Bəvarin boğazına doğru getdiklərini gördüm, lakin bizimkilər suya girdikləri yaxın yerdən də çıxırdılar. Rza Daruiyan kimi bəziləri uşaqlara kömək edirdilər.

Seyid Fatimi məni görən kimi dedi: "Əmin ağa dedi ki, Vəliəsr batalyonu ilə əlaqəmiz kəsilib. Ağa Mehdi, imkan varsa, onları tap və komandirlərinə de ki, şəxsi heyəti sudan çıxarsın".

Təəccüblə "belə güclü atəşin altında onları haradan tapım?!" demək istədim, amma heç nə demədim və yenidən suya girdim. Fikirləşdim ki, onları tapmaq üçün əlimdən gələni edəcəyəm. Uşaqlardan ayrılıb düşmənin bütün atəşinin mərkəzləşdiyi Ümm əl-rəsas adasına doğru üzməyə başladım. Hamı öz sahilimizə qayıdırdı, mənsə irəli gedirdim və rastlaşdığım hər adamdan batalyonunu soruşurdum. Uzaqdan gördüyüm atəşin altına girmişdim. Hər bir

partlayışdan sonra ətrafa su püskürür, köpüklənir və dalğalanırdı. Get-gedə öz uşaqlarımızla məsafəmin çoxaldığına diqqət yetirmədən irəliləyir və bəndin arxasından bizə atəş açan düşmənləri aydın görürdüm. Ora Ümm əl-rəsas idi və mən onların bəndinə yaxınlaşmışdım. Oraya qədər Vəliəsr batalyonundan hətta bir nəfər də tapmamışdım, o ki qala kolonu və ya batalyon komandirini. O əsnada bir iraqlı diqqətimi cəlb etdi: Ayağa qalxmış və kalaşnikovunu mənə tuşlamışdı. Birdən boyun və çiyin nahiyəmdə güclü ağrı hiss etdim. Suyun soyuqluğu və bədənimin titrəməsi ağrını daha da artırırdı. Bir anlığa suda batdığımı hiss etdim, lakin tez özümü toparlayıb öz sahilimizə doğru istiqamət aldım. Suyun ortasında çoxlu ratsiyaları olan bir dəstəni gördüm və Vəliəsr batalyonunun komandiri olduğunu təxmin etdim. Əziyyətlə o tərəfə yollandım. Sanki zəiflədiyimi anlamış dalğalar mənə hücuma keçmişdilər. Çiynimin yarasına əhəmiyyət vermədən onlara yaxınlaşdım, amma tanıya bilmədim. Soruşdum ki, Vəliəsr batalyonudur?

– Bizik, Mehdiqulu.

Vəliəsr batalyonunun komandiri Məhəmməd Aslanlının səsi idi. Görkəmi dəyişmişdi, elə bildim ki, başını keçəl qırxdırıb. Hər halda, sözü uzatmağın yeri deyildi. Ona dedim: "Ağa Aslanlı, Əmin ağa sizinlə əlaqə qura bilmir; dedi ki, sizi tapım və sudan çıxıb kanallara getməyinizi söyləyim".

– Mənim bölüklərimdən biri burada idi və sudan çıxdı, amma iki bölüyümlə əlaqəm kəsilib. Onların biri Bəvarində vuruşur, digəri Ümm əl-rəsasda.

Məyusluq və məğlubiyyət hissi bütün vücudumu bürümüşdü. Çiynimdəki yaranın qanaxması da get-gedə öz təsirini buraxırdı. Özümü suya tapşırmışdım və qəhər boğazımı yandırırdı.

– Ağa Aslanlı, geri çəkilmək bizə ayıbdır!

– Hissiyyata qapılma.

O, danışırdı, mən də çiynimin ağrısından get-gedə halsızlaşırdım. Onlara yaralandığımı söyləmədim. Onlar yolu tanımır, rabitə əlaqəsini bərpa etməyə çalışır, amma bacarmırdılar.

– Biz yolu tanımırıq, ağa Mehdiqulu.

– Gəlin, sizi aparım.

Dərhal zehnimdə istehkamla məktəb arasında şərti bir xətt çəkib hamını sahilə doğru yönəltdim. Tezliklə sudan çıxıb üzgəcləri çıxardıq. Sahilin eninə təxminən 200-300 metr yol getməli idik.

Ora yanmış qamışlıq idi. Qamışlar yanıb aşağı hissələrində sönmüşdü və hər biri iti bir nizə kimi dalğıcların yalın ayaqlarına batırdı. Düşmənin sahili nişan almış güclü mərmi və raket atəşləri altında hərdən sürünməyə, hərdən qaçmağa məcbur idik və hər iki halda yanmış qamışlar bədənə, xüsusən də ayaqların altına daha çox batırdı. Ayaqlarımın altı yanır və qanayırdı. Bilirdim ki, uşaqların hamısının vəziyyəti belədir, çünki hamı dalğıc idi, heç kimdə ayaqqabı və çəkmə yox idi.

Nəhayət, qardaş Aslanlını və digərlərini kanala çatdırdım. Hələ uşaqlar sarıdan arxayın olmamışdım. Mənə tapşırılan bölüyün toplaşdığı yerə qaçdım. İlk gördüyüm adam Fərəc Quluzadə idi. Ondan soruşdum: "Uşaqlar hələ çıxmayıblar?"

– Hamı çıxıb. Bir-iki yaralımız var, onları geriyə aparırıq.

Kanala qayıtdım. Uşaqların o atəşdən salamat çıxdıqlarına görə Allaha şükür edirdim. Rza Daruiyan kanalın içində oturub yavaşca zikr deyirdi. Mən də yanında oturdum.

– Nə olub, Rza?

– Ayağıma qəlpə dəyib.

Yaralı dizinə baxdım. Soruşdu: "Sən necə? Sənə bir şey olmayıb?"

– Mənə də bir güllə dəyib.

– Hanı?

Paltarımın bəndini açdım. Çiynimə baxıb dedi: "Yaran dərindir, qalx, get arxaya".

– Hələ görək nə olur...

Kanalın içində yan-yana oturmuşduq. Qanaxma soyuq və ağrıya qarşı müqavimətimizi azaltmışdı.

Çox güclü ağrım vardı. Qamışların yaraladığı ayaqlarım çox yandırırdı. Bunlara baxmayaraq, hələ Rzanın kefi kök idi. Əlindəki alışqanı yandırıb dedi: "Gəl, qızışaq".

Zarafata hövsələm yox idi. Ağrı çiynimdən bütün bədənimə yayılırdı. Ayaqlarımın göynəltisi də bitmək bilmirdi, amma qayıtmaq istəmirdim. Bir müddət kanalda oturub söhbət etdik. Nəhayət, Əmir Xirədmənd bizi gördü. Bizdən bir qədər yuxarıda bir səngər vardı. Ağa seyid və uşaqlardan iki-üç nəfər orada idilər. Əmir gedib səs-küylə heç bir yara almayan iki nəfəri səngərdən çıxardı və istirahət etmək üçün bizi oraya apardı.

Ağrı və soyuqdan səhərə qədər yerimdə qıvrıldım. Rəhim Sariminin səs-küyü də ağrılarıma əlavə olunmuşdu. Yanımda oturmuşdu və səhərə qədər qulağımın dibində zarıyırdı: "Vay ayaqlarım! Ayaqlarımın ağrısı məni öldürdü..."

Tikanlı məftillər və yanmış qamışlar uşaqların çoxunun ayağını yaralamışdı. Kəsiklərin hər birinə ən azı, iki-üç tikiş lazım idi. Yaralanmış Həmid Qəmsüvar da həmin səngərdə idi, hərdən sızıltısını eşidirdim.

Sübh namazı oldu. Qolumu tərpədə bilmirdim. Birtəhər təyəmmüm alıb digər uşaqların yanında oturduğum yerdə namazımı qıldım. Səngərdən çıxanda eşitdim ki, gecə Vəliəsr batalyonunun bir bölüyü Ümm əl-rəsasa çatmış və çoxlu düşməni məhv etmişdir. Gecə ağa Aslanlının da xəbərsiz olduğu başqa bir bölük isə güman ki Bəvarin adasına getmişdi.[1] Ümm əl-rəsasa getmək

[1] Bu bölüyün əksəriyyəti çox qərib şəkildə şəhid olub itkin düşdü və onlardan heç bir əsər-əlamət tapa bilmədik.

istəyirdim. Uşaqların bəzisi də ora hazırlaşırdı. Niyyətimdən xəbər tutan seyid məni danlaya-danlaya tibb məntəqəsinə getməyə məcbur etdi. Qolum əsla tərpənmirdi və o qədər ağrıyırdı ki, zorla da tərpədə bilmirdim. Sol qolumla sağ qolumu tutub təmas xətti ilə əməliyyat yolu arasında çəkilmiş böyük bir kanala girdim. Mənim kimi çoxları geri qayıdırdı. Birdən düşmən təyyarələri peyda oldu və mən uzaqdan kimyəvi bomba atdıqlarını gördüm. Bombardman gücləndi və hətta kanalın ətrafını da atəşə tutdular. Xoşbəxtlikdən, bu bombardmanda kanalın içindəkilərə ciddi zərər toxunmadı.

Yola çatanda uşaqlar təcili yardım maşını tapdılar və bir neçə yaralı ilə birgə məni də maşına qoydular. Biz ən yaxın tibb məntəqəsinə getdik. Qardaş Əli Fuladi də tibb məntəqəsində çalışırdı. O, Təbrizdə bizim məhəlləmizdə yaşayırdı. Məni görən kimi tez yaramı bağlamağa başladı və Əhvaza göndərdi. Əhvazdan təcili yardım maşını ilə Əraka getdik. Ertəsi gün səhər çağı Əraka çatdıq və xəstəxanaya yerləşdik. Orada təsadüfən, Həmid Qəmsüvarı da gördüm. Xəstəxanada dalğıc geyimimi çox əzab-əziyyətlə çıxardılar. Çətinliklə qolumu paltardan çıxardım. Kəsik-kəsik olmuş və daha işə yaramayacaq paltara heyfim gəlirdi.

Yaramı müayinə edən həkim Təbrizə ezam vərəqəmi yazdı və dərhal yola düşdüm.

Beşinci Kərbəla

I

Təbrizdə olduğum beş gündə ailə üzvlərimdən birinin başına bədbəxt bir hadisə gəldiyini öyrəndim. Xəbər o qədər pis idi ki, əgər başqa şəraitdə eşitsəydim, heç şübhəsiz, yolumdan qalardım. O müddətdə yaramın ağrısı nəinki azalmamış, hətta artmışdı. Güllə çiynimin sümüyünə batmışdı. Yara kiçik görünsə də, dərin və ağrılı idi. Bir-iki dəfə xəstəxanaya getdim, lakin acı xəbəri eşidəndən sonra yaramın sarğısını dəyişdirməyə də həvəsim qalmadı. Cəbhəyə dönmək istəyirdim. Cəbhənin güclü cazibəsi məni rahat buraxmırdı. Seçdiyim yolun haqq olduğuna əmin idim və o şəraitdə heç bir hadisə önümü kəsə bilməzdi. Ən yaxşı səbəb və əsasım şəhidlər, onların məqsəd və yollarını davam etdirmək idi.

Gecə vaxtı məscid uşaqlarının biri bizə gəldi.

– Maqsud Nalbəndi diviziyadan zəng vurub, səninlə danışmaq istəyir.

Məscid yaxında idi. Bizim oyanışımız həmin məsciddə Quran sinifləri ilə başlamışdı. O günlərdən təxminən 9 il ötürdü və şəhərin digər məscidləri kimi Şərbətzadə məscidi də cəbhəyə yüzlərlə gənc yollamışdı, divarlarına onlarla şəhidin şəkli vurulmuşdu.

Həmin axşam Maqsud mənim halımı soruşmuş, uşaqlar yaxşı olduğumu demişdilər və o mənimlə danışmaq istəmişdi. Salamlaşıb hal-əhval tutandan sonra cavabsız sualımı ona verdim: "Nə baş verib? Nə üçün heç kim məzuniyyətə gəlməyib?"

– Uşaqların işləri var... Sən gəlmirsən?

Maqsudun sözündən əməliyyat ətrini duydum.

Səhər ailə üzvlərimlə sağollaşıb birbaş dəmiryol vağzalına getdim. Uzun müddət idi cəbhəyə belə getməmişdim. Qatarla Tehrana, sonra Əhvaza getdim. Bütün yolboyu öz düşüncələrimlə yalqız qaldım.

Əhvaza çatanda bölüyümüzün Hava Hücumundan Müdafiə qarnizonundakı qərargahına getdim və oradan Qəcəriyyəyə gedən maşınla özümü oraya çatdırdım.

Uşaqların arasında gedən söhbətlər həm əməliyyatın olacağına inamı artırırdı, həm də inamsızlıq yaradırdı. Söhbətlər dolaşıq və bəzən ziddiyyətli idi. Lakin nəsə olacağı ürəyimə dammışdı. Kərbəla-4 əməliyyatında işləmiş uşaqların bir qismini Əhvaza köçürmüşdülər, Qəcəriyyədə qalanlar da başqa bir istiqamətə aparılacaqlarını düşünürdülər. Əlbəttə, deyirdilər ki, Kərim Hörməti onların hamısına məzuniyyət vermiş və hamısı öz şəhərlərinə getmək üçün Əhvaza yollanmışlar. Bəzi dostlar kimi mən də düşünürdüm ki, onları bu yolla bölgədən çıxarıb gələcək əməliyyat bölgəsinə kəşfiyyata göndərmişlər. Qəcəriyyəyə çatıb bu xəbərləri eşitdiyim ilk gündə Həbib batalyonuna getdim. Komandir səngərində qardaş Seyid Fatimini görüb vəziyyəti ondan soruşdum.

Həbib batalyonunun əməliyyata hazırlaşdığını öyrənəndə sevindim. Həbib batalyonunun uşaqları bölgənin ehtiyacına uyğun olaraq, dalğıc məşqi keçirdilər. Yanlarında müəllimləri olmasa da, daim məşq edirdilər. Təsadüfən, Hacı Sadiq Kamalini orada gördüm. Onu çoxdan tanıyırdım, təbrizli məddah idi. O isə məni ilk dəfə idi görürdü. Həbib batalyonunun əksər uşaqları ilə də Kərbəla-4 əməliyyatının dalğıc təlimlərində tanış olmuşdum. Onların təlim keçib əməliyyata hazırlaşdıqlarını və kəşfiyyat bölüyünün vəziyyətini görəndə dözə bilmədim. Qardaş Seyid Fatiminin, müavinləri Həsən Kərbəlayi və Rəhim Sariminin, eləcə də Hacı Sadiq Kamalinin olduğu batalyon komandiri çadırına gedib dedim: "Ağa seyid, icazə versəniz, bu əməliyyatda sizin batalyonda olmaq istəyirəm".

– Sən kəşfiyyatçısan, batalyonda olmağın bir az çətin məsələdir.

– Mən hələlik kəşfiyyatçı deyiləm, azadam, bir neçə gün istirahət icazəm var.

Çoxlu israrımdan sonra məni Həbib batalyonuna qəbul etdi. Paltardan başqa bir əşyam yox idi. Onları həmin çadıra qoyub silah götürdüm.

***

Həbib batalyonunda olduğum iki gündə Həsən Kərbəlayi, Rəhim Sarimi, Seyid Yunus, Seyid Fatimi və ağa seyidin özü ilə komandir çadırında qaldım. Onların yanında olanda qürbət hissi keçirmir, darıxmırdım.

Cəbhədə tanış olduğum adamlarla bir yerdə olmaq həmişəki kimi mənəvi rahatlıq gətirir və ailəmdə baş vermiş acı hadisələri qismən unutdururdu.

Həbib batalyonunda xüsusi bir dəyişiklik baş verməmişdi, yalnız yaralıların yeri boş idi. Təlimlərin və Kərbəla-4 əməliyyatının yorğunluğu hələ uşaqların canından çıxmamış növbəti əməliyyata hazırlaşmaq çətin idi. Deyəsən, bəziləri məzuniyyət də istəyirdilər. Bəsic üzvləri adətən, hər bir əməliyyatdan sonra məzuniyyətə gedirdilər. İlk dəfə idi ki, heç bir batalyonda məzuniyyət verilməmişdi. Batalyon rəhbərliyində bu söhbət gedirdi ki, yorulanlar, gələcək əməliyyatda iştirak edə bilməyənlər və ya mövcud vəziyyətdən narazı olanlar şəxsi heyətdən ayrılsınlar. Xoşbəxtlikdən, iki-üç nəfərdən artıq adam ayrılmadı və əməliyyat söhbəti ciddiləşdiyinə görə bütün şəxsi heyətdə hücumdan öncəki günlərin ab-havası duyulmağa başladı. "Məğlubiyyət qələbəyə müqəddimədir" fikri uşaqların arasında çox təkrarlanırdı. Növbəti cəhddən söhbət gedirdi və uşaqlar heç kimin məcburiyyəti olmadan gecə-gündüz Karun çayında təlim keçirdilər.

Həbib batalyonunda olduğum ikinci gün axşamüstü Mehdi Heydəri kəşfiyyat bölüyündən gəlib dedi: "Qardaş Kərim Hörmətinin sənlə işi var, ağa Mehdi".

– Məgər ağa Kərim gəlib?

– Bəli, sənlə təcili işi var.

Onunla getdim. Dağılmış kəndin kəşfiyyat qərargahına çevrilmiş evində iclas gedirdi. Kərbəla-4 əməliyyatından sonra bölüyün komandiri təyin olunmuş qardaş Kərim Hörməti orada idi.

– Qardaşlar, hamıya məzuniyyət verilir...

Uşaqlar onun sözünü kəsdilər: "Bəs əməliyyat olmayacaq?"

– Xeyr! Ayın aydınlığı və digər məsələlər mane oldu. Bu tezliyə bir şey olmayacaq.

Bu söhbət məni yenidən şübhəyə saldı. Öz-özümə dedim: "Əməliyyat olsun, ya olmasın, Həbib batalyonunda yerim çox yaxşıdır. Hər halda, orada qalacağam".

İclas salavatla bitdi və hamı gedəndən sonra Kərim Hörməti vəziyyətimi soruşdu: "İndi haradasan?"

– Mən hələlik Həbib batalyonunun üzvüyəm.

– Lazım deyil, get, əşyalarını bölüyə gətir, sənինlə işimiz var.

Kərim Hörmətinin son cümləsi ilə qəlbimdə ümid işığı yandı. Dərhal əşyalarımı götürüb uşaqlarla sağollaşdım. Həbib batalyonunun mənəviyyatlı dalğıclarını tərk etməyə heyfim gəlirdi. O günlərdə dizi gipsə salınmış Hacı Rza Daruiyan da o vəziyyətdə batalyona gəlmişdi və komandirlərin israrına baxmayaraq, nəinki bölgəni tərk etmir, hətta yavaş-yavaş ayağının gipsini qırıb özünü hazırlayırdı.

Mənsur Furqani və Əsğər Abbasquluzadə kəşfiyyat bölüyünün istiqamət başçıları idilər və hələ də Qəcəriyyədə qalmışdılar. Digər kəşfiyyatçılara həqiqətən, məzuniyyət vərəqi verildi və biz uşaqların bir neçəsi ilə birgə Əhvaza getdik. Qardaş Hörməti demişdi ki, bəzi əşyaları təhvil götürüb Əsğər ağanın tanıdığı bir yerə gedək. Qardaş Abbasquluzadə bizi yeni bölgəyə aparırdı.

***

Yeni əməliyyat bölgəsi Şələmçə idi. Birinci gün İraq mövqeləri və Aşura diviziyasının əməliyyat bölgəsi olan Beşbucaqla tanış oldum. Bizim ikinci postumuzdan Şələmçə-Xürrəmşəhr magistralına qədər davam edən bənddə ağır silahlardan və toplardan boş yer görmədim. Toplar, raketlər, katyuşalar və zenit qurğuları hər tərəfə dolmuşdu. Düşməndə belə təsəvvür yaranırdı ki, bütün bu texnikalar Kərbəla-4 əməliyyatından qalmışdır. Halbuki topların əksəri Kərbəla-4-dən sonra və gecə vaxtı bölgəyə gətirilmişdi. Bu, yaxşı taktika idi.

Yerləşdiyimiz səngər bənddən çox aralı deyildi. Səngərdən çıxıb sağ tərəfə gedəndə ilk bəndə gedən yola çıxırdıq. İki bənd arasındakı məsafə 3 km.-dən 10 km.-ə qədər dəyişirdi. Biz olan hissədə təxminən 3 km. idi. Bütün çökəkliklərə su yığılmışdı. Birinci bəndin önündə də su vardı.

Bizim son xəttimizdən 1000-1500 metr aralıda İraqın hərbi qarnizonu yerləşirdi. Kut və Bubiyan zastavaları orada idi. İraqlılar bizimlə təmas xətlərinin arasında geniş bir gölməçə yaratmışdılar. Birinci bəndin cənuba

doğru gedən bir hissəsi uçmuşdu və bəndin arxasında yığılmış su oradan axırdı. Təxminən on metr uzunluğu olan həmin yarıqdan sonra bənd yenə davam edirdi və bir qədər aralıda bəndin üstündə düşmən pusqu qurmuşdu. Yəni bəndin və bizim mövqelərimizin sonu düşmən mövqelərinə çatırdı və bu, bir beşbucaq əmələ gətirirdi. Quruya çıxışı olan yeganə yer Beşbucaq idi və biz oradan düşmən torpağına birləşirdik. Oradan düşmənin içinə, Bəvarin, Ərvəndin sahili, Zövci kanalı, Duici qəsəbəsi, Bəsrə və Tənuməyə şamil olan böyük Bəsrə bölgəsinə keçmək olardı. Buna əsasən, Beşbucaq qələbənin açarı idi. Aşura diviziyasının əməliyyat zonası bir istiqamətdən Kut zastavasına, digər istiqamətdən də Beşbucağın şərqi bəndinə doğru uzanırdı. Həmin yer Beşbucağa yeganə nüfuz yeri olan təxminən 3 km.-dən artıq bir bölgə idi. Bu baxımdan, Kərbəla-5 əməliyyatında ən ağır və ən həssas tapşırıqlardan biri Aşura diviziyasının üzərinə düşürdü.

Yolun birinci bəndə birləşən hissəsində bəndi uçurub estakadaya bənzər bir şey düzəltmişdilər. Orada çoxlu qayıq görünürdü. Bənddən 10-20 metr irəlidə suyun səviyyəsindən hündürdə yolabənzər bir şey görünürdü, amma irəlilədikcə hündürlüyü azalırdı və nəhayət, su ilə eyni səviyyəyə çatırdı. Orada da çoxlu qayıq gizlədilmişdi.

Bölgə ilə tanışlıqdan sonra qərargaha qayıtdıq. Birinci xətdə Həbib və Vəliəsr batalyonlarının dalğıc bölüklərinə bələdçilik edən kəşfiyyatçıları gördüm. Çox yorğun görünürdülər. Eşitmişdim ki, uşaqlar iki bölgədə işləmişlər. Əvvəl bir yerdə kəşfiyyat aparmış, bir müddətdən sonra tapşırıq dəyişmiş və başqa bir yerdə işə başlamışdılar. İşin mühiti, həcmi və zamanı hamısını yormuşdu. Üstəlik, bölgə elə idi ki, əməliyyatın qeyri-mümkün, yaxud çətin olacağını düşünürdülər. Hətta Yusif Həqqayi Kərim Hörmətiyə demişdi: "Ağa Kərim, irəliyə getmək olmur, buradan keçmək mümkün deyil". Kərim isə mənim çox sevdiyim köhnə adəti üzrə demişdi: "Bismillah! Siz keçə bilmirsinizsə, mən keçərəm". Dalğıc paltarı geyinib uşaqlarla birgə getmiş və ilk istiqamət yolunu açmışdı.[1]

Kəşfiyyat zamanı uşaqların qarşısına çıxan problemləri bir neçə qrupa bölmək olar. Biri bu idi ki, bölgə Kərbəla-4 əməliyyatının bir hissəsi idi və düşmən orada daha hazırlıqlı idi. Başqa biri bu idi ki, su bölgəsi idi. Uşaqlar deyirdilər: "Bizim tərəfdə suyun dərinliyi yaxşıdır, amma düşmən sahilinə yaxınlaşdıqca dərinlik azalır. Həm də suyun bulanıq olduğuna görə hərəkət zamanı səs çıxır və nəticədə sürət zəifləyir. Su dərin olanda gizlənmək olur, amma düşmənin sahilində gizlənmək mümkün deyil və görünmə ehtimalı böyükdür. Düşmən sahilində hətta qamış da yoxdur".

[1] Çoxlu yaralanmasına və Bədr əməliyyatından sonra əlil olmasına baxmayaraq, özü uşaqlarla gedib yolu açmışdı. Kərbəla-4 əməliyyatında bütün əməliyyat qərargahlarından iki nəfəri seçib xüsusi kəşfiyyata göndərmişdilər ki, onların biri də bizim diviziyamızdan Kərim Hörməti idi.

Adətən, süni çalalarda bitki olmurdu, yalnız hər iki tərəfin sahillərinin yaxınlığında pərakəndə bitkilər bitmişdi. Bu təbii problemlərin yanında düşmənin çoxlu maneələri də vardı: halqa və cərgə şəkilli tikanlı məftillər, günəşəbənzər istehkam milləri və bizim döşəmə maneələr adlandırdığımız maneələr. Bu maneələr çox qalın şəkildə yerə tökülürdü. Düşmənin həssaslığından asılı olaraq, maneələrin uzunluğu 500-1000 metr arasında dəyişirdi. Bu geniş ərazidə mina sahələri də vardı. Minalar uzun müddət qalmış və normalda sıradan çıxmış olurdu, amma orada sağlam idi və bir neçə dəfə partlamışdı. Bölgənin başqa bir problemi səmada bütün gecəboyu qalan tam işıqlı ay idi və bu, düşmən üçün əlverişli şərait yaradırdı.

Əməliyyatın olacağına dair inamsızlıq yaradan bütün bu problemlərdən əlavə, iki əməliyyat arasında zaman fasiləsi də az idi. Çünki əməliyyata dəstək, hətta canlı qüvvənin hazırlığı ən mühüm amillərdən biridir. Bütün bu məsələlərə rəğmən, uşaqlar diviziyanın əməliyyat istiqamətini öyrənmişdilər və get-gedə silah, texnika və canlı qüvvənin oraya gətirilməsi əməliyyatın yaxınlaşdığına dair fikri gücləndirirdi.

Bizim qərargahımızdan yuxarıda yerləşən üçyolun kənarında gecə vaxtı bir kanal düzəltmişdilər. Bu, canlı qüvvənin ikigünlük yerləşməsi üçün kifayət idi, o müddətdə onları güllə, mərmi və raketlərdən qoruya bilərdi.

Gün ərzində əməliyyata və hücuma hazırlıq ehtimalı verən heç bir xüsusi iş görülmürdü. Bu, düşmənin baxdığına və həssaslığına görə idi. Bundan əlavə, düşmən elektron cihazlarla da təmin olunmuşdu və hər bir hərəkət onlar tərəfindən müşahidə olunurdu. Bu baxımdan, bütün işlərimiz gecələr görülürdü. Əgər əməliyyat gecəsinə qədər bölgənin nisbi sakitliyi pozulmasaydı, biz yaxşı uğur əldə edərdik. Eşitmişdim ki, Kərbəla-4 əməliyyatı gecəsində Xürrəmşəhr-Əhvaz yolu maşınla dolu imiş, bütün imkan və texnikalar o yoldan gəlirmiş. Onların hamısının bir yoldan gəlməsi çox mənfi cəhət sayılırdı. Hava hücumu zamanı hətta bir düşmən təyyarəsi bütün maşınları və yolu məhv edə bilərdi. Burada da görünən o idi ki, canlı qüvvə və döyüş texnikaları bir yoldan gəlirdi.

Əhvaz-Xürrəmşəhr yolunda ağır tıxac vardı, maşınlar birsaatlıq yolu 4-5 saata gedirdilər. Sanki maşınlar bir-birinə yapışmış halda dayanmışdılar və düşmən də müşahidə postundan hər şeyi görürdü. Bütün məsələlərdən narahat olmağıma baxmayaraq, hücumun başlanması və düşmənin Kərbəla-4 əməliyyatından sonra artmış yalançı qürurunu tapdamaq həvəsi bütün məsələləri kölgədə qoyurdu.

II

09.01.1987 tarixi hücum zamanı idi. Əməliyyatdan öncə Həbib batalyonunun uşaqları ilə görüşmək üçün hansı qapını döydümsə, alınmadı. Hücumçu qüvvələri düşmən mövqeyinə aparacaq kəşfiyyatçılar da gecə bizim

xəbərimiz olmadan təyin olunmuş bölüklərə getmişdilər və beləliklə, onlarla da sağollaşa bilmədik.

Hücum gecəsi ay səmada idi və sanki həmişəkindən də güclü parlayırdı. Kərbəla-5 əməliyyatı müqəddəs "Ya Zəhra" parolu ilə başlamışdı. İlk hücuma keçəcək şəxsi heyət getmişdi və biz bölükdə ratsiyaları dövrəyə almışdıq. Biz həm düşmənin, həm də öz uşaqlarımızın danışıqlarından döyüşün vəziyyətini öyrənirdik.

Uşaqlar ay işığında yola düşmüş, Həbib batalyonu Kut zastavasının şimal səmtindən, Vəliəsr batalyonu da cənub səmtindən və düşmən pusqusu adlandırdığımız yerdən hücuma keçmişdilər. Uşaqların hücuma keçdiklərini eşidəndən bir neçə dəqiqə sonra heç bir xəbər olmadı. Bir müddətdən sonra tək-tük atəş səsləri eşidildi və get-gedə gücləndi. Qarşılıqlı atışmanın başlandığını başa düşdük.

– Düşmən mövqeyi ələ keçirildimi? Uşaqlar düşmənin sahilinə çata bildilərmi? Birdən bu işıqlı gecədə düşmən onları görmüş olar...

Avanqard qüvvələrimiz iki istiqamətdən düşmən mövqeyinə hücum etmişdilər. Həbib batalyonunun Məhəmməd Sövdagərin başçılıq etdiyi bölüyü və Vəliəsr batalyonunun bölüklərindən biri mövqeyi ələ keçirə bilmişdilər, digər bölüklərsə hələ müvəffəq olmamışdılar. Həbib batalyonundan qardaş Mütləqin başçılıq etdiyi bölük suda problemlə üzləşmişdi və atışma elə oradan başlanmışdı. Xəbərləri ratsiyadan öyrənsək də, səhərə yaxın mövqelərin tutulduğuna inana bilmirdik.

Səhər çağı İslam Respublikası Ordusunun helikopter və qırıcıları bombardmana gedəndə hərbçilərimizin bu əməliyyat üzərində ciddi işlədiklərini bildik. Döyüş başlanandan səhərə qədər düşmənin öndəki və arxadakı komandirlərinin danışıqları təhdid, təhqir və həvəsləndirmələrlə dolu olmuşdu. Həmişə olduğu kimi, bu dəfə də mövqe ələ keçiriləndən sonra Bəəs zabitləri ratsiyadan bir-birini söyür, bəzən də həvəsləndirmək üçün deyirdilər: "Müqavimət göstərin... Əgər mövqeyi saxlaya bilsəniz, mükafatınız var... Mövqeyi itirsən, cəzalandırılacaqsan... Geri çəkilsən, səni öldürəcəyəm..."

Səhər açılanda mövqelər tamamilə təmizlənmiş, düşmənlərin hay-küyü ucalmışdı. Səhər çağı qərargaha gəlib dedilər: "Qardaş Hörməti deyir ki, bölükdən iki nəfəri götürüb önə getsin".

Qulaməli Kələntəri və Mənsur Süudiyə[1] hazırlaşmalarını tapşırdım. Bir motosiklet götürdüm və hər üçümüz mindik. Yola düşməzdən öncə zarafat məqsədilə Mikayıl Nadiriyə amiranə tərzdə dedim: "Məni sizə başçı təyin ediblər. Siz qardaş Purnəcəflə burada qalın, mən əməliyyat yerinə gedirəm. Qayıdanda sizi də aparacağam".

Mikayıl da cavabsız qalmadı: "Yeri get, uşaq özünsən".

[1] Mənsur Süudi bizim zəncanlı dostlarımızdan idi və Nəsr-7 əməliyyatında şəhadətə qovuşdu.

Motosikleti işə salanda uşaqların gülüşlərini və "xudahafiz" səslərini eşidirdim.

1987-ci ilin 10 yanvar səhəri sakit səhər idi. Düşmən hələ bu geniş hücumun şokundan çıxa bilməmiş, şəxsi heyətini nizam-intizama salmamışdı. Buna görə də, ciddi atışma getmirdi. Günəş nisbi sakitliklə qalxır və böyük Şələmçə düzünü işıqlandırırdı. Ön xətdəki qərargahımıza yola düşdük. Motosikleti oraya qoyub estakadaya getdik. Bizim otuzmetrliyimizdə və bəzi hissələri su səviyyəsindən hündürdə olan yolu uçurmuşdular ki, qayıqlar asanlıqla get-gəl etsinlər. Orada qayığa minib Kut zastavasına yola düşdük. Artıq mühəndislərimiz mövqelərimizi bir-birinə birləşdirmək üçün yol çəkməyə başlamışdılar. Düşmən ağır maşınların ön xəttə hərəkətinə həssas yanaşır, onları bombalamağa çalışırdı. Bu baxımdan, tikinti-mühəndis bölüklərində çalışan sürücülər ən cəsarətli və bacarıqlı sürücülər olurdular və hamı onları tanıyırdı. Bu könüllü Bəsic üzvləri əksər hallarda ya şəhid, ya da əlil olurdular. Orada da ekskavator və buldozerlərin fəaliyyəti düşməni qıcıqlandırmışdı və yavaş-yavaş hücumlar başlayırdı. Buna baxmayaraq, bəndlə yolun bir-birinə birləşdirilməsi günortaya qədər bitdi.

Bizim qayığımız gecə boyu və səhər tezdən açılmış maneələrin arasından keçdi və düşmən bəndinə dəyib dayandı.

Qayığın sol tərəfində dalğıc uşaqların cəsədləri maneələrin arasına və bəndin üstünə düşmüşdü. Səhnə ağır döyüşdən və uşaqlarımızın fədakarlığından xəbər verirdi. Biz dərhal bəndə çıxıb arxasındakı kanala girdik. Çox yorğunluqdan taqətləri tükənmiş dalğıclar diqqətimi çəkdi. Fikirləşdim ki, tapşırığımızı yerinə yetirərkən işimizə yarayan məlumatları onlardan öyrənə bilərik. Onlarla bir neçə kəlmə danışdıq və vaxt itirmədən işimizə başladıq. Bizim tapşırığımız Cəmşid Nəzmi və Mirhöccət Kəbirini tapıb onlarla əməkdaşlıq etmək idi. Cəmşid Nəzmi ikinci briqadanın komandiri idi, Mirhöccət Kəbiri də üçüncü briqadanın. Mənsur İzzətinin başçılıq etdiyi birinci briqada ötən gecə Həbib, Vəliəsr və Əli Əkbər batalyonları ilə hücuma keçmişdi, əməliyyatı davam etdirmək isə ikinci və üçüncü briqadaların üzərinə düşürdü.

Kut zastavasından yola düşüb gecə Aşura diviziyasının azad etdiyi Beşbucağın şimal bucağı boyunca irəlilədik. Həmin bucaq balıq kanalına çatır və sonra kanalın dimdiyinə doğru davam edirdi.

Bəndin sol tərəfi quruluq, kanalın içi isə su ilə dolu idi. Bəndin bizim hərəkət etdiyimiz sağ tərəfində böyük bir çala vardı. Düşmən mövqeyinin arxasında da çala olduğuna görə, bildik ki, onlar düşmən tərəfindən yaradılmayıb.

Balıq kanalına gedən bəndin üstü ilə gedirdik. Gördüyüm səhnələr məni qəm-kədərə qərq edirdi. Güman ki ikinci briqadanın Əmirəlmöminin (ə) batalyonu səhərin ala-toranlığında oradan keçərkən güclü raket hücumlarına

məruz qalmışdı. Bizim şəhidlərimizin cənazələri kanalın içində 200-250 metr uzunluğunda bir yerdə üst-üstə düşmüşdü.

Düşmən oranı görürdü və biz keçmək üçün kanalın içindən istifadə etməli idik. Bu baxımdan, şəhid cənazələri arasından keçməyə məcbur qaldıq. Yerləşdiyimiz yer balıq kanalının dimdiyinə gedən yolun təxminən ortası idi. Solumuzda düşərgəyə bənzər bir yer vardı və oradan hələ atışma səsi gəlirdi. Uşaqlar deyirdilər ki, Qasim batalyonu orada vuruşur. Oradan keçəndən sonra Miyanə şəhərinin Bəqiyyətullah batalyonunu gördük. Onlar ağır döyüş içində idilər, bəndin sağ bucağında və çala tərəfdə qaçmaqda olan düşmən qüvvələrini təmizləyirdilər. Orada Məhəmmədrza Çəmidfəri və Hüseyn Baharlını gördüm. Çəmidfər Bəqiyyətullah batalyonunun komandir müavini, Baharlı da oraya hücum edən bölüyün komandiri idi.

Balıq kanalının dimdiyinə doğru yolumuza davam etdik. Balıq kanalı təxminən cənuba doğru gedən bir kanalla bitirdi. Kanalın üstündə müxtəlif körpülər salınmışdı və üçüncü körpü Aşura diviziyasının Fəcr diviziyası ilə birləşəcək yeri idi. İrəlilədikcə Əli Əkbər batalyonunun uşaqlarını pərakəndə halda görürdük. Onlar kanala qarşı müdafiə mövqeyi seçmişdilər və bəziləri qayıdırdılar. Vəziyyət gərgin idi. Nəhayət, Əli Əkbər batalyonunun komandiri qardaş Səmədlini tapdım. Bizi görən kimi dedi ki, kanalın sonundakı körpüdə düşmənlə təkbətək döyüş gedir və əl qumbarası ilə vuruşurlar. Sayları çox az idi. Bu batalyonun vəzifəsi hücumu davam etdirib Fəcr diviziyası ilə birləşmək idi. Bir qədər sonra eşitdim ki, şəxsi heyət balıq kanalından sonrakı körpüdə vuruşur. Çox narahat idim, çünki düşmən oradan keçib Beşbucağa girsəydi, işimiz çox çətin olacaqdı. Tez özümü o tərəfə çatdırdım. Qızğın döyüş gedən körpünün sağ tərəfində böyük bir müşahidə təpəsi vardı. Təpənin başında üstüörtülü səngər vardı və düşmənlər oradan uşaqların başına aramsız güllə yağdırırdılar. Müşahidə təpəsi üçüncü körpünün yaxınlığında idi və düşmənlərin əlində olduğu təqdirdə körpüləri ələ keçirmək imkansız görünürdü.

Səhər çağı bölgəyə hakim olan sükut get-gedə ardıcıl atəş, tüstü və partlayışlarla pozulurdu. Günəş səmanın ortasına yaxınlaşdıqca düşmənin artilleriya və hətta yüngül silahlardan atəşi də çoxalırdı. Bu onu göstərirdi ki, düşmən kanalın o tərəfində canlı qüvvə toplayıb və işimiz çətinləşmişdir.

İlk mərhələdə Kərbəla-5 əməliyyatının əsas məqsədi Beşbucağı tutmaq idi. Bu məqsəd həyata keçmiş, amma digər məqsədlər hələ reallaşmamışdı. İkinci mərhələdə kanalı keçib Ərvənd çayına çatmaq nəzərdə tutulmuşdu. Aşura, Həzrət Rəsul və Kərbəla diviziyaları balıq kanalından keçməli idilər. Aşura diviziyası balıq kanalının dimdiyindən keçməli və oranı tutandan sonra iki yerə bölünməli idi.

Bizim şəxsi heyətimizin bir qismi solumuzdakı xurmalığa doğru getməli, ikinci qismi də Zövci kanalının önündə sədd çəkmiş aypara şəkilli istehkamlara hücum etməli idi. Kərbəla diviziyası balıq kanalından keçəndən

sonra Ərvənd çayı ilə kanalın arasındakı Zövci kanallarını təmizləməli idi. Bu iş vaxtında baş tutsaydı, bizim diviziyamız həmin istiqamətdən düşmənin hücumundan qorunacaqdı. Lakin Kərbəla diviziyasının uşaqları hələ oradan keçməmişdilər və düşmən balıq kanalının arxasındakı canlı qüvvəsini və atəşlərinin həcmini hər an artırırdı. Həmin gün balıq kanalından keçmək çox çətin görünürdü.

Orada uşaqlara bir xeyrim toxunmurdu. Ağa Kəbirini tapmaq üçün kanaldan bəndə doğru getdim. Uşaqlar deyirdilər ki, komandir bəndin ortasındakı səngərlərdədir. Xoşbəxtlikdən, ağa Kəbirini o səngərlərin birində tapdım. O, uşaqların arasında idi. Əli Əkbər batalyonunun vəziyyəti haqda məlumat verdim və yolda gördüklərimi danışdım. Qardaş Kəbiri dedi: "İmam Hüseyn (ə) batalyonu gəlib. Siz onları aparın Əli Əkbər batalyonu ilə əvəzləyin".

İmam Hüseyn (ə) batalyonu qayıqdan enmişdi, kolonla hazır vəziyyətdə durub bələdçi kəşfiyyatçını gözləyirdi. Onların yanına getdim. Tanış uşaqları görüb həvəsləndim: Mustafa Pişqədəm, Məhəmməd Balapur, Nasir Yusifi, Yunus Bənnayi və s. Onlara döyüş bölgəsinin vəziyyətini izah edəndən və məqsədimizin üçüncü körpüdən sonra Fəcr diviziyası ilə birləşmək olduğunu söyləyəndən sonra yola düşdük.

Təyin olunmuş yerə çatmazdan öncə Əli Əkbər batalyonunun kolonla geri qayıtdığını gördük. Batalyonun bir qismi İmam Hüseyn (ə) batalyonu gəlməzdən öncə bölgəni tərk edirdi və mən buna narahat oldum. Kərbəla-5 əməliyyatında İmam Hüseyn (ə) batalyonuna rəhbərlik edən Mustafa Pişqədəm bölgənin gərgin vəziyyətini yaxşı dərk edirdi. Batalyonu nəzərdə tutulmuş yerə – kanala gedən bəndə çatdırdım. Kanala qədər yolda hətta ağır silahların atəşi də az idi, amma oradan kanalın girişinə və birinci körpüyə qədər məsafə çox güclü atəş altında idi. Düşmən şəxsi heyətini kanalın o tərəfində yerləşdirmişdi, həm müşahidə təpəsindən, həm də arxadan ağır və yüngül silahlarla atəş yağdırırdı. Oranın güclü atəşə tutulmasının səbəbini bilirdim. Bizim solumuzdakı bölgə Ərvənd idi. Düşmən orada, Bəvarin, Ümm əl-təvil və digər adalarda yerləşmişdi və oradan bizə atəş yağdırırdı. Hər halda, biz ikinci mərhələnin başa çatması, yəni şəxsi heyətin Ərvəndə qədər irəliləməsi üçün o adaların ağır atəşlərinə dözməli idik.

İmam Hüseyn (ə) batalyonunu balıq kanalının sonuna və birinci körpüyə çatdırdım. Uşaqlar döyüşə başlayıb elə ilk anlarda müşahidə təpəsindəki DŞK pulemyotunu susdurdular. Onlar tezliklə körpünü də ələ keçirib təmizləyə-təmizləyə irəlilədilər.

Bilirdim ki, İmam Hüseyn (ə) batalyonu son nəfərə qədər şəhid olsa da, tezliklə birləşdirmə işini başa çatdıracaq. Şəhadətsevərlik və müqavimət ruhu bu batalyonun qanında vardı və Mustafa Pişqədəmin gəlişi ilə daha da güclənmişdi. Dostları və kiçik qardaşı şəhid olduqdan sonra Mustafanın

məsum üzünə çökmüş qəm-kədər aradan qalxmamışdı. Hərəkətlərinə həm hüzur, həm qərarsızlıq hakim idi.

Qardaş Kəbirinin səngərinə qayıtdım. Balıq kanalının dimdiyindən keçmək müzakirə olunurdu. Əməliyyatın kanaldan sonrakı ikinci mərhələsini yerinə yetirmək üçün İmam Sahibəzzaman (ə) və İmam Səccad (ə) batalyonlarını irəli aparmaq lazım idi. Balıq kanalının dimdiyindən və Kut zastavasının yaxınlığından ikinci dəfə idi qayıdırdım. O batalyonlar qardaş Kəbirinin səngərinin yaxınlığında yerləşmişdilər və biz qayıdana qədər axşam olmuşdu. Vaxt itirmədən Mənsur Süudi və Qulaməli Kələntərinin köməyi ilə İmam Hüseyn (ə) batalyonunu apardığımız yolla onları da apardıq. İmam Səccad (ə) batalyonunun komandiri Xoy şəhərindən olan Hacıhüseynli, İmam Sahibəzzaman (ə) batalyonunun komandiri də Ərdəbildən qardaş Yəzdani idi. O iki batalyonun şəxsi heyətinin çoxu bölgəyə yeni göndərilmişdilər və güclü atəş əhval-ruhiyyələrinə təsir etmişdi. Onların vəziyyəti batalyon rəhbərliyini narahat edirdi. İllərlə döyüş zonalarında və əməliyyatlarda bişmiş İmam Hüseyn (ə) batalyonu ilə onların arasındakı böyük fərqi aydın görmək olurdu.

Nəhayət, onları da kanalın dimdiyinə apardım. Balıq kanalının üçbucaq dimdik hissəsindən döndük. Oradan birinci körpüyə qədər ərazidə güclü atəşdən əlavə, müxtəlif maneələrlə də rastlaşdıq. Axşam olduğuna görə işıqlı güllələr atılır və yeni döyüşçülərdə vahimə yaradırdı. İmam Hüseyn (ə) batalyonu da əsas körpüyə getmək üçün həmin ərazidən keçmişdi.

Balıq kanalı bəndinin sol tərəfindən 50-100 metr aralıda bir istehkam qurmuşdular. Bu istehkamla balıq kanalının arasında xüsusi bitkilər bitmişdi. Rütubətli şoranlıqlara məxsus və küknara bənzəyən kiçik ağaclar idi. Bu istehkamdan əlavə, onunla balıq kanalının arasında 200-250 metr məsafələrlə qurulmuş digər istehkamlar da vardı. Düşmən oranı kvadrat və düzbucaqlı formalarında bölmüşdü. Bu, düşmənin yeni müdafiə metodlarından idi və geri çəkilərkən maksimum zaman qazandırırdı. Əlbəttə, oranı ələ keçirəndən sonra bu sistem düşmənin əks-hücumundan müdafiə olunmaq üçün bizə əlverişli şərait yaratdı.[1]

---

[1] Düşmən qlobal hegemoniyanın hədiyyə verdiyi yüksək hərbi taktikalarla da təchiz olunmuşdu. Onlar maddi imkan, silah-sursat baxımından da düşmənimizə yetərincə yardım edirdilər. Belə ki müharibə boyu Sepahın diviziyaları düşməndən alınmış qənimətlərlə təmin olunurdu; yəni düşmənimiz bizim hərbi imkanlarımızın mənbəyinə çevrilmişdi. Üçüncü ölkələrin peyk və casusları da düşmənə informasiya dəstəyi verirdi. Üçbucaq torpaq istehkamlar israillilər tərəfindən qurulmuşdu. Vəlfəcr-8 əməliyyatından sonra düşmənin bir neçə istiqamətdə həyata keçirdiyi hərəkətli müdafiə layihəsi onun üstünlük ruhiyyəsini gücləndirdi. Bunlardan əlavə, Kərbəla-5 əməliyyatında da xüsusi taktikalardan istifadə etdilər. Mənim Kərbəla-5 əməliyyatında əldə etdiyim sənədlərdə düşmənin əks-hücum layihəsi göstərilirdi. Düşmən bizim qüvvələrimizə bir istiqamətdən irəliləmək imkanı verirdi. Bu zaman özü xüsusi maneələrin arxasına çəkilirdi. Həm ehtiyat qüvvələri, həm də təmas xəttindən geri çəkilənlər oraya yerləşirdilər. Bununla da hücum edənlər at nalı şəklində mühasirəyə düşürdülər. Nəticədə, düşmən həm itirdiyi sahəni geri alırdı, həm də biz böyük itki

Körpüyə getmək üçün bəndin üstündən keçirdim, batalyonlar isə aşağısından hərəkət edirdilər. PK, DŞK, dördlü zenit pulemyotu və digər silahlarla oranı atəşə tuturdular, işıqlı güllələrin həcmi şəxsi heyəti qorxudurdu. Bəndin üstü ilə gedib deyirdim: "Baxın, bunların hamısı kor atəşlərdir".

Mövqeyə çatana qədər uşaqların ruh yüksəkliyini qorumağa çalışırdım. Qəribə idi ki, mənə heç bir güllə dəymirdi və sözüm inandırıcı görünürdü. Belə bir vəziyyətdə birinci körpüyə çatdıq. Düşmən bizim körpünün üstündən keçmək istədiyimizi fikirləşib balıq kanalının dimdiyini dəli kimi atəşə tuturdu və oranı bağlamaq üçün bütün qüvvəsini səfərbər etmişdi.

Körpünün yanında hərəkət istiqamətini komandirlərə izah etdim. Bir batalyon xurmalığa, biri də aypara istehkamlara getməli idi. Bölgənin yolunu, necəliyini və hərəkət tərzini batalyon və bölük komandirlərinə başa saldım. Lakin yola düşən kimi yolu səhv getdiklərini görüb təəccüb içində qaldım. Bir neçə dəqiqə öncə yolu başa saldığım bölük komandiri körpünün üstünə çıxdı, sonra xurmalığa getmək yerinə əməliyyat zonasına və Fəcr diviziyası ilə birləşəcək yerə getdi, şəxsi heyət də onun ardınca. Bilmirəm güclü atəşdən başını itirmişdi, yoxsa mən başa salanda fikri başqa yerdə olmuşdu. Var gücümlə qışqırırdım ki, bəlkə amansız atəş və gurultular arasında səsimi eşidib qayıdalar.

– Bu tərəfə... Bu tərəfə getməlisiniz...

Adını da çağırırdım, amma faydası olmurdu. Aramızdakı bəzi güclü və təcrübəli döyüşçülər şəxsi heyətə kömək məqsədilə xurmalığa və aypara istehkamlara getdilər. Lakin oranın problemi bir neçə nəfərlə həll olunası deyildi. Geri qayıda-qayıda onların nə qədər davam gətirəcəklərini fikirləşirdim. Qayıdanda paltarımda çoxlu dəliklər gördüm; yanımdan keçmiş güllələrin yeri idi.

Həmin iki batalyona ümidim olmasa da, İmam Hüseyn (ə) batalyonunun möhtəşəm çıxışı və Mustafa Pişqədəmin öz şəxsi heyəti ilə göstərdiyi rəşadətlər hamı kimi məni də sevindirirdi. Onlar ilk anlardan nəinki birinci körpüdən üçüncü körpüyə qədər məsafəni təmizləmiş, hətta Fəcr diviziyasına aid olan yeddinci körpüyə qədər ərazini təmizləyib Fəcr diviziyası ilə birləşmişdilər.

Yenidən Mənsur Süudi və Qulaməli Kələntəri ilə birlikdə qardaş Nəzminin və Kəbirinin olduğu səngərə qayıtdım. Çox yorulmuşdum. Altıkilometrlik bir yolu bir sutkada beş-altı dəfə gedib-gəlmək məni əldən salmışdı. Həm də bütün yol atəş altında idi. Digər tərəfdən, son 17 gündə yaralandığıma görə

---

vermiş olurduq. Əgər bir qədər geri çəkiləndən sonra qarşımızda sədd quran düşmən qüvvəsi bir batalyon idisə, ondan arxadakı mövqedə bir diviziya, ən sonda da bir ehtiyat korpusu dayanırdı. Beləliklə, irəliləyib bu mövqelərin hamısından keçmək çox çətin idi və çox zaman alırdı. Cənub cəbhəsində, xüsusən də Şələmçədə və Bəsrə şəhərinin önündə düşmənin müdafiə taktikası belə idi.

fiziki qüvvəm əvvəlki kimi deyildi. Allah-Allah edirdim ki, qızıl bir qəlpə mənə bir az istirahət versin. Ayaqlarım şişmişdi. Qardaş Kəbirinin yanına çatanda vəziyyəti izah edib fikrimi bildirdim: "Qardaş Kəbiri, məncə, İmam Hüseyn (ə) batalyonu əməliyyatı davam etdirsə, daha uğurlu olacaq".

Qardaş Kəbiri İmam Hüseyn (ə) batalyonunun kollektiv iş məharətini və istedadını, habelə öz cəsarəti və ağlı ilə hamını heyran qoymuş Mustafa Pişqədəmin layiqli komandirliyini nəzərə alıb gecə ikən bu qərarı qəbul etdi və əməliyyatı davam etdirmək üçün İmam Hüseyn (ə) batalyonunu balıq kanalının o tərəfinə aparmaq mənə tapşırıldı. Qərara alındı ki, dərhal hərəkət edib əməliyyata bələdçiliyi davam etdirək.

Səhərin ala-toranlığında yenidən yola düşdük. Uşaqlara dedim: "İndi bir xilaskar qəlpənin yeri necə də görünür!" Mənsur Süudinin cavabı cəbhədə hamıya aid olan təbəssüm oldu. Biz bir-birimizi yaxşı başa düşürdük. Mən bilirdim ki, uşaqlar o bölgəni hansı şəraitdə öyrənmişdilər. Cəbhədə böyüyənlər də bilirdilər ki, əməliyyatlarda məcburiliyə yer yoxdur. Xüsusən də biz Bəsic üzvləri gedib-getməməkdə həmişə azad idik. Biz bir yerdə oturub "yorulmuşuq, başqası getsin", yaxud "bir azdan gedəcəyik" - deyə bilərdik, ancaq orada “mən” və “biz” mövzusu yox idi.

Batalyonun yerləşdiyi yerə çatdıq. Onlar ələ keçirdikləri körpülərdə yerləşib əməliyyatı davam etdirmək əmrini gözləyirdilər. Bir an da arası kəsilməyən ağır atəşlər uşaqları çox narahat edirdi. Bütün üzlər toz-torpağın altında itmişdi. İmam Sahibəzzaman (ə) və İmam Səccad (ə) batalyonları bir iş görmədən bir saatdan az müddətdə dağılmışdı, İmam Hüseyn (ə) batalyonu isə bütün günü vuruşmuş, axşamdan səhərə qədər də var qüvvəsi ilə oranı qoruyub saxlamışdı. Ağa Mustafanı bir səngərdə tapdım. Müavini Məhəmməd Balapur yanında oturmuşdu və ortalarında ratsiya vardı. Hər ikisinin üz-başı toz-torpağın içində idi və başlarında dəbilqə vardı. İlk baxışdan ürəyimə dammışdı ki, ikisi də hicrətə hazırdır. Hal-əhval tutandan sonra Pişqədəm dedi: "Geriyə qayıtsan, ağa Kəbiriyə de ki, özümüzünkülərin topları bizi düşmən atəşindən çox narahat edir. Bir neçə saatdır sıxışıb qalmışıq. Heç olmasa, öz toplarımız bizi vurmasın".

Yorğun və kədərli idi. Deyəsən, son əməliyyatı olduğunu özü də anlamış, hər şeyini döyüşün ortasına gətirmişdi. Orada Yunus Mahmudzadə ilə Nasir Yusifini gördüm və axşam hücuma keçəcəyimiz aypara istehkamlar bölgəsi haqda məlumat verdim. Dedim ki, İmam Hüseyn (ə) batalyonu bu hücum üçün seçilib və səhərdən axşamüstünə qədər bölgəni öyrənib araşdırmağa vaxtları var. Bu barədə ağa Mustafa ilə də danışdım. O, bütün çətinlikləri qəbul etməyə hazır idi. Söhbətimizin sonunda Nasir Yusifi mənə bir kağız uzadıb dedi: "Bunu al, mənim vəsiyyətnaməmdir, məhəlləmizin uşaqlarından birinə verərsən".

– Bəs haradan bilirsən ki, mən səndən tez getməyəcəyəm?

– Mən sənə verirəm, irəli getsən, sən də başqa birinə verərsən.

Nasirin vəsiyyətnaməsini cibimə qoydum, amma onu heç vaxt kimsəyə verə bilməyəcəyimdən xəbərsiz idim.

***

Orada iş bitmişdi. Uşaqlarla sağollaşıb qərargaha yola düşdüm. Günortaya az qalırdı və mən çox güclü aclıq hiss edirdim. Son bir neçə gündə düz-əməlli bir şey yeməmişdim. Təchizat bölməsi balıq kanalına birləşən bənd kanalında ərzaq boşaldırdı. Oradakı yeməklərdən bir az yedim və təsadüfən, bir qrup kəşfiyyatçını, o cümlədən, Məhəmməd Purnəcəfi və qardaş Əsğər Abbasquluzadəni gördüm. Mövqelərin vəziyyəti və irəliləmə tərzi haqda onlara məlumat verib qərargaha yola düşdüm.

– Qardaş Kəbiri, mən bölüyün qərargahına baş çəkəcəyəm.

Quruculuq cihadı təşkilatının əməliyyatın birinci günündə çəkdiyi yolla geri qayıtdım.

Qayıtmaqda ən əsas məqsədim bir motosiklet götürmək idi. Bu haqda danışmışdım və motosiklet hazır idi. Öz mövqeyimizdəki qərargahımıza çatıb səngərə girdim. Səngərimiz çox möhkəm və girişi L şəklində idi.

Nahar yeməyi hazır idi: balıq konservi və badımcan püresi. İştahım açılmışdı və qarnım quruldayırdı. Orada oturub doyunca yedim. Dostlarıma baş çəkməyə də imkan yaranmışdı. Rəsul Səidiyə dedim: "Gedək Mənsur İzzətiyə baş çəkək". O isə səngərdə qalmağı üstün tutdu.

– Mən buradayam, sən get.

Səngərdən çıxdım. Fikirləşirdim ki, gəlməyim çox yaxşı oldu; həm yaxşı nahar elədim, həm də indi ağa Mənsurun yanına gedib Həbib və Vəliəsr batalyonlarındakı dostlarımdan xəbər tutar, Əhəd Müqimini də görərəm. Çünki Mənsur İzzəti harada olsaydı, Əhəd Müqimi də mütləq yanında olardı.

Səngərdən bir neçə metr uzaqlaşmışdım ki, zenitlərin gurultusu qopdu. Birdən düşmən təyyarəsi göydə vuruldu və sürətlə yerə enməyə başladı. Həmişə olduğu kimi, uşaqların hərəsi bir formada hisslərini büruzə verdi; təkbir deyir, fit çalır və qışqırırdılar. Mən də yumruğumu qaldırıb təkbir deyirdim. Gözüm təyyarədə idi.

– İndicə yerə düşüb partlayacaq.

Beynimdən bu fikir keçərkən birdən bir gurultu qopdu və isti qəlpə parçalarının qarnıma girdiyini hiss etdim.

"Salxım bombası! Əgər uzansam, mənə daha çox qəlpə dəyəcək!" Bu fikir bir anda beynimdən keçdi və bütün gücümü toplayıb ayaq üstə dayandım. Lakin yenidən gurultu qopdu və bu dəfə sanki böyrümə bir şey dəyib belimi ikiyə böldü. Özümü havası alınmış şar kimi hiss edirdim. Yerə yıxılmazdan öncə belimdən və böyrümdən fışqıran qanı gördüm. Sanki kimsə barmağını təzyiqli su şlanqının ağzına sıxmışdı və su daha güclü təzyiqlə püskürürdü.

Yaxınlığımda Seyid Zəfərançını görüb tanıdım. O, qaçırdı. Salxım bombaları bir-birinin ardınca yeri titrədirdi, onu çağırmaq istədim; bəlkə heç məndən səs çıxmadı: "Ağa seyid, mən... yaralandım..."

Gözlərim qaraldı. Heç nə görmürdüm. Torpaq soyuq idi, lakin hələ eşidir və hiss edirdim.

Yer titrəyirdi. Uşaqlar bir-birlərini və məni çağırırdılar. Birdən ortaya sükut çökdü. Özümü zülmət qaranlıqda tək-tənha hiss edirdim. Orada nə səs vardı, nə işıq, nə partlayış, nə zenit, nə təyyarə... Qapalı mühit məni sıxırdı. Aydınlıq axtarırdım: "Yəni ölmüşəm? Bəs nə üçün hər yer qaranlıqdır? Məgər şəhid aydınlığa çıxmır?!" Gözləyirdim ki, indicə kimsə gəlib mənə şəhadət müjdəsi verəcək və özü ilə aparacaq. Hədislərdə oxuduqlarım haqda düşünürdüm. Heç vaxt zərrə qədər işığı da elə həsrətlə gözləməmişdim. O vəziyyətdə əlimin üstündə bir əl hiss etdim. Əl məni əzizləyir və silkələyirdi. Tədricən qaranlıq dünyama səslər də girmişdi. Qəribə səslər idi; bəzən ağlamaq səsinə bənzəyən qalın və hündür səslər. Əlimi tutan əli sıxmağa çalışdım.[1]

***

Atılıb-düşürdüm. Bədənim islanmışdı və boğazım susuzluqdan yanırdı. Gözlərimi açdım və bir müddətdən sonra təcili yardım maşınında kələ-kötür bir yolla getdiyimi anladım. Rəsul Səidi də başımın üstə idi.

– Mənə nə oldu?

– Heç bir şey, qorxma, mühüm bir şey deyil.

Rəsul danışır, mənsə heç nə anlamırdım; çünki yenidən özümdən getmişdim.

Yenə yıxılmaq istəyəndə məni çağırdılar: “Mehdiqulu!”

Gözlərimi açdım. Harada olduğumu bilmirdim. Başımın üstdəki tavandan üstüörtülü səngərə bənzəyirdi. Rəsul hələ yanımda idi. Az sonra bir-iki nəfər qayçı ilə mənə yaxınlaşıb paltarlarımı kəsdilər və mən bir söz demədən yenə özümdən getdim.

Boğulmaq üzrə idim. Ürəyim bulanırdı. Gözlərimi açdım. Qusurdum və mədəmdə nə vardısa, hamısı bayıra tökülürdü: balıq və kürü konservi. Balıq və kürüdən iyrəndim. Kürünün qoxusu qan qoxusu ilə qarışıb boğazımı yandırırdı, amma su istəməyə taqətim yox idi. Başımın üstə iki həkim vardı və əllərindəki şəklə baxırdılar. Ora səhradakı təcili yardım məntəqələrinə bənzəyirdi. Rəsul yox idi. Yenidən huşumu itirdim.

Üzümə şillə vurduqlarını hiss etdim. Böyrüm yanırdı və kirpiyim ağırlaşmışdı. Gözlərimi açanda hər şeyi dörd görürdüm.

Yanımda iki nəfər vardı. Üzlərini yaxşı görməsəm də, səslərini aydın eşidirdim. Adımı soruşdular. Güclə cavab verdim: "Mehdiqulu".

– Özünə gəldi.

[1] Rəsul Səidi sonradan danışırdı ki, bombardman zamanı mənim yıxıldığımı görübmüş. Başımın üstünə gələndə daha nəfəs almadığımı düşünüblər. Bir neçə dəqiqədən sonra Rəsul mənim əlimi tutub ağlayarkən əlini sıxdığımı duymuş və hələ yaşadığımı öyrənmişdi.

Öz aralarında danışıb getdilər. Mən bir otaqda qaldım. Orada mənə tanış olan yeganə şey İmam Xomeyninin şəkli idi. İxtiyarsız olaraq, gözlərim yaşardı.

Bir də nə vaxt huşumu itirdiyimi bilmədim, amma qapını açıb məni otaqdan çıxaranda bir təcili yardım maşınına qoyduqlarını anladım. Maşın bir qədər gedəndən sonra dayandı, qapı açıldı və geniş bir əraziyə daxil olduq. Bəlkə də hava limanı idi. Bir az da susuzlamışdım. Təyyarənin gurultusu bütün səsləri boğurdu. Deyəsən, mənim kimi başqa bir neçə nəfər də xərəkdə idi. Başımız üstə gəldilər və bir nəfər tələsik qışqırdı: "Bunları aparın, vəziyyətləri pisdir. Tələsin!"

Bizi yaralıları daşıyan təyyarəyə qoydular. Təyyarənin bir hissəsində xərəkləri qoymaq üçün yerlər nəzərdə tutulmuşdu. Dörd-beş xərəyi müəyyən məsafələrlə üst-üstə qoyub möhkəm bağladılar və serumları dirəklərdən asdılar. Bir tibb işçisi yaralıların arasında gəzir, hərdən mənim yanıma da gəlirdi. Məncə, C-130 təyyarəsilə uçurduq. Nəhayət, yola düşəndə gözlərimi bağladım.

– Müqəddəs Məşhəd şəhərinin hava limanına enirik.

Bunu eşidəndə hələ gic kimi idim. Əhmədi və Məhəmmədi xatırladım. Əhməd Yusifi və Məhəmməd Məhəmmədpurla birgə ağanın ziyarətinə gəlmişdik.

– Salam olsun sənə, ey Əli ibn Musa Rza!

Bizi təyyarədən endirdilər. Susuzluqdan dəli olurdum. Yolda bizimlə gələn tibb işçisindən bir neçə dəfə su istəmişdim, amma verməmişdi. O, uzaqlaşanda fikirləşdim ki, qolumun serum şlanqını çıxarım və suyunu sorum. Şlanqı ağzıma qoydum. Su şor idi, lakin maye idi və qurumuş ağızı isladırdı. Bunu görən tibb işçisi tez yanıma gəldi, hirslənib acıqlandı və serumu yenidən yerinə birləşdirdi. Ağzımın duzluluğu məni daha çox susatdı.

Yenidən xərəyi apardılar. Təcili yardımların və xərək təkərlərinin səsi qulağımı batırırdı. Bizi hava limanında bir salona aparıb orada saxladılar. Tez oradan getmək istəyirdim. Həyatımın bitdiyini hiss edirdim, amma heç kim məni başa düşmürdü. Tanış bir adam mənə yaxınlaşırdı. Yusif Sarimi idi. Əməliyyatın birinci mərhələsində sinəsinə iki qəlpə dəymişdi və oraya köçürülmüşdü.

Halımı soruşdu, amma reaksiya verə bilmədim. Vəziyyətim yaxşı deyildi. Dərhal məni aparmağa gəldilər və Yusif də getdi.

Yenə təcili yardım maşınına girdik və maşın şəhərin küçələri ilə getməyə başladı. Gözlərim bağlı idi, amma ürəyim məqbərəni istəyirdi. Elə bilirdim ki, qalxsam, maşının pəncərəsindən qızıl günbəzi görəcəyəm. Nəhayət, çatdıq. Uzandığım xərəyi salondakı təkərli arabanın üstünə qoydular və salonun bir küncünə aparıb saxladılar.

Zaman keçmirdi. Yaddan çıxdığımı hiss edirdim. Ağrım yox idi, key kimi idim və susuzluq ciyərimi yandırırdı. Orada üç saatdan artıq gözlədim. Elə

bilirdim ki, mənə yaxınlaşan hər bir adam məni aparacaq, ya da nəsə deyəcək, amma faydasız idi. Öz-özümə düşünürdüm ki, bəlkə heç mən yoxam. Hiss etdim ki, məni çirkli və qanlı bandların töküldüyü yerin yaxınlığında saxlayıblar. Hər dəfə nəfəs alanda üfunət qoxusu içimə dolurdu. Günahlarımın yaxşıca bədəlini verdiyimi düşünürdüm. Birdən bir nəfər başımın üstə dayandı, damcı-damçı damarıma axan seruma baxdı, bədənimi yoxlayıb dedi: "Bunu aparın". Bu sözdən sonra məni cərrahiyyə əməliyyatı otağına aparıb narkoz verdilər. Gözümü açanda otaqda məndən başqa üç çarpayı da vardı və bir tibb işçisi bütün gecəni orada idi. Mən yalnız başımı sol tərəfə çevirib yandakı yataqda yatmış yaralını görə bilirdim. Özümə gəlincə bir neçə saat çəkdi. Əməliyyat zamanı boğazımdan mədəmə bir zond salmışdılar. O, məni çox narahat edirdi. Danışa bilən kimi ondan şikayətimi bildirdim, amma hamısı deyirdi: "Ona əl vurma, dözməyə çalış".

Vəziyyətim elə bir həddə çatmışdı ki, otağımıza girən hər bir həkimdən və tibb işçisindən zondu çıxarmasını xahiş edirdim, amma xeyri olmurdu. Yanımdakı yaralı tez-tez su istəyirdi və tibb işçisi hərdən pambıqla onun dodaqlarını isladırdı, boğazına isə zərrə qədər də su getmirdi. O da bir neçə dəqiqədən sonra yenidən "su... su..." deyirdi. Sol tərəfimdəki yaralının sinəsində və qarnında böyük yara vardı. Bəzən halı pisləşir və sayıqlayırdı. O da çox su istəyirdi və hərdən taxtının yanındakı kasaya qusurdu. Bir dəfə də su istəyərək qışqırırdı. Gözlərimi açıb ona baxdım. Birdən çarpayısının yanındakı çirk və qan dolu kasanı götürüb başına çəkdi. Bu mənzərə mənə çox əzab verdi. Həmin palatada olduğum müddətdə hər dəfə onu görəndə həmin səhnəni xatırlayırdım və ürəyim od tutub yanırdı.

Yaralarımdan xəbərim yox idi, yalnız şəhadətdən uzaq düşdüyümü bilirdim. Bir gün səhər çağı yaramın bandı dəyişiləndən sonra mənə bir telefon gətirdilər: "Evə xəbər vermək istəyirsənsə, zəng vura bilərsən".

Qonşumuzun telefon nömrəsini verib gözlədim. Evdəki böyük problem sarıdan hələ də çox sıxıntıda idim. Qardaşımın yoldaşı telefonu götürdü, sonra qardaşım gəldi. Bir neçə kəlmə ilə yaralandığımı və Məşhədin İmam Rza (ə) xəstəxanasında yatdığımı deyə bildim.

Yara döyüşü

I

Səhərdən axşama qədər otağımızda olan tibb bacısı Təbrizin Sərdrud şəhərindən mehriban bir qadın idi. Bəzən mənimlə azəricə danışırdı və yaralarımı həmişə ehtiyatla açıb-bağlayırdı. Həmin gün ailəmlə danışdığımı bildi. Axşamüstü adəti üzrə getdi. Təsadüfən, ertəsi gün otağımıza tanımadığım başqa bir tibb bacısı gəldi. O, yaramı bağladığı zaman otağın qapısı açıldı, dayım, arxasınca qardaşım Abdullah, anam və xalam içəri girdilər. Onların ağlaya-ağlaya içəri girmələri tibb bacısını hirsləndirdi. Onları bayıra çıxardı və işi bitənə qədər içəri buraxmadı.

Heç bir şey mənə anamı gördüyüm qədər yaxşı təsir etmədi. O, əlinin üstünə vurub ağlayırdı. Vəziyyətimin çox da pis olmadığını görmələri üçün bir neçə kəlmə danışmaq istədim, amma bacarmadım. Hamı vəziyyətimə görə narahat idi. Çoxdan idi özümü görmürdüm və vəziyyətimdən xəbərsiz idim.

Anamgil iki gün Məşhəddə qaldılar və çox vaxt xəstəxanada olurdular. Evdəki problemə görə tez qayıtmalı idilər. Vəziyyətimdən xəbərim olmadığına görə qardaşımın qalmasına ehtiyac olacağını düşünmədim. Anamla xalamın göz yaşları, öpüş və dualarını arasında onlarla sağollaşdım və getdilər.

Bir neçə gün ötdü. Vəziyyətimdə yaxşılığa doğru bir şey hiss etmirdim. Başıma nə gəldiyini anlamaq üçün diqqətimin cəmləşməsinə ehtiyac vardı və mən yaralanandan bəri onu əldən vermişdim. Hər gün dəfələrlə huşumu itirir və bir müddət komada olurdum. Bəzən tibb bacıları yaramı açıb-bağlayanda xəbərim olmurdu. Təxminən on beş gün belə yarıhuşlu vəziyyətdə qaldım. Nəhayət, məni yenidən cərrahiyyə əməliyyatına apardılar. Bu dəfə əməliyyatdan sonra yeddi çarpayılı bir palataya keçdim. Oradakı yaralıları səhər cərrahiyyə əməliyyatına aparır, axşamüstü gətirirdilər. Gördüyümdən qorxuya düşdüm. Kim ağrıdan şikayət edir və çox zarıyırdısa, əməliyyat otağına aparırdılar və həkimlər ağrısının səbəbini araşdırırdılar.

Yaralıların biri Sarəllah diviziyasından kermanlı bir gənc idi. O, bir dəfə ayağının ağrısından o qədər sızladı və o qədər əməliyyat otağına aparıldı ki, yol yeriməyə də qadir olmadı və nəhayət, həmin sızıltılarla şəhadətə qovuşdu. Ayağı minaya düşmüş başqa bir yaralı da vardı, vəziyyəti ağır idi, bir neçə gündən sonra o da şəhid oldu. Ağ ciyər, bağırsaq və mədə nahiyələrindən yaralanmış və əməliyyatdan yeni çıxmış başqa bir yaralı su istəyirdi. Atası yanında idi və NPO-da olduğunu bilmədən oğluna bir stəkan çay verdi. Bir neçə saatdan sonra o da ağır yaralardan şəhadətə qovuşdu.

Bir neçə günün içində palatadakı yeddi yaralıdan dördü şəhid oldu. Oradakı yaralıların vəziyyəti ağır idi və adətən, heç kim öz yarasını görə bilmirdi. Həmin uşaqlar kimi hər gün əməliyyat otağına aparılmaqdan qorxurdum. Buna

görə də, zarımamağa və hətta huşumu itirməyimə səbəb olsa da, ağrıya birtəhər dözməyə çalışırdım.

Bir gün qəribə hisslər keçirdim, əl-ayaqlarımdan soyuq girdi və bütün bədənim soyudu. Elə bir həddə çatdım ki, ah da çəkə bilmədim. Ağzımı açmaq istədim, amma bacarmadım. Yalnız qonşu çarpayıdakı yaralının ah-naləsini eşidirdim. İraqlı mücahidlərdən olan o yaralının səsinə tibb bacıları qaçdılar və dərhal hər iki qolumdan qan köçürməyə başladılar. Həkimlər gəlib gözlərimi açdılar və deyəsən, gözlərimin rəngindən və vəziyyətindən bədənimdə qanın olmadığını bildilər. Ayağımı yarıb içinə nə isə köçürdüklərini hiss etdim. Qan idi. Serumu elə açmışdılar ki, kisələr tez bir zamanda boşaldı. Ayağıma qoşduqları serumu dəyişdilər, digərlərini isə çıxardılar. Bir-birinin ardınca bir neçə kisə qan köçürəndən sonra yavaş-yavaş halım yaxşılaşdı. Təsadüfən, həmin gün evdən xəstəxanaya zəng vurdular. Onlardan bir nəfərin gəlib yanımda qalmasına qürurum icazə verməsə, elə ağır şəraitdə ailəmə başqa bir əziyyət vermək istəməsəm də, son hadisədən sonra məcbur qalıb anama dedim ki, qardaşlarımın biri bir neçə günlüyə yanıma gəlsin.

Ertəsi gün anam və qardaşım gəldi. İkinci gün qardaşım Həsən Təbrizdən gəlib anamı apardı və qardaşım Həmdullah yanımda qaldı.

Qardaşım gələndən sonra vəziyyətimdə böyük dəyişiklik oldu. O, düz-əməlli yata, istirahət edə bilmirdi. Çarpayının yanında yerə bir ədyal sərib orada yatırdı.

Yanıma bir əsa qoymuşdu. İşim olanda əsanı tərpədib onu oyadırdım. O müddətdə yalnız serumla qidalandığımdan tualetə getməyə ehtiyac olmurdu. Bütün işlərimi qardaşım görürdü. Sidik üçün qab gətirirdi, yaramı açıb-bağlayanda yanımda dayanırdı və çox vaxt tibb bacıları ilə mübahisə edirdi. Hərdən xəstəxanaya gələnlər bəzi sözlər deyirdilər və o, fikrə gedirdi. Bəziləri deyirdilər ki, ayaqlarımı zeytun yağı ilə masaj etsin ki, bükə bilim. Çünki o günə qədər yalnız sol əlimi tərpədə bilirdim. Çox arıqlamış qolumun xırda yaralarla dolu olduğunu görüb bilirdim ki, çox zəifləmişəm və belə kiçik yaralardan bəlkə bütün bədənimdə var.

Başımı və sağ əlimi qaldıra bilmirdim. Sol ayağım əsla hərəkət etmirdi və yalnız sağ ayağımın barmaqlarını tərpədə bilirdim. Bundan ötrü bir neçə dəfə ortopediya və sinir mütəxəssisləri məsləhətləşmələrə gəldilər. Sinir mütəxəssisi hər iki ayağıma iynə batırdı. Mən yalnız sağ ayağımdakını hiss etdim. Qovluğa nəsə yazıb getdi. Hər bir həkim müayinəsindən sonra tibb qovluğum qalınlaşırdı.

Heç kimə demirdim, amma cəbhə havası yaman beynimə düşmüşdü. Uşaqları tez-tez yuxuda görürdüm. Hamıdan çox Həsən Kərbəlayini, Əhəd Müqimini və Rza Daruiyanı. Bir dəfə onların üçünü yuxuda gördüm. Həsən Kərbəlayi məndən soruşdu: "Üzgəclə üzə bilirsən?" Dedim: "Verin, yoxlayım". Üzüb onların ardınca yola düşdüm. Dördümüz də dalğıc geyimi ilə üzürdük.

Şəhidlərdən, yaralılardan və digər uşaqlardan xəbərim yox idi. Gördüyüm yuxuları dəfələrlə təsəvvürümdən keçirirdim. O aydın və şirin yuxular ağrı və sıxıntı dolu günlərə dözümü asanlaşdırırdı. Bir gecə Əhəd Müqimini yuxuda gördüm. Mənə dedi: "Mehdi, uşaqlar deyirlər sən də şəhid olmusan. Bəs hanı? Haradasan?" Ona dedim: "Yox, Əhəd, sən şəhid oldun, mən yox".

Yuxudan oyanandan sonra uzun müddət fikrə getdim. Mən yaralanana qədər Əhəd sağ idi. Deyəsən, uşaqlar mənim vəziyyətimi görüb öldüyümü düşünmüşdülər. Yusif Sarimi də məni Məşhədə köçürüləndə görmüş, cəbhəyə qayıdanda hamıya demişdi ki, Mehdi o yaralarla sağ qalmaz. Beləliklə, mənim şəhadətim haqda şayiə dolaşmışdı. Əhəd yuxuda mənim şəhadətimdən danışırdı, mən də onun getməsindən. Və o günlərdə mən bilmirdim ki, Əhəd Müqimi, Həsən Kərbəlayi, Mustafa Pişqədəm, Balapur və digərləri şəhid olub dostların karvanına qoşulmuşlar.

***

O vəziyyətdə qardaşım zeytun yağı tapıb hər gün bir neçə dəfə ayaqlarımı masaj edirdi. Ayaqlarımın hərəkətində irəliləyiş vardı və hər ikimiz bunu görüb ürəklənmişdik. Bir neçə gündən sonra hər iki ayağımı tam bükə bildim, lakin sol ayağımı idarə edə bilmirdim. Sağ ayağımı özüm yığırdım, sol ayağımı isə Həmdullah əli ilə büküb-açırdı. O, ayaqlarımı masaj edəndə başımın altına kiçik bir balış qoyurdu və hər gün başımı 1-2 sm. daha yuxarı qaldıra bilirdim. Baxış dairəm dəyişilirdi və qələbə hissi keçirirdim. Başımı hər iki tərəfə çevirə bilirdim. Uzun müddətdən sonra başımın altdakı taxtı qaldıranda özümü görə bildim. Beləliklə, ilk dəfə yaramın sarıqlarına baxdım. Sarıqda iki şey diqqətimi cəlb etdi. Biri qarnımdan çıxan göbələyə bənzər bir şey idi. Soruşdum ki, bu nədir? Dedilər: "Adı kolostomiyadır".

Bu adı ilk dəfə idi eşidirdim. Onu kisəyə bənzər bir şeyin içinə qoymuşdular və hər gün dəyişdirirdilər.

Diqqətimi çəkən ikinci məsələ böyrümün yarası idi. Tibb bacısı pinsetlə onun içini təmizləyirdi. Pinset bədənimə toxunanda bildim ki, orada da böyük və dərin bir yaram var və uzun müddət onunla keçinməliyəm.

O yaranı açıb-bağlamaq üçün tibb bacısı hər dəfə üç serum işlədirdi. Serumun başını dəlib yaramın içinə boşaldır və yuyurdu. Yaraları açıb-bağlamağa və bütün bu dezinfeksiyalara baxmayaraq, iki saatdan sonra yaradan çirk qoxusu gəlirdi. Buna görə həkim təkidlə tapşırmışdı ki, hər gün yaramı dörd-beş dəfə təmizləsinlər. Bunlardan əlavə, qarnımda da böyük bir yara vardı. Ona heç bir tikiş atılmamışdı, üstü açıq idi. Mən ilk dəfə başımı əyib qarnıma baxa bildim. Bağırsaqlarımın hərəkətini, qanın damarlarda dövranını və digər orqanlarımın tərpənməsini görürdüm. Deyirdilər: "Bu yaranı bilərəkdən tikməmişik, çünki yaranın çirki var. Əgər tiksək, çirk qarnına yayılar. Hələlik bir müddət belə qalmalıdır".

Kolostomiya məsələsini soruşanda öyrəndim ki, qəlpələr bağırsaqlarıma dəydiyindən kiçik bağırsağımdan 30 sm. götürüblər. Qarnımın, sinəmin və

böyrümün yaralarını görəndən sonra anladım ki, çirk və yara ilə döyüş başlayıb.

***

Əvvəldən məni müayinə və əməliyyat edən həkimə "professor" deyirdilər. Elmi rütbəsi yüksək idi. Mənim onunla ünsiyyətim yalnız yaralarımı müayinə etdiyi məhdud saniyələrə aid idi. Bir pinsetlə yavaşca sarığı qaldırıb baxır və gedirdi.

O müddətdə hətta bir dəfə də mənə əl vurmadı, aramızda sual və səmimi salamlaşma olmadı. Bir dəfə müayinədən sonra soruşdu: "Bağırsağından hava çıxdığını hiss edirsən?"

– Bəli.

– Onda güman ki bağırsaqların bərpa olunub. Bu gündən etibarən gündə iki qaşıq duru maye qəbul edə bilərsən.

Bunu deyib getdi. Biz də sevindik ki, nəhayət, bir hadisə baş verdi. O günə qədər ancaq həmişə qolumda olan serumla qidalanırdım, hətta bir damcı su da içməmişdim. Həmin gün ilk dəfə bir qaşıq albalı şirəsi içdim. Ömrüm boyu içdiyim ən şirin albalı şirəsi idi.

Hər gün tədricən daha çox maye qəbul edirdim. İkinci gün iki qaşıq albalı şirəsi, üçüncü gün başqa bir meyvə şirəsi içdim. Tədricən menyuma şorba kimi duru xörəklər daxil oldu. Əvvəlcə gündə iki qaşıq idi, get-gedə çoxaldı.

Yemək icazəsi veriləndən talibi qovunu beynimə düşmüşdü. Qış idi, amma ürəyim çox istəyirdi. Qardaşıma dedim ki, get, gör talibi qovunu tapa bilərsənmi. Halımı başa düşüb getdi. Gedəndə səhər idi, amma axşamüstü əliboş və yorğun qayıtdı. Dedi: "Sabah yenə gedib nə olur-olsun, sənə talibi qovunu gətirəcəyəm".

Ertəsi gün getdi. Gözüm qapıda idi. Əlində iki talibi qovunu qapıda görünəndə sevindim. Nəhayət, bir dilim qovun yeyib özümə gəldim. Qardaşım ondan kiçik bir dilim kəsib ağzıma qoyurdu, mən də yavaş-yavaş yeyirdim. Çox ləzzətli idi.

Beynimə düşmüş ikinci həvəs də Təbrizə qayıtmaq idi. Hər gün yeri düşən kimi deyirdim: "İşləri yoluna qoy, öz şəhərimizə gedək".

Qardaşım telefonla mənim darıxdığımı evə demişdi və onlar Təbrizdə Müharibə yaralıları ilə məşğul olan idarə ilə əlaqə saxlamışdılar. Oradan demişdilər ki, məktub yazıb onun göndərilməsini istəmişik. Kərbəla-5 əməliyyatından sonra cəbhələrdə vəziyyət bizim xeyrimizə dəyişmişdi, düşmən də şəhərlərimizi bombalamağa başlamışdı. Əksər şəhərlər gecə-gündüz hücuma məruz qalırdılar. Bu səbəbdən yaralıları bombardmandan uzaq şəhərlərdən olan Məşhədə göndərirdilər. Belə şəhərlərdə yaralıların sayı olduqca çox idi.

Get-gedə darıxmağım müxtəlif şəkillərdə üzə çıxırdı. Hər gün günortadan sonra yaralılarla görüşə gələnlər arasında bir qadın vardı. O, gələndə sanki anamın gəldiyini hiss edir və hər gün onu gözləyirdim.

O, heç vaxt əliboş gəlmirdi, amma uşaqların onu sevməsi hədiyyələrinə görə yox, hamıya qarşı çox mehriban olduğuna görə idi. Bizə demişdilər ki, o, üç şəhid anasıdır. Hamımız ona "ana" deyirdik. O və onun kimi çoxları xəstəxanaya gəlib təmənnasız işləyirdilər. Bəzi tibb bacıları yaralılara ikrahla qulluq edirdilər, İslam quruluşunu və müharibəni sevmədikləri bəlli idi. Onlar bizim mələfələrimizi çox vaxt iyrənə-iyrənə və narahat halda dəyişdirirdilər. Ana belələrini görəndə danlayır, mələfələri alıb özü təmizləyirdi.

Hər bir yer kimi xəstəxanada da müxtəlif insan və inanclar vardı. Bəziləri can-başla yaralılara qulluq edirdilər, bəziləri isə nazla və ikrahla. Xürrəmşəhrdən bir tibb işçisi vardı. Mühacir kişi idi. Adətən, gecələr gəlir və bir an da bikar oturmurdu. Həmişə ürəyim istəyirdi ki, yaramı o açıb-bağlasın. Digər tərəfdən, səhərlər yaramı dəyişdirməyə bir qadın gəlirdi. O, gələndə ürəyimin yaralarımdan çox ağrıdığını hiss edirdim. Yaramı elə sarıyırdı ki, sanki murdar bir şeyə əlini vurur.

Həmin günlərdə həkimim dəyişildi və professoru daha görmədim. Yeni doktor gənc bir oğlan idi. İlk ünsiyyətdən onunla professor arasında yerlə-göy qədər fərq olduğunu bildim. Cərrah və mütəxəssis həkim idi. Onun sevgi dolu səmimiliyi əhval-ruhiyyəmi çox yüksəldirdi. Adını bilmirdim, amma həmişə sözləri ilə məni güldürürdü. Hətta halım pis olanda məni danışdırır və vəziyyətimi öyrənmək üçün yanımda qalırdı. Ona inanandan sonra məni xəstəxanadan çıxarmasını israrla xahiş etdim. Qardaşım da gecə-gündüz bunu eşidirdi: "Bəs nə vaxt qayıdırıq?!" O qədər darıxırdım ki, hətta şöbə rəisi gələndə ondan da soruşdum ki, məni nə vaxt göndərirsiniz?

Səbrim tükənmişdi və daha heç bir şəraitdə orada qalmaq istəmirdim. Qardaşım yanımda olduğu 25 gündə bir dəfə də rahat yatmamışdı. Mən həm də ona əziyyət verdiyimə görə narahat idim. Hər bir xırda şeydən inciyirdim. İbadətlərim Təbrizə və evə qayıtmaq duası ilə bitirdi.

Bir gün həkimim gəldi, təsbehimi alıb biləyinə doladı, üzüyümü də barmağımdan çıxarıb öz barmağına taxdı. Sonra da tibb işçilərini çağırdı ki, gəlin aparın. Məni otaqdan çıxardılar, amma əməliyyat otağına apardılar və mən tezliklə huşumu itirdim.

Gözlərimi açanda öz çarpayımda idim; həmin palatada, həmin pəncərənin arxasında. Qarnımda nəyinsə uzandığını hiss edirdim. Həmdullah yanımda idi.

– Nə etdilər?

– Qarnını tikdilər, böyrünün yarasını da bir qədər böyütdülər ki, çirki yaxşı təmizləsinlər.

Daha qarnımın dəliyindən bədən orqanlarımı görmürdüm, amma kolostomiya torbası və çirk hələ qalırdı. Bəzi günlər çirkin çoxluğundan mələfəmi gündə üç dəfə dəyişdirirdilər. Böyrümü örtən sarığın çox qalın olmasına baxmayaraq, yaramın çirki hətta mələfəni də isladırdı. Sol ayağım üçün iki dəfə mütəxəssis gətirdilər. O, qəti fikir bildirməyib dedi ki, gərək bütün müalicəsi bitsin, sonra ayağının müalicəsinə başlayaq.

“Nə vaxt tam sağalacağam?” Bu sualın isə dəqiq cavabı yox idi.

***

Bir gecə yuxuda Rza Daruiyanı gördüm. Mənə deyirdi: "Qalx, kəşfiyyata gedək, dalğıclıq etməliyik".

Yenidən cəbhənin və səmimi dostların fikri məni qərarsız edirdi. Cəbhəyə qayıdış, əməliyyatlarda, təlim və kəşfiyyatlarda iştirak etmək bütün ümidlərimin qaldığı bir yuxu kimi idi.

Novruza bir aydan az qalırdı və mən get-gedə şəhərimizə və evimizə daha çox darıxırdım. Bunu həkim də hiss etmişdi. Nəhayət, qardaşımın səyi və həkimin köməyi ilə İmam Rza (ə) xəstəxanasından Təbrizin İmam Xomeyni xəstəxanasına aparılacağımı söylədilər. Tezliklə böyük qardaşım Abdullah mənim göndəriş vərəqəmi gətirdi. Ora-bura qaçandan sonra sənədlərimi düzəltdilər və mən palata ilə, palata yoldaşlarımla və xəstəxananın yeknəsəq yolları ilə vidalaşdım. Məni xərəyin üstündə xəstəxanadan çıxardılar. Təxminən 40 gündən sonra təmiz havaya çıxdım. Üzümə təmiz hava dəyəndə dərimi yandırırdı. Pilləkənlə təcili yardım maşını arasındakı açıq hava o xəstəxanadakı ən şirin anlarım idi.

Təcili yardım maşını yola düşdü və uzun yol gedəndən sonra hava limanına çatdıq. Bir sərnişin təyyarəsi ilə Tehrana gedəcəkdik. Təyyarədə iki yaralı xərəyinə yer hazırlanmışdı.

Təyyarə səmaya qalxdı. Bir neçə dəqiqə ötməmiş qarnımdan su töküldüyünü hiss etdim. Əlimi qarnımdakı sarıqlara vurdum. Qanlı idi.

Bildim ki, təcili yardım maşınının və təyyarənin təkanları qanaxmaya səbəb olub. Tezliklə altımdakı mələfənin də islandığını hiss etdim. Yanımda heç kim yox idi. Qardaşlarım oturacaqlarda oturmuşdular və hərdən mənə baxırdılar. Qardaşım baxanda qanlı əlimi ona göstərdim. Tez yanıma gəldi və vəziyyətimi görüb təyyarənin işçilərini çağırdı. Onlar da gəldilər və ətrafım adamla doldu. Lakin mənə kömək edəcək bir kəs yox idi. Mikrofonla elan etdilər ki, sərnişinlərin arasında həkim varsa, cəld bizə məlumat versin.

Huşumu itirmək üzrə idim ki, əlində qara çanta olan bir nəfər adamların içinə girdi. Çantasında sarıqlar vardı. Təyyarədəki tibb ləvazimatlarını da gətirdilər. Baxırdım ki, görüm nə edir. Gördüm ki, yaramı yenidən bağlamaq istəyir, lakin onun bağladığı yerdə yara yox idi. Yara qarnımın ortasında idi, qan isə sol tərəfdən sarığın altından axırdı. Mənə yardım etmək istəyən həkim bütün bandları həmin hissəyə qoydu, qanaxma da dayanmadı. Xoşbəxtlikdən, təyyarə tez Tehranda yerə oturdu. Təbriz uçuşuna bir saat qalırdı. Buna görə məni hava limanındakı təcili yardım bölməsinə apardılar. Orada müharibə yaralılarına təcili yardım xidməti göstərilirdi. Oradakı həkim başımın üstünə gəldi, mələfəni kənara çəkdi və nə gördüsə, dedi: "Bunu bu vəziyyətdə hara aparırsınız?! Yox, bu, Təbrizə gedə bilməz".

Ürəyim üzüldü. Çaladan çıxmışdım, o isə məni Tehran adlı bir quyuya salırdı. Dedim: "Qardaş, mən yaxşıyam, icazə ver..."

– Yox, burada xəstəxanada yatmalısan.

Bunu deyib qardaşlarımla danışdı. Bilirdim ki, öz əlimdən bir iş gəlməyəcək, bəlkə qardaşlarım məsələni həll edə bilərlər. Lakin onlar tezliklə ağlaya-ağlaya məni təcili yardım maşınına qoydular və xəstəxanaya yola düşdük. Heç nə soruşmadım, təxmin etdim ki, həkim nəsə deyib və onlar mənim ölmək üzrə olduğumu düşünüblər.

***

Cəm xəstəxanası Tehranın şimalında yerləşirdi. Mən bütün yolu halsız və məyus vəziyyətdə getdim. Qanaxma məndə can qoymamışdı. Bir neçə dəqiqədən sonra məni maşından çıxardılar, amma xəstəxana müharibə yaralısı qəbul etmirdi. Müharibə Yaralılarına Xidmət Mərkəzinin nümayəndəsi yanımızda idi. O, deyirdi ki, hər özəl xəstəxana dörd müharibə yaralısı qəbul etməlidir, bu xəstəxanada iki yaralı var, biz bundan sonra birini də gətirəcəyik. Onlar qəbul etmək istəmirdilər, qanaxmam isə davam edirdi. Xəstəxananın necə olacağını əvvəldən bildim.

Nəhayət, məni xudmani bir qonaq otağına bənzər palataya apardılar. Palatanın qapısı hamam və tualetin olduğu dəhlizə açılırdı. Palatada hərəsi bir tərəfdə olmaqla iki çarpayı vardı. Ortada stol-stullar vardı, divarda dekorativ şkaf. Mən həmin otağa girən ilk yaralı idim. Bir neçə saata qədər heç bir həkim və tibb işçisi yanıma gəlmədi. Nəhayət, bir tibb bacısı gəldi. Onu görüb təəccübləndim. Sanki o xəstəxanada hələ inqilab baş verməmişdi. Hicab və geyiminin vəziyyəti bərbad idi, rəftarı da Məşhəddə yaramı bağlayan tibb bacısının rəftarından on qat pis. Mənə baxıb getdi. Dedim: "Bacı, bağışlayın, olar ki, mənim mələfəmi dəyişdirəsiniz?"

Elə əsəbiləşdi ki, sanki onu təhqir etmişdim.

– Mənə “bacı” demə, “xanım” de.

– Baş üstə, xanım.

Mələfəm qanla islanmışdı. O qadının və xəstəxanada çox olan onun kimilərin düşüncə və məqsədlərini anlamağa çətinlik çəkirdim. Necə ola bilər ki, ağ həkim paltarı geyinsinlər, amma qanaxmadan huşunu itirməkdə olan bir xəstə ilə söz üstündə mübahisə etsinlər?! Lakin cəbhə mənə onları asanlıqla bağışlamağı öyrətmişdi. Onların müharibə yaralılarına qarşı rəftarları təhqiramiz idi və "Bu xəstə yaxşılaşıb. Evə buraxılsın!" yazmaq üçün ilk fürsəti gözləyirdilər.

Cəm xəstəxanasında heç bir mehribanlıq və qayğıkeşlik olmasa da, əvəzində maddi cəhətlərə çox əhəmiyyət verirdilər. Məşhəddə sup və sadə yeməklər verilirdi, burada isə kabab-plov. Məşhəddə görüş vaxtı mömin adamlar və adi insanlar xəstəxanaya axışıb yaralı döyüşçülərin halını soruşurdular, Cəm xəstəxanasında isə bütün get-gəllər nəzarət altında idi və orada olduğum müddətdə heç kim mehribancasına halımı soruşmadı. Həkimlərin və tibb bacılarının xəstəliyimlə bağlı suallarına bir neçə qısa cümlədən ibarət cavablardan başqa təxminən heç nə danışmadım və

istəmədim. Qardaşlarım da mənim kimi ilk fürsətdə Təbrizə qayıtmağımızı gözləyirdilər. Həmdullah Məşhəddə yanımda qaldığı müddətdə nəyə ehtiyacım olduğunu bilir və həll edirdi. Çünki Məşhəddə son günlərdə adi xörək yeməyə də icazə verirdilər. Nəcis kolostomiya torbası vasitəsilə xaric olurdu və qardaşım torbanı dəyişdirirdi. O anlarda çəkdiyim narahatlıqlar yaramın, çirk və qəlpələrin bütün əzab-əziyyətlərinə bərabər idi.

Bağırsaqlarımın səsinə nəzarət edə bilmirdim. Qardaşımın kolostomiya torbasını dəyişdirməkdə lütfkarlığı səbəbindən onun yanında rahat idim.

İkinci gün palataya bir yaralı gətirdilər. Onun yeganə sağlam yeri qulağının arxası idi. Bilmirəm necə olmuşdu ki, elə ağır yaralanmışdı. Bir dəfə soruşanda çox adi şəkildə cavab verdi: "Mən ... diviziyasında idim. Məni dalğıc batalyonuna salıb ağır təlimlər keçirdilər, mənsə istəmirdim, tez-tez təlimdən qaçıb düşərgənin ətrafında gəzirdim. Orada bir top mərmisi tapdım, nə etdimsə, partlamadı. Mərmini yerə qoyub istehkamın üstündən daşla vurdum, partlayanda da bu hala düşdüm".

O, gələndən sonra fikirləşdim ki, Allah mənə yenidən müxtəlif baxışlı insanları görmək və seçdiyim yolun dərinliyini öyrənmək imkanı vermişdir. Oradakıların hamısı müharibədən, inqilabdan, imamdan və şəhidlərdən uzaq idilər. Onlarla biz iki fərqli düşüncə cəbhələrinin adamları idik. Orada elələrinin "müharibə" adlandırdıqları amilə dair dayaz və kobud təsəvvürləri qarşısında İslam cəbhələrinin gözəlliyini daha yaxşı dərk etmək olurdu.

Orada beş gün qaldım və günü-gündən qərarsız oldum. Bir gün Abdullahla Həmdullah köməkləşib başımı yudular. Yaralanandan sonra ilk dəfə idi ki, başıma su dəyirdi. Cəbhənin toz-torpağı orada saçımdan yuyuldu. Saçımın arasındakı tozları təmizləmək üçün teşti iki dəfə boşaltmalı oldular. Üzümü, saç-saqqalımı da yudular, təmizlənib səliqəyə düşdüm. Çox rahatlaşdım. Sutka ərzində yalnız yatmağa və namaza sudan çıxdığımız günlər yadıma düşdü və balıq kimi sudan ayrı düşdüyüm son 50 günü o günlərlə müqayisə etdim.

Bu müddətdə çəkim 30 kq. azalmışdı, bir dəri, bir sümük qalmışdım. Çirk kəsilmirdi, ağrı və qızdırma daimi idi. Sol ayağımdan ümidimi üzmüşdüm, çünki heç bir şəraitdə qeyrətə gəlmir və mənim iradəmlə açılıb-bükülmürdü. İmam Rza (ə) xəstəxanasında olduğu kimi, orada da namazlarımı təyəmmümlə qılırdım. Huşumu itirdiyim və ya komada olduğum günlərdən başqa heç vaxt azan anlarını əldən verməmişdim. Uşaqlar üçün və qayıtmağımdan ötrü dua edirdim.

Beşinci gün duam qəbul oldu. Bütün o müddətdə həddən artıq vasvasılıqla yaralarımı müayinə etmiş həkim üzünü mənə yox, tibb bacısına tutub dedi: "Bunun heç nəyi yoxdur, götürün, aparın!"

Təbrizə göndəriş vərəqəm qardaşımda idi. Sevincimdən gözlərim yaşardı. Palata yoldaşımla sağollaşdım. Məni təcili yardım maşınına qoydular, sonra hava limanı və təyyarə...

Həyəcanlı idim və sevinirdim. Bunlar səbəbsiz deyildi. Təyyarə Təbrizdə yerə oturanda məni aparmağa gələnlərin hamısı tanış idi. Onların hamısı təəccüblənirdilər. Çünki iki ay öncəki Mehdi ilə heç bir oxşarlığım qalmamışdı. On yeddi günün içində iki dəfə yaralanmışdım. Kərbəla-4 əməliyyatının güllələri, Kərbəla-5 əməliyyatının da qəlpələri hələ çiynimdə, sinəmdə, böyrümdə və fəqərə sütunlarımda idi. Məni öncədən tanıyanlar indi ayrı cür baxırdılar.

Təcili yardım maşını birbaş İmam Xomeyni xəstəxanasına getdi. Bir-iki saat təcili yardım bölməsində qaldıq və bizə heç kim yaxınlaşmadı. Deyirdilər ki, həkimə demişik gəlsin, indi filan həkim gələcək və s.

Bir neçə dəfə müxtəlif həkimlərin adını eşidəndən sonra bir həkim gəlib qalın qovluğumu oxudu, fikirləşdi, bir qədər gəzişdi və sonra dedi: "Buraya qədər hansı əməliyyat lazım idisə, ediblər. Əgər bu vəziyyətlə burada yatsan, sənə yaxşı qulluq edə bilməyəcəklər. Yaxşı olar ki, evə gedəsən..."

Sözlərinin qalanını eşitmədim. Allah məni arzuma çatdırmışdı.

II

Təcili yardım maşını məhəlləmizə yola düşdü: Şəhid Müfəttih xiyabanı, Şərbətzadə məhəlləsi. İşlər o qədər sürətlə getdi ki, qardaşım evə xəbər verə bilmədi. Təcili yardım maşınını görən məscid uşaqları və qonşular maşının ardınca gəldilər. Maşının qapısı açılanda məhəlləmizin uşaqları salavatla xərəyi yerə endirdilər. Anam mənim gəldiyimə inanmırdı. Evdə hazır bir yer yox idi, amma tez bir çarpayı gətirib ikinci mərtəbədəki otağa qoydular. Anamın tikdiyi döşəyin üstünə uzananda rahatlıq və təhlükəsizlik hissi bütün vücudumu bürüdü. Ev adamla dolub-boşalırdı və bu izdiham xəstəxana günlərinin tənhalığının əvəzi idi.

Qonşular, qohumlar, məscid uşaqları və cəbhə dostlarım tez-tez mənə baş çəkirdilər. Yavaş-yavaş köç xəbərləri eşidirdim; Kərbəla-5 əməliyyatında dostlarımın şəhadət xəbərlərini. Deməli, Əhəd Müqimi həqiqətən, şəhid olub, Mustafa Pişqədəm də rahat olub, İbrahim Əsğəri, Yusif Həqqayi, Mehdi Əliəkbəri, Həsən Kərbəlayi, Balapur, Nasir Yusifi və digərləri də. Onları xatırlayıb ağlayır, hallarına qibtə edirdim.

***

Anam mənə tibb bacısı olmuşdu. Çox tez bir zamanda kolostomiya torbasını dəyişməyi öyrəndi və başqa bir adamın mənə əl vurmasına qoymadı. Belimin çirki get-gedə çoxalırdı. Yaradan pis qoxulu sarı maye axır, döşəyi və mələfəni isladırdı. Anam mənə körpə döşəkləri kimi kiçik bir döşəkcə tikmişdi. Onu belimin altına qoyur və altından müşəmbə sərirdi ki, belimin çirki əsl döşəyi islatmasın. Gecədən səhərə qədər döşəkcə tam islanıb çirklənirdi. Hətta ayaqlarımın islandığını da hiss edirdim.

Anam sübh namazından əvvəl döşəkcəni götürür, mələfəni dəyişdirib yuyurdu. Bəzən yuxuda olanda torba açılıb hər tərəfi murdarlayırdı. Mən pis

qoxudan narahat olurdum, anam isə bir mövzu haqda danışıb fikrimi yayındırır, məni narahat olmağa qoymadan torbanı dəyişdirir və bədənimi paklayırdı. O, yatağı dəyişdirir, çirkdən islanmış döşəkcəni götürür, əl-üzümü yuyur və ətrafımı gül kimi təmiz saxlayırdı. Ömrümün ən narahat anları kolostomiya torbasının açılıb hər yeri bulaşdırdığı anlar idi. O anlarda Səddama ürəkdən qarğış edirdim: "Səddam, səni görüm bu günə düşəsən!"

Anam hər gününə məni və yatağımı təmizləməklə başlayırdı. Mən çirk və nəcis iyindən əziyyət çəkdiyim zaman da o, heç nə büruzə vermirdi. Otaqdan pis qoxu gələndə tez ətir vurur və heç kimin duymasına imkan vermirdi. Hərdən dostlarımın yanında halım pisləşəndə anam anlayıb uşaqlardan xahiş edirdi ki, bir neçə dəqiqə başqa otaqda gözləsinlər. Sonra tez yerimi dəyişdirib səliqəyə salırdı və məni yenə dostlarımla tək buraxırdı. Yanıma tez-tez gələnlər bilirdilər ki, anam "ya Allah" deyəndə otaqdan çıxmalıdırlar.

***

Evə qayıdandan psixoloji vəziyyətim çox yaxşılaşmışdı, belimin çirki imkan versəydi, fiziki baxımdan da şikayətim yox idi. Şəhid fondundan gündə üç dəfə yaralarımı bağlamağa gəlirdilər; serum köçürür, iynə vurur və dərman verirdilər. İki dəfə də məni təcili yardım maşını ilə xəstəxanaya apardılar və doktor müayinə etdi. Buna baxmayaraq, çirkə heç bir dərman təsir etmirdi.

Səhərdən axşama qədər qapı açıq idi və məhəlləmizin uşaqları icazə almadan başlarını aşağı salıb düz yanıma gəlirdilər; Əli Hacıbabayi, Maqsud Nalbəndi, Məhəmməd Purnəcəf, Rəsul Səidi və digərləri. Onların çoxu yaralı idi və mənim palata yoldaşlarıma çevrilmişdilər. Uşaqların yanında olanda vaxt tez ötürdü, xatirələri yada salmaq və yeni xəbərlər eşitmək həzz verirdi.

Zaman ötdükdə özümdə ciddi dəyişiklik görməyəndə Qadir Təhmasibinin[1] sözünü xatırlayır və bu nəticəyə gəlirdim ki, özüm bir şey fikirləşməli və bir yol tapmalıyam.

Qadir yaralanandan sonra cəbhəyə qayıdanda deyirdi ki, onun kimi yaralanmış uşaqlar hələ ya palatadadırlar, ya da əlil arabasında. "Bəs sən necə ayağa qalxıb cəbhəyə gələ bildin?" – deyə soruşanda isə belə cavab verirdi: "Mən çox əziyyət çəkdim, heç vaxt sakit oturmadım; idman edir, piyada gəzir və ayaqlarımın sağalması üçün ağlıma gələn hər bir işi görürdüm. Nəhayət, o qədər yaxşılaşdım ki, cəbhəyə dönə bildim".

Qadirin sözlərini yada salandan sonra qərara gəldim ki, fürsətdən istifadə edib bir iş görüm. Günboyu bəzən tək olanda darıxırdım, lakin çox vaxt tənhalığa ehtiyacım olduğunu hiss edirdim. Özüm istəyirdim ki, hamı aşağı ensin və mən tək qalım. O saatlarda zəruri bir şeyə ehtiyacım olanda və səsim aşağı getməyəndə çətinliyə düşürdüm. Bir gün Abbas Məhəmmədi ilə bir neçə cəbhə yoldaşım bizə gəldi. Onlar mənə bir uşaq şokoladı və bir siqnal almışdılar. Biz uşaq olanda südçü velosipedlə məhəlləmizə gəlib siqnal verirdi

[1] O, 1985-ci ildə Bədr əməliyyatında şəhadət məqamına nail olmuşdu.

və hamı onun gəldiyini bilirdi. O zaman siqnala “bəbu” deyirdik. İndi özümün bir bəbum vardı. Anam mənim paltar və döşəklərimi yuyanda, yaxud yemək bişirəndə və ya ev işlərini görəndə bəbumun səsinə özünü yetirirdi. O, bütün işlərimi yorulmadan və narahat olmadan görsə də, yenə boğazımı qəhər tuturdu. Bir tərəfdən də qorxurdum ki, Qadirin dediyi dərdə düşüb aylarla və bəlkə illərlə yataqda qalım. Qərarımı verdim; nə olsaydı, o şəraitin təkrarından yaxşı olacaqdı.

Tək olanda yerimdən qalxmağa həvəslənirdim. Nəhayət, qərarımı həyata keçirdim. Əvvəlcə çarpayının yanında oturdum, əlimi divara söykəyib qalxmağa çalışdım. Çarpayımın yanında bir stul vardı, bəzən anam onun üstündə otururdu. Salavat deyə-deyə çətinliklə qalxıb onun üstündə oturdum. Hələ yataqdan ayrılmağın qələbə həzzini dadmamış göydə uçduğumu hiss etdim və başı üstə yerə yıxıldım. Başım gicəllənirdi. Siqnal yaxında deyildi və kimisə çağırmağa qorxurdum ki, gəlib məni çox danlayacaq. Fikirləşirdim ki, özüm qalxmalıyam, amma tərpənə bilmirdim. Qapı açılana və anam gələnə qədər eləcə qaldım. O, çox qorxdu. Onun səsinə qardaşlarım gəlib məni çarpayıya qaldırdılar. Xalçanın üstündəki qan hamını qorxutdu. Qarnımın yarasından gəlmişdi.

Hərə məni bir şəkildə qane etməyə çalışırdı ki, bir də bu işi təkrarlamayım. Dinmirdim, amma daha qorxum çıxmışdı. Öz-özümə deyirdim ki, necə olursa-olsun, ayağa qalxıb yeriyəcəyəm.

Növbəti dəfə başladım. Hərəkətdən öncə sağ ayağımı büküb-açdım, gimnastika elədim və əvvəlcə bir az taxtın üstündə oturdum. O vəziyyətə adət edəndən və başgicəllənməm azalandan sonra ayağa qalxdım. Sağ ayağım məni bir addım irəliyə apardı, amma sol ayağım bükülmədi və yenə yıxıldım. Yenə gözlədim və yenə gəlib məni yerimə qoydular.

Bu dəfə danlaqlar hədəli idi, mənsə hələ təzə başlamışdım. Bu nəticəyə gəlmişdim ki, ağırlığımı sol ayağıma saldığım üçün addım atmaq istəyəndə ayağım qatlanır. Mən əlimdən kömək alıb yalnız sağ ayağımla çalışmalı idim. Növbəti dəfə hərəkət etdim, bir-iki addım atandan sonra ləhləyə-ləhləyə yatağa qayıtdım.

Sirrimi saxlamağa çalışdım. Bir dəfə axşamüstü qardaşlarım yanımda oturmuşdular. Onlar mənim vəziyyətimdən narahat idilər və mövzu yol yerimək idi. Onlar elə bilirdilər ki, mən ayağa qalxa bilmirəm. Zamanı gəlmişdi. Onlara dedim: "Mən sizdən yaxşı yeriyirəm".

– Mehdi, narahat olma, biz bilirik ki, sənin ayağın...

– Ciddi deyirəm. İnanmırsınızsa, baxın.

Ürəyimdə "la həulə və la quvvətə illa billah" deyib yataqda oturdum. Başgicəllənməm gedəndən sonra ayağa qalxdım. Diqqətim sol ayağımda idi və evdəkilərin təəccüblü baxışlarını hiss edirdim. Birinci addım özümə inamımı artırdı. Əlimin köməyi ilə sol ayağımı irəliyə çəkir və ehtiyatla növbəti addımları atırdım. Həmin otaq üç metr enində və altı metr uzunluğunda idi və

mən otağın uzununu axıra qədər getmişdim. Otağın o başında divarın yanında dayanıb qardaşlarıma baxdım. Hər üçü oturduqları yerdə idilər və heç bir söz demədən ağlayırdılar. Bilirdim ki, bir neçə aydan sonra bu ağlamaq sevindiklərindəndir. Geri dönmək istəyəndə yıxıldım. Tez qucaqlarına götürüb taxta uzatdılar. Ümid mehi ruhumu təzələmişdi.

***

Evdə olduğum təxminən iki həftədən sonra bir-birinin ardınca yaxşı hadisələr baş verirdi. Qarnımın tikişlərini sökəcəkdilər. Əvvəlcə iki tikişdən birini açdılar, bir neçə gündən sonra isə bütün tikişləri sökdülər. Lakin böyrümün çirki hələ davam edirdi və heç bir həkim onun daimi ifrazının səbəbini tapa bilmirdi. O yara ilk gündən fərqlənməmişdi. Bəzən ağrı məni o qədər incidirdi ki, özümdən asılı olmadan bəzi işlər görürdüm. Bir dəfə yanımdakı maqnitofonu divara elə çırpdım ki, bir neçə parçaya bölündü. Ağrıya qarşı dözümlü idim, zarımırdım, amma bəzən səbir kasam daşırdı və onda əlimin altında nə olurdusa, tullayırdım. Bir dəfə üzərində bir pişik və bir qırmızı gül şəkli olan kiçik metal zibilqabını əllərimdə elə sıxdım ki, əzildi.

Çirk səbrimi tükətmişdi. Duam bu idi: "İlahi, məni bu imtahandan başıuca çıxar! Bu yaralara məğlub olmaq istəmirəm".

Bir gün Maqsud Nalbəndi gəlib dedi ki, bir müddətdir Sepahın poliklinikasına çox savadlı bir həkim gəlib. Elə bir şəraitdə idim ki, yaxşılaşmaq üçün hər bir tövsiyəni ciddiyə alırdım. Həmin günə həkimdən randevü aldılar. O, doktor Sarxani[1] idi, bütün şəkillərə baxandan sonra yaxşı xəbərlər verdi: "İndi vaxtıdır. Mən əməliyyat edib kolostomiyanı qarnının içinə qoya bilərəm. Belinin yarası üçün də görüm nə etmək olar".

Bunu mənə deyib yanımdakılara belə tövsiyə etdi: "Hələlik əməliyyat üçün zəifdir, evə aparın və güclü xörəklərlə gücləndirin".

Evə qayıtdım. Yaralanmağımdan təxminən iki ay ötürdü və daha doktor Sarxaninin dediyi zamanı gözləyə bilməzdim. Beş gündən sonra yalvardım ki, gedin, doktordan xahiş edin, əməliyyatımı tezləşdirsin.

Doktor məni məyus etmədi və həmin gün Sina xəstəxanasının cərrahiyyə şöbəsində Nasir Zamani və Həsən Hüdayi ilə palata yoldaşı oldum. Nasir Zamanini Kərbəla-5 əməliyyatında şəhid olmuş qardaşı Məhəmməd Zamaninin vasitəsilə tanıyırdım. O, namaz qılmaq üçün bizim kimi təyəmmüm almırdı, hər dəfə yerə yıxılsa da, özü gedib dəstəmaz alır, bundan əl çəkmirdi. Sepahın tibb bölməsinin rəhbərlərindən olan Həsən Hüdayi ilə bir palatada olmaq da xeyrimə oldu. Diviziyanın tibb bölməsinin sədri Teyyub Şahi tez-tez onu görməyə gəlirdi və onların vasitəsi ilə mənimlə də yaxşı maraqlanırdılar.

O zaman xəstəxanalarda bint, sterilizə edilmiş tənzif və bu kimi əşyaların çatışmazlığı vardı, amma biz bu baxımdan korluq çəkmirdik.

[1] Sonralar parlamentə Təbrizdən deputat seçildi.

Bir dəfə görüşümüzə gələnlər arasında Əbdülrəzzaq Mirabı gördüm. O, mənimlə çox hal-əhval tutandan sonra dedi: "Diviziyadan səni görməyə gəliblər".

Bir neçə dəqiqədən sonra diviziya komandiri qardaş Əmin Şəriəti və komandir ofisinin rəhbəri Qulamhəsən Sefidgəri içəri girdilər. Diviziya komandirimiz məni görən kimi yarızarafat-yarıgerçək dedi: "Mehdiqulu, deyəsən, daha bir iş görə bilmirsən?!"

Bilirdim ki, məni o vəziyyətdə görməyə təəccüblənmişdir. O, iki aydan sonra məni yarı çəkimdə görürdü.

– Yox, qardaş Əmini, inşallah, tezliklə diviziyaya qayıdacağam.

Bunu dedim, amma ürəyimdə hər bir taleyə hazır idim. Təsəvvürü ağrılı olsa da, özüm də yavaş-yavaş inanırdım ki, bu yaralar sağalan deyil.

Doktor Sarxani əməliyyat zamanı təyin etdi və mənim intizarım sona çatdı. Hər şey bu əməliyyatdan asılı idi. Cərrahiyyə qrupunun başçısı Doktor Sarxani idi. İçəri girən kimi onun ciddiliyi və qətiyyəti gözümü tutdu. O müddətdə onun cəbhə yaralılarına qarşı qayğıkeşliyi də mənə sübut olunmuşdu. Eşitmişdim ki, bir gün öncəyə qədər digər həkimlər onunla mübahisə etmiş və ayağımı əməliyyat edə bilməyəcəyini söyləmişdilər. Ona demişdilər ki, sən ümumi cərrahsan, ortoped deyilsən. Lakin o, məni çirkdən xilas etməkdə qərarlı idi və bu səyi ona hörmətimi artırırdı. Mən taxta uzanmışdım, həkimlərin mübahisəsi isə hələ davam edirdi. Tezliklə sarı maye ilə qarnımı yudular və seruma narkoz iynəsi əlavə edəndən sonra ayıq dünya ilə əlaqəm kəsildi.

***

Gözlərim qaranlıq görürdü və səslər qarışıq idi. Qoca bir əl əlimi tutmuşdu. Gözümü açdım. Atam idi. Yox, anam idi. Həm anam idi, həm tibb işçisi, həm də atam. Həmişəki kimi sakitcə özümə gəldim. Əl-ayaqlarımı çarpayıya bağladıqlarını görəndə anamdan onları açmasını istədim. Yanımda oturub nigaran gözlərini mənə dikmişdi. Gedib tibb bacılarını səslədi. Onlar gəlib əl-ayaqlarımı açdılar. Həkim də gəldi, məni müayinə etdi və üzündə sevinc göründü. Təkidlə tapşırdı ki, bir həftə NPO-da saxlanmalısan.

Hələ başgicəllənməm getməmiş bir tibb bacısı anamın yanına gəlib əlindəki bir şüşə spirti çarpayımın yanına qoydu. Anam ona baxdı, sonra üzünü mənə tutub dedi: "Gör burada nə qədər sümük var!"

– Sümük?!

Şüşəni mənə yaxınlaşdırdı. Budlarımın sınıb əzilmiş və çürümüş sümük parçalarını tökmüşdülər. Sonralar doktor dedi: "Budunun əzilmiş sümüklərini çıxardıq. Əgər əməliyyat bir qədər gecikməydi, sümük əriməsi başlayardı, bu dərin yara və çirk sümüklərini məhv edib ölümünə səbəb olardı".

Şəkildə də sol budumun yuxarı hissəsi boş idi. Doktor deyirdi ki, həmin hissənin sümüyü tədricən bərpa olacaq.

Doktor Sarxani hər gün iki dəfə diqqətlə yaramı yuyub-bağlayırdı. Yaranı açanda qanamasaydı, özü qəsdən sıxıb qanadırdı. Deyirdi ki, təmizləyəndə yaradan qan gəlsə, deməli sağalır. Yaranın hər gün kiçildiyini hiss edirdim. Kolostomiya torbasını da əməliyyat edib tikmişdilər və get-gedə yaxşılaşırdı. Orada bir həftə yatandan və halım çox yaxşılaşandan sonra Kərim Hörməti məni görməyə gəldi. Orada danışdıq ki, xəstəxanadan çıxandan sonra bizə zəng vursun, mən hazırlaşım və birlikdə cəbhəyə gedək. Çünki evdə darıxırdım.

Xəstəxana daim dolub-boşalırdı. Uşaqlar növbə ilə əməliyyat otağına gedirdilər. Bəzilərinin özlərinə gəlmələri çox maraqlı olurdu. Onların çoxu huşlarını itirəndən sonra elə sözlər deyirdilər ki, ayıq vaxtı heç vaxt deməzdilər. Mahmud Nicati özünə gələnə qədər ağır bir döyüş əməliyyatına gedib-gəldi. O, deyirdi: "Əmin ağa, mən batalyon qəbul etmirəm, bölük bəsimdir... Yaxşı, indi ki bu qədər israr edirsiniz, qəbul edirəm... Uşaqlar, cəld hərəkət edin... Siz o tərəfə gedin..." Mahmudun əməliyyatı başlamışdı və biz də orada iştirak edirdik! Nəhayət, həmin əməliyyatda ona qəlpə dəydi və yaralandı, gözlərini açanda isə zarımağa başladı.

***

Xəstəxanadan çıxdım və evdə xüsusi qulluq altında müalicəmi davam etdirdim. İlk dəfə evdə gəzməyə başlamışdım. Mənə bir əsa gətirmişdilər və sol ayağımın zəifliyini müəyyən həddə qarşılayırdı. Həmin əsanın köməyi ilə və əlimi divardan tutaraq pillələrdən enib-qalxırdım. Siqnalı da kənara qoymuşdum. Daha çox yeridikcə və ayağımı çəkdikcə onda hansısa prosesin getdiyini hiss edirdim. Sinir mütəxəssisləri ayağıma kömək edə bilməmişdilər. Mütəxəssis ortoped doktor Bərzgər çox müayinə və analizlərdən sonra dedi: "Əməliyyatdan sonra bəlkə yaxşılaşar".

– Onda əməliyyat edin.

– Belə əməliyyatlar üçün növbədə çox adam var.

Bu söz ayağımın müalicəsi üçün çabaların sonu demək idi. Artıq kifayət qədər cəbhədən uzaq düşmüşdüm və nəticəsi bilinməyən bir əməliyyata görə şəhərdə qala bilməzdim. Adımı növbəyə yazdırdım, amma çalışdım ki, bir müddət əməliyyatı yaddan çıxarım.

***

Cəbhəyə ilk məxfi gedişimdən beş ildən artıq ötürdü. Yenə həmin otaqda uzanıb eyni şeyi fikirləşirdim: "Ailə üzvlərimi necə qane edim ki, narahat olmasınlar və arxayın şəkildə cəbhəyə gedə bilim?"

Kərim Hörmətinin gəlişi getmək əlaməti idi. Vədəmizi sabaha təyin etdik. Axşamüstü fürsətdən istifadə edib söhbəti açdım: "Allaha şükür, halım yaxşılaşıb. Burada darıxıram, qala bilmirəm. Kərimi də tanıyırsınız, mənə yaxşı baxacaq. O, sabah cəbhəyə gedir. İcazənizlə mən də onunla getmək istəyirəm".

– Xəcalət çək, oğlan! Yaranda həm çirk var, həm də qanaxma. Bu vəziyyətlə gedəndə nə olacaq ki?!

– Qorxma, cəbhəyə yenə gedərsən, amma indi yox... Bu vəziyyətdə həm özünə pisdir, həm də bir iş görə bilməzsən.

– Bu vəziyyətdə yenə cəbhə həvəsinə düşdün?!

Heç kim getməyimə razı deyildi, hərə bir şəkildə və bir əsasla məni fikrimdən döndərmək istəyirdi. Lakin bu fikir həmin günlərə aid deyildi, 1981-ci ilin yayının sonlarından qaynaqlanırdı. O vaxtdan beynimə düşmüş cəbhə eşqi beş ildə bir az da pöhrələnmiş, dərinləşmişdi. İndi ən yaxşı dostlarımın qanı ilə cücərib böyümüş bu eşqə necə laqeyd qala bilərdim?!

Ertəsi gün Kərim kəşfiyyat bölüyünün təcili yardım maşını ilə gəldi. Anam narahat idi, Allahdan istəyirdim ki, Özü hansısa yolla anamı və digərlərini başa salsın və bütün çətinliklərə rəğmən, cəbhəni evdən üstün tutmağımın səbəbini bildirsin.

Nəsr-7

I

Diviziyanın qərargahı Baxtəranda idi. Kərbəla-5 əməliyyatından sonra bütün şəxsi heyət oraya köçürülmüşdü. Cəbhəyə dönüş məndə böyük özünəinam yaratmışdı. Sevdiyim yerə dönmüşdüm, əvvəlki kimi uşaqlarla işləmək və hətta əməliyyatlarda iştirak etmək barədə fikirləşirdim.

Diviziyanın düşərgəsi İslamabada təxminən 25 km. qalmış bir boğazın içində idi və ora Şəhid Əhəd Müqiminin adını vermişdilər.

1987-ci ilin baharının sonları və hava isti idi. Biz əsasən, çadırlarda qalırdıq. Dağlar düşərgənin ətrafını mühasirəyə almışdı. Dərənin içində batalyonların yollarının ayrıldığı bir yer vardı. Hamam orada yerləşirdi.

Uşaqlar mənə ailəmdən də yaxşı baxırdılar. Məmməd əmi adlı bir qoca vardı; anbarda nə qədər badam, püstə və bal vardısa, hamısını qarnıma doldururdu. Uşaqlar yaralarımı açıb-bağlamaq dəqiqəsi çatan kimi məni diviziyanın tibb məntəqəsinə aparırdılar. Böyrümün yarası günü-gündən yaxşılaşırdı. Çirk ifrazı o qədər azalmışdı ki, sutkada bir tənzifin yarısı da islanmırdı. Yaranın başı yığılandan sonra tənzifi büküb fitil kimi yaranın içinə salırdılar. Çalışırdılar ki, yara bağlanmasın və çirk bədənimdən çıxsın.

Qardaş Əbülfəz Fərəhmənd də Bədr əməliyyatında yaralanmışdı və fəqərə sütununda problem vardı. Onunla danışıb düşərgəmizin yerləşdiyi yüksəkliklərə gedirdik. Əbülfəzin vəziyyəti məndən ağır idi, hər iki ayağının siniri kəsilmiş, hərəkəti çox çətinləşmişdi. Hərəmizdə iki əsa vardı və gündə 5-10 addım bərk təpədə gəzirdik. O, öz üsulu ilə yeriyirdi, mən də öz üsulumla. Həmçinin bir-birimizin təcrübələrindən də istifadə edirdik. Hiss edirdim ki, hər addımla ayağım güclənir və yaxşılaşır. Amma hərdən ayağım boşa gedirdi və üzü üstə yerə yıxılırdım. Bütün ağırlığımı sağ ayağıma salmağı öyrənmişdim. Oturmaq, qalxmaq və yerimək üçün sağlam ayağımı dirək edirdim. Hara getsəydim, uşaqların bir-ikisi sakitcə arxamdan gəlirdilər ki, yıxılsam, tutsunlar.

Bir neçə gündən sonra yaranın tam bağlandığını gördük. Daha açıb-bağlamağa getmədim və böyrümün çirki də bitdi. Yataqdan tərpənə bilmədiyim günlərlə müqayisə edəndə özümü çox pəhləvan hiss edirdim. Lakin həqiqətən, hərəkətli bir sümük idim. Xəstə və yaralı dostlarına qarşı həmişə ana kimi mehriban olan uşaqları bir daha sınamaq imkanı əldə etmişdim. Onlar məni özümdən çox düşünürdülər. Ümumiyyətlə, cəbhədə hər şeydə vəhdət vardı: bir yaralının yaxşılaşması hamının yaxşılaşması demək idi; bir nəfərin narahatlığı hamının arasında bölünürdü.

Uşaqların mənə necə diqqət yetirdiklərini və məndən ötrü narahat olduqlarını görəndə yenə Allahın cənnətinə gəldiyimə görə qürur hissi

keçirirdim. Onlar bütün bu işləri elə ixlasla, səmimiyyətlə görürdülər ki, mənə və ya digər yaralı və əlillərə yazıq kimi baxdıqları ağlıma gəlmirdi.

Kəşfiyyat bölüyünün bütün şəxsi heyəti orada idi və yaxınlarda əməliyyatın olmayacağı nəzərə çarpırdı. Lakin Şəhid Müqimi düşərgəsində on gün qalandan sonra Kərim Hörməti bəzi uşaqları seçib özü ilə apardı. Vəziyyətimə baxmayaraq, məni qalanlara başçı təyin etdi.

Seçilən uşaqlar əşyalarını götürüb bizimlə sağollaşdılar. Kəşfiyyata getdiklərini bilirdim. Avtobus yola düşdü və arxadan Həmid Allahyarinin səsini eşitdim. Nə üçünsə uşaqlardan geri qalmışdı. Avtobusun arxasınca qaça-qaça qışqırırdı: "Mən qaldım! Mən qaldım!"

Ürəyim əsdi. Maşın dayanmışdı və Həmidə çatmaq imkanım vardı. Halım dəyişmişdi. Onu qucaqlayıb dedim: "Həmid, deyəsən, sən də gedəsi oldun!"

– İnşallah.

Sanki özü də nəsə bilirdi. O da minib getdi.

Dörd gündən sonra axşamüstü Seyid Zəfərançı təcili yardım maşını ilə düşərgəyə gəldi. Məni görüb dedi: "Mehdi, səncə, maşında nə var?" Fikirləşdim ki, bəlkə ərzaq olar. Seyid Zəfərançı dedi: "Get, maşının arxasına bir nəzər sal".

Təcili yardım maşınının arxa qapısını açdım. İki şəhid cənazəsi sakitcə yan-yana uzanmışdı. Üzlərindəki ədyalı kənara çəkdim. Özü idi; Həmid Allahyari də şəhidlərə qovuşmuşdu. O biri şəhid partladıcı bölükdən idi və güman ki kəşfiyyat zamanı minaya düşmüşdülər. Başlarının üstündə oturub sakitləşənə qədər ağladım. Çoxdan bəri dostlarımın şəhadəti mənə ümid verirdi, amma orada, təcili yardım maşınının arxasında Həmidin üzünə nə qədər baxırdımsa, bu tezliyə ona və digər şəhidlərə qovuşmayacağımı hiss edirdim.

***

Evdə yeriməyə başladığım zamandan işlərimi özüm görməyə çalışırdım. Düşərgədə də uşaqların səmimi münasibətlərinə baxmayaraq, heç kimə yük olmaq istəmirdim. Uşaqlar mənə yaxşı baxırdılar; get-gələ, yatağı yığışdırmağa və paltarları yumağa kömək edirdilər. Belimin çirkinə görə bir neçə ay idi hamama getməmişdim. Uşaqlar məni maşınla yolun kənarındakı hamama aparırdılar. O müddətdə hələ görüşlərim davam edirdi, qədim döyüşçülər mənə baş çəkməyə gəlirdilər: Əhməd Yusifi, Rza Abbasnejad, Məcid Lütfi, Cəlal Zahidi və s. Mən bu dostlarımla həmsöhbət olmaqdan heç vaxt yorulmurdum.

Həmid Allahyarinin şəhadətindən sonra bölgədə işləyən uşaqlardan bizə yeni xəbər gəldi. Təxminən on gündən sonra Kərim Hörməti gəlib məni də özü ilə Kürdüstana apardı. Orada qalanlar da sonradan mikroavtobusla gəldilər.

***

Maşına minib Baxtəranı, Kamyaranı, Sənəndəci, Divandərəni, Saqqızı və Banəni keçib Sərdəştə çatdıq. Diviziyanın kəşfiyyat bölüyünün Sərdəştdəki qərargahı kirayəyə götürülmüş bir ev idi. Kəşfiyyat uşaqları oraya

yerləşmişdilər. Bəzən diviziya rəhbərləri də oraya gəlirdilər. Yerli əhalidən olan bir qrup peşmərgə gecə-gündüz keşik çəkirdi. Orada bir neçə gün qaldıq. Uşaqlar yenə mənə qulluq edirdilər.

Hərdən Əbülfəz Fərəhmənd və Ələddin Nurməhəmmədzadə ilə söhbət edib təcrübə mübadiləsi aparırdıq. Təxminən hər üçümüz eyni vəziyyətdə idik. Ələddin Vəlfəcr-8 əməliyyatında yaralanmışdı və üstündən bir il keçəndən sonra təxminən yaxşılaşmışdı. Orada rişxəndlə ayağını yerə vurub deyirdi: "Bax, mənim vəziyyətim çox yaxşılaşıb". Mən də özümü göstərməyə çalışırdım. Ələddinin yaxşı təcrübələri vardı. Mənə bəzi idman hərəkətlərini öyrədib deyirdi: "Bu həkimlərin əlindən çox şey gəlmir, özümüz vəziyyətimizə dair bir şey fikirləşməliyik". O, çalışıb yenə istiqamət komandiri səviyyəsinə çatmışdı. Ona baxanda ümidvar olurdum ki, bəlkə mən də kəşfiyyata gedə bilərəm.

Get-gedə yeni qərargaha köçmək haqda söhbət getdi. Addım-addım əməliyyat bölgəsinə yaxınlaşdığımıza görə sevinirdim. Əşyalarımızı topladıq və diviziyanın əməliyyat bölgəsindəki düşərgəsinə yollandıq. Oraya Şəhid Mustafa Pişqədəmin adını vermişdilər.

***

İki yanaşı kənd vardı. Birinin adı Yuxarı Buyuran, digərinin adı Aşağı Buyuran idi. Şəhid Pişqədəm düşərgəsi Yuxarı Buyuranın yuxarı hissəsində idi. Buyuran kəndi Sərdəştdən təxminən 30 km. aralıda idi. Düşərgənin sol tərəfində məhsuldar bir dərədən başlayan hündür təpə vardı. Adı Kani Rüstəm idi. Bölgədə başqa bir yüksəklik də vardı və adı Kani Rəş idi. Ora bizim müdafiə mövqeyimiz idi. Kani Rəşin önündə iraqlıların əlində olan Dupaza yüksəkliyi yerləşirdi. Sağ tərəfdə, Kani Rəşlə Dupazanın arasında Bulfəth adlı başqa bir təpə vardı.

Bulfəth bölgədə yeganə yüksəklik idi ki, orada həm bizimkilər vardı, həm də düşmənlər. Gələcək əməliyyatın məqsədi Bulfəth və Dupazanı tam ələ keçirmək idi. Aşura və Həzrət Rəsul diviziyalarına bu tapşırıq verilmişdi.

Yay idi. Kürdüstanda hava gözəl idi. Uşaqlar hər axşam maşınla Şəhid Pişqədəm düşərgəsindən kəşfiyyat üçün Kani Rəşə, oradan da Dupazaya gedir, səhərlər yorğun halda geri dönürdülər. Aşura diviziyası uzun müddət cənub bölgəsində işləmişdi, şəxsi heyət cənub bölgəsinin ehtiyacına uyğun olaraq, aylarla dalğıclıq etmiş və qayıq sürmüşdü. İndi dağa qayıdıb kələ-kötür yolları və bölgənin təpələrini öyrənmək çətin idi.

Son əməliyyatda kəşfiyyatçıların bir-birinin ardınca şəhid olmaları və yeni qüvvələrin təcrübəsizliyi işi çətinləşdirirdi. O zaman komanda başçısı olan Əmir Əsədullahi gecələr kəşfiyyata gedib səhər qayıdır, iki saat yatandan sonra Kani Rəşdəki müşahidə postuna gedib axşama qədər gecəki kəşfiyyat yerlərini araşdırır, axşam yenə kəşfiyyata yollanırdı. O, yorulurdu, amma kəşfiyyatçı az, iş isə çox idi və köhnə uşaqlar yaxşı bilirdilər ki, nə olur-olsun,

kəşfiyyat və məlumat toplama işi dayanmamalıdır. Çünki bir əməliyyatın uğuru kəşfiyyatla bilavasitə bağlı idi.

Oradakılar hələ istiqamətlərə tam bölünməmişdilər. Yeni bir qrup gətirib bəzi işləri onlara tapşırmaq istəyirdilər. Həmin günlərdə Kərim Hörməti bu barədə mənimlə danışıb dedi: "Mehdi, mən bundan ötrü nə edəcəyimi bilmirəm". Mən də Məhəmməd Purnəcəfi onun yadına salıb dedim: "Məhəmməddən istifadə et".

Deyəsən, qardaş Hörməti istəyirdi ki, cənub bölgəsində çəkdikləri əziyyətlərə görə Məhəmməd Purnəcəfi və onun kimi digərlərini bir müddət istirahətə yollasın.

– Məncə, o, vəzifə qəbul edə bilməz.

Mən də elə düşünürdüm. Bilirdim ki, o bölgədə işləmək üçün Məhəmməd Purnəcəfin özünəinamı yoxdur. Hər halda, ertəsi gün mən, Kərim Hörməti və Məhəmməd Purnəcəf birlikdə müşahidə postuna getdik. Kərim Hörməti oradan bölgəni ona izah etdi. Mən dedim: "Məhəmməd, bax, bu yolla gedib məlumat toplaya bilərsən. Ümumiyyətlə, bu istiqamətin başçısı ola bilərsən".

– Yox, vallah, mən bacarmaram. Yaxşı olar ki, Əsğər ağa və ya ağa Mənsur da mənimlə gəlsin.

Əsğər Abbasquluzadə və Mənsur Furqani öncədən o bölgədə işləmişdilər və Məhəmməd bunu bilirdi. Konkret nəticə almadan postdan endik. Yolda Məhəmmədi çox danladım: "Məgər sən başqalarından əskiksən?! Savadın onlardan bir qədər az ola bilər, amma bunu nə üçün deyirsən?!"

O qədər danışdıq ki, düşərgəyə çatana qədər Məhəmməd həmin istiqamətin rəhbərliyini qəbul etdi və tezliklə buna layiq olduğunu da göstərdi. Bölgənin bütün kəşfiyyat istiqamətləri arasında Məhəmmədin başçılıq etdiyi istiqamətin işi daha tez bitdi. Onun özü partladıcı bölükdən olduğuna görə minalanmış sahələrdə gecikmirdi, cənub bölgələrində topladığı bilik və təcrübələri burada da ona kömək edirdi.

Həmin günlərdə mən də bir neçə dəfə maşınla müşahidə postuna getdim. Piyada yol yerimək hələ çətin idi. Uzaq yolları maşınla gedir və bacardığım qədər uşaqlara kömək etməyə çalışırdım. Məhəmməd Purnəcəfi kəşfiyyata getməyə razı salmaq və bəzi problemlərin həllində həmfikirlik o vaxta qədər əlimdən gəlmiş işlər idi.

Bir dəfə müşahidə postundan Həmid Allahyarinin şəhid olduğu yeri göstərdilər. Sərdəştdən İraqın Qaladizəsinə gedən istifadəsiz bir yol idi, Bulfəth yüksəkliyinin qərb yamacında yerləşirdi. Orada mina ehtimalı böyük idi. Kərim isə deyirdi: "O hadisəyə baxmayaraq, həmin hissədə minalanmış sahənin olmasına əmin deyilik. Əməliyyat gecəsi tikinti-mühəndis bölüyü oradan keçib yol salacaq. Əgər orada minalanmış sahə olsa, iş çətinləşəcək".

Cəsarətimi toplayıb Kərimə dedim: "Əgər mümkün olsa, özüm gedib yolu yoxlayaram..."

– Yox, oraya getmək çətindir, gərək partladıcı bölüyün uşaqlarını göndərək.

Bildim ki, Kərim hələ mənim fiziki vəziyyətimdən şübhələnir. Qərara gəldik ki, partladıcı bölükdən iki nəfəri oraya göndərək. Mən də onlara qoşuldum və maşınla ordunun yaxınlıqdakı düşərgəyə getdik. Mən orada oturub dedim: "Siz gedin, baxın".

Gündüz idi, uşaqların gedib-qayıtması çox çəkmədi. Onlar dedilər: "Orada heç bir mina yoxdur".

Sözlərinə inana bilmədim. Onlar partladıcı bölüyün yeni üzvləri idilər və böyük təcrübələri yox idi. Fikirləşdim ki, buraya qədər gəlmişəm, yaxşı olar ki, özüm gedib əmin olum. Həyəcanlı idim, amma düşmənin həssaslığına görə yox. İraqlılar həm Dupazadan, həm də Bulfəthin üstündən yolu görürdülər. Gündüz çağı bizi də görə bilərdilər, amma ordunun qarovulları adətən, gündüzlər oraya gedib-gəldiklərindən bu, iraqlılar üçün təbii idi, yalnız bir qədər atəşlə orada olduqlarını bildirmələri mümkün idi.

Qərarımı verib dedim: "Birlikdə oraya qayıdırıq. Mən də sizinlə gələcəyəm. Amma əgər Kərim Hörmətiyə mənim də getdiyimi desəniz, vay halınıza!"

Baxışlarından hiss edirdim ki, mənim yola çatacağıma ümidləri yoxdur, nəinki gedib onların tapmadıqları minanı tapmağa. Zəncanlı sürücüyə də dedim ki, bizimlə gəlsin və lazım olsa, kömək etsin.

Bir müddət idi əsanı yerə qoymuşdum və yalnız sağlam ayağıma söykənərək yeriyirdim. Yola düşüb nisbətən hündürdə olan ordu qərargahından addım-addım enməyə başladıq. Elə əvvəldə yıxılmaqdan və ələ salınmaqdan qorxub daha ehtiyatla hərəkət edirdim.

Təbii ki, yoldaşlarım da vəziyyətimi nəzərə alıb yavaş-yavaş gəlirdilər. Nəhayət, yolun önündəki çaya çatdıq. Enli çay idi. Daşların üstü ilə hoppanıb o tərəfə keçməli idik. Mən normal yolu güclə yeriyirdim, orada isə bir daşdan o biri daşa hoppanmalı idim, özü də suyun üstündə. Özümə də inandırıcı gəlmirdi. Çox ciddi şəkildə partladıcı bölüyün uşaqlarına dedim: "Siz öndəki daşın üstündə dayanın. Mən hoppanıram. Əgər ayağım qatlansa və yıxılsam, məni tutun".

Hər dəfə hoppananda uşaqlar məni tuturdular və sürücünün səs-küyü qopurdu. O, əvvəldən mənə görə narahat idi və mən hər dəfə hoppananda qışqırırdı: "Ey vay! İndi yıxılar..."

Xoşbəxtlikdən, çaydan salamat keçdim. Düşmən tərəfdən tək-tük atəş səsi də gəlirdi. Birtəhər yola çatdıq. Yavaşca və diqqətlə yeri qazırdım. Deyəsən, bir şey yox idi. Amma düşünürdüm ki, ola bilməz, bu yolu belə qoymaları mümkün deyil. Minaların olduğunu hiss edirdim, amma bir şey görünmürdü. Nəhayət, tapdım.

– Budur! Tank əleyhinə mina da var.

Torpağı kənara çəkdim. Mina çoxdan basdırılmışdı, paslanmışdı. Diqqətlə ətrafını açdıq. Ehtiyatla fikir verirdik ki, tələ olmasın. Uşaqlar minanı götürdülər. Qoruyucularını axtardım, amma tapmadım. Onun yanında gözüm başqa bir minaya sataşdı. Fikirləşdim ki, ziqzaq şəklində düzülmüş minalardır.

Müxtəlif əməliyyatlarda belə mina sahələri görmüşdüm. Əks-istiqamətə gedib addımımı saydım və gözlədiyim yerdə üçüncü minanı tapdım. Minanın düzülüşü haqda uşaqlara məlumat verdim və onlar işi davam etdirdilər. Hava qaralanda biz tank əleyhinə sonuncu, onuncu minanı tapdıq. Minaları toplayıb qayıtdıq. Partladıcı uşaqların rəftarlarının dəyişdiyini hiss edirdim. Bir-iki dəfə dizim qatlandı və yıxılmağa az qaldım, amma onlar yanımda idilər və mənə kömək etdilər. Daha üzlərində əvvəlki zarafat və inamsızlıq əlaməti yox idi.

Minaları maşının arxasına qoyub bölüyə yola düşdük. Sürücünün minalardan qorxduğunu görüb bütün yolboyu onu ələ saldım: "Bu dəqiqə bu çalaların birində bu minalardan biri partlayacaq və hamımız göyə uçacağıq".

Şəhid Pişqədəm düşərgəsinə çatdıq. Kərim bizi gözləyirdi.

– Nə etdiniz?

– Uşaqlar minaları toplayıb gəldilər, yoldan arxayın ol.

Uşaqlar da bir söz demədilər, amma yanıma çox gəlirdilər və tədricən dostlaşdıq.[1] Mənim işim çox gizli qalmadı. Bir neçə gündən sonra bir söhbət zamanı uşaqlar demişdilər ki, Mehdi zəifdir və daha onu işə cəlb edə bilmərik, amma həmin iki nəfər demişdi: "Yox, əşi, o gün biz gedəndə özü də gəldi, minaları da o tapdı".

Bu məsələdə mənə əhəmiyyətli olan kəşfiyyat qapısının üzümə açılması idi. Allah Öz lütfü ilə bunu da mənə mümkün etdi.

***

Yay idi. Şəhid Pişqədəm düşərgəsində işlər davam edirdi. Düşərgədə şəxsi heyətin çoxluğuna baxmayaraq, camaat namazı və müxtəlif mərasimlər üçün proqram yox idi. Uşaqlarla danışıb böyük səngəri namazxana etdik. Tezliklə oranın yerini döşədik və qardaşlardan birinin imamlığı ilə ilk camaat namazını qıldıq. Get-gedə hətta xörəyi də orada birgə yeyirdik. Komandirlər, əməliyyat və rabitə mütəxəssisləri və digər uşaqlar namaza və yeməyə oraya gəlirdilər. Ötən illərin səmimi xatirələri yenidən canlanırdı.

Diviziyanın komandir müavini ağa Kaşani də orada idi və canlı qüvvəyə başçılıq edirdi. O, duz zavodu hadisəsindən sonra məni tanıyırdı və mənimlə yaxşı münasibəti vardı. Düşərgədə olduğumuz müddətdə onun futbola necə marağı olduğunu bildik. Düşərgədə kiçik bir futbol meydançası düzəltdilər. Kəşfiyyat bölüyü və digər birləşmələr futbol komandaları yaratdılar. Adətən, hər gün axşamüstü saat 4-dən sonra futbol yarışı başlayırdı. Kərim Hörməti ilə mən hər bir fürsətdən istifadə edib futbolçuları ələ salırdıq. Bir dəfə Kərimlə birgə oturmuşduq və qızğın futbol gedirdi. Həyəcanlı, səs-küylü oyun idi. Məşədi Əli əmi gəlib yanımda oturanda beynimə bir fikir gəldi. O, özünəməxsus işləri olan ağsaqqal bir qoca idi. Bəzən qalmaqal yaradırdı və hər bir işdən ötrü salavat deyirdi. O, yanımıza gələndə Kərim Hörmətiyə

[1] Onların biri İsmayıl adlı bir sərablı idi və elə Nəsr-7 əməliyyatında da şəhadətə qovuşdu.

dedim: "Kərim ağa, bizim diviziya komandirimizin müavini də utanmaq bilmir!"

– Necə məgər?!

– Heç nə, komandir müavinidir, amma futbol oynayır.

Məşədi Əli əminin səsimizi eşitdiyini bilirdim və elə onu qıcıqlandırmaqdan ötrü bunu deyirdim. Hələ sözümüz bitməmiş Əli əmi ayağa qalxıb meydançaya girdi və topu əlinə götürdü. Uşaqlar səs-küy saldılar və hamıdan qabaq cənab Kaşani dedi: "Topu nə üçün götürdün, qoy oynumuzu oynayaq".

Bunu təbəssümlə və hörmətlə deyirdi, amma Kərimlə ona hansı plan qurduğumuzdan xəbərsiz idi. Əli əmi onun mülayim səsi önündə çox ucadan və ciddi dedi: "Guya sən diviziyanın komandir müavinisən?! Xəcalət çəkmirsən, futbol oynayırsan?!"

Məsələ ciddiləşdi və ağa Kaşani də hirslənirdi. Əli əmi vəziyyətin dəyişdiyini görüb geri çəkildi və dedi: "Eybi yox, onda bir salavat deyin, topu verim". Salavat səsi ucaldı və top yerə düşən kimi yenidən oyun başladı.

Məşədi Əli əmi cəbhə qocalarından idi və diviziyanın qərargahında işləyirdi. Həmişə yeməkdən sonra özü israrla qabları yuyurdu. Mən onun qab yumasını görəndən sonra bu işinə müxaliflərdən oldum. O, qabların üstünə bir aftaba su tökür, qabları tərpədir, sonra içindəki suyu boşaldırdı. Vəssalam, artıq qablar yuyulmuş sayılırdı və heç kim onları yenidən yuya bilməzdi. Bundan əlavə, gözləri də zəif idi və adətən, başqasının ayaqqabısını geyinirdi. Bunun üstündə həmişə Mustafa Mövləvi ilə mübahisələri düşürdü. Lakin Əli əminin xüsusi xarakterləri dəyişiləsi deyildi. Komandir səngərində dəfələrlə mühüm iclas zamanı Əli əmi çay aparmış, orada da oturmuşdu. İclasdakılar da gülüb söhbəti dəyişmişdilər ki, başa düşüb iclası tərk etsin. Bəzən özləri deməyə utandıqlarından iclasdakı hörmətli bir şəxsə deyirdilər ki, birtəhər onu başa salsın. Bu hadisə bir neçə dəfə təkrar olunmuşdu.

Bir dəfə Məşədi Əli əmi çıxandan sonra yanında oturub dedim: "Axı, baba can, bu komandirlərin hamısı uşaqdırlar, nə üçün sənin kimi ağsaqqalı iclasdan çıxarırlar?! Onlar təcrübəsizdirlər, gərək sən gedib onlara vuruşmaq öyrədəsən!"

Əli əmi də qayıdıb onlarla mübahisə etmiş, demişdi: "Siz hələ uşaqsınız, məgər mən ağsaqqal sizdən az bilirəm ki, iclasda oturmağa qoymursunuz?!"

O günlərdə bəzən müşahidə postuna gedir və uşaqların məruzəsini oxuyurdum. Hərdən onlara isti xörək hazırlayırdım ki, kəşfiyyatdan qayıdanda yaxşı istirahət etsinlər və sabaha hazırlaşsınlar.

Düşərgənin qərargahında bir neçə iclas keçirdik və Kərim Hörməti uşaqlarla söhbət etdi. Mən də əməliyyatın yaxınlaşdığına görə unudulmaqda olan bəzi proqramları xatırlatdım. Xüsusən uşaqların şəkil və görüntülərinin qeyd olunmasına israr edirdim. Bilirdim ki, o filmlər gələcəkdə şəhidləri, döyüşçüləri və cəbhənin ab-havasını nümayiş etdirəcək dəyərli və həmişəyaşar

xəzinə olacaq. Hər bir iş görürdüm, hər bir təklif verirdim, amma ürəyimin istəyini deməyə cəsarət etmirdim. Çox istəyirdim ki, məni də kəşfiyyata yollasınlar, amma onlar bu haqda heç düşünmürdülər də; hətta minaları tapmağımı da üzümə vurmadılar.

Batalyonlar yavaş-yavaş düşərgəyə gəlirdi, vəzifələr təyin olunurdu. Həmin günlərdə Səudiyyə polisinin hacıların bəraət yürüşünə hücum xəbəri yayıldı. Hamımız şoka düşmüşdük. Biz cəbhədə şəhadət üçün əldən-ayaqdan gedirdik, 500 kişi və qadın isə Allah evinin ziyarəti zamanı qanlarına qəltan edilmiş, Məkkə küçələrində faciəli şəkildə şəhadətə qovuşmuşdular. Həmin günlərdə diviziyanın uşaqlarından bir neçəsi də həccə getmişdi. Kərim Fəthi və Rəhim Sarimi də onların arasında idi. Bu xəbər qanımızı coşdurdu və hətta bəzi uşaqlar arasında söhbət yayıldı ki, gələcək əməliyyatda onların intiqamı naminə vuruşacağıq.

II

İmam Hüseyn (ə), Əli Əsğər və Əmirəlmöminin (ə) batalyonları Aşura diviziyasının ilk mərhələdə hücuma keçəcək batalyonları idilər. Qardaş Yasir Zirək İmam Hüseyn (ə) batalyonunun, qardaş Bəni-Haşim[1] Əli Əsğər batalyonunun, qardaş Həbibullahi də Əmirəlmöminin (ə) batalyonunun komandiri idi.

Kani Rəş müşahidə postunun yaxınlığında bir əməliyyat qərargahı yaradıldı. Bu qərargah əməliyyat yoluna yaxın idi. Əməliyyatdan iki gün öncə biz oraya getdik. Diviziyada hər hansı vəzifəsi olan uşaqların çoxu orada idi.

Qardaş Kaşani, zəncanlı uşaqlardan Nəcməddin və mən onların arasında ayaq nahiyəsindən yaralanıb əlil olmuşduq. Qardaş Ələddin bir müddət öncə oradan getmişdi, yoxsa sayımız dörd olacaqdı. Qardaş Kaşani əməliyyat qərargahında özünə belə bir heyət toplamışdı. Hərdən bəzi qardaşlarla əsa ilə qərargahın üstündəki təpəyə çıxıb ciyər süfrəsi açırdıq.

Əməliyyat qərargahına ratsiya və digər avadanlıqlar gətirirdilər. Hər şey hazır idi və biz yalnız ratsiya vasitəsi ilə vəziyyəti öyrənən tamaşaçı kimi idik. Qərargahın olduğu yerdən yüksəkliklər yaxşı görünmürdü, amma düşmənin hədəfindən qorunurdu. Hündürə çıxsaydıq, bəlkə nələrisə görərdik, amma məsələ burasında idi ki, çıxa bilmirdik. Bütün ümidimiz ratsiyaya idi və eşitdiklərimizə əsasən, beynimizdə səhnəni canlandırırdıq.

Şəxsi heyət hərəkətə hazır idi. İmam Hüseyn (ə) batalyonu həmin istiqamətdən, əməliyyat qərargahının yanından yola düşdü. Biz orada dostlarımızla son dəfə sağollaşdıq.

05.08.1987 tarixində müqəddəs "Ya Fatimətüz-Zəhra" parolu ilə Nəsr-7 əməliyyatının başlanması elan olundu. Atışma səsləri gələndə ratsiyalar da işə düşdü: "Biz indi təmizləmə işi aparırıq... Biz Dupazanın üstünə çatmışıq".

[1] O, Nəsr-7 əməliyyatında şəhadətə qovuşdu.

Bunlar İmam Hüseyn (ə) batalyonunun uşaqlarının məruzələri idi və bizi çox sevindirirdi. Şəhid Himmət istiqamətində döyüş hamısından uzun çəkdi. Ora boğaz kimi bir yer idi, Sərdəşt-Qaladizə yolu oradan keçirdi. Əmirəlmöminin (ə) batalyonu hələ orada vuruşurdu. İmam Hüseyn (ə) batalyonunun bölüklərindən biri də döyüşü bitirməmişdi.

Həmin gecə kəşfiyyat qüvvələrinin rəhbərliyi ilə yaradılmış Kərbəla şəhidləri batalyonu ilk dəfə əməliyyata qatıldı. Bu batalyona qardaş Amanullahi başçılıq edirdi. Onlar əməliyyat zamanı düşmən mövqeyini tutub arxadakı yolları bağlamış, üçyola qədər irəliləmiş və orada çoxlu maşınları məhv etmişdilər.

Səhər açıldı. Namazdan sonra qərargahda qalmadım, əməliyyat yolunun kənarına getdim. Nəsr-7 əməliyyatının yaralıları qatırla təpələrdən gətirilirdilər. Hər qatırın üstündə bir yaralı və ya şəhid vardı. Bir su bakı, bir qədər band və yaraları bağlamaq üçün alətlər götürmüşdüm, oraya çatan yaralılara əlimdən gələn köməyi edirdim. Kəşfiyyat uşaqları günboyu yavaş-yavaş görünməyə başladılar. Gələn hər kəs yeni xəbər gətirirdi. Biz öndəki mövqelərin vəziyyətini soruşurduq, onlar da cavab verirdilər. Məhəmməd Purnəcəf gələndə ondan Əhməd Yusifini soruşdum. Əhmədin olduğu bölüyə Məhəmməd Purnəcəf bələdçilik etmişdi. Əməliyyatdan öncə Məhəmmədə tapşırmışdım ki, Əhməddən çox istifadə etsin. O vaxta qədər uşaqlar Əhməd Yusifini yaxşı tanımırdılar. Dedim: "Əhməd şəhid oldu, yoxsa hələ sağdır?"

– Yox, sağdır. Mehdi, o, sənin dediklərindən də yüksək səviyyədə imiş.

– Necə məgər?!

– Biz bir söz demədən aslan kimi irəliləyib hamıdan qabaq təmizləmə əməliyyatına başladı. Çox yaxşı döyüşçüdür.

Əhmədin yaxşı çıxış etdiyinə sevindim, amma bilirdim ki, şəhid olmadığına görə əvvəlkindən də çox narahat olacaq. Əhmədlə səmimi münasibətimiz vardı və bir-birimizin mənəvi halından xəbərdar idik. Kiçik qardaşı cəbhəyə gəlişindən üç ay sonra şəhid olmuşdu. O vaxtdan bir yerdə qərar tutmur, deyirdi: "Mən nə etmişəm ki, iki il əməliyyatlarda iştirak edəndən sonra qalıram, Məhəmməd isə üç ay cəbhədə iştirakı ilə məndən önə keçir?!"

***

Günorta Əmir Əsədullahinin şəhadət xəbəri gəldi.

– Deməli, biz səhv etməmişik.

Əməliyyatdan öncə bölüyün bütün uşaqları arasında Əmir Əsədullahi ilə Abbas Məhəmmədinin şəhadətindən söhbət gedirdi. Hamı deyirdi ki, onlar mütləq tezliklə qanad çalıb gedəcəklər. Nəsr-7 əməliyyatının kəşfiyyat günlərində Əmirin özünü necə oda-suya vurduğunu görmüşdüm. Yaşı çox deyildi, bölüyə də yeni gəlmişdi, amma bu qısa müddətdə yaxşı inkişaf etmişdi. Son kəşfiyyatlarda çox yorulmuşdu. Onu axırıncı dəfə görəndə əynində açıq rəngli paltar vardı. Ona dedim: "Əmir, bunlar gizlənmək üçün

yaxşı deyil". Orada Cəlalla paltarını dəyişdi və həmin paltarda da şəhadətə qovuşdu.

Əmirin şəhadəti bizə gözlənilməz deyildi, amma Abbas Məhəmmədinin sağ qayıtdığına inanmırdıq. Günorta Kərim Hörməti dedi: "Bütün kəşfiyyatçılar Pişqədəm düşərgəsindəki qərargaha qayıtsınlar".

Orada üç mikroavtobus bizi Baxtərana aparmaq üçün dayanmışdı. Şəhid Pişqədəm düşərgəsində üç-dörd nəfər qaldı, mən də daxil olmaqla qalanları əşyalarını götürüb mikroavtobuslara mindilər. Yolda Sərdəştə çatmamış düşmənin güclü hava hücumlarına məruz qaldıq. Mikroavtobuslar dərhal dayandı və biz yerə endik. İlk bombardmanda bir-iki yerli kürd ağır yaralanıb yerə yıxılmış, birinin ayağı kəsilmişdi. Abbas kömək etmək üçün ona yaxınlaşdı. Bir dəqiqə ötməmiş düşmən qırıcısı yenidən qayıdıb yolu bombaladı. Əbülfəz Fərəhmənd əsalarını atıb qaçmağa başladı. Mən də böyük bir daşın yanında dayandım. Bombardman bitəndən və təyyarənin getdiyinə əmin olandan sonra hərəkətə hazırlaşdıq. Abbas hələ yaralı kürdün yanında idi. Uşaqlar qışqırdılar: "Abbas yaralanıb. Qəlpə dəyib".

Bir qəlpə Abbasın sinəsini yarmışdı. Halı yaxşı idi; sakit və arxayın. Onu Sərdəştə çatdırmaqdan ötrü tez yola düşdük, amma oraya çatmamış Haqq-Taalanın görüşünə nail oldu.

Cəbhədə 6 il iştirakımızla şəhidləri şəhadətlərindən öncə tanımaqda ustalaşmışdıq. Abbas barədə də proqnozumuz doğru imiş.

Bir-bir uşaqların şəhadət xəbəri gəlirdi. Seyid Əhməd Xəyyat Nuri də şəhadətə qovuşmuşdu. Seyid hər bir kəşfiyyat və əməliyyata kəfənlə gedər, yayda-qışda, bayramda və matəmdə – həmişə paltarlarının altından qara köynək geyinərdi. Uşaqlar bunun səbəbini soruşanda demişdi: "Mən öldüyümə görə özümə əza saxlayıram". O, tanınmaz qalmış arif uşaqlardan idi, bu dünya həyatını ölüm bilirdi. Şəhid olanda 20 yaşı olsa da, illərlə riyazət çəkmiş qoca arif kimi idi. O, hətta əlyazmalarını da elə yazırdı ki, hamı istifadə edə bilmirdi və dostundan xahiş etmişdi ki, ondan sonra yazılarından heç nə qalmasın.[1]

Kərim Hörməti də tezliklə Baxtərana gəlib bütün uşaqlara məzuniyyət verdi. Mən də Kərimlə birgə təcili yardım maşını ilə Təbrizə qayıtdım.

III

O müddətdə hərəkətlərim artmışdı. Özümü gücə saldığıma görə böyrümün yarasının şişdiyini və ondan başqa bir şeyin çıxdığını hiss edirdim. Bir gün beynimə bir fikir gəldi; evdə bir iynəni kibritin alovunda qızdırıb böyrümün yarasına basdım. Birdən bir dəlik açıldı və oradan çoxlu çirk axmağa başladı. Yaranı bağlatdırmaq üçün tibb məntəqəsinə getdim. O günlərdə ağa İsmayıl

[1] Sonradan onun işlətdiyi sözlərin sirrini tapıb bir neçə yazısını oxuya bildik və anladıq ki, o, şəhadət zamanını və necə şəhid olacağını da yazıbmış. O, 06.08.87 tarixində Qurban bayramı günü şəhadətə qovuşdu.

Fərəhmənd yaraları sarıyır və adamın başına həqiqətən, oyun açırdı. O, yaramı görən kimi pinseti götürüb bir qədər qurdaladı və dedi: "Sənin yaran hələ yaxşılaşmayıb, təkcə üstü örtülüb". Sonra qayçını götürüb yaramın içinə saldı. Ağrıya dözüm deyə keyitmə iynəsi vurmuşdu. Yaranın ətrafını açdı və sterilizə olunmuş tənziflə içindəki çirki bir neçə dəfə təmizlədi. Tapşırdı ki, yaranı təmizləmək üçün hər gün oraya gedim. Elə də etdim və nəhayət, çirk yavaş-yavaş azaldı, demək olar, tam təmizləndi. Onuncu gündən yara sağalmağa başladı, yeri isə bir yumruq boyda çökək qaldı.

Təbrizdə fürsətdən istifadə edib ayağımın vətər transferi əməliyyatını etdirmək istədim. Doktor Bərzgər dedi: "Vətər və sinir əməliyyatlarını Təbrizin Şəhidlər xəstəxanasında edirlər". Ertəsi gün oraya getdim və əməliyyata tələsdiyimdən dedim ki, İmam Xomeyni xəstəxanasında növbəm çatmışdı.

Orada xəstəxanada yatmağımı söylədilər. Təsadüfən, Xəlil Mehdizadə də oraya gəlmişdi. Onunla bir palatada yatdıq. Palatamızın üçüncü adamı qoca bir kişi idi; yol yeriməyi pis deyildi, amma o da əməliyyat olunacaqdı. Palata yoldaşlarımın qəribə işləri olurdu və başımızı yaxşı qarışdırırdı. Xəlil səhərdən axşama qədər danışıb səs-küy salırdı. Qocanın da özünəməxsus işləri və terminləri vardı. O, əməliyyatdan sonra başımıza oyun açdı. Ah-naləsi kobud sözlərlə əvəzlənmişdi və daha ona əhəmiyyət vermirdik.

Xəlil məndən öncə əməliyyata girdi. Topuğundan yanına qədər tikiş atıb sarımışdılar. Onun siatik nevralgiya əməliyyatını doktor Şərəbyani etmişdi. Xəlil özünə gəlməzdən öncə onu müayinə etməyə gəldi, mənə tapşırdı ki, əsla hərəkət etməməli, əyilməməli, qalxmamalıdır və əməliyyat nəticə verənə qədər bu şəkildə uzanmalıdır. Lakin Xəlil özünə gələndə elə atılıb-düşürdü ki, mən fikirləşdim xəstəliyi bir yana, bu hərəkətlərlə onun sağlam sinirləri də qırılacaq. İki-üç gündən sonra da dostları ilə əlaqə saxlayıb dedi ki, gəlib onu əzadarlığa aparsınlar. Məhərrəm ayı idi və dəstələr əzadarlıq edirdilər. Xəlil ağa da dəstəyə qoşulmaq həvəsinə düşmüşdü. Getdi və nəticədə əməliyyatdan heç bir xeyir görmədi.

Həmin günlərdə mənim əməliyyat növbəm çatdı. Uzun müddət idi o günü gözləyirdim və düşünürdüm ki, bu əməliyyatdan sonra tam sağalacağam. O vaxta qədər ayağımı özüm idarə edə bilmirdim, hər an qatlana və mən yıxıla bilərdim. Sevinə-sevinə əməliyyat otağına getdim, lakin başıma gələcək hadisədən xəbərsiz idim. Çarpayıda özümə gələndə başımın üstə farsdilli bir həkim vardı. Mənə dedi: "Bəxtin yaxşıdır".

– Necə məgər?

– Əməliyyatın ortasında doktor Şərəbyaniyə zəng vurdular, gəlib əməliyyat elədi.

Doktor Şərəbyaninin əməliyyat etməsini çox istəyirdim. Ayağımın yuxarısında yerləşən və işi ayağı açıb-bükmək olan iki vətər qırılmışdı. Əməliyyatda aşağıdakı vətərlərdən birini dizimə peyvənd etmişdilər ki, öz-

özünə qatlanmasın və onu iradəmlə açıb-bükə bilim. Topuqdan qurşağa qədər bütün ayağımı gipsə salmış, sarığını dəyişmək üçün yalnız tikiş atılmış yerləri açıq qoymuşdular. Sol tərəfdən dizdən yanıma qədər tikiş atmış, diz qapağımı da əməliyyat etmişdilər.

O vəziyyətdə xəstəxanada qaldım və uşaqlar bəzən məni görməyə gəlirdilər. Kərim gələndə yenidən getməkdən söz düşdü, amma bu dəfə ayağımın tam sağalmasını gözləmək istəyirdim ki, cəbhəyə qayıdanda əməliyyat və kəşfiyyatlarda iştirak edə bilim.

Xəstəxanadan buraxıldım və əməliyyatdan 20 gün sonra müayinəyə getdim. Doktor müayinə edərkən dedi: "Barmaqlarını tərpət... Ayağını boşalt və sıx..." Nəhayət, tapşırdı ki, ayağımın gipsini açsınlar. Gips açıldı, amma ayağım bükülmədi. O vaxta qədər doktor deməmişdi ki, əməliyyatdan sonra ayağında problem qalacaq. Narahat oldum, amma səbir və Allaha təvəkkül eləməkdən başqa bir yolum yox idi. Bəlkə daha yaxşılaşar deyə doktorun tövsiyələrinə əməl etməyə çalışdım. İki gün onun yanına getməyimi tapşırmışdı. Getdim və sözləri ayağımı idarə etməyə yaxşı kömək etdi. Dedi ki, ayağın qatlansa da, yalnız 90 dərəcə qatlanacaq, çünki bu əməliyyatda ondan artığına imkan yoxdur. Lakin mən ayağımı açmaq istəyəndə dizim qatlanırdı, qatlamaq istəyəndə isə açılırdı. Bu nöqsanın səbəbkarı mənim iradəm deyildi. Əslində, işi ayağı qatlamaq olan vətərlərdən biri işi ayağı açmaq olan və qırılmış vətərlərin funksiyasını yerinə yetirirdi.

İki gün həkimin yanında yeridim, məşq elədim, tapşırıqlarını yerinə yetirdim və sonra fizioterapiyaya getdim. Bu iradəsiz iş əvvəllər məni gic edirdi, amma yavaş-yavaş vərdiş elədim. Ayağım 180 dərəcə açılırdı, amma qatlanması problem idi və hətta oturanda ayağımı uzadırdım. Bir ay idi xəstəxanada, evdə və fizioterapiyada ayağımla məşğul idim və cəbhəyə çox darıxmışdım. Məzuniyyətdə olan uşaqlar tez-tez mənə baş çəkirdilər. Kərim Hörməti gəlib cəbhəyə getmək istədiyini deyəndə vədələşdik və yenə təcili yardım maşını ilə Əhvaz qarnizonuna yola düşdük. Artıq qəbul etmişdim ki, müharibənin sonuna qədər cəbhədə bu şəraitdə olacağam.

Mavut

I

Diviziya Əhvazın Hava Hücumundan Müdafiə qarnizonuna yerləşmişdi. Uzun müddətdən sonra orada əziz dostum Məhəmmədhüseyn Əlipərəstini gördüm. O, diviziyaya yeni ezam olunmuş və kəşfiyyat bölüyünün komandir müavini təyin edilmişdi. Onunla Zeyd bölgəsində işlədiyimiz vaxtdan dost olmuşduq. Bir neçə ildən sonra yara və çirkdən yeni xilas olmuş mənə təəccüblü baxışları maraqlı idi.

Əhvazda bir neçə gün qalandan sonra Kərim dedi ki, qarnizonu təhvil verib Dezfula getməliyik.

Əhvazın Hava Hücumundan Müdafiə qarnizonu ilə vidalaşmaq, unudulmaz xatirələrimizi yaşadığımız yerlə vidalaşmaq demək idi. O qarnizonda nə qədər dostlarımızla qardaşlıq əqdi oxumuş, onlardan şəfaət sözü almışdıq. Artıq onlar bizə şəhadət məqamından baxırdılar. Qarnizonun hər yeri kəşfiyyat uşaqlarının gecə namazlarına mehrab olmuşdu və Aşura diviziyasının şəhidlərinin, xüsusən də ağa Mehdi Bakirinin mənəvi ətrini hələ orada duymaq olurdu. Bu baxımdan, o müqəddəs məkandan ayrılmaq bizə vücudumuzun bir parçasından ayrılmaq qədər ağır və acı idi. Lakin başqa yol yox idi və biz yaşlı gözlərlə qarnizondakı son anlarımızı yaddaşımıza köçürüb Dezfula yola düşdük.

Dezfulda Şəhid Bakiri qarnizonunun bayırında çadır qurduq. Qarnizon keşikçilərinin və batalyonların şəxsi heyətinin kəşfiyyatçıları görmələrini istəmirdik. Əvvəlcə Kərbəla şəhidləri batalyonunun çadırlarını, sonra bütün uşaqların sığınacağı olan böyük bir məscid çadırını, məscidin o tərəfində də komandir çadırı olaraq iki yan-yana çadır qurduq. Mən Kərim Hörmətinin çadırında qalırdım. Mənsur Furqani, Əsğər Abbasquluzadə və Məhəmmədhüseyn Əlipərəsti də orada qalırdılar. Gələcək əməliyyata vaxtımızın olduğunu düşünüb bikar qalmamaq üçün təlim-məşq proqramları hazırladıq. Qərara gəldik ki, kəşfiyyat bölüyü yaratmış Zəncan briqadasında məşq edək. Kəşfiyyat bölüyünün ixtiyarında olan Kərbəla şəhidləri batalyonuna da təlimlər nəzərdə tutduq və uşaqların vaxtları müxtəlif dərs və məşqlərlə doldu.

Uşaqlar çadırlara qan qrupuna uyğun olaraq bölündülər: nadinclər bir tərəfə, möminlər bir tərəfə. Kərim Ahənc, Yusif Sarimi, Məhəmməd Purnəcəf, Həsən Abidi və Mirdavud Hüseyni bir çadıra, Firidun Neməti, Cəlal Xəlilzadə və Əbülqasim Vətənpur başqa bir çadıra yerləşdilər. Əlbəttə, Həsən Əbdi hansı səngərdə olsaydı, səhərdən axşama qədər bütün işlərdə gülüş və zarafat olurdu. Qardaş Əbdi möminlərin çadırını təcili yardım adlandırırdı, çünki gündüzlər istirahət etmək üçün çadırlarının ortasından ağ pərdə çəkmişdilər.

Təlim məşqləri davam edirdi. Mən Mənsur Furqaninin və Əsğər Abbasquluzadənin dərslərində iştirak edirdim. Əmin idim ki, dərslər xüsusən yeni qüvvələrə çox yaxşı və faydalıdır. Həmin əsnada diviziyanın kəşfiyyat bölüyünün komandiri Kərim Hörməti xəbər gətirdi ki, Aşura diviziyası Dezfulun Şəhid Bakiri qarnizonundan Təbrizin Şəhid Qazi qarnizonuna köçürüləcək. Bu yerdəyişmənin əsas səbəbi o idi ki, Aşura diviziyasının tapşırıq yeri cənubdan qərbə keçirdi və diviziyanın əsas bazasının əməliyyat yerinə yaxın olmasını istəyirdilər. Tezliklə batalyonlar da Şəhid Qazi qarnizonuna yola düşdülər. Hamı kimi mən də xatirə dolu cənub bölgəsindən əşyalarımı toplayıb Təbrizin Şəhid Qazi qarnizonuna köçdüm.

***

Qarnizonun önündəki üç binanın biri kəşfiyyat bölüyü üçün nəzərdə tutulmuşdu, digər iki bina da idari qərargah və tribunal üçün. Kəşfiyyat bölüyünün tabeliyində olan Kərbəla şəhidləri batalyonu qarnizonun son hissəsində yeməkxanaya yaxın kazarmalara yerləşdi. Orada əlavə dörd bina da vardı, Həbib və İmam Hüseyn (ə) batalyonları da orada qalırdılar.

Yerdəyişmədən sonra əslində, həm də Kərbəla şəhidləri batalyonunun komandiri olan Kərim Hörməti məni komandir əvəzi təyin etdi və şəxsi heyətin təlim işlərini mənə tapşırdı.

Təlimlər başlandı. Səhər idmanı və gecə məşqləri daha çox qarnizonun arxasındakı təpədə baş tuturdu. Müəllimlərin keçdiyi dərslər şəxsi heyətdə yaxşı fiziki hazırlıq yaradırdı.

Batalyonlar cəbhənin həmişəki mənəvi halını Şəhid Qazi qarnizonuna gətirmişdilər. Uşaqların əzadarlığa, sinə vurmağa xüsusi marağı hansısa bölgəyə aid bir şey deyildi. Harada olsaydıq, harada imkan yaransaydı, İmam Hüseyn (ə) və İmam Mehdi (ə) yad olunurdu. Əzadarlıqlar adətən, Şəhidlər sərvəri Hüseyn ibn Əlinin (ə) və onun ailəsinin müsibəti ilə başlayıb həzrət Fatimeyi-Zəhraya (ə) təvəssüllə və şəhid dostlarımızı xatırlamaqla davam edirdi.

Taqım komandiri qardaş Əziz Bəylər[1] bu mərasimlərdə qabağa düşən adamlardan idi. Birinci bölüyün komandiri Amanullah Amani də əzadarlıq üçün Təbrizdən məddahlar gətirirdi.

Batalyonun komandir əvəzi vəzifəsini qəbul edəndən bütün təlimlərdə iştirak etməklə uşaqları həvəsləndirməyə çalışırdım. Təpəyə çıxanda həmişə çətinlik çəkirdim, sol ayağım dizdən qatlanmırdı və 5 santimetr hündürlüyündə bir daşın da üstündən keçirə bilmirdim. Ya bütün bədənimi yuxarı dartmalı, ya da kənardan keçməli idim. Bu vəziyyətdə daşlı təpələrə çıxmaqda uşaqlarla ayaqlaşmaq çətin idi, amma mən təslim olmağa gəlməmişdim, zəif cəhətimi göstərməmək üçün bütün səyimi toplayırdım. Bir dəfə batalyonun şəxsi heyəti ilə gecə döyüşünə gedəndə digərlərindən öndə

[1] O, Beytülmüqəddəs-2 əməliyyatında şəhadətə qovuşdu.

hərəkət edir və uşaqları təpəyə çıxarırdım. O zaman uşaqların bir-birinə belə söylədiklərini eşitdim: "Bu adam belə vəziyyəti ilə bizə bu qədər zülm edir, gör sağlam olsaydı, nə edərdi!" Bilmirəm, bəlkə də sağlam qalsaydım, o qədər yara, çirk və yataq günlərini arxada qoymasaydım, bu qədər qeyrətlə və yorulmadan işləyə bilməzdim.

Gündüzlər bir-birinə oxşar proqramlarla dolurdu, amma yeknəsəqlik və təkrarçılıq olmurdu. Hər bir dərsdə yeni məsələ və təcrübələr öyrədilirdi. Nəhayət, Şəhid Qazi qarnizonunda eyni vaxtda iki hadisə baş verdi. Birincisi kəşfiyyat bölüyünün uşaqlarının bir qisminin cəbhəyə getməsi idi, ikincisi isə bu idi ki, Həbib ibn Məzahir, Kərbəla şəhidləri, Seyyidüş-şühəda, İmam Hüseyn (ə) və Qasim batalyonlarına Rəhmanlı bölgəsinə gedib əməliyyata hazırlaşmaları əmr olundu.

Kəşfiyyat uşaqlarının getməsi çox qəlbimi qırdı. Get-gedə həmişə qalanlardan olduğumu hiss edirdim. Lakin ümidim buna idi ki, batalyona tapşırıq verilir, vəziyyət yaxşılaşır və batalyonda vəzifəm olduğuna görə mütləq əməliyyatda iştirak edəcəyəm.

***

Rəhmanlıda buraxılış məntəqəsindən girəndən sonra yolun yuxarısında Kərbəla şəhidləri batalyonu, sol tərəfində Həbib, sağ tərəfində də Bəqiyyətullah batalyonu yerləşdi.

Təchizat bölməsindən çadır və digər əşyalar almaqda çətinliklə üzləşdik, amma hər halda, hamı yerbəyer oldu, düşərgə təkmilləşdi və yenə dağ əməliyyatlarına uyğun təlimlər başlandı. Bizim batalyonumuzda bu təlimlər manevr və piyada yürüşlərlə məhdud olurdu.

Qış gəlmişdi. Qarın yağmaması soyuğun şiddətinə təsir etmirdi. Manevrlər davam edirdi, amma təbii səviyyəyə çatmağa hələ çox vardı. Kəskin soyuq olsa da, hər zaman uşaqlarla birgə təlimdə iştirak edirdim. Təpələrə çıxmaqla və dağların cığırlarında uzun yollar getməklə dağ şəraitinə hazırlaşmağa çalışırdıq. Gecələr dənizdən əsən külək soyuğu gücləndirirdi və bəzən gecə məşq etdiyimiz yerdə qar yağırdı. Bizim bölgədəki son manevrimiz qarın amansız yağıntısı altında baş tutdu.

O şəraitdə bütün şəxsi heyətin üzləşdiyi ümumi problemlərdən əlavə, bizim batalyonumuzun başqa problemləri də vardı. Diviziyanın əməliyyat bölgəsinin cənubdan qərbə dəyişməsi isti havaya adət etmiş şəxsi heyəti birdən soyuqla və daşla üz-üzə qoymuşdu. Düşərgə Urmiya gölünün yaxınlığında idi və göldən əsən küləklər soyuğu bir neçə dəfə artırırdı. Cənubda bir neft çırağının istisinə qızışan çadırlar Rəhmanlının soyuq və qarlı havasında qızmırdı, bir nəfər dörd ədyalla da isinə bilmirdi.

Əksər batalyonlarda çay problemi vardı. Çay isti bir içki kimi soyuğa dözümü müəyyən həddə asanlaşdırırdı. Lakin çay içmək üçün qənd çatışmazlığı vardı. Qənd adambaşına sayla verilirdi, batalyonlarda və bəzi

iclaslarda hər adamın gündə neçə ədəd qənd istifadə etməsi müzakirə olunurdu.

Bu ümumi problemlərdən əlavə, bizim yeni batalyonumuzun digər problemləri də vardı. Bizdən başqa bütün batalyonlara təchizat işlərini görmək üçün toyota maşını verilmişdi. Bizim batalyonumuzun maşını isə xarab bir land rover idi və mən sürə bilmədiyimdən adətən, uşaqlar sürürdülər. Bu maşın batalyonun ərzaq və əşyalarını daşımağa yetmirdi. Təchizat baxımından da vəziyyətimiz pis idi.

Çatışmazlıqların əsas səbəbi bu idi ki, bizim batalyonumuz yeni yaradılmışdı və bu problemlər yeni yaranan bütün batalyonlarda olurdu. Əlbəttə, zirək və çevik uşaqlar bu qüsurları müəyyən həddə aradan qaldırırdılar. Mənim köməkçim Kərim Dehqanzadə çox cəsur və zirək idi. Onun yanında çatışmazlıqdan danışan kimi dərhal gedib haradansa "tapırdı". Bir gün bəzi uşaqların çıraqsız qalması xəbəri gəldi. Kərim də daxil olmaqla iki-üç nəfərə dedim: "Uşaqlar çıraqsız qalıblar, nə edək?"

– Mənim bir dostum var, gedib ondan alaram, problem deyil.

Kərim bunu deyib getdi. Bir saat ötmədən bir qutu çıraqla geri döndü.

– Kərim, bunları haradan gətirdin?

– Dostumdan. Görürsən, necə səxavətlidir?!

Ertəsi gün adət üzrə Həbib batalyonuna dostlarıma baş çəkməyə gedəndə batalyonun təchizat bölməsinin rəisi Məhəmmədəli Zeynalvənd deyirdi ki, bir qutu çıraqları itib.

Kərim belə məxfi əməliyyatlarda ustalaşmışdı və hətta iş o həddə çatmışdı ki, Həbib batalyonunun təchizat konteynerinin aşağı hissəsində düzülmüş turşu bankalarından götürüb hər taqıma birini vermişdi.

– Allah güclüləri yaradıb ki, zəiflər onlardan qidalansınlar.

İslami hücum və əks-hücum növləri batalyonlar arasında yayılmışdı və hücumlar adətən, Həbib batalyonuna və anbarları zəngin olan digər batalyonlara yönəlirdi.

Həbib batalyonunda Cəlal Zahidinin çadırı bizim toplaşma yerimiz olmuşdu. Qardaş Sövdagər və Fərəc Quluzadə ilə yaxın münasibətimə görə hər bir neçə gündən bir onların çadırına qonaq olurdum. Gündüzlər yaranan imkanlarda da uşaqlar bir çadırdan o birinə qonaq gedirdilər. Bəzən Məhəmməd Purnəcəflə Həsən Əbdi bizim çadırımıza gəlir, zarafat və gülüşləri hamını oraya toplayırdı. Bütün uşaqları Həbib batalyonunun ərazisində tikilmiş məscidin camaat namazlarında tapmaq olurdu. Bu namazxana eni 10, uzunluğu isə 20 metr olan bir neçə böyük çadırdan düzəldilmişdi. Camaat namazları, əzadarlıqlar, çıxışlar və bütün batalyon üçün nəzərdə tutulmuş digər proqramlar orada baş tuturdu. Əzadarlıqda bəzi dostların siması həqiqətən, nurlanırdı. Səid Etidadi, Əziz Bəylər, İbrahim Əlinejad və Cəlal Zahidi

belələrindən idilər. Səid Etidadi bizə yeni qoşulmuş 16 yaşlı və çox sevimli bir yeniyetmə idi.[1]

Hər gecə təlim məşqlərimiz olurdu. Qarın, yağışın və küləyin amansız zərbələri altında donmuş əllərlə təpəyə çıxmağın nə olduğunu bilirdim, amma mənim yaddaşımda elə bir xatirə vardı ki, bütün soyuq və çətinliklər onun yanında heç idi. Bu xatirə Vəlfəcr-8, Kərbəla-4 və Kərbəla-5 əməliyyatında dalğıcların çəkdiyi əzab-əziyyətlərdən ibarət idi. Mən eşqin qüdrətini onlarda görmüşdüm.

Gecə təlimlərinin nəticəsi briqada səviyyəsində keçirilən manevrdə briqada və diviziya rəhbərləri tərəfindən dəyərləndirilirdi. Manevrə qardaş Cəmşid Nəzmi başçılıq edirdi. Batalyonlar iki-iki hərəkət etməli idilər. Həbib batalyonu bizə yoldaş olmuşdu. Daha dəqiq dəyərləndirmə üçün manevri əməliyyat bölməsinə bənzər bir şəraitdə həyata keçirirdik. Oradakı yüksəklik gələcək əməliyyatda elə keçirməli olduğumuz yüksəkliyə çox bənzəyirdi. Manevrdə maneələrdən və partladıcı şəbəkələrdən istifadə edirdik və düşmən rolunu oynayanlar bizə doğru havaya atəş açmaq haqqına sahib idilər. Bunlar manevri həqiqi döyüşə bənzədirdi. Hər batalyon üç istiqamətdə bölük kimi hərəkət edir, dağa çıxandan və şərti düşmənin mövqelərini ələ keçirəndən sonra digər istiqamətdən hücuma keçmiş batalyonla birləşirdi.

İki batalyonun çıxışından sonra növbə digər batalyonlara çatırdı və onlar da təyin olunmuş yolla iki-iki hərəkət edirdilər. Komandirlərin yekun dəyərləndirməsinə görə Həbib və Kərbəla şəhidləri batalyonlarının manevri digərlərindən yaxşı olmuşdu. Bu isə o demək idi ki, təlim zamanı ciddiliyimiz, tələbkarlığımız və gecə yürüşlərimiz bəhrəsini vermişdi.

Manevrdən bir neçə gün sonra briqada komandirimiz qardaş Cəmşid Nəzmi mənimlə birgə iclasa getməli olduğunu bildirdi. Düşündüm ki, iclas əməliyyat üçün batalyonların bölgülərindən ötrüdür. Batalyonumuzun yüksək hərbi hazırlığına görə bizi ilk hücuma daxil etmələrini gözləyirdim. Həmin gün qardaşlardan Məhəmməd Sövdagər, Hüseyn Əbülqasimzadə, Seyid Möhsün Musəvian, Yasir Zirək, Kərim Hörməti, Məhəmmədhüseyn, Nəsr-7 əməliyyatından sonra Qasim batalyonunun komandiri təyin edilmiş Hacı Mustafa Əkbəri və qardaş Nəzminin özü ilə birgə yola düşdük.

II

İlk dəfə idi Mavuta gedirdim.

Kəşfiyyat bölüyünün uşaqları Sərgəlo təpəsinin sinəsində beton səngərləri olan bir düşərgəyə yerləşmişdilər. Sərgəlo Qamu yüksəkliyindən ayrılmışdı və üzərində Şəhid Davudabadi adlı başqa bir düşərgə də vardı. Bu yüksəkliyi İslam qüvvələri 1987-ci ilin baharının ilk günlərində Kərbəla-10

[1] O, Beytül-müqəddəs-2 əməliyyatında göstərdiyi böyük rəşadətlərdən sonra şəhidlərin cərgəsinə qatıldı. Mən onun məsum çöhrəsini heç vaxt unutmayacağam.

əməliyyatında fəth etmişdilər. Kərbəla-10 və Nəsr-4 əməliyyatlarından öncə düşmən qüvvələri Çuman çayının o tayında idilər, bizimkilər bu tayında. Bu əməliyyatlardan sonra Mavut şəhərinin ətrafındakı yüksəkliklər Qalaçulan çayına qədər azad olunmuşdu. Son hücumları təkmilləşdirmək və Qalaçulan çayından keçmək məqsədilə baş tutmuş axırıncı əməliyyat Nəsr-8 əməliyyatı idi. O əməliyyatdan sonra Girdərəş yüksəkliyi də İslam qüvvələrinin əlinə keçmişdi. Girdərəş sərt yoxuşları olan hündür bir dağ idi, ona qalxan yolda 38 döngə vardı və avtomobillər bu döngələri sükanı bir dəfə tam döndərməklə keçə bilmirdilər.

Sərgəloda yerləşən düşərgə Şəhid Bəni-Haşim düşərgəsi idi, əvvəllər Şəhid Qəhvəçian mövqeyi ilə məşhur olmuşdu. Orada kəşfiyyat bölüyünün səngəri komandir səngərindən hündürdə yerləşirdi. Kərim Hörmətinin o tərəfə getdiyini gedəndə soruşdum: "Məgər sən iclasa gəlmirsən?"

– Yox, sən get, gör nə xəbər var, mən burada gözləyirəm.

Komandir səngərinə getdim. İclas adət üzrə bir qədər Quran oxunuşu ilə başlandı və qardaş Əmin Şəriəti giriş sözlərindən sonra diviziyanın ilk əməliyyat layihəsini açıqladı: "Bütün bölgədə Aşura, Seyyidüş-şühəda, Həzrət Rəsul, Kərbəla və Nəsr diviziyaları vahid cəbhə formasında düşmənə hücuma keçəcək. Qamış dağı bölgənin açar yüksəkliyidir. Onu ələ keçirmək Aşura və Seyyidüş-şühəda diviziyalarının üzərinə düşür".

Buraya qədər söhbətlər hamıya həzz verirdi. Çünki bizim diviziyamız ən mühüm və ən çətin tapşırığı yerinə yetirəcəkdi. Növbə batalyon bölgüsünə çatdı. Bu barədə diviziya komandirinin planı belə idi: “Bizim diviziyamızın iki batalyonu hücuma keçib düşmən mövqeyini tutacaq, digər iki batalyon sonradan Qucar və Qamışın arasındakı cığırla yola düşüb onlara dəstək verəcək. İki batalyon da onlarla birləşib əməliyyatı davam etdirmək üçün Ulaqlıya doğru gedəcək”.

Xəritə üzərində Qucar yüksəkliyinin əməliyyatı məhdud etdiyi görünürdü. Oradan başlayan hərəkət sol istiqamətə və sonda İraqın Süleymaniyyə düzünə çatırdı. Deyildi ki, Həbib və Qasim batalyonları ilk hücumçular olsunlar, İmam Hüseyn (ə) və Bəqiyyətullah (ə) batalyonları isə ikinci mərhələdə iştirak etsinlər.

Sanki tikan üstə oturmuşdum. Özümü güclə saxlayırdım. Gözüm Seyyidüş-şühəda batalyonunun komandiri Seyid Möhsün Musəviana sataşdı. O da mənim qədər narahat idi. Çünki əməliyyatın birinci və ikinci mərhələlərində nə bizim batalyonumuz iştirak edəcəkdi, nə də onun batalyonu. Mən dedim: "Qardaş Əmin, biz bu batalyon üzərində çox əziyyət çəkmişik. Uşaqlara söz vermişik ki, onlar mütləq ilk hücumçu olacaqlar. Axı nə üçün..."

– Ağa Mehdi, siz inşallah, helikopterlə Bağdada gedəcəksiniz.

İsrar və etirazım önündə belə zarafat gözləmirdim. O qədər narahat idim ki, bütün əməliyyat boyu əsas yükün hamıdan sonra hərəkətə keçəcək batalyonların üzərinə düşməsini öyrənməyə səbir edə bilmədim. Çünki

düşmənin əsas təzyiqləri və ağır əks-hücumları mövqe yaran və hətta ikinci mərhələdə hücuma keçənlərdən sonra başlayır. Belə olduqda əməliyyatın növbəti mərhələlərində mövqeyi saxlayan batalyon güclü olsaydı, düşmənin geniş hücumu qarşısında müqavimət göstərə bilərdi. Əks-təqdirdə, bütün əziyyətlər hədər gedərdi. Mən bu məsələləri ölçmək vəziyyətində deyildim. Hətta diviziya komandirinin zarafatı da məni sakitləşdirmədi. İclas bitdi, mənsə narazı idim. Uşaqlara bu xəbəri verəndə batalyonun hansı vəziyyətə düşəcəyini fikirləşirdim.

Oradan çıxıb yuxarı qalxdıq, Kərim nə baş verdiyini üzümüzdən anlayıb dedi: "Əmin ağa bizə söz verib, əgər sözünün üstündə durmasa, mən batalyonu saxlaya bilmərəm... Bu vəziyyətdə daha kəşfiyyat batalyonuna gərək qalmaz".

– Özün bilərsən, Kərim, bu batalyonun komandiri sənsən, get nə sözün varsa, Əmin ağaya de.

Bu dəfə mən orada qaldım və Kərim komandir səngərinə getdi. Orada dayanıb ətrafa baxırdım. Tikinti-mühəndis bölüyünün uşaqları komandir səngərindən bir az aşağıda yerləşmişdilər. Hava soyuq idi, amma eləcə dayanıb İraqın Sərgəlo yüksəkliyindən əziz ölkəmə baxırdım. Çuman çayı, Banə və Sərdəşt yüksəklikləri üfüqdə aydın görünürdü.

Kərim Hörməti qayıdanda nəticəni öyrəndik. Belə qərara gəlmişdilər ki, Kərbəla şəhidləri batalyonunun uşaqları əməliyyat arzusu ilə gəldiklərinə görə, həm də ilk hücuma keçəcək batalyonları gücləndirmək məqsədilə onları həmin batalyonlara bölək.

– Mən bu qərarı uşaqlara deyə bilmərəm; yəni bu vəziyyətdə onların üzünə baxa bilmərəm. Kim istəyir, getsin.

Bunu deyib özümü kənara çəkdim. Məhəmmədhüseyn Əlipərəsti bu işi qəbul edib batalyona qayıtdı, mənsə orada qaldım; çünki daha qayıtmağa lüzum görmürdüm.

Bir neçə gündən sonra xəbər tutdum ki, Əziz Bəylər bütün taqımı ilə Həbib batalyonuna qoşulub, qəzvinli uşaqların bir qismi Qasim batalyonuna gedib. Qalanı da İmam Hüseyn (ə) və Bəqiyətullah (ə) batalyonlarına birləşiblər. Bu bölgüdən sonra batalyon daha müstəqil bir birləşmə kimi mövcud deyildi və mən də yenidən diviziyanın kəşfiyyat bölüyünün üzvü oldum.

Bölgənin vəziyyətini öyrənməyə yaxşı fürsət yaranmışdı. Uşaqlar bir müddət Mavutun yuxarısında olan Şaşu və Çəkmeyi bölgəsində işləmişdilər, amma oradakı tapşırıq ləğv olunmuşdu və kəşfiyyat Qamış dağında davam edirdi.

İki istiqamətdə kəşfiyyat işlərinə Əsğər Abbasquluzadə və Nasir Dibayi rəhbərlik edirdilər.

Nəsr-7 əməliyyatında deyilən sözlər yenə bəzi uşaqlar arasında gəzirdi. Tapşırığın cənubdan qərbə dəyişməsi o demək idi ki, bundan sonra işlərin böyük əksəriyyəti qərb dağlarında görüləcəkdi və təbii olaraq, kəşfiyyatçılar

da dağları öyrənməli idilər. Lakin bəziləri deyirdilər ki, biz dağ bölüklərindən deyilik və ya dağlarda kəşfiyyat məharətimiz yoxdur.

Bölükdə çox qürbət hissi keçirirdim. Qardaş Hörmətinin də bu baxımdan nə qədər narahat olduğunu görürdüm. Bəzi uşaqların kəşfiyyata getməmək üçün bəhanə gətirdiklərini görəndə Şəhid Əmir Əsədullahinin Nəsr-7 əməliyyatı zamanı kəşfiyyatda və müşahidə postunda gecə-gündüz çalışdığını, bir neçə nəfərin işini təkbaşına gördüyünü xatırladım. O, əməliyyata gedəndə o qədər yorulmuşdu ki, şəhadətdən başqa heç bir şey onun dərdinə dərman ola bilməzdi...

Bütün bunları görüb anlayırdım və ürəyim qüssədən yanırdı. Heç kim mənim "kəşfiyyata gedə bilərəm" sözümü dinləmək belə istəmirdi. Digər tərəfdən, bir müddət öncədən bölüyə gəlmiş, müşahidə postunda işləyərək kəşfiyyata gedəcək səviyyəyə çatmalı olan bəzi uşaqlar kifayət qədər bacarıqlı deyildilər, bəziləri də müxtəlif bəhanələr gətirirdilər.

– Mən xəstəyəm, qarnım ağrıyır...

– Mən soyuqda işləyə bilmirəm, əl-ayaqlarım iflic olur...

– Mən gələ bilmərəm, çünki...

– Bura cənubdan çox fərqlənir... burada işləyə bilmirəm.

Ürəyim od tutub yanırdı: Haradasınız, Vəlfəcr-8 əməliyyatının dalğıcları?! Haradasınız, Kərbəla-4 əməliyyatının şəhidləri?! Haradasınız, Kərbəla-5 əməliyyatının ad-sansız qəhrəmanları?! Haradasınız, dalğıc batalyonunda qalmaq üçün əlləri ilə pul verməyə də razı olanlar, isti qanlarının Ərvəndi məğlub edəcək qüvvəyə yiyələnməsi üçün təlim gecələrində soyuqdan donanlar?! Haradasınız, İbrahim Əsğəri, Yusif Həqqayi, Abbas Məhəmmədi, Həmid Allahyari, Əli Şeyxəlizadə, Kərim Vəfa, Möhsün Kiyani?!... Haradasınız, Bədr, Xeybər, Kərbəla əməliyyatlarının qəhrəmanları?! Haradasınız, Karunun buz kimi soyuğunda dalğıc geyimlərində əvvəlcə böyük cihaddan qələbə hökmünü almış dostlar?! Haradasan, yaralı və xəstə olduğu üçün dalğıc bölüyündən uzaqlaşdırıldığına görə ağlamaqdan ölməyə qalan Əsğər Əlipur?! Haradasınız, igid şəhidlər?!..

Daxildən yanır, amma büruzə verə bilmirdim. Bilirdim ki, ön cəbhədə, arxa cəbhədə və siyasət səhnəsində belə tədrici dəyişmələri görəndə bəzi dostların ürəyində necə fırtına qopur. Əlimdən gələn yeganə iş bu idi ki, nəyin bahasına olursa-olsun, kəşfiyyat işinin bir hissəsini üzərimə götürüm. Lakin nə qədər israr edirdimsə, xeyri olmurdu. Mənim istəyimlə razılaşan bir nəfər belə yox idi. Hamı məni bir dəfə başdan-ayağa süzməklə inandırmaq istəyirdi ki, indiki işin kəşfiyyatdan əskik deyil. İşim xəritə çəkmək və bəzi xəritələrdə dəyişiklik etməkdən ibarət idi. Halbuki bəzi azsaylı uşaqların bir neçə işi necə bir yerdə görüb bəzi dostlarımızın boş yerini doldurmağa çalışdıqlarını görürdüm. Nəsr-7 əməliyyatında dağlıq bölgədə işləməkdən qorxan Məhəmməd Purnəcəf indi bir neçə nəfərin yerinə işləyirdi.

Fikirləşdim ki, Kərimə başqa bir qüvvəni göstərməyin zamanı çatmışdır. Bölükdə Hüseyn Səfaşuru mənim kimi heç kim tanımırdı.

Hüseyn kiminsə onu tərifləməsindən xoşlanmazdı. Mən bu xarakterinə hörmət edərək heç kimə bir söz demirdim, amma onun yalnız sürücülük etdiyini görüb ürəkləndim və Kərim Hörmətiyə dedim ki, Hüseyn Səfaşurdan bacardığın qədər istifadə et. Ona bildirdim ki, Hüseyn müharibənin əvvəlində Şuş cəbhəsində istiqamət komandiri olub, əlinin sinirləri də orada yaralandığına görə kəsilib.

Bu söhbətdən sonra Kərim Hüseyni önə çəkdi və tezliklə onun xüsusi bacarıqları hamıya aşkar oldu. Bir dəfə Amanullah Amani və Əsğər Abbasquluzadə Hüseynlə birgə kəşfiyyata getdilər. Qayıdanda Amanullah danışırdı ki, təcili qərar verməyə ehtiyac yaranan anlarda Hüseyn çox dəqiq və ağıllı təklif irəli sürür, hətta istiqamət komandirinə deyirdi ki, bu işi görsək, bu səbəbə görə daha uğurlu olar. Hüseynin fikirlərini hamı qəbul edirdi. Beləliklə, Hüseyn Səfaşur əlil olmasına və yalnız bir əlinin işləməsinə baxmayaraq, bölüyün əsas fiqurlarından biri oldu. Bölükdə Hüseyn kimilərin olması məni ürəkləndirirdi və yaralı olmağıma baxmayaraq, uşaqlarla birgə hərəkət edə bilərdim. Lakin buna hələ də icazə vermirdilər və təsadüfən, böyrümün yarasının çirki yenidən başlamışdı. Get-gedə çirkin üstü açıldı və mən onu tez-tez açıb-bağlamaqla məşğul oldum.

III

Bölükdəki boşluğu doldurmaqdan ötrü Şəhid Qazi qarnizonunda qalmış kəşfiyyatçılar bölgəyə gəldilər. Onlar bölgə ilə tədricən tanış olandan və ümumi əməliyyat planını görəndən sonra növbəti mərhələlərdə uşaqlara kömək edəcəkdilər.

Soyuq get-gedə güclənirdi. Qar yağandan sonra donmaq və sürüşmək də problemlərə əlavə olundu. Adi yolda güc-bəla ilə yol gedən biri kimi, mənim o şəraitdə hərəkətim yalnız Allahın xüsusi lütfü ilə mümkün olurdu. Güclü qar-borana və ağır soyuq şəraitinə baxmayaraq, batalyonlar bölgəyə gəldilər. Əməliyyat zümzüməsi ağız-ağız dolaşır və bugün-sabah başlayacağı gözlənilirdi. Qalaçulan çayından keçid problemi, Qamış dağının sərt yoxuşları, əməliyyat bölgəsinin qarlı olması, düşmənin güclü radar və dinləmə cihazlarından istifadəsi işi elə bir həddə çatdırdı ki, qərargahda iclas keçirildi. İclasın nəticəsi bu oldu ki, bütün batalyonlar məzuniyyətə getsinlər və şayiə yayılsın ki, düşmən əməliyyatdan xəbər tutmuşdur. Bu xəbər sürətlə hamıya yayıldı. Hətta özümüz də buna inandıq. Bölüyün əksər uşaqlarına məzuniyyət verildi və biz vəzifəmizin nə olduğu haqda tərəddüdə düşdük. Həmin gün qardaş Kərim Hörməti bizi bu haldan çıxardı.

– Getmə, Mehdiqulu, işimiz var.

Hamı getdi və bölgədə yalnız doqquz kəşfiyyatçı qaldı. Hamımız bir yerə toplaşanda əsas mövzu elan olundu: "Bundan sonra əməliyyatın olub-

olmaması sizin işinizə bağlıdır. Gedin bölgəni dəqiq araşdırın, görün həqiqətən, bir batalyon Qalaçulan çayından keçə bilər, yoxsa yox. Birtəhər özünüzü suyun o tərəfinə çatdırın və bölgənin vəziyyətini öyrənin".

***

Qalaçulan çayı Jajilə və Qamış dağlarının arasından keçib sərhədin yaxınlığında Zab əl-səğir çayına birləşir və "Zab əl-kəbir" çayını əmələ gətirirdi. Qalaçulan çayında suyun səviyyəsi yayda bəzən azalsa da, qışda davamlı yağıntılara görə yüksəlirdi və axın o qədər güclənirdi ki, ondan keçmək imkansız görünürdü. Digər tərəfdən, bölgənin vəziyyəti elə idi ki, yağış yağanda avtomobil hərəkəti məhdudlaşırdı. Hətta hündür toyota və hərbi maşınlar da hərəkət edə bilmirdi, yalnız traktor və tank kimi güclü və ya tırtıllı maşınlar hərəkət edə bilirdi. Hətta polis zastavasından keçən və Mavutdan Süleymaniyyə sərhədinə çatan qədim asfalt yolda hərəkət də riskli idi.

Bir dəfə Nasir Dibayi ilə gedərkən bir neçə metr irəlidə suyun yolu basdığını gördük. Maşını idarə edən Nasir dedi: "Mehdiqulu, ağrımayan başa nə üçün dəsmal bağlayaq?! Mən burada qalıb gözləyəcəyəm ki, bir maşın gəlib keçsin, əmin olandan sonra gedəcəyəm".

Səhər idi. Bir qədər sonra bir maşın gəlib dayanmadan keçmək istədi, lakin bir neçə saniyə ərzində pəncərəyə qədər palçığa batdı.

Qışın gəldiyinə və qarın yağdığına görə təpələrin üstündəki qarın hündürlüyü çoxalmışdı, bəzi bölgələrdə yeddi metrə çatırdı. Qamışın özündə də uşaqlar kəşfiyyat zamanı bütün yolboyu qardan keçmək və qar üstündə ayaq izlərinin qalması kimi problemlərlə üzləşirdilər.

Başqa bir mühüm problem tikinti-mühəndis bölüyünün əməliyyatdan uzaqda olması idi. O şəraitdə yol çəkmək təxminən qeyri-mümkün idi, çünki yol çəkilməli bölgələrin hamısı düşmənin nəzarəti altında idi. Düşmən Qamışın bütün yüksəkliklərini əlində saxlamaqdan əlavə, Girdərəşin yamaclarında da pusqu qurmuşdu. Bu baxımdan, oradan yol salmaq mümkün deyildi. Hətta yolu gecələr qaranlıqda çəksəydilər də, Qamışdakı radarlar planı ifşa edəcəkdi. İnsan və avtomobil keçidini müəyyən edən rasit radarlarına görə bölgədə avtomobilin hərəkəti minimuma endirilmişdi.

Bütün bu problemlərə baxmayaraq, müxtəlif istiqamətlərdən Qalaçulandan keçid tapmağa çalışan doqquz nəfərin işi davam edirdi. Əsğər Abbasquluzadə, Nasir Dibayi, Məhəmmədhüseyn Əlipərəsti, Cəlal Xəlilzadə, Hüseyn Səadəti, Əbülqasim Vətənpur, Qulamrza Möhsüni və mən bir neçə qrup şəklində bu məsələ üzərində işləyirdik. Qalaçulan çayı sürətlə axır və keçidin imkansızlığına dair təsəvvür yaradırdı, lakin ilk xoş xəbər gəldi: "Əsğər ağa uşaqların bir neçəsi ilə çaydan keçib və hətta Üruc pusqularının yerini də öyrənib. Onlar çayın içində yaxın məsafələrdə olan iri daşların üstündən keçmişdilər. Çayı keçəndən sonra bölgənin ən hündür yüksəkliyinə, xəritələrdə Əhməd Rumi lodkası, uşaqların arasında isə Üruc kimi tanınan yerə gedib xüsusi bir problemlə üzləşmədən düşmən pusqularının yerini

öyrənmişdilər. O istiqamətdə yolun açılması sevindirici olsa da, hələ Seyyidüş-şühəda diviziyası ilə Həbib batalyonunun müştərək istiqaməti açılmadığına görə narahat idik və başqa bir yol axtarırdıq. Bu axtarış nəticə verməzdən öncə əmr gəldi ki, kəşfiyyatçılar Girdərəşə gedib əməliyyatın oradan Üruca və davamında Himmətə doğru istiqamət almasının mümkünlüyünü öyrənsinlər.

Plan belə idi ki, əvvəlcə Nəsr diviziyası Hərmədan düzündən hücuma keçsin, ondan sonra Qasim batalyonu yolu davam etdirib Qamış yüksəkliklərindən olan Üruca doğru irəliləsin. Onun ardınca Həbib batalyonu Qamış dağında hücumu davam etdirib Himmət zirvəsini ələ keçirsin və bu əməliyyatdan sonra Seyyidüş-şühəda diviziyası yolu davam etdirsin. Qarışıq və mürəkkəb bir vəziyyət idi. Qalaçulandan keçmək mümkün olsaydı, məsələ həll olardı, lakin o istiqamətdən yolun açılmadığına görə əməliyyatın B planı baş tutacaqdı ki, bu da bir-birinin ardınca düşmən mövqelərinin tutulmasını tələb edirdi və əməliyyatın hər bir mərhələsində yeni müqavimətlə üzləşəcəkdik. Həm də Qamışın Girdərəş səmtindən keçilməz olduğuna görə bu əməliyyat bir əfsanəyə bənzəyirdi.

Tapşırığa əsasən, Girdərəşə getdik. Polis zastavasının yaxınlığından Girdərəşə qədər çəkilmiş yol İmam Rza (ə) körpüsü ilə Qalaçulandan keçib 38 döngədən sonra Girdərəşin zirvələrinə çatırdı. Təkcə bu yolla qalxmaq tam bir kəşfiyyat qədər çətin idi. Hər bir döngəyə çatanda maşından enib onu itələyirdik. Bəzən sürüşüb yoldan kənarlaşmasının qarşısını almaq üçün bütün yolda maşını itələmək lazım olurdu. Hüseyn Səfaşur, Kərim Hörməti və mən bütün qüvvələrimizi səfərbər edib nəhayət, maşını lazım olan yerə çatdırdıq. O quru və sərt soyuqda üz-başımızdan tər axırdı. O halda güclü soyuqdəyməyə də tutula bilərdik. Uşaqların çoxu ondan xəstələnmişdi. Heç kimə demirdim, amma qıçımın zoqqultusu başlamışdı, böyrümün yarasından da çirk gəlirdi. Elə bir yerə çatmışdıq ki, heç bir sığınacaq və səngərimiz yox idi. Düşünürdüm ki, Nəsr-8 əməliyyatı zamanından orada düşmən səngərləri qalmışdır. Bir neçə donmuş düşmən cəsədinin düşdüyü bir kanala girdim. Tezliklə o kanaldan ayrılan bir səngər tapdım. Xoşbəxtlikdən, orada cəsəd yox idi. Güclü soyuqdan bütün cəsədlər donmuş olsa və narahatedici qoxusu olmasa da, gözlərimiz hər an cəsədlərin qurumuş gözlərinə və vahiməli üzlərinə düşməsin deyə, onların üzərinə torpaq və ya qar tökürdük.

Tapdığımız yerdə iki səngər vardı və bizim bir neçə günlük qalmağımız üçün kifayət edirdi. Yolun vəziyyətinə görə bizdə yaranan ilk sual bu oldu ki, su kimi sadə şeylər yuxarıya necə çatdırılır? Bu ilkin ehtiyacları aradan qaldırmaq üçün ətraf səngərlərdə axtarış başlandı. Yanacaqla dolu bir çıraq və böyük bir qazan su problemini təxminən həll edirdi. Hər səhər qazanı daşların yanındakı təmiz qarla doldurub çırağın üstünə qoyurduq, bir azdan əriyirdi, biz də ondan dəstəmaz almaq, qabları yumaq və digər işlər üçün istifadə edirdik. Hüseyn Səfaşur bu suyu əldə etməkdən ötrü çox əziyyət çəkirdi. Neft çırağı

qarı yalnız əridə bilirdi, soyuqluğunu azaltmırdı. Mən dəfələrlə görmüşdüm ki, uşaqlar qışın soyuğunda səhər çağı buz kimi su ilə qüsl alırdılar və şəriət vəzifələrini yerinə yetirməyə hər şeydən böyük əhəmiyyət verirdilər.

Əl-Qədir briqadası Girdərəşin müdafiəsini üzərinə götürmüşdü. Onların mövqeyindən keçib kəşfiyyata getmək bizim üçün təhlükəli bir problemə dönmüşdü. Onlar kəşfiyyatdan xəbərdar deyildilər, işimizi məxfi saxlamağa çalışdığımıza görə biz də bu haqda məlumat vermək istəmirdik.

Heç bir çıxış yolu tapa bilmirdik. Onlar bəzən atəş açmaqla bizi oradan uzaqlaşdırırdılar. Nəhayət, qərara gəldik ki, onların kəşfiyyatçılarından ikisini də özümüzlə aparaq, bəlkə onlara görə bizimlə işləri olmaz.

Girdərəşə yerləşəndən bəri qrupun kəşfiyyat işini tənzimləmək mənə tapşırılmışdı. Təxminən bütün işlərdən xəbərdar olurdum. Əl-Qədir briqadasından iki nəfərlə birgə gedən kəşfiyyatçılarımızı yola salanda, onların Girdərəşdən iraqlıların çoxlu pusqu qurduğu aşağı düzə sarı getməli və oradan keçib Qamışın zirvəsinə yaxınlaşmalı olduqlarını izah edəndə başlarına nə gələcəyini bilmirdim. Ümumi hərəkət yolundan və kəşfiyyat hədəfindən xəbər tutan əl-Qədir uşaqları getməzdən öncə bizə heyrətlə baxıb dedilər: "Hərmədan?! Oraya getmək çox çətindir. Ümumiyyətlə, öz müdafiə xəttimizdən enib düşmən pusqularını keçmək çətindir, nəinki Hərmədana və Qamışın zirvəsinə getmək. Bu, qeyri-mümkündür!"

Hüseyn Səfaşuru, Səid Baqirini, Cəlal Xəlilzadəni, Əbülqasimi və Maqsudu onlarla birgə göndərdim. Bölgəyə baxır, o qədər uca və qarlı zirvələr önündə hiss etdiyim aramlıqdan həzz alırdım.

Uşaqlar səhərə yaxın qayıtdılar. Allahın lütfü onları yenə düşmən gözündən uzaq saxlamışdı. Onlar Girdərəşin yamacında qurulmuş pusqulara çatanda qarşıdan gələn bir düşmən kolonu ilə rastlaşmışdılar. Uşaqlar orada yerdə oturmuş, iraqlılar da yanlarından keçmişdilər. Onlar bizim uşaqlarımızın pusquda duran iraqlılar olduğunu düşünmüş, hətta biri Maqsudun başını da tumarlamışdı. Əl-Qədir briqadasının uşaqları deyirdilər ki, biz onları görəndə atəş açmaq istəyirdik, amma sizin uşaqlarınız o qədər səbirli və soyuqqanlı idilər ki, düşmən əlini onların başına çəkəndə də xüsusi bir reaksiya vermədilər. Biz isə təəccüb və həyəcandan yerimizdə qurumuşduq.

***

Orada və sonrakı kəşfiyyatlarda uşaqlar Qamış dağının yamacında olan və bir yolun keçdiyi Şətik kəndinə qədər getmiş, bütün yol və pusquların yerini öyrənmişdilər.

Girdərəşdə dördüncü günümüz idi. O vaxta qədər yalnız iraqlılardan qalmış ərzaqla qidalanmışdıq. Nəhayət, təchizat bölüyünün bir maşını yuxarı qalxdı və biz ərzaq götürdük.

Ərzağı saxlamaq da başqa bir problem idi. Çünki yenidən siçanlarla birgə yaşamağa başlamışdıq. Oranın siçanları o qədər güclü və simic idilər ki, o soyuqda da hücumlarından qalmırdılar. Səhər kauçuk soyuducunu açanda

içində çoxlu siçan qarası görürdük. Çox əziyyətlə əldə etdiyimiz pendirin, dünəndən qalmış xörəklərin üstünü də bulaşdırırdılar. Hətta axşamdan qalmış çörək də yeyiləsi halda olmurdu.

Orada qaldığımız son günlərdə Əsgər ağanın istiqamətində işləyən Qulamrza Möhsüni yanıma gəldi. Mən onun axşamkı kəşfiyyat yerini təyin etməli idim. Onunla və Əbülqasim Vətənpurla birgə Əl-Qədir briqadasının yerləşdiyi müdafiə mövqeyinə doğru yola düşdük. Bilmirdim ki, Əl-Qədir briqadasının uşaqları bizi oraya buraxacaqlar, yoxsa yox. Çünki yanımızda onların uşaqlarından heç kim yox idi. Mövqeyə yaxınlaşanda reaksiyalar başlandı.

– Hara gəlirsiniz?! Qayıdın!

Qulamrza təəccübləndi. Ona məsələni danışdıq və başa düşdü ki, diqqətsizlik edib irəliləsək, atəşlə təhdid olunacağıq. Zarafata mövzu tapıldı.

- Mən bilmirəm qardaş Möhsün Rzayi nə fikirləşir ki, harada ağır tapşırıq varsa, Aşura diviziyasına verir?!

Bunu mən dedim və Qulamrza Möhsüni belə cavab verdi: "Hə də, Həzrət Rəsul diviziyası Tehran diviziyalarındandır və Hərmədan düzündə işləyə bilər. Nəsr diviziyası da Xorasanındır, o da Hərmədanı davam etdirər... Amma Seyyidüş-şühəda və Aşura diviziyaları Qamışda işləməlidirlər!"

Birdən beynimə bir fikir gəldi: "Oğlan, gedək bu kələyi postdakı uşaqların üzərində icra edək".

– Yəni...

– Bəli, mən oluram qardaş Rəhim Səfəvi, sən də mənim yanımda gəlmisən.

Çox möhkəm addımlarla gəzişir və danışa-danışa müdafiə postuna yaxınlaşırdıq. Oraya yaxınlaşanda Qulamrza Möhsüni mənə dedi: "Qardaş Səfəvi buyurun".

Hiyləmiz baş tutdu. Postdakı əsgərlər başımıza yığışdılar. Deyəsən, onların heç biri Rəhim Səfəvini yaxından görməmişdi. Mənimlə elə hörmətlə davrandılar ki, özüm də Rəhim Səfəvi olduğuma inandım. Bizi səngərlərinə apardılar, çay gətirdilər.

- Buyurun, qardaş Səfəvi.

Bir müddətdən sonra Əbülqasimə dedim: "Qardaş Şəmxani, çox vaxtımız yoxdur, bölgə ilə tanış olmalıyıq..."

Sağollaşdıq və əl-Qədir briqadasının uşaqları bizi hörmətlə yola saldılar. Qayıdanda fikirləşirdim ki, kələyimizin üstü açılsa, bizi bir də heç vaxt o tərəflərə buraxmayacaqlar.

Axşamüstü uşaqlar kəşfiyyat üçün yenə oraya getdilər və onların heç biri Qulamrza Möhsüninin qardaş Səfəvinin yoldaşına bənzədiyini bilmədi.

***

Girdərəşdə qaldığımız son günlərdə əməliyyatda iştirak edəcək batalyonların komandirləri bölgə ilə tanışlıq üçün oraya gəldilər. Məhəmməd Sövdagəri, Əbdüləli Mütləqi, Mustafa Əkbərini və Cəmşid Nəzmini kəşfiyyat

zonasına apardım. Planladığımız taktikanı deyəndə qardaş Sövdagər özünəməxsus təbəssümlə dedi: "Mən ki inanmıram!"

Bölgəni daha çox öyrəndikcə orada əməliyyatın qeyri-mümkünlüyü daha çox üzə çıxırdı. Nəhayət, on gündən sonra Jajilədəki qərargahımıza çağırıldıq. Bu isə o demək idi ki, hücum olacaqsa, yalnız Jajilə və Qalaçulan istiqamətindən olacaqdı.

Jajilədə öyrəndik ki, çaydan keçid problemi həll olunmuşdur. Seyyidüş-şühəda diviziyası bir qrup alpinist gətirmiş, onlar da Balusə ilə Qamışın arasında kanat çəkmişlər. Kanatlara dəmirdən kiçik bir kabinə bağlanmışdı və şəxsi heyət onun içində gedirdi. Beləliklə, Aşura və Seyyidüş-şühəda diviziyalarının kəşfiyyat qüvvələri Qalaçulandan keçdilər. Lakin bu kiçik kabinədən istifadənin ən mühüm problemi bu idi ki, kəşfiyyatçıların mindiyi Jajilədə onun hündürlüyü Qamışdakı dayanacaqdan çox idi və bu da kanatda sərt eniş yaradırdı. Kabinə enişdə sürətlənib Qamış tərəfdə daş divara elə çırpılırdı ki, içindəkilər ya yıxılardılar, ya da ən azı, başları yarılardı. Bu problemi həll etmək üçün kabinədən bir ip çəkdilər. İpin bir ucunu Jajilədə iki nəfər saxlayıb sürətini azaldırdı.

Uşaqlarla kəşfiyyata getmək üçün yenidən Kərim Hörmətiyə israrla xahiş etməyə başladım. Lakin uzun müzakirədən sonra Kərim yalnız kanatın bağlandığı yerə qədər gedib ipi saxlamağa icazə verdi.

Bir neçə dəfə gedib bu işi gördüm. Hərdən dəcəllik damarım tuturdu və kabinə Qamışa bir neçə metr məsafə qalanda ipi buraxırdım və təxminən orta sürətlə divara çırpılırdı.

Bir dəfə də kabinə ortada olanda ip əlimdən çıxdı və saxlaya bilmədim. Kabinə Qamışın daş divarına bərk dəydi, Seyyidüş-şühəda diviziyasının kəşfiyyatçılarından birinin başı yaralandı və hamımız çox qorxduq.

Hər dəfə uşaqları o tərəfə yollayanda gözləyirdim ki, mənə də gəlməyi təklif etsinlər, amma bu, baş vermirdi. Axırda özüm Nasir Dibayini dilə tutdum ki, məni də aparsın. O, qəbul etmirdi. Kərim Hörməti də bu barədə təkidlə xəbərdarlıq etmişdi.

– Ağa Nasir, mən Kərimə demərəm. Əmin ol ki, bilməz. Allah ölənlərinə rəhmət eləsin, məni də apar.

Çox yalvarandan sonra mən də kabinə mindim və bir neçə aylıq həsrətdən sonra Qamış dağına getdim. Kabinədən çıxanda yaxınlıqda bir mağara gördüm. Seyyidüş-şühəda diviziyasının kəşfiyyatçıları hücum gecəsi orada gözləyəcək batalyon üçün silah-sursat gizlətmişdilər. Mağara bizim uşaqlarımız üçün də yaxşı idi; bəzən kəşfiyyat zamanı və ya qayıdanda orada istirahət edir və bir şey yeyirdilər. Həmin gecə mağaraya qədər getdik, ondan o tərəfə icazə vermədilər.

Mənim getməyimi heç kim Kərim Hörmətiyə demədi. Həsrətim bir qədər azalmışdı. Ondan sonra Qamışı yaxşı təsəvvür edə bilirdim. Uşaqlar oranın çətinliklərindən danışanda çoxlu pusquların olduğunu söyləyirdilər. Bəlli idi

ki, düşmən tərəfi nəsə hiss edib pusquların sayını artırmışdı. Bütün kəşfiyyat müddətində uşaqlar iki dəfə düşmən pusquları ilə rastlaşmışdılar və Allahın köməyi ilə qarşıdurma baş verməmişdi. Bölgənin başqa bir problemi dağa çıxmaq idi. Çünki dağ yamacdan zirvəyə qədər qarın içində idi.

Pusqulara görə qarın üstündə ayaq izi qalmamalı idi. Bu problem də Himmətə gedən cığırdan istifadə ilə mümkün olurdu. Cığırda qar yox idi və hərəkət daha asan idi. Orada bütün pusquların yeri təyin olunmuşdu, amma qar uşaqların əl-ayağını bağlamış, bölgənin tam öyrənilməsi mümkün olmamışdı. Bundan əlavə, Əsğər ağa öz istiqamətində başqa bir böyük problemlə üzləşmişdi: yolun sərt yoxuşu və oranı çox sürüşkən edən buz. Qarşıda çox ağır bir əməliyyatımız vardı və bunu hamı bilirdi.

***

Jajilədə bir-birinə yaxın iki səngərimiz vardı. Onların biri Mavut şəhərinə daha yaxın idi. Bütün kəşfiyyatçılar o səngərlərdə idilər. Girdərəşdən qayıdandan sonra Jajilə dağında, Mavut şəhərinin yaxınlığında bir səngər tapıb adını İkinci Jajilə qoyduq.

Qardaş Nasir Dibayinin kəşfiyyat apardığı istiqamət o səngərə yaxın idi. Bu baxımdan, həmin istiqamətin kəşfiyyatçıları oraya yerləşmişdilər. Mən də onların arasında idim.

Kəşfiyyat əməliyyatları bitmək üzrə idi. Yağış və qar bölgəni palçığa batırmış və sürüşkən etmişdi. Bütün bu amillər kəşfiyyat bölüyünün əsas qərargahı olan Bəni-Haşim düşərgəsinə get-gəli minimuma endirmişdi. Mən də hamama ehtiyac olmayınca oraya getmirdim. Bu bir neçə günlük yolu gedəndə qərargahdakı tədrici dəyişiklik tez diqqətimizi çəkirdi. Səngərlərin sayı get-gedə çoxalırdı. Partladıcı bölük də oraya yerləşmişdi. Diviziyanın əməliyyat səngəri də bizim bölüyümüzün səngərinin yanında idi və palçığın altında itmişdi.

Bir neçə gün davam edən yağış nəticəsində dağlardan palçıq axırdı. Axın o qədər güclü idi ki, hətta üstüörtülü səngərin tavanının qalaq vurulmuş millərini də sındırmışdı. Xoşbəxtlikdən, hadisə zamanı içəridə heç kim olmamışdı.

Bəni-Haşim düşərgəsində canlı qüvvənin sayı artırdı. Məhəmməd Purnəcəf, Həsən Əbdi və digərləri bizə qoşuldular və yanımızda başqa bir səngər də quruldu. Onları qızdırmaqdan ötrü odun sobasından istifadə edirdik. Diviziyanın təchizat bölüyünün uşaqları dəmir bakları odun sobası formasında düzəldib bütün batalyonlara və bizim bölüyümüzə vermişdilər. Yeni ixtira olunmuş bu sobalar istiliyi və tüstünü bir yerdə verirdi. Bir dəfə birdən yuxudan diksindim. Gecənin yarısı idi. Gözlərimi açdım. Otaq qara tüstü ilə dolmuşdu və boğazımı yandırırdı. Tez başa düşdüm ki, sobanın dudkeşi tutulub və səngərin içinə qatı tüstü dolub. Səngərin hündürlüyü üç metr idi və onun yuxarıdakı iki metr yarımı qatı tüstü ilə dolmuşdu. Vaxt itirməyib digər tərəfdəki kiçik pəncərəni və qapını açdım. Uşaqlar da bir-bir oyandılar. Sobanı

söndürüb soyuqda bir qədər səngərin havasının dəyişməsini gözlədik. Əgər yuxudan oyanmasaydım, Allah bilir, başımıza nə gələrdi.

***

Bəni-Haşim düşərgəsindəki qərargahımız təxminən dağın arxasında idi və düşmən görə bilmirdi. Onların atəşi də bizə çatmırdı. Səmada bulud olmayanda günəş üstümüzə saçırdı. Buna görə də, yerdə çox qar yox idi. Batalyonların çadırlarının vəziyyəti isə fərqli idi. Batalyonların şəxsi heyəti məzuniyyətini bitirib yenidən bölgəyə qayıtmışdı. Onların düşərgəsi Şəhid Bəni-Haşimdən 1 km. aralıda idi.

Orada batalyonlar səngər yerinə çadır qurmuşdular. Onların əsas problemi güclü qar idi. Uşaqlar deyirdilər ki, xüsusən küləkli gecələrdə qar çadırın tavanına qədər qalxırdı. Batalyonda təchizat və ərzaq problemləri də vardı. Ərzaq baxımından kəşfiyyat bölüyünə yaxşı qulluq etsələr də, digər uşaqların sıxıntıda olduqlarını bilirdik.

O vəziyyətdə Jajilədəki səngərimizdən Şəhid Bəni-Haşim düşərgəsinə qədər təxminən üç saatlıq yol vardı. Düşərgədən təxminən 3 km. enib Şanexz cığırına çıxırdıq. Bu cığır Qamunun əsas yüksəkliyi ilə bitirdi və gördüyüm ən böyük cığırlardan idi. Orada kürdlər hələ də yaşayırdılar. Quruculuq cihadı təşkilatı o cığırda birnəfərlik bir hamam tikmişdi, sonradan ümumi hamama çevrildi. Suyu isti olsaydı, uzun növbədən sonra hamamda çimmək olurdu.

Bir axşam Bəni-Haşim düşərgəsində Əbülqasim Vətənpurun səngərdən çıxdığını gördüm. Gecə saat üç idi. O, axşamdan xəstələnmişdi, indi isə hamama gedirdi. Onun sübh namazından ötrü qüsl vermək istədiyini təxmin etdim. Bayırda qar yağırdı və o, hamama qədər 3 km. yol getməli idi.

Səhərə yaxın qayıdanda öyrəndim ki, suyu qızdıra bilməmiş və soyuq su ilə qüsl vermişdi.

– Əbülqasim, bu halda getməyin vacib deyildi, təyəmmümlə həll edərdin.

– Yox, gərək gedəydim. Qüsl verməsəydim, rahat olmazdım.

***

Jajilədə ikinci səngərdə idik. Bir neçə gün idi səngərimizin yeri çox nəmlənmişdi. Nəhayət, bir gün səngərin yerindən su qalxmağa başladı. Başqa bir səngər tikməyə imkan yox idi. Hamı işləyir, yalnız istirahətə səngərə gəlirdi. Silah-sursat qutularını yerə döşəyib üstündən ədyal sərdik. Səngərin yerindən hələ də su axırdı. Bəzən dəstəmaz almağa tənbəllik edəndə qutuları aralayıb orada dəstəmaz alırdıq.

Bir gün səngərin bayırında idim. Bir toyota maşını diqqətimi cəlb etdi. Toyotanın arxasında çoxlu adam oturmuşdu. Yaxınlaşanda Həbib batalyonunun komandir heyətini gördüm. Onlar bölgə ilə tanışlığa gəlmişdilər. Nasir Dibayi ilə birgə onları Jajilə tərəfdə bir keşikçi səngərinə apardıq və oradan bölgəni göstərdik. Həmin günlərdə eşitdik ki, diviziyanın ikinci briqadasının komandiri Cəmşid Nəzmi Qasim batalyonunun komandir heyətini

gətirərkən maşın yoldan çıxıb dərəyə aşmış və daşların arasından bitmiş bir ağaca dəyərək dayanmışdı.

Qasim batalyonunun bütün komandir heyəti bu hadisədə xəsarət alsa da, heç birinə əməliyyatda iştiraka mane olacaq ciddi xəsarət dəyməmişdi.

Əməliyyatda iştirak edəcək batalyonların rəhbərliyi bölgə ilə tanış oldular və hər bir batalyonun kəşfiyyatçısı təyin edildi. Bu kəşfiyyatçılar ilk hücuma keçəcək batalyonları düşmən mövqeyinə aparacaqdılar.

Seyid Mənsur Furqani kəşfiyyatın əvvəlindən bölgədə olsa da, komandirlərin məsləhətinə əsasən, batalyonlara bələdçilik işinə seçilmədi. Əməliyyatın üstünün açıldığı və doqquz nəfərdən başqa bütün şəxsi heyətə məzuniyyət verildiyi günlərdə o da 15 günlük məzuniyyətə getmiş, amma 10 gün keçməmiş qayıtmışdı. Üzü gülürdü. Tezliklə ata olduğunu öyrəndik. Məni görüb dedi: "Mən də oğlumun adını Mehdi qoydum".

O vaxtdan günlər ötürdü. Seyid Mənsurun sevinci qəm-kədərə çevrilmişdi. Mənsur o zamana qədər müxtəlif işlərdə yaxşı sınaqdan çıxmışdı, dəfələrlə istiqamət komandiri olmuşdu. Bölüyün işlərini yerbəyer etməkdə Kərim Hörmətinin güclü qollarından biri idi. Lakin şəhid dostlarından ayrı düşməsi, bu baxımdan darıxması onun halını dəyişdirmişdi. Öncə onun kiminsə yanında ağladığını görməmişdik; nə mən, nə də başqası. Orada, İkinci Jajilə səngərində isə göz yaşlarını, namazını və duasını görüb halına qibtə edirdik. Təvazökarlığı son həddə idi, gecə namazını bir dəfə də unutmurdu, münacat edib ağlayırdı. Əgər daşların, buzların və qarların arasında bir yer tapa bilsəydi, gecələr bizdən uzaqlaşıb tənhalığa çəkilərdi. Lakin qarın və soyuğun sayəsində məşuqundan ayrı düşmüş saleh bir bəndənin aşiqanə pıçıltı anlarına biz də şahidlik etmək imkanı qazanmışdıq. Əmin idim ki, o, şəhid olacaq. Əmin idim ki, şəhidliyə görə yaşayır və şəhadət karvanından həmişəlik uzaq qalacağını bilsə, qəm-qüssədən ürəyi partlayar. Pərdələr kənara çəkilmişdi və kim daha yaxın idisə, daha böyük sıxıntıya dözürdü. Ayda 2000 tümən maaş alan, yoldaşı yenicə uşaq dünyaya gətirmiş, ev tikməkdə olan və çoxlu borca düşmüş bir pasdar 15 gün məzuniyyət alır və cəbhədən yalnız 10 gün ayrı qala bilir. Allah eşqi onu dağlara salmış, cəbhəni həyatının sərlövhəsi etmişdi. Digərlərinin nə dediyi, bəzilərinin müharibədən yorulduğu, bombardmanlara dözə bilmədiyi və daim düşmənlə barışıqdan danışdığı ona önəmli deyildi.

Cəbhə uzun müharibə illəri boyunca fədakarlıq nişanı almış kişilərlə hələ də dolu idi. Bu kişilərin hətta ən əziz adamları, ata-anaları dünyadan köçəndə də cəbhəni və müdafiəni şəhərə gedib əzizlərinin yasında iştirak etməkdən üstün tuturdular. Bunun bir nümunəsi Mehdi Bakiri idi. O, qardaşı Həmidin şəhadəti zamanı yalnız bir məktubla kifayətləndi. Bir nümunəsi Mustafa Mövləvi idi. Bütün ailə üzvləri avtomobil qəzasında dünyadan köçəndə o, yalnız iki-üç günlüyə şəhərə getdi və dərhal geri döndü. Bir nümunəsi Kərim Hörməti idi. Onun atası Kərbəla-5 əməliyyatından öncə vəfat etdi, diviziya komandiri bəzi məsləhətlərə görə bunu Kərimə demədi. Çünki Kərimin bir

gün olmaması da işə mənfi təsir edərdi. Evin böyük oğlu olan Kərim ailəsi üçün çalışmalı olsa da, cəbhəni boş qoymadı, hətta tapdığı işini buraxıb səhərdən axşama qədər müharibə üçün çalışdı. Bir nümunəsi Məhəmməd Sövdagər idi. Onun ailəli olduğunu az adam bilirdi, çünki məzuniyyətə subaylardan da az gedirdi və deyirdi ki, bu gün cəbhədə iştirak etmək ən vacib işdir. Cəbhə həyatı eşqlə sıx bağlı idi; nə qədər çətin olsa, bir o qədər yaxşı... nə qədər yandırıcı və ağrılı olsa, daha aşiqanə... Özgələr eşq karvanına buraxılmırlar. İnsanlar qanlı cihad zamanı ələnirlər. Allahdan başqa birinə və ya başqa bir şeyə görə cihada gələnlər yarıyoldan qayıdırlar. Bunu Kərbəla bizə öyrətmişdi.

Dağ Beytülmüqəddəsi

I

Kəşfiyyat işləri başa çatmışdı. Batalyonlar Jajilədən bölgə ilə tanış oldular və biz Bəni-Haşim düşərgəsinə qayıtdıq. Uşaqlar bölündülər. Qardaş Əsğər Abbasquluzadə Qasim batalyonunun bələdçisi oldu. Qulamrza Möhsüni, Hüseyn Səfaşur, Amanullah Amani, Əbdülvahid Məhəmmədi, Maqsud və digər bir neçə nəfər də onunla gedəcəkdi. Həbib batalyonunun kəşfiyyatçısı isə Nasir Dibayi idi. Hüseyn Səadəti, Əbülqasim Vətənpur, Cəlal Xəlilzadə və başqa bir neçə nəfər də onunla işləyəcəkdilər.

Bölgülər bitdi. İclas sona çatmaqda idi. Əmin oldum ki, bu vəziyyətdə mənə bir pay düşməyəcək. Üzümü kəşfiyyat bölüyünün komandirinə tutdum: "Kərim ağa, nə xəbər?"

– Əmin ağa deyib ki, səni əməliyyata qoymayaq.

Hamı mənim fiziki vəziyyətimə görə narahat idi, amma heç kim gərgin mənəvi durumum haqda düşünmürdü. Dedim: "Olsun! Mən buraya qədər sizinlə idim, amma burada sizdən ayrılıram".

Əşyalarımı götürüb qardaş Sövdagərin düşərgədəki maşınına sarı getdim. Qapını açıb maşında oturdum. Ağa Məhəmməd də tezliklə gəldi, məni görən kimi təbəssümlə soruşdu: "Hara?"

– Ağa Məhəmməd, mən bundan sonra sizin batalyonun üzvüyəm.

Gülüb dedi: "Axı belə olmaz".

– Qardaş Sövdagər, mən nə göndəriş vərəqi istəyirəm, nə də başqa bir şey. Mən bir Bəsic üzvüyəm və Həbib batalyonunda vuruşmaq istəyirəm. Batalyona getməyincə də yerimdən tərpənən deyiləm.

Cavabımı eşidəndə işin aqibətini gözləyən Kərim Hörmətinin yanında dayandı. Kərim Hörməti mənim ciddiliyimi görüb diviziya komandirinin səngərinə getdi. Bir müddətdən sonra qayıdıb Məhəmməd Sövdagərə dedi: "Ağa Məhəmməd, olsun, ağa Mehdi sizinlə gedər, lakin söz ver ki, harada olsan, o da yanında olacaq".

– Eybi yox, birgə gedərik.

Məsələnin bura qədər həll olunduğunu görüb getməyə hazırlaşan qardaş Sövdagərə dedim: "Ağa Məhəmməd, sən get batalyona, sonra özüm uşaqlarla gələrəm". Uşaqlardan sağollaşmamışdım və onlardan belə ayrılmaq istəmirdim.

***

Səngərin yanında bir neçə yadigar şəkil çəkdirdik. Əmin ağa da gəldi. Səngər düzəltmək üçün fanerləri üst-üstə qoymuşduq və onlardan stul kimi istifadə etmək olurdu. Yer qarlı, palçıqlı idi. Oturduq və Əmin ağa danışmağa başladı. Uşaqlar suallarını verirdilər, o da cavablandırırdı. Aşura diviziyasının ümumi hərəkətində ən əsas problem Seyyidüş-şühəda diviziyası ilə birləşməsi

idi. Həbib batalyonunun yolu Qamışdakı mağaradan bir qədər yuxarıya qədər Seyyidüş-şühəda diviziyası ilə müştərək idi və ondan sonra ayrılırdı. Diviziya, batalyon və kəşfiyyat komandirlərinin iki iclasından sonra bu müştərək yer haqda razılığa gəlinmişdi, amma deyəsən, Seyyidüş-şühəda diviziyasının uşaqları bununla razılaşmayıb deyirdilər ki, çoxlu şəxsi heyətin bir yoldan keçməsi problem yarada, əməliyyatın üstü açıla bilər. Lakin sonda bu problem qərargah səviyyəsində müzakirə edilib həll olundu.

Günorta və batalyonlara qoşulma vaxtı idi. Yenidən ayrılıq zamanı gəlmişdi. Bu ayrılıq bəzilərinin şəhadəti ilə nəticələnəcəkdi, bəzilərinin də qol-qanadının qırılması ilə. Onların halallığına çox ehtiyacım olduğunu hiss edirdim. Qəm-kədər dolu ürəklə və şəhadətə ümidlə dostlarımızdan ayrılırdıq və hərə öz taleyinə doğru gedirdi.

Həbib batalyonuna gedən toyotaya mindim. Dedilər ki, batalyon polis zastavasının yaxınlığındadır. Orada suyun yanında, düşmənin gözündən uzaqda dərə kimi bir yer vardı. Batalyonların şəxsi heyətinin çoxu şüşə yunundan hazırlanan və küləyin qarşısını alan balon gödəkcələr geyinmişdilər. Bu gödəkcələr həm su keçirmirdi, həm də bədəni isti saxlayırdı.

Uşaqlar səhərdən orada idilər və hələ axşama qədər gözləməli idilər. Orada nə oturmaq olurdu, nə də uzanıb istirahət etmək. Bütün uşaqlar səhərdən ayaq üstə idilər və axşama qədər bu vəziyyətə dözməli olduqlarını bilirdilər. Hamıdan öncə bir-birindən ayrılmaz dostlarım Fərəc Quluzadə ilə Cəlal Zahidini gördüm, sonra Həbib batalyonunun əksəriyyətini təşkil edən qədim üzvləri ilə hal-əhval tutdum. Sonra da ağa Məhəmməd hara gedirdisə, mən də yanında gedirdim.

Bütün bölgülər aparılmışdı və kəşfiyyatçılar bələdçilik edəcəkləri bölüklərin yanında idilər. Uşaqlar əyər-əskiklərini düzəltdilər. Bilmirdim uşaqlara hansı dillə deyim ki, məni də yaddan çıxarmayın. Silah-sursatı və bel çantasını özüm daşıya bilmirdim, uşaqlara da deməyə utanırdım. Bilirdim ki, gecəni Qamışda qalıb istirahət edəcəyik, amma nə qədər etdimsə, heç kimi əziyyətə salmaq istəmədim. Ümidim isti paltara idi. Bütün batalyonlara o gödəkcələrdən verəcəkdilər, amma ağa Məhəmməd Həbib batalyonu üçün ondan imtina etmişdi. Çünki həm sayı az idi, həm də çox gec gəlmişdi. Hər halda, Həbib batalyonunun uşaqları digər paltarların üstündən geyinilən o qalın gödəkcədən istifadə etmədilər; hərçənd, o da soyuğun şiddətini azaltmırdı.

Uşaqlara nahar yeməyinə nə verildiyini bilmirəm, amma axşamüstü hərəyə bir qədər müharibə payı verdilər. Uşaqların çoxu onu yeyə bilmədi, çünki soyuq və tələsmə quru və soyuq qidanı yeməyə vaxt və can qoymamışdı. Düşmən radarları yolları izlədiyinə görə uşaqlar Qamışdakı mağaranın yaxınlığına qədər bütün yolu piyada getməli idilər.

Kolonlar hərəkətə hazır vəziyyətə gəldilər. Şəxsi heyətdən öncə dərədən yola qalxdım. Yolun kənarında uşaqları gözləyirdim. Ağa Məhəmməd də

yanımda idi. Nəhayət, hərəkət zamanı çatdı. Bütün Həbib batalyonu iki kolonla paralel hərəkət edirdi, ağa Məhəmmədlə mən də öndə idik. Kolonun ilk addımlarında qırmızı günəşin son şüası da qara buludların altında qaldı və uşaqların "Allahu-Əkbər" səsi ucaldı. Namaz vaxtı idi. Uşaqlar azan verirdilər. Xəfif qar və qaranlıq səma altında uşaqların azan zümzümələrinin başqa gözəlliyi vardı. Qəşəng səhnə idi. Hur, onun qəribə qürubu və şəhidlərin şəhadət anları yadıma düşdü. Ağa Mehdi Bakirini, Hüseyn Məhəmmədianı, Seyid Sadiq Eyvəzini və digərlərini xatırladım. Yol gedə-gedə namaz qılındı. Sakitcə irəliləyirdik. Qəlblərin rüku və səcdəsinin gözəl mənəvi halı vardı.

Öndə gedən elə hərəkət etməli idi ki, arxada gələnlər geri qalmasınlar. Bu zəif hərəkətdən ötrü mənim özəl tədbirim vardı: sağlam bir adamın iki addımı zamanı mən bir addım ata bilirdim. Sağ ayağımı önə qoyub sol ayağımı onun yanına gətirirdim.

O vəziyyətdə və o quru soyuqda Jajilənin yanından keçirdik. Jajilə təpələri hündür Kolan dağlarının davamı idi və İraqın Mavut şəhərinə baxırdı. Jajilənin önündə uca və sərt Qamış dağı dururdu. Düşmən onun üstündən bütün Jajiləni, hətta bizim getdiyimiz yolu görə bilirdi. Gecənin qaranlığı bu baxışı məhdudlaşdırırdı, amma radar hər bir avtomobil hərəkətini qeyd edirdi. Bundan əlavə, orada bəzi İraq kürdləri də yaşayırdılar. Biz əmin idik ki, onların arasında düşmənə çalışan casuslar vardı.

Ciddi fiziki zəifliyimə görə tədricən ayaqlarımda yorğunluq və ağrı hiss edirdim. Hərdən dayanıb istirahət etməkdən ötrü beynimə bir fikir gəldi. Kolon yavaş hərəkət etdiyinə görə mən öndən gedib yolun kənarında otura və uşaqlar gələnə qədər istirahət edə bilərdim. İsmayıl Vəkilzadəyə dedim və birgə önə keçdik. Yolun Mavut düzünə dönən hissəsində böyük bir boru qoymuşdular. Borunun diametri o qədər böyük idi ki, içi ilə iki nəfər asanlıqla və başını əymədən keçə bilərdi. Yandırıcı soyuqdan boruya sığındıq və şəxsi heyət çatana qədər istirahət etdik.

Saatlarla gedəndən sonra bir neçə dəqiqə dayandığımıza görə hər ikimiz soyuqdan əsirdik. Yağışla qar bir-birinə qarışmışdı və biz başdan-ayağa suyun içində idik. Geyindiyim balon gödəkcədə soyuqdan titrədiyim halda xüsusi isindirici geyimi olmayan uşaqların vəziyyətini təsəvvür edir, əziyyət çəkirdim. "Sazaq kəsir" ifadəsini yavaş-yavaş anlayırdım. Üzümün göyərdiyini və kiçik bir zərbə ilə dərisinin yarılacağını hiss edirdim. Bütün düymələri bağlayıb bəndi çəkmişdim, amma külək ən kiçik yerdən daxil olub bədənə dəyir və sanki oranı dəlirdi. Hərəkət etdikcə də hamımız tərləyirdik. Qısası, şəxsi heyətin kollektiv soyuqdəyməsi üçün bütün şərtlər vardı.

Borunun içində soyuqdan əsə-əsə 20 dəqiqə istirahət etdik və kolon bizə çatdı. Yenidən ayağa qalxıb yola düşdük. Həmin dəqiqələrdə Məhəmməd Sövdagərlə Nasir Dibayi kolonların önündə gedirdilər. Mən hərdən kolonun yanı ilə irəli-geri gedib uşaqlarla danışmaq imkanı əldə edirdim. Soyuğun bütün sinirləri sıradan çıxardığı bir vəziyyətdə gülmək böyük hünər idi və

bunu bütün uşaqlar bacarırdı. Zarafatlaşır, bir-birimizi ələ salırdıq və o vəziyyətdə kiminsə "la ilahə illəllah, vəlhəmdu lillah..." zikrini eşidəndə sakitcə hamımız ona qoşulurduq. Elə bir gecə gəlmişdi ki, onda yaralanmaq, şəhid olmaq, əlil olmaq və ya hətta əsir düşmək imkanı da böyük idi.

O gecə bəzi uşaqların son gecəsi idi. Hərə bir formada daxilini göstərirdi; biri dodaqaltı zikr və Quran ayələri oxumaqla, biri başını aşağı salıb sükut etməklə, bəziləri də mənim kimi gülmək və güldürməklə. Bütün yaralarımın ağrıdığına baxmayaraq, qəribə gümrahlıq hiss edirdim. Sanki mən də giriş icazəmi almışdım. Uşaqlar mənimlə zarafat edirdilər.

– Ağa Mehdi, bir hadisə baş versə, şəfaət zamanı bizi yaddan çıxarma.

– Mehdiqulu, deyəsən, sənin də növbən çatıb. Getsən, bizim üçün də dua elə. Söz ver ki, şəfaət edəcəksən.

Onların sözləri məni havalandırırdı. Hərçənd, özüm haqda fikirləşəndə ilahi dərgahın seçilmiş bəndələri ilə eyni cərgədə olmaq ləyaqətini görmürdüm, bütün sevincim yenə əməliyyata getmək və onların arasında olmaq səadətinə nail olduğum üçün idi. Bilirdim ki, uşaqların sözləri kompliment deyil. Cəbhədə hər kəsin yalnız "özü" olmaq haqqı vardı və məhz bu zaman nəfsin islahı və ruhun inkişafı mümkün olurdu.

– Biz şəhidliyə layiq deyilik, amma siz şəhid olsanız...

Bunu uşaqlara deyir və ürəyimdə fikirləşirdim ki, taleyimdə şəhadət vardısa, nə üçün o yaralardan sağ çıxdım?

Yolda hər yerini yaşıl çamur basmış bir məktəbə çatdıq. Nəsr-4 əməliyyatından öncə ora münafiqlərin qərargahı olmuşdu. Ondan sonra yol ikiyə ayrılır, biri Mavut, digəri isə Süleymaniyyə şəhərinə gedirdi. Süleymaniyəyə gedən yol Jajilə yüksəkliyi və Qalaçulan çayı ilə təxminən paralel idi. Mavut şəhərinin yaxınlığında çaya tərəf bir yol ayrılıb Sınıq körpü adlanan Balusə körpüsündən keçirdi. Dəmir Balusə körpüsü Qalaçulan çayının üzərində idi və dağıdılandan sonra Sınıq körpü adı ilə məşhurlaşmışdı. Bu yol Qalaçulandan və Qamışla Dolbeşk arasındakı boğazdan sonra Ulaqlı ilə Dolbeşk arasındakı cığıra çatır, oradan İraqın Süleymaniyyə vilayətinin mühüm yollarına birləşirdi.

Biz plana uyğun olaraq, bu üçyoldan Qalaçulan çayına döndük, 2 km.-dən sonra at nalı formasında qurulmuş bir torpaq istehkama çatdıq. İstehkam yolun sağında idi və bizim yerləşməmiz üçün qurulmuşdu. Hündür torpaq istehkam idi, istirahət səngərləri də vardı. Onun yanında nisbətən alçaq olan başqa bir istehkam da vardı və Karizər düzünə doğru müdafiə məqsədilə qurulmuşdu. Düşmən Karizərdə idi və biz bu böyük istehkamdan keçib təhlükəli zonaya girəcəkdik. Biz həmin hissədə Qalaçulanla paralel olan çayın üzərindən keçməli idik.

İstehkamın yuxarısına qalxanda bölük komandirlərinə və həmçinin ağa Məhəmmədə işarə ilə bildirdim ki, uşaqlar bundan sonra səs salmasınlar. Səssiz getmək bizi arxayınlaşdırır və narahatlığımızı azaldırdı. Hamı sükut

içində istehkamı aşdı. Çaydan keçmə növbəsi gəldi. Kəşfiyyatçılar son kəşfiyyatda çayın üstünə bir neçə ağac gövdəsi atmışdılar ki, uşaqlar keçəndə islanmasınlar. Buna baxmayaraq, iki-üç nəfər ağacın üstündən suya yıxılıb başdan-ayağa islandı. O soyuqda hərəkətsiz qalsaydılar, paltarları donub quruyardı. Çaydan keçənlər o tərəfdə oturub nəfəslərini dərirdilər. Çox sıx oturmuşduq və hərə bir yolla qızışmaq istəyirdi. Birdən mahir kəşfiyyatçılardan olan Həsən Əbdi ilə Məhəmməd Purnəcəf peyda oldular. Onlar əməliyyatın ikinci mərhələsində iştirak edəcəkdilər.

Kəşfiyyatdan qayıdırdılar. Onları görməyimə çox sevindim. Həsən mənim Həbib batalyonu ilə əməliyyata getdiyimi öyrənəndə Fərəc Quluzadəni axtardı. Dedim ki, buradan geriyə getsən, taparsan. O, mənimlə sağollaşıb ağa Fərəci axtarmağa getdi. Bir neçə addımdan sonra birdən səsini eşitdim: "Ağa Fərəc! Ağa Fərəc Quluzadə! Fərəc..." Qışqırır və uşaqların bundan pis örnək götürəcəklərinə fikir vermirdi. Uşaqlar da ona təəccüblə baxır və bəlkə ürəklərində deyirdilər: "Bu da kəşfiyyatçılar! Özləri qışqırırlar, amma bizə deyirlər ki, danışmayın". Yavaş-yavaş pıçıltılar ucaldı və bildim ki, Həsən ağanın səsi uşaqları cürətləndirib. Xoşbəxtlikdən, o anlarda bütün kolon çayı keçdi və yenə hərəkətə hazır olduq.

Kolon Balusəyə doğru yola düşdü. Sınıq körpünün yaxınlığından endik. Orada kiçik bir daşlıq vardı. Sanki daşlar böyük bir qaya əmələ gətirmişdi. Oradan enib yenə dərənin içi ilə Jajiləyə doğru qalxdıq. Nəhayət, kəşfiyyat zamanı kanatlı kabinə ilə Qamışa keçdiyimiz yerə çatdıq. Həmin kanat və kabinə öz yerini taxta körpüyə vermişdi. Bu, o zamana qədər müharibənin ən möhtəşəm işlərindən idi. Ötən gecə Seyyidüş-şühəda diviziyasının mütəxəssisləri uşaqların keçidini asanlaşdırmaq üçün orada taxta körpü düzəltmişdilər. O körpünün iraqlıların hədəfində olduğunu, Qamış dağının başından və Mavutla üzbəüz cəbhədən aydın göründüyünü fikirləşəndə Seyyidüş-şühəda diviziyasının alpinist uşaqlarını alqışlayırdım. Körpü düşmənin ayağı altda və qəzəbli Qalaçulan çayının üstündə idi. Bu çay 12 metr uzunluğunda iri metal boruları yerindən qoparıb aparırdı. Körpünün bütün materialları ip və taxtadan ibarət idi. Birmetrlik taxtalar yan-yana düzülüb təxminən 70 metr uzunluğunda və 1 metr enində körpü əmələ gətirmişdi.

Hər bir taxtanın iki tərəfi dəlik idi və iplər taxtaları saxlayırdı. İplərin düyünləri həmin dəliklərdə qalır və yandakı taxtanın dəliyinə birləşirdi. Körpü bu şəkildə və yalnız əl əməyi ilə salınmışdı. Körpüdən keçənləri qorumaq məqsədi ilə hər iki tərəfin bir metr hündürlüyündən bir ip çəkilmişdi. Körpü yerdən və sudan 30-35 metr hündürdə idi, tez-tez tərpənirdi və hər an sürüşmə ehtimalı vardı. Hamımız ilk dəfə idi bu körpünü görür və qaranlıq gecədə üstündən keçmək istəyirdik. Xoşbəxtlikdən, aşağıdakı qorxulu mənzərəni görmürdük, amma çayın şırıltısını eşidir, küləklə və hər addımımızla tərpənməsini duyurduq.

Qərara gəldik ki, uşaqlar beşnəfərlik dəstələrlə körpüdən keçsinlər. Beş nəfər keçəndən sonra növbəti beş nəfər körpüyə çıxsın və eyni anda iki qrup körpünün üstündə olmasın. Bunu körpünün sıradan çıxmaması və şəxsi heyətin sağlamlığı üçün edirdik.

Körpünün üstündə kim qorxa-qorxa yavaşca gedirdisə, körpü daha çox titrəyir, təkanları artırdı. Bu zaman körpünün üstü adamla dolu olsaydı, tarazlığını itirib çevrilərdi. Biz öncədən oranı kanatla keçdiyimizdən, hansı yüksəklikdə olduğumuzu və aşağıda nəyin olduğunu bildiyimizə görə daha çox narahat idik. Bir an addımımızı səhv atıb sürüşsək, tikələrimizin də tapılmayacağını bilmək əzabverici idi. Hamıda bu qorxu və narahatlıq vardı, batalyonun məsul şəxsləri isə həm də körpünün salamat qalmasını düşünürdülər. Bizdən sonra Seyyidüş-şühəda diviziyasının bir batalyonu oradan keçməli idi. Buna görə çox diqqətlə hərəkət edib körpünün ziyan görməməsinə çalışırdıq. Körpü o gecədən sonra da bizə gərəkəcək, avtomobil körpüsü çəkilənə qədər yeganə yolumuz olacaqdı.

Qorxu və ümid arasında şəxsi heyətin taxta körpüdən keçməsini gözləyirdik. Bu məsafəni bəziləri sürətlə, bəziləri də yavaşca keçdi və nəhayət, bütün batalyon Qamışa çatdı. Bu, bizdən çoxlu vaxt aldı. Ondan sonra soyuq da get-gedə güclənirdi. Həm Qamış dağı hündür idi, həm də yoxuşları elə idi ki, külək orada daha çox əsirdi. Yolları keçmək çətin idi. Bəzən önümüzə bir qaya çıxırdı və biz irəli və arxadakıların köməyi ilə qalxa bilirdik. Bəzən ayağımızın altında daş olurdu və bu da sürüşüb yıxılma ehtimalını artırırdı. Üz-başımıza qəddar zərbələr endirən külək də dayanmaq bilmirdi.

Uşaqların yükü ağır idi: yataq kisəsi, silah-sursat, əleyhqaz, yemək və digər əşyalar. Uşaqlar hücumdan bir gün öncə orada qalacaqlarına görə özləri ilə bu əşyaları götürməyə məcbur olmuşdular. Məndə bu əşyaların heç biri yox idi, özümü zorla yuxarı dartırdım. Bir daşın üstündən keçmək lazım olanda və kələ-kötür yerlərdə çox əziyyət çəkirdim. Yaralarımdan ağrı yayılırdı və bəzən böyrümün yarasının genişləndiyini hiss edirdim. Beşsantimetrlik bir daşın üstündən keçmək üçün ayağımı qaldıra bilmirdim, məcbur qalıb bütün bədənimi qaldırır və əlimlə sol ayağımı önə qoyurdum. Daşların formasını görmədiyim o qaranlıqda bəzən ayağım daşa ilişirdi, bəzən ayağımın altındakı daş sürüşürdü və yerə yıxılırdım. Digər uşaqlarda da az-çox bu problemlər vardı; hətta fiziki hazırlığı yüksək olanlarda da. Mənim o vəziyyətdə orada yol yeriməyim onlara bir yuxu kimi idi.

***

Körpünün yanı ilə 1500 metr gedib Himmət zirvəsinə çatan cığıra keçməli idik. Bizim əməliyyat zonamız Balisaya gedən həmin ərazi idi. Balisa bizim adını Himmət qoyduğumuz zirvə idi.[1]

[1] Biz dağ və təpələrin adlarını dəyişdirirdik və düşmən ratsiya danışıqlarımızı dinləyəndə heç nə anlamır, çox çaşbaş qalırdı.

İki nisbətən hündür qayanı keçəndən sonra axşama qədər sığınmalı olduğumuz geniş dərəyə çatırdıq. Yolumuz az qalmışdı, amma uşaqlar yorulmuşdular. Bölük və taqım komandirləri kolonun vəziyyətinə nəzarət edir və hərdən belə əmrlər verirdilər.

– Yavaş gedin, kolon qırılıb.

– Gözləyin, uşaqlar çatsınlar.

Kolonun qırılmasının bir neçə səbəbi vardı. Biri bu idi ki, yarımmetrlik bir daşın üstündən keçəndə hərəkət istər-istəməz zəifləyirdi, keçəndən sonra isə dərhal güclənirdi. Bu, hər bir döyüşçü üçün təkrar olunurdu və məsafə get-gedə çoxalırdı. Digər tərəfdən, uşaqlar o qədər yorğun idilər ki, soyuğa baxmayaraq, hətta yol gedərkən yuxulayırdılar və bir neçə addım gecikməklə kolonun əlaqəsi qırılırdı.

Gecənin sonlarında öndə gedənlər dərəyə çatdılar. Ora kəşfiyyat zamanı nisbətən təhlükəsiz bir yer kimi şəxsi heyətin bir gün qalması üçün nəzərdə tutulmuşdu. Oranın bəzi hissələri düşmənin gözündən uzaq idi. Əslində, çox da rahat yer deyildi, çünki həmin yerdən yüz addım kənara çıxsaydıq, bizə Qamışdan nəzarət edən düşməni görə bilərdik. "Görəsən, düşmən mövqelərinin içində və onun gözləri önündə bir gün istirahət edib hücuma hazırlaşa bilərikmi?!" Bu sualın məntiqli cavabı yox idi, lakin ürək deyirdi ki, Allah istəsə, həzrət Məhəmmədi (s) mağaranın içində düşmənlərdən gizlədər və o, öz missiyasını yerinə yetirər.

***

Həmin dərədə qar yox idi, amma ətrafı və dağın yamacı qarla dolu idi. Yalnız günəş düşən yerlərdə qar az idi. Yavaş-yavaş bütün kolon oraya çatdı, uşaqlara lazımi tapşırıqlar verildi və bölük komandirləri öz tabeliklərində olan şəxsi heyəti nizam-intizama salmağa başladılar.

– O tərəfə çox getməyin, burada, dərənin içində qalmağa çalışın.

– Birinci bölük bu tərəfə, ikinci bölük o tərəfə!

Düşmən başımızın üstündə idi və onların pusquları ilə məsafəmiz ən çox, 1 km. olardı. Əgər bölgədə gəzib nəzarət etmək həvəsinə düşsəydilər, şübhəsiz, onlarla üzləşərdik və hər şeyin üstü açılardı. Şəxsi heyətin əməliyyat zonasında bir gün qalması böyük risk idi və komandirlər bütün təhlükələri qəbul etmişdilər. Havanın çox soyuq olduğuna və güclü qar yağdığına görə düşmən hücum olunacağına az ehtimal verirdi, amma uşaqların biri səs salsaydı və ya təyin olunmuş ərazidən çıxsaydı, düşmən görərdi və bütün işlər korlanardı.

Bizim yerləşdiyimiz yerdən bir qədər yuxarıdan səs gəlirdi. Seyyidüş-şühəda diviziyasının bir batalyonu orada yerləşməkdə idi. Onların bəzi döyüşçüləri Qamışda mağaranın ətrafında da görünürdülər. Seyyidüş-şühəda diviziyası öncədən mağaraya kifayət qədər kolbasa sendviçi yığmışdı, amma bizimkilər yalnız aclıqlarını aradan qaldırsınlar deyə, özləri ilə quru yemək

götürmüşdülər. Piyada yürüş zamanı hamımız tərləmişdik və orada hərəkətsiz oturanda soyuq yüz qat artırdı.

Hamı istirahət etmək üçün yatağını hazırlayırdı, mənimsə heç nəyim yox idi; nə yataq kisəsi, nə də xörək. Fikirləşdim ki, uşaqların yanına gedib onlara şərik olum, amma onların vəziyyətləri də yaxşı deyildi. Bir qədər Cəlal Zahidi ilə Həsən Hüseynzadənin yanında oturdum, hələ qərara gəlməmiş uşaqların birinin məni axtardığını eşitdim: "Ağa Mehdiqulu hanı? Onu gördünüzmü?" O, kəşfiyyat bölüyündən Cəlal Xəlilzadə idi. Heç nəyim olmadığını fikirləşib məni qonaq etmək istəyirdi. O, gəlməzdən öncə batalyon rəhbərliyini yoxlamışdım və onların yanına getmək istəyirdim, amma özləri çağırmırdılar, mən də xəcalət çəkirdim. Onlar 5-6 metr hündürdə özlərinə yaxşı bir yer hazırlamış, özləri ilə ədyal da gətirmişdilər. Sanki piknikə gəlmişdilər. Allahın köməyi ilə bir daşın dibində büzüşüb ədyalsız-döşəksiz də davam gətirə bilərdim, amma Cəlal Xəlilzadənin mehribanlığı qoymadı. Onunla getdim. O, yataq kisəsini açdı və mən içinə girdim. Bu müddətdə o, gəzişirdi. Bir azdan mən qalxıb gəzişməyə başladım və o, kisəyə girdi. O şəraitdə ya ədyalın və kisənin içində olmalı, ya da soyuqdan donmamaq üçün yeriməli idik.

Gecəni belə keçirdik. Namaz vaxtı idi. Soyuqdan əsə-əsə dəstəmaz almağa getdim. Çəkmə və corablarımı çıxaranda sanki canım da çıxmağa qaldı. Üzüm və əl-ayaqlarım soyuqdan yanırdı. Komandirlərin hazırladığı yerə qaçdım. Seyid Yunus, Yəqub Nikpiran və başqa iki-üç nəfər orada idi. Namazımı orada qıldım və əvvəlindən axırına qədər soyuqdan titrədim. Çıxmaq istəyəndə ya zarafata, ya da qəsdən soruşdular: "Bəs haraya gedirsən, Mehdiqulu?"

– Gedirəm yuxarıda yatmağa.

– Burada nə üçün yatmırsan...

Hələ sözləri bitməmiş ədyalın altına girdim.

– Siz necə də yaxşı adamlarsınız!

Yəqub dərhal bir tərəfimi, Əmir Xirədmənd də o biri tərəfimi zəbt elədi. Əmir də ədyalın altına girmək üçün mənim kimi ev sahibinin işarəsini gözləyirdi. Ədyalı başımıza çəkdik. Nəfəslərin istiliyi soyuğu azaldırdı, lakin bütün gecə uzunu bədənə girmiş soyuq bir saat ədyalın altında qalmaqla çıxan deyildi. Səhər saat doqquzun yarısına qədər orada qaldım. Gözümə bir an da yuxu getmədi, amma ayaqlarımın yorğunluğu çıxdı. Böyrümün ağrısı da sakitləşmişdi. Başımı ədyalın altından çıxardım. Həbib batalyonunun komandiri Məhəmməd Sövdagər qayanın üstündə oturub aşağı baxırdı. Deyəsən, səhərə qədər orada olmuş və əsla istirahət etməmişdi.

Hava buludlu idi. Ağa Məhəmməd ayağına dalğıc süngüsü bağlamış, əyninə papaqlı pançо geyinmişdi. Uzandığım yerdən ona baxırdım. Uşaqlıqda filminə dəfələrlə baxdığım Zorronu xatırladırdı. Ona dedim: "Zorro, gəl, bir az yat".

Gülümsədi. O vaxta qədər özünü yatmışlığa qoymuş Seyid Yunus da dözməyib yerindən qalxdı. Səhər yeməyinə balıq konservi gətirmişdilər. Seyid

səhər yeməyini hazırlamağa başladı. Konservləri açdı və boşqaba bənzər bir qaba tökdü. Balıq konservini görəndə ona kömək etmək üçün yerimizdən atıldıq. Kimdə nə vardısa, çıxarırdı. Delir Əkbəri dedi: "Anam mənə bir məcun yollayıb, deyib ki, onu yesəm, soyuğa qarşı dözümüm artar".

– Bəs nə üçün gətirmirsən?

– Deyib ki, bundan kim bir qaşıq yesə, soyuq ona təsir eləməz, amma çox yesə, bədəni qaşınar.

Bu girişdən sonra məcun əlbəəl gəzdi və hərə ondan bir qaşıq götürdü. Növbə mənə çatanda dedim: "Mən çox zəif olduğuma görə gərək üç-dörd qaşıq yeyim". Yedim və həqiqətən, qızışdım. Deyəsən, maldili və bənövşə güllərindən, nabatdan, fındıqdan, badamdan və digər faydalı bitkilərdən hazırlanmışdı. Səhər yeməyini və məcunu yeyəndən sonra Cəlal Xəlilzadənin yanına qayıtdım.

Hava işıqlanmışdı və günəş hərdən buludların arxasından çıxırdı. O buludlu havada və səmanın altında dağın qəribə əzəməti vardı. Gündüzü şəxsi heyətlə orada qaldıq. Batalyon komandirləri və kəşfiyyatçılar tez-tez şəxsi heyətə lazımi xəbərdarlıqları verirdilər. Cəlal Zahidi, Məhəmməd Rüstəmi, Rza Fərəci, Nasir Dibayi və Fərəc Quluzadə ilə mən də tez-tez hərəkətdə idik. Hərdən qardaş Sövdagər, qardaş Əbdüləli Mütləq və Nasir Dibayi ilə bölgə haqda və hücum zamanı hərəkət ehtimalları barədə danışırdıq.

Axşam yüngül və rahat olmaqdan ötrü günorta xörək yemədim. Günorta namazlarından sonra Seyyidüş-şühəda diviziyasının kəşfiyyatçı uşaqları bizim yanımıza gəlib təklif etdilər ki, hava qaralmamış bir qədər yuxarı qalxıb durbinlə yola baxaq.

Yaxşı təklif idi. Durbin və silah götürüb Qamışa bir qədər qalxdıq, qayaların arasından çıxan kolların arxasında gizləndik. Daşların arasında bitmiş bitkilər və vəhşi kollar soyuqda qurumuş, saralmışdı. Yolda xüsusi bir şey diqqətimi cəlb eləmədi.

Yalnız bunu bildim ki, düşmən təpələrdən bizi görə bilmir. Orada bir təpə gördük; biz onun yanlarından, ya da üzərindən keçməli idik. Ora düşmənin gözündən uzaqda idi, amma Əbülqasim Vətənpur dedi ki, təpənin axırında iraqlıların pusqusu var və düşmən oradan bütün ətrafa nəzarət edir. Bu yekun araşdırmadan sonra şəxsi heyətin yanına qayıtdıq.

Günortadan sonra yenidən uşaqların arasında hücumdan öncəki anların ab-havası yayılmışdı. Bəziləri silahlarını təmizləyir, bəziləri çantalarını sahmana salır, bəziləri ayaqyoluna yer axtarır və ya dəstəmaz alırdı. Uşaqlar əməliyyatlarda dəstəmazlı olmağa çox çalışır, o şəraitdə də inanclarına uyğun əməl edirdilər.

***

Axşamüstü uşaqların buzu ərimişdi; istədikləri yerə gedirdilər və daha düşmən təhlükəsinə çox da məhəl qoymurdular. Uşaqlardan iki-üç nəfərin bir qədər yuxarıda qayalara dırmaşdıqlarını görəndə təəccübümdən yerimdə

donub qaldım. Nə onları səsləyə bilirdim, nə də tez qaçıb aşağı salmağa qadir idim. Bir nəfəri onların yanına göndərdik. Onlar qayıtdılar, amma başqa birisi dərənin bu tərəfində gəzişirdi. Hər şey o qədər sakit və adi idi ki, uşaqlar düşmənin ayağı altında və mühasirəsində olduğumuza sanki inanmırdılar.

Bir qədər sonra Seyyidüş-şühəda diviziyasının bir batalyonunun toplaşdığı yerə baş çəkdim və oradakı kəşfiyyat uşaqları ilə bir yerə toplaşdıq; hərçənd, mən oraya kəşfiyyatçı kimi getməmişdim. Orada yolda hərəkətdən söhbət düşdü. Kimin öndə, kimin arxada getməsini müzakirə etdik. Ağa Sövdagərlə də danışdıq və qərara gəldik ki, Əbülqasim Vətənpur kolonun önündə getsin, Hüseyn Səadəti arxada, Nasirlə mən də kolonun əvvəllərində. Lakin bütün kolon boyu hərəkət edən bir nəfər yox idi. Kəşfiyyat bölüyünə yeni gələnlər yadımıza düşdülər. Orada onlardan iki-üçü iştirak edirdi. Cahiddən və Səid Sultanzadədən istifadə etmək olardı.

Cəlal birinci bölüyü pusquya çatdıracaqdı və orada vuruşacaqdılar. O pusqu bölgədə müstəqil idi və onunla vuruşacaq qüvvələr batalyondan ayrılmalı idilər. Bu iş birinci bölüyə tapşırılmışdı. Onlar cığırda uşaqlardan ayrılıb pusqunu məhv etməyə gedəcəkdilər.

Həbib batalyonunun üçüncü bölüyü oradan başlayacaq hərəkətin avanqardı idi. Sonra ikinci, daha sonra yolda kolondan ayrılacaq birinci bölük gedəcəkdi.

Həbib batalyonunun arxasınca Seyyidüş-şühəda diviziyasının bir batalyonu hərəkət edirdi. Briqadaya başçılıq edən Cəmşid Nəzmi oraya gəlmişdi və şəxsi heyəti ilə birgə getmək istəyirdi. Lakin sonda qərara gəldilər ki, o, bir dəstə uşaqla bir müddət mağarada qalsın və səhərə yaxın əməliyyat başlayanda yuxarıya doğru hərəkət etsinlər.

II

Hava qaralır, kolon getməyə hazırlaşırdı. Külək sakitləşmişdi. Mülayim meh əsib buludları tərpədirdi. Şəfəq səmanı gözəlləşdirmişdi. Qaranlıq get-gedə dağla dərəni bir-birinə tikdi və bizim hərəkət zamanımız gəldi.

Kolon bir gün istirahət etdiyi cığırdan çıxıb yolunu davam etdirdi. Biz kolonun önündə gedirdik. Yolun bir hissəsinə qədər heç bir problem yaranmadı, lakin tezliklə kiçik daşlarla və qumla dolu bir yerə çatdıq. Hər addımla xırda daşlar ayağın altından sürüşüb həm səs çıxarırdı, həm də uşaqları yıxırdı. Uşaqların yıxılıb-qalxma səsi tez-tez eşidilir və kolonun hərəkətində nöqsan yaranırdı. Kolonun önündən gedən Əbülqasim uşaqlar keçib qurtarana qədər tez-tez deyirdi: "Allah mənim bəlamı versin! Mən uşaqları bu yolla gətirib əziyyətə saldım".

Əbülqasimin məsuliyyət hissi və qərarsızlığı elə bir həddə idi ki, onun da çox dəyişildiyini düşünürdüm.

Öz istəyim və Nasir Dibayinin təsdiqi ilə kolonun önünə keçdim. Ayağımın narahatlığına görə yavaş yeriyir, hər addımdan öncə ayağımla yerin vəziyyətini yoxlayıb növbəti addımı atırdım. Mən öndən gedəndə "yavaş

gedin" və "kolon qırılıb" kimi tez-tez irəliyə ötürülən mesajların sayı yalnız üçə endi.

Bütün diqqətim getdiyimiz yolda idi. Qəhrəman komandirimiz Mehdi Bakirinin öyrətdiyi kimi, zikr deyirdim. Əksər uşaqlar o halda idilər. O zülmət və sükut içində yalnız Allah zikri bizə yardımçı olurdu.

Gülüş və söhbət səsini eşidəndə ehtiyatımızı artırdıq. Nasir başımızın üstündəki pusqunu göstərdi. Biz onun altından keçib bir cığır formasında olan yerə çatdıq. O cığır Himmətə gedirdi və üzərində üç pusqu vardı. Cığırın əvvəlində dayanıb böyük bir daşın yanında oturduq. Uşaqlar da cərgə ilə oturdular.

Üçüncü bölükdən iki taqım ayrılıb biri pusquları məhv etməli, biri isə yuxarı qalxıb Himmətə doğru getməli idi. Bu bölüyün komandiri Cəlal Zahidi, müavini də Fərəc Quluzadə idi. Ağa Fərəc və üçüncü bölüyün uşaqlarından iki taqım cığıra getdi. Əbülqasim və başqa bir kəşfiyyatçı onlara bələdçilik edirdi. Əbülqasim bir taqımı pusquya aparmalı, ikinci taqımı da ağa Fərəc Hüseyn Səadəti ilə Himmətə çıxarmalı idi. Onlar Himmətin sol tərəfindən qalxıb vuruşacaqdılar. Onlar gedəndən sonra biz digər şəxsi heyətlə orada qaldıq. Kolonun sonunda gələn və yolun ortasında ayrılıb öz tapşırıq yerinə getməli olan birinci bölükdən xəbərimiz yox idi. Nə tək pusqudan, nə də cığırdakı və Himmətdəki pusqulardan bizimlə əlaqə saxlayan olmuşdu. Oturmuşduq və heç bir səs yox idi. Pusqudan gələn ilk atəş səsindən sonra dağın sükutu pozuldu. Fikirləşdim ki, Seyyidüş-şühəda diviziyası ilə bizim batalyonumuz istiqamətində döyüş başlamışdır. Ağa Fərəcin ağa Sövdagərlə rabitə əlaqəsi yaradıb-yaratmadığını bilmirəm, amma ağa Sövdagər belə bir əmr verdi: "Burada gözləyən taqım yola düşsün".

Cəlal Zahidi həmin taqımla yola düşdü. Onlara Nasir Dibayi bələdçilik edirdi. Onlar gedəndən sonra orada yalnız Əlirza Qəhrəmanpurun başçılıq etdiyi ikinci bölük qaldı. Bu bölük dəstəkçi qüvvə olaraq lazım gəldikdə pusqulara gedib döyüşə qatılacaqdı.

Ratsiyanın yanında oturmuşduq. Döyüş get-gedə şiddətlənirdi. Pusqularda atışma gedirdi. Ağa Sövdagərlə mən Himmətin süqut etmədiyini düşündük. Buna görə də, ağa Sövdagər ratsiya ilə əlaqə saxlayıb artilleriyadan Himməti raketlə vurmalarını istədi. Ratsiyalar yan-yana düzülmüş, batalyonla, artilleriya ilə və digər yerlərlə rabitə əlaqələri qurulmuşdu. Batalyonun uşaqları hər dəfə əlaqə saxlayanda pusquda vuruşduqlarını və hələ yuxarı çıxmadıqlarını öyrənirdik. Tezliklə ağa Cəlalla Nasir Dibayinin taqımının digər iki taqıma çatması xəbərini eşitdik.

– Ağa Cəlal, get Himmətə.

Batalyon komandiri bunu deyib dərhal Əlirzanın bölüyünə hərəkət işarəsi verdi. Orada rabitəçilərdən, məndən və Məhəmməd Sövdagərdən başqa heç kim qalmadı. Diviziyanın ratsiyası səsləndi. Bu dəfə Əmin ağa deyirdi: "Qasim batalyonu öz ərazisini təmizləyib, amma siz xəbər vermirsiniz".

O vaxta qədər bizim heç bir yerdən xəbərimiz yox idi. Nə Qasim batalyonundan, nə də hətta öz birinci bölüyümüzdən. Ağa Məhəmməd hirslənib ratsiyanı söndürdü və diviziya ilə əlaqəmiz kəsildi. O, ayağa qalxıb dedi: "Mən getdim".

– Gözlə, mən də gəlirəm.

Bunu deyib ona çatmağa çalışdım, amma elə sürətlə qalxırdı ki, rabitəçilər də geri qaldılar. O, cəld qayalara dırmaşırdı. Mən onun arxasında idim, rabitəçilər də mənim arxamda. Topların səsi də gəlirdi. Bir neçə dəqiqə ərzində həm Sövdagəri itirdim, həm də arxamca gələn rabitəçiləri. Lakin yolda uşaqların ayaq izləri qalmışdı. Qar üzərindəki ayaq izləri ilə təpəyə qalxıb ilan kimi qıvrılmış bir cığıra çatdım. Yuxarı qalxmaq istəyəndə aşağıda dayanmış üç nəfəri gördüm. Onların birinin başında qırmızı çəfiyə vardı və bu məndə şübhə oyatdı.

– Qardaş!

Fikirləşdim ki, bizimkilərdən olsalar, cavab verəcəklər, düşmən olsalar, silahlarını tuşlayacaqlar. Lakin onlar heç bir reaksiya vermədilər. Silahımı hazırladım ki, lazım olsa, ilk atəşi mən açım. Yenidən səslədim: "Qardaş!"

Barmağım çaxmaqda idi. Cavab gəlmədi. Halbuki məsafəmiz on metrdən də az idi. Təəccüb içində idim. Yaxınlıqlarına atəş açmaq qərarına gəldim. Fikirləşdim ki, bu zaman dost, yoxsa düşmən olduqları bilinər. Ayaqlarının yaxınlığına bir neçə atəş açdım, üz-başlarına qar və palçıq sıçradı və səsləri çıxdı: "Biz iranlıyıq, vurma". Farsca danışırdılar. Soruşdum: "Kimsiniz?"

Özlərini təqdim edəndə birinin Seyyidüş-şühəda diviziyasının ilk hücuma keçən batalyonunun komandiri cənab Kəbiri olduğunu bildim. Mən də özümü təqdim edib batalyonlarının vəziyyətini soruşdum.

– Allaha şükür, bizim uşaqlarımız mövqeləri ələ keçiriblər.

Zarafata dedim: "Bəs siz nə üçün burada oturmusunuz?! Qalxın, gedin şəxsi heyətinizin yanına!"

Cavab gözləmədən yoluma davam etdim.

Dizə qədər qarın içində idim. Təpənin yuxarılarında qarın səviyyəsi dizə qədər, düz yerlərdə isə üç metrə çatırdı. Günəş işığı düşməyən dərələr bütün qarı saxlamışdı, təpələrdəki qar isə günəşli günlərdə əriyirdi. Bizim yolumuzdakı təpə yenidən hamar yerə çatırdı və sonunda pusqu görünürdü. Orada hələ döyüş davam edirdi.

Pusquya təxminən 50 metr qalmış yol üç yerə ayrıldı. Bir ayaq izi yolu düz davam etdirirdi, bir iz isə yuxarı gedirdi. Bizim uşaqlarımızın yuxarı getdiyini düşünüb mən də həmin yola döndüm. Fikirləşirdim ki, düşmən mövqeyinə hücum etmək istəyən taqım buradan keçmişdir.

Qarın üstündəki ayaq izləri get-gedə seyrəlib azalırdı. Təəccüb etdim; çünki hələ zirvəyə çox yol vardı və uşaqların oradan ayrılmaları mümkün deyildi. Lakin dayanmayıb yoluma davam etdim. Tək idim. Hava soyuq və qaranlıq idi və atəş səsləri gəlirdi.

Məndə qəribə bir hiss yarandı. Artıq qarın üstündə heç bir iz yox idi və yalnız mənim çəkmələrimin izləri qalırdı. Zirvəyə yaxınlaşmışdım. Soyuq da olduqca güclənmişdi. Zirvədə bir neçə nəfərin qaraltısını görəndə səhv gəlmədiyimə və uşaqlarımızın yuxarıda olduğuna inandım. Himmət zirvəsini fəth etməmə təxminən beş metr qalırdı. Çox yol gəlmişdim, amma yorğun deyildim, əksinə, nə qədər qalxırdımsa, uşaqların səslərini eşitdiyimə görə daha da güclənirdim. Birdən beynimə bir fikir düşdü. Dayanıb səslərə qulaq asdım. Ərəbcə danışırdılar. Düşmənin əlində olan bir zirvəyə təkbaşına çıxdığıma inanmırdım. Birdən düz dayandığım yerə doğru bir RPG raketi atıldı və ardınca güllə yağmağa başladı. Tez əyilib yerə oturdum və əzab-əziyyətlə qalxdığım yolla aşağı sürüşdüm. Qar məni xilas etdi. Onların gözlərindən uzaqlaşdığıma əmin olandan sonra birtəhər özümü saxlayıb ayağa qalxdım. Bildim ki, üçyoldan yanlış istiqamətə gəlmişəm. Üçyola qədər enməli və pusquya doğru getməli idim.

Əyilməyən ayaqla o qarda enmək çətin idi. Çox üşüyür və uşaqların nə üçün Himmət zirvəsinə getmədiklərini anlamırdım. Nəhayət, üçyola çatdım və bu dəfə pusquya doğru irəlilədim. Pusqu təmizlənmiş və orada düşmən cəsədlərindən başqa bir şey qalmamışdı. Soyuqdan titrəsəm də, səngərə girə bilmədim. Yoluma davam etməyə çalışdım. Uşaqları görməyə ümidlə gedirdim. İlk tanış üzləri görəndə isə artıq vücudumu təhlükəsizlik və rahatlıq hissi bürüdü. Uşaqları salamat gördüyümə sevindim. Birinci batalyonun partladıcı bölüyündən olan və hamının Baba çağırdığı ərdəbilli oğlanı gördüm. Soyuqdan titrədiyimi görəndə dedi: "Üşüyürsənsə, irəli get, orada istirahət üçün yaxşı bir səngər var".

– Yox, ağa Sövdagərin yanına getmək istəyirəm. O, haradadır?

– Ağa Sövdagər sənin gəldiyin yolla gəldi, amma haraya getdiyini bilmirik.

Orada üç pusqu vardı və ümumilikdə çox geniş ərazi idi. Buna görə də, ağa Məhəmmədi o həngamədə tapmaq fikrini beynimdən çıxardım. Soyuq dəhşətli idi, bir saniyə hərəkətsiz dayananda donmağa başlayırdım. Əlcək taxmağıma baxmayaraq, əllərimi açıb-bağlaya bilmirdim. Yaxındakı səngərə getdim və içəri girən kimi üzümə hərarət dəydi.

Dərim qızışdıqca yandırırdı. Orada bir odun sobası vardı. Yanında oturdum. Bütün odunlar yanmışdı, amma külü hələ isti idi və hərdən içində qırmızı qığılcımlar parlayırdı. Bəxtim gətirmişdi; iraqlılar şam yeməklərini yeməyə macal tapmamışdılar. Mən də çox ac idim. O soyuqda göyərti və pomidoru haradan tapdıqlarını bilmirəm. Hər halda, xörəklərini yeyib təsərrüfatçılarına dua etdim.

Bayırdakı soyuq yadıma düşəndə də üşüyürdüm. Sobanın yanında büzüşmüşdüm və külləri tərpətməklə bir az da qızışmaq istəyirdim. Orada yata da bilərdim. Həm vaxt tez keçərdi, həm də yaxşı isinərdim, amma uşaqların fikri məni rahat buraxmırdı. Öz-özümə dedim: “Uşaqlar mənfi 30 dərəcə

soyuqdadırlar, heç şübhəsiz, yolda tərləyiblər və indi yorğun olmalarına baxmayaraq, yenə hərəkət etməlidirlər, yoxsa soyuq onları qurudar".

Titrəməyim azalanda bayıra çıxdım. Fikirləşirdim ki, bəlkə uşaqlar yaralıları toplamağa vaxt tapmayıblar və bəzi yaralılar çoxlu qan itirib qarın üstə huşsuz qalıblar. Belə olduqda isə yaraları təhlükəli olmasa da, soyuq onları şəhid edərdi. Səngərin bayırında uşaqlar oyan-buyana gedirdilər və hərə bir işlə məşğul idi. Bu get-gəllər pusquların arasına və təpənin zirvəsinə qədər davam edirdi. Hələ atışma səsləri gəlirdi, amma pusqularda vəziyyət sabit idi.

– Yaralıları neylədiniz?

– Səngərə gətirdik.

– Bayırda heç kim qalmayıb?

– Yox, hamısını o səngərə apardıq.

– Bəs şəhidlər?

– Şəhidlər yıxıldıqları yerdə qalıblar.

Göstərdikləri səngərə doğru yola düşdüm. Yolboyu irəlidən qayıdan hər bir tanışdan kəşfiyyat uşaqlarının harada olduqlarını soruşurdum.

– İrəli getdilər. Biri də şəhid oldu.

– Harada?

– Bilmirəm. Bir şəhid yıxılmışdı, dedilər ki, kəşfiyyatçılardandır.

Şəhid olduqlarını təxmin etdiyim uşaqları fikirləşirdim. Əməliyyat davam edirdi və hələ başqalarının da şəhid olma ehtimalı vardı.

Həbib batalyonunun uşaqlarını soruşdum: "Cəlal Zahidi haradadır?"

– Xəbərimiz yoxdur.

– Bəs ağa Fərəc? Bilirsiniz haradadır?

– Yox.

– Əlirza Sarxanini görən olubmu?

– ...

– Bəs Niknəfəsi?

– İrəlidə pusqudadır.

Yaralıları topladıqları səngərə çatdım. Soyuğun qarşısını almaq üçün səngərin girişindən bir ədyal asmışdılar. İçəri girdim. Səngər nisbətən isti idi, amma qanaxma və ağrı uşaqlarda can qoymamışdı. Bəziləri hələ də soyuqdan titrəyirdilər. Orada bir təcili yardım işçisi vardı; bir yaralının yanından o birinin yanına gedir və ilkin tibbi ləvazimatı ilə yaralarını sarıyırdı. Gözüm yaralıların arasında gəzirdi. Kimi axtardığımı bilmirdim, amma bilirdim ki, onların arasında mütləq bir dostum var və onun sevgisi məni oraya çəkib. Nəhayət, gördüm. O yaralı dost Cəlal Zahidi idi. Yanında oturdum. Bütün bədəni qəlpə ilə dolu idi, amma boğazını yarmış qəlpə hamısından pis işləmişdi. Hər dəfə nəfəs alanda boğazından qan axırdı. Dedilər ki, heç kimə cavab vermir, deyəsən, özündə deyil.

Soyuq əllərimi yanaqlarına qoyub dodaqlarımı üzünə yaxınlaşdırdım: "Cəlal... Cəlal..."

Səsimi eşidib gözlərini açdı və gözlərimə dikdi.

– Necəsən, Cəlal? Bir şey olmayıb, qorxma.

Yavaşca və titrək səslə dedi: "De, yaralarımı bağlasınlar". Tibb işçisini çağırdım. O, dərin yaraları bandla bağlayırdı, amma Cəlalın boğazının qanı boynunun bandlarını isladırdı. O, yenə huşunu itirdi. Onun yerində olmaq istəyirdim. Onu çox sevirdim, şəhadətə layiq olduğunu bilirdim, lakin düşünürdüm ki, xəstəxanaya tez çatsa, yaşayar. Hələ yanından uzaqlaşmamış yenidən gözlərini açdı: "Üşüyürəm". Üstünü örtdüm. Yenidən özündən getdi. Çox gözlədim ki, bir də özünə gəlib məndən bacardığım bir şey istəsin, amma heç nə demədi. Hərdən özünə gəlib gözünü ətrafa gəzdirir və məni görürdü. Nə deyəcəyimi bilmirdim. Ona demək istəyirdim ki, Cəlal, sağ-salamat get, amma bizim də əlimizdən tut.

Orada qalmağımın heç kimə faydası yox idi. Tibb işçisinə dedim: "Yüngül yaralıları səhərə yaxın yolla, özləri geri qayıtsınlar, nəqliyyat vasitəsi gözləməsinlər. Ağır yaralılara da burada bax. Mən yuxarı, düşmən mövqeyinə tərəf gedirəm. Əgər qatır tapsam, yollayacağam, uşaqları geri göndərərsiniz".

Cəlalı öpüb səngərdən çıxdım və təpənin başına getməyə başladım. Pusqulardan bir qədər uzaqlaşandan sonra ağa Sövdagəri gördüm. O da təpənin başına gedirdi.

– Vəziyyət necədir, ağa Məhəmməd?

– Uşaqlar bir tərəfdən yuxarı çatıblar, amma o biri tərəfdə hələ atışma davam edir.

Məqsədi Ürucla Himmətin arasındakı Zəfər zirvəsi idi. Ağa Məhəmməd tezliklə məndən önə keçdi. Uca boyuna və fiziki gücünə görə heç bir işdə geri qalmırdı. Çox iti yeriyirdi və heç kimi gözləmirdi. O, getdi və mən yenə tək qaldım. Fikirləşirdim ki, yaralı olmasaydım, təpənin başına çıxan ilk adamlardan olardım. Lakin dərhal yataq əsiri olduğum və heç kimin bir də ayaq üstə dura bilməyəcəyimi düşündüyü bir neçə ay öncəki durumumu xatırladım.

Qar bərk idi. Bəzi yollar öncədən keçilməmişdi və özüm yol açıb irəliləməli idim. Qarın hündürlüyü dizdən yuxarı idi və bəzən qurşağa qədər qara batırdıq. O şəraitdə sol ayağım çox çətinlik törədirdi. Sağ ayağımı qoyandan sonra sol ayağımı əlimin köməyi ilə qarın arasından irəli çəkməli olurdum. Bəzən ayağım qarın içində qalırdı və sağ ayağımdan başqa bir dayağım olmadığına görə hər iki əlimlə sol ayağımı qardan çıxarmağa çalışırdım. Bəzən sağ ayağım da qara girməyəndə isə vəziyyət bərbad olurdu və mən ayağı havada qalırdım. Çəkmələrim qarla dolmuşdu. Vətər əməliyyatından yeni çıxmış ayağım o şəraitdə bir taxta parçası kimi qurumuşdu və mən nəinki ağrısını, heç özünü də hiss etmirdim. Mən artıq yaralı böyrümün ağrısını da duymurdum.

Hərdən uşaqların get-gəlindən yola çevrilmiş yerə çatırdım. Orada sürətlə hərəkət edirdim və sonra yenə qara çatır və yavaşca irəliləyirdim.

Hava işıqlanırdı. Sübh namazının vaxtı idi. Atəş və partlayış səsləri dağı başına almışdı. Azan səsinin yeri görünürdü. Özüm təklikdə azan verdim, sonra iqamə oxudum və yeriyə-yeriyə sübh namazımı qıldım. Zirvədə qanın içində yan-yana uzanmış uşaqların cəsədləri diqqətimi cəlb etdi. Onlara yaxınlaşdım. Miribrahim Mirkazımpur və Əkbər Cidari də orada idi. Sayları təxminən on olardı və yanılmasam, hamısı qəlpələrdən şəhid olmuşdu.

Himmət zirvəsinə yaxınlaşmışdım. Yuxarı qalxdıqca atışma güclənir və döyüşçülərin sayı artırdı. O qədər döyüşçünün arasında yenidən gözüm Məhəmməd Sövdagərə sataşdı. Əlində bir pulemyot vardı və düşmənin Zəfər zirvəsindəki səngərlərinə atəş açırdı. Yaxınlaşanda bildim ki, uşaqların təhlükəsiz şəkildə irəliləmələri üçün atəşini gücləndirib. Onun yanına çatanda ləhləyir və buz kimi bədənimdən axan tər damcılarını hiss edirdim. Vəziyyəti soruşdum və o, atəşini dayandırmadan dedi: "Uşaqlar irəliləyirlər".

Onun atəşi və uşaqların hərəkəti bəhrəsini verdi. Bir neçə düşmən əsir alındı və biz də o tərəfə keçdik.

Əsirlərin ikisi ağa Məhəmmədin komandir olduğunu başa düşüb yetim uşaqlar kimi arxasınca düşmüşdülər; haraya gedirdisə, onlar da arxasınca gedirdilər. Ağa Məhəmmədlə zarafatlaşırdıq.

– Ağa Məhəmməd, axır ki ata oldun.

O düşmənlər güclü müqavimət göstərib oranın fəthini səhərə qədər təxirə salmış olsalar da, ağa Məhəmməd onlarla mehriban davranırdı. Himmət və Zəfər yüksəklikləri ələ keçirilmişdi və düşmənlər oradan aşağı qaçırdılar. Çoxu Qucara tərəf qaçırdı. Biz onlara atəş açırdıq, amma məsafə çox olduğuna görə elə də təsirli olmurdu. Uşaqlar Xətt əl-rəs mövqeyinə qədər qalxmışdılar və hər şey bizim xeyrimizə gedirdi. Orada atəşə qarşı ciddi reaksiya verməyib oyan-buyana gedən iki qatır diqqətimi çəkdi. Uşaqlara dedim ki, qatırları yaralıların səngərinə aparsınlar və mütləq ağa Cəlalı da geriyə göndərsinlər. Düşündüm ki, Qasim batalyonu ilə birləşmə zamanı çatmışdır. Ağa Məhəmməd Himmətin ətrafında məşğul idi. Fikirləşirdim ki, Üruca tərəf getsəm, Qasim batalyonunun uşaqlarını görə bilərəm. Təkbaşına yola düşdüm və get-gedə uşaqlardan uzaqlaşdım. Ürucdan bir neçə Bəsic üzvünün mənə doğru gəldiyini görəndə itirdiyim enerjini yenidən əldə etdim. Qasim batalyonunun əməliyyat zonasına çatmışdım və Həbib batalyonundan onlara birləşən ilk adam olduğuma görə sevinirdim. Arxamda kimsə yox idi və həmin Bəsic üzvləri hələ mənə doğru gəlirdilər. Əyinlərində göy gödəkcə vardı, göy panço geyinmiş Qasim batalyonundan olduqlarını düşünürdüm. Birdən mənə doğru açdıqları atəşdən dayandım.

– Bizik... Həbib! Həbib batalyonu!

Veclərinə deyildi. Bir neçə dəfə atəş açandan sonra qayıtdılar. Məni qorxu bürüdü. Mən də geri döndüm. Hava işıqlanmışdı və saat təxminən 9 idi. Öz

uşaqlarımızın yanına qayıtdım. Orada Haşim Tari məni səslədi: "Ağa Mehdi, Əmin ağa sənինlə danışmaq istəyir".[1]

Ratsiyanı mənə verdi və mən Əmin ağanın qəliz fars ləhcəsini eşitdim: "Mehdiqulu, sənsən?"

– Bəli, mənəm, Əmin ağa, buyurun.

– Vəziyyət necədir?

– Biz Himməti tutduq, Zəfəri də azad etdik. Qasim batalyonu ilə birləşməyə gedəndə isə bizə atəş açdılar.

– Hansı Qasim batalyonu?!

– Ürucda olan uşaqlar.

– Qasim batalyonu hələ yuxarını tuta bilməyib, özünüz görün nə edirsiniz.

Təəccübləndim. Beynimə gələn yeganə fikir bu oldu: "Narahat olmayın, inşallah, özümüz bir iş görərik".

Rabitə kəsildi və mən öz hərəkətimə gülməyə başladım: Oğlan, Qasim batalyonu deyə-deyə düşmənlə birləşirdin. Axı harada yazılıb ki, kim mavi gödəkcə geyinsə, Bəsic üzvüdür?!

Narahat idim. Bilirdim ki, Qasim batalyonunun yollarının çoxu keçiləsi deyil. O qarda və soyuqda şəxsi heyətin sürüşməsi, vaxtında yuxarıya çata bilməməsi təbii idi.[2]

Ürucu ələ keçirməklə Qamış bizim əlimizə keçəcək və qələbə tamamlanacaqdı. Qasim batalyonu oraya çata bilməsə də, Himmət və Zəfər zirvələrində qələbə sevinci bizi ruhlandırmışdı və fikirləşirdik ki, özümüz bu tərəfdən hücuma keçib Ürucu ala bilərik. Hər halda, Üruca doğru yeni bir əməliyyata başlamaq istəyirdik. Əvvəlcə yola baxıb maneələrə göz qoyduq. Uşaqların ikisini orada saxladım.

– Siz burada qalın. Düşmənlər aşağıdadırlar. Əgər yuxarı qalxsalar, vurun.

Köməkçi qüvvə gətirməyə getdim. Batalyonun ətrafa səpələnmiş şəxsi heyətinin yanına qayıdıb dedim: "Üruc qalıb, qalxın gedək, oranın da işini bitirək". Lakin arxamca yalnız iki nəfər gəldi. Kazım Abdullazadə və qardaş Təvana. Vaxt itirməyib iki nəfərlə yola düşdüm. Kimə çatırdımsa, məsələni deyirdim, amma uşaqlar yorğun idilər və tərpənməyə də taqətləri çatmırdı, nəinki vuruşmağa. Bəziləri deyirdilər: "Daha yorulmuşuq, gələ bilmərik".

---

[1] Sonralar Seyid Fatimi mənə deyirdi: “Mən durbinlə Qamış zirvəsinə baxanda bir nəfərin Himmətdən yuxarı qalxdığını gördüm; bir ayağını irəli qoyur, sonra o biri ayağını gətirirdi. Bildim ki, sənsən. Əmin ağaya dedim ki, uşaqlar yuxarını tutublar. Soruşdu ki, haradan bilirsən? Dedim ki, Mehdiqulu oradadır. Əmin ağa orada rabitəçiyə demişdi ki, get, Mehdiqulunu tap, gətir, onunla danışmaq istəyirəm”.

[2] Əməliyyatdan sonra Qasim batalyonunun uşaqları deyirdilər: "O qədər sürüşüb yıxılmışdıq ki, daha Ürucun yuxarısına çatmaq bizə qeyri-mümkün görünürdü. Lakin qardaş Əsğər Abasquluzadə harada uşaqların çox sürüşdüyünü görürdüsə, oturub əllərini yerə qoyurdu və uşaqlar ayaqlarını onun əllərinin üstünə qoyub yuxarı qalxırdılar. Əlləri yaralanmışdı, amma bu şəkildə bizi tapşırıq yerimizə çatdırdı. Həm də çox yorulmuşduq. Düşmən pusquları da atəş səslərini eşidib əməliyyatı başa düşmüş və hazırlaşmışdılar.

Bir müddət üçümüz getdik. Yolda Əziz Bəyləri gördüm. Əvvəllər onun komandiri olduğuma görə bütün taqımını götürdü və birlikdə yola düşdük.

Bir qayaya çatdıq. Onun yaxınlığından bizə atəş açıldığını hiss etdim. Çox tezliklə anladım ki, bir qədər aşağıda iraqlıların səngəri var. Elə yuxarıdan aşağı bir əl qumbarası göndərdim. Düz başlarına düşdü və partlayışdan sonra atəş dayandı. Fikirləşdim ki, Əziz bəylərin taqımını iki yerə bölüb birini həmin qaya tərəfdəki təpəyə göndərim. İraqlıların toplaşıb səngər qurduqları və bizə atəş açdıqları yer təpədən görünürdü. Şəxsi heyəti başa saldım ki, siz var qüvvənizlə atəş açmalısınız. Onlar yola düşdülər. İraqlılar hələ güclü atəş açırdılar. O anlarda əməliyyat istiqamətinin komandiri Cəmşid Nəzmini və yanındakıları gördüm. Qardaş Səməd Qasimpur, Rəsul Rzazadə, rabitəçilər və başqa bir dəstə döyüşçü ilə qayanın yanında dayanmışdıq. Pulemyotçunu qayanın üstünə qoyub tapşırdım ki, qaçan düşmənləri vursun.

Təpəyə göndərdiyimiz komanda öz yerinə çatdı və bir an içində düşmənin başına ağır atəş yağmağa başladı. Atəş o qədər güclü idi ki, iraqlılar qaçmağı üstün tutdular. Bilirdim ki, indi qaçsalar, tezliklə özlərinə gəlib bizə problem yaradacaqlar. Buna görə hamını həvəsləndirirdim ki, bütün güclərini toplayıb düşmənlərin sağ qaçmalarına imkan verməsinlər.

– Ağa Mehdi, mənim gülləm bitdi.

Bunu deyən Yusif idi. Qayanın üstündə oturub pulemyotla çox qəşəng atəş açırdı. O, bunu deyəndə mən üzü Üruca dayanmışdım.

– Ağa Yusif, get o uşaqlardan al.

Yusif ayağa qalxdı. O, getmək üçün mənim yanımdan keçməli idi. Düz önümdən keçəndə başına bir güllə dəydi və üzü üstə yerə yıxıldı. Bir qədər qıvrılandan sonra şəhadətə qovuşdu. Çox tez şəhid oldu; səssizcə və bizə macal vermədən.

Bütün vücudumu qəm-kədər bürüdü. O güllə mənim qismətim idi. O anda Yusif oradan keçməsəydi, güllə mənə dəyəcək və onun yerində mən yatmış olacaqdım... Taqımın bəzi yeni uşaqları ona və mənə baxırdılar. Bilirdim ki, hər bir reaksiya onlara təsir edir. Uşaqlara "şəhidi kənara çəkin" deyib atəş açmağa başladım. Ürəyimə və gözlərimə çökmüş iztirabın üzümdə görünməsinə imkan vermədim. Səməd Qasimpur mənə güllə dəydiyini düşünüb nigaran qalmışdı.

Ağır anlar keçirirdim. Yusifin səsi qulağımda təkrarlanırdı: "Ağa Mehdi... Ağa Mehdi... mənim gülləm bitdi..."

Düşmənləri bir-bir vururdum. Daha önümüzdə müqavimət yox idi; ya qaçmış, ya da ölmüşdülər. Arxayın hərəkət etmək zamanı idi, lakin bizim bir neçə addımlığımıza, qardaş Nəzminin yaxınlığına minomyot düşəndən sonra daha orada qalmaq məsləhət deyildi. Buna görə Zəfərə geri dönməyə başladılar. Mən də yola düşdüm, amma gözlərimi Yusifin şəhid olduğu yerdən çəkə bilmirdim. Ora Yusifin qanad çalıb uçduğu, mənim isə yenidən yerdə ilişib qaldığım yer idi.

Nasir Dibayi gəldi və məni görən kimi dedi: "Sən burada neyləyirsən?!"

– Vuruşuruq.

– Oğlan, özünü ələ salma!

Bu, Nasirin özünəməxsus kəlamı idi və kəşfiyyat bölüyünün uşaqlarına deyirdi. Mən zorla təbəssüm edə bildim.

– Kərim ağanın sənինlə təcili işi var. Dedi ki, Mehdiqulu harada olsa, buraya gəlsin.

Özüm də yorulmuşdum. Bizdən aşağıda yerləşən qərargaha qədər enmək istəyirdim. Yolda İraq maşınları ağır tıxac yaratmışdı. Uşaqlar oranı müxtəlif silahlarla atəşə tuturdular. Yol Təbriz-Tehran yoluna dönmüşdü.

Nasir Dibayi ilə birgə qayıdanda Seyyidüş-şühəda batalyonunun uşaqlarını gördüm. Zəfərə qədər gəlmişdilər. Batalyon komandiri Seyid Möhsün Musəvianı, qədim məhəllə və məscid dostlarımdan olan Maqsud Nalbəndini və Əliəkbər Puzeşpəziri gördüm. Qələbə sevinci hamının üzündən oxunurdu. Rastlaşdığım hər bir döyüşçü zarafata bir söz atırdı. Tanış uşaqların çoxu məni görəndə deyirdilər: "Çolaq, sən burada neyləyirsən?!" Zarafatlarını cavablamağa hövsələm yox idi. Yusifin şəhid olduğu səhnə yadımdan çıxmırdı. Səhər qalxdığım yolla geri dönürdüm. İki dəfə yoldakı səngərlərdə dayanıb istirahət etdim, uşaqlardan su alıb içdim. Necə yol getdiyimi bilmirdim. Ayaqlarımı idarə edə bilmirdim, yalnız yerə yıxılmamağa çalışırdım. O vəziyyətdə Himmətə çatdım və oradan pusqulara doğru qayıtdım. Cəlalı apardıqlarına əmin olmaq istəyirdim. Yaralıların səngərinə çatmamış Fərəc Quluzadəni gördüm. Əlində bir qumquma vardı və kədərli görünürdü.

– Hara gedirsən?

– Cəlal su istəyir, ona aparıram.

– Halı necədir?

– Yaxşı deyil.

Dodaqlarım qurumuşdu, əl-ayaqlarım soyuqdan yanırdı, ürəyim də dərddən. Ağa Fərəcin arxasınca səngərə yola düşdüm. Səngərin önünə çatıb ədyalı kənara çəkəndə dayandı və qumquma əlindən düşdü. Ürəyim üzüldü. O halıma heç bir ad tapa bilmirəm. Həmin bir neçə addımı səngərə qədər necə atdım?! Ümumiyyətlə, nə üçün gəlmişdim?! Cəlalın can verməsini görməyəmi?!

İçəri girib Cəlalın yanında oturdum. Sakit idi, əbədi yuxuya getmişdi. Daha boğazından axmağa qanı qalmamışdı. Ağa Fərəc başının üstə oturmuşdu. Qəhər içində idim, amma hələ ağlamırdım. Bilmirəm Cəlalın köçməsinə inanmırdım, yoxsa göz yaşını ora üçün yetərli bilmirdim. Cibimdəki ətri çıxardım.[1] Üzünə ətir vurub onu qoxuladım. Cəlal saçını darayıb ətir

[1] Məhəmməd Məhəmmədpurun şəhadətindən sonra əməliyyatlarda onun formasını geyinir və şəhidlərin üzünə vurmaq üçün həmişə köynəyimin sinə cibinə bir neçə ətir şüşəsi qoyurdum.

vurduğum ilk şəhid deyildi, lakin uzun müddətdən sonra qarşısında nə edəcəyimi bilmədiyim birinci şəhid idi.

Kiçildiyimi və azaldığımı hiss edirdim. Onu əzizləyib səssiz ağlayırdım. Cəlalla çoxlu xatirələrim vardı. Hələ mənəviyyatlı cəbhə havasını duymamışdıq, Şəhidi məscidində M-1 silahından təlim keçirdik. O zaman Cəlalı həmişə məsciddə tapmaq olurdu. Məzuniyyətə çıxanda da məsciddə olurdu. Müharibə başlayandan bəri üst-üstə evlərində cəmi neçə gün qaldığını bilmirəm. İmam Hüseyn (ə) batalyonunda hamı məzuniyyətə gedəndə Cəlal orada qalırdı. İmam Hüseyn (ə) batalyonundan başqa bir yerə getmək istəyəndə haraya getməsi barədə mənimlə məsləhətləşdi. Ona dedim: "Ya kəşfiyyat bölüyünə gəl, ya da Həbib batalyonuna get".

O, batalyonda vuruşmağı tərcih etdi. Ağa Sövdagərə dedim ki, Cəlal cəbhənin ad-sansız xəzinələrindəndir, biz hələ onu tanımamış və ondan layiqincə istifadə etməmişik.

Cəlal Həbib batalyonuna getdi və tezliklə bir bölüyün komandiri oldu.

Fərəc Quluzadə Cəlalın müavini və dostu idi. Cəbhədə dostlaşdığımız adamlar bizim hər şeyimiz idilər. Hüseyn Məhəmmədianın şəhadətindən sonra mən dostları şəhid olan uşaqların halını yaxşı anlayırdım. Ağa Fərəci orada tək qoydum. Onunla sağollaşmadım da. Bayıra çıxıb gecə uşaqların şəhid olduğunu söylədikləri kəşfiyyatçını axtarmağa başladım. Rastlaşdığım ilk döyüşçüdən soruşdum: "Şəhid olmuş kəşfiyyatçı haradadır?"

– Düz o keçidin əvvəlində.

Göstərdiyi tərəfə baxdım. Tikanlı məftillərdən sonra bir keçid vardı və elə əvvəlində bir cəsəd üzü üstə qarın üzərinə yıxılmışdı. Soruşdum ki, cəsəd nə üçün belə qalıb?

– Onu mən çevirdim ki, uşaqlarda ruh düşkünlüyü yaranmasın.

– Uşaqlar şəhidlərdən ilham alıb ruhlanırlar, sizsə onu...

Dostum olduğunu bildiyim bir şəhidin yanında idim, amma hansı dostum olduğunu bilmirdim. Başı qarın içində idi. Qarı təmizlədim. Saçından kim olduğunu təxmin edə bilmədim. Üzünü çevirdim. Əbülqasim Vətənpur idi. Üzünü təmizləyəndən sonra təbəssümünü gördüm. İnanmağım gəlmirdi. Həyatının son anında Əbülqasim necə təbəssüm edirmiş! O təbəssümü heç nə və heç kim yox edə bilməzdi. Yanında oturub ətirlərin birini onun üzünə səpdim, saçını və saqqalını daradım, onun sözlərini xatırladım. Hansı şəhidin cənazəsini görürdümsə, onunla bağlı xatirələrim gözlərim önündə canlanırdı. Əbülqasim bir neçə gün öncə Beytülmüqəddəs-2 əməliyyatı başlanmazdan öncə şəhid olacağını demişdi. Adət üzrə əməliyyatdan qabaq bölüyün uşaqları ilə oturub danışırdıq. Bölükdə qayda belə idi ki, uşaqlardan kim şəhid olurdusa, əməliyyatdan sonra məzuniyyətə çıxanda hamılıqla yığışıb evlərinə gedirdik. Bu qaydadan söz düşdü. Əbülqasimgilin evi Qəzvinin kəndlərindən birində idi. O, dedi: "Amma mən şəhid olsam, inanmıram gedib ata-anamı

tapasınız. Bizim evimiz çox uzaqdadır. Buna görə də, siz mənim ata-anama heç vaxt təsəlli verə bilməzsiniz".

Əbülqasimin bu sözü hamımızı narahat etdi. O mənəvi yığıncaqdan sonra hamımız söz verdik ki, şəhadətindən sonra evlərinə gedəcəyik.

Əbülqasimin cənazəsinin yanında əhdimi təzələdim. Yarım saatdan çox idi oturub onunla danışırdım. Dağın bütün buludları qədər qəlbimdə matəm buludu vardı. İlk dəfə idi ucadan ağlamaq istəyirdim, amma cəbhəyə yeni gələnləri və bundan narahat olacaqlarını nəzərə aldım. Onun başı üstdən qalxdım. Çöhrəsini həmişəlik qeyd etməməyə heyfim gəldi. Bir fotoaparat tapıb şəklini çəkdim və sonra onu mələklərlə baş-başa buraxdım.[1]

Dərəyə gedirdim. Orada heç kim yox idi və bir qədər tək qalıb ucadan ağlaya bilərdim. Ürəyim Cəlalı və Əbülqasimi istəyirdi. Məni deyil, Yusifi aparan gülləni xatırlayırdım. Yolda hərdən yıxılır, bir neçə saniyə oturub ağlayırdım. Ağlamaq məni sakitləşdirirdi. "La hovlə və la quvvətə illa billah" deyib ayağa qalxır və şəhidlərin ruhlarının mənə baxdığını hiss edirdim.

Çoxdan idi elə ağlamırdım. Uşaqların yanına çatanda bir az sakitləşmişdim. Orada iki nəfər vardı, ikisi də yaralı idi. Biri şəhid dostum Hüseynin kiçik qardaşı Kərim Məhəmmədian idi. Alnına bir qəlpə dəyib yaralamışdı. Digəri Mehdi Məhəmmədi idi və ayağını güllə dəlmişdi. Mən də onlara qoşuldum. Üçümüz axsaya-axsaya körpüyə doğru gedirdik. Biz dağdan enəndə İmam Hüseyn (ə) batalyonu yuxarı qalxırdı. Batalyonun komandiri Yasir Zirəki və qonşumuz Rza Abbasnejadı[2] gördüm. Salamlaşıb hal-əhval tutduq. Yorulmuşdular. Soruşurdular ki, yuxarıya nə qədər qalıb?

– Bir şey qalmayıb. Çox tez çatarsınız.

Öz halımı onlarla müqayisə edəndə əmin olurdum ki, bütün yolboyu Haqq-Taalanın xüsusi lütfü altında olmuşam. Mən elə fiziki vəziyyətdə və yaralı ayaqla o qədər dağa qalxıb-enmişdim, amma yeni gələn İmam Hüseyn (ə) batalyonunun uşaqları məndən yorğun idilər. Uşaqların bir çoxu Himmət zirvəsinə gedərkən hətta bir qəlpə yarası da almadan əldən düşüb yorğunluqlarını çıxarırdılar, mənsə o yolu iki dəfə qalxıb-enmişdim. Bunları nəzərə alanda şübhəm qalmırdı ki, şəhidlərin duası bu dəfə özünü belə göstərib. Beytülmüqəddəs-2 əməliyyatında elə hadisələr baş verdi ki, yavaş-yavaş Allahın mənim yaşamağımı istədiyinə inandım. İki dəfə düşmənlə üz-üzə gəlmişdim və güllələri mənə ən kiçik xəsarət də yetirməmişdi. Dostum və döyüş yoldaşım düz mənim önümdən keçən anda bir güllə ilə şəhadətə qovuşmuşdu. Və mən bütün bunlara necə dözməli olduğumu bilmirdim.

---

[1] Sonralar o şəkli kimə göstərirdimsə, soruşurdu: "Yaralanıb? Xərəkdədir? Bəs nə üçün gülür?" Şəhid olduğunu deyəndə inanmırdılar. Əbülqasimin şəhadət anındakı təbəssümü çoxlarında mənəvi dəyişiklik yaratdı. Şəkli çoxları istəyirdi və nəhayət, uşaqların biri onu ələ keçirdi.

[2] O, Beytülmüqəddəs-2 əməliyyatının ikinci mərhələsində Ulaqlı dağının zirvəsində şəhadətə qovuşdu.

“Mehdi, sən hələ şəhadətə tam hazır deyilsən, hələ saflaşmamısan, qatqıların qalıb. Axtar, gör ruhunun harasında hicrətinə mane olan amil var”.

III

Qardaş Hörmətinin əmrinə əsasən, geri qayıdırdım, top mərmiləri, katyuşa raketləri və güllələr də məni yola salırdı. Qamışdan Jajiləyə gedən yol partlayışlar səbəbindən çala-çökək olmuşdu. Katyuşa raketləri noğul-nabat kimi başımıza yağırdı. Körpüyə, çoxlu düşmən əsirinin saxlandığı yerə az qalırdı. Birdən bir göz qırpımında yer-göy titrədi, 20-30 ardıcıl partlayış baş verdi. Deyəsən, körpünü sıradan çıxarmaqdan ötrü Amidindən atəş açırdılar. Körpüyə ziyan toxunmadı, amma oradakı düşmən əsirləri ölüb yaralandılar.

Günortanın aydınlığında körpünün üstündən keçəndə aşağıdakı qəzəbli Qalaçulan çayını görürdüm. Çay guruldayıb köpüklənir, axırdı. Bunu görəndə bir daha fikirləşirdim ki, bir neçə batalyon canlı qüvvənin gecənin qaranlığında o taxta körpüdən hadisəsiz keçməsi yalnız həzrət Fatimeyi-Zəhranın (ə) duası ilə mümkün ola bilərdi. Çünki bu əməliyyat o həzrətə təvəssüllə başlanmışdı.

Körpünü keçdim. Jajiləyə iki yol gedirdi. Körpünün qarşısındakı qayadan aşa bilsəydim, birbaş Jajiləyə gedərdim. Əks-təqdirdə, əməliyyata gedəndə keçdiyimiz yolla qayıtmalı idim; yəni Balusəyə, oradan da Jajiləyə. Çox yorulduğuma görə hətta bir addımı da qənimət bilirdim. Buna görə qayadan aşmaq qərarına gəldim. Bir neçə dəfə sürüşüb yıxıldım və nəhayət, keçdim. Gördüm ki, tikinti-mühəndis bölüyü də yolu qısaltmağı düşünür. Çünki ekskavatorlar orada yol çəkmişdi. Onlar yolu körpüyə qədər çatdırmağı planlaşdırırdılar.

Yolda maşınlar gedirdi. Onların birinə minib Jajiləyə getdim. Oradakı kəşfiyyat qərargahına getmək istəyirdim. Maşından enəndən sonra hələ səngərimizə qədər yol vardı. Axsaya-axsaya səngərə doğru gedərkən bölüyün toyotalarından birini gördüm. Baqaj kabinindən tanıdım. Uşaqlar da məni görmüşdülər. Toyota dayandı və uşaqlar maşından endilər. Hamı ilə görüşüb-öpüşdüm. Onları yenidən gördüyümə çox sevindim. Gözüm qardaş Kərim Hörmətinin çöhrəsinə sataşdı. Həmişəki kimi mehriban idi. Soruşdum ki, haraya gedirsiniz?

– Qamışa.

– Haradan getmək istəyirsiniz?

– Güman ki indiyə yol çəkilib. Arxadan həmin yolla getmək istəyirik.

– Onda mən də gəlirəm.

Kərim hirsləndi: "Get, çox danışma, bəsindir".

Ağzımı yumub heç nə demədim. Onlar getdilər, mən də səngərimizə yola düşdüm. Uşaqlardan hansının əməliyyatdan döndüyünü bilmirdim.

– Ya Allah!

– Gəl içəri, Mehdiqulu.

Uşaqların bəzisi məndən öncə gəlmişdilər: Qulamrza Möhsüni, Amanullah Amani və digərləri. Uşaqlar hörmətləri ilə məni çox utandırdılar.

– Buyur yuxarı, ağa Mehdi.

– Yorulmayasan, ağa Mehdi.

– Ağa Mehdi...

Qısası, mən də inandım ki, ağa Mehdiyəm, hörmətlə səngərə girib çəkmələrimi çıxarmaq və yuxarı başda əyləşmək istədim. Dostlar ayaq üstə dayanıb çəkmələrimi çıxarmağımı gözləyirdilər, amma nə qədər etdimsə, çıxara bilmədim. Sanki ayaqlarım çəkmələrdən böyük olmuşdu. Nəhayət, uşaqlar kömək etdilər və məni əlləri üstə qaldırıb səngərə apardılar. Bu, bir qədər teatra da bənzəyirdi; "Mehdiqulu və çəkmələri" adlı teatra! Əlbəttə, çəkmələrim problem yaratmasaydı da, özüm elə bir həddə çatmışdım ki, bir addım da ata bilmirdim və məni qolları üzərində aparmalarına haqqım çatırdı. Xüsusən də dostların arasına gəlmiş və döyüş zonasından uzaqlaşmışdım. Hamının da mənə qulluq etməyə vaxtı vardı.

– Rəhmətliyin oğlu, neçə gündür bu çəkmələri ayağından çıxarmırsan?

Uşaqların biri soruşdu. Orada yadıma düşdü ki, Qamışda qaldığımız yerdə dəstəmaz alandan sonra çəkmələrimi ayağımdan çıxarmamışam. Amanullahla Qulamrza çəkmələrlə əlləşirdilər, mənsə heç nə duymurdum. Ayaqlarım keyimiş, qurumuş və ağırlaşmışdı. Belimin yarası zoqquldayırdı, amma səsimi çıxarmırdım. Nəhayət, zorla çəkmələri çıxardılar. Ayağımın yüngülləşdiyini hiss etdim. Növbə donmuş corablara çatdı. İki cüt corab geyinmişdim. Əvvəlcə sağlam ayağımın corablarını çıxardılar və mən soyuqdan qaralmış barmaqlarımı gördüm. Mənə güclü soyuq dəydiyinə görə heç bir ağrı hiss etmirdim.

– Bu barmaqlarla necə yeriyim?!

– Hələ nə görmüsən ki?! Ayağının altına bax.

Ayağımın altını qanlı suluq örtmüşdü. İlk dəfə idi elə suluq görürdüm. Yaralı sol ayağımın vəziyyəti isə daha pis idi. Onun üstündə də dərin və qanlı suluq vardı.

Uzanıb ayaqlarımı səngərin divarına söykədim ki, beynimə qan çatsın və bir az istirahət edim. Çox tez yuxuya getdim. Səngər isti idi və özümü yavaş-yavaş əriyən buz kimi hiss edirdim.

***

Günorta azanının səsi dağları bürümüşdü, amma mənim qalxmağa taqətim yox idi.

Yuxudan oyananda namazım qəzaya getmək üzrə idi. Halım yaxşılaşmışdı. Dedim ki, ayağa qalxıb dəstəmaz alım. Lakin ayağım yerə dəyən kimi ağrı bütün vücudumu sardı. Özümdən asılı olmadan dərin ah çəkib yerə yıxıldım. Yol getmək bir yana, hətta ayaqlarımı yerə qoya da bilmirdim. Uşaqlar vəziyyətimi görüb mənə su gətirdilər. Dəstəmaz alıb oturdum və namazımı qıldım. Şam azanını da gözlədim. Vəziyyətim dəyişməmişdi. Tualetə getmək

üçün səngərdən çıxmağa məcbur idim. Qollarımı uşaqların boynuna salıb birtəhər tualetə getdim. Həmin gecə ayağımın göynərtisindən və belimin ağrısından səhərə qədər bir neçə dəfə yuxudan diksindim.

Şəhid Bəni-Haşim düşərgəsindəki səngərimizdə vəziyyət daha yaxşı idi. Uşaqlar məni oraya apardılar və istirahət imkanı yarandı. Orada uşaqların hansının vəziyyətini soruşurdumsa, qarışıq cavablar verirdilər. Əməliyyatın ikinci mərhələsində iştirak edən dostlarımdan çox nigaran qalmağa başladım. Yol yeriyə bilmirdim. Uşaqların qaranlıq cavabları məni şübhəyə salırdı. Söz və işarələrə nə inana bilirdim, nə də inanmaq istəyirdim. Əbülqasimlə Cəlalın şəhadətini öz gözlərimlə görmüşdüm, bəs digərləri? Mənsur Furqani, Hüseyn Səfaşur, Həsən Əbdi...

– Həsən Əbdi?! Vallah, xəbərim yoxdur... Əmin deyiləm, amma bəlkə də şəhid olub...

Mənsur Furqanini soruşanda səslər zəiflədi. Eyham və işarələri duymurdum. Biri deyirdi de, o birisi işarə ilə bildirirdi ki, yox. Çox narahat oldum.

– Mənsur necə şəhid oldu?

– Ağa Mənsur yalnız gedib yola baxmağa icazə almışdı. Orada hiss etmişdi ki, diviziyanın batalyonlarından biri geri çəkilir. Diviziya komandiri ilə əlaqə saxlayıb demişdi ki, uşaqları toplayıb yuxarı apara bilərəm. Beləliklə, uşaqlara rəhbərlik edib iki təpəni azad etmişdi və...

Əlipərəsti deyirdi: "Mənsur səngərdə yanımda idi və atəş açırdıq. Birdən Mənsurun dayandığını hiss etdim. Dönüb baxanda gördüm ki, güllə düz alnına dəyib..."

Çox darıxırdım. Kaş Mənsur getməyəydi! Kaş Mənsur qalaydı! Beytülmüqəddəs-2 əməliyyatında heç kimin, hətta Seyyidüş-şühəda batalyonunun komandiri Seyid Möhsün Musəvianın şəhadət xəbəri də bölük və diviziya üçün Mənsur Furqaninin şəhadəti qədər üzücü deyildi.

Mustafa Mövləvi uşaqların yanında demişdi ki, Mənsurun şəhid olduğunu eşidəndə diviziya komandirinin səngərinə getdim. Əmin ağa bir hadisə baş verdiyini bilib soruşdu: "Nə olub?" Ona dedim ki, Mənsur Furqani də şəhid olub. Əmin ağa əlini dizinə vurub sızlaya-sızlaya ağlamağa başladı.

Bəzi komandirlərin uşaqlar barədə önyargılarını, tələsik mühakimələrini xatırlayanda narahat olurdum. Mənsur Furqani əməliyyat və kəşfiyyat mütəfəkkiri idi. Onu tanıyan hər kəs bunu söyləyirdi. O, artıq həyatda deyildi və biz onu şəhadətindən öncə tanımadığımıza görə yenə peşmançılıq hissi keçirirdik.

***

Gecə oldu. 1988-ci ilin soyuq yanvar gecələrindən biri idi və bütün kəşfiyyatçılar döyüş zonasından qayıtmışdılar. Adətən, hər bir əməliyyatdan sonra yenidən bir yerə toplaşanda rövzəxan çatışmazlığı özünü göstərirdi. Bu dəfə isə heç kimin darıxan ürəyinin rövzəxana ehtiyacı yox idi. Səngərə girən

hər kəsin gözləri hazır idi. Əsğər Abbasquluzadəyə və uşaqları keçirmək üçün qurban vermiş yaralı əllərinə baxırdım: "Əsğər ağa, iki-üç kəlmə danış... Bir söz de, ağlayaq... Daha Mənsur yoxdur... Həsən Əbdi də yoxdur... Hələ Əbülqasimin necə gülərüzlə qar üstünə yıxıldığını görmədiniz..."

Bölüyün məddahı Əbdülvahid Məhəmmədi də yox idi. O da şəhadət qismətini donmuş qayaların arasında tapmışdı.[1] Hər kəs öz qəmli qəlbinin növhəxanı idi. Qəm-qüssə boğazımı sıxırdı; nə qışqıra bilirdim, nə də sükuta səbrim çatırdı. Yalnız ağlamaq beynimdəki şirin xatirələri yuyur və "geri qalmaq" həsrətini vücuduma yayırdı. Sınıq qəlblərlə dolu səngər ah-nalə edirdi.

Düşərgənin uşaqları da bizə qoşulmuşdular. Kəsilmiş ayağı ilə illərlə cəbhələrdə xidmət edən Həbib Ağacani də orada idi.

Hamıdan çox uşaqların məzlumluğu ürəyimizi yandırırdı. Bu Bəsic üzvləri heç bir şəraitdə cihad meydanını boş qoymamışdılar. Gah müsbət 50 dərəcə havada isti qumların üstündə vuruşmuşdular, gah da şaxtada dalğıc palтarı geyinib Karun, Bəhmənşir və Ərvənd çaylarını fəth etmişdilər. Bu dəfə dağları aşmaq lazım gəlmişdi və onlar mənfi 30 dərəcə soyuqda dişinə qədər silahlanmış düşmənlə vuruşub rəhbərlərini tək qoymadıqlarını sübut edirdilər.

***

Səngərdən çıxdım. Ağlamağa bəhanə axtaran, heç bir vəd və təhdidlə hıçqırtısı sakitləşməyən uşaq kimi olmuşdum. Yorulmuşdum. Üç-dörd gün öncə Əbülqasim bu səngərin önündə məni qucaqladı və uşaqlar şəklimizi çəkdilər. Uşaqlar "Mehdiqulu bu əməliyyatda gedəsidir" fikri ilə hər yerdə məni dövrəyə alıb yadigar şəkil çəkdirirdilər. İndi isə mən fotolardakı bu çöhrələrə, yanımda dayanmış Mənsur Furqaninin məsum və kədərli üzünə baxıb yanmalı idim.

Çox soyuq idi. Çətinliklə ayaqlarımı sürüyüb səngərdən, uşaqların yanıqlı səsindən uzaqlaşmaq istəyirdim. Lakin külək bütün ərazini sızıltılı nəfəslərlə doldurmuşdu. Başqa bir səngərin yanında oturub qələmi kağızın üstünə qoydum. Sözlər mənə hücum çəkirdi: Uşaqlar, siz necə məzlumcasına can verdiniz! Siz aşiqcəsinə təkamül yolunu gedə bildiniz. Kaş bizim torpaq bədənlərimiz və maddi orqanlarımız "Rəblərinin yanında ruzidən bəhrələnirlər" sözünü dərk edə biləydi! Bu dünyada bəy palтarı geyinməyən uşaqlar, yeni mənziliniz mübarək olsun!

Əbdülvahid Məhəmmədi Quran qiraətçisi və Əhli-beyt məddahı idi. Soyuqda üzünün rəngi çox qızarırdı. Onun qırmızı yanaqlarının, Həsənin mənəvi paklığının və Mənsurun sınıq qəlbinin xatirəsi ilə yazır və ağlayırdım. Daxilimdəki vulkan hər sətirdə dəli kimi püskürürdü. O vaxta qədər əlimə

[1] Həmid Reyhani, Rza Fərəci, Əziz Bəylər və Məhəmmədrza Müiri də Beytul-müqəddəs-2 əməliyyatında kəşfiyyat bölüyünün şəhidlərindən idilər. Müirinin cəsədini 1993-cü ildə Qamış dağından tapdıq. Mən onu görən kimi tanıdım.

qələm götürüb yazmağım çox az olmuşdu. Səngər, həyət, qapı, dağ, dərə – bir vaxtlar şəhidlərin gəzdiyi hər yer onlardan sonra ruhsuz və dözülməz olmuşdu. Həmin gecəni səhərə qədər çox qürbət və dərd içində yaşadıq. Səhər açılanda daha heç kim orada qala bilmədi. Hamıya məzuniyyət verildi.

Çəkmeyi

I

Təxminən bir həftə idi Təbrizə qayıtmışdım. Ayaqlarımın suluğu nisbətən yaxşılaşmışdı, amma ürəyimdə yaranmış düyün nə onda, nə də sonra yaxşılaşdı.

Şəhidləri dəfn edəndən və bir neçə yas məclisinə qatılandan sonra həmişəki kimi şəhərdə qala bilmədim. Tez-tez Şəhid Qazi qarnizonuna gedirdim. Uşaqların sözü ilə desəm, cəbhə evimizin yanında idi. Bütün uşaqlar belə idilər, əksər gecə və gündüzləri qarnizonda qalırdılar.

Hamımız kəşfiyyat bölüyünə uşaq toplamağa çalışırdıq. Bölüyün şəhidlərinin boş yerini doldurmalı, onu kəmiyyət və keyfiyyət baxımından həmişəki kimi güclü saxlamalı idik. Şəhid Qazi qarnizonuna gedib-gələndə həmişə Şəhid Həsən Əbdini xatırlayırdım. Əməliyyatdan öncə, diviziyanın qərargahı Şəhid Qazi qarnizonuna köçürüləndə buraxılış məntəqəsindən keçmək çox çətin idi. Qarnizonun komandiri Əvəz Məhəmmədi giriş-çıxışları çox çətinləşdirmişdi və bu vəziyyət bizi narahat edirdi. Çox fikirləşəndən sonra bu nəticəyə gəldik ki, Əvəz Məhəmmədinin möhürünü əldə edə bilsək, lazım olanda istifadə edərik və məsələ həll olar. Rəhmətlik Həsən Əbdi problemimizi həll etdi.

– Buyurun, bu da möhür.

Əlində həqiqətən, bir möhür vardı; namaz qıldığımız möhür idi və üzərində Qüdsün (Qübbətüs-səxrə) məscidinin şəkli vardı. Həsən keçid vərəqinə ilk möhürü vuranda hamımız onun yaradıcılığına "afərin" dedik. Giriş-çıxış vərəqələrinə vurulan möhür həmin məscidə bənzəyirdi və Həsən bu bənzərliyi tapıb namazxananın möhürlərindən istifadə edən yeganə şəxs idi.

O günlərdə daha qarnizondan çıxmaq üçün məzuniyyət vərəqi almırdıq. Özümüzdə möhür vardı, vərəqi möhürləyirdik və buraxılış məntəqəsində heç bir söz demədən qapını açırdılar.

Bir dəfə qarnizona gedəndə dedilər: "Diviziyanın Qəbul şöbəsindən bir neçə dəfə zəng vurublar, səninlə işləri var".

Zəng vurub özümü təqdim etdim. Telefona cavab verən adam hay-küyə başladı: "Bu qədər vaxtı harada idin, qardaş Rzayi? Gəlib qovluq açmısan, sonra da başını aşağı salıb getmisən..."

– Əstəğfirullah, mömin, mən qovluq açmamışam, bilmirəm nə deyirsiniz.

Bir qədər danışandan sonra qərara gəldik ki, həmin gün Qəbul şöbəsinə gedim. Orada məsələ aydın oldu. Seyyidüş-şühəda batalyonunun komandiri Seyid Möhsün Musəvian Beytülmüqəddəs əməliyyatından bir neçə gün öncə zəng vurub deyib ki, nə olursa-olsun, Mehdiqulu Rzayini tapın və pasdar edin. Qovluğun bəzi işlərini də Seyid Möhsünün özü görmüşdü. Beləliklə, özüm xəbər tutmadan 01.12.87 tarixindən pasdar olmuşdum.

Söhrab Qurbani, Mustafa Məşhədi və Hüseyn Səfaşur əməliyyat zamanı Şəhid Qazi qarnizonunda qalmış, biz qayıdandan sonra cəbhəyə gedib bizi əvəzləmişdilər. Kərim Hörməti qarnizonda yanıma gəlib dedi ki, uşaqlar iki bölgədə işləməlidirlər. Bu iki bölgənin birində mütləq əməliyyat olacaq. Sonra isə əlavə etdi: "Yaxşı olar ki, sən cəbhəyə gedib bu istiqamətlərin birinə rəhbərlik edəsən".

Heç bir söz demədən qəbul etdim. Məhəmmədhüseyn Əlipərəsti də digər bölgənin komandiri oldu və beləliklə, təxminən on gün Təbrizdə qalandan sonra yenidən cəbhəyə yola düşdük.

II

Seyyidüş-şühəda körpüsü ilə Şəhid Bəni-Haşim düşərgəsinə gedib gecəni orada qaldıq. Bizdən öncə bölüyün səngərində iki nəfər vardı. Onların biri kəşfiyyat bölüyünə yeni gəlmiş ərdəbilli Mehdi Sütudə idi.

Sübh namazını qılandan sonra oradan yola düşdük və mən ilk dəfə Qamışın o tərəfini gördüm. Diviziyanın əməliyyat qərargahına gedirdik. Bir səngərin önündə Ələddin Nurməhəmmədzadə ilə rastlaşdım. Hal-əhval tutandan sonra çox tez bir zamanda qərargaha yola düşdük. Beytülmüqəddəs-2 əməliyyat zonasında qaldığım müddətdə aşağı enib o qərargahı yaxından görməyi arzulayırdım, amma xüsusi şəraitimlə bağlı görə bilməmişdim. Qərargah Qamış dağının sinəsində, aypara şəkilli bir qayanın yanında idi. İraqlılar orada hər şeylə təchiz olunmuş səngərlər düzəltmişdilər. Hər səngərdə iç-içə iki otaq, tualet və bəzilərində hamam da vardı. Bütün tualetlərə kanalizasiya çəkmişdilər və dərədə bir quyuya tökülürdü. Orada təxminən on belə səngər vardı. Ulaqlıya yaxın olan birinci səngər rabitəçilərin olmuşdu. Partladıcı bölüyün də bir səngəri vardı, kəşfiyyat bölüyünün də. Ən böyük səngər əməliyyat səngəri idi.

Qərargaha çatıb hər şeydən öncə uşaqları böldüm, yollara və kəşfiyyat hədəflərinə dair ümumi bir proqram təyin olundu və hər komandanın işi bilindi. Bundan başqa əlimdən gələn iş baxış yerinə qədər uşaqlarla getmək idi. Bu, uşaqların ruhiyyəsinə çox müsbət təsir edirdi. Biz Ulaqlıda kəşfiyyat aparmalı idik və bütün uşaqlar işin əhəmiyyətindən xəbərdar idilər. Bizim qüvvələrimiz Beytulmüqəddəs-2 əməliyyatında Ulaqlı dağına çıxmış, amma düşmənin təzyiqi nəticəsində geri çəkilmişdilər. Şəhid cəsədləri də orada qalmışdı.

Ulaqlının birinci təpəsinin üstündə tək bir ağac vardı. Bizim üçün nişana çevrilmişdi və ora Təkağac deyirdik. Zirvəyə çatmaqdan ötrü Təkağacdan sonra üç-dörd təpə də aşmalı idik. Digər tərəfdən, Təkağacdan Qucar dağına bir təpə birləşirdi. Düşmən qüvvələri orada torpaq istehkamın arxasına yerləşmişdilər. Təkağacdan təpənin sol tərəfinə gedəndə bölgənin çəkmə şəkilli olduğunu aydın görürdük. Bu formasına görə ona Çəkmeyi deyirdilər.

Beytülmüqəddəs-2 əməliyyatında Çəkmeyi Seyyidüş-şühəda batalyonu tərəfindən ələ keçirilmişdi. Həmin istehkamı da bizim uşaqlarımız qurmuşdular, amma əməliyyatın davamında düşmən oranı geri alıb səngər, istehkam və digər mürəkkəb maneələrlə keçilməz bir əraziyə çevirmişdi. Düşmənin bütün müharibə boyu yaratdığı ən səliqəsiz və qarmaqarışıq maneələrindən biri həmin Çəkmeyi bölgəsində, Qucarla Ulaqlının arasındakı boğazda idi.

Görünür, bizim hərbi məmurlarımız orada geniş bir əməliyyata hazırlaşırdılar. Çünki bizimlə yanaşı Həzrət Rəsul və Nəsr diviziyalarının kəşfiyyatçıları da orada işləyirdilər. Ramazan qərargahı düşmən torpaqlarının içində əməliyyat keçirmək istəyirdi və təxminən Vəlfəcr-10 əməliyyatına cəlb edilmiş bütün qüvvə burada da işləyəcəkdi.

Bahar yaxınlaşdıqca düşmənin Qucara hücumları güclənirdi. Qucar bölgənin ən hündür dağı idi. Qarda iraqlıların özləri də onun zirvəsində qalmaqdan çəkinirdilər. Qar əriyəndən sonra isə hər gün düşmənin zirvəyə doğru bir yol açdığını görürdük. Kanal qazdıqlarını, kanalın kənarına tökdükləri torpaqdan işlərinin hansı mərhələdə olduğunu bilirdik. Onlar zəhmətkeş siçan kimi donmuş torpağı qazır və Qucarın zirvəsinə qalxmağa çalışırdılar.

Qamışda kəşfiyyat və müşahidə işindən əlavə, yemək bişirmək də öz üzərimizə düşürdü. Nəhayət, ərzağımız bitdi və daha yeməyə heç nə tapmadıq. Uşaqların bir neçəsinə dedim ki, yuxarı qalxıb düşmən səngərlərindən ərzaq gətirsinlər. Üruc dağının zirvəsində olan o səngərləri Beytulmüqəddəs-2 əməliyyatında ələ keçirmişdik. Məlumatım vardı ki, uşaqlar öncədən Himmətə gedib bütün səngərləri təmizləyiblər, Ürucdakı səngərlərə isə hələ kimsə getməmişdi. Qərara gəldik ki, gecəni birtəhər başa vurub səhər çağı Üruca qalxaq.

Bütün gecəboyu yağış yağdı. Əmin idik ki, bu güclü yağış hər yeri palçığa batıracaq. Səhər çağı Qamışın o tayına gedən yolla yuxarı qalxdıq. Yol sonda Üruc və İman zirvələrinin arasındakı yola birləşirdi və biz oradan Üruca keçə bilərdik. Bir qədər gedəndən sonra qəribə bir səs diqqətimi çəkdi. Beş-altı nəfər idik. Hamımız səsə dayandıq. Mən öndən getdim və gördüyüm mənzərədən yerimdə donub qaldım: Dağ parçalanıb yerə tökülürdü. O vaxta qədər belə bir səhnə nə görmüş, nə də eşitmişdim. Dağın böyük bir hissəsi, bəlkə də 1 km. enində bir ərazi zirvədən ayrılıb yerə tökülürdü. Gecənin güclü yağışının məhsulu olan palçıq çox böyük daşları da diyirlədib aşağı endirirdi.

Təxminən 30 ton ağırlığında bir D9 buldozeri də bu nəhəng axına əsir düşüb torpaq və daşlarla birgə dərənin dibinə yuvarlandı.

Axının gücü bütün dağa təsir etmiş, dağ çatlamışdı. Dayandığımız yer də hər an uça bilərdi. Nə qədər fikirləşdiksə, palçıqların arasından Üruca keçmək üçün etibarlı bir yol tapa bilmədik. Çarəsiz qalıb yolumuzu davam etdirdik. Daş-qayalar aşağı tökülür, biz isə yuxarı qalxırdıq. Ayağımızın altında yer

titrəyir, daşların qulaqbatıran səsi adamı vahiməyə salırdı. Dağ hələ uçmaqda idi. Elə bir yerə çatdıq ki, nə irəli yol vardı, nə də geriyə. Ən yaxşı və etibarlı iş orada dayanıb gözləmək idi. Həmişə bərk yer üzərində yeriyib bundan ötrü şükür etmədiyimizə və hətta bu neməti ağlımızdan da keçirmədiyimizə görə xəcalət çəkirdik.

Palçıq axını get-gedə sakitləşdi və daşların gurultusu dayandı. Hərəkət zamanı idi. Palçığın içindən o tərəfə keçməli idik. Aşağı baxanda daş-qayaları və buldozeri udmuş palçıqla dolu bir dərya görürdük. Beləliklə, adətən, yarım saata keçdiyimiz yolu dörd saata getdik və elə bir yerə çatdıq ki, bir qədər də irəliləsəydik, minalanmış sahəyə çatacaqdıq. Hələ minalanmış sahəni keçə bilsəydik, ondan sonra Üruca qalxmalı idik. Lakin qayalardan birbaş yuxarı çıxsaydıq, düşmən səngərlərinə çatardıq. Biz yekdilliklə ikinci yolu seçdik və bir müddətdən sonra bir qayanın aşağısına çatdıq. Qayanın yuxarısında düşmən səngərləri vardı. Təxminən 200 metr hündürlüyündə bir qaya idi və düz bir divar kimi Ürucun qəlbinə yapışmış, qarşımıza dikilmişdi. İlk baxışdan ondan keçmək imkansız görünürdü, amma hamımız hazırlaşdıq və hərəkət başlandı. Hərəkətə başlayan ilk adam mən idim. Fiziki vəziyyətimə baxmayaraq, önə keçdim. Maraqlı idi ki, digərlərindən rahat qalxırdım; çünki fiziki zəifliyimə yaxşı bələd idim və atdığım hər bir addımı ölçüb-biçirdim. Fikirləşirdim ki, əlimi haraya keçirim, ayağımı dəyişmək üçün hansı daşdan tutum - hər bir addımda bu məsələləri nəzərə alırdım. Sağlam adamlar lazım olanda bir yerdən yapışa bilirdilər, mənsə belə hərəkətlər edə bilmirdim və bir səhvim yıxılmaq demək idi. Bu baxımdan, ehtiyatla qalxırdım, digərləri də mənim getdiyim yolla gəlirdilər. Qayanın yarısını bu şəkildə gedəndən sonra uşaqların biri dedi: "Ağa Mehdi, sən yorulmusan, dayan, mən irəli keçim".

Ərdəbildən Xəlil adlı idmançı gənc idi. Qəbul etdim. İrəli keçdi, mən və digərləri də onun arxasınca. O, tez-tez yuxarı qalxırdı. Mən özümdən çox ona baxırdım. İki-üç addım yuxarıda bir daşdan yapışanda ürəyim üzüldü. Daş laxlayırdı. Böyük daş idi, ağırlığı bəlkə də 25 kq. Olardı, amma dostumuzu saxlamağa qadir deyildi. Onu çağırmağa macal tapmamış daşla birlikdə qayadan ayrıldı.

– Yüz tümən sədəqə!

Yıxıldığı anda ağlıma gələn yeganə söz bu oldu. O, yıxılıb bizdən on metr aşağıda dayandı, daş da üstünə düşdü. Çox çətinliklə çıxdığımız yolu hansı əziyyətlə geri döndüyümüzü Allah bilir. Hərə bir söz deyir, narahatlığını bir şəkildə ifadə edirdi. Hələ onun harada və necə dayandığını, nəyə ilişdiyini və üstünə düşən daşla birlikdə onun ağırlığına neçə dəqiqə dözəcəyini bilmirdik. Mənim aşağı enməyim digərlərindən daha çətin idi. Uşaqlara çatanda ləhləyirdim. Xəlil daşların arasından çıxmış yabanı əncir budaqlarının üstünə düşmüşdü. Budaqlar beşik kimi aşağı-yuxarı gedir, biz qayıdana qədər özünü xilas edə bilməyən dostumuzu yavaşca yelləyirdi. Narahat üzümüzə gülüş oturdu. Qarnının üstündəki daşı aşağı tulladıq. Əncir ağacı mehriban bir əl

kimi daşın arasından çıxıb qollarını açmış, onu saxlamışdı. İnanılmaz olsa da, Xəlili bir əmanət kimi sağlam təhvil aldıq. Bir neçə cızıqdan başqa bir xəsarət almamışdı.

– Zarafat deyil, ağa can, yüz tümən sədəqə, özü də ayda iki min tümən maaş alan biri tərəfindən. Təbii ki, təsiri olmalıdır.

– Sən bir işə bax, bir dəfə iraqlıların səngərindən ruzimizi götürməyə getdik, həm dağ parçalandı, həm də camaatın uşağı qayadan yıxıldı.

Yenidən yola düşdük. Uşaqlar ləhləyə-ləhləyə zarafatlaşırdılar. Xəlil də qayanın sonuna qədər səsini çıxarmadı. Qayanın başına çatanda ürəyim az qala yerindən qopacaqdı. Yuxarıdan aşağı baxdım. Əncir ağacı çox kiçik bir nöqtə kimi görünürdü.

– Yox əşi, çox da qocalmamışıq.

O qaya Himmət zirvəsindəki məşhur qayadan da böyük və vahiməli idi. Uşaqlar bir-bir yuxarı çatdılar.

– Geri çəkilin, başınız gicəllənər, yıxılarsınız.

Bunu mən dedim və yenə uşaqların biri dilləndi.

– Daha sədəqəyə pulumuz da yoxdur, kim yıxılsa, batdı!

Tezliklə Ürucun başındakı səngərlərdən zəhmət haqqımızı götürdük. Uşaqlar düyü kisələrini, bitki yağlarını və digər qida məhsullarını çiyinlərinə qoydular və yola düşdük. Bu dəfə özüm dedim: "Daha qayaya dırmaşmaq bəsimizdir, gəlin minalanmış sahədən qayıdaq. Sahəni özüm təmizləyərəm".

Uşaqlar sözümü dinləyib arxamca yola düşdülər. Qaya aşmaq təcrübəsi xoşagələn deyildi. Təkbaşına on minalanmış sahəni təmizləməyə razı idim, amma qayadan enməyə yox. Mina təmizləməkdə Allahın bəxş etdiyi istedadım yaxşı idi və heç zaman problemlə rastlaşmamışdım. Qısa müddət ərzində uşaqları minalanmış sahədən və tikanlı məftillərdən keçirib bir neçə saat öncə gəldiyimiz yola çıxardım. Buldozeri oradan yaxşı görmək olurdu. Palçığın içində qalmışdı. Əgər öz gözlərimlə görməsəydim, o boyda, o ağırlıqda bir maşının palçıq əlində oyuncağa çevrildiyinə inanmazdım. Buldozeri görəndən sonra söhbət başladı ki, bu maşın dağın başında neyləyirmiş və onun sürücüləri haradadırlar. Yekdil fikrə gəldik ki, yuxarıdakı yolu təmizləyib Qamışın o tərəfindəki Şətik kəndinə birləşdirmək istəyirmişlər.[1]

Öz səngərimizə çatana qədər yolda donub qalmış çoxlu düşmən cəsədləri gördük. Bahar yaxınlaşdıqca və hava qızdıqca qarlar əriyir, cəsədlərin üfunət qoxusu ətrafa yayılırdı. Biz bu haqda bir şey fikirləşməli idik.[2]

***

Kəşfiyyat işləri davam edirdi. Uşaqların işlədiyi bölgə Ulaqlıda Qələmi adlı bir yer idi. Həzrət Rəsul diviziyasının uşaqları da orada yerləşmişdilər və işləyirdilər. Qələmi azsaylı yerlərdən idi ki, İran və İraq mövqeləri bir-birinə

[1] Üç aydan sonra həmin yol çəkiləndə təxminimizin düzgün olduğunu bildik.

[2] Sonradan qardaşların köməyi ilə cəsədlərin çoxunu dəfn etdik.

qarışmışdı. Bir yerdə biz düşmən mövqeyinə girib pusqu və səngər qurmuşduq, bir neçə yüz metr kənarda da onlar bizim mövqeyimizə irəliləmişdilər. Ümumilikdə onların mövqeyi bizdən yaxşı olsa da, uşaqlar diqqətlə işlərini davam etdirirdilər. Ora bir quyuya bənzəyirdi; divarlarında düşmən yerləşmişdi, biz də quyunun dibində özümüzə bir yer açmışdıq və kəşfiyyat üçün istifadə edirdik.

Mən üç dəfə Qələmiyə getdim. Hər dəfə iraqlıları başımın üstündə, arxamda və önümdə görəndə oranı gecə-gündüz qoruyan uşaqların cəsarətinə inamım artdı. Qələmini saxlayan qüvvələr oranın bizim gələcək əməliyyatlarımız üçün yaxşı istinadgah olduğunu bilirdilər.

***

Qamışın aypara bölgəsində və əməliyyat qərargahında boş vaxtlar hərdən qartopu oynamaqla və sürüşməklə keçirdi. Qartopu oynayanda uşaqların sevinci və səs-küyü tamaşa üçün olsa belə, hamını səngərdən çıxarırdı. Bir gün mən də gödəkcəmi çiynimə atıb səngərin önündə dayanmışdım və qərargahın ərazisini qar güllələri ilə doldurmuş uşaqlara baxırdım.

Uşaqlar hətta tamaşaçılara da rəhm etmirdilər və beləliklə, hamı istər-istəməz qartopu oyununa qoşulurdu. Səngərin önündə əlim belimdə dayandığım yerdə birdən sinəmə bərk bir şey dəydi. Çox ağrıtdı. Əlimi sinəmə qoyub qışqırdım: "İnsafsızlar, niyə belə bərk vurursunuz?!"

Oyun dayandı.

– Vallah, biz sənə qartopu atmamışıq...

Uşaqların hamısı bu cavabı verdilər. Yanımdakı bir-iki nəfər də mənə qar atılmadığını söylədilər. Lakin sinəm ağrıdırdı. Əlimə isti bir şeyin dəydiyini hiss etdim. Baxanda barmaqlarımın arasından axan qanı gördüm.

– Bu nədir?!

Hamı məni dövrəyə aldı. Kərim Əzimi ilə Əkbər Terman paltarımı qaldırdılar və yarama baxanda hamımız gülməyə başladıq. Bir güllə cibimdəki əşyaları dəlib sinəmə batmışdı.

– Bu haradan peyda oldu?!

– Mehdiqulu, məgər sən bikarsan ki, harada avara güllə var gəlib sənə dəyir?!

Hamıdan çox özüm gülürdüm.

– Deyirəm axı, dəyəndə taqqıltı səsi gəldi. Əvvəl elə bildim ki, qarın içinə daş qoymusunuz...

Gülləni sinəmdən çıxarmağa başladılar. Bəlli idi ki, güllə uzaqdan atılmış və zəif sürətlə mənə dəymişdi. Təxminən 3 sm. içəri batmışdı və arxası dərimlə bərabər idi.

İraqlıların Qucardakı səngərindən atıldığını düşünürdük. Ağrım və qanaxmam da gülüşüm qədər çox idi. Həbib Ağacani də oraya gəlmişdi. Əkbər Terman əllərini qaldırıb dedi: "Qoyun özüm çıxarım".

Əvvəlcə dişi ilə çıxarmaq istədi, amma deyəsən, sümüyə batmışdı. Nə etdisə, çıxara bilmədi. Bu müddətdə uşaqlar avtomobilin açar qutusundan ucu iti bir kəlbətin gətirdilər və onun köməyi ilə gülləni çıxardılar.

– Bəli, hamıya qar gülləsi dəyəndə sənə həqiqi güllə dəyir!

Hərə bir söz deyirdi. Sinəm çox ağrıya-ağrıya səngərə girdim. Güllənin boş yerinə betadin töküb sterilizə olunmuş tənzif və bandla bağladım. Orada qalmaq istəyirdim, amma uşaqlar israrla dedilər ki, əvvəlcə təcili yardıma getməli, oradan da Bəni-Haşim qərargahına yollanıb istirahət etməlisən.

Bölüyün maşını ilə təcili yardıma getdim. Orada bizim səngərdə gördüyümüz işdən artıq bir iş görmədilər və sonra Bəni-Haşim düşərgəsinə getdim. Xəbər yayıldı və ziyarətçilər gəlməyə başladılar. Bölüyün səngərində ədyalın altında uzanmışdım. Sinəm çox ağrıyırdı və hər şeydən çox məni ağrılardan ayıran bir yuxuya ehtiyacım vardı. Gözlərimə təzə yuxu gedirdi ki, ağlamaq və gülüşlə qarışmış səs-küy səngərə yaxınlaşdı. Bildim ki, xəbər diviziyanın dəcəllərindən birinə çatmışdır.

– Vay-vay! Başına nə müsibət gəlib?! Kaş mən öləydim və səni bu halda görməyəydim!

Rəsul Aftabi idi. Diviziyanın rabitə bölüyündə çalışırdı və xəbəri eşidən kimi yanıma gəlmişdi. Guya ucadan ağlayırdı, uşaqlar da onun ağlamasına gülürdülər. Yanımda oturub üzümdən öpdü. Qəzetə böyük bir şey büküb özü ilə gətirmişdi.

– Axı sənin camaatın gülləsi ilə nə işin vardı, yaxşı oğlan?! Qoyaydın öz yolu ilə gedəydi...

Onun və uşaqların zarafatlarına cavab verməyə hövsələm yox idi. Hərə bir söz deyirdi və hamı gülürdü. Rəsul halımı başa düşüb getmək istədi.

– Mehdiqulu, məni bağışla, gətirməyə bundan başqa bir şey tapmadım.

Qəzeti əlimə verib ayağa qalxdı. Qəzeti açdım və məni o qədər gülmək tutdu ki, heç bir söz deyə bilmədim. Qəzetin içində kiçik və çürük bir duzlu xiyar vardı.

İki gün Bəni-Haşim düşərgəsində istirahət edəndən və ən çox, Rəsul Aftabi ilə həmsöhbət olandan sonra Qamışdakı səngərimizə qayıtdım. Mirabla Rəsul Aftabi də mənimlə gəldilər. Rəsulla yol yoldaşı olmaq gözəl idi. O, şəhərdə ciddi və başıaşağı idi, cəbhəyə gələndə isə təkbaşına uşaqların bütün darıxma və yorğunluqlarını aradan qaldırırdı. Əvvəllər diviziyanın tibb məntəqəsində çalışırdı, oradan İmam Hüseyn (ə) batalyonuna qoşuldu və sonra da rabitə bölüyünə getdi. Onunla Haşim Tari haraya getsəydilər, özləri ilə zarafat və gülüş aparırdılar. Lakin iş vaxtı çatanda uşaqlar onların hər ikisindən enerji və cəsarət alırdılar. Mən Rəsul Aftabi ilə Bədr əməliyyatından öncə Zeyd bölgəsində işləyərkən tanış olmuşdum. O vaxt o, diviziyanın tibb məntəqəsində sürücü idi. Yol düşmənin atəşi altında olduğuna görə oraya ondan başqa bir sürücü gəlmək istəmirdi. O isə bizə su gətirirdi. Rəsul Qamışdakı uşaqlara qoşulandan sonra bəzi hadisələr baş verməyə başladı.

Orada iki əsas problemimiz vardı: Biri bulaqdan uzaq olmağımız idi, biri də yolumuzun bərbad vəziyyəti. Qar və yağış yağanda yol palçığın altında qalırdı və oradan heç bir maşın keçə bilmirdi. Belə olanda su və ərzaq gətirmək üçün qatırlardan istifadə edirdik. Bir neçə qatırımız vardı və şəraitdən asılı olaraq, onlardan istifadə edirdik. Hərdən yol elə vəziyyətə düşürdü ki, qatır palçığa batıb özünü çıxara bilmirdi. Belə vaxtlarda yaxında traktor və ya başqa iri maşın olsaydı, trosun bir tərəfini qatıra, bir tərəfini maşına bağlayıb onu bataqlıqdan çıxarırdıq.

Lakin iki dəfə qatırlar boğaza qədər palçığa batdılar. Biz heç bir vasitə ilə onları çıxara bilmədik və sonda bir güllə ilə xilas etməyə məcbur olduq.

Qatırların biri digərlərindən ağıllı və güclü idi, amma uşaqların biri yolda onu vurduğuna görə hamıdan küsmüşdü və heç bir iş görmürdü. İnadkar heyvan idi, özü istəməyincə heç kim onu bir işə məcbur edə bilmirdi. Ardıcıl yağışlara görə yol bərbad vəziyyətə düşmüşdü və güclü qatırımız hamıdan küsdüyünə görə heç bir iş görə bilmirdik. Qatır təxminən bir gün yonca yemədi, hətta yanına gedəndə başını çevirir və bizə məhəl qoymurdu. Xəbər Rəsul ağaya çatdı və o, qatırı bizimlə barışdırmaq qərarına gəldi.

– Nə olub, heyvan? Nə üçün yemək yemirsən? Nə olub?...

Qatırı nə qədər əzizləyirdisə, qatır ona fikir vermirdi, buz kimi baxırdı və hərəkətlərində heç bir yumşaqlıq əlaməti görünmürdü. Rəsul dilsiz heyvanla zarafat eləməyə başladı.

– Küsmək nə deməkdir?! Cəbhədə belə şeylər olmaz... Gərək barışaq, vəssalam.

Barışıq hədiyyəsi olaraq bir naringinin qabığını soydu, üzünü qatırın üzünə yapışdırandan sonra nəhayət, qatır cin atından düşüb naringini yedi. Onların barışığına tamaşa edən uşaqlar əl çalmağa başladılar.

İkinci problemimiz sudan uzaq olmağımız idi. İçməli su götürmək üçün hər gün 300 metr aralıdakı bulağa getməli idik. Qar dizə çatanda isə bu iş çətinləşirdi. Hər gün bakları doldururduq, axşam isə hamısı boşalırdı. Hərdən bulağın suyu da bulanıq gəlirdi. Bütün bunlar yaxınlıqda bir bulaq tapmaq haqda fikirləşməyimizə səbəb oldu. Bir dəfə uşaqların biri dedi: "Məncə, qarşıdakı dərədə bulaq var".

Uşaqlar su gətirmək üçün o qədər əziyyət çəkirdilər ki, bu barədə heç bir ehtimalı görməzdən gəlmirdilər. Həmin gün bir neçəsi bel və külüng götürüb dərəni qazdılar. Bir neçə metr qazandan sonra bir qapı gördülər və yanından su çıxmağa başladı. Su tapmağın sevinci o qədər böyük idi ki, uşaqlar qapının özünə çox əhəmiyyət verməyib yalnız su gətirmişdilər. Su bulanıq və qoxulu idi. Mən içə bilmədim, onun sudan başqa bir şey olduğunu hiss edirdim. Uşaqlara da dedim ki, suyun xeyrindən keçsinlər.

İki-üç gündən sonra özüm o suyun mənbəyini görmək istədim. Uşaqların iki-üçü ilə dərəyə endim. Qapının üstünü palçıq örtmüşdü və özüm təmizləyə bilmədim. Uşaqlar mənim xahişimlə oranı təmizləyib yenidən qazdılar.

Oradan gələn pis qoxu təxminimi gücləndirirdi. Nəhayət, bəlli oldu ki, qapı bütün tualetlərin axdığı kanalizasiya quyusunun imiş.

***

Bütün problemlərə və çətin iqlim şəraitinə baxmayaraq, dağlarda kəşfiyyat işi davam edirdi. Mən hər gün yaramı açıb-bağlayırdım və Bəni-Haşimdə olduğum iki günü çıxmaqla kəşfiyyat işinə daim nəzarət edirdim. Ulaqlı və Qucar dağlarında düşmənin təxminən bütün səngər, pusqu və batalyonlarının yerini öyrənmişdik.

Xüsusən, Qucarla Ulaqlının arasındakı Hilkan bölgəsində dəqiq işləmişdik, amma dağların qarlı olması Beytülmüqəddəs-2 əməliyyatında olduğu kimi, bu dəfə də işimizi ləngidirdi. Kəşfiyyata gedən uşaqlar ayaqlarını qarın üstünə qoya bilmirdilər. Çünki ayaq izi qarın üstündə aydın qalır və kəşfiyyat ifşa olurdu. Belə olanda həm də növbəti günlərdə işləmək çətinləşirdi, düşmən ayaq izlərini görüb diqqətini artırırdı. O müddətdə kəşfiyyat işləri qarın əridiyi, yaxud get-gəl olduğu və bir neçə əlavə ayaq izinin diqqət çəkmədiyi yerlərdə aparılırdı.

Bir dəfə uşaqlar məni yuxudan oyatdılar.

– Mehdiqulu, gəl müşahidə postuna, Əmin ağa oradadır.

Özümü oraya çatdırdım. Diviziya komandiri bəzi məsul şəxslərlə birgə kəşfiyyat işinin vəziyyətini öyrənməkdən ötrü Aypara bölgəsindəki müşahidə postumuza gəlmişdi. Salamlaşandan, hal-əhval tutandan sonra uşaqların kəşfiyyat işləri haqda məlumat verdik. Əmin ağa kəşfiyyat zonasının məhdudluğunu görüb soruşdu: "Nə üçün irəli getmirlər?"

– İrəli qarlıdır, getsələr, ayaqlarının izi qalar və düşmən anlayar.

– Yox, deyəsən, qorxurlar.

– Yox, Əmin ağa, qorxu məsələsi deyil. Uşaqlar ehtiyat edirlər.

Bundan sonra kəşfiyyat bölüyünün komandiri qardaş Hörməti oraya gəldi və kəşfiyyat işinin vəziyyətini öyrənəndən sonra həmişəki kimi dedi: "Eybi yoxdur, axşam özüm gələrəm, gedərik".

Axşamüstü kəşfiyyat komandaları qardaş Kərim Hörmətinin özü ilə Ulaqlı bölgəsinə getdilər. Mən qərargahda onların gəlişinə hazırlıq görürdüm. İllər idi bu iş kəşfiyyat bölüyündə ənənəyə çevrilmişdi: Kim kəşfiyyata getmirdisə, səngərdə xörək və çay hazırlayırdı, uşaqlar da qayıdandan sonra yaxşı istirahət edirdilər. Bilirdim ki, Kərim ağa həmin gecə bütün istiqaməti öyrənmək istəyir.

Bu kəşfiyyat işi görüləndə əməliyyat zonasının kiçildiyindən xəbərimiz yox idi. Uşaqlar Qələminin arxasındakı dərədən keçib Nüsrət, Nəsr, Fəth və digər təpələrə gedəcəkdilər.

Uşaqlar qayıdanda gecə saat üç idi. Hamının üzü gülürdü, amma soyuqdan əsirdilər. Onlar deyirdilər: "Pusqulara gedəcək uşaqları ağa Kərim özü apardı". Uşaqların yeyib-içdiklərinə əmin olandan sonra mən də yatdım.

Səhər tezdən müşahidə postuna getdim. Gecə uşaqlardan eşitdiklərim düşmənin pusqu və səngərlərinin yaxınlığına qədər kəşfiyyatdan xəbər verirdi və oralar hələ qarın altında idi.

Müşahidə postunda gördüyüm səhnə məni çox narahat etdi. Uşaqların ayaq izləri elə aydın qalmışdı ki, araşdıran olsaydı, onların haradan gəlib haraya getdiklərini öyrənə bilərdi. Tez Əmin ağaya zəng vurub məsələni bildirdim. Məsələ o qədər ciddi idi ki, Əmin ağa dedi: "Bu dəqiqə gəlirəm".

Diviziya komandirinin səngəri ilə müşahidə postu arasındakı məsafə 3 km.-dən bir qədər az olardı, lakin Əmin ağa çox tez gəldi. Durbinlə yola baxan kimi dedi: "Uşaqlar əcəb iş görüblər!"

Heç kimin əlindən bir şey gəlmirdi. Yalnız dua edirdik ki, düşmən ayaq izlərini görməsin.

Həmin gecə heç kim qar üstündə kəşfiyyata getmədi. Uşaqların Vəcəəlnası və Mehriban Allahın lütfü düşməni kor etmişdi. Ondan sonra gördüyümüz yeganə dəyişiklik düşmənin bir pusqu səngərinin artması idi. Mənim fikrimcə, o səngər təsadüfən, həmin vaxt əlavə olunmuşdu. Yeni mövqe olduğuna görə orada istehkamlarını artırmaları təbii idi.

Kəşfiyyat işi tamamlanandan sonra batalyonlar bölgəyə qayıdıb ikinci dərəcəli yolların birində yerləşdilər. Bütün batalyonların yerləşdiyi düşərgə Girdərəş, Qamış və Hərmədan təpələrinin arasında idi.

Bir-iki dəfə batalyonların yerləşdiyi yerə getdim. Qardaş Seyid Fatimi həmin istiqamətin, eləcə də Həbib, İmam Hüseyn (ə) və Əli Əsğər batalyonlarından ibarət briqadanın komandiri idi. Gecəni onların komandir çadırında qaldım. Səhər çağı Həbib batalyonuna gedib ağa Sövdagər, Fərəc Quluzadə və digər qədim dostlarla görüşdüm.

Komandirləri və şəxsi heyəti əməliyyat zonası ilə tanış etməkdən başqa bir iş qalmamışdı. İlk mərhələdə Həbib ibn Məzahir batalyonu hücuma keçəcəkdi. Birinci bölük Qələmidən yola düşüb arxadan Çəkmeyiyə hücum edəcək, ikinci bölük isə ehtiyat tədbiri olaraq, onların ardınca gedəcəkdi. Üçüncü bölük də Nəsr diviziyasının yerləşdiyi təpədən yola düşüb Qucarın yamacından keçəcək və sonda Ulaqlı ilə Qucarın arasındakı boğazda yerləşən istehkamın sonundan döyüşə başlayacaqdı. Əvvəlcə iki batalyonun birgə hücuma keçməsi planlaşdırılırdı, ikinci planda isə Əli Əkbər batalyonunun tapşırığı əməliyyatın ikinci gününə keçirildi.

Diviziya komandiri təkidlə tapşırırdı ki, hətta briqada komandirləri də bölgə ilə tanış olmaq üçün oraya gəlsinlər. Briqada komandiri bölgəni yaxından gördüyünə görə əməliyyat zamanı daha yaxşı tədbirlər görə bilərdi. Qardaş Seyid Fatimi bölgəni öyrənməyə hamıdan çox həvəs göstərirdi. Komandirləri əməliyyat zonası ilə tanış etdiyimiz müddətdə o, hətta komandaların tapşırığına da diqqətlə yanaşırdı. Müşahidə postundan bölgəyə baxanda özü də gəlir, taqım və bölük komandirləri ilə bir-bir danışırdı.

Bölük və taqım komandirlərini bölgə ilə tanış edirdik. Qaranlıq gecə idi, səmada ay yox idi. Yalnız uzaqdan qarın işığı görünürdü. Bir neçə bölük eyni zamanda hərəkət edirdi. Söhrab Qurbani Həbib batalyonundan Fərəc Quluzadənin başçılıq etdiyi üçüncü bölüyü aparırdı. Digər tərəfdə Səfər Əlizadə Məhəmməd Rüstəminin başçılıq etdiyi birinci bölüyü, başqa bir tərəfdə də kəşfiyyat bölüyünə yeni gəlmiş və qısa zamanda bacarığını göstərmiş meşkinli müəllim, Mehran Rəsulinin başçılıq etdiyi ikinci bölüyü aparırdı. Şəxsi heyəti bölgə ilə tanış edərkən ən böyük problem qaranlıq idi. Hər yer elə zülmətə qərq olmuşdu ki, uşaqlar bəlkə bir neçə addım önlərini də çətinliklə görürdülər. Həmin gecə Söhrabın getdiyi tərəfdə Nəsr diviziyasının döyüşçülərindən biri minaya düşmüşdü. Biz yenə narahat idik ki, birdən düşmən əməliyyatdan duyuq düşüb müdafiə hazırlığı görər.

***

Tanışlıq mərhələləri bitdi. Batalyon komandirləri ilə briqada başçıları arasında ardıcıl iclaslar başladı. O zamana qədər komandirlərin əl-qolunu bağlayan yeganə məsələ dəstək məsələsi idi. İlk hücuma keçənlərə silah və qida dəstəyi yol çəkilənə qədər yalnız qatırlarla mümkün idi. Hələ yol çəkiləndən sonra da get-gəl işi tam həll olunmurdu. Biz qar və yağış yağanda, habelə qar əriyəndə dəfələrlə təcrübədən keçirmişdik ki, palçıq hətta dağı-daşı da özü ilə aparır, o ki qala yeni çəkilmiş yola.

Vaxt yox idi. Batalyonların hazırlığından və komandirlərin şəxsi heyətlə iclaslarından xəbərsiz idim. Hamı son işlərlə məşğul idi: son kəşfiyyatlar, son tanışlıqlar, son planlar və son görüşlər...

Kəşfiyyat bölüyünün bütün uşaqları Qamışdakı qərargahda iclasa toplaşdılar. Qardaş Hörməti də gəlmişdi. Bütün uşaqlar diviziyanın əməliyyatdakı rolu ilə tanış oldular. İclasda hər bir batalyon və bölüyün tapşırığı haqda məlumat verildi, uşaqlar bölüklərə paylandılar və biz orada bildik ki, əməliyyatın əhatəsi Süleymaniyyənin şimalındakı Qucar, Hilkan və digər dağlara qədərdir.

Bundan sonra başa düşdük ki, bütün kəşfiyyatçıların əməliyyatda iştirakı vacib deyil və bu səbəbdən bölüyün əksər uşaqları bir neçə gün öncədən Sərdəşt bölgəsinə getmişdilər. Beləliklə, Aşura diviziyasının kəşfiyyat bölüyü Beytülmüqəddəs-3 əməliyyatında iki komanda ilə iştirak edəcəkdi. Lakin diviziyanın digər birləşmələri bölgədə idilər və hər gün ötdükcə hicrət əlamətləri daha aydın görünürdü. Çox qərarsız idim. Vəzifəm artdıqca narahatlığım da artırdı. Qayaları, qarları və düşmənin mövqelərində necə yerləşməsini yadıma salanda suallar üstümə hücum çəkirdi: Uşaqlar yuxarı qalxa bilməsələr, nə olacaq? Əgər düşmən duyuq düşsə, nə olacaq? Bəs birdən qayalardan sürüşsələr? Əgər yağış yağsa və palçıq seli axsa, necə?

III

Səhər çağı kəşfiyyat bölüyünün qərargahında tanış hazırlıq səhnələri canlanmağa başladı. Uşaqlar silahlarını hazırlayırdılar; durbin, kompas, gecə durbini... Bunlar hər bir kəşfiyyatçının iş alətləri idi.

Günorta hamımız birlikdə namaz qılıb naharımızı yedik. Adətən, kəşfiyyatçılar bir gün öncədən batalyonlara gedirdilər, bu dəfə isə əməliyyata bir neçə saat qalmış hərə öz batalyonuna gedəcəkdi. Düşərgənin yaxınlığında batalyonların yerləşməsi üçün yer hazırlamışdılar. Şəxsi heyət gecənin sonlarında oraya getdi ki, gündüz vaxtı Qucardan görünməsin.

Günortadan sonra saat dörddə biz də onlara qoşulduq. Bölük və taqımlara bələdçilik edən kəşfiyyatçıları son dəfə bir yerə topladıq. Son tapşırıqları verəndən və sağollaşandan sonra hərə öz yerinə getdi. Mən də qardaş Seyid Fatiminin yanına yollandım. Bir qədər orada dayanıb Həbib batalyonunun uşaqlarına baxdım. Onlar həddən artıq gənc qəhrəmanlar idilər. "Bunlar ki uşaqdırlar! Bunlar bu əməliyyatda necə iştirak edəcəklər?!" – deyə düşünəndə yəqin ki cəbhəyə gəldiyim ilk günləri unutmuşdum.

O gənc simaların şirin təbəssümləri və qüdrətli baxışları məni elə təsirləndirmişdi ki, sanki cəbhədə deyildim və əməliyyata hazırlaşmırdım. Həmin azyaşlıların bəzilərinin bir neçə əməliyyatda iştirak etdiklərinə inanmaq çətin olsa da, çox şirin həqiqət idi!

Hamı hazır idi. Hava tam qaralanda kolon bir müddət idi yola düşmüşdü. Mən ağa Seyid Fatiminin yanında olacaqdım. Ağa seyid və uşaqların bir qismi Qamışla Qucarın arasındakı yolun sol tərəfində yerləşən səngərdə gözləyirdilər. Onlar atışma başlayandan sonra yola düşüb dağa çıxacaqdılar. O səngərdə Hacı Zeynalxanlı, Hafiz, Rəhim Bağban, Həmid Baqirpur və digərləri ilə birlikdə idik. Həbib batalyonunun birinci və ikinci bölükləri oradan keçib öz əməliyyat zonalarına gedirdilər. Bir daha beynimdə əməliyyat planını və uşaqların hərəkətini nəzərdən keçirdim. Hər bölüyün yolunda müxtəlif problemlər vardı. Birinci və üçüncü bölüklər cəbhə formasında hücuma keçəcəkdilər. Ulaqlının üstündən hücuma keçəcək ikinci bölüyün isə böyük problemləri vardı. Ulaqlı bizim mövqeyimizdən məğlubedilməz görünürdü. Biz onu ələ keçirmək üçün təpəlik ərazidən keçməli idik. Hər təpədən sonra daha hündür bir təpə gəlirdi və beləliklə, pillə-pillə irəliləyib əsas dağa çatmalı idik. Biz kəşfiyyat zamanı bu problemin həlli üçün bir çıxış yolu göstərmişdik, amma son əməliyyat planında Ulaqlıya hücum ləğv olundu və bütün istiqamət iki təpə və bir torpaq istehkamla məhdud oldu.

Birinci və ikinci bölüklərin yolu isə Qələminin arxasından keçirdi. Onlar Qələmidən keçəndə düşmənin Çəkmeyi bölgəsinin aşağısından ötməli idilər. Çəkmeyi çox hündür deyildi, ən hündür yeri 200 metrə çatırdı və düşmən oradan hər bir səsi eşidə bilirdi. Həmin yolda kiçik bir arx da vardı. Seyid Zəfərançı ilə mən öncədən oraya nərdivan kimi bir şey qoymuşduq ki, şəxsi heyətin sakit keçməsinə kömək etsin.

Kolon səngərimizin yanından keçəndə mən də onlara qoşuldum və Qələmiyə qədər onları ötürdüm. Bu dəfə "Vəcəəlna" düşməni kar etmək niyyəti ilə oxunurdu. Dəfələrlə gözlənilməz səslər çıxdı. Arxdan keçəndə bir neçə nəfər sürüşüb suya yıxıldı. O sakit və qaranlıq gecədə hər bir səs diqqət çəkirdi. Ehtiyatla Qələmiyə çatdıq. Uşaqlar oradan keçidə getdilər. Birinci bölük Təkağacın arxasından Çəkmeyi tərəfə dönəcəkdi, ikinci bölük də yolunu Nəsrə doğru düz davam etdirəcəkdi. Bu bölüyün tapşırığı Ulaqlının üstündən ehtimal olunan əks-hücumları dəf etməkdən ibarət idi. Üçüncü bölükdən xəbərim yox idi, tək bildiyim ağa Söhrabın onları istehkama tərəf aparması idi.

Seyid Zəfərançı ilə birgə Qələmidən səngərə qədər qayıtdım. O, dərhal qərargaha getdi, mənsə ratsiyanın yanında oturdum. Qardaş Seyid Fatiminin dəstə üzvlərinin hərəsi bir tərəfdə uzanıb bir neçə saatlıq imkandan istirahət məqsədilə istifadə edirdi. Əməliyyat başlayandan sonra neçə sutka yuxusuz qalacaqları bəlli deyildi. Yalnız Seyid Fatimi oyaq idi. Mən də onun yanında oturdum.

Təxminən bir saatdan sonra atışma səsləri və dərhal ratsiyaların xışıltısı gəldi. Döyüş başlamışdı. Əvvəlcə üçüncü bölüklə əlaqə saxlayıb vəziyyəti soruşduq, sonra birinci və ikinci bölüklərlə. Həbib batalyonunun komandiri qardaş Sövdagər şəxsi heyəti ilə birgə irəli getmişdi. O, birinci bölüklə irəliləyib Təkağaca çatmış və üçüncü bölüyün zonasına girmişdi. Hər bir rabitə əlaqəsinin fasilələrində ratsiyadan Əmir Xirədməndin səsi gəlirdi. O, vəziyyəti anbaan məruzə edirdi. Eşitdiklərimizdən başa düşdük ki, hələ düşmən mövqeyi ələ keçirilməyib. Birinci bölüyün dolaşıq cavabları qardaş Seyid Fatimini narahat edirdi.

– Bəs siz haradasınız? Nə iş görürsünüz?

– Bura minalanmış sahədir, yanımızda partladıcı bölükdən heç kim yoxdur. Düşmən müqavimət göstərir.

Hər rabitə əlaqəsində oxşar cavablar alırdıq. Gecə saat üçün yarısında ağa Seyid dözməyib dedi: "Qalxın, biz də gedirik yuxarı".

Hava zülmət qaranlıq idi. Mən yolu hamıdan yaxşı tanıyırdım və bələdçi sayılırdım. Təxminən on nəfər idik. Əvvəlcə fikirləşdim ki, uşaqları Qələmiyə aparıb o yoldan yuxarı qalxaq, amma yolun uzaq olacağını düşünüb yeni salınan yolla hərəkət etdik. Rabitə əlaqəsi hələ davam edirdi, Əmir düşmənin vəziyyətini və öz durumlarını açıqlayırdı.

Dərənin içi ilə düz getsəydik, istehkamın Təkağacla birləşdiyi yerə çatardıq. Orada beynimə düşdü ki, bizə ən yaxın yer olan Çəkmeyiyə gedək. Əmir birinci bölük tərəfindən deyirdi: "Orada problem yoxdur, yalnız düşmən hələ müqavimət göstərir".

Nə mən Çəkmeyinin alınıb-alınmadığını soruşa bilirdim, nə də özü düşmənin müqavimətindən başqa bir söz deyirdi. Yolumu Çəkmeyi tərəfə döndərərkən oradan atəş yağmağa başladı. Qucar tərəfdən də düşmənin atəşi altında idik. Əmin olduq ki, Çəkmeyi hələ düşməndədir. Seyidə öndən də

atəşə məruz qaldığımızı söyləmədən kolonu diqqətlə gəldiyimiz cığıra qaytardım.

– Ağa seyid, ora Qucardan görünür. Oradan getsək, bütün yolboyu atəş altında olacağıq. Yaxşı olar ki, buradan qalxaq.

Bir söz demədilər. Yola düşdük. Mən guya onların kəşfiyyatçısı idim, onlara bələdçilik edirdim, amma yerişim zəif idi, onlar isə tələsirdilər. Daha yeriyə bilmirdim, ürəyim yerindən qopurdu və ləhləyirdim. Ayağım qurumuş, ağırlaşmışdı. Hafiz və Hacı Zeynal bunu hiss etmişdilər. Bəzən geri qalanda qollarımdan tutub yuxarı çəkirdilər. Yoxuş çox sərt idi və bəzən dördəlli getməyə məcbur olurduq. Atəş səsləri dağı başına almışdı, işıqlı güllələr gecənin zülmətini cızırdı. Güman ki Təkağacın önü və torpaq istehkamın əvvəli olan bir yerə çatdıq. Hər iki tərəfdən atışma səsləri gəlirdi. Həbib batalyonunun uşaqlarının səsi məni ruhlandırırdı. Hacı Rza Daruiyanı, Hacı Seyid Məhəmməd Fəqihi və digər iki-üç nəfəri gördüm. Bir səngərin içində oturmuşdular. Hacı Rza zorla özünü ilk hücumçulara qoşmuşdu. O, əslində, Əli Əsğər batalyonundan idi, amma Həbiblə birgə oraya gəlmişdi. Biz Təkağacın sağ tərəfində və torpaq istehkamın yanında bir səngərə yerləşdik. Səngər düz-əməlli deyildi, yalnız bir sığınacaq kimi əlimizi tuturdu. Uşaqlar o vəziyyətdə də bir-biri ilə zarafatlaşırdılar.

Səhərə yaxın idi və biz sübh namazını təyəmmümlə atəş altında qıldıq. Günəş çıxandan sonra atışma şiddətləndi. Düşmən əks-hücumlara başlayırdı. İlk əks-hücum Qucar tərəfdən və Hilkanın aşağısından oldu. Oranı bir-birinə göstərən uşaqların səs-küyü ucaldı. Bəsic uşaqlarından biri oradakı düşmən DŞK-sını həmin istiqamətə tuşladı.

– Onları vur, tələs!

Bunu mən dedim və o, çox təmiz atəş açmağa başladı. Uşaqlar qənimət götürülmüş 60 mm. kalibrli raketi də hazırlayıb bir neçə dəfə atəş açdılar. Raketlər düşmənlərin yanında partlayır, amma onların irəliyə hərəkətinə mane olmurdu. Onlar o qədər irəlilədilər ki, biz bütün uşaqları istehkamın həmin hissəsinə toplamaq qərarına gəldik. Hərə bir silah götürüb istehkama tərəf qaçırdı. Uşaqların hər üç addımında mən çətinliklə bir addım ata bilirdim. Beləliklə, mən istehkamın yarısını keçməmiş düşmən geri çəkilməyə məcbur oldu. Hələ nəfəsimi dərməmiş uşaqlar qışqırdılar: "Düşmənlər dərənin içindən yuxarı qalxırlar..."

Bir neçə nəfərdən başqa hamı dərəyə qaçdı. Mən istehkamın yanında oturub uşaqlara tamaşa edə bilmirdim, amma onlarla ayaqlaşmağı da bacarmırdım. Buna görə axsaya-axsaya özümü dərəyə tərəf çəkdim. Birdən 160 mm. kalibrli raketlər yağmağa başladı. Hər partlayışla qəlpə dalğası və yerin güclü titrəyişi bizi dayandırırdı. Atəş o qədər güclü idi ki, daş, torpaq, yer, insanlar – hər şey titrəyirdi. Düşmənin bütün artilleriyası Həbib batalyonunun kiçik əməliyyat zonasına yönəlmişdi. O zona təxminən 2 kvadrat kilometr olardı, Ulaqlı və Qucar istiqamətindən düşmənin DŞK, ikili və dördlü zenit pulemyotları,

habelə 60, 120, 160 və 81 mm. kalibrli raketləri bir dəqiqə belə dayanmadan atəş açırdı. Hətta Ulaqlının üstündə yerləşmiş tanklar da bizə mərmi atırdı, Dolbeşkdən isə güllə yağırdı. O bölgələr əslində, altı əməliyyatda azad olunmuşdu və biz bütün altı əməliyyatın atəş həcmini bir əməliyyatda, özü də məhdud bir zonada görürdük.

Hər get-gəldən sonra uşaqların sayı azalırdı. Yaxın məsafələrlə yerə ya şəhid yıxılmışdı, ya da yaralı. Bu vəziyyət məni narahat edirdi. Təkağaca yaxınlaşdım. Həbib batalyonunun komandir müavini qardaş Mütləq də orada idi. Soruşdum: "Nə üçün birinci bölüyün əməliyyat zonası barədə bir şey fikirləşmirlər?"

– Mənim xəbərim yoxdur, bilmirəm.

– Onda mən bu tərəfdən gedirəm, görüm orada vəziyyət necədir.

Yavaşca yola düşdüm. Təkağacdan təxminən 200 metr uzaqlaşandan sonra gözümə bir cərgə mina sataşdı. Nə tikanlı məftil vardı, nə başqa bir maneə. Dərhal bir cərgə salxımlı mina da kəşf etdim. Başqa bir şey yox idi. Yavaş-yavaş məsələni anlayırdım. Biz düşmənin ilk mövqeyilə Çəkmeyidə yerləşmiş bazasını səhv salmışdıq. Bizim uşaqlarımız düşmən cəbhəsinin arxasına hücum edəcəklərini düşündükləri halda onlarla üzləşmişdilər. Buna görə iraqlıların müqaviməti çoxalmış və birinci bölüyün uğursuzluğuna səbəb olmuşdu. Yəni o anlarda mən düşmənin düz arxasında idim. Bir neçə addım irəliləyəndən sonra hətta düşmən səngərlərinin qapısını da görürdüm, amma mənə sarı bir güllə də atmırdılar. Tez qərara gəldim və bütün qüvvəmi ayaqlarıma toplayıb sürətlə Təkağaca qayıtdım.

– Uşaqlar, əgər iki-üç nəfəriniz mənimlə gəlsə, Çəkmeyi problemini həll edərik.

Ən azı, beş-altı nəfərin qalxıb gəlməsini gözləyirdim, amma yalnız iki nəfər gəldi: ikinci bölüyün komandiri Mehran və bir də Qulamrza Səidi. Onlarla birgə yola düşdüm. Minalara çatanda tələnin simini qırdım, salxım minasını da götürdüm və yol açıldı. Mehran önümdə gedirdi, Qulamrza arxamda. Minalanmış sahəni keçəndən sonra Qulamrza dedi: "Qoy mən önə keçim, bəlkə sən qaça bilməzsən".

Qəbul etdim. Onlar öndən getdilər, mən də arxadan. Bu şəkildə düşmənin onmetrliyinə qədər irəlilədik. Düşmən ön istiqaməti ilə qızğın döyüşdə olsa da, birdən bizə tərəf bir əl qumbarası atıldı. Onlar bizi görmüşdülər. Qumbara Mehranın yanına düşdü və o, yaralandı. Açılan atəşlə Qulamrzanın ayaqları da yaralandı. Mənə güllə və qəlpə dəymədi. Çünki o anda iraqlıların arasında bir qumbara partladı. Mehranın əli yaralansa da, onlara doğru bir qumbara ata bilmişdi. O qumbara partlayandan sonra təxminən otuz iraqlı əllərini qaldırıb səngərlərdən çıxdılar. İrəlidə düşmənlə vuruşan uşaqlar arxadan düşmənə hücum edildiyini anladılar. İş bitmişdi və mən uşaqlara tez hərəkət etmələrini söyləmək üçün özümü o tərəfə çatdırdım. Orada da yerdə növbənöv minalar vardı. Oradan keçəndən sonra təxminən yarım metr dərinliyi və yarım metr eni

olan bir kanal gördüm. Oraya bir şəhid cəsədi düşmüşdü. "Sən kimsən?" – deyə pıçıldayıb ona yaxınlaşdım. Başının üstünə çatanda Hüseyn Zad-Heydəri tanıdım. Başından güllə dəymişdi, üzü torpağın üstündə idi və gözlərinin altında qan damcıları laxtalanmışdı. Bədənində can olmasa da, hələ qan yavaşca başından üzünə, oradan da yerə axırdı. Günəş qalxmışdı və ilk şüaları şəhidin üzündə gözəl kölgə yaratmışdı. Onun yanından keçdim. İrəlidə hərəsi bir şəkildə şəhid olmuş digər cəsədlər də gördüm. Orada gördüyüm başqa bir tanış Əyyub Paşayi idi. O da baş nahiyəsindən vurulmuşdu. Başını bağlamışdılar və bütün band qana boyanmışdı. Onun şəhid olduğunu düşündüm, amma üzümü yaxınlaşdıranda asta nəfəslərinin səsini eşitdim. Özüm onu aparmağa qadir deyildim. Orada yorulmadan çalışan Bəhruz Lütfini gördüm. Uca qamətini şəhid cəsədlərinə yaxınlaşdırıb onları çiyninə qoyur, aparırdı. Başdan-ayağa qanın içində idi.[1] Onu çağırdım: "Bəhruz, gəl əvvəlcə bunu apar. Bunların ailəsi çox şəhid verib".[2]

Bəhruz Əyyubu çiyninə atıb apardı. Fikirləşirdim ki, Əyyubun vəziyyəti ağırdır və sağ qalmaz. Onlar gedəndən sonra oraya gələn uşaqları gördüm. Əmiri görəndə məni gülmək tutdu. Zarafata dedim: "Sən nə qədər məruzə etdin! Uşaqlar gəlməsəydilər, Allah bilir, nə vaxta qədər məruzələrini dinləyəcəkdik, Əmir ağa".

Məhəmməd Rüstəmi ilə Məhəmməd Niknəfəs yaralanmışdılar. Onlar ağır döyüşdən çıxmışdılar və yorğun idilər. Uşaqlar qarət olunmuş bir karvan kimi gəlirdilər, çoxu yaralı idi. Ağır yaralıları geriyə göndərdik. Yaralıları daşımaqda və əşyaları yerbəyer etməkdə əsirlərdən istifadə edirdik. Çox yaxşı işləyirdilər, amma raketdən çox qorxurdular, fitini eşidən kimi qaçıb yerə sərilirdilər. Biz Çəkmeyiyə çatmazdan öncə düşmənin raket atəşlərinin ora istiqamətləndiyini öz gözlərimizlə görmüşdük. Yəni düşmən öz qüvvələrinə dəyər vermirdi və onları işlərinə yarayana qədər istəyirdi. Orada uşaqlarımızın arasında ən sağlamı və ən yaxşı ruhiyyədə olanı Həmid Qəmsüvar idi.

– Həmid ağa, necəsən?

Utana-utana dedi: "Ağa Mehdi, mən indiyə qədər İraq siqareti çəkməmişəm. İcazə verirsən bir sumer çəkim?!"

Bilirdim ki, çəkən deyil, yalnız zarafat eləmək istəyir.

– Qardaş Qəmsüvar, mən istehkam düzəltmək üçün ekskavator və buldozerləri gətirməyə gedirəm. Sən də burada ol.

Təkağacla Çəkmeyinin arasında boş bir yer vardı. Əməliyyat planında nəzərdə tutulmuşdu ki, ilk fürsətdə orada istehkam qurulsun. Bundan ötrü yuxarı bir buldozer də gəlmişdi. Onu mahir və qorxmaz sürücülərdən olan Xəlil idarə edirdi. Ona işarə verməzdən öncə Çəkmeyidəki digər uşaqlara

[1] Bəhruz Lütfi sonralar kimyəvi silahlardan yaralandı və müharibədən sonra şəhadətə qovuşdu. Onun fədakarlığı ilə Əyyub Paşayi oradan xilas olub yaşadı.

[2] Paşayilər ailəsi İslama üç qəhrəman şəhid vermişdi: Hacıəli Paşayi, Əkbər Paşayi və Əli Paşayi.

dedim: "Tez özünüzə səngər düzəldin, çünki buldozer işə başlayanda iraqlılar buranı cəhənnəmə döndərəcəklər. Səngərə girin ki, heç olmasa, qəlpədən uzaq qalasınız".

Hamımız bilirdik ki, ora ağır texnika gələndən sonra düşmən çox qıcıqlanacaq. Elə də oldu. Buldozer işə başlayan kimi Çəkmeyi birdən-birə alovların arasında qaldı. O atəşlərə heç bir şey cavab verə bilmirdi. Yalnız səngər düzəldib istehkamın işinin bitməsini gözləməli idik. Düşmən bizim oraya çatmamış istehkam qurduğumuzu görüb dəli kimi atəş yağdırırdı. Ağa Xəlil o qədər raket, güllə və qəlpənin altında təkbaşına qəhrəmancasına çalışır, buldozeri dəlik-deşik edən güllə və qəlpələrə məhəl qoymurdu. İstehkamın işi təxminən bitənə yaxın Xəlil yaralandı, amma işini bitirməmiş sükanı tərk etmədi.

Buldozerin işi bitəndən sonra Çəkmeyiyə gedib şəxsi heyətin vəziyyətini soruşdum. Uşaqlar qədim dostlarımızdan daha birinin getdiyini söylədilər.

– Həmid Qəmsüvar[1] şəhid oldu.

Gedib cəsədini gördüm. Ona qibtə edirdim. Açmamış qönçə kimi ləçəklənmiş, sakitcə yatmışdı. İxtiyarsız olaraq, "Ey arxayın nəfs (ruh)! Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən!" ayəsini[2] xatırladım və gözlərim yaşardı. Uşaqların köməyi ilə şəhid cənazələrini toplayıb geri göndərdik. Təxminən saat 11-də Təkağacdan qayıdanda Əmin ağanı gördüm. Hələ bölgənin bizim, yoxsa düşmənin əlində olduğu tam bəlli olmayan bir şəraitdə diviziya komandirimizi şəxsi heyətin arasında görmək yaxşı hiss idi. Yanında bir dəstə adam vardı. Salamlaşandan sonra gecə baş verənləri, özümüzün və düşmənin mövcud durumunu soruşdu. Vəziyyəti izah etdim. Komandirlər Həbib batalyonunu Əli Əsğər batalyonu ilə dəyişmək qərarına gəlmişdilər. Həbib batalyonunun əksər uşaqları ya şəhid olmuşdular, ya da yaralanmışdılar. Düşmənin əks-hücumu isə hələ davam edirdi. Düşmənlər dərənin içindən yuxarı qalxırdılar. Biz oturduğumuz yerdən onları görürdük. Əmin ağa dedi: "Əli Əsğər batalyonunu göndərərik Həbib batalyonunu əvəzləyər və müdafiə işi güclənər".

Qulamhəsən Sefidgəri və Tağı Qəhrəmanniya da onun yanında idilər. Yolda zirehli maşın vardı. Bildim ki, onunla gəliblər, onunla da qayıdacaqlar. Əmin ağa yolun kənarında dayandı. Tağı mənə yaxınlaşıb dedi: "Əmin ağanın sənինlə işi var".

Səngərdən çıxıb onların yanına getdim.

– Əmin ağa, mənimlə işiniz var?

– Gəl, birlikdə gedək. Orada sənինlə işim olacaq.

– Nə işi?

---

[1] O, cəbhənin dəcəl, qorxmaz və mənəviyyatlı Bəsic üzvlərindən idi, şəhid olanda 18 yaşı vardı. Onun o yaşla, o bədənlə 4 il cəbhədə vuruşduğuna az adam inanırdı.

[2] Fəcr, 27-28

– Əli Əsğər batalyonunu gətirməyini istəyirəm.

Söhbət bitdi və birlikdə maşına mindik. Ağır yaralıların bir neçəsini də maşına qoymuşdular. Onların arasında Məhəmməd Rüstəmini tanıdım.

Əli Əsğər batalyonu hazır vəziyyətdə idi. Dərhal hərəkət əmri verildi və kəşfiyyat bölüyündən bir neçə nəfərə batalyona bələdçilik işi tapşırıldı. Nə kimsə mənə bir söz dedi, nə də mən bir şey soruşdum və ya orada olduğumu bildirdim. Yalnız Əmin ağanın arxasınca səngərə girdim:

– Əmin ağa, dediniz mənimlə işiniz var, bəs hanı?

– Hələlik burada qal, sənlə işim ola bilər.

Oradan çıxıb öncədən qərargahımız olan səngərə getdim. Oradakı uşaqlar döyüşün vəziyyətini soruşurdular, mən də bacardığım qədər cavablandırırdım. Gecəyə qədər orada qaldım. Digər uşaqlar da qayıtdılar. Hüseyn Səfaşur da orada idi və həmin gecə Əli Əkbər batalyonunu Hilkana aparacaqdı. Əli Əsğər batalyonu Həbib batalyonunu əvəzləmiş, Həbibin uşaqları qayıtmışdılar. O gecə də öncəki gecə qədər qaranlıq idi. Hüseyn getmək istəyirdi. Çox tez və qısa şəkildə halallaşdıq və getdi.

Əli Əkbər batalyonu yola düşdü. Hüseyn Səfaşuru son dəfə kolonun əvvəlində görüb səngərə qayıtdım. Məndə ratsiya olmadığına görə vəziyyətdən xəbər tuta bilmirdim. Yorğunluq da məni əldən salırdı. Orada yatdım.

Səhər yuxudan oyananda özümü gümrah hiss edirdim. Səngərimizdən bir qədər aşağıda yerləşən tibb məntəqəsinə getdim. Yaralılardan dəqiq məlumat öyrənmək istəyirdim. Yaralıların arasında iki kəşfiyyatçı da vardı. Ötən gecə Əli Əkbər batalyonunu üç kəşfiyyatçı aparmışdı və başçıları da Hüseyn idi. Əmin idim ki, onlardan dəqiq məlumat öyrənə bilərəm.

– Hüseyn Səfaşurdan xəbəriniz yoxdur?

– O da yaralandı.

– Bəs haradadır?

– Onu ağa Əzimiyə tapşırdıq ki, geri gətirsin. Biz yalnız qayanın yanına çəkə bildik.

Bildim ki, özü kənara çəkilə bilmədiyinə görə yaraları ağır olub. Ağa Əzimini axtarmağa başladım. Onu görəndə Hüseyni soruşdum.

- Bilmirəm, onu görmədim.

Bildim ki, işinin çoxluğuna və ya hər hansı səbəbə görə Hüseyni gətirmək yadından çıxıb. Nigaran qaldım və nəhayət, günortaya yaxın öyrəndim ki, Əli Əkbər batalyonunun uşaqları Hüseyni görüb geri gətirmişlər. Təcili yardımda halı çox pis olubmuş. Şəhid olub-olmadığını isə heç kim bilmirdi.

Hüseyn Səfaşuru az adam mənim qədər tanıyırdı. Onun təvazökarlığı hər bir güman və təxminin qarşısını alırdı. Fikirləşirdim ki, cəbhədə yeddi il yarım ardıcıl iştirakdan sonra bu yaradan da sağ çıxsa, hansı halda olar... Ürəyimə dammışdı ki, o da getmişdir.

***

Bütün şəxsi heyətə məzuniyyət verildi. Mən də əşyalarımı toplayıb uşaqlarla yola düşdüm. Yeganə yolumuz Çumanın üzərindəki Seyyidüş-şühəda körpüsündən keçirdi, lakin düz əməliyyat günü güclü sel körpüyə ciddi ziyan vurmuş və bir hissəsini sındırmışdı. Bu baxımdan, körpüyə çatan hər kəs orada dayanırdı. Çoxlu adam və texnika izdihamı yaranmışdı. Mavutdan, Qamu dağlarından, Şeyx Məhəmməddən, Asus, Qucar, Girdərəş, Qamış, Ulaqlı, Kolan və digər dağ və təpələri əhatə edən 700 km.^{2}-dən böyük bir ərazi Seyyidüş-şühəda körpüsündən asılı idi. Məsul şəxslər başqa bir yol salmaq haqda düşünürdülər. Girdərəş və Sərdəşt istiqamətindən bir yol salınmaqda idi. Çayın üzərində körpü tikəndən sonra o yol yaxşı işə yarayacaqdı, amma hələ o körpü tamamlanmamış sel möhkəm Seyyidüş-şühəda körpüsünü də uçurmuşdu. Körpünün ətrafında müvəqqəti keçid üçün taxta körpülər vardı və hamı ehtiyatla oradan keçirdi. Maşınlar üçün isə Seyyidüş-şühəda körpüsündən başqa bir yol yox idi. Hər an uçmaq təhlükəsi olsa da, maşınlar bir-bir körpünün üstündən keçirdilər.

Beləliklə, vəhşi Mavut dağlarını tərk edib şəhərə yollandıq.

Geri çəkilmək

I

Təbrizdə eşitdiyim ilk xəbər Hüseyn Səfaşurun şəhidliyi oldu. Beytülmüqəddəs-3 əməliyyatında kəşfiyyat bölüyünün yeganə şəhidi o idi. Şəhadətindən sonra gizli sirləri bir-bir aşkara çıxırdı. O, Sepahın ilk qüvvələrindən idi. Pasdarlara xüsusi imkanlar veriləndə nə torpaq və ev almışdı, nə də televizor və xalça. Bəzi əşyaları isə öz maaşı ilə alıb yoxsul ailələrə vermişdi.

Əməliyyatdan öncə kəşfiyyat bölüyünə bir neçə ev əşyası verilmiş və püşkatmada televizor Hüseyn Səfaşurun adına çıxmışdı. Şəhadətindən sonra yadigar olaraq bölükdə qaldı.

Hüseyn dəfn olundu. Bir müddət idi Rəhmət vadisi məzarlığında kürsünün önündəki hissə dolmuşdu və şəhidləri bir qədər yuxarıda dəfn edirdilər. Hər dəfə oraya gedəndə şəhid dostlarımızın hərəsinə bir salam vermək və bir Fatihə oxumaq bir neçə saat çəkirdi. Ora tanış baxış və səslərlə dolu idi.

Uşaqlığımızı yaşadığımız küçələr, ailəmiz... Bunların heç biri cəbhənin yerini vermirdi. Sanki şəhərin küçələri ağızlarını açıb bizim qəribliyimizi bağırırdılar. Şəhərin hətta əsas xiyabanlarını da tanımırdım. Yaxşı tanıdığım yollar məni şəhərdən uzaqlaşdırıb Ezam mərkəzinə, avtovağzala və ya dəmiryol vağzalına, son zamanlarda isə Şəhid Qazi qarnizonuna aparan yollar idi. Diviziyanın qərargahının Şəhid Qazi qarnizonuna köçürüldüyü vaxtdan uşaqların şəhərə dözüm müddətləri on günə qədər artmışdı. Məzuniyyətin ikinci günündən hamımız qarnizonda toplaşırdıq. Azərşəhr taksilərinə minib 5 tümənə qarnizonun qapısının önünə qədər gedirdik.

Beytülmüqəddəs-3 əməliyyatından öncə Sərdəştə getmiş bəzi kəşfiyyatçılar hələ orada çalışırdılar. Uşaqlar adət üzrə, çatan kimi oraya gizli bir ad seçərək Qarayer adlandırmış, sonra da böyük bir plakatın üzərinə gözəl xətlə yazmışdılar: "İslam qəhrəmanı Mətləb Ağacani mövqeyi". Aşura diviziyasının xüsusi qüvvələrindən başqa hamı elə bilirdi ki, ora şəhid komandirlərdən birinin adı verilmişdir. Halbuki Mətləb Ağacani bölükdə uşaqlara qulluq edən qocanın adı idi, özü də orada olurdu.

Qarnizonda günlər keçmək bilmirdi. O zaman həm düşmənin cəbhədə fəaliyyətləri güclənmişdi, həm də Sepahın strukturunda dəyişikliklər başlanmışdı. Sepahın Quru qoşunlarını genişləndirmək üçün bir proqram işlənmişdi. O proqrama əsasən, Aşura diviziyası korpusa çevriləcəkdi. Diviziyaların çoxu bu şəkildə dəyişilirdilər. Mən düşünürdüm ki, bu işlə şəxsi heyət qarışacaq və hansı birləşmənin hansı korpusa tabe olduğu bilinməyəcək. Deyilənə görə, Aşura korpusuna 20 birləşmə tabe olacaqdı.

Şəxsi qənaətim belə idi ki, bundan sonra Aşura korpusunun əməliyyat bölgəsi həmişə Mavut olacaqdı, öncəki kimi müxtəlif əməliyyatlarda iştirak

edə bilməyəcəkdi. Hər halda, əmin olduğum məsələlərdən biri bu idi ki, əməliyyat bölgəsinin kəşfiyyatını yenə Aşura korpusunun özü həyata keçirəcəkdi və bu barədə Quru qoşunlarının siyasəti dəyişməmişdi.

Bunun ardınca bölükdə də dəyişikliklər baş verdi. Kəşfiyyat bölüyü böyük bir təşkilata çevrildi. Hacı Əkbər Səbzi onun komandiri təyin olundu, Kərim Hörməti də onun müavini oldu. Diviziyanın bütün kəşfiyyatçı şəxsi heyəti bir hərbi kəşfiyyat bölüyündə birləşdirildi və bölüyün rəhbərliyi mənə tapşırıldı. Tezliklə Mavut dağlarına hərəkət əmri verildi.

II

Şəhid Davudabadi düşərgəsi Sərgəlonun sonunda yerləşirdi. Ora 1987-ci ilin aprelində Kərbəla-10 əməliyyatında azad olunmuşdu. Oradan polis zastavasına doğru gedəndə başqa bir düşərgəyə çatırdıq. Sepah oranı bizə vermişdi. Ora çatanda uyğun bir yer axtarmağa başladıq. Boş yerlər vardı, amma biz uzun müddət qalacağımıza görə ən yaxşı yeri tapmaq istəyirdik. Beytülmüqəddəs-2 əməliyyatından öncə Aşura diviziyasının batalyonları Davudabadinin yaxınlığında yerləşmişdilər və oradan Davudabadiyə yol çəkilmişdi. Davudabadi düşərgəsindən Bəni-Haşimə başqa bir hamar yol vardı. Birinci yol qışda əlverişsiz olurdu və az istifadə edilirdi. Biz həmin yolla gedib batalyonlardan təxminən 1 km. aralıda, yolun sağ tərəfində bir yer gördük. Silah qutularından düzəldilmiş çox təmiz üstüörtülü səngərləri vardı. Səngərin divarlarını nazik taxta ilə örtmüşdülər, içi qutu kimi idi. Hamımızın gözü tutdu. Orada yerləşib anbar məqsədi ilə iki çadır qurduq. Məhəmməd Purnəcəf, Nasir Rzapur və Kərim Ahənc qrup başçıları idilər və hər qrupda iki komanda vardı. Söhrab Qurbani və Əkbər Terman da hərbi kəşfiyyat bölüyünün komandir müavinləri idilər.

Qərara gəldik ki, bölüyün təlim siniflərindən və adi proqramlarından əlavə, özümüzə hər gün bir tapşırıq təyin edək. Hər bir əməliyyatdan sonra bölüyə yeni tapşırıq verilənə qədər boşluq yaranır və bunun bəzən xoşagəlməz nəticələri olurdu. Bu nəticələrin ən sadəsi hövsələsizlik və ruh düşkünlüyü idi. Bu baxımdan, qruplara tez-tez ətraf dağlarda kəşfiyyat işi aparmaq tapşırılırdı.

– Bu gün Ulaqlıya getdik, uşaqlar müşahidə postundan bütün bölgəyə baxdılar.

– Sabah inşallah, Şaşuya gedib oradan birbaş Qamunu araşdıracağıq.

Bölükdə camaat namazları yenidən başlandı. Aramızda ruhani yox idi, amma qardaşların çoxu imam şərtlərinə malik idilər və bu baxımdan, zəngin idik. İllər ərzində əzadarlığı və məddahlığı da öyrənmişdik, ürəyimiz istəyəndə özümüz dua və mərsiyə oxuyurduq. Gözlənilməz bir hadisə baş verməyəndə hər gün axşamüstü bir yerə toplaşırdıq və mən əməliyyat təcrübələrini öyrətmək məqsədilə bölüyün şəxsi heyəti önündə çıxış edirdim.

***

Həmin qərargahda yerləşməyimizdən bir həftə ötməmiş Kərim Hörməti yeni xəbərlərlə gəldi. Yeni tapşırığın ümumi planı belə idi ki, şəxsi heyət iki qrupa ayrılıb biri Sərdəştin Bulfəth dağından, digəri də Asusdan Dukan bəndinə doğru hərəkət etsinlər. Bu zaman böyük bir bölgə, o cümlədən Qaladizə şəhəri, habelə Sərdəşt, Dupaza bölgələri və Dupazanın arxasındakı təpələri mühasirəyə almış olurduq. İraqın mühüm Qaladizə şəhərindən əlavə bir neçə başqa şəhər, habelə təxminən 50 kənd bizim əlimizə keçirdi. Bəlli idi ki, Sepah oraya böyük qüvvə cəlb edəcəkdi, amma düşmən də oyaq idi və get-gedə bölgədə hərəkətini artırırdı.

Biz o günə qədər Asusu və onun ən hündür zirvəsi olan Kürkürü yalnız uzaqdan görmüşdük. Seyyidüş-şühəda körpüsündən bölgəyə baxanda qərb tərəfdə sonda gördüyümüz axırıncı dağ İraq tərəfdən başı göyə ucalmış yumruq şəkilli zirvə idi. O, Asus dağ silsiləsinin ən hündür zirvəsi olan Kürkür idi. Asus silsiləsi bir tərəfdən İraqın Dukan bəndi ilə bitirdi, digər tərəfdən də Kulican, Şeyx Məhəmməd və Qucar dağları ilə.

Bizim qüvvələrimizin bir qismi öncədən Asusdan Dukan bəndinə gedən istiqamətdə yerləşmişdilər. Son dəyişikliklərdə isə Sepah oranı başqa bir birləşməyə vermişdi.

Ümumi planla tanış olandan sonra qərara gəldik ki, şəxsi heyətdən öncə özümüz oraya gedək. Mən, Kərim Hörməti, Amanullah Amani və Məhəmməd Purnəcəf toyotaya minib yola düşdük. Asus və Kürkür dağlarına getmək üçün Şeyx Məhəmməd, Kulican və Noğullar yüksəkliklərindən keçməli idik. O zamana qədər çıxdığım ən yüksək zirvə dəniz səviyyəsindən təxminən 1700 metr hündürdə olan Qamış zirvəsi olmuşdu. Lakin bu dəfə keçəcəyimiz Şeyx Məhəmməd dağı dəniz səviyyəsindən 3500, Kürkür dağı isə 3700 metrdən çox hündür idi. Onların hündürlüyü, soyuğu, qarı və buzu elə bir həddə idi ki, qışda heç kəs zirvəyə qalxa bilmirdi.

Aprel ayı idi. Dağın soyuğu azalmışdı, təbiət isə bizimlə oyun oynayırdı. Dağın ətəyində istidən paltarımızı çıxarırdıq, yuxarı qalxanda isə gödəkcə geyinirdik. Şeyx Məhəmməd dağının üstündə çəkilən yol hələ istifadəyə yararlı deyildi. Kulican dağının əsas hissəsində isə 2 km. uzunluğunda yol çəkilmişdi, buldozerlər və ağır maşınlar işləyirdi. Yolun sonuna qədər maşınla getdik, orada isə enməyə məcbur olduq. Kürkürə qədər 9 km. yolu dağ-dərələrin, qayaların arası ilə piyada getməli idik. Uşaqlar deyirdilər ki, Şeyx Məhəmmədə çatandan sonra daha problem olmayacaq.

Ora ilk dəfə idi gedir və yolda düşmən tərəfi də görmək üçün dağın ən yüksək zirvəsi ilə irəliləyirdik. Şeyx Məhəmməd dağının zirvəsinə çatandan sonra oraya qədər gəldiyimiz və oradan sonra getməli olduğumuz yolları görə bildik. Uşaqların dediyi kimi, Şeyx Məhəmməddən sonra problem yox idi, yalnız bir-birinin ardınca düzülmüş dağ və qayalar vardı; birini aşandan sonra o birisi qarşımızda peyda olurdu!

Şeyx Məhəmmədi keçəndən sonra qarşı tərəfdə olan və düşmənlərin yerləşdiyi Bərdəqışlıtı aydın görə bilirdik. Bərdəqışlıtın hündürlüyü Şeyx Məhəmməddən alçaq idi və biz oranı yaxşı görürdük. Dukan bəndinin arxasındakı dairəvi gölməçə bir tərəfdən Bərdəqışlıt dağına çatırdı.

İraq tərəfinin gölün sahili ilə Bərdəqışlıt dağı arasında çəkdiyi yol Şeyx Məhəmmədlə Bərdəqışlıtın arasından keçirdi. Bu iki dağın arasındakı keçid mənə Azərbaycanın uca dağları olan Savalanla Səhəndi xatırladırdı. Onların arasında çox geniş bir dərə vardı və oradan ən azı, iki diviziya hücuma keçə bilərdi. Dərənin içində Qamış, Girdərəş və Dolbeşk kimi bir neçə təpə vardı. Düşmən dərənin içində və təpələrin üstündə yerləşmişdi.

İraq hərbçilərini gözlərimizlə görəndə təəccüblənirdik ki, nə üçün düşmən düz bizim ayağımızın altında düşərgə salıb və biz onu məhv edə bilmirik. Sualın cavabı isə aydın idi: Çünki Şeyx Məhəmmədə birləşən yolda işlər bitməmişdi və oraya hətta bir DŞK aparmaq da problem idi. Oraya texnika daşımağın yeganə yolu Quru Qoşunların aviasiyası idi; o da o zaman ya yox idi, ya da çox zəif idi. Nəticədə, bizim müdafiə imkanlarımız bəzi təpələrin başında yerləşmiş taqımlarla məhdudlaşırdı. Təpələrin arasında bir qədər məsafə vardı və düşmən qüvvələri helikopterlərlə asanlıqla oraya canlı qüvvə və silah-sursat boşalda bilirdilər. Lakin bölgədə müdafiə üçün ciddi bir şey fikirləşməmişdilər. Bizim Şeyx Məhəmməddən Kürkür zirvəsinə qədər getdiyimiz 9 km.-lik yola yalnız Beytülmüqəddəs-6 əməliyyatını həyata keçirmiş İmam Həsən (ə) briqadasının şəxsi heyəti səpələnmişdi.

3400 metrlik Kulican və Şeyx Məhəmməd dağlarını arxada qoyandan sonra yerli adı Noğullar olan daha hündür təpələrə çatdıq. Təsadüfən, yuxarıdan baxanda dağların üstünə səpilmiş noğullara bənzəyirdilər. O dağlarda da bir bölük yerləşmişdi. Biz Asus dağ silsiləsi ilə üz-üzə dayanmışdıq, axırıncı Noğullar təpəsindən sonra təhlükəli bir zirvəyə çatdıq. Asusa getmək üçün oradan keçməyə məcbur idik. Kulican dağ silsiləsi onun vasitəsilə Asus dağ silsiləsinə birləşirdi və dərhal Asusun ilk və ən hündür zirvəsi olan Kürkür gəlirdi. Oranı da sağ-salamat keçdik. Əzəmətli yumruq kimi qarşımıza dikilmiş qaya ilə üz-üzə qalmışdıq. Oraya qədər böyük dağ-dərələrdən 9 km. yol gəlmişdik, amma heç kim yorulduğunu söyləmirdi. Mən də oraya çatdığıma inanmırdım.

– Axır ki çatdıq. Bu yumruqdan yuxarı çıxmaq da bir şey deyil.

Bunu Kürkürün aşağısında deyib yola düşdük. Əl-ayaqlarımızın köməyi ilə dırmaşır, bəzən də yeriyirdik.

– Ay Allah! Axı bu niyə qurtarmır?!

Kürkürə qalxmaq üçün sərf etdiyimiz enerji 9 km.-lik yola sərf etdiyimiz enerjiyə bərabər idi. O anlarda düşündüyüm yeganə şey bu idi ki, cəbhədə alpinistliyi də öyrəndik.

Yoldan hərəkətə başladığımız andan bir neçə saat sonra nəhayət, Kürkürə çatıb zirvəsində dayandıq. Qürur hissi bütün vücudumu bürümüşdü. Şərqi-İraq

dağlarının ən zirvəsində dayanmışdıq, yer və digər dağlar ayaqlarımızın altında idi. Dağ necə də gözəl idi! Dağların forması, dərələrin dərinliyi, yerdən nazik xətt kimi görünən yolların dolanbacları... Vüqarlı Qamu dağına yuxarıdan baxmaq çox zövqlü idi. Qamu Mavutun ən hündür dağı idi; qartal kimi qanadlarını açmışdı və ən hündür zirvəsi qartalın başı idi. Qamu bizim Mavuta gəldiyimiz ilk günlərdə həmişə o tərəfinə keçməyi xəyal etdiyimiz qara dağ idi. Artıq Qamunu arxada qoymuşduq və irəlidə nə qədər işimizin olduğunu görürdük. Allahın əzəmətinin və bizim möhtaclığımızın həddi-hüdudu yox idi. Yalnız bəzi imkanlar əldə edir və Onun böyüklüyünü daha çox dərk edirdik. Orada hətta bəzi buludlardan da hündür olan zirvədə dayananda nə düşmən, nə əməliyyat, nə qələbə və nə məğlubiyyət fikri o möhtəşəm hissin yerini tuta bilirdi. Bu dağlar ilahi əmanəti qəbul etməkdən imtina etmişdilər, amma...[1]

Kürkür Asus dağ silsiləsinin ilk zirvəsi idi. Asus silsiləsi kiçilə-kiçilə davam edir və təxminən 20 km. uzanandan sonra Dukan bəndinə çatırdı. Bir-birinə yapışmış o dağlar ən azı 29 km. uzunluğunda bir yol əmələ gətirmişdi. Dağ dərələrlə və kələ-kötür yollarla piyada bu qədər məsafə qət etməyi yalnız Əmirəlmöminin İmam Əlinin (ə) vəsf etdiyi iman bacara bilərdi.

Kürkürə çatana qədər axşam oldu. Gecəni orada qaldıq. Günəş bəzi yerlərin qarını əritmiş olsa da, hələ dağın böyük bir hissəsi qar və buzla örtülmüşdü və biz səhərə qədər soyuqdan titrədik. 3800 metr hündürlüyündə bir dağda və elə soyuqda çoxlu uğur böcəyi vardı. O həşəratın özünəməxsus yaşayış yeri elə soyuq dağlar idi. Mən başqa uca dağlarda da ondan görmüşdüm.

Kərim Hörməti ilə oturub kəşfiyyat proqramı haqda danışdıq. Qərara gəldik ki, ilk iş olaraq, Kürkürdə bir müşahidə postu yaradıb bütün bölgəni nəzarətdə saxlayaq. Bundan ötrü oraya sabit qüvvələr yerləşdirməli idik ki, təxminən iki ay ardıcıl orada qalsınlar. Mümkün problemlərdən əlavə, bunun özü işi çətinləşdirirdi. Çünki həmin iki ayda biz müşahidə postunə baş çəkməyə də bilərdik. Çünki yol düzələnə qədər Kürkürə gedib-gəlmək ən azı, iki gün vaxt aparırdı.

Ən hündür zirvədən günəşə tamaşa etmək çox gözəl idi. Hava işıqlanandan sonra gördük ki, bizimkilər Violan dağının sinəsindən və onunla Şeyx Məhəmməd dağı arasındakı dərədən Kürkürə yol çəkir. Yolda çoxlu işlər görülmüşdü və biz düşündük ki, növbəti dəfələrdə o yoldan istifadə edə bilərik. Bölgəni araşdırandan sonra daha orada bir işimiz qalmadı. Əşyalarımızı toplayıb iki gün öncə gəldiyimiz yolla geri qayıtdıq.

Kürkürdə müşahidə postuna üç nəfər seçdik: Firuz, Əsğər Ramazani, Seyid Kazim Şəkuri. Bir neçə yüngül durbin və sadə qida məhsulları götürüb yola düşdük. Hərəkətdən öncə bu üç nəzarətçinin yemək təminatı barədə Ramazan

[1] "Biz əmanəti (Allaha ibadəti, şəriəti) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən qorxub çəkindilər. Ona insan yükləndi". ("Əhzab", ayə 72)

qərargahı ilə lazımi danışıqları apardıq. Violandan Asusa çəkilən yolun işləri ağır gedirdi və biz yenə yolun qalanını piyada getməyə məcbur olduq. Uşaqların ilk dəfə belə dağlıq bölgədə hərəkət etdiklərini və bundan yorulduqlarını bilirdim. Yumruq şəkilli Kürkür dağına çıxanda yolda təxminən on beş dəfə oturub istirahət etməli olduq. Hər dəfə dayananda yarım saat istirahət edirdik. Beləliklə, o uca zirvənin fəthi çox ağır oldu və çoxlu vaxt aldı.

Kürkürün zirvəsinə çatdıq. Orada aypara şəkilli bir yer vardı. Müdafiə qüvvələrimiz istirahət üçün orada səngər düzəltmişdilər. Firuzla birgə baxış üçün bir yer təyin etdik. Müşahidədə əsas məqsədimiz düşmənin istehkamlarını, səngərlərini və yerləşdiyi nöqtələri öyrənmək idi.

Kürkürün zirvəsindən hər dəfə bölgəyə baxanda məni qəribə hiss bürüyürdü. Dağlarda qəribə qarışıqlıq görürdüm. Bizimkilərlə düşmənlərin bir-birinə yaxın yerləşdiklərini və aralarında xüsusi bir toqquşmanın olmadığını görəndə təəccüblənirdim. Fikirləşirdim ki, düşmənlər nə üçün bizim ayaqlarımızın altında yerləşməli, qalmalıdırlar?! Sadə bir atəşlə onları oradan qaçırmaq olar. Bunu fikirləşirdim, amma nə ağır atəş vardı, nə də yüngül atəş. Düşmənlər həyasızcasına istədikləri yerə qədər irəliləmişdilər. Xatırlayırdım ki, Beytülmüqəddəs-2 əməliyyatında biz Girdərəşi ələ keçirəndə düşmən düz Girdərəşin yamacında səngər qurub orada qaldı. Adi camaatın da qorxaq tanıdığı düşmənlər sanki cəsur insanlara çevrilmişdilər və haranısa ələ keçirməyə azacıq ehtimal verən kimi ora irəliləyirdilər.

Müşahidəçiləri yerləşdirəndən sonra qərargaha qayıtdım. Bir neçə gündən sonra kəşfiyyat bölüyündən başqa bir qrupu aparıb bölgə ilə tanış etdim və geri qaytardım. Kürkürə hər dəfə gedib-gələndən sonra dağın yorğunluğu canımızdan çıxana qədər iki gün çəkirdi. O əsnada Əmin ağa da bizi məruzə üçün Davudabadiyə çağırırdı, ya da işin gedişini qardaş Əkbər Səbziyə məruzə etmək üçün kəşfiyyat mərkəzinə gedirdik.

Hər dəfə Kürkürə gedəndə düşmən qüvvələrinin artdığını hiss edirdim, lakin hələ bizi narahat edəcək səviyyəyə çatmamışdılar.

III

Bir dəfə Asusa və Kürkürə gedəndə gördüm ki, düşmənin yola tərəf atdığı raketlər məhz bizim maşınımızı vurmaqdan ötrüdür. İraq tərəfi o yolu görmürdü. Düşünürdüm ki, bizim mövqelərimizə girmiş bir adamları vasitəsilə hədəfi təyin edirlər. Top mərmiləri maşının hər iki tərəfində partlayırdı. Bir az geciksəydik, onların biri ilə külümüz göyə sovrulardı.

Kürkürə çatmamış Ramazan qərargahının uşaqlarından bir dəstəni gördüm. Hər şey qeyri-adi görünürdü. Maşını saxlayıb soruşdum: "Qardaş, nə olub?"

– İraqlılar hücuma keçiblər.

– Haradadırlar?

Onların cavabından öncə gözüm bizdən təxminən 15 metr aralıda olan düşmən kolonuna sataşdı. Məsafə hər an azalırdı. Bu dəfə onlar böyük hücum başlamışdılar, havadan və yerdən atılan atəşlər get-gedə güclənirdi.

– Yəqin ki Asusdan da hərəkət ediblər.

Yolboyu gördüyüm güclü döyüşlərə fikir vermədən Seyid Mürtəza Zəfərançı ilə əzab-əziyyətlə Kürkürə çatdıq. Orada da uşaqlar düşmənlə vuruşurdular və məsafə 20 metrdən az idi. Bizim uşaqlarımızın ruhiyyəsinin zəiflədiyi qədər düşmənlər də cəsarət və inamla irəliləyirdilər. Biri yıxılanda o birisi onun üstündən keçib gəlirdi. Öndəkinin yorulduğunu və zəif getdiyini görəndə qayadan itələyib özləri qalxırdılar. Təxmin etdiyim və həmişə narahat olduğum hadisə baş vermişdi.

Get-gedə bölgəyə helikopterlə canlı qüvvə və silah-sursat daşınmasına başlandı. Bilirdim ki, uşaqlar o az sayla və məhdud silahla hətta sonuncu nəfərə qədər müqavimət göstərsələr də, bir neçə saatdan artıq dayana bilməzlər. Tez qayıdıb məsələni "Ya Fatimə" qərargahına xəbər vermək istəyirdim. Qayıdanda Noğullar təpəsində İmam Həsən (ə) briqadasının dağlardan endiyini gördüm. Düşmən boşalmış dağlara helikopterlə canlı qüvvə və silah daşıyırdı. Təxminən 60 helikopter səmanı doldurmuşdu. Öz gözlərimlə görürdüm ki, endirdikləri hər bir döyüşçüdən sonra DŞK, PK, yemək və digər əşyalarını da aşağı endirirdilər. Fikirləşirdim ki, belə operativliklə bir neçə saat ərzində üç-dörd diviziyadan çox tam hazırlıqlı canlı qüvvə bölgəyə dolacaq. Onların mövqe ələ keçirməyə ehtiyacları yox idi. Çünki bizim müdafiə qüvvələrimizdən on nəfəri bir təpənin başında idisə, on nəfəri də 1 km. aralıda yerləşən təpənin başında idi. Onların arasındakı məsafələr boş idi və ilk addımda hamısını ələ keçirmək asan idi.

Şəxsi heyətin çoxunda ruh düşkünlüyü yaranmışdı və cəld bölgəni tərk edirdilər. Uşaqların bu hərəkəti mənə gözlənilməz deyildi. O dönəmdə ölkənin bütün cəbhələrində düşmənin xeyrinə dəyişikliklər baş vermişdi. Xüsusən iki mühüm hadisə bütün cəbhələrdəki şəxsi heyətin ruhiyyəsinə mənfi təsir etmişdi. O iki hadisənin biri Fav və Şələmçənin düşmən tərəfindən alınması idi. Uğrunda çoxlu şəhid verdiyimiz, çoxlarının əlil olduğu Şələmçə beşbucağı yenidən düşmənin əlinə keçmişdi. Oranı geri almaqdan ötrü baş tutan Beytülmüqəddəs-7 əməliyyatının da düşmənin böyük itki verməsindən başqa bir nəticəsi olmamışdı.

Bundan əlavə, Kərbəla-1 əməliyyatında azad olunmuş Mehran şəhəri yenidən süqut etmişdi. Bundan sonra Vəlfəcr-8 əməliyyatında azad etdiyimiz bölgələrin təxminən hamısı tədricən düşmənin əlinə keçdi.

Bütün bunlar göstərirdi ki, bizim əməliyyatlarımız yetərincə qüdrətli idi, amma müdafiə vəziyyətimiz zəif idi. Aşura diviziyasının Qucar və Ulaqlıda yerləşdiyi deyilirdi, amma orada yalnız bir batalyon səviyyəsində canlı qüvvə vardı. İmam Həsən (ə) briqadası və Nəsr diviziyası da belə idi. Nəsr diviziyasının müdafiə mövqeyində mən yalnız tibb məntəqəsinin uşaqlarını

gördüm, digərləri məzuniyyətdə idilər. Komandirlərin əksəriyyəti arxa cəbhədə və ya qərargahlarda Sepahın yeni strukturunu formalaşdırmaqla məşğul idilər. Bizim müdafiə xətlərimizdəki canlı qüvvə də əməliyyatçı deyildi. Hər şeyləri – həm məzuniyyətləri, həm komandirlikləri, həm xidmətləri, həm iş və universitetləri, həm də ev və ailələri cəbhə olanların çoxu şəhid olmuşdu, qalanlar da o səmavi insanların yerini doldurmaq üçün məzlumcasına çalışırdılar.

Tər içində "Ya Fatimə" qərargahına çatdım. Oradakı qardaş bəzi sözlər eşitmişdi, amma məsələdən dəqiq xəbərdar deyildi. Vəziyyəti ona açıqlamaq istəyəndə Əmin ağa bir dəstə adamla içəri girdi. Bütün müdafiə bölgəsində gördüklərimi ona danışdım.

İraqlılar çəyirtkə kimi göydən Violan, Kürkür, Şeyx Məhəmməd və digər dağlara tökülüşürdülər. Uşaqlarda onlara qarşı müqavimət imkanı və ruhiyyəsi yox idi. Cəld əks-hücum proqramı hazırlandı, amma 14 km.-dən böyük bir ərazidə yeganə hazırlıqlı qüvvələrimiz Aşura korpusunun ikinci briqadasının Həbib batalyonu, habelə Əmirəlmöminin (ə) və Əbəlfəzl batalyonları idilər və Ulaqlıdan Qucara qədər mövqelərdə müdafiə olunurdular.

Zəncan briqadasından da iki hazır batalyon vardı. Onlar Qamuda əməliyyat hazırlayırdılar ki, ən azı, düşmən oradan Seyyidüş-şühəda körpüsünə tərəf irəliləyə bilməsin. Çünki bu zaman bölgədə olan bütün texnika və imkanlar düşmənin əlinə keçərdi. Lakin sonda düşmənin vəziyyətinə əsasən, qüvvələrimizin geri çəkilməsi qərarı qəbul olundu və tapşırıq ləğv edildi.

Həmin gün düşərgədə çətinliklə bir bölük toplayıb yuxarı göndərə bildik. Qucarla Şeyx Məhəmməd dağlarının arasında Peykani adlı bir yüksəklik vardı və düşmən hələ oraya girə bilməmişdi. Komandirlər fikirləşirdilər ki, bu bölük oradan irəliləyib düşmənin hücumunun qarşısını alsın, amma bu da bəhrə vermədi.

Düşmənin bir neçə istiqamətdən geniş hücumu davam edirdi. Get-gedə axşam düşür və bölgə qaranlığa qərq olurdu. Bu zaman Qucar dağının da düşmənin əlinə keçməsi xəbərini eşitdik. Deyirdilər ki, ən qızğın döyüş Ulaqlı ilə Qucarın arasındakı istehkamda baş verir. Əmin ağa məni çağırdı və komandirlərlə bir qədər danışandan sonra tapşırdı ki, Qucar və Ulaqlıda müdafiə olunan Əbəlfəzl və Əmirəlmöminin (ə) batalyonlarını oradan endirim və Qamışlıqda yerləşsinlər, bundan sonra isə birinci briqadanın batalyonlarından biri Girdərəşə qalxsın. Bu planla bizim müdafiə bölgəmiz kiçilirdi və nəticədə, həm müdafiə işi, həm də lazım olduqda bölgəni boşaltmaq asanlaşırdı. Silah və texnikaların daşınması işinə isə artıq başlanmışdı.

Səhər tezdən Əmin ağanın planına uyğun olaraq, Qucar və Ulaqlı istiqamətlərinin komandiri qardaş Teyyub Xeyrullahinin yanına getdim. Yolda bölgəni tərk edən şəxsi heyətlə rastlaşırdım; onların əksəri ruh düşkünlüyü yaşayırdılar. Hamı narahat idi və hətta danışmağa halları da yox idi. Qardaş

Xeyrullahini tapdım və komandirlərin Qamışa geri çəkilmə qərarını söyləyəndən sonra Qüds diviziyasına tərəf yollandım. Qüds diviziyası Qələminin önündə müdafiə olunurdu. Əmin ağanın əmrinə əsasən, onlar Qamışa çıxmalı idilər.

Maşın yolda sürətlə gedir, düşmən də bizi Qucardan güclü atəşə tuturdu. Hər saniyədə bir güllənin maşına dəydiyini hiss edirdim, amma Allahın köməyi ilə o qədər mərmi və güllənin altında Ulaqlıya salamat çatdıq. Ora çatanda partladıcı bölüyün uşaqlarından bir qrupu gördüm və dərhal beynimə bir fikir gəldi. Qardaş Xeyrullahi ilə məsləhətləşəndən sonra qərara gəldik ki, onları Qamışla Qucarın arasındakı boğaza yerləşdirək və bizim uşaqlarımız Ulaqlıdan enib boğazdan Qamışa gedəndə düşmən onları təqib edərsə, düşməni dayandırsınlar. Əgər Qüds diviziyasının qüvvələri Balisadan Himmətə qədər, Əmirəlmöminin (ə) və Əbəlfəzl batalyonları da Himmətdən Üruca və İmana qədər müdafiə edə bilsəydilər, biz vaxt qazanıb texnikalarımızı bölgədən çıxara bilərdik. Lakin mən bu mesajı çatdıra bilmədim, batalyonlar bizdən öncə mövqeyi tərk etmişdilər.

Qüds diviziyasının istiqamət komandirinə vəziyyəti başa salanda onların son qüvvələri bölgəni tərk etməkdə idilər. Onlar deyirdilər ki, Aşura diviziyası bizim arxamızdan geri çəkilib bizi dəstəksiz qoymuşdur. Beləliklə, bu səy də nəticəsiz qaldı. Yenidən düşmənin atəşi altında geri qayıdıb məsələni qardaş Əmin Şəriətiyə bildirdim.

Günortadan sonra təxminən saat üçdə Şəhid Davudi qərargahından Əmin ağanı ratsiyaya çağırdılar. Öyrəndik ki, qardaş Möhsün Rzayi Davudabadidədir və Əmin ağanın oraya getməsini istəyir.

Əmin ağa gedəndən sonra beşinci korpusun əməliyyat bölməsinin komandiri Hacı Dadaş Hüseyni, korpusun qərargah rəisi qardaş Gürci, əməliyyat bölməsinin qüvvələrindən olan Məhəmməd Təcəllayi və Kərim Əzimi, Kərim Hörməti, mən, öz kəşfiyyat bölüyümüzdən iki komanda və qərargah qüvvələrindən iki-üç nəfər səhərə qədər "Ya Fatimə" qərargahında qaldıq. Qərargahın ətrafına göz gəzdirəndə bildim ki, bölgədə qalmış yeganə adamlar bizik. Qərargahın yaxınlığındakı tibb məntəqəsi və bir qədər irəlidə Hərmədanda olan nəqliyyat bölməsi boşaldılmışdı. Düşmən dağlarda və bizim bir neçə addımlığımızda idi. Qarşıda bizi qorxulu gecə gözləyirdi.

Hər kəsin öz həqiqi cəsarətini göstərdiyi saatlar idi. Oradakı bəzi adamlar elə psixi təzyiq altında idilər ki, vəziyyətləri bizim zarafatlarımızla da düzəlmirdi. Xüsusi diviziyanın komandiri Sadiq Məhsuli səhərə qədər narahatlıqdan bir neçə dəfə huşunu itirdi. Səhərə yaxın Mehdi Bədirquluzadənin də səbir kasası daşdı: "Mən burada neyləyirəm?! Nə üçün qalmışam?! Axı bura bizim qərargahımızın əməliyyat bölgəsi deyil..."

Səhər açılan kimi həm ağa Məhsulini geriyə apardılar, həm də oranı öz cəbhəsi bilməyənləri. Bu arada bizim zarafatımız da xüsusi şəkil almışdı.

Kərim Hörməti deyirdi: "Əgər məni tutsalar, deyəcəyəm ki, komandirim Gürcidir".

Cənab Gürci isə deyirdi: "Problem yoxdur, mən də deyərəm ki, dadaşdan əmr alıram".

Özümüzün və digər uşaqların ruh yüksəkliyini qorumaqdan ötrü etdiyimiz bütün bu zarafatlara rəğmən, uşaqlarda bu fikir yaranmışdı ki, hər an düşmənlər gələ bilərlər. Ürəyimdə deyirdim ki, cənubun istisində və dağların soyuğunda 8 il vuruşduq ki, indi bir gecənin içində düşmənə əsir düşək?!

– Səs gəlir... Ayaq səsidir... Gəldilər.

Doğru deyirdilər, ayaq səsi gəlirdi, amma hələ kimin və ya nəyin ayağının səsi olduğu bilinmirdi. Bayıra çıxdım. Qərargahın yaxınlığındakı dərəyə diqqətlə baxanda rahatca oyan-buyana gedən iki-üç qatırı gördüm. Yenidən uşaqların bir qismini qərargahın ətrafında keşikçi təyin etdik ki, düşmən tərəfdən hərəkət olsa, reaksiya verə bilək. Səhərə qədər nə ratsiyadan səs çıxdı, nə də yuxu gəldi.

Səhərə yaxın ratsiya səsləndi və hamıya qərargahı boşaldıb geri çəkilmək əmri verildi. Lakin geri çəkilməzdən öncə əməliyyat və ya kəşfiyyat uşaqlarından bir qismi bir daha Qamışla Qucarın arasındakı boğaza gedib vəziyyəti öyrənməli idilər. Qardaş Hacı Dadaş Hüseyni əvvəlcə Kərim Əzimi ilə Məhəmməd Təcəllayiyə dedi, amma onlar qəbul etmədilər. Qərara gəldik ki, yenə kəşfiyyat uşaqları bu işi görsünlər. Amanullah Amani, Kərim Ahənc və mən toyotaya minib yola düşdük.

Düşmən Qucarın yuxarısından enmiş, Ulaqlı istiqamətindən də boğaza yaxınlaşmışdı. Düşmən bizi görsə də, bütün bölgə bizim qüvvələrimizdən təmizləndiyinə görə maşınımızın öz maşınları olduğunu güman edib atəş açmadılar və biz asanlıqla boğaza çatdıq.

Boğaz bomboş idi. Yolda raket, top, minikatyuşa, DŞK, buldozer və digər silah və texnikalar qalmışdı və bu, bizi çox narahat edirdi. Fikirləşirdik ki, bunların hər birindən ötrü nə qədər beytülmal xərclənib, indi isə bir günün içində hamısı düşmənin əlinə keçəcək.

Başqa yolumuz yox idi. Hətta onları məhv etməyə də imkan yox idi. Qayıtdıq, amma "Ya Fatimə" qərargahı da boşalmışdı və biz dayanmadan yolumuza davam etdik. Nəqliyyat bölməsinə çatmazdan öncə uzaqdan orada tüstü və alov gördük. Orada bir neçə xarab maşın qalmışdı. Yaxınlaşanda bildik ki, İraqın PC7 təyyarələri oranı bombalamışdır.

Düşmənin oraya qədər irəliləməsi fikri beynimizə düşdü, dayanmadan yanan maşınların arasından keçdik. Ara-sıra maşınların benzin baklarının və silahların partlayış səsindən başqa heç bir səs yox idi. Üçümüzün düşmənin mühasirəsində qalan yeganə varlıqlar olduğumuzu hiss etməmiz çətin, eyni zamanda fərəhli idi. Ratsiya ilə əlaqə saxlayıb vəzifəmizi soruşduq. Dedilər ki, Girdərəşə qalxın. Hərmədan düzündən Girdərəşə gedən yolla irəlilədik.

Girdərəşə çatanda diqqətimi cəlb edən ilk şey Hacı Dadaş Hüseyninin qurduğu çadır oldu.

– Bu alovun içində hansı məntiqlə çadır qurmusan?

Əməliyyat qərargahı orada Girdərəşin üstündə mərkəzləşmişdi. Biz də vaxt itirmədən öyrəndiyimiz məlumatları məruzə etdik və gəldiyimiz toyota ilə Davudabadiyə yola düşdük.

***

Şəhid Davudabadi qarnizonunda olanda Seyid Fatimi də gəldi. Deyəsən, Həbib batalyonu hücuma keçəcəkdi və ağa Seyid də bu məqsədlə çağırılmış iclasda iştirak etmək üçün oraya gəlmişdi. Həmin günlərdə Seyid Fatimi ikinci briqadanı yeni təhvil almışdı. İkinci briqadada işləməyi çox istəyirdim. Seyid Fatimiyə israr etdim ki, bu barədə Kərim Hörməti ilə danışsın.

– Kərim ağa, Mehdiqulunu bizim briqadaya ver.

Hələ Kərim ağa cavab verməmiş çevikliyi ilə çox gənclərə oxşayan yaşlı bir kişi içəri girib soruşdu: "Şəriəti hanı? Komandiriniz haradadır?"

Onun kim olduğunu, haradan və nə üçün gəldiyini bilmirdik, ancaq tələsirdi. Əmin ağanı göstərdik və ona yaxınlaşdı. Uzaqdan onlara baxırdıq. Bir neçə dəqiqədən sonra Əmin ağa dedi: "Ağa Mehdi, buraya gəl".

– Bu qardaş Əmirəlmöminin (ə) batalyonundandır. Onlar Qamışa çıxıb orada azıblar. İndi həm düşmənin atəşi altındadırlar, həm də özümüzünkülərin. Gör nə edə bilərsən.

Onlar yollarını azmışdılar, həmin qoca da onlardan ayrılıb bizi tapmağa və kömək istəməyə gəlmişdi. Yaşı şübhəsiz, 50-dən çox olan kişiyə üzümü tutub soruşdum: "Hacı əmi, səni oraya aparsam, mənə uşaqların dəqiq yerini göstərə bilərsən?"

– Taparam.

Qətiyyətli və inamlı idi. Bilmirəm təkbaşına özünü oraya necə çatdırmışdı. Lakin təkbaşına və yolu tanımadan gələ bilmişdisə, bizi Qamışdakı uşaqlara da mütləq çatdırardı.

Məhəmməd Purnəcəf, Məhəmmədəli İqlimi, Nasir Rzapur və mən o igid qoca ilə yola düşdük. Sözlərindən anladım ki, Qamışa çatanda komandirləri olmadığına və heç bir yerlə əlaqə saxlaya bilmədiklərinə görə orada müdafiə mövqeyi seçmək yerinə ətrafa səpələnmişdilər. Lakin həm düşmənin, həm də özümüzünkülərin atəşləri altında olduqlarına görə Qamış dağının qaya hissəsinə sığınmışdılar. Onun dediyi yer Qalaçulan çayından 100-200 metr yuxarıda idi. Onlar qayadan keçməyin imkansız olduğunu görmüşdülər, hətta uşaqların biri oradan yıxılıb şəhadətə qovuşmuşdu. Bunları qocanın sözlərindən anladım, amma özü oradan necə enib bizi tapdığı barədə bir söz demirdi.

Jajilə və Mavutdan keçib maşını Balusədə saxladıq. Fikirləşdim ki, Qalaçulan çayının üstündə bağladığımız qədim taxta körpü bəlkə də durur. O körpüdən keçsəydik, uşaqları asanlıqla tapardıq. Qalaçulandan keçəndən sonra

hər şey həll olurdu. Lakin necə keçəydik?! Birdən taxta körpünün aşağısından çəkdiyimiz kanat yadıma düşdü. Qayalardan enə-enə dua edirdim ki, altı-yeddi aydan sonra o kanat salamat qalmış olsun. Bağladığımız nərdivandan bəzi əlamətlər gözə dəyirdi. Uçmuş körpünü görəndən sonra ürəyim üzüldü, lakin kanatı külək yellədirdi. Ürəyim rahatlaşdı. Möhkəm dartdım. İlk gündəki kimi bərk və etibarlı idi. Keçmək vaxtı idi, amma bu dəfə nə kabinə vardı, nə də ehtiyat üçün istifadə etdiyimiz ip. Uşaqlara kanatdan istifadə qaydasını öyrətmək üçün əvvəlcə özüm hazırlaşdım. Əşyalarımı möhkəm bağladım və iki əlimi kanata keçirdim. Göydən asıla qaldım, əllərimi sürüşdürüb irəliləyirdim. Yaralanandan sonra daha bükülməyən sol ayağım göydə düz qalıb yellənir, hərəkətimi çətinləşdirirdi. Hər halda, heç bir hadisə baş vermədən o tərəfə keçdim və digərlərinin gəlməsini gözlədim.

Adını da bilmədiyim o kişi çox gözümü tutmuşdu. İki gün sərgərdanlıqdan, ac-susuzluqdan sonra da hərəkətlərində məyusluq və yorğunluq yox idi. Hamımız çayı keçəndən sonra o kişiyə dedim: "Hacı əmi, bundan sonrasını gərək sən aparasan".

Qətiyyətlə yola düşdü. Çiyin-çiyinə gedirdik. Oraya qədər çiynindən üç tüfəng asmışdı. Yolda gördüyü hər bir silahı əyilib götürür və dodaqaltı nəsə mızıldanırdı. Çox istəyirdim ki, sözlərini ucadan desin, mən də eşidim. Bir də əyilib yerdəki əleyhqazı götürəndə dözə bilmədim.

– Hacı, daha onu götürmə, qoy yükün yüngül olsun və tez çataq.

– Yerə atım?! Bu əleyhqazın qiyməti 60 min tümməndir, beytülmaldır, sən deyirsən ki, qoyum yerdə qalsın?! Bu necə ola bilər?!

Onun beytülmala qarşı məsuliyyət hissi hamımızı utandırdı. Əşyaları elə toplayırdı ki, sanki öz şəxsi mülkü idi. Özü də hər saniyə partlayış yeri titrədirdi, bölgə hər iki tərəfin atəşi altında idi. Sözümə utanıb dediyi istiqamətə tərəf getdim. Onun dediyi yer qayanın yanı idi. Qamışı tanıyan hər kəs oranı tanıyırdı. Beytülmüqəddəs-2 əməliyyatında keçidə çatmazdan öncə getdiyimiz yolla gedirdik. Qayaya çatmamış bir səs eşitdim. Səs yaxından idi və aşağıdan gəldiyini düşünürdüm. Yolumuzu döndərdik və bir neçə qayadan enəndən sonra Əmirəlmöminin (ə) batalyonunun uşaqlarını tapdıq. Onlar o ana qədər çayı keçmək üçün əllərindən gələni etmiş, amma bacarmamışdılar. O qədər başlarını itirmişdilər ki, çayın o tərəfinin kimin əlində olduğunu bilmirdilər. Təxminən 50 nəfər idilər, ac-susuzluqdan və başlarına yağan amansız atəşlərdən çox məyus olmuşdular. Bizə deyirdilər ki, siz xilas mələklərisiniz.

Üstümüzdəki peçenyelər, balıq konservi və su əlbəəl gəzdi, itirdikləri enerjini cüzi də olsa, bərpa edəndən sonra yola düşdük.

Beynimdə Qasim batalyonunu keçirmək üçün düzəltdiyimiz körpünün dəqiq yerini axtarmağa başladım. Körpü uçmuş olsaydı belə, çaydan keçə bilərdik. Çünki yay idi və suyun səviyyəsi azalmışdı. Şəxsi heyəti körpüyə

tərəf apardım. Uzaqdan görünən körpü uşaqları vəcdə gətirmişdi. Bilirdilər ki, o körpüdən keçib sərgərdanlıqdan və əsirlik qorxusundan xilas olacaqlar.

Asanlıqla körpüdən keçib maşını saxladığımız yerə getdik. Orada ratsiya ilə Davudi qərargahı ilə əlaqə saxladıq. Bir neçə dəqiqədən sonra bir hərbi maşın göndərdilər. Uşaqların bir qismi ona, bir qismi də toyotaya mindi və yola düşdük.

***

Düşmənin güclü atəşi yenidən başlanmışdı və o, mərhələ-mərhələ irəliləyirdi; əvvəlcə Qucar və Ulaqlı, sonra Girdərəş, sonra Qamış...

Davudabadiyə çatanda düşmənlərin yaşıl təpəyə qalxdıqlarını söylədilər. Əmin ağa dedi: "Mənim dəqiq məlumatım yoxdur. Gedin, görün düşmən haraya qədər gəlib".

Bu dəfə Kərim Ahənclə yola düşdük. Düşmən atəşinin mərkəzləşdiyi Girdərəşə gedirdik. Geniş Girdərəş zirvəsi tüstü ilə dolmuşdu, partlayışlar hən an artırdı. Zirvəyə gedən dairəvi yolla qalxdıq. Daha maşın irəliləyə bilmirdi. Girdərəş cəhənnəmə dönmüşdü. Maşından endik. Canlı qüvvə müxtəlif yerlərə səpələnmişdi. Girdərəş at nalı kimi idi, Violan və Qucara tərəf gedən hissəsi Qalaçulana gedən hissədən uzun idi. Qalaçulana gedən aypara şəkilli ərazinin kiçik bir hissəsini ərdəbilli uşaqlar müdafiə edirdilər. Digər hissədə Qəzvin briqadası vuruşurdu. Sonunda isə Ramazan qərargahının qüvvələri və İmam Həsən (ə) briqadası zirvəni müdafiə edirdi.

Dağ titrəyirdi. İraq tərəfinin hücum taktikası belə idi: əvvəlcə ağır artilleriya ilə atəş açırdı, sonra şəxsi heyəti gedirdi. Düşmən təpə-təpə irəliləyirdi. Onun hərəkətinin necəliyini dəqiqləşdirməkdən ötrü təpələrin birinə qalxdım. Kərim yanımda idi. Baxdığım yerdə birdən başıma möhkəm bir zərbə dəydi və qəribə səs çıxardı. Səsi Kərim də eşitdi.

- Başına nə oldu?

Əlimi başıma çəkdim. Qan yox idi. Bildim ki, havaya tullanan soyuq qəlpələrdən biri başıma dəyib. Elə bu hadisəni də məruzə etdim ki, komandirlər bölgənin durumunu daha yaxşı anlayıb ciddi tədbirlər görsünlər. Bölgədəki dəyişiklikləri və düşmənin dayanmadan irəliləməsini məruzə edəndən sonra qərargaha qayıtdıq.

***

Günorta saat üçdə Həbib batalyonunun yola düşdüyünü və tezliklə düşərgəyə çatacağını söylədilər. Qərar belə idi ki, biz Aşura diviziyası tərəfindən uşaqları yuxarı qaldıraq. Hərmədanın müdafiəsini Xüsusi diviziyaya tapşırmışdılar, İmandan Üruca qədər ərazini isə Həbib batalyonunun üçüncü bölüyü qorumalı idi. Həbib batalyonunun digər bir bölüyü də İmandan yuxarıda mövqe seçməli idi. Ürucdan Himmətə qədər ərazidə Əbəlfəzl diviziyasının qüvvələri yerləşirdilər. Beləliklə, bölgədə bir müdafiə xətti təşkil olunurdu.

Axşama yaxın özüboşaldan maşınlar Həbib batalyonunu Qamışa aparmağa hazır idi. Bütün şəxsi heyətin hərəkətindən öncə Həbib batalyonunun komandiri qardaş Mütləqi və Fərəc Quluzadəni yuxarı apardım. İmana çatanda bölgənin vəziyyətini izah etdim, Qamışın arxasındakı yolu göstərib dedim ki, oraya çox diqqət yetirin. Onların müdafiə mövqelərini göstərəndən sonra qayıtdıq. Həzrət Əbəlfəzl diviziyası və Xüsusi diviziyanın şəxsi heyəti ilə də eyni işi gördük, bütün bölgəni, xüsusən də tapşırıqlarına aid ərazini hər birinə izah edib qayıtdıq.

Həbib batalyonunun uşaqları maşınlara minirdilər. Yolboyu o tərəf-bu tərəfə qaçıb qışqırırdım: "Cəld olun! Gecdir... Tələsin!" Bəzilərinin yubandıqlarını və ya laqeydliklərini görəndə hirslənirdim. O anlarda bir nəfər kürəyimə bir zərbə vurdu. Özümdən çıxmaq üzrə idim. Ona sarı döndüm. Başında dəmir dəbilqə vardı və gülürdü.

- Sənsən, İbrahim?!

İbrahim Əlinejadı görməyimə çox sevindim. Görüşüb-öpüşdük və dərhal sağollaşıb maşına mindi. Uşaqlar yola düşdülər. Bütün o müddətdə səhərdən Qamışa və Girdərəşə yağan atəşlər bir an da səngiməmişdi. Xüsusən Girdərəş səhər tezdən tüstü və alovun içində idi. Mən də gecikmədən maşına mindim və Xüsusi diviziyanın şəxsi heyətinin yerləşəcəyi yerə doğru yola düşdük. Birləşmələrin hər birinin onlara tapşırılan yerdə yerləşdiklərinə əmin olmaq istəyirdim.

Xüsusi diviziyanın müdafiə mövqeyinə çatdım, amma orada heç kəs yox idi. Əbəlfəzl diviziyasının mövqeyinə getdim. Onlar öncədən demişdilər ki, biz üç batalyonla gedib oraya yerləşəcəyik, amma heç bir bölük də gətirməmişdilər. Həbib batalyonundan xəbərim yox idi, yola düşəndən sonra öz yerlərinə çatıb-çatmadıqlarını bilmirdim. Əgər Hərmədanda canlı qüvvəmiz yerləşməsəydi, Qamışda yerləşməsinin heç bir dəyəri yox idi. Çünki düşmən Hərmədan təpəsindən gəlib İmam Rza (ə) və İmam Əli (ə) körpülərini bağlayacaq, Qamışdakı uşaqlar o tərəfdə qalacaqdılar.

Həmin anlarda yavaş-yavaş Qəzvin briqadasının da Girdərəşdən geri çəkildiyini hiss etdim. İndi növbə Ərdəbilin Həzrət Abbas briqadasına çatmışdı. Düşmən qüvvələri hələ də irəliləyirdilər və mən bütün bunları ratsiya ilə məruzə edirdim.

Nəhayət, qərargaha qayıtdım. Bir neçə sutka idi iş və istirahət vaxtı bilinmirdi. Hər dəfə qərargaha qayıdanda səngərdə istirahət edirdik. Bilirdik ki, tezliklə bizi çağıracaqlar.

***

Bir sutka ora-bura qaçandan sonra səngərdə yatmışdım. Gecə təxminən saat ikidə yuxudan oyatdılar. Əmr belə idi: "Gedin, bölgədən bizə məlumat verin, durum qeyri-müəyyəndir".

Məhəmməd Purnəcəfə, Məhəmmədəli İqlimiyə və Amanullah Amaniyə dedim ki, bir maşın götürüb gəlin. Birlikdə Qamışa getdik. Onları Əbəlfəzl

diviziyasının mövqeyinə göndərdim, özüm Həbib batalyonunun mövqeyinə yollandım. Uşaqların yanına çatanda səhər açılmışdı. Oradan qərargahla əlaqə saxladım. Əmin ağaya məruzə etmək istəyirdim, amma o, çox hirsli idi: "İndiyə qədər harada idiniz?"

– Yolda. Gəlib buraya çatana qədər çox çəkdi.

Lakin Əmin ağa düşündüyümdən də çox hirslənmişdi. Elə oldu ki, axırda ratsiyanı bağladım və cavab vermədim. Lakin dayanmadan ratsiya ilə məni səsləyirdilər: "Mehdiqulu... Mehdiqulu..."

Mən cavab vermirdim. Digər uşaqlar da cavab vermədiklərinə görə əlaqə birtərəfli idi. Nəhayət, ratsiyanı açdım: "Bəli, Əmin ağa, mənəm, Mehdiqulu".

Qəribə vəziyyətdə imişlər. Bir neçə saatdan sonra onlara cavab verən yeganə şəxs idim və bu müddətdə pis bir hadisə baş verdiyini fikirləşmişdilər; məsələn, düşmən gəlib və hamımızı əsir tutub. Tələsik mənim məruzəmi gözləyirdilər. Bölgənin vəziyyətini məruzə edəndən sonra Qamışın yamacındakı Şətik kəndinin yeməkxanasına endim. Ağa Sövdagər də orada idi. Orada oturub Amanullah Amani, İqlimi və Purnəcəfin gəlişini gözlədim.

Hava tam işıqlanmışdı və biz uzun illərdən sonra ilk dəfə idi yeməkxanada səhər yeməyi yeyirdik. Süfrədə hər şey hazır idi. Yemək vaxtı Məhəmməd Purnəcəf və digərləri də gəldilər. Vəziyyətlərini görəndə məni gülmək tutdu. Mən gülürdüm, Məhəmməd isə daha çox hirslənirdi.

– Daha nə üçün gülürsən?! Bizi oraya göndərdin, özünsə burada oturub yeyirsən?!

– Axı nə olub, bu nə sir-sifətdir?

– Nə olub?! Heç nə... Yalnız sizin icazənizlə əsir düşmüşdük!

Əhvalat şirinləşdi. Məhəmməd elə danışırdı ki, sanki gedib dostlarımı əsir tutmaq istəyənləri cəzalandırmağımı gözləyirdi. Macəranı soruşanda öyrəndim ki, onlar çox irəliləyib Həzrət Əbəlfəzl briqadasının uşaqlarının müdafiə mövqeyini keçmiş, iraqlılarla üzləşəndə isə qayıtmağa məcbur olmuşlar. Qayıdanda Əbəlfəzl briqadasının uşaqları onların iraqlı olduğunu, arxalarınca da düşmənlərin gəldiyini düşünüb onları əsir tutmuş və hətta onlarla kobud rəftar etmişdilər. Uşaqlar deyirdilər: "Tərpənən kimi kalaşnikovun darağını ətrafımıza boşaldırdılar". Hətta iş o yerə çatmışdı ki, ciblərini də axtarmışdılar. Təsadüfən, Məhəmməd Purnəcəfin cibindən "Şəhid Əbülqasim komandası" yazılmış bir kağız tapmışdılar.[1] Məhəmməd danışırdı ki, kağızı cibimdən çıxaranda sanki mənim düşmən olduğuma dair mühüm sənəd tapmışdılar. Ona belə deyiblər: "Kimi aldadırsan?! Sən iraqlısan və götürüb Şəhid Əbülqasim yazırsan?!" Bu əsarət zamanı Amanullah da xəsarət almışdı. Deyəsən, Əbəlfəzl briqadasının uşaqlarından biri ona şillə vurmuşdu. Öncədən onun ağzına güllə dəymişdi, çənəsi və ağzı bir neçə dəfə əməliyyat olunmuşdu və

[1] Bu kağızları uşaqları komandalara bölməndə yazmış və hər komandaya bölüyümüzün bir şəhidinin adını vermişdim.

cəbhənin əlil döyüşçülərindən idi. Ona demişdi ki, vurma, çənəm protezdir. O da qayıdıb deyib ki, bunda həyasızlığa bax, yaralanıb, amma yenə müharibəyə gəlib, gəlin bunları burada öldürək. Qısası, məsələ böyümüşdü. Onların hər üçünün üzdən və boy-buxundan iraqlılara oxşaması bir müddət ümidlərini üzmüşdü. Nəhayət, batalyonun komandiri ağa Nuri əsirlərin yanına gedib Məhəmmədi tanımışdı. Çünki Nuri də Qamışda itən uşaqların arasında idi və biz iki gündən sonra onları tapmışdıq. O, əhvalatı danışmış, Purnəcəfi göstərib demişdi ki, bu qardaş məni və batalyonun digər uşaqlarını Qamışda xilas edənlərdən biridir. Beləliklə, uşaqlar azad edilmişdilər.

Ağa Sövdagərlə mən azad edilmiş üç dostumuzu maşına mindirib Davudabadiyə yola düşdük. İmam Rza (ə) körpüsündən keçəndə maşının arxasında oturmuş Məhəmməd Purnəcəf və Məhəmmədəli İqlimi yenidən əsirlərin ədasını çıxarıb deyirdilər: "Əl-Dəxil əl-Xomeyni... əl-Movt li Səddam..." Deyəsən, bir neçə saatlıq əsirlik həyatı çox xoşlarına gəlmişdi.

***

Davudabadiyə çatıb uşaqları orada qoyduq. Orada ratsiya ilə düşmənin Qamışa hücumlarını gücləndirdiyini eşitdik. Günorta isə Həzrət Abbas briqadasının mövqelərinə atəşlərin artdığını söylədilər. Bu briqada Girdərəşdə idi. Mən saatlarla düşmənin raketləri altında olan və artıq hücumun gücləndiyi Girdərəşdə hansı qiyamətin qopduğunu təsəvvür edə bilmirdim. Əmin ağa yenidən mənə Hərmədandan məlumat toplamağı tapşırdı. Orada partladıcı bölüyün uşaqlarına da tapşırdı ki, İmam Əli (ə) körpüsünü partlatmağa hazırlaşsınlar. Uşaqlar dağdan enib körpüdən keçən kimi körpü partladılmalı idi. Kərim Ahənclə birgə yola düşdük, yolumuz nəqliyyat bölməsinə tərəf idi.

O yolu gecə və gündüz dəfələrlə getmiş olsam da, heç biri sonuncu dəfəki qədər qorxulu deyildi. Hər an hər bir təpənin, qayanın arxasından düşmənlərin çıxma ehtimalı vardı. Ehtimal vardı ki, biz irəliləyək və birdən düşmənin mühasirəsinə düşək. Ehtimal vardı ki, oyan-buyana axışan güllələrin biri bizə dəysin...

Nəqliyyat bölməsinin yerinə qədər bu fikirlə, yalnız Allah zikri, "la hovlə və la quvvətə illa billah" zikri ilə getdik, ondan o tərəfə isə gedə bilmədik. Düşmənlərin Qamışla Qucarın arasındakı yolda get-gəl etdiyini duyur, maşınlarının səsini aydın eşidirdim. Ondan irəli getmək ağıldan deyildi, çünki biz məlumat öyrənməyə gəlmişdik və bölgənin son vəziyyətini komandirlərimizə çatdırmalı idik.

Oradan Girdərəşə qayıtdıq. Orada qəribə səhnələr gördüm. Girdərəşdə qiyamət qopmuşdu. Şəhidlərimizin cəsədləri yerdə qalmışdı. Bəzən atılan raketlər pak cəsədləri parça-parça edirdi. Şəhid cənazələrini toplayıb aparmağa heç kimin imkanı yox idi. Girdərəşə və Qamışa atılan atəşlərin həcmi o zamana qədər müharibənin nadir hadisələrindən idi. Hər saniyədə yerə onlarla mərmi və ya raket düşürdü. Səs qulaq batırırdı, qışqıra-qışqıra danışırdıq. Həm də o cəhənnəmdə hansı söz kimə təsir edərdi ki?! Salamat qalanlar o

mərəkədən qurtulmağa çalışırdılar. Arxadan dəstəyin gəlməsinə ümid bağlamaq yersiz idi, çünki arxadakı bölgələr də güclü bombardmana məruz qalırdı. Orada müxtəlif sınaqlarda inanc və ruhiyyənin böyük təsirini görürdüm. Harada təcrübəli döyüşçülər vardısa, müqavimət davam edirdi. Onlar hətta son adamlarına qədər dayanıb vuruşurdular. Lakin əksəri yeni cəbhəyə gəlmiş digər qüvvələr bəlkə də müharibənin yalnız qələbədən ibarət olduğunu düşünür, düşmənin güclü atəşini görüb başlarını aşağı salır və bölgəni tərk edirdilər. Kərimlə birgə Qəzvin briqadasının və birinci briqadanın mövqeyinə getdim. Əsl təqib və geriçəkilmə başlanmışdı. Bölgədə çoxlu toyota vardı. Uşaqlar maşınlarla geri çəkilirdilər. Cənazələri toyotalarla aparmaq daha rahat olsa da, onlarda bu işə fürsət və ruhiyyə yox idi. Damarlarımda qan qaynayırdı. Maşından enib yuxarı qalxırdım. Qəhər, kədər və qəzəb içində boğulurdum. Uşaqlar maşınla şəhidlərin üstündən keçirdilər...

– Ən azı, bu cənazələri götürün...

Səsim tutulmuşdu və heç kim bu sözləri eşitmirdi. Qeyri-müəyyən cavablar eşidirdim.

"İlahi, qiyamətdə necə olacaq?! Bura sənin məhşərinə kiçik bir nümunədir..." Daxilimdə tufan idi və ürəyim çox sıxılırdı. Uşaqlar bölgəni boşaldırdılar, düşmənsə yuxarı qalxırdı. Başımıza atəş yağırdı. Qayıdıb vəziyyəti bildirməli idim. Maşın dolanbac yolda sürətlə və sürüşə-sürüşə enirdi. Düşərgəyə çatanda Həbib batalyonunun da geri çəkilməkdə olduğunu eşitdim.

Qərargahın iclasında qərara gəlmişdilər ki, geri çəkilməyə məcburuqsa, bunu düşünülmüş şəkildə edək. O vaxta qədər hamı Qalaçulan çayının o tərəfindəki bölgə və dağlardan əlini üzmüşdü. Lakin düşmən haradasa durdurulmalı idi və bunun üçün ağıllı bir tədbir lazımlı idi. Buna əsasən, geri çəkilmək üçün şərait və mərhələlər təyin olundu.

Geriçəkilmə üç mərhələdə baş tutacaqdı: Birinci mərhələdə Jajiləyə və polis zastavasının önündəki dağlara çəkiləcək, ikinci mərhələdə Şəhid Davudi qarnizonunun yerləşdiyi yüksəkliklərdə müdafiə mövqeyi seçəcəkdik. Bu iki mərhələnin arasında texnika və imkanları ikinci müdafiə xəttinə daşımaq fürsəti əldə edirdik. Üçüncü mərhələdə isə bütün canlı qüvvə və texnika Kagir dağındakı suyun o tərəfinə aparılacaqdı. Orada artıq nəyin bahasına olursa-olsun, düşmən durdurulmalı idi. Qərara əsasən, Həbib batalyonu birinci və üçüncü mərhələlərdə işləməli idi. Həbib batalyonunun Jajilədə olduğunu orada eşitdim. Təklif etdim ki, polis zastavası ilə üzbəüz təpələrdə də canlı qüvvə yerləşdirilsin, çünki oradan İmam Rza (ə) körpüsünə nəzarət imkanı vardı.

– Heç olmasa, oraya bir bölük və ya iki taqım aparaq. Bunu ağa Sövdagərə dedim, o da qəbul etdi. Qərara aldı ki, ikinci bölükdən Mehdi Məhəmmədinin taqımı ora getsin, Məhəmməd Rüstəmi isə öz qüvvələri ilə Jajilədə qalsın. Mehdinin taqımını təpələrə doğru apardım.

Təpələrə çatanda yaxşı səngərləri olan bir yer tapdıq. Uşaqlar orada yerləşdilər.

Həmin gecəni səhərə qədər rahat yatdım. O qədər yorulmuşdum ki, hətta yaxındakı partlayışların səsi də məni səngərdən çıxarmadı.

Axşama qədər şəxsi heyətin ən mühüm işi texnikaları geri aparmaq idi və mən bu müddətdə bikar idim. Axşamüstü Jajiləyə Məhəmməd Rüstəminin yanına getdim. Fərəc Quluzadə də orada idi. Axşam düşəndə fikirləşdim ki, yaxşı olar gedib aşağıya baxaq və düşmənlərin haraya qədər irəlilədiyini öyrənək.

Məhəmməd Rüstəmi, Fərəc Quluzadə, Əmir Xirədmənd, Seyid Məhəmməd Fəqih və mən şəxsi heyətdən ayrılıb İmam Əli (ə) körpüsünə gedən yola yaxınlaşdıq. Körpüyə yaxınlaşdıqca şübhə də çoxalırdı. Mən öndə gedirdim, digərləri sıra ilə arxamca gəlirdilər. Bəzən hətta öz ayaq səslərimiz də bizi çaşdırırdı. Düşmən həm vardı, həm də yox idi. Son günlərdə düşmənin cəsarətinə dair yaranmış təsəvvürümə görə hər an bir hadisə gözləyirdim.

– Bir və ya iki döngədən sonra çaya çatacağıq.

Bütün bölgə düşmənin əlində idi və biz özümüzünkülərdən ən azı, 1 km.-dən çox uzaqlaşmışdıq. O həyəcanlı anlarda birdən bir nəfər düz birmetrliyimdə sürünə-sürünə dərədən yola qalxdı və önümə atıldı. Qorxudan yerimdə qurudum, qışqırdım və ixtiyarsız olaraq, əlimdəki durbini başına möhkəm vurdum. Qışqırtımın cavabı ətrafdan hədəfsiz atılan amansız güllələr oldu. Mənim silahım yox idi, amma uşaqlar silahlı idilər. Cəld geri döndüm və arxamda yalnız Fərəci gördüm. O qorxulu və həyəcanlı dəqiqələrdə məni gülmək tutdu; xüsusən it və ya başqa bir şey olduğunu bilmədiyim bir bədbəxt heyvanın başına zərbə endirdiyimi biləndə.

Arxadakı döngədən uşaqlar göründülər.

– Bir şey deyil, əşi, gəlin.

Hamımız çox qorxmuşduq. Boş durmayaq deyə biz də ətrafımıza üç-dörd əl qumbarası atıb həmin yolla geri döndük.

Gecəni uşaqların yanında qaldım və səhər çağı Jajiləyə gəlmiş ağa Sövdagərlə birgə Davudabadiyə qayıtdıq. Bölgəni boşaltma həmin günün axşamına qədər davam edəcəkdi. Uşaqlar gecə mövqeyi tərk edəcəkdilər və ikinci mərhələ başlayacaqdı.

Axşama qədər tikinti maşınlarının geriyə aparılması davam etdi. Hər bir maşın salamat geriyə göndəriləndə sevinir, bölgədə qalmış hər bir silah və texnikaya görə narahat olurduq. Axşamüstü canlı qüvvənin geri çəkilmə zamanı gəldi. Məhəmməd Rüstəminin bölüyünü Jajiləyə aparmaq üçün bir neçə maşın gəlmişdi. Bildim ki, polis zastavasını müdafiə edən taqımı heç kim fikirləşmir. Məsələni Məhəmməd Sövdagərə bildirdim.

– Ağa Məhəmməd, özümüz gedib onları gətirək?

Onun razılığından sonra taqımın yerləşdiyi yerə iki-üç maşın apardıq. Uşaqlar o dəqiqəyə qədər Girdərəşdən enən düşmənləri həyəcanla izləyirdilər.

Girdərəşin dolanbaclı yolundan bir düşmən tankı enmişdi və düz suyun kənarında idi. Körpü partladılmış olsa, tank və maşınların keçidinə yaramasa da, hələ piyada keçidi kimi istifadə oluna bilərdi. Uşaqlar onların körpüdən keçəcəyindən narahat olduqları zaman biz oraya çatdıq.

– Qardaşlar, yavaşca səngərlərinizi boşaldın, nəyiniz varsa, götürün, tez maşınlara minin.

Xəbər hamıya yayıldı və çox tezliklə hamı maşına mindi. Yola düşdük. Yolda polis zastavasının önündən keçəndə sağ tərəfdə bir ərazi diqqətimi cəlb elədi. Orada iki-üç tank vardı və mən onların nə üçün geriyə aparılmadığını bilmirdim. Bölgədə bizdən başqa heç kim yox idi və kimsə onları aparmaq istəsəydi, son dəqiqələrə qədər gözləməzdi. Yenidən üzümü ağa Sövdagərə tutdum.

– Ağa Məhəmməd, bu tanklar burada qalıblar. İraqlılar gəlsələr, bunlardan istifadə edəcəklər. Gedək, görək nə edə bilərik.

Maşını tanklara tərəf döndərib bütün taqımla oraya girdik. Tanklar xarab olduğuna görə çalışdıra bilmədik.

– Onda bunları partladıb gedərik.

– Necə?

– RPG silahımız var, elə deyil?!

Rza Musaxani silaha raket qoyub tanklardan əlli addım uzaqlaşdı və atəş açdı. İnanılmaz olsa da, raket tankın üstündən keçdi.

– Artıq əlli metrdən də tank vura bilmirik.

İkinci raketi ağa Sövdagər atdı. Raket yenə tankların üstündən keçdi. Düşmənin hər an bizə çatma ehtimalının olduğu o anlarda bilmirdik gülək, yoxsa tankları buraxıb gedək. Üçüncü raketi mən atdım və bu dəfə tankın üstündən deyil, yanından keçdi.

– Gedib içinə qumbara ataq.

Tez işə başlayıb hər tankın içinə bir qumbara atıb bir neçə addım uzaqlaşdıq. Tanklarda yanacaq və silah olmadığına görə güclü partlayış baş vermədi, lakin qumbaraların partladığına görə əmin olduq ki, qəlpələr tank və maşınların içindəki aparat və kabelləri yandırmışdır və onları yenidən təmir etmək mümkün olmayacaq.

Uşaqları maşınlara mindirib yola düşdük.

Davudabadinin yerləşdiyi dağın altında bir təcili yardım məntəqəsi vardı, yaxınlığından çay axırdı. Davudabadiyə gedən yol o çayı kəsib keçirdi və bir qədər yuxarıda üçyola çevrilirdi. Yolların biri Mavut və Kolanın üstündəki dağlarda bitirdi, biri Girdərəşə, digəri isə Jajiləyə gedirdi.

Biz sonuncu yoldan üçyola çatdıq və bizimlə eyni zamanda Kolan yolundan başqa iki maşın da oraya yaxınlaşdı. Yenidən şübhəyə düşdük.

- Bəlkə iraqlılar elə bir yerə çatıblar ki, asanlıqla bu yollarda get-gəl edirlər!

Yaxınlaşanda öz maşınlarımızı tanıdıq. Onların hər biri Kolanda yerləşmiş son canlı döyüşçülərimizi geriyə aparırdı. Onları tanımırdıq, amma aramızda

tanışlıq hissi vardı. Gülüb dedim: "Buyurun". Onlar da gülüb mənə təklif etdilər ki, yox, əvvəlcə siz buyurun. Çoxlu buyur-buyurdan sonra əvvəlcə onlar keçdilər, sonra biz.

Davudabadiyə çatanda hamı maşınlardan endi və oradan Bəni-Haşimdə qurulmuş çadırlara yollandılar. Orada qardaş Hörmətinin ağa Seyidin istəyi ilə yazdığı kağız mənə çatdı. Əmrə əsasən, mənə məhdud bir müddətə ikinci briqadada çalışmaq tapşırılmışdı. Əslində, hələlik hərbi kəşfiyyat bölüyü də mənasını itirmişdi, çünki ora hələlik döyüşdən uzaq idi.

Ağa Sövdagərlə birgə Bəni-Haşimdəki yerimizə getdik. İlk gecədə Fərəc Quluzadə mənə dedi: "İbrahim Əlinejad orada səngərdədir, sənինlə işi var".

İbrahimi axırıncı dəfə maşına minəndə görmüşdüm, ondan sonra xəbərim olmamışdı və ona darıxmışdım. Çadıra girdim. Uşaqlar çox narahat görünürdülər. İbrahim orada deyildi. Heç kim heç nə demirdi və mən lazım olanı başa düşdüm.

– Harada şəhid oldu?

– Qamışda, geri çəkiləndə.

Qəribə hiss keçirdim. Yavaş-yavaş bu hisslə tanış olmuşdum. Adətən, bütün köhnə dostlarımın şəhadəti zamanı bu hissi keçirirdim. Birdən bir şey yadıma düşdü. O, 6 ay öncə Cəlal Zahidinin şəhid olduğu yerdə şəhadətə qovuşmuşdu. Onlar iki səmimi dost idilər və şəhadət yerlərinin də eyni olması mənə qəribə təsir bağışladı.[1]

***

Səhər Həbib batalyonunu başqa bir yerə köçürdülər. Banədən Kagərə çəkilən yolun ətrafında Bulhəsən, Yəqubiyyə və Sərsul kəndləri yerləşirdi. Həbib batalyonu da oradakı üçyolun yaxınlığında yerləşdi.

Ağa Sövdagərlə birgə hələ bölgədə idik. Geriçəkilmənin ikinci mərhələsi başlamışdı və Şəhid Davudabadi düşərgəsi də boşaldılmalı idi. Partladıcı bölüyün uşaqları ciddi məşğul idilər, mina tələləri qururdular. Mən də qollarımı çırmayıb onlara kömək etməyə başladım. Hər şey partladılmalı idi; səngərdən tutmuş xarab maşınlara, texnikaya qədər hər şey. Kimin hara yadına düşürdüsə, ürəyi istədiyi kimi minalayırdı.

– Tut ağacının budaqlarının arasından da tələ keçirdim. Yəqin ki tutlar bir neçə qarınqulu bəəsçinin gözünü tutacaq...

– Tualetə mütləq girəcəklər. Oranı da minaladıq ki, otursalar, həmişəlik havaya uçsunlar.

– Yolun üstü mina ilə döşənib...

[1] İbrahim Əlinejad çox əlil olmasına, hissiyyat və hərəkətlərində məhdudiyyətlərə rəğmən, cəbhələrdə iştirak edən döyüşçülərdən idi. Onun şəhidliyi haqda "Topları qaytarın" kitabında Fərəc Quluzadənin dilindən məlumat verilmişdir.

Əlbəttə, bu qədər mina və tələlərdən öz uşaqlarımıza da pay düşdü. Kərim Ahənc motosikletlə tələlərin birinə ilişdi və qəlpə ayağını dəldi, amma o vəziyyətdə bizdən ayrılmadı.

Şəhid Bəni-Haşim düşərgəsində, Sərgəlo dağında bir üstüörtülü komandir səngəri vardı. Səngər panel parçalarından tikilmişdi. Mən partladıcı bölüyün uşaqları ilə oranı partlatmağa getdim. Onlar tələ düzəltdilər, lakin mən fikirləşdim ki, bu səngər bu tələlərlə uçan deyil. Ağa Sövdagərlə maşına minib lazımi sursatı gətirmək üçün silah anbarına getdik. Çoxlu tank mərmisi və 120 mm. kalibrli raket gətirib hər səngərin, xüsusən də komandir səngərinin üstünə çoxlu sayda yerləşdirdik. Uşaqlar fitili yandıranda tez bayıra çıxdıq və əsas yoldan ayrılan yolla gedib xeyli uzaqlaşandan sonra döngələrin birində dayandıq.

– Axı indi vaxtıdır...

Ardıcıl güclü partlayışlar uşaqların sözünü kəsdi. Yer titrəyir və dəhşətli gurultu qopurdu. Birdən bizim onmetrliyimizdə yerə bir şey düşdü. Səngərdən ayrılmış çox böyük bir panel parçası idi. Partlayış və zərbə dalğası o qədər güclü idi ki, o böyük və ağır panel parçasını təxminən yüz metr uzağa tullamışdı. Dedim: "Əgər bu, bizim başımıza düşsəydi, hamımızın bədəninin qalıqlarından zorla bir adam bədəni toplayardılar".

Komandir səngərindən sonra növbə təcili yardım məntəqəsinə çatdı. Zəncanın Quruculuq cihadi təşkilatı orada təmiz bir təcili yardım məntəqəsi tikmişdi. Oraya da mina tələsi qurduq və partlayışdan sonra yerində heç bir şey qalmadı. Partlatmadığımız azsaylı yerlərdən biri həmin keçiddə tikilmiş hamam idi. Ekskavatorla hamamın qapısının önünə torpaq töküb bağladıq və sonra bölgəni tərk etdik.[1]

Bu müddətdə ikinci mərhələnin maşın və texnikaları da daşınmışdı. Seyyidüş-şühəda körpüsünün üstündən keçən maşınların statistikası göstərirdi ki, iki gün ərzində yalnız 600 buldozer geriyə göndərilmişdi. Bu imkanlar bir neçə tikinti-mühəndis diviziyasını təmin edə bilərdi.

Qardaş Sövdagərlə birgə Həbib batalyonunu Seyyidüş-şühəda körpüsündən keçirib Kagərə yerləşdirməyə getdik. İraq tərəfi Seyyidüş-şühəda körpüsünün bu tərəfini görür və güclü atəş yağdırırdı. Orada bir neçə TIR yük maşını yanıb qalmışdı.

Aşura korpusunun komandir qərargahı Bulhəsən kəndinin arxasında yerləşdi. Diviziyanın bəzi qüvvələri, o cümlədən, Həbib batalyonu Bulhəsən yolunda Banə tərəfdə və Saleh dağının yaxınlığında yerləşmişdi ki, müdafiə üçün yenidən Kagərin sərhəd dağlarına qayıtsınlar. Biz də batalyonun yerləşdiyi yerə getdik və Həbib batalyonunun komandirləri ilə birgə Kagər dağına yola düşdük. Öncədən təyin olunmuş müdafiə nöqtələrini batalyonun komandirlərinə izah etdik. Müdafiə ərazisi çox geniş idi və Həbib batalyonu

[1] Bir neçə ildən sonra oraya gedəndə səngəri və hamamı qoyduğumuz kimi də gördüm.

orada cəbhə şəklində yerləşə bilməzdi. Digər tərəfdən, o vaxta qədər bizim diviziyamız yalnız belə cəbhə müdafiələrində iştirak etmişdi və bu, batalyonun komandirlərində suallar yaradırdı. Təcrübələrinə əsasən, suallarda tam haqlı idilər. Onlar soruşurdular ki, biz burada necə yerləşək?

– Zastava formasında.

– Zastava formasında pərakəndə yerləşəndə arxadan pusquya məruz qalsaq və ya mühasirə olunsaq, nə edək?

Belə sualların dəqiq cavabı olmasa da, batalyon tərəfindən irəli sürülməsi çox yaxşı idi və məsələnin hər tərəfini nəzərə aldıqlarını göstərirdi.

Gecəyə qədər bütün şəxsi heyət Kagər dağlarında yerləşdi. Bu isə Seyyidüş-şühəda körpüsündən tam geri çəkildiyimizi göstərirdi. Həmin gecə Fərəc Quluzadənin yanında qalmaq istəyirdim, amma ağa Sövdagər məni səslədi. Gəl maşınla bir yerə gedək, qayıdarıq.

Mindik və o, maşını işə saldı. Hələ hara və nə üçün getdiyimizi bilmirdim. Seyyidüş-şühəda körpüsünə gedən yola çıxdıq. Körpüyə çatdıq, amma ağa Məhəmməd hələ irəliləyirdi. Maşının sürət ötürücüsünü neytral vəziyyətə gətirib əyləcin köməyi ilə səs çıxarmadan düz partladılmış Seyyidüş-şühəda körpüsünün yanına qədər endik. Orada maşını saxlayıb endi və dedi: "Gedək, o tərəfə bir baş çəkək".

– Birdən mina tələsi qurarlar.

– Tez gedək, görək düşmənlər gəliblər, yoxsa yox. Suyun kənarına qədər getdik, çayın ortasındakı daşların üstündən hoppanıb o tərəfə keçdik. Bizdən başqa heç bir iranlının qalmadığı yerdə idik. Çayın kənarından düşmən mövqelərinin içinə bir yol gedirdi. Yola düşdük. Baxıb gördük ki, düşmənlər körpünün yüzmetrliyinə qədər gəlib orada yerləşmişlər.

Getdiyimiz yolla qayıdıb çaydan keçdik və yenidən maşınla düşərgəyə qayıtdıq. Gecəni ağa Fərəcin səngərində qaldıq. Üstüaçıq səngər idi. Yerə qara bir ədyal sərilmişdi, amma soyuğa heç bir təsir etmirdi. Keşikçilər oyaq idilər. Mən səhərə qədər səngərdə soyuqdan titrədim.

İmam Mehdi (ə) briqadasının digər batalyonları da Məlikan rayonunun yaxınlığında su şirkətinə aid olmuş və qarnizona çevrilmiş bir yerdə yerləşmişdilər. Səhər çağı ağa Sövdagərlə birgə biz də Şərqi Azərbaycana və Məlikan rayonuna yola düşdük. Şəhərə tərəf qayıdırdıq və hadisələrdən uzaq qalacağımız nəzərə çarpırdı. Amma gözlənilməz bir hadisə baş verdi. Biz bilmədən toyotanın kapotunun kilidi xarab olub öz-özünə açılmışdı. Saatda 100 km.-dən artıq sürətlə hərəkət etdiyimiz bir anda qarşıdan sürətlə bir maşın gəlib yanımızdan keçdi və onun küləyi kapotu açdı. Kapot birdən açılıb sürücünün önündəki şüşəyə dəydi. Şüşənin qırıqları üz-başımıza səpildi və biz bir anda işimizin bitdiyini düşündük. Lakin qardaş Sövdagər çətinliklə maşını idarə edib bizi oradan salamat çıxardı. Axşam Məlikandakı İmam Mehdi (ə) qarnizonuna çatdıq və gecəni komandir binasında qaldıq. Cəbhənin

vəziyyətinə və daha orada işimizin olmadığına görə qərara gəldik ki, Aşura diviziyasının kəşfiyyat bölüyünə qayıdaq.

İkinci briqadanın komandiri qardaş Seyid Fatimidən icazə alıb Təbrizin Şəhid Qazi qarnizonuna qayıtdım.

Mirsad

I

Şəhid Qazi qarnizonunda geriçəkilmə zamanı yaşadığım halları yadıma salmağa başladım. Fikirləşirdim ki, heç bir mərhələdə, hətta bəzilərinin şəhid cənazələri üstündən keçib geriyə qayıtdığı vaxt da özümə görə və ya bir neçə əməliyyatda tutduğumuz torpağa görə narahat deyildim, narahatlığım əlimdən bir şey gəlmədiyinə görə idi. Şəhid Qazi qarnizonunda bəzən kəşfiyyat uşaqları ilə baş verənləri təhlil edirdik. O qardaşlar cəbhələrin isti-soyuğunu görmüş, hər biri müharibə tarixinin bir hissəsini təşkil edən və bəzilərinin bədənlərində çoxlu yaralar olan döyüşçülər idilər.

O günlərdə çoxları müharibənin İraqın qələbəsi ilə bitdiyindən danışır və məyusluqlarını bildirirdilər. Lakin vilayətdən və imama itaətdən söhbət düşəndə saatlarla tək qalıb o günə qədər yaşadığım, görüb-eşitdiyim bütün səhnələri nəzərə alır və bu suala cavab verməyə çalışırdım ki, bu işdə mənim mövqeyim necədir? Mənim bu qədər qüdrətim varmı rəhbərim alova atılmağımı zəruri bilsə, fikirləşmədən özümü alova atım? İmam Sadiqin (ə) bir hədisi məni narahat edirdi: "Əgər mən əmr etdikdə yanar təndirə girməyə hazır olan on belə adamım olsaydı, oturmaz və qiyam edərdim".

Öz-özümə deyirdim: "Mehdi, əgər indi imam sənə bunu əmr etsə, itaət edərsənmi? Dərhal yerinə yetirərsən, yoxsa bəhanə gətirərsən?"

Müharibənin böyük cihad mərhələsinə çatdığını hiss edirdim. Bu məsələni özlüyümdə belə həll etmiş və bu qüvvəni özümdə yaratmışdım ki, mənim komandirim Kərim Hörməti də "get özünü oda at" desə, mütləq bu işi görərəm. Daim bu şeiri zümzümə edirdim:

"Ey dost, əgər imtahan məqsədi ilə canımı istəsən,
Elə verərəm ki, istədiyinə görə xəcalətli qalarsan!”

***

Səhərdən başlamış və get-gedə ciddiləşən bir mövzu ortaya çıxmışdı. Radiodan Xatəm qərargahı tərəfindən bir bəyanat oxundu. Ağa Rəfsəncani tərəfindən də bəyanat oxunmuşdu. Hamı deyirdi ki, saat ikinin xəbərlərində mühüm sözlər deyiləcək. Şəhid Qazi qarnizonunda saat ikini və ölkənin taleyüklü xəbərlərini gözləyirdik.

Xəbər oxundu: “İmam Xomeyni 598 saylı qətnaməni qəbul etmişdir”. İmamın müraciətini və onun cəbhə komandirlərinin və bəzi məsul şəxslərin təklifi ilə qətnaməni qəbul etdiyi radiodan deyildi. Qəribə halda idik. Narahatlıq bəzən ağlamaqla, bəzən də sükutla ifadə olunurdu. Məsələni beynimdə həll edə bilmirdim. Çoxları kimi, mən də imamın narahat olduğunu və cihadın bitdiyini görməyə dözə bilmirdim, amma əmin idim ki, imam həmişəki kimi özünəməxsus uzaqgörənliyi ilə ölkənin xeyrini bunda görmüşdür. Quruluşun bəzi məsul şəxslərinin və cəbhə komandirlərinin də bu

qərarda rolları olsa da, son söz imamın idi və heç kim fikrini zorla ona qəbul etdirə bilməzdi.

Bundan sonra diviziyanın əksər hissələrində bununla bağlı iclaslar keçirildi. Hamı məsələni təhlil edirdi. Bir dəfə Əmin ağa dedi: “İmam "mən bu zəhəri içirəm" deyirsə, biz fikirləşməliyik ki, bu zəhəri imama kim içirdir”. O, sonda bu nəticəyə gəlirdi ki, bunda bizim də təqsirimiz var. Lakin mən ayrı cür düşünürdüm, bu təhlillər mənim hesablarımla düz gəlmirdi. Keçmişi nə qədər xatırlayırdımsa, imama itaətdən və ən ağır şəraitdə də cəbhədə müqavimət göstərməkdən başqa bir şey görmürdüm. Qürur hissi keçirirdim. Xeyr, imama zəhəri verənlər biz deyildik, əksinə, biz döyüşçülər padzəhər idik. Bizim sayəmizdə imamın qəlbi bir az təskinlik tapırdı. Onun bir təbəssümü bizim bütün yorğunluqlarımızı yadımızdan çıxardığı kimi, hər bir işi görməyimizə də bir işarəsi kifayət edirdi.

Bu əlaqə haqda daha çox fikirləşmək üçün yaxşı imkan idi. İmamın döyüşçülərə sözləri səngərdə uşaqları ağladırdı. Müharibə boyu biz hətta bir dəfə də imamı yaxından görmək imkanı əldə etməmişdik, yalnız televizorda və göz yaşlarının arxasından izləmişdik, lakin qəribə idi ki, az adamla onun qədər yaxınlıq və səmimilik hiss edirdik. Bunları fikirləşdikcə daha çox sakitləşirdim. İmamdan xəcalətli deyildim. Mən yaralanıb əlil olandan sonra özümü daha çox oda-suya vurmuşdum. Nə etmiş, hansı yolla getmişdimsə, şəhadət məndən qaçmışdı, amma heç vaxt döyüşdən qaçmadığıma görə üzüağ idim. Fikirləşirdim ki, şəhərdə yatıb qalan və hətta uzaqdan cəbhələrə bir əl də yetirməyən sağlam insanların hamısı öz payları qədər cəbhəyə gəlsəydilər, bəlkə də nəticə ayrı cür olardı.

II

– Düşmən Əhvaza qədər gəlib... Həmid qarnizonunu tutub.

– Düşmən Baxtərana çatıb...

Qətnamənin qəbulundan bir neçə gün ötməmiş düşmənin hər tərəfdən irəliləməsi xəbərləri gəldi, amma bizə heç bir tapşırıq verilmədi. Çox narahat idim: Bəlkə yaddan çıxmışıq? Nə üçün bizə bir iş tapşırmırlar? Belə bir diviziya boş-bikar qalıb və düşmən hər gün irəliləyir.

Beynimə düşmüşdü ki, əgər bir gün də heç bir əmr verilməsə, özüm təkbaşına cəbhəyə gedim. Narahat halda oyan-buyana gəzirdim. Müharibə boyu heç vaxt yaşamadığım bikarlıq və sərgərdanlıq hissi məni əsəbiləşdirirdi. Günortadan sonra təxminən saat beşdə belə bir xəbər gəldi: "Qərargahdan zəng vurub səni istəyirlər. Tələs, çox təcilidir".

Qaça-qaça özümü oraya çatdırıb dəstəyi götürdüm. Ərdəbil briqadasının komandiri ağa Kəbirinin səsini tanıdım. O, əvvəllər diviziyamızın komandir müavini olmuşdu. O, deyirdi: "Mən Baxtərandan danışıram, ağa Mehdi. Kəşfiyyat uşaqlarından iki komanda hazırlayıb Təbrizin hava limanına gətir.

Qulamhüseyn Sefidgəri orada gözləyir, sizi Baxtərana göndərəcək". Qəlbimdə sakit və tanış bir meh əsməyə başladı.

Uşaqlar deyirdilər ki, ağa Kəbiri səndən öncə Kərim Hörmətini və sonra Məhəmmədhüseyn Əlipərəstini istəyib, amma heç biri qarnizonda olmayıb.

Oradan şəhərlə əlaqə saxlayıb Kərimə və Məhəmmədhüseynə xəbər göndərdim və çox tez qarnizona gəldilər. Bu müddətdə üç komanda hazırlayıb Məhəmməd Purnəcəf, Amanullah Amani və Kərim Ahəncə tapşırdım. Özüm də onlarla getməyə hazırlaşdım. Kəşfiyyat bölüyünün komandiri qardaş Kərim Hörməti qardaş Əlipərəstini Baxtərana göndərilən qüvvələrin komandiri təyin etdi və özü də bölüyün təcili yardım maşını ilə Əhvaza yola düşdü.

Qardaş Kəbirinin telefon zəngindən təxminən bir saat sonra Təbrizin hava limanında idik. İmam Hüseyn (ə) və Əmirəlmömin (ə) batalyonları və ikinci briqadanın bəzi qüvvələri də üç uçuşla Baxtərana gedəcəkdilər. Kəşfiyyat qüvvələri də onlardan idilər.

Xəbərlər hələ də düşmənlərin bizim şəhərlərimizə doğru irəliləməsindən danışırdı. Əməliyyat marşı ilə birgə və heç bir senzurasız bütün cəbhə xəbərləri radio və televiziyadan yayımlanırdı.

– Münafiqlər İraq ordusunun köməyi ilə Sərpol Zəhaba və İslamabada qədər irəliləyiblər.

– İslamabad münafiqlər tərəfindən zəbt olundu...

Bu təbliğatlar ondan ötrü idi ki, xalq cəbhədə iştirak edib ölkəni müdafiə etməyin hər zamandan daha vacib olduğunu bilsin. Bəzi radio müsahibələri də bu fikri təsdiqləyirdi. Səkkiz il qeyri-bərabər döyüş zamanı bir dəfə də cəbhəyə gəlməyənlərin əksəri könüllü şəkildə cəbhələrə axışırdılar. Əksər müsahibələrdə deyilirdi ki, biz daha oturmayacağıq, düşmənin önünə gedib şəhərlərimizi işğal etməsinə imkan verməyəcəyik.

Təyyarə hazır idi və kəşfiyyatçılardan əlavə təxminən 50 döyüşçü də gedirdi.

Təbii ki, o şəraitdə hamımız hazırlıqlı idik və silahla təyyarəyə minmək istəyirdik, amma pilot bəhanə gətirirdi. İşi döyüş bölgələrinə dəstək vermək və silah daşımaq olan C130 təyyarəsinin pilotu israrla deyirdi ki, Baxtərana qədər getmək olmaz. Uzun mübahisələrdən sonra təyyarəyə mindik, amma Baxtərana çatan kimi pilot sözləri ilə bizi öldürdü.

– Vəziyyət qırmızıdır, mən qayıdıram.

– Məgər istirahətə gedirsən ki, qırmızı vəziyyətə görə qayıdasan?!

– Deyirlər ki, münafiqlər Baxtəranı ələ keçiriblər. Mən sizi Həmədanda endirəcəyəm, özünüz istədiyiniz şəkildə gedərsiniz.

Və yenə uşaqlar pilotu başa salmalı idilər ki, biz Həmədandan Baxtərana gedənə qədər iş-işdən keçmiş olacaq.

Günəş çıxana yaxın təyyarə Baxtəran hava limanında yerə endi və pilot bizdən qurtuldu. Orada qiyamət idi; C130 təyyarələri mülki geyimdə, kostyumda və silahsız müharibəyə gəlmiş adamları boşaldırdı. Həzrət Rəsul

diviziyasının komandirlərindən eşitdim ki, könüllülərə verməyə silah və geyim yoxdur. Bütün diviziyalar izdihamlı xalq qüvvələrini qəbul edirdilər. Hamısı işğalçıları vətən torpaqlarından qovmağa gəlmiş iradəli üzləri görmək fərəhli idi və insanı ruhlandırırdı.

Əlipərəsti ilə Seyid Zəfərançı toyota ilə Baxtərana bir qədər ərzaq gətirəcəkdilər və biz Baxtəran hava limanını görüş yeri təyin etmişdik. İşin etibarlılığından ötrü demişdik ki, hava limanında bir-birimizi tapa bilməsək, diviziya üçün nəzərdə tutulmuş qarnizonda görüşərik. Orada gözləyəndə ağa Sövdagəri gördüm. Deyəsən o, İmam Hüseyn (ə) batalyonu ilə Baxtərana gəlmiş və bizi Bisütuna[1] aparmaq üçün diviziyadan maşın götürmüşdü. Risalət briqadasının qarnizonu orada idi. Məhəmmədhüseyn Əlipərəsti və Seyid Zəfərançı da orada idilər. Məhəmmədhüseynlə mən tez maşının arxasındakı əşyaları boşaltdıq. Uşaqlar çadır qurmağa başladılar və biz düşmənin harada olduğunu, komandirimizin kimliyini və döyüş zonasında nə etməli olduğumuzu bilmədən ön xəttə getdik.

Diviziya komandirimizi tapmaq üçün Nəcəf qərargahına və Besət diviziyasına getdik, amma onların xəbəri yox idi. Şəhərin vəziyyəti qeyri-adi idi, əhalinin demək olar, hamısı silahlanmışdı. Baxtəran şəhərinin məscidlərində və hərbi birləşmələrində hamını yoxlayırdılar. Deyirdilər ki, münafiqlərin bir qismi öncədən Baxtərana toplaşıb gözləyirlər, hərbçilər şəhərə girən kimi dərhal hərəkətə keçib hökumət quracaq, Həmədana, oradan da Tehrana hərbi yürüş edəcəklər.[2] Onların planlarına əsasən, Baxtəran dövlətlərinin ilk paytaxtı olacaqdı.

Bütün xalq bundan xəbərdar idi və şəhəri müdafiəyə dair möhtəşəm birlik yaranmışdı. Şəhərdəki maşınlar dəfələrlə yoxlanırdı. Hətta döyüşçü olsaq da, bizim maşınımızı da diqqətlə yoxladılar. Bu, onların işlərinə necə əhəmiyyətli yanaşdıqlarını göstərirdi və o dönəmdə bu, zəruri idi. Şəhərdən çıxarkən gördüyümüz bir qrup sərvətli sakinlərdən başqa bütün əhali şəhərdə idi və böyük təhlükəyə baxmayaraq, şəhəri tərk etmirdilər.

Aşura diviziyasının düşərgəsini axtara-axtara İslamabada gedən yolla irəliləyirdik. Biz irəlilədikcə, atışma səslərini daha aydın eşidirdik. Baxtəranın 15 kilometrliyindəki Çaharzəbər boğazına bir qədər qalmış Əmirəlmöminin (ə) batalyonunun uşaqlarını görüb diviziyanın orada yerləşdiyini bildik.

Axşamüstü idi və döyüş gedirdi. Lakin bu döyüş hara, o günə qədər cəbhələrdə gördüyümüz döyüşlər hara?! Bütün döyüş pulemyot, DŞK və digər yüngül silahlarla açılan atəşlərdən ibarət idi. Helikopterlərimiz səmada uçurdular.

---

[1] Bisütun Kermanşah şəhərinin yaxınlığında yerləşən qədim tarixi yerlərdəndir.

[2] Mirsad əməliyyatından sonra eşitdim ki, münafiqlərin proqramı və məxfi şəbəkələri o qədər güclü olub ki, hətta həbsxanadakı tərəfdarları da bundan xəbər tutub əməkdaşlığa hazırlaşırmışlar.

Soruşa-soruşa qardaş Əmin Şəriətini Çaharzəbər dağının arxasındakı dərələrin birində tapdıq. Əmin ağa dedi: "Komandalarınızı gətirin".

Axşam əməliyyat olacaqdı. Zəncan briqadası da kəşfiyyat qüvvələri ilə birgə gəlmişdilər və əməliyyata hazır idilər.

Əməliyyat üçün həm Çaharzəbər boğazı, həm də oradan İslamabadın yaxınlığına qədər uzanan düzənlik öyrənilməli idi. Aşura diviziyasının kəşfiyyatçıları üçün oranı öyrənmək asan idi. Çünki Çaharzəbərin arxasındakı düzənlik Şəhid Əhəd Müqimi düşərgəsi olmuşdu və diviziya Kərbəla-5 əməliyyatından sonra bir müddət orada yerləşmişdi. Bizim uşaqlarımız oranın hər qarışını tanıyırdılar.

Məhəmməd Purnəcəflə Amanullah Amani öz komandalarını götürüb kəşfiyyata getmişdilər. Məhəmməd qayıdandan sonra oranın vəziyyətini izah edəndə çox güldüm. O, belə danışırdı: "Biz münafiqlərə çox yaxınlaşmışdıq. Onlar bizi görəndə artist kimi ayağa qalxıb bizə doğru atəş açdılar. Biz səngərin arxasında idik, onlar isə ayaq üstə dayanıb guya bizi vurmaq istəyirdilər. Əgər atəş açmağa icazəmiz olsaydı, hərəsini bir güllə ilə bitirərdik".

Eşitdiklərimiz göstərirdi ki, onlar döyüş qaydalarından xəbərsiz idilər, naşıcasına və yalnız hisslərinə görə bu hərəkəti edirdilər. Durbinlə münafiqlərə baxanda sanki bir filmə tamaşa edirdik. Silah götürmələri, maşına minmələri... Sanki silah və maşını birinci dəfə idi görürdülər. Ciddi hərbi təlim keçmələrindən heç bir əlamət görünmürdü.

***

Məhəmməd Purnəcəfin və ikinci batalyon kəşfiyyatçılarının məlumatlarına və özümüzün öncəki məlumatlarımıza əsasən, düşmənin arxa tərəfinə keçmək qərarına gəldik. Çaharzəbər boğazına çatmamış diviziyanın yerləşdiyi yer Mahidəşt adlanırdı. Oradan İslamabad-Baxtəran yolunun təxminən cənubunda olan Çaharzəbər dağlarına bir yol gedir, Çaharzəbərə oxşayan bir boğazdan Həsənabad düzünə yönəlirdi. Əksəri torpaqdan olan bu yol Çaharzəbər boğazının arxasına keçirdi. Onları adlamaq üçün ən yaxşı yol bu idi. Şəhid Müqimi düşərgəsində qalandan o yolu tanıyırdıq. Həmin dağlardan sonra kəşfiyyat qüvvələri yola, Həsənabad boğazına və Həsənabad kəndinə gedib əməliyyatın başlanmasını gözlədilər. Əməliyyat planı belə idi ki, şəxsi heyətin bir qismi Çaharzəbər boğazına hücum edəcək, onlara havadan dəstək veriləcəkdi. Eyni zamanda Aşura diviziyasının ikinci briqadasının İmam Hüseyn (ə) batalyonu Həsənabad boğazını ələ keçirib münafiqlərin yolunu bağlayacaqdı. Əlbəttə, bir gecə öncə Zəncan qüvvələrindən bir batalyon Çaharzəbərdən keçməyə çalışmış, amma alınmamışdı.

Səhər çağı döyüş başlayanda biz qərargahda idik və uşaqların göndərdiyi xəbər çatana qədər nə baş verdiyini bilmirdik. Uşaqlar bölgənin təmizləndiyini bildirəndən sonra tez ayağa qalxıb yola düşdük. Diviziyanın kəşfiyyatçılarını toyotanın arxasına mindirmişdik və Çaharzəbər boğazından keçmək istəyirdik.

Gündüz helikopterlərimiz Çaharzəbər boğazında düşmənə ağır zərbə vurmuşdular. Maşınlar yanmış, kişi və qadın cəsədləri üst-üstə düşüb qalmışdı. Cəsədlərin çoxu tanınmaz halda idi. Orada dayanmadan İslam qüvvələri tərəfindən yeni azad olunmuş Çaharzəbərdən keçib Həsənabad boğazına çatdıq. İmam Hüseyn (ə) batalyonu orada əməliyyatı uğurla başa çatdırmışdı. Mənimlə gedən uşaqlar yorulmuşdular, onlarlıq xüsusi bir iş də yox idi. Yaxında yolun kənarındakı çayxananı göstərib dedim: "Siz gedin orada yatın, mən tapşırığımızı öyrənim".

Uşaqlar getdilər. Bir azdan Əmin ağa və digər komandirlər də gəldilər. Bütün komandirlər oraya toplaşmışdılar və ratsiyaların sayı oranın mərkəzi qərargah olduğunu göstərirdi.

Təəccüblü idi ki, hələ yerli əhali orada qalmışdı. Ora münafiqlər tərəfindən işğal olunanda necə olmuşdusa, sağ qalmışdılar. Onların biri özünü bizə çatdırıb dedi: "Münafiqlərdən iki qız buraya gəlib, biz qorxuruq, gəlin onları tutun".

Əhəd Qəhramani və Əlirza adlı bir əsgər onun göstərdiyi yerə getdilər və bir neçə dəqiqədən sonra yalnız bir qızla qayıtdılar. Bizə beş-altı addım qalmış qızın ayağına bir güllə dəydi və dərhal partlayış baş verdi. Yanımda dayanmış Amanullah Amaninin başına kiçik bir qəlpə də dəydi. Bildik ki, əl qumbarası partlayıb. Atəşin səbəbini soruşanda Əlirza dedi: "Əlində gizlətdiyi əl qumbarasını çəkdi, atmaq istəyəndə ayağından vurdum. Yerə yıxıldı və qumbara öz əlində partladı".[1]

Təxminən bədəni parçalanmışdı, amma çox gənc olduğu bilinirdi. Oraya gələnlərin çoxu o yaşda idilər və əksər hallarda əl qumbarasını partladaraq özlərini həlak edirdilər.

Səhər tezdən qardaş Mustafa Mövləvi Əmin ağaya dedi ki, biz İslamabada getmək istəyirik. Mən, Mustafa Mövləvi, Seyid Zəfərançı, Məhəmməd Purnəcəf və iki digər kəşfiyyatçı dərhal hazırlaşdıq.

İslamabada çatanda günəş küçələrə və evlərin damına işıq saçırdı. Orada gördüklərim inanılmaz idi. Özlərini xalq mücahidləri adlandıran və guya İran xalqını xilas etməyə gələn münafiqlər şəhərdə elə cinayətlər törətmişdilər ki, Səddam və Bəəs rejimi onun yanında yalan olmuşdu.

Şəhərin əsas xiyabanı ilə gedirdik. Yol, səki və kanallar ən faciəli şəkildə öldürülmüş insanların cəsədləri ilə dolu idi. Şəhidlərin üzlərinə baxanda bilmək olurdu ki, onlar heç kimə rəhm etməmiş, hamını öldürmüşdülər. Bəzilərini evlərdə qapıdan asmışdılar və cəsədləri havada yellənirdi. Mənzərə çox dəhşətli idi.

Deyirdilər ki, münafiqlər xəstəxanaya gedib kiçikdən-böyüyə bütün xəstələri, həkim və feldşerləri öldürmüşdülər.

---

[1] Münafiq qızı əsir tutmuş iki əsgər onu yoxlamağa utanıblar, o da gizlətdiyi əl qumbarasını komandirlərin arasına atmaq istəyirmiş.

Yanacaqdoldurma məntəqəsinin yaxınlığında ölülərin sayı hər yerdən çox idi. Məntəqənin önündəki meydanda bir qadın çadrasını boynunda düyünləyib qışqırırdı: "Münafiqlər oradan qaçdılar..."

Şəhər hələ murdar münafiqlərdən təmizlənməmişdi və xilaskarlarının gəldiyini görən camaat onları tapmağa kömək edirdi. O islamabadlı qadının tələşını görəndə fikirləşirdim ki, gör münafiqlər bu iki gündə camaatın başına nə oyun açıblar və camaat onların əlindən necə təngə gəlib! İnqilab günlərini xatırladım. O günlərdə camaat küçələrdə qaçan SAVAK məmurlarını bir-birinə göstərir, onları tutmağa çalışırdılar. On ildən sonra İslamabadın küçələrində də camaat münafiqləri təqib edirdi. Əhalinin bir qismi silahlanmışdı və gecə ağır döyüş olmuşdu. Münafiqlərin cəsədlərini görəndə camaatın onlara nifrətinin hədsiz olduğunu bilmək olurdu. Hamı əzizlərinin intiqamını almaq istəyirdi. Fikirləşirdim ki, bir münafiq camaatın əlinə diri düşsə, onu tikə-tikə edərlər.

Şəhərdə bir qədər gəzəndən sonra İslamabadın Allahuəkbər qarnizonuna getdik. Qarnizon tank və silahla dolu idi, amma münafiqlər ya naşılıqlarından, ya da başqa bir səbəbdən onlara əl vurmamışdılar. Münafiqlərin bir neçəsini əsir tutub qarnizona gətirmişdilər.

Yolumuzu Kerendə doğru davam etdirdik, amma oranın kimin əlində olduğunu bilmirdik. Biz yolda gedən ilk maşın idik, arxamızca isə avtomobil karvanı gəlirdi. Heç bir hadisə ilə üzləşmədən Kerendə çatdıq və Xüsusi diviziyanın uşaqlarını tanıdıq. Onlar da şəhərə yeni girmişdilər. Bizdən yarım saat sonra Əmin ağa da gəldi və qərargah seçmək üçün bir məktəb tapmağımızı əmr etdi.

Məktəb tapmaq çox çəkmədi. Bütün uşaqlar oraya gəldilər. Kəşfiyyat bölüyünün miyanəli uşaqlarından olan Səməd Kiyani orada ürəyimi ağrıdan bir hadisə danışdı. Onlar münafiqləri axtarmaq üçün evləri gəzərkən birdən bir evdən zarıltı səsi eşidiblər. Səsin yerini axtarıb, nəhayət, ağzıbağlı bir təndirdən gəldiyini biliblər. Qapağını açanda içində iki qadının gizləndiyini görüblər. Deyirdi ki, onlar bizi görəndə qorxudan əsə-əsə üst-başımıza baxıb soruşdular: "Siz döyüşçüsünüz?" Onlar da deyiblər ki, bəli, münafiqlər getdilər. Bu sözü eşidəndən sonra həmin iki xanım az qala onların ayaqlarından öpəcəkmişlər. İslam döyüşçülərinin şəhərə gəlişinə sevindiklərindən ağlayıb deyirmişlər: "Biz münafiqlərdən qorunmaq üçün iki gün təndirdə gizləndik". Və gileylənibmişlər ki, bəs siz harada idiniz?!

Diviziyanın uşaqları məktəbə yerləşdilər, mən, Mustafa Mövləvi, Purnəcəf və digərləri isə Sərpol Zəhaba yola düşdük. Əbuzər qarnizonuna çatmamış yol bir boğazdan keçirdi. Boğazın düzənliyə tərəf yoxuşunda ordunun təchizat bölməsi yerləşirdi. Yolumuzu oraya döndərdik.

İlk baxışdan bütün toyotaların və digər hərbi maşınların hazır və səliqəli saxlandığını görüb dedim: "Ağa Mustafa, belə görünür ki, buralarda kimsə olmalıdır". Lakin heç kim yox idi. Çox təəccübləndim.

– Ağa Mustafa, gedək içəri bir göz ataq?

Birlikdə gedib əl dəyməmiş konteynerlərə baxdıq. Münafiqlər heç nəyə əl vurmamışdılar. Bu, başadüşülən idi, çünki onlar təyin olunmuş vaxtla irəliləyirdilər, belə şeylərlə məşğul olsaydılar, gecikərdilər. Konteynerlərin birinin qapısını açıb içinə girdim. Toyota hissələri ilə dolu idi, bir briqada üçün yetərli avadanlıqlar vardı. Məhəmməd Purnəcəfin köməyi ilə digər konteynerin qıflını sındırıb qapını açdıq. İlk baxışdan ağzıbağlı bir qutu diqqətimizi cəlb etdi.

– Məhəmməd, əminəm ki, bunun içində dəyərli bir şey var.

Qutunun qıflını qırıb içindəkini görəndə ağzımız açıq qaldı, amma qəlbən narahat olduq. Qutu "Made in USA" yazılmış Amerika kompasları ilə dolu idi. Müharibə boyu bizim bəzi məsələlərdə həmişə çatışmazlığımız vardı. Onların biri kompas idi. Aşura diviziyası əməliyyatlarda həmişə ilk hücuma keçənlərdən olurdu və kəşfiyyat bölüyünə kompas zəruri idi.

Hərdən bizə Hindistandan, hərdən də Şimali Koreyadan kompas alırdılar. Kompasları baha alırdılar, amma keyfiyyətləri yaxşı olmurdu və biz yalnız ona etimad edə bilmirdik. Qarşımızda isə ordunun bir batalyonunun 300 Amerika kompası sahibsiz qalmışdı. Kompas görməmişləri kimi çox həvəslə qutunu götürüb maşına qoyduq.[1] Ordunun L şəkilli yaşıl fənərlərindən də götürdük.

Maşını həyətdə saxlamışdıq və avtomobil karvanı bir-bir bizə çatırdı. Oraya gəlmiş bir Bəsic üzvündən soruşdum: "Hansı diviziyadansan?"

– Mən Baxtəranın Nəbi-əkrəm briqadasındanam.

– Yaxşı, qardaş, sən burada dayan və heç kimi içəri girməyə qoyma. Bunların hamısı İslam ordusunundur.

Yeniyetmə Bəsic üzvü Allahdan istəmiş kimi orada dayandı. Yola düşüb boğazdan aşağı endik. Yolun hər iki tərəfində ölmüş heyvanları gördük. Fikirləşdik ki, yəqin düşmən oraya kimyəvi bomba atıb. Risalət briqadasının katyuşalarının yerləşdirildiyi kəndə çatdıq. Yenə eyni vəziyyət idi; hər şey hazır idi, amma bir nəfər də yox idi. Münafiqlər onlara da əl vurmamışdılar. O qədər silahın istifadəsiz tərk olunması mənə əzab verirdi. Bölgədə bu qədər silah və texnika olduğu halda düşmən çatmamış hamısını qoyub qaçmaları mənə ağır gəlirdi. Xüsusən o günlərdə eşitdiyim bir məsələ qanımı coşdururdu. Deyilənə görə, düşmən gələndə bəzi qardaşlar əllərini qaldırıb təslim olmuşdular... Bir münafiq qız təkbaşına bir taqımı əsir tutmuşdu, amma onların arasından bir nəfər də müqavimət göstərməmiş, atəş açmamışdı. Bunları eşidəndə və müharibə boyunca dişləri, dırnaqları ilə hər qarış torpağı qoruyan, bəzən silah çatmadığına görə qətliam olunan qəhrəmanları xatırlayanda ürəyim od tutub yanırdı.[2]

---

[1] Kompasları diviziyaya təhvil verdik. Onlar onillərlə diviziyamızın ehtiyacını aradan qaldıra bilərdi.

[2] Uşaqların çoxu bu halda idilər. Əgər Seyyidüş-şühəda diviziyasının təchizat bölməsinin uşaqları Çaharzəbərdə münafiqlərin önünü kəsməsəydilər, görəsən, onlar haraya qədər

Əbuzər qarnizonunun yanındakı kiçik təpələrə çatanda yolun üstündə bir tank gördüm. Yolun hər iki tərəfi münafiqlərin tankları ilə dolu idi və yolu bağlamaq istəyirdilər.

Biz dayananda arxamızdakı bütün maşınlar dayandı. İçərilərində minomyotçular olan bir taqım kolondan ayrılıb irəli keçdi və bir neçə dəqiqədən sonra ilk raketlə tankların biri yanmağa başladı. Döyüş başladı. Ya tezliklə bütün tanklar yanacaqdı, ya da təslim olacaqdılar. Çünki yol göz işlədikcə canlı qüvvə ilə dolu idi və bir neçə tank onların önünü kəsə bilməzdi.

Həmin dəqiqələrdə rabitə əlaqəsi zamanı qardaş Əmin bizim ölkənin cənubuna qayıtmağımızı istədi. Beləliklə, Əbuzər qarnizonunun yanından qayıtdıq, lakin Mirsad əməliyyatının tam qələbə çalacağına əmin idik. Biz qayıdırdıq, canlı qüvvə seli isə irəliləyirdi.

Get-gedə yol boşalırdı. Ordunun düşərgəsinin yaxınlığına çatanda qarşıdan gələn və münafiqlərin partizan maşınlarına çox oxşayan bir hərbi avtomobil gördük. Seyid Zəfərançı maşını yolun kənarında saxladı.

– Gedin, görün nədir.

Bunu mən dedim, amma heç kəs getmədi. Fikirləşdik ki, yollarını azmış bir neçə münafiqdir və qaçmaq istəyirlər. Bizdən təxminən 50 metr aralıda idi. Uşaqların birinin silahını alıb maşına tərəf qaçdım. Əlirza Səfiəqdəm də maşından enib arxamca qaçdı. Yol çəkərkən qazılıb yığılmış torpaq təpəsindən aşıb maşına çatdım. Maşının içində iki Bəsic üzvünü gördüm. Haradansa münafiqlərin maşınını tapmış və yolda sürmək həvəsinə düşmüşdülər. Onlar getdilər, biz də öz maşınımıza minib yola düşdük. Tezliklə İslamabad üçyoluna çatdıq, Qız körpüsü və Əndiməşk yolu ilə irəlilədik. Avtobanda bizdən başqa heç kim yox idi. Qorxulu vəziyyət idi, münafiq dəstələri ilə də üzləşə bilərdik. Lakin Dezfula çatana qədər heç bir qeyri-adi hadisə baş vermədi. Dezful hərbçilərlə dolu idi.

– Mehdi Bakirinin yeri görünür. Beytülmalla alınmış bir plastik stəkana görə narahat olurdu, orada isə bu qədər silah-sursat tökülüb qalıb.

Düşmən hücum edəndə müdafiəçi qüvvələr geri çəkilmişdilər. Dezful hərbi maşın və texnika ilə dolu idi.

Hətta bir şey yemək üçün də yolda dayanmadan Əhvaza doğru hərəkət etdik. Bizə nəqliyyat qərargahına getmək əmr olunmuşdu. Orada komandirlər üçün bir yer hazırlamışdılar. Bizə dedilər ki, gedin, orada gözləyin.

Kərim Hörməti və digər uşaqlar bizdən öncə oraya çatmışdılar. Yavaş-yavaş batalyonlar da gəldi. Dezfuldakı Şəhid Bakiri qarnizonu yenidən batalyonları qəbul etməyə başladı; İmam Hüseyn (ə) batalyonu, Həbib batalyonu və s.

---

irəliləməyə cəsarət edəcəkdilər. Bir Bəsic birləşməsi Çaharzəbərdə münafiqləri saxladı və digər qüvvələr gələndən sonra oradan Mirsad əməliyyatı başlandı.

Orada deyildi ki, düşmənlərin irəliləməyə başladığı son günlərdə Əhvazda canlı qüvvə yox imiş. Əhvazın cümə imamı ağa Cəzairinin çıxışından sonra şəhərin Bəsic üzvlərinin bir qismi toplaşıb Karunun o tərəfindəki hüseyniyyə üçyoluna getmişdilər. Onlar Xürrəmşəhrin yaxınlığındakı Hüseyniyyə üçyoluna qədər irəliləyib düşmənlə vuruşmuşdular. Düşmən böyük itki verəndən sonra cəld geri çəkilmişdi. Yəni bəzilərinin xəyanəti qarşısında zəhmətkeş xalq qeyrət və iradə nümayiş etdirmişdi. Bəsic və Sepahla çiyin-çiyinə yüzminlərlə xalq qüvvəsinin iştirakı düşmənin ürəyinə vahimə salmışdı. Əgər onlara düşmən torpağında irəliləmək icazəsi verilsəydi, Bağdada qədər gedərdilər. Düşmən iki ay öncədən cəbhədəki yeni zəfərlərinə görə haray-həşir salmışdı ki, İranın 8 ildə aldığı əraziləri biz iki ayda geri qaytardıq. Bizsə həmin bölgələri bir gündə azad etmişdik.

III

Kuşk bölgəsini Aşura diviziyasının müdafiə mövqeyi təyin etmişdilər. Əhvazda mövqeyi təhvil aldığımıza görə xəritələr çəkdik və hətta briqada rəhbərləri ilə bölgəyə getdik. Su hər yeri basmış, səngərlər xarabalığa çevrilmişdi. Sanki uzun müddət idi orada heç kim olmamışdı. Diviziyanın bölgəyə gedən ilk müdafiə qrupu Əmirəlmöminin (ə) batalyonu oldu, bir müddətdən sonra Bəqiyyətullah batalyonu da ona qoşuldu.

Kəşfiyyat bölüyü Əhvazda nəqliyyat qərargahına yerləşdi. Bir gün diviziyanın əməliyyat komandiri Mustafa Mövləvini gördüm. O, dedi: "Ağa Xamenei bir müddətdir cəbhədə vəziyyəti öyrənməyə gəlib. Bizim diviziyamıza da baş çəkmək istəyir. Bəlkə də diviziyada uşaqların hazırlığı yoxdur. Biz Şəhid Bakiri qarnizonuna gedib diviziyanı hazırlaşdırmaq istəyirik. İstəyirsənsə, sən də gəl".

Dərhal qəbul etdim. Birlikdə toyotaya minib Müqəddəm qərargahına getdik. Orada ağa Mustafaya dedilər ki, ağa gedib. Oradan Dezfula yola düşdük. Dezful şəhərinin kənarında, Şəhid Bakiri qarnizonunun yolunda yerləşən Şəhidlər gülzarı məzarlığına çatanda ağa Mustafa məzarlığın önündəki maşınları göstərib dedi: "Deyəsən, onlardır".

Maşından enib məzarlığa girdik. Ora Aşura diviziyasının bütün uşaqlarına tanış idi. Biz Şəhid Bakiri qarnizonuna gedəndə hər bir fürsətdə oranı ziyarət edirdik. Təxminimiz düz idi. Ağa Xamenei və onunla gəlmiş heyət şəhidlərin məzarını ziyarət edirdilər. Ağa Mustafa ona yaxınlaşdı. Mən kənarda dayanıb fikrə getmişdim: Ağa Mehdi kəşfiyyat uşaqlarından cənub bölgəsində diviziyaya qarnizon tikmək üçün bəzi xüsusiyyətləri olan bir yer tapmalarını istəmiş, lakin səylər nəticəsiz qalmışdı. Nəhayət, bir dəfə uşaqlar Dezfulda şəhidlərin ziyarətinə gəlmiş, onlardan dua etmələrini istəmişdilər. Şəhidlər gülzarı məzarlığından çıxandan sonra 6-7 km. kənarda çaya yaxın bir yerdə geniş lalələk gözlərini tutmuşdu. Ağa Mehdi də baxan kimi bəyənmişdi.

Qarnizonun layihəsini özü hazırladı, amma iş bitməmiş şəhid oldu və qarnizona onun adı verildi...

– Gedək.

Ağa Mustafa məni səsləyirdi. Fikirləşirdim ki, prezidentimizi görə bilərəm, amma mühafizəçilər yaxınlaşmağa icazə vermədilər. Karvanla birgə qarnizona getdik və ağa diviziyanın namazxanasında dəstəmaz aldı. Yaxşı fürsət yaranmışdı, bütün uşaqlar onu yaxından və heç bir maneə olmadan görürdülər. Həmin gün şam və işa namazlarını Ayətullah Xameneiyə iqtida etdik. Batalyonların məsul şəxsləri ağa ilə birgə şam yeməyinə dəvət olunmuşdular. Ağanın səmimiliyi çox xoşuma gəldi. O, bir müddət idi cəbhələrə baş çəkirdi. Təsadüfən, namazxananın televizoru açıq idi və Xəbərlər proqramında onun cəbhələrdən görüntüsü yayımlanırdı. Ağa narahat olub dedi: "Lütfən televizoru söndürün". Təvazökar idi və elə rəftar edirdi ki, sanki uzun müddətdir bütün döyüşçüləri tanıyır. Bu, səmimi baxışından da bəlli idi.

Bütün bu müddətdə elə yerdə oturmuşdum ki, ayağımı uzadanda diqqət cəlb eləməsin. Lakin Sadiq Kamali tez-tez mənə söz atırdı: "Ayağını yığışdır, ayıbdır, adam ağanın yanında ayağını uzatmaz..."

Həmin axşam ağanın təklifi ilə əzadarlıq məclisi keçirildi. Hacı Sadiq Kamalinin məddahlığı ilə həmin hüseyniyyədə kiçik bir məclis oldu. Qarnizonun böyük hüseyniyyəsində də mərasim nəzərdə tutuldu. Qərara alındı ki, batalyonların hər biri əza heyətləri ilə böyük hüseyniyyəyə gəlsinlər. Hacı Sadiq Kamali də orada idi və məqsəd bütün batalyonların əməkdaşlığı idi. Hər batalyon özünəməxsus üsulla hüseyniyyəyə gəldi: biri təbillə, biri sinə vura-vura; ərdəbillilər bir cür, marağalılar bir cür, təbrizlilər də Şah Hüseyn dəstəsi ilə. Hüseyniyyəni elə toz basmışdı ki, gəl görəsən. Çox izdiham vardı. Həmin axşam Aşura diviziyasının uşaqları ağanın yanında əzadarlıq etdilər, amma çoxlarının yeri boş idi: mənəvi paklıqları əzadarlıqları zinətləndirən döyüşçülərin, mənəvi halları hamını ruhani aləmə aparan mərsiyəxanların, Hacı Rza Daruiyanın,[1] Əyyub Rzayinin, Məhəmməd Məhəmmədpurun, Əbdülvahid Məhəmmədinin, Məhəmmədrza Basirin və s.

Əzadarlığın sonunda ağa müharibənin vəziyyəti və o şəraitdə vəzifələr haqda çıxış etdi. Mərasimin sonunda ağa Xamenei diviziyanın uşaqları ilə görüşdü.

[1] Nəhayət, o da haqq yolunda didərginliyinin muzdunu alıb müharibənin son günlərində Şələmçədə öz məşuquna qovuşdu və Rəhmət vadisi məzarlığında qədim dostu Şəhid Əhəd Müqiminin yanında torpağa tapşırıldı.

Hicrət

I

Xüsusi bir işimiz olmadığına görə bir neçə gündən sonra Təbrizin Şəhid Qazi qarnizonuna qayıtdıq. Səbrim həqiqətən, tükənmişdi. Təzəlikcə beşinci bölgənin kəşfiyyat komandiri təyin olunmuş qardaş Fəthi məni çağırıb dedi: "Səni qardaş Ələddinin yaratdığı briqadaya kəşfiyyat komandiri göndərirəm. Onunla danışmışıq, bu gündən gedə bilərsən".

Ələddinin yaratdığı briqadanın adı Neynəva idi. Şəhid Təcəllayi qarnizonunda dördmərtəbəli bir bina vardı. Onun ikinci mərtəbəsinin iki otağını Neynəva briqadasına vermişdilər. Soraqlaşıb qardaş Ələddini tapdım. Orada oturduq və vəziyyəti izah etdi. Dedikləri maraqlı idi: "Yaratdığımız briqadaya bir kəşfiyyat komandası lazımdır. Bunun məsuliyyəti sizin üzərinizə düşür. Sizdən İslam Respublikasının bütün nöqtələrinə dair planlarınızın olmasını gözləyirik..."

Ələddinin nəzərdə tutduğu layihə çox ideal olsa da, məncə, bu tezliyə həyata keçən deyildi. Qərara gəldik ki, ertəsi gün birlikdə briqadanın Şəbüstərin yaxınlığında yerləşən qarnizonuna gedək.

Orada məni qarnizon rəisinə təqdim edib çadır və digər imkanlar yaratmasını əmr etdi. Çadır qurmaq üçün bizə yer də göstərdilər. Qardaş Ələddinlə qarnizonda gəzərkən hansı bölüyə gedirdiksə, şəxsi heyət bayırda sıraya düzülüb hələ o zamanlar Sepahda adət olmayan nizam-intizamla və hərbi salamla qardaş Ələddini qarşılayırdılar. Təəccüblə öz-özümə düşünürdüm ki, bu Ələddinin necə fikirləri var.

Ertəsi gün Şəhid Qazi qarnizonuna gedib iki-üç nəfəri Neynəva briqadasının kəşfiyyatında mənimlə çalışmaq üçün ayırdım. Briqadanın kəşfiyyat komandirinə xidmət edəcək toyota ilə Şəbüstərdəki qarnizona getdik. Qarnizon rəisi təchizat bölməsinə məktub yazıb bizə bir çadır və hər adama iki ədyal verilməsini bildirmişdi.

Çadırı almaq üçün təchizat anbarına getdim, amma anbar bomboş idi. Sonda bizə bir çadır və bir neçə ədyal verildi. Təyin olunmuş yerdə milləri basdırdıq, çadırı açanda isə yalnız millərin yarısına qədər gəldi. Millərlə çadır bir-birinə uyğun deyildi.

Fikirləşdim ki, yaxşısı budur Şəhid Təcəllayi qarnizonuna qayıdım. Toyotanın sürücüsü çox qanunpərəst adam idi. Ona deyilmişdi ki, haraya getmək istəsəm, məni aparsın. O da həmişə maşında oturub mənim qayıtmağımı və haraya getməli olduğumuzu söyləməmi gözləyirdi. Mən iki gün Şəhid Təcəllayi qarnizonunda qaldım, sürücüm həmin iki günün əksərini maşının içərisində keçirdi. Yalnız yeməyə, namaza və tualetə getmək üçün maşından enirdi. Axırda ona dedim: "Qardaş, sən burada qalma, qayıt briqadaya, mən daha ora gəlməyəcəyəm".

O getdi, mən də Kərim Fəthinin yanına yollandım.

– Mənə Neynəva briqadasının kəşfiyyat komandirliyindən başqa bir iş tapılmadı?!

Həmin günlərdə diviziyanın kəşfiyyat uşaqları Şərqi Azərbaycan korpusunun kəşfiyyatçıları ilə birləşmişdilər və qərargahları Təbrizin Bağşimal xiyabanında idi. Fikirləşdim ki, harada olsam, kəşfiyyatda qalmaqdan yaxşıdır. Çünki bir gün də cəbhədə vuruşmamış, indi isə şəhidlərin qisasçısı olmuş adamlara dözmək çox ağır idi.

Hələ də cəbhənin ətrini duyacağımı düşündüyüm yeganə yer İmam Mehdi (ə) briqadası idi. Qardaş Fəthidən göndəriş vərəqəmi alıb yubanmadan qatara mindim və özümü Dezfulun Şəhid Bakiri qarnizonuna çatdırdım. Briqada orada yerləşirdi. Bütün yol müharibə bitəndən bir neçə ay sonra sanki əfsanəyə bənzəyəcək qədər uzaqda qalmış günləri xatırladırdı.

Şəhid Bakiri qarnizonuna çatıb ağa Seyid Fatiminin yanına getdim. İki-üç gün onların otağında qalandan sonra ağa Seyid dedi: "Yaxşı olar ki, briqadanın əməliyyat bölməsində işləyəsən".

Ağa Sövdagər briqadanın əməliyyat komandiri idi və mən son illərdə onunla çox ünsiyyətdə olmuşdum. Onların otağına gedib əşyalarımı ağa Məhəmmədin yanına qoydum. Həbib Azərniya və Cəfər Daruiyan da orada idilər. Mən dördüncü adam idim, amma bir neçə gün ərzində onların ikisi də cəbhədən getdilər və ağa Sövdagərlə mən qaldım. Həmişə get-gəl etdiyimiz toyota bizim evimizə çevrilmişdi.

Batalyonların genişləndirilməsi işi davam edirdi və biz get-gedə öz gözlərimizlə dəyərlərin zəiflədiyini görürdük. Keçmişdə sadə döyüşçülər hörmətlə və çoxlu israrla batalyon komandirlərinin qablarını yuyurdularsa, get-gedə batalyona xadimlər gəldilər və komandirlərin qablarını yumaq onların vəzifə borcu oldu. Hətta get-gedə rəftarlar da dəyişir, cəbhələrdə hamıya zövq verən təvazökarlıq, hörmət və sevgi yavaş-yavaş yaddan çıxırdı.

Kuşk cəbhəsində İmam Hüseyn (ə) və Həbib batalyonlarının Bəqiyyətullah və Əmirəlmöminin (ə) batalyonları ilə dəyişdirilməsi əmri verildi. Batalyonlar bir-birini əvəzlədilər və xüsusi bir hadisə baş vermədi. Səbrim tükənmişdi. Daha orada qalmaq istəmirdim. Amma hara gedəydim? Şəhərə? 8 il uzaq qalandan sonra o şəhərdə məhəlləmizdən başqa bir yeri tanımırdım.

***

Qətnamə qəbul olunsa və atəşkəs elan olunsa da, o müddətdə düşmən tərəfi bir dəfə Kuşk bölgəsindən irəliləmiş və bizim qüvvələrimiz oranı yenidən azad etmişdilər. Müdafiə xətti qarışıq idi və ağa Sövdagərlə onu bərpa etmək qərarına gəlmişdik. Briqada komandiri olaraq ağa Seyid də bu məqama ciddi yanaşırdı, orada daimi və möhkəm bir işin görülməsini istəyirdi.

Bölgənin müdafiəsi, səngər və istehkamların quruluşu üçün bir layihə hazırlandı, ağa Sövdagərin səyi və ağa Seyidin dəstəyi ilə işə başlandı. İmam Hüseyn (ə) və Həbib batalyonlarının orada müdafiə işini gördükləri 45 gün

ərzində vəziyyət 180 dərəcə fərqlənmişdi. Öncəki səngərlər təmir olundu və bənddə digər səngərlər qazıldı. Tankların yerləşməsi üçün çox təmiz, hündür və səliqəli torpaq depolar quruldu.

Bu müddətdə uşaqlar əzadarlıq mərasimləri də keçirirdilər, amma müharibə bitəndən sonra Bəsic üzvləri get-gedə azalır, şəhərlərinə qayıdırdılar.

Düşmən hərdən atəşkəsi pozmağa çalışırdı. Bir gün ağa Məhəmmədlə birgə müdafiə xəttinə gedəndə o qədər güclü atəşə məruz qaldıq ki, maşının üstünə bir raket düşəcəyini düşündük. Bu güclü atəş bizi çıxış yolu haqda düşünməyə vadar etdi.

– Heç eybi yox! Atəşin cavabı yalnız atəşdir!

Bütün silahlarla və xətdə olan üç top və raketlə düşməni güclü atəşə tutduq ki, qarşılarındakı qüvvələrin zəif olduğunu düşünməsinlər. Təxminimiz doğru çıxdı: ondan sonra bir də belə bir hadisə təkrarlanmadı.

Belə hallarda ağa Sövdagərin məntiqli qərarları səmərəli olurdu. Nəhayət, həmin müdafiə mövqeyini elə bir həddə çatdırdıq ki, bütün istiqamətdə məşhur oldu. Sağ və sol bölgələrin müdafiə mövqeləri əsla müdafiə mövqeyinə oxşamırdı; səliqəsiz idi, düz-əməlli yolları da yox idi. Elə şəraitdə bizim səliqəli səngərlərimizin və möhkəm yollarımızın tərifləmməsi təbii idi. Müdafiə xəttini yenicə bərpa edib qurtarmışdıq ki, Qaim briqadası ilə yerimizi dəyişmək əmr olundu. O briqadanın komandirləri bölgəyə gəldilər, birgə iclas keçirdik və həmin gün axşam xətti təhvil verib Dezfuldakı Şəhid Bakiri qarnizonuna qayıtdıq.

II

Beləliklə, cənub bölgəsindəki vəzifəmiz sona çatdı. Uşaqların hamısı getmişdi, yalnız briqada komandirliyi, əməliyyat və kəşfiyyat qüvvələri qalmışdılar. Biz də əşyalarımızı toplamaqla məşğul idik.

Əşyalarımızı hazırlayandan sonra ağa Seyidin yanına getdik. Təklif etdi ki, şam yeməyini Dezfulda yeyək. O, xəbərlərə xüsusi həssaslıqla yanaşırdı. Radionu açdı və biz İmam Xomeyninin (r) xəstəxanaya yerləşdirildiyini eşitdik. Hizbullahçı ümmətdən imamın sağalması üçün dua etmələri istənirdi. Biz imamın rahatsız olduğunu öncədən eşitmişdik, amma xəstəliyinin güclənəcəyini düşünmürdük.

Daha heç nəyə hövsələmiz yox idi, hətta xörək də yemədik. Nə danışır, nə də bir iş görürdük. O anda radionun hər dəfə imamdan danışan diktorunun səsindən başqa bir şey önəmli deyildi. Təbrizə qayıda-qayıda Allaha yalvarırdıq ki, növbəti xəbər ümidverici olsun.

Təbrizə çatdıq. Gecə şəhərdə qaldıq və ertəsi gün axşam Rəhmanlıya yola düşdük. Briqada da Rəhmanlıda yerləşmişdi. Orada əməliyyat bölməsinin düz-əməlli qərargahı yox idi və biz ağa Seyidin otağında qalırdıq. Haraya gedirdiksə, hamı narahat halda imamdan danışırdı. Qərara gəldim ki, bir

müddətə evə gedim. Ağa Sövdagərdən ongünlük məzuniyyət alıb evə yollandım.

Günüm məsciddə, dua mərasimində, ya da televizorun önündə keçirdi. İmamı göstərirdilər; xəstəxanada çarpayıda namaz qılır, Quran oxuyurdu. Cümə günü ağa Rəfsəncani Tehranın cümə namazı xütbələrində demişdi: "İmam tövsiyə edib ki, xalqımız Allahın məni qəbul etməsi üçün dua etsin, lakin biz dua edirik ki, Allah imamı bizdən almasın".

Bu cümlə məni çox darıxdırdı. Hərdən Rəhmət vadisi məzarlığına gedir, uşaqların məzar daşlarının yanında oturub imam üçün dua etmələrini istəyirdim. Həkimlərin bütün açıqlamalarını izləyirdim, amma ürəyimdə qəribə həyəcan vardı.

Ayətullah Şəhidi məscidində idim və qərarsızlıqdan təngə gəlmişdim; nə otura, nə yata, nə də fikirləşə bilirdim. Gecə saat iki idi, get-gedə narahatlığım artırdı. Diviziyanın kəşfiyyat bölüyünə zəng vurdum. Bilirdim ki, həmin gecə mənim kimi çoxlarının yuxusu ərşə çəkilib. Mənsur İzzəti kəşfiyyat komandiri olmuşdu və mən onu telefona çağırdım. Ağa Mənsur, çox narahatam, imamdan xəbər var?

– Ağa Mehdi, bizə hazırol komandası veriblər, amma xüsusi bir xəbər yoxdur. Siz dua edin.

Ürəyim üzüldü. Deməli, bütün bu həyəcanlar səbəbsiz deyilmiş. Yəni imamın halı pisləşib? Zehnimdə bundan dərinə gedə bilmirdim. Atamı xatırlayırdım. Xəstələnəndə cəbhədən qayıdıb yanında oturmuşdum, vəfat edəndə şəhərdə idim. Narahat idim, amma nə qədər?! Nə üçün nə qədər fikirləşirəmsə, bu halıma oxşar hal tapa bilmirəm?!..

Sübh azanına qədər yatağımda o qədər oyan-buyana çevrildim, oturdum, ayağa qalxdım, gəzişdim... Sübh çağı çox yorğun idim. Sübh namazını məsciddə qıldım. Dua etməyə dilim gəlmirdi. Ürəyim dolu idi. Fikirləşdim ki, bəlkə evə getsəm, halım dəyişər. Hava qəribə şəkildə ağır idi. Saat yeddinin yarısında evə çatıb dərhal radionu açdım. Quran səsi evə yayıldı. Təəccübləndim: Səhərin bu vaxtı Quran?!

Sözlər, fikirlər vücudumu sıxırdı, amma imamın başına bir iş gəldiyini düşünməyə cəsarət etmirdim. Öz-özümə deyirdim: “Məgər bu, mümkündür?! Bizim yalnız imamımız var. Məgər Allah onu bizdən alar?!”

– Nə üçün Quran yayımlanır? Nə olub, bala? Sənin xəbərin yoxdur, Mehdi?

Anam da narahat idi. Onun və digər ailə üzvlərimizin sualları məni daha da üzürdü. Kaş heç kim bir söz deməsin, bir söz soruşmasın, bir cavab verməsin. Zamanın da məni ələ saldığını hiss edirdim. Əqrəblər irəliyə yox, geri gedirdi. Həyatın heç bir zamanında, hətta narahatlıq və müsibət zamanlarında da gündəlik işlərini tərk etməyən yeganə adam anam idi. Süfrəni sərdi. Stəkanlardan buxar çıxırdı. Səhərin ilk xəbər proqramının zəngləri eşidildi.

– Səhər saat yeddi, bura Tehrandır...

Boğazım qurumuş, sanki qəlbim dayanmışdı. Səs titrəyə-titrəyə deyirdi: "Bismillahir-Rəhmanir-Rəhim. İnna lillah və inna iləyhi raciun![1] Allah ruhu[2] ruhani aləmə qovuşdu!"

Ağlamağa başladım. Sanki özümdə deyildim, ixtiyarım əlimdə deyildi. Anam qorxmuşdu. Hərdən səsini eşidirdim. Məni sakitləşdirməyə çalışır, başıma bir iş gələcəyindən qorxurdu.

– Yox... Daha başıma iş gəlməkdən keçib. İlahi! Məni aparmayıb saxladın ki, bu günü görüm?!..

Yarım saat danışıb ağladım. Mənim üçün dünyanın sonu gəlmişdi... Artıq nəfəsim gəlmirdi. Evdən bayıra çıxdım.

– Mən Sepaha gedirəm.

Şəhər dəyişilmişdi. Yavaş-yavaş qapı və divarlardan üçkünc qara bayraqlar asıldı. Yetimlik hissi acı idi, xüsusən təsəlli verməyə heç kim olmayanda. Yadıma düşdü ki, bu şəraitdə münafiqlərin fəallığı arta bilər və bizim mütləq iş başında olmamız lazımdır. Aşura diviziyasının əsas qüvvələri Rəhmanlıda, Zəncanda və Ərdəbildə yerləşmişdi. Sepahın şəhərdə ciddi hərbi qüvvəsi yox idi. Orada hamı qızarmış yaşlı gözlərlə heç nə danışmadan oyan-buyana qaçır, tapşırıqları yerinə yetirirdilər. Hər tərəfdən mərsiyə səsi gəlirdi. Təqvim 04.06.1989 tarixini göstərirdi. Aşura idi. Şəhidlərin müsibəti təzələnmişdi.

Hava qaralana qədər Sepahda qaldım, gecəni də orada yatdım. Şəhərdən xüsusi bir məlumat gəlmədi. Ertəsi gün səhər briqadaya hansı tapşırığın verildiyini öyrənmək üçün oraya getdim. Qardaş Seyid Fatimini televizorun önündə tapdım. Mən də yanında oturdum. Xalqın imamla vidalaşmasını canlı göstərirdilər. Axşama qədər namaz və yeməkdən başqa bir iş üçün televizordan ayrılmadıq. Qəribə hal idi. Uşaqların çoxu Tehrana getmişdi. Bizim kimi qalanların əli ancaq televizora çatırdı. Həmin günlərdə bəlkə də cəbhələrdə 8 il ərzində ağladığımız qədər ağladıq.

Sanki İran yetim qalmışdı. Hərə öz dili ilə ürəyini açır, növhə deyirdi. Sepah və Bəsic uşaqları daha böyük matəm içində idilər. İmam dəfn olundu və biz onun təsvir etdiyi yolla baş-başa qaldıq...

[1] "Biz Allahınıq və Ona qayıdacağıq!" (Bəqərə, 156)

[2] İmam Xomeyninin adı olan "Ruhullah" sözü Allah ruhu deməkdir.

Ruhani aləm

I

İmamın vəfatı münasibətilə matəm tədbirləri davam etdiyi halda Bəsic - ümumi səfərbərlik elan olundu. Adlar yazılandan sonra bizim briqadamıza təxminən üç Bəsic batalyonu verdilər, üstəlik, İmam Hüseyn (ə) və Həbib batalyonları da təkmilləşdi.

Dərhal briqadaya tapşırıq verildi. Biz bir müddət öncədən Aşura diviziyasına verilmiş və o günə qədər Neynəva briqadasının yerləşdiyi Banə bölgəsinə getməli idik. Ümumi briqadadan öncə ağa Sövdagərlə Banəyə getdik və Neynəva briqadasının uşaqları bizi bölgə ilə tanış etdilər. Bizim müdafiə zonamız Gilas çayı ilə Xəcək zastavası arasındakı ərazi idi. Bu istiqamətin komandiri ağa Sövdagər idi. Mən də onun yanında idim.

İmam Hüseyn (ə) batalyonu Neynəva briqadasını əvəzlədi. Kuşk kimi orada da zastava, post, səngər və yollar çox pis vəziyyətdə idi. Səngər və postlarda qalmaq mümkün deyildi. Oradakı hərbi birləşmələr bölgə üzərində heç bir iş görməmişdilər. Sərsulda yeraltı səngərləri olan baza vardı. Səngərin içində kəskin rütubət qoxusundan dayanmaq olmurdu. Bəzi səngərlər uçmuşdu. Oranın acınacaqlı vəziyyəti adamı narahat edirdi, yollar da kələ-kötür və təhlükəli idi. Anlaya bilmirdik ki, nə üçün bunlar barədə bir ölçü götürməyiblər. Ağa Sövdagər və ağa Seyidlə iclas keçirib qərara gəldik ki, əsaslı bir layihə olaraq bütün postlar təmizlənsin və sanballı bir müdafiə işi görülsün. Qərara gəldik ki, oraya panellər gətirilsin və qədim xarabalıqların üzərində paneldən otaqlar tikək. Yolların təmiri, meydanların, tikanlı məftillərin səliqəyə salınması və digər işlər də proqrama daxil edildi. Xüsusən də minalanmış sahə barədə ciddi ölçü götürdük. Bu sahə çoxlu tələfatlara səbəb olurdu, onun təhlükəsi hörgütlərin təhlükəsindən böyük idi.

Bölgə ilə tanış olmağa gedəndə dedilər ki, axşamüstü saat beşdən sonra bayıra çıxmağa haqqınız yoxdur. Sanki sözləşmişdilər ki, dövlət qüvvələri və Sepah hərbçiləri yalnız saat beşə qədər bayırda ola bilərlər. Saat beşdən sonra bölgə inqilab düşmənlərinin əlinə keçirdi. Kürdüstanın ümumi vəziyyəti belə idi və bu hal Məhəmməd Sövdagərlə məni çox narahat edirdi.

Ortaq fikrimiz bu idi ki, bu vəziyyət çox pisdir və nəyin bahasına olursa-olsun, 24 saatlıq fəaliyyət üçün bir şey fikirləşməliyik. Gördüyümüz ilk iş diviziyadan D9 buldozeri almaq oldu. Çox başağrıdan və oyan-buyana qaçandan sonra nəhayət, buldozeri alıb yolları düzəltdik. Yollarda işlərin bəhrəsini görən yerli əhali get-gedə bizə yaxınlaşmağa başladı. Bizim onlara kömək etmək istədiyimizi hiss etdilər və bu işə yardım etməyə başladılar.

Zəli kəndi bizim postumuz olsa da, yolu yox idi. Orada bir ekskavator və özüboşaldan maşınımız vardı. Özüboşaldan maşın xarab idi, istifadəsiz qalmışdı. Biz ekskavatoru götürüb Zəli kəndinə yol çəkməyə başladıq. Yağıntı

fəsillərində palçıqdan oraya gedib-gəlmək olmurdu. Bəzən həftələrlə kəndlərin yolu bağlanırdı. Biz əvvəlindən axırına qədər bütün yola çınqıl tökdük və sonra hər bir şəraitdə gediş-gəliş mümkün oldu.

Yerli əhali bütün bu dəyişikliklərin səbəbkarı olan ağa Sövdagəri çox sevirdi. Onlarla söhbət zamanı dəfələrlə ağa Məhəmmədin adını hörmətlə çəkdiklərini və hətta canına and içdiklərini eşitmişdim. Kəndlərin birində 70 yaşlı bir qarı yaşayırdı. Kiçik tarlasında ona kömək edəcək heç kimi yox idi. Bilmirəm bizdən öncə tarlasını kim suvarırmış, amma biz gedəndən sonra qardaş Sövdagərin əlinə bel götürüb onun tarlasına arx açdığını dəfələrlə görmüşəm. Yerli kürdlərə yardımlarda səmimiliyi və sevgisi onların bizə inanmalarına səbəb olmuşdu. Onlar hərdən bizimlə dərdləşib deyirdilər ki, sizdən öncəkilər bizimlə münasibət qurmurdular, hər şeyi dollarla hesablayırdılar, siz isə bizə kömək edirsiniz.

Bütün müdafiə xəttində vəziyyət dəyişdi. Postları uçurub paneldən otaqlar tikdik. Bir neçə həftə işləyəndən sonra minalanmış sahələri səliqəyə saldıq. Bölgədə elə sistem yaratdıq ki, inqilab düşmənlərinin oraya gəldiklərini hiss edəndə ratsiyadan bir əmrlə hətta cığırları və hərəkət imkanı olan hər bir yeri cəld bağlaya bilirdik. Bir neçə dəfə manevr keçirib qüdrətimizi sübuta yetirdik və ondan sonra terrorçular başlarını qaldırmağa cəsarət etmədilər. Onların xüsusi həssaslıq göstərdikləri bir neçə yerdə həmişə pusqumuz olurdu. İki-üç dəfə orada manevr keçirdik, öncədən danışdığımız bütün raket və artilleriya bir anda bölgəni atəşə tutdu. Bu, Kürdüstanın ömründə ilk belə hərəkət idi. Bölgədə elə planlar işlədik ki, sona qədər davam edəcəyinə şübhəmiz qalmadı.

***

1989-cu ilin sonları idi və mən bir müddət idi bir xəstəliyə tutulduğumu hiss edirdim. Gecə-gündüz ağa Sövdagərlə birgə işləyirdik və get-gedə özümdə çox zəiflik hiss edirdim; qızdırmam qalxır, çox tərləyirdim. İmam Hüseyn (ə) batalyonunun orada son günləri idi, Həbib batalyonu mövqeyi təhvil almağa gəlmişdi. Həbib batalyonu oraya yerləşəndə qışın ilk güclü qarı yağdı. O günlərdə halım bir az yaxşılaşmışdı. Batalyon gələndən sonra ağa Sövdagər briqada rəhbərliyi tərəfindən şəhərə çağırıldı və istiqamətin məsuliyyəti mənim üzərimə düşdü. Təxminən 10 gün orada qaldım. Nəhayət, xəstəliyim ağırlaşdı və geri qayıtdım. Qızdırma bütün bədənimi yandırırdı. Özüm bunun yaraların təsirindən olduğunu hiss edirdim, amma həkimlər bir söz deyə bilmirdilər.

Bir qədər yaxşılaşandan sonra yenidən Banəyə getdim, amma bu dəfə yalnız 15 gün davam gətirə bildim. Ağrı və qızdırmadan bəzən huşumu itirir, bir iş görə bilmirdim. Yenidən şəhərə qayıtdım. Sepahda papaq və poqondan söhbət gedirdi, amma mən gizli dərdimin fikrində idim. Bir həkimdən o birinə gedir, ağrı çəkir və əriyirdim. Nəhayət, məni doktor Müntəzirinin yanına apardılar. O, sinəmdə güclü iltihab diaqnozu qoydu. Dərhal xəstəxanada yatızdırdılar və 25 gün ərzində üç dəfə əməliyyat olundum.

Qəlpə, iltihab, ağrı və qızdırma ilə müharibə rəsmən başlanmışdı. Hərdən halım yaxşılaşırdı və bir neçə aydan sonra yenidən xəstəxanaya yerləşdirirdilər. Hər dəfə xəstəlik bir formaya düşür və ağrı bir cür həzz verirdi. Yaram hər dəfə açılanda cəbhənin mənəvi günləri yadıma düşürdü. Müharibə dövrünün dostları məni görməyə gəlirdilər. Onların yanında özümü yaxşı hiss edirdim. Qanlı səhnələrdən onlarla çoxlu xatirələrimiz vardı.

II

1991-ci ildə Fars körfəzi müharibəsində məğlubiyyətindən sonra İraq dövləti təxminən bütün sərhəd zastavalarını boşaltmışdı. O zaman şəhidlərimizin düşmənlə sərhəd bölgələrdə qalmış cəsədlərini gətirmək haqda düşündük və bu barədə məsul şəxslərə təklif irəli sürdük.

Məğlubiyyətdən sonra İraq hərbçiləri İraq Kürdüstanını boşaltmışdılar. Bu baxımdan, fikirləşdik ki, yaxşı olar axtarışlara oradan və Mavut dağlarından başlayaq. Fəcr qərargahı ilə danışıb Banəyə getdik. Əhəd Baharlı, Fərəc Quluzadə, Əmir Xirədmənd və digər bir neçə nəfərlə birgə Mavut bölgəsində işə başladıq. Demokratların və hörgütlərin fəallaşdığı, münafiqlərin də yavaş-yavaş baş qaldırdığı bir şəraitdə Əhəd Baharlı və Fərəc Quluzadə ilə axşama qədər axtarış aparırdıq. Bizim nəzərdə tutduğumuz bölgələr Ulaqlı, Qamış və Girdərəş idi. Şəhidlərimizin əksəri Ulaqlıda qalmışdı. Biz onların şəhid olduqları yerləri ya özümüz görmüş, ya da hadisə şahidlərinin dilindən eşitmişdik.

Bir gün Əmir Xirədmənd, Fərəc Quluzadə, Xəlil Əlinejad və mən bölgəyə getdik. Adət üzrə kürd paltarı geyindik ki, yerli əhalidən seçilməyək. Xoşbəxtlikdən, həmin gün uşaqlardan ondan çoxunun cəsədini tapdıq. Şəhid Mehdi Salikin cəsədi də onların arasında idi. Uşaqların cəsədlərini maşının arxasına qoyub üstlərini örtdük və yola düşdük. Balusə körpüsünə çatanda maşın qəribə səs çıxarıb söndü. Nə etdiksə, işə düşmədi. Məcbur olub itələyə-itələyə körpüdən keçdik. Hava qaraldıqca narahatlığımız və qorxumuz da çoxalırdı.

Nə özümüz piyada gedə bilirdik, nə də maşın düzəlirdi. Dağa qaranlıq çökəndə yolda bir maşın göründü. Bizi görüb saxladılar. Yerli kürdlərdən idilər. Dayanma səbəbimizi biləndə maşınımızı düzəltməyə çalışdılar, amma bacarmadılar. Mən uşaqları keşik üçün yavaşca ətrafa göndərəndə kürd kişi duydu və ehtiyatlandığımızı hiss edib dedi: "Biz sizin başınıza bir iş gəlməsinə imkan vermərik. Bizim cəsədlərimizin üstündən keçmədən heç kim sizə toxuna bilməz. İranlılar bizə çox kömək ediblər. Siz müharibədə bizim dadımıza çatdınız..."

Kürd kişinin sözləri dostluq müjdəsi verirdi. Onların dəvətini qəbul etməkdən başqa yolumuz yox idi. Yaşadıqları çadırlara getdik. Gecə ikən bir mexanik gətirib maşını təmir etdirdilər, amma gecə vaxtı getmək qorxulu idi və biz tanımadığımız o kişinin evində qalmaq təhlükəsini üstün tutduq. Çadıra

girib oturanda kişi mənim uzatdığım ayağıma baxdı. Heç nə soruşmadı. Arvad-uşaqları da orada yemək hazırlayırdılar. Bişirə bildikləri ən yaxşı xörəyi süfrəyə qoydular. Kişi tez-tez iranlı döyüşçülərin yaxşılıqlarından və körfəz müharibəsi zamanı onlara köməklərindən danışırdı. Yoldaşı içəri girəndə əlində iki şəkil vardı. Oğlu Bəəs rejimi ilə döyüşdə, qardaşı da müharibə zamanı İran döyüşçülərinə qoşulub şəhid olmuşdu. Şəkilləri mənə göstərdi. Alıb ruhlarına fatihə oxudum. Onlar da hakim rejimlərinin qurbanı olmuş yüzlərlə, minlərlə dağlı iraq ailələrindən biri idi. Biz çadıra girəndən onların qohumlarından bir-iki nəfər də oraya gəlmişdi. Onların biri tələbə idi, özünü Əbu Bəkr kimi təqdim edirdi. O, deyirdi: "Mən burada Birləşmiş Millətlər Təşkilatının tərcüməçisiyəm. Sabah onlar gələndə sizi də onlara göstərəcəyəm".

– Allah bizim dadımıza çatsın!

Uşaqların biri dodaqaltı bunu dedi. Vəziyyət elə idi ki, onlara həm inanırdıq, həm inanmırdıq. Gec idi, yatmaq vaxtı çatmışdı. Əmir dedi: "Əgər gecə vaxtı biri gəlib başımızı kəssə, necə?! Bəlkə elə onlar özləri bunu edəcəklər".

– Yəni deyirsən nə edək?

– Keşikçi qoyaq.

– Keşikçi olmaz, bilərlər.

– Bəlkə silahlarımızı başımızın altına qoyub yataq.

Nə fikirləşdiksə, gördük ki, onların qonaqpərvərliyinin qarşısında inamsızlığımızı göstərməyimiz düzgün deyil. Son qərar bu oldu ki, yerimizdə oyaq qalıb ehtiyatımızı görək. İlk iki saat mənim oyaq vaxtım idi, sonra ağa Fərəcin, sonra da Əmir Xirədməndin. Yatdıq. Macəra dolu bir gün yaşamışdıq, çox yorğun idim. Uşaqları tapmağın sevinci və onları ailələrinə verəndə necə sevinəcəklərini təsəvvür etmək mənə fərəh verirdi...

– Mehdiqulu, iki saat bitdi. Ağa Fərəci oyat, onun növbəsidir.

Əmirin səsinə yuxudan oyandım. Mənim iki saatım bitmişdi, özüm isə yuxuda olmuşdum. Əmirə bir söz demədən ağa Fərəcin çiyninə vurdum. O, ağır yuxuda idi.

– Fərəc, qalx, sənin növbəndir.

Ağa Fərəc gözlərini açıb yumdu.

Yenidən Əmirin səsinə oyandım: "Ağa Fərəc, yata bilərsən, mənim növbəmdir".

Ağa Fərəcə tərəf çevrildim. Heç tərpənmədi də. Beləliklə, Əmir Xirədmənd bütün altı saatı oyaq qaldı və sübh namazına duranda gecə heç bir problem olmamış kimi razılıq edirdi.

Günəş çıxanda ev sahibi ilə sağollaşıb bölgəni tərk etdik.

***

Axtarış işi daha ciddi şəkildə davam edirdi. Bəzən xəstəliyə görə şəhərə qayıdıb əməliyyat olunur, axtarış xəbəri gələn kimi bölgəyə qayıdırdım. Oraların yeri-göyü mənə dünyanın hər yerindən tanış idi.

Bir həftə Mavutda İraq kürdlərinin yanında qaldıq. Gündüzlər şəhidləri tapmağa və pak cəsədlərinin qalanını toplamağa gedir, hava qaralanda qayıdırdıq.

Oradan qayıdanda özümüzlə 40 şəhidin cəsədini gətirdik. Bir dəfə axtarışda iştirak edən dostların birindən bir xatirə oxudum. Belə yazmışdı: "Yuxuda gördüm ki, təzəlikcə tapdığımız bir şəhidin dəfnindəyik. Hamı orada idi; ailəsi, dostları, camaat və biz. Onun üçün hazırlanmış kiçik məzara çatdıq. Tabutu qəbrin kənarına qoyanda şəhid ayağa qalxıb oturdu, bütün camaatın arasında üzünü bizə tutub dedi: "Elə bilməyin ki, axtarışdan əliboş qayıtdınız. Mən qiyamət günü hər birinizə şəfaət edəcəyəm".

Bu xatirəni oxuyandan ürəyim başqa cür olmuşdu. Hiss edirdim ki, Allah bizə yeni bir qapı açıb ki, gedib orada yenə də Allahı görək... Cəbhəni, əməliyyat gecələrini, şəhadəti, azadlığı, Onu və özümüzü bir daha görək. Hiss edirdim ki, ruhum təmizlənir, yenilənir, köhnə dərdlərim yenidən tumurcuqlanır və bəzi sirlərlə tanış oluram.

Getdiyimiz hər bir bölgədə qarşımızda yeni bir üfüq açılırdı. Müharibədən illər ötürdü, ora isə heç kim gəlməmişdi. O düzlərə küləkdən, işıqdan, yağışdan başqa heç kim qədəm qoymamışdı. Şəhidlər yerdə idilər. Bəzən yanlarında düşmən cəsədləri də olurdu. Şəhidlərimizin silahları yanlarında, çəkmələri ayaqlarında, "Ya Zəhra" lenti də çatlayıb deşilmiş kəllə sümüklərində. İmam köynəklərinin cibindəki şəkildən bizə baxır və baxışı çox şeyi xatırladırdı. İtkin şəhidlərin məclisində həm yazıq olduğunu, həm də quş olmaq qüdrətini hiss edir, onların taleyinin nə üçün itkinlik olduğunu anlayırsan. Onlar uzun şəhərin illər susuzluqdan yanan evlərinə su aparmalı idilər. Şəhidlərin sınmış sümükləri, qanlı köynəkləri və sahibsiz nişanları hələ bataqlıqda boğulmamış insanların qəlbini oyada bilərdi.

Müharibə boyu ən çox heyfsiləndiyim məsələlərdən biri Xeybər əməliyyatında iştirak etməməyim idi. Orada uşaqlar düşmənin mühasirəsində qalmış, hamısı bir-birinin yanında qəribcəsinə can vermişdilər.

1994-cü ilin payızında Xeybər əməliyyatının şəhidlərini axtarmaq üçün Tələiyyəyə yola düşdük. Ərazi geniş idi. Kolon yola düşmüşdü: əvvəlcə kəşfiyyatçı, sonra partladıcı bölükdən döyüşçü, arxasınca taqım komandiri, pulemyotçu, snayper, minomyotçu və digərləri. Kolon yola düşmüş, hamı bir-birinin arxasında qana boyanmışdı. Silahları hələ çiyinlərində və qucaqlarında idi. Vəziyyətlərindən necə güclü atəş altında hərəkət etdiklərini bilmək olurdu. Hər şey elə təbii idi ki, sanki dünən baş vermişdi. Ora heç bir yad adam gəlməmişdi. Su bölgəni və şəhidləri ağuşuna almış, quruyandan sonra aşiq qəhrəmanlara tamaşa etmək, insanın Allah nümayəndəsi olmasının mənasını anlamaq növbəsi günəşə və küləyə çatmışdı.

İrəlilədikcə daha çox xəcalət çəkirdik. Ora uşaqların mühasirəyə düşdüyü yer idi. Hamısının qolu bağlı idi. Telefon kabeli ilə qollarını arxadan bağlamış və sonra yəqin ki güllələmişdilər. Bəsic üzvləri, sizə qurban olum, qolubağlı necə can verdiniz?! Uşaqlar, sizi kim üzüqibləyə çevirdi?! Bu adsız bərəhut çölündə istiqaməti haradan tapdınız?! Necə getdiniz və haraya çatdınız ki, imamı da yanınıza apardınız?! İmam Mehdi (ə) sizin hər birinizi necə qucaqladı və İmam Hüseynə (ə) görüş vədi verdi?! Nə etdiniz ki, Kərbəla yenidən təkrar olundu?!..

Ürəyim dolu idi. Yazırdım və qəlbimin qəm-qüssə yükü məni hədsiz dərəcədə yandırırdı. Bir vaxtlar Aşura diviziyasının Əli Əkbər və İmam Hüseyn (ə) batalyonlarının Həzrət Rəsul diviziyası ilə birləşdiyi yerdə idim. Ratsiya əlimdə idi. Uşaqlar qərargahda ratsiyanın yanında oturmuşdular. Mən danışırdım, onlar ağlayırdılar. Bölgənin vəziyyətini təsvir etməyə çalışırdım. Hava yüngül idi, həzrət Əlinin (ə) itkin gülünün ətri səhraya yayılmışdı...

Sözlər qəlbimdən gəlirdi. Mən özüm deyildim. Mən itkin idim, oradakı vahid ruha qovuşmuşdum. Bu üzdən Allahdan və Allahın Hüseynindən (ə) danışa bilirdim: "Uşaqlar, bura Əli Əkbər və İmam Hüseyn (ə) batalyonlarının Həzrət Rəsul diviziyası ilə birləşdiyi yerdir. Yox! Bura Allah Rəsulunun (s) Hüseyn (ə) və Əkbərlə görüş yeridir. Bura Kərbəladır. Kərbəlanı təsvir edən İmam Səccadın (ə) kəlamını dinləyin: "Bibi, bura Kərbəladır. Həbib orada şəhadətə qovuşdu, o tərəfdə Qasim, bu tərəfdə Əbəlfəzl. Bibi, bura qətlgahdır... Lakin Kərbəla daha sakit deyil. Daha o vadi lal və kar deyil. Ətri yalnız Səkinənin qəlbində deyil, Zülcənahın beynində də tufan qoparır. Uşaqlar, cənab İbadinin[1] səsi hələ də buranın səmasında dolaşır: "İmama deyin ki, biz Əli kimi vuruşduq, Hüseyn kimi şəhid olduq". Əli Zarepur[2] ürəkdən yanıqlı dua edir: "İlahi! İlahi! Səni Mehdinin canına and verirəm! Mehdinin inqilabına qədər Xomeynini saxla!" Burada Əli Asayiş Cavid[3] hər iki ayağı kəsilmiş halda ziyarət və salam qaydalarını öyrədir: "Salam olsun sənə, ey Əbu Abdullah Hüseyn!"

Şəhidlər! İndi mələklər sizə baxır və sizlərə səcdənin mənasını yavaş-yavaş anlayırlar!

[1] İmam Hüseyn (ə) batalyonunun Xeybər əməliyyatında şəhadətə qovuşmuş komandiri

[2] İmam Hüseyn (ə) batalyonunun Favda şəhadətə qovuşmuş döyüşçülərindən biri

[3] O, cəbhələrin mənəviyyatlı məddahı Hacı ağa Asayişin oğlu idi. Kürdüstan dağlarında şəhadətə qovuşanda partladıcı batalyonun azyaşlı döyüşçülərindən idi.